**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

***Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə başlamasının 50 illiyinə ithaf olunur***

**İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Əlizadə Əsgərli,**
**Elnarə Akimova, Aygün Bağırlı, Lalə Həsənova**

# ƏDƏBİYYATDA HEYDƏR ƏLİYEV OBRAZI

## TARİXİ GERÇƏKLİKDƏN İDEALA

## İKİNCİ KİTAB

**"Elm və təhsil"**
**Bakı–2019**

*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 3 iyul 2019-cu il tarixli, 6 saylı iclasının qərarı ilə nəşr olunur.*

Kitab akademik **İsa HƏBİBBƏYLİNİN** ideya müəllifliyi və ümumi redaktəsi ilə hazırlanmışdır.

Rəyçi: **Ərtegin SALAMZADƏ**
AMEA-nın müxbir üzvü

Məsul redaktor: **Tehran ƏLİŞANOĞLU**
AMEA-nın müxbir üzvü

**Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala.** Monoqrafiya. Bakı, “Elm və təhsil”, 2019, 332 səh.

Ədəbiyyatşünaslıq elmində indiyədək görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsindəki rolundan, yaradıcı simalara qayğı göstərməsi kimi məsələlərdən bəhs olunmuşdur. Təqdim edilən monoqrafiyada isə ilk dəfə olaraq Ulu öndərin ədəbiyyatda bədii obrazının yaradılması məsələlərindən söz açılır. Kitabda görkəmli sənətkarların və yeni ədəbi nəsillərin ədəbiyyatın müxtəlif janrlarında bu istiqamətdəki yaradıcılıq axtarışları geniş tədqiq və təhlil olunmuş, elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır.

Monoqrafiyada həmçinin müasir şəraitdə ədəbiyyatda Heydər Əliyev ideallarının yaşadılmasının davam etdirilməsi və bədii obrazın yeni təfəkkür əsasında canlandırılması məsələlərinə də işıq salınır.

# HEYDƏR ƏLİYEV EPOXASI:
# DAHİLİK, ZAMAN VƏ MÜASİRLİK

*(Akademik İsa Həbibbəyli)*

Bəşəriyyət bütün tarixi boyu dahilərin çiyinləri üstündə irəliyə doğru inkişaf etmişdir. Böyük dühalar mənsub olduqları ölkənin gələcək inkişaf yollarını əvvəlcədən görə bilmiş, həmin ali məqsədə çatdırmaq üçün xalqı mübarizəyə səfərbər etməyi bacarmışlar. Uzaqgörənlik, möhkəm siyasi iradə, aydın milli mövqe və dönməz mübarizə əzmi belə tarixi şəxsiyyətlərin əsas xüsusiyyətlərini təşkil edir.

Bu sözləri mənsub olduqları xalqların və ölkələrin tarixində xüsusi xidmətləri olan başqa dövlət xadimləri – Türkiyədə Mustafa Kamal Atatürk, Fransada Şarl De Qol və Fransua Mitteran, Çində Mao Tszedun, Amerikada Corc Vaşinqton və Eyzenhauer, İngiltərədə Vinston Çörçil və başqaları haqqında da demək olar. Dünya tarixinə dərin izlər salmış belə görkəmli şəxsiyyətlər böyük dövlətçilik istedadına malik olan tarixi simalardır.

Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev 14 iyul 1969-cu il tarixdə respublikamızda dövlət rəhbərliyinə başlamışdır. Bu, Azərbaycan Respublikasının taleyində böyük dönüşün və yeni bir epoxanın başlanğıcı olmuşdur. Ulu öndər sovet hakimiyyəti illərində 1969-1982-ci illərdə Azərbaycan Respublikasını keçmiş Sovetlər İttifaqındakı ən axırıncı yerlərdən ən qabaqcıl mövqeyə yüksəltmişdir. Həmin dövrdə ölkədə bütün sahələr: kənd təsərrüfatı, sənaye, nəqliyyat, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənət, səhiyyə, rabitə… böyük sürətlə inkişaf etdirilmiş, Azərbaycanda böyük intibah baş vermişdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində və Siyasi Büronun üzvü kimi çoxcəhətli və səmərəli fəaliyyəti (1982-1986) bu böyük siyasətçini dünya miqyasında bacarıqlı bir rəhbər kimi tanıtmışdır.

Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü (1990-1993-cü illər) çətin və keşməkeşli dövr olmaqla bərabər, həm də Naxçıvanda xilaskarlıq missiyası həyata keçirməsi və dövlət müstəqilliyi uğrunda mübarizə mərhələsi kimi Azərbaycan tarixinə daxil olmuşdur.

Heydər Əliyevin xalqın tələbi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdışı və 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasına rəhbərlik edərək, ölkəni dərin siyasi-iqtisadi böhrandan çıxarması, cəmiyyətin bütün sahələrində geniş islahatlar həyata keçirərək, böyük dönüşə və dirçəlişə nail olması onun xalqı və ölkəsi qarşısındakı tarixi xidmətidir. Sözün əsl mənasında Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müstəqil Azərbaycan ölkəsinin böyük qurucusudur. Uzaqgörən dövlət rəhbəri kimi Heydər Əliyev özündən sonrakı böyük gələcəyin də möhkəm təməllərini yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sınaqlardan çıxmış Heydər Əliyev yolunu müstəqil Azərbaycan dövlətinin strategiyası kimi yüksək qiymətləndirir, bu strateji xətti yeni tarixi dövrün reallıqlarından irəli gələn ideyalarla daim daha da zənginləşdirir, inkişaf etdirərək möhkəmləndirir.

Beləliklə, Azərbaycanda 1969-2003-cü illəri əhatə edən 35 ilə yaxın bir tarixi dövr Heydər Əliyev epoxası dövrüdür. Bu, Azərbaycanda dövlət müstəqilliyi ideyasının yaradılması, inkişaf etdirilməsi, həyata keçirilməsi və möhkəmləndirilməsi epoxasıdır. Bu, milli-mənəvi dəyərlərin, azərbaycançılığın, milli mədəniyyətin, ədəbiyyat və incəsənətin yüksək templərlə inkişaf etdirilməsi epoxasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ildən başlayaraq, Heydər Əliyev epoxasını ardıcıllıqla və yaradıcılıqla inkişaf etdirərək öz erasını yaratmışdır. Yeni tarixi şəraitdə Heydər Əliyev epoxasının yaradıcı davamı və inkişaf etdirilməsindən ibarət olan İlham Əliyev erası bu tarixi epoxanı daim müasirləşdirir, inkişaf etdirir və qətiyyətlə irəli aparır. İlham Əliyev erası – müstəqil Azərbaycan Respublikasının işıqlı bu günü və xoşbəxt gələcəyi deməkdir.

Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən mənsub olduğu xalqın tarixi müqəddəratında həlledici rol oynamış və dünyanın böyük liderlərindən biri kimi şöhrət qazanmışdır. O, hələ sovet hakimiyyəti illərində Azərbaycan xalqının milli mənafelərinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün böyük addımlar atmışdır. Heydər Əliyev sovet dövründə Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldıran görkəmli siyasi xadimdir. Məhz onun xidmətləri sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyində hərtərəfli şəkildə inkişaf et-

miş ölkələrdən birinə çevrilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin qurulması və möhkəmləndirilməsi də üzvi surətdə Heydər Əliyevin adı və mübarizəsi ilə bağlıdır. Bütün bunlara görə Heydər Əliyev Azərbaycan xalqının Ümummilli lideri kimi böyük tarixi adı qazanmışdır.

Heydər Əliyev – Azərbaycan xalqının böyük dövlətçilik istedadına və zəngin təcrübəyə malik olan nadir tarixi şəxsiyyətidir, xalqın və ölkənin taleyində xüsusi rolu olan görkəmli dövlət xadimidir, xilaskarlıq missiyasını həyat keçirmiş qüdrətli şəxsiyyətdir.

Heydər Əliyev – Azərbaycanda dövlət müstəqilliyinin banisidir. Cəmiyyət həyatının bütün sahələrini əhatə etmiş böyük xidmətləri onun adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk etmişdir. Müstəqil dövlətin siyasi prioritetlərinin önə çıxarılması, yeni idarəetmə strukturunun formalaşdırılması, daxili sabitliyin yaradılması, beynəlxalq aləmdə dostlar və tərəfdaşlar tapmaq, iqtisadi sahədə islahatlar həyata keçirmək, dövlət ideologiyasının formalaşdırılması Heydər Əliyevin həll etdiyi ümumdövlət miqyaslı vəzifələrdir. Dövlətçilik baxımından mühüm əhəmiyyətə malik olan həmin vəzifələrin sırasında azərbaycançılıq ideologiyası, ədəbiyyat siyasəti, elm və təhsil konsepsiyası mühüm yer tutur.

***

Ölkəmizdə azərbaycançılığın mətbuatdan və ədəbiyyatdan ictimai-siyasi müstəviyə çıxarılması kimi çətin və şərəfli vəzifənin həlli görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olan tarixi xidmətdir. Yaşadığı dövrün siyasi quruluşunun sərt qadağalarına baxmayaraq, Ümummilli lider Heydər Əliyevin simasında tariximizdə ilk dəfə olaraq Azərbaycan məsələsinə dövlət səviyyəsində kompleks şəkildə yanaşılmış, problemə ardıcıl siyasi münasibət bəslənilmiş və konkret nəticələr əldə olunmuşdur. Azərbaycançılığın dövlət ideologiyası səviyyəsində formalaşdırılması və təsdiq edilməsi Heydər Əliyevin müstəqil dövlətçilik uğrunda mübarizəsinin əsas ana xətlərindən birini təşkil edir. Heydər Əliyev azərbaycançılıq siyasətini özünün çoxcəhətli fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürmüş, bu ideologiyanın xalqın milli şüurunda və dövlətçilik təfəkküründə inkişaf etdirilib möhkəmləndirilməsi işini həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə çevirmiş-

dir. Məhz Heydər Əliyevin çoxcəhətli və ardıcıl siyasəti nəticəsində azərbaycançılıq ictimai-ədəbi mühitdə milli hərəkat, siyasi müstəvidə isə dövlət ideologiyası mahiyyəti qazanmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev çoxillik siyasi fəaliyyətinin bütün dövrlərində azərbaycançılıq məsələsini ən ali məqsəd hesab etmişdir. Tarixin verdiyi şansların, yaratdığı imkanların hamısında bu böyük dövlət xadimi özünü Azərbaycana həsr etmiş, Azərbaycan idealı uğrunda daim dönmədən mübarizə aparmışdır. Azərbaycan SSR-in Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyindəki fəaliyyətini də nəzərə alsaq, Heydər Əliyev qırx ildən artıq böyük bir dövrdə azərbaycançılıq ideyası ilə dövlət işi səviyyəsində məşğul olmuşdur. Sovetlər İttifaqının rəhbərliyi ilə anlaşıqlı münasibətlər qurmağı bacarmış Heydər Əliyevin Azərbaycanı geridə qalmış aqrar respublikadan hərtərəfli inkişaf etmiş bir ölkəyə çevirməsi mühüm tarixi hadisədir. Eyni zamanda, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, konkret olaraq 1978-ci ildə Azərbaycan dilinin ölkəmizin konstitusiyasına dövlət dili kimi daxil etdirməyə nail olması da misilsiz tarixi nailiyyətdir. Sovetlər İttifaqında vahid beynəlmiləlçilik prinsiplərinin həyata keçirildiyi bir zamanda Azərbaycan dilinin rəsmi olaraq dövlət dili kimi qəbul olunması çoxəsrlik dövlətçilik tariximizin nadir hadisəsidir. Bu böyük ümummilli hadisə Azərbaycan Respublikasının gələcək müstəqilliyinin mühüm təminatlarından biri idi.

Azərbaycanda milli birlik və həmrəylik ideyasının uğurla həyata keçirilməsi azərbaycançılıq idealına xidmətin ifadəsidir. Azərbaycan dili kimi Azərbaycan xalqı anlayışının da ölkəmizdə bərqərar olması milli mövqeyin qorunub saxlanılması ilə yanaşı, müstəqil dövlətin daxili sabitliyinin təmin edilməsinə, ölkədə yaşayan xalqlar və etnik qruplar arasında tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir. Dünya azərbaycanlıları anlayışı da Azərbaycanın dövlət siyasətində Heydər Əliyevin adı ilə bağlı olan mühüm xidmətlərdən biridir. Sovet hakimiyyəti illərində mövcud rejimin yaratdığı çətinliklərə baxmayaraq, məhdud şəkildə olsa da, dünya azərbaycanlıları ilə yaradılan əlaqələrin cığırları dövlət müstəqilliyinin ilk illərindən etibarən genişləndirilmiş, yeni əlaqələr yaradılmış, dünya azərbaycanlılarının birliyinə və həmrəyliyinə doğru böyük addımlar atılmışdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən, görkəmli dövlət xadimi Heydər

Əliyevin “31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik günü haqqında” imzaladığı 16 dekabr 1991-ci il tarixli Sərəncam son yüzillikdə dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin varlığını təsdiq edən və onlarla əlaqələrin zəruriliyini dövlət səviyyəsində rəsmiləşdirən, əlaqələrə real təminat verən mühüm qərar kimi xüsusi əhəmiyyətə malikdir.

Ölkəmizdə dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi də möhtəşəm siyasi-tarixi hadisələrdir. Ulu öndərə məxsus “Dünya azərbaycanlılarının bir vətəni var, bu – Azərbaycandır” kəlamı müasir dövrün azərbaycançılıq təliminin siyasi-ideoloji əsasını təşkil edir. Dünya Azərbaycanlılarının Birinci Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tarixi nitqi azərbaycançılıq məfkurəsinin siyasi manifestidir. Heydər Əliyevin azərbaycançılıq təlimi dünya azərbaycanlılarını tarixi vətən və vahid ideologiya ətrafında birləşdirir. Sözün gerçək və obrazlı mənasında Heydər Əliyev dünyada azərbaycançılığın rəmzinə çevrilmişdir.

Heydər Əliyev dövlətçilikdə qeyri-adi müdriklik və uzaqgörənlik istedadına malik olan qüdrətli liderdir. Bu böyük dövlət xadiminin müdriklik və uzaqgörənliyinin hərəkətverici qüvvəsi Vətənə, xalqa, doğma torpağa sonsuz inam və məhəbbətdən, sınaqlardan çıxmış böyük siyasi təcrübədən yoğrulmuşdur. Heydər Əliyev keçdiyi çətin və şərəfli yolla Sovetlər İttifaqında beynəlmiləlçi ideologiyanın sərt dövlətçilik prinsipi kimi qəbul edildiyi dövrlərdə vətənpərvər dövlət xadimi olub, Kremlin zirvəsinə qədər yüksəlməyin mümkünlüyünü isbat etmişdir. Azərbaycanda Sovetlər İttifaqının ən sərt dövrlərində Heydər Əliyevin özünəməxsus bir siyasətlə azərbaycançılıq istiqamətində həyata keçirdiyi böyük tədbirlər gələcək dövlət müstəqilliyinin təməllərinə çevrilmişdir. Bütün bunlara görə, Heydər Əliyev üçün uzaqgörən bir dövlət xadimi olaraq çökmüş sovet ideologiyasından yeni müstəqil dövlətçilik siyasətinə keçmək heç bir çətinlik yarada bilməmişdir. Keçmiş sovet dövlətinin mərkəzdəki və respublikalardakı rəhbərlərinin bir çoxlarının adları dağılmış imperiya ilə birlikdə arxivə getdiyi halda, Heydər Əliyevin portretləri milli azadlıq hərəkatının bayraqları ilə birlikdə meydanlarda yüksəklərə qaldırılırdı. Deməli, Azərbaycanda xalq hərəkatı, milli azadlıq mübarizəsi böyük dövlət xadimi Heydər Əliyevin böyük azərbaycançılıq ideallarından keçib gəlmişdir. Bu mənada Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqillik qazanmış gənc respubli-

kaların demək olar ki, mütləq əksəriyyətinin rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev xüsusi bir "keçid dövrü" yaşamamışdır. Əksinə, Azərbaycan üçün Heydər Əliyev epoxasının birinci mərhələsi sovet sosialist sistemindən müstəqil dövlətçilik erasına keçid dövrü xarakteri daşımışdır. Milli ideologiyanın formalaşdırılması baxımından digər keçmiş sovet respublikalarının müstəqilliyin ilk illərində üzləşdikləri çətinlikləri uzaqgörən dövlət xadimi Heydər Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində Azərbaycan xalqı müstəqil dövlətçiliyi qazanana qədər yaşamışdır. Məhz buna görədir ki, Azərbaycan müstəqillik qazanmış keçmiş sovet respublikaları ilə müqayisədə milli ideologiya baxımından bir mərhələ qabaqdadır.

***

Böyük dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik və azərbaycançılıq təlimində ədəbiyyat və incəsənət faktoru xüsusi yer tutur. Ulu öndər üçün ədəbiyyat və incəsənət azərbaycançılığın, milli şüurun inkişaf etdirilməsinin əsas hərəkətverici qüvvəsi funksiyasını daşımışdır. Heydər Əliyev dövlət rəhbərliyinin bütün mərhələlərində ədəbiyyat və incəsənət məsələlərinə xüsusi əhəmiyyət vermişdir. O, uzaqgörən görkəmli dövlət xadimi kimi həm Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsinə böyük qayğı göstərmiş, həm də bu mühüm sahələri istiqamətləndirmişdir. Heydər Əliyevin aşağıdakı sözləri onun ədəbiyyata dərindən bələd olması ilə yanaşı, həm də cəmiyyətin inkişaf etdirilməsində bu mühüm işə nə qədər dərindən əhəmiyyət verdiyini göstərməkdədir: **"Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır".**[1]

Ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi əhəmiyyət vermişdir. Bu prinsiplər Heydər Əliyevin ədəbiyyat və incəsənət siyasətinin konseptual əsaslarını təşkil etmişdir. Azərbaycan ədəbiyyatının böyük klassiklərinin və görkəmli yaradıcılarının yubileylərinin dövlət səviyyəsində keçiril-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı / "Yazıçılarımız öz sələflərinin işini davam etdirməlidirlər" (Azərbaycan yazıçılarının V qurultayında nitq). Bakı: "Ozan", 1999, s.18

məsi, əsərlərinin nəşri, dünya dillərinə tərcümə olunması, tamaşaya qoyulması geniş mənada milli-mənəvi özünüdərk proseslərinin genişlənməsinə, azərbaycançılıq anlayışının daha da möhkəmləndirilməsinə xidmət etmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi beynəlxalq aləmdə böyük əks-səda doğuran mühüm ədəbi-mədəni hadisə olmuşdur. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibəti ilə görkəmli dövlət xadimi Heydər Əliyevin bəyan etdiyi aşağıdakı sözlər müstəqil Azərbaycan dövlətinin ədəbiyyat və incəsənət siyasətinin əsasını təşkil edir: **"Bu yubileyi keçirərkən biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin ... tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir".**[1]

Görkəmli Azərbaycan yazıçı və şairlərindən Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Süleyman Rəhimova, böyük incəsənət xadimlərindən Qara Qarayev, Müslüm Maqomayev, Rəşid Behbudov, Fikrət Əmirov, Tahir Salahova Sovetlər İttifaqının ən ali mükafatı olan Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi Azərbaycan tarixinin Heydər Əliyev epoxasının parlaq hadisəsidir.

Ulu öndər Heydər Əliyev Azərbaycan bədii mədəniyyətinin, ədəbiyyatının və incəsənətinin qüdrətli bilicisi və vurğunu idi. O, ədəbiyyatı, təsviri sənəti, xalq yaradıcılığını çox sevirdi. Azərbaycanın tanınmış yazıçı və şairləri, rəssamları, heykəltəraşları, memarları, istedadlı xalça ustaları onun ən çox qiymətləndirdiyi sənətkarlar cərgəsində xüsusi yer tuturdu. Bu bağlılıq təsadüfi olmayıb, Ulu öndərin böyük Vətən sevgisinin, azərbaycançı baxışlarının parlaq təzahürü idi. Ulu öndərin görkəmli Azərbaycan yazıçılarından Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Fikrət Qoca, Sabir Rüstəmxanlı və başqalarına göstərdiyi böyük diqqət və

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı / "Füzulinin yubileyini keçirməklə Azərbaycan xalqını dünyaya bir daha tanıtmalıyıq" (Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasında çıxış). Bakı: "Ozan", 1999, s. 203

bir çox hallarda onları xüsusi çətinliklərdən xilas etməsi bu yaradıcı ziyalılara göstərilən ehtiramdan başqa, həm də ölkəmizdə milli şüurun, müstəqillik idealının formalaşdırılmasına, müdafiə olunmasına dəstəyin ifadəsi idi. Böyük dövlət xadiminin Azərbaycan rəssamlarından Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Oqtay Sadıqzadə, heykəltəraşlardan Ömər Eldarov, Tokay Məmmədov, Mirəli Mirqasımov, xalçaçı sənətkarlardan Lətif Kərimov, Kamil Əliyev və başqalarının yaradıcılıq fəaliyyətinə bəslədiyi münasibət tarixi hadisələrə çevrilmişdir. Heydər Əliyevin təsviri sənət əsərləri haqqındakı təcrübəli ustad sənətşünas kimi dəqiq mülahizələri, elmi-nəzəri təhlilləri daim sənət adamlarını heyrətləndirmişdir. Ulu öndər milyonlarla insanın qəlbində yaşadığı kimi, rəssam və heykəltəraşlarımızın da yaddaşında unudulmaz işıqlı izlər qoymuşdur. Ona görə də sənətkarlarımız daim Heydər Əliyev mövzusuna müraciət edir, xüsusi bir sevgi ilə bu dahi insanın kamil obrazını yaradırlar. Azərbaycan incəsənətində Heydər Əliyevin obrazını yaradan sənətkarlardan Tahir Salahov, Ömər Eldarov, Oqtay Sadıqzadə, Kamil Əliyev, Eldar Mikayılzadə, Ülviyyə Həmzəyeva, Natiq Əliyev, Akif Əsgərov, İlham Mirzəyev, Həmzə Sadıqov, Eldar Zeynalov, Məmməd İbrahimov və bir çox başqalarının yaratdıqları möhtəşəm heykəllər və bənzərsiz rəsm əsərləri yaddaşlara yazılmışdır. Bu əsərlərdən hər biri Ulu öndərin bədii obrazını yeni-yeni fərqli təcəssüm formalarında əks etdirir. Bu da çox əhəmiyyətlidir ki, bu gün Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrinin rəssamları və heykəltəraşları da azərbaycançılığın daim canlı, əbədi simvolu olan Heydər Əliyev mövzusuna müraciət edirlər. Hazırda dünyanın bir çox xarici ölkələrində Heydər Əliyevin adını daşıyan parkların, xiyabanların mövcud olduğunu görür, onun əzəmətli heykəlləri ilə qarşılaşırıq. Azərbaycanla yanaşı, qardaş Türkiyədə, eləcə də Rusiya, Ukrayna, Gürcüstan, Rumıniya və digər ölkələrdə böyük azərbaycanlı dövlət xadimi Heydər Əliyevin heykəllərinin ucaldılması xalqımızda milli qürur hissləri doğurur.

Azərbaycan musiqi sənətinin inkişafında da Ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan musiqi mədəniyyətinin böyük yaradıcıları olmuş dünya şöhrətli bəstəkarlar Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov, Niyazi Tağızadə, məşhur müğənnilər Müslüm Maqomayev, Rəşid Behbudov, Lütfiyar İmanov, Şövkət Ələkbərova, Zeynəb Xanlarova və başqalarının sənətinə

yüksək qiymət vermiş, onların əsərlərinin beynəlxalq aləmə çatdırılmasına geniş üfüqlər açmışdır.

Teatr və opera sənətinin yüksək inkişaf mərhələsinə çatdırılmasında da Heydər Əliyevin böyük xidmətləri tarixi hadisə səviyyəsində qiymətləndirilməyə layiqdir. Heydər Əliyev epoxası Azərbaycan incəsənətinin məşhur rejissorlarını və aktyorlarını meydana çıxarmışdır.

***

Azərbaycan elminin inkişaf etdirilməsində də Ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri vardır. Görkəmli dövlət xadimi cəmiyyətin inkişafında elm faktoruna xüsusi əhəmiyyət verdiyi üçün ölkədə elmin inkişaf etdirilməsini həmişə diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə Azərbaycanda Elmlər Akademiyasının fəaliyyəti genişləndirilmiş və ölkəmizin maraqlarına doğru istiqamətləndirilmişdir. Azərbaycan Elmlər Akademiyasında yaradılmış Xüsusi Konstruktor Büroları ölkənin təbii resursları və elm adamlarının səmərələşdirici ideyaları əsasında istehsalat yönlü problemlərin həllinə geniş yol açmışdır. Bu, dövlət mülkiyyətinə və planlı təsərrüfata əsaslanan sosializm cəmiyyətində bazar iqtisadiyyatı əsasında elmi proseslərin formalaşdırılması demək idi. Həmin istiqamətdə həyata keçirilmiş elm-istehsalat prosesləri fundamental və tətbiqi elmin nailiyyətlərinin ölkənin inkişafında özünəməxsus yer tutmasını şərtləndirmişdir.

XX əsrin 70-80-ci illərində Azərbaycanda ən müxtəlif sahələr üzrə böyük elmi məktəblər yaranmışdır. Əvvəlcə ölkə miqyasında ön mövqeyə çəkilən elm xadimləri tədricən məqsədyönlü dövlət siyasəti nəticəsində keçmiş Sovetlər İttifaqı miqyasında qəbul olunan görkəmli alimlər kimi tanıdılmışdır. Onların adı və fəaliyyət dairəsi ilə bağlı olan elm sahələrinin inkişaf etdirilməsi üçün zəruri maddi-texniki baza yaradılmış, siyasi dəstək verilmişdir. Nəticədə görkəmli elm xadimlərinin layiqli yetirmələri və davamçıları yetişmiş, yeni elmi nəsil formalaşdırılmışdır. Bu isə öz növbəsində müxtəlif istiqamətlər üzrə elmi məktəblərin yaranması ilə nəticələnmişdir. Qeyd edilən dövrdə Azərbaycanda yarımkeçiricilər fizikası – selen məktəbi, molekulyar biologiya – fotosintez məktəbi, geologiya – yer elmləri məktəbi, neft kimyası və aşqarlar kimyası, riyaziyyat, nəbatat,

torpaqşünaslıq, kristalloqrafiya məktəbləri yaranıb inkişaf etmişdir. Azərbaycanda şərqşünaslıq, ədəbiyyatşünaslıq, dilçilik-dialektologiya, tarixçi-mətnşünaslıq məktəblərinin yaratdıqları çoxcildlik elmi nəşrlər, ölkə əhəmiyyətli ümummilli problemlərə həsr olunmuş monoqrafiyalar, aktual mövzularda keçirilmiş elmi konfranslar respublikadakı siyasi-ideoloji mühitin daha da qüvvətlənməsinə, milli şüurun dirçəldilməsinə xidmət etmişdir. Ulu öndər Heydər Əliyev görkəmli elm xadimləri Ziya Bünyadovun, Abbas Zamanovun həyatı ilə bağlı ciddi problemləri nəinki aradan qaldırmış, onların hərtərəfli fəaliyyətləri üçün geniş meydan yaratmışdır. Ölkə maraqlarına həsr edilmiş elmi əsərlərin Respublika Dövlət Mükafatına layiq görülməsi, ölkədə beynəlxalq simpoziumların təşkili də respublika miqyasında elmin inkişafına ciddi təkan vermişdir. Nəhayət, ölkə rəhbəri Heydər Əliyevin təqdimatı əsasında 1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının Sovetlər İttifaqının ən mühüm ordenlərindən olan “Xalqlar dostluğu” ordeni ilə təltif olunması aparılan məqsədyönlü dövlət siyasətinin mühüm yekunu idi.

Müstəqillik illərində də Azərbaycan elminin yenidən milli dövlətçilik maraqları əsasında inkişaf etdirilməsi ölkəyə ikinci dəfə rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə üzvi surətdə bağlıdır. Ulu öndərin 21 sentyabr 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında respublika ziyalıları ilə görüşündəki tarixi nitqi geniş mənada elmin, ziyalılığın və akademik qurumların xilas edilməsi ilə əlaqədar səsləndirilmiş tarixi bəyanatdır: **“Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. ...Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. ...Akademiyanın fəaliyyətini tənqid də etmək olar. ...Ancaq ümumən götürdükdə şübhəsiz ki, elmin inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, yüksək qiymətləndirməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. ...Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir.”**[1]

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı / “Ziyalılarla görüşmək həmişə böyük bir bayram təsəvvürü yaradır” (Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüş). Bakı: “Ozan”, 1999, s.190-191

Görkəmli dövlət xadimi Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli Sərəncamı ilə ölkənin baş elmi mərkəzinə - Milli Elmlər Akademiyası statusu verilmiş, həmin yolla bu akademik qurumun fəaliyyətində ölkə və dövlət maraqları üstündə köklənmiş yeni epoxa başlanmışdır.

Müstəqillik illərində, xüsusən 2013-cü ildən akademik Akif Əlizadənin Milli Elmlər Akademiyasının prezidenti seçilməsindən sonra Akademiyada genişmiqyaslı islahatlara start verilmişdir.

***

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir. Beləliklə, müasir zamanda möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur. Ölkəmizin Prezidenti möhtərəm cənab İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.

Artıq hər kəsə yaxşı məlumdur ki, milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması Prezident İlham Əliyev siyasətinin təməl prinsipidir. Dövlət başçısı İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı Azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın hərtərəfli inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Yeni tarixi mərhələdə də Azərbaycançılıq bu böyük və müdrik siyasətin nüvəsini təşkil edir. Ölkəmizin rəhbəri İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, təzə istiqamətlər açan, yol göstərən, bələdçilik funksiyasını həyata keçirən görkəmli dövlət xadimidir. Bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin, qəti və aydın mövqeyinin olması müstəqil dövlətin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi, qətiyyət və geniş elmi dünyagörüşü özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və böyük siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır. Böyük sürətlə ye-

niləşən Bakı şəhəri, xüsusi templə inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr – Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars Dəmir İpək Yolu, hər gün müasirləşən Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə, ardıcıllıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir.

Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni tarixi epoxanın və müasir Azərbaycanın reallıqları ilə daha da zənginləşdirən görkəmli dövlət xadimidir. İlham Əliyev daim inkişafda olan, yeniləşib zənginləşən Heydər Əliyevçi siyasi təlimin, yeni dövlətçilik nəzəriyyəsinin yaradıcısıdır. İlham Əliyev – mövcud dövlətçilik təliminin inkişaf edən yeni epoxa ilə şərtlənən yeni dövrünün lideri səviyyəsində görkəmli təmsilçisidir. İlham Əliyev – Azərbaycanın sınanılmış yolu olan Heydər Əliyev yolunun böyük magistrallardakı qüdrətli sükançısıdır. Prezident İlham Əliyev müasir Azərbaycan tarixində özünün tarixi mərhələsini, İlham Əliyev erasını yaratmışdır. İlham Əliyev erası Azərbaycana böyük tarixi nailiyyətlər qazandırmış, yeniləşməkdə olan Azərbaycanı inkişaf etmiş yeni Azərbaycana çevirmişdir.

Məhz İlham Əliyev yeni dünya düzənində Azərbaycana başucalığı gətirən, ölkəmizin nüfuzunu artıran böyük siyasətçidir. Azərbaycanın yeni tarixi epoxadakı inkişaf etməkdə davam edən müasir həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin konkret əməli nəticəsidir. Bakının az qala, hər gün, hər həftə keçirilən genişmiqyaslı böyük və əhəmiyyətli tədbirlərə layiqincə ev sahibliyi etməsi də Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin real göstəricilərindəndir. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsi, beynəlxalq miqyaslı qərarlara imza atmaq, dünyaya müraciətlə bəyanatlar səsləndirmək haqqı qazanması Prezident İlham Əliyev müdrik siyasətinin təntənəsidir. Böyük uğurla Avropa Oyunları keçirmiş müstəqil Azərbaycan dövlətinin İslam Oyunlarına da bacarıqla ev sahibliyi etməsi ölkəmizin Prezidentinin qlobal siyasi baxışlarının əhəmiyyətli göstəricisidir. Multikulturalizm ilini dünyaya əks-səda salan mühüm tədbirlərlə və real nəticələrlə başa vuran Azərbaycan Respublikasının 2017-ci ildə bəyan edilmiş İslam Həmrəyliyi ilinin düşünülmüş addımlarını atması dövlətimizin uzaqgörən siyasətinin reallıqlarının parlaq ifadəsidir. Bütün bunlar Prezident İlham Əliye-

vin müasir dövrün görkəmli liderlərindən biri olduğunu əyani şəkildə təsdiq edir və azərbaycançılıq ideallarının sabahına daha inamla baxmağa tam əsas verir.

Hazırda ölkəmizdə cəmiyyət həyatının bütün sahələri kimi, ədəbiyyat və incəsənət işi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə inkişaf etdirilir. Azərbaycan elmi, ədəbiyyatı və incəsənəti böyük dövlət qayğısı ilə əhatə olunmuşdur. Ədəbiyyatda, incəsənətdə və elmi istiqamətdə azərbaycançılıq idealının daha da dərinləşdirilməsi, milli-mənəvi dəyərlərin aparıcı mövqe qazanması və bəşəri ideyalar mövqeyindən işıqlandırılması yeni dövrdəki inkişafın xarakterini müəyyən edir.

Milli Elmlər Akademiyasında beynəlxalq əlaqələrin genişlənməsi, Yüksək Texnologiyalar Parkının yaradılıb inkişaf etdirilməsi, elmdə innovasiya və sahibkarlığın özünəməxsus yer tutması, yeni elmi-tədqiqat institutlarının fəaliyyətə başlaması, gəncliyə elmdə açılmış geniş meydan Azərbaycan elminin İlham Əliyev dövrünün mühüm reallıqlarıdır. Eyni zamanda Azərbaycan incəsənətinin dünya miqyasına çıxarılması və milli sənətin inkişafına xüsusi diqqət yetirilməsi sənətin ayrı-ayrı sahələri üzrə keçirilən müsabiqələrdə gənc istedadların üzə çıxarılması, yazıçıların əsərlərinin dünya dillərinə tərcümə edilərək, xarici ölkələrdə çap edilməsi və Azərbaycan mövzusunun xüsusi önəm daşıması müstəqillik dövrünün yeni epoxasının konkret bəhrələridir.

Azərbaycançılıq ideyaları müstəqil Azərbaycan dövlətinin siyasi-ideoloji istiqamətinin ana xətti, elm, ədəbiyyat və incəsənət isə bu ideallarын əsas hərəkətverici qüvvəsidir.

Prezident İlham Əliyev Azərbaycan Respublikasını qətiyyətlə və yaradıcılıqla irəli aparan qüdrətli dövlət xadimi kimi çoxcəhətli yorulmaz fəaliyyəti ilə ölkəmizin sabahına gur işıq salır.

Müstəqil Azərbaycan dövləti milli-mənəvi dəyərlərlə bəşəri idealların vəhdəti işığında daha böyük gələcəyə doğru inamla yol gedir.

Heydər Əliyev epoxası – İlham Əliyev erası davam edir, yaşayır və qalib gəlir.

## İLHAM ƏLİYEV ERASI

*(Akademik İsa Həbibbəyli)*

Müstəqil Azərbaycan dövləti artıq ölkəmizdə uğurla sınaqlardan çıxmış Prezident Respublikası üsuli-idarəsinin işığında həm daxili, həm də xarici siyasətdə möhtəşəm uğurlara imza atmışdır. Dövlət müstəqilliyinin açdığı böyük demokratik imkanlar əsasında Azərbaycan respublikasının seçdiyi Prezident idarəçiliyi sistemi xalqımızı və ölkəmizi böyük və hərtərəfli inkişaf mərhələsinə çatdırmış, çoxəsrlik tariximizdə yeni tarixi epoxanın formalaşması ilə nəticələnmişdir. Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin möhkəm əsaslarını, etibarlı bünövrəsini yaratdığı Prezident üsuli-idarəsi müstəqillik dövrünün ən məqsədyönlü dövlət idarəçiliyi forması kimi artıq ölkəmizin timsalında özünü təsdiq etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə ölkəmizi yeni epoxanın işığında hərtərəfli şəkildə irəliyə doğru inkişaf etdirməyin nümunəsini göstərməkdə davam edir. Artıq hər kəsə yaxşı bəllidir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyada XXI əsrin meydana çıxardığı yeni siyasi liderlərin və dövlət başçılarının ən görkəmlisidir.

Sözün həqiqi mənasında, görkəmli dövlət xadimi kimi ölkəyə rəhbərlik etməyin şərəfini də, məsuliyyətini də özünün gündəlik əməli fəaliyyətində uğurla birləşdirən İlham Əliyev həm də müstəqil Azərbaycan dövlətini istənilən mötəbər məqamda böyük ləyaqətlə təmsil etmək vəzifəsini yüksək səviyyədə gerçəkləşdirir. Bunun nəticəsidir ki, Azərbaycan Respublikasında köklü, davamlı dövlətçilik ənənələrinin qorunub saxlanılması şərtilə dövlət strukturu böyük sürətlə inkişaf etdirilərək dünya standartlarına uyğunlaşdırılır, dövlətin idarə olunmasının ən müasir forma və metodları uğurla tətbiq olunur. Ölkəmizdə demokratik cəmiyyətin, bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin bərqərar olması proseslərinə ciddi fikir verilir. İqtisadiyyatda özəl sektorun üstünlük qazanması, neft gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin siyasətinin əsasında dayanır. Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması, ən yeni texnologiyaların meydanının genişləndirilməsi də möhtərəm Prezidentin önə çəkdiyi zəruri sahələrdəndir. Ölkə başçısının səyləri ilə Azərbaycan Respublikası-

nın paytaxtı Bakı şəhəri böyük körpülər, abad yollar və çoxsaylı göydələnlər şəhərinə çevrilmişdir. Bu gün Azərbaycan Şərqlə Qərb arasında nəinki möhkəm və etibarlı bir körpü, həm də möhtəşəm bir zirvədir.

Artıq üçüncü mərhələsi uğurla həyata keçirilən Azərbaycan regionlarının inkişafı üzrə Dövlət Proqramı ölkəmizin inkişafında mühüm hadisəyə çevrilmişdir. Hazırda Azərbaycanın regionlarında aşkar görünən hərtərəfli intibahın, sürətli canlanmanın, müasir həyatın bərqərar olması ideyasının memarı və müəllifi respublikamızın Prezidenti İlham Əliyevdir. Bir sözlə, qısa müddətdə, sözün əsl mənasında, möhtəşəm addımlarla irəliləyən müstəqil Azərbaycan dövlətinin böyük tərəqqisində İlham Əliyevin prezidentlik fəaliyyətinin xüsusi payı vardır.

Bu gün İlham Əliyev artıq geniş mənada dünyada qəbul olunmuş görkəmli siyasi liderdir. Dünya təcrübəsindən görünür ki, bir çox dövlət başçıları yalnız ölkəyə ümumi rəhbərlik vəzifəsini yerinə yetirməklə kifayətlənməli olurlar. Onların bir çoxunun ampluası praktik rəhbərlikdən başqa daha heç nəyi əhatə edə, yaxud əks etdirə bilmir. Prezident İlham Əliyev isə bacarıqlı, mükəmməl, qurucu dövlət xadimi olmaqla bir sırada, həm də geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara malik olan mükəmməl siyasi xadimdir. O, mövcud siyasi reallıqları inkişafda olan ictimai proseslərlə böyük məharətlə uzlaşdırmağı bacarır. Siyasi gerçəklikləri dərindən, ətraflı və sistemli şəkildə dəyərləndirəndə də, yaxın və uzaq gələcəkdən söz açanda da nikbin və realist görünür.

Gerçəklik, müdriklik, dərin analitik düşüncə, nikbin, aydın və yetkin məntiqi təfəkkür onun siyasi portretinin təməl prinsipləridir. Boş vədlərdən, süni populizmdən, keçici görüntüdən uzaq olmaq İlham Əliyevin xarakteridir. O, özünün siyasi rakursunda da həyatidir, realdır, gerçəkçidir. Dünya ictimaiyyəti də, Azərbaycan xalqı da artıq çoxdandır ki, Prezident İlham Əliyevi böyük siyasətçi, yaxud siyasi idarəetməni həyati proseslərlə bütün incəliklərinə qədər uzlaşdırmaq vəzifələrini məharətlə gerçəkləşdirən kamil siyasi xadim kimi qəbul edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kamil bir siyasətçi kimi Cənubi Qafqaz və ya ümumiyyətlə, Qafqaz müstəvisində yanaşma mövcud siyasi reallığı qətiyyən ifadə etmir. Fikrimcə, görkəmli yeni siyasi lider kimi İlham Əliyev səviyyə etibarilə

postsovet məkanının sədlərini və miqyasını da çoxdan aşmışdır. Hələ Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinə başçılıq edəndə yeni təfəkkür sahibi kimi parlaq çıxışlar edib, bəyanatlar verdiyi illərdə o, Avropa evi səviyyəsində düşünmək, mesajlar vermək potensialına malik bir siyasətçi kimi dərk olunmuşdu. Prezident kimi İlham Əliyevin siyasi-ideoloji postulatı artıq böyük dövlətlərin rəhbərlərinin, yaxud çoxillik təcrübəyə malik siyasi xadimlərin səviyyəsi ilə bir sırada dayanır.

İlham Əliyev böyük siyasətdə milli təfəkkürlə bəşəri düşüncəni üzvi surətdə birləşdirən, real gerçəkliklə qlobal baxışları uzlaşdıran görkəmli siyasi liderdir. Buna görədir ki, İlham Əliyevin siyasi baxışları dərin nəzəri səviyyəsi, aydın məntiqi, fəlsəfi çəkisi və praqmatik xarakteri ilə səciyyələnir. Möhtərəm Prezidentin müxtəlif məqamlardakı nitqləri zamanı müdrikliklə ifadə etdiyi yetkin siyasi tezislər dərinmənalı aforizmlər kimi səslənir. Böyük siyasətdə aforizm səviyyəsində düşünmək və özünü ifadə etmək yalnız və yalnız ən təcrübəli, uzun yol keçmiş, çox səviyyəli, böyük məktəblər yaratmış siyasətçilərə nəsib ola bilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsl siyasətçiyə məxsus olan belə uca məqamı fəth etmək vəzifəsinin öhdəsindən hələ cavan yaşlarında ikən bacarıqla gəlmişdir. İlham Əliyevin siyasi aforizmlərinin böyük siyasətin ibrətamiz dərsləri səviyyəsində təqdim olunması onun yetkin, kamil siyasətçi obrazını dolğun şəkildə müəyyən edir.

Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ana xətlərini azərbaycançılıq məfkurəsi, millətlərarası münaqişələrin həlli, yeni neft strategiyası, enerji təhlükəsizliyi, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, multikulturalizm və tolerantlıq fəlsəfəsi, iqtisadiyyatın şaxələndirilmiş inkişafı, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi və sair kimi aktual, xüsusi çəkiyə malik məsələlər təşkil edir. Bu məsələlərin hər birinin şərhində və təqdimində İlham Əliyev ustad siyasətçi və böyük dövlət xadimi olaraq yüksək professionallıq nümayiş etdirir. Milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması İlham Əliyev siyasətinin təməl prinsipidir. Prezident İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal siyasətdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini, ana xəttini təşkil edir. Məhz dövlət rəhbəri kimi İlham

Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində hərtərəfli şəkildə inkişaf edən Azərbaycan Respublikası sözün əsl mənasında dünya brendinə çevrilmişdir.

Görkəmli dövlət xadimi kimi Prezident İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini, irəliyə doğru inkişafın üfüqlərini aydın görən, siyasi müstəvidə yeni istiqamətlər açan, yol göstərən görkəmli dövlət xadimidir. Bacarıqlı dövlət başçısında uzaqgörən yüksək siyasətçi düşüncəsinin və mühüm idarəetmə məharətinin olması dövlətin normal inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi və əsl vətənpərvərliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır. Böyük və professional bir siyasətçinin dövlət başçısı kimi uğurlu fəaliyyəti təkcə ölkənin və xalqın deyil, böyük siyasətin də xeyrinədir. Çünki kamil, yetkin, lokal mənada da, qlobal səviyyədə də faydalı, gərəkli olan böyük siyasət özünüifadə, yaxud özünütəsdiq baxımından real platsdarm, münasib meydan tapa bilməyəndə bəzən mücərrəd, utopik, yaxud havadan asılı olan nəzəri-ideoloji təlim olaraq qalır. Ancaq böyük siyasətçi üçün siyasi fəaliyyət dövlətçilik işinin üzvi tərkib hissəsinə, əsasına, daşıyıcısına, hərəkətverici qüvvəsinə çevriləndə daim yeniləşir, təkmilləşir, aşkarlanır, zənginləşir və inkişaf edir. Prezident İlham Əliyevin siyasəti də həm Azərbaycan məkanında, həm də beynəlxalq müstəvidə konkret məsələlərin, aktual problemlərin həllinə istiqamətləndirilmiş aşkar siyasi fəaliyyət kimi mütəmadi olaraq yeniləşir və zənginləşir. Ölkə başçımızın qəti siyasi mövqeyi onun ölkəni irəli aparmaq, cəmiyyəti inkişaf etdirmək yollarındakı siyasi iradəsinin real təzahürüdür. Bu mənada 16 il ərzində inkişafda olan müstəqil Azərbaycanda əldə olunan möhtəşəm nailiyyətlər və beynəlxalq miqyasda ölkə ilə əlaqədar aparılan düşünülmüş, məqsədyönlü və ardıcıl iş, əldə olunan zəngin təcrübə tükənməz ideya mənbəyi kimi, İlham Əliyev siyasətinin aktuallığını və müasirliyini təmin edir. Beləliklə, dövlət də, Prezidentin siyasəti də ölkəmizlə birlikdə, xalqımızla həmahəng şəkildə daimi inkişafdadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər

Əliyevin milli dövlətçilik təliminin, sınaqlardan çıxmış siyasi kursunun layiqli davamçısıdır.

Heydər Əliyev siyasi kursu – Azərbaycan dövlətinin ümummilli inkişaf strategiyasının nəzəri-ideoloji əsasını təşkil edir.

Heydər Əliyev təlimi – ölkəmizin və xalqımızın dirçəliş və tərəqqi yolunun kompasıdır.

Heydər Əliyev fəlsəfəsi – Azərbaycan idealının özünütəsdiqinin dialektikasından ibarətdir.

Heydər Əliyev yolu – Azərbaycan dövlətinin və xalqının əbədiyyət yoludur.

Böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunu dərin fəlsəfəsi ilə, görünən, bilinən və görünməyən cəhətləri ilə birlikdə mənimsəyib özündə cəmləşdirməkdə, yaradıcı şəkildə inkişaf etdirib uğurla həyata keçirməkdə Prezident İlham Əliyevlə müqayisə edilə biləcək ikinci bir siyasi şəxsiyyət göstərmək nəinki çətindir, bəlkə də mümkün deyildir.

Ən müxtəlif məqamlarda Heydər Əliyevin çoxcəhətli fəaliyyətini yaxından izləmək, yaşantılarını dərindən duymaq, siyasi gedişlərinin, necə deyərlər, alt yapısının mahiyyətini incəliklərinə qədər öyrənmək baxımından bu böyük şöhrətə malik olan mötəbər ailənin üzvü kimi İlham Əliyevin imkanları hamıdan - hətta Ulu öndərin ən yaxın məsləkdaşlarından da təbii surətdə çox olmuşdur. Həm keçmiş sovet rejimi mərhələsində, həm də müstəqillik dövründə İlham Əliyev həmişə görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətinin yaxın əhatəsində olan bir şəxsiyyət kimi mühüm dövlətçilik məktəbi keçmişdir. Böyük siyasi xadim Heydər Əliyevin zamanında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda mükəmməl təhsil alması, Kreml mühitində cərəyan edən daxili proseslərdən xəbərdar olması, sonralar Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Respublika Olimpiya Komitəsinin Prezidenti, millət vəkili, Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin rəhbəri, nəhayət, Baş nazir kimi məsul vəzifələrdə şərəfli və məsuliyyətli yol keçməsi, mükəmməl həyat təcrübəsi və zəngin siyasi təcrübə qazanması, Avropa dillərində sərbəst və sərrast danışmaq imkanlarına malik olması əvəzedilməz üstünlüklər və nailiyyətlərdir.

Müşahidələr göstərir ki, İlham Əliyev görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik və böyük siyasət akademiyası-

nı, necə deyərlər, fərqlənmə diplomu ilə bitirərək onu daha da inkişaf etdirməyin mümkünlüyünü isbat etmişdir. Həyat təsdiqlədi ki, İlham Əliyev Ümummilli lider Heydər Əliyevdən sonrakı dövrdə mükəmməl dövlətçilik təlimini bacarıqla və yaradıcılıqla inkişaf etdirməkdə də hamıdan fərqlənir. Əvvəla, o, Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, yaradıcılıqla, ardıcıllıqla müasirlik işığında həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və yaxşı mənada qibtə olunacaq əsl istedada malikdir.

Azərbaycan xalqı Prezident İlham Əliyevin simasında ilk növbədə əsl, həqiqi, geniş dünyagörüşə, sağlam və aydın məntiqi təfəkkürə malik Heydər Əliyevçini görür və onun hər bir addımını yüksək dəyərləndirir. Qazanılmış ümumxalq rəğbəti, seçilmiş və isbat olunmuş siyasi kursun ardıcıllıqla, qətiyyətlə davam etdirilməsi özündən əvvəlki on illik ərzində qazanılan nailiyyətlərin daha da artırılması və yeni layihələrin meydana çıxması müəyyən olunmuş istiqamətlərin, başlanmış mühüm işlərin, hazırlanmış böyük layihələrin uğurla icra edilməsi deməkdir. Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə dəyişən və inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr - Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, hər gün gözəlləşən və müasirləşən Azərbaycan cəmiyyəti Heydər Əliyev siyasi kursunun uğurla, yaradıcılıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir. Zəfərlərlə dolu olan 16 ildə ardıcıl neft-qaz və nəqliyyat-logistika siyasətinin uğurla həyata keçirilməsi ölkəmizin inkişafında mühüm rol oynamışdır. “Əsrin müqaviləsi”nin uğurlu davamı və yeni inkişaf mərhələsi olan Cənub Qaz Dəhlizinin və Türkiyədə TANAP layihəsinin rəsmi açılışlarının keçirilməsi, bu layihələri Avropa ölkələrinə qədər uzadan TAP layihəsinin uğurla irəliləməsi 16 il ərzində Azərbaycanı dünyanın ən zəngin və əlverişli enerji mərkəzlərindən biri səviyyəsinə çatdırmışdır. Prezident İlham Əliyevin yeni neft-qaz imkanlarımızla əlaqədar aşağıdakı fikirləri bu mühüm sektorun müasir inkişafının ölkəmizin həyatındakı yerini və rolunu aydın surətdə təsəvvür etməyə imkan verir: “Cənub qaz dəhlizinin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq. Biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq. Ondan sonra bunu nəzərə alaraq, biz o ölkə-

lərdə yeni infrastruktur layihələri icra edə bilərik. Bu, səmərəliliyi, gəlirimizi daha da artıracaqdır”.[1]

Dünyanın nadir Dəmir İpək Yolu kimi qəbul edilən Bakı-Tbilisi-Qars dəmir yolu 16 ilin nəhəng layihələrindən biri kimi tarixə düşmüşdür. Bu, Azərbaycanı Avropa və Asiya bazarları ilə bağlayan və ölkəmizin inkişafı üçün yeni üfüqlər açan nadir iqtisadi layihədir. Bakı ətrafında analoqu olmayan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması Dəmir İpək Yolu ilə yanaşı, digər beynəlxalq nəqliyyat qovşaqlarının da müasir imkanlarına və perspektiv inkişafına inamla baxmağa əsas verir. Xəzər dənizində ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ölkəmizin müəllifi olduğu “Şərq-Qərb Nəqliyyat Dəhlizi” və “Şərq-Qərb Nəqliyyat Dəhlizi”nin uğurlu və səmərəli fəaliyyətini təmin edə biləcək əlverişli infrastruktur layihəsi kimi, Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcəkdir. Artıq bugünkü səviyyədə Nəqliyyat Dəhlizlərində aparılan işlər hələ tam başa çatmamış, Azərbaycandan keçən yükdaşımaların həcminin yüz dəfədən çox artması aparılan böyük işlərin sabahına daha nikbin baxmağa əsas verir. Məhz bütün bunlar Prezident İlham Əliyevin timsalında çətin sınaqlardan çıxmış inanılmış siyasi kursun ardıcıllıqla və qətiyyətlə davam etdirilməsinin nələrə qadir olduğunun, ölkəmizi hansı səviyyəyə gətirib çatdıra biləcəyinin gerçək təzahürləridir. Bu mənada möhtərəm Prezidentimiz, Heydər Əliyev dövlətçilik təlimini yeni tarixi era olan İlham Əliyevçilik səviyyəsinə qaldırmışdır.

Siyasi dünyagörüş etibarilə “Azərbaycan naminə” əqidəsi əsasında formalaşmış İlham Əliyev siyasəti ölkəmizə beynəlxalq aləmdə də böyük şöhrət qazandırmışdır. Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı Təhlükəzislik Şurasının üzvü seçilməsi və dünyanın ən böyük və mötəbər təşkilatının ciddi bir qurumuna müəyyən olunmuş müddətdə rəhbərlik etməsi Prezident İlham Əliyevin apardığı xarici siyasətin əhəmiyyətini, təsir imkanlarını, beynəlxalq aləmdə tutduğu böyük mövqeyini əyani şəkildə nümayiş etdirir. Azərbaycan Respublikasının Avropa Şurası, Avropa Birliyi məkanında, o cümlədən UNESCO səviyyəsində nümayiş etdirdiyi

---

[1] İlham Əliyev. “Cənub Qaz Dəhlizinin uğurla başa çatması Azərbaycan üçün yeni imkanlar açacaq” / https://azertag.az/xeber/Azerbaycan_Prezidenti_Cenub_Qaz_Dehlizinin_ugurla_basa_chatmasi_Azerbaycan_uchun_yeni_imkanlar_achacaq-1202630

mövqe ölkəmizin qısa müddətdə böyük Avropa evində normal yer tuta bildiyini nümayiş etdirir. Müstəqil Azərbaycan Respublikasının Avropa Şurası Nazirlər Kabinetinə böyük bacarıqla sədrlik etməsi, Qoşulmama Hərəkatı kimi mötəbər bir beynəlxalq quruma rəhbərlik etmək səlahiyyəti qazanması Prezident İlham Əliyevin müstəsna dərəcədə yüksək dövlətçilik istedadına malik olmasının real göstəriciləridir.

Müasir Azərbaycanda Çin, Cənubi Koreya, Yaponiya, Sinqapur, Malayziya kimi inkişaf etmiş Asiya ölkələri ilə də əməkdaşlığın sürətləndirilməsi ölkəmizdə Şərq tərəfdaşlığına dair böyük və etibarlı addımların atıldığını göstərir. Nəticə etibarilə Azərbaycan Şərq üçün də, Qərb üçün də cəlbedici və əhəmiyyətli ölkə olmaq statusu qazanmışdır. Azərbaycan Avrasiya məkanının ən əlverişli imkanlara malik inkişaf etmiş ölkəsidir.

Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni dövrün və müasir Azərbaycanın reallıqları ilə yeniləşdirən və daha da zənginləşdirən siyasi xadimdir. Ümummilli liderimiz Heydər Əliyevdən sonrakı tarixi mərhələnin meydana çıxardığı siyasi-ictimai reallıqlar, iqtisadi-hərbi proseslər, ideoloji-etnik problemlər mövcud siyasi kursun işığında hadisələrin və gedişatların yenidən dəyərləndirilməsini tələb etdiyi məqamlarda Prezident İlham Əliyev istənilən məsələyə yaradıcı münasibət bəsləməyi, yeni müstəvidən yanaşmağı müvəffəqiyyətlə həyata keçirir. O, qətiyyən klassik siyasi irsin təkrarı olmayıb, mövcud siyasəti yaradıcılıqla inkişaf etdirib tam yeni zirvəyə qaldırmış novator dövlət xadimidir. Bu mənada İlham Əliyev – daim inkişafda olan yeni tipli Heydər Əliyev siyasi təliminin yaradıcısıdır.

Təsadüfi deyildir ki, dünya şöhrətli görkəmli yazıçı Çingiz Aytmatov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi "qloballaşan dünyanın lider etalonu" kimi yüksək qiymətləndirmişdir.

Məhz bütün bunlara görə o, görkəmli dövlət xadimi və böyük siyasi xadim səviyyəsinə yüksəlmiş, geniş şöhrət və nüfuz qazanan Prezident İlham Əliyev müstəqil Azərbaycan Respublikasını sürətli inkişaf etdirmək mənasında, özünü ən böyük məqama çatdırmağı bacarmışdır.

Qeyd olunanları ümumiləşdirməklə nəticə olaraq Prezident İlham Əliyevin siyasi özünəməxsusluqlarını aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

Heydər Əliyev siyasi kursu, üstəgəl yeni dünyanın, beynəlxalq aləmin reallıqları və üstəgəl müstəqil Azərbaycanda yeni dövrün meydana çıxardığı gerçəkliklər və böyük dəyişikliklər, üstəgəl müasirlik və modernləşdirmə, bərabərdir İlham Əliyev.

Həqiqətən İlham Əliyev yeni dünya düzənində müdrik siyasəti və böyük bacarığı ilə Azərbaycana baş ucalığı gətirən ən müasir tipli qüdrətli liderdir. Müasir Azərbaycanın yeni tarixi mərhələdəki yeni həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin konkret əməli nəticəsidir. Respublikamızda paytaxtımız Bakı ilə yanaşı, Azərbaycan regionlarının böyük sürətlə və hərtərəfli şəkildə inkişaf etdirilməsi hərəkatının başında möhtərəm Prezident İlham Əliyev dayanır. Bu mənada o, yeni Azərbaycan adlı möhtəşəm əsərin qüdrətli yaradıcısıdır.

Prezident İlham Əliyevin məqsədyönlü ordu quruculuğu sayəsində Azərbaycan ordusu dünyanın ilk əlli ordusu sırasında qərar tutur. Həm ən yüksək hərbi texnika, həm də böyük vətənpərvərlik Azərbaycan ordusunun müasir simasını müəyyən edir. Azərbaycan ordusunun 2016-cı ilin aprel ayında Tərtər-Murov istiqamətində, 2018-ci ilin may ayında isə Naxçıvan ərazisində həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar xalqımızın Dağlıq Qarabağ müharibəsində qələbə çalacağına inamını daha da artırmışdır. Tərtər-Murovdağda 2 min 200 hektar, Naxçıvan ərazisində 11 min hektar ərazinin işğaldan azad olunması Azərbaycanın dövlət müstəqilliyinin bütün dövrü ərzində qazandığı ən böyük zəfərdir. İşğaldan azad olunaraq Cəbrayıl rayonunda salınmış Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının Dağlıq Qarabağa qayıdışının start nöqtəsidir. Şərur rayonundakı Günnüt kəndinin düşmən mühasirəsindən çıxarılması və Qızılqaya zirvəsinin fəth edilməsi isə torpaqlarımızın azad edilməsi hərəkatının davamlı bir proses olduğunu göstərir.

***

Prezident İlham Əliyevin böyük bacarıqla və uzaqgörənliklə həyata keçirdiyi multikulturalizm və tolerantlıq siyasəti Azərbaycanda millətlərarası və dinlərarası münasibətlərin, birgəyaşayışın

mükəmməl şəkildə tənzimlənməsinə və möhkəmləndirilməsinə böyük töhfələr verir. Multikulturalizm və tolerantlığın Azərbaycan modeli – İlham Əliyev modeli deməkdir.

Aparılan məqsədyönlü dövlət siyasəti Azərbaycanı dünyanın dialoq məkanına çevirmişdir. Son illərdə Azərbaycanda mədəniyyətlərarası, sivilizasiyalararası, dinlərarası dialoq istiqamətində keçirilmiş möhtəşəm tədbirlər ölkəmizə dialoq məkanı kimi böyük hörmət və şöhrət qazanmışdır.

Ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi sahəsində də İlham Əliyev yeni era açmışdır. Azərbaycan tarixində ilk dəfə olaraq Prezident İlham Əliyevin xüsusi sərəncamı ilə 2019-il bütövlükdə görkəmli bir ədəbiyyat xadiminin, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı ilə bağlı olan il olaraq, "Nəsimi ili" kimi qeyd olunur. Azərbaycan xalq ədəbiyyatının əfsanəvi qəhrəmanları Dədə Qorquda və Koroğluya Bakı şəhərində abidə ucaldılması yeni nəsillərin vətənpərvərlik ruhunda formalaşdırılmasına Prezident qayğısının ifadəsidir. Təkcə 2019-cu ildə Azərbaycanda İmadəddin Nəsiminin 650, Cəlil Məmmədquluzadənin 150, Cəfər Cabbarlının 120, Əhməd bəy Ağaoğlunun 150, akademik Məmməd Cəfər Cəfərovun və akademik Həmid Araslının 110, xalq yazıçıları İsmayıl Şıxlının və Hüseyn İsrafilovun 100 illik yubileylərinin dövlət sərəncamları ilə yüksək səviyyədə qeyd edilməsi Prezident İlham Əliyevin məqsədyönlü ədəbiyyat siyasətinin əhəmiyyətli hadisələridir. Ölkəmizdə ədəbiyyat siyasəti azərbaycançılıq siyasətinin üzvi tərkib hissəsi və hərəkətverici qüvvəsidir.

Beləliklə, Prezident İlham Əliyev qətiyyətli və möhkəm siyasi əqidəyə malik olan qüdrətli Ali Baş Komandandır.

İlham Əliyev – analitik düşüncə sahibi kimi dərin məntiqə və aydın təfəkkürə malik olan, siyasi reallıqları nəzəriyyə ilə vəhdətdə ifadə edən mükəmməl dövlət xadimidir.

İlham Əliyev – XXI əsrin yeni tipli siyasi lideridir.

İlham Əliyev – multikulturalizm və tolerantlıq modelinin yaradıcısıdır.

Müstəqil Azərbaycanın yeni həyatının, təzə çağının qüdrətli müəllifi Prezident İlham Əliyevdir.

Dünyanın yeni reallıqları, beynəlxalq aləmdə gedən müasir proseslər zəminində yeni Azərbaycanın maraqlarını və mənafeyini

ifadə etməkdə İlham Əliyev zəngin təcrübəyə, dönməz siyasi iradəyə malikdir.

İlham Əliyev – yeni mərhələdə Azərbaycan ölkəsinin və cəmiyyətimizin müasirləşdirilməsinin baş memarıdır.

İlham Əliyev – yeni siyasi təfəkkürə və yaradıcı yanaşmalara malik olan novator dövlət xadimidir.

Müstəqillik andı, xalq amili, milli mənafe, ölkə maraqları İlham Əliyev üçün müqəddəs meyarlardır!

İlham Əliyev – ölkəmizdə milli-mənəvi dəyərləri, azərbaycançılıq ideologiyası, ardıcıl olaraq həyata keçirilən ədəbiyyat və incəsənət siyasətini dönmədən və uğurla həyata keçirən liderdir.

İlham Əliyev – yaxın və uzaq gələcəyi, bütün reallıqları incəliklərinə qədər görən və məharətlə proqnozlaşdırmağı bacaran böyük dövlət xadimidir.

Ölkəmizin və xalqımızın bundan sonrakı mərhələdə İlham Əliyev kimi geniş formatda, böyük masştabda düşünən, beynəlxalq aləmdə qəbul edilən, xalqına və dövlətinə ürəkdən bağlı olan, yüksək səviyyəli və enerjili dövlət xadiminə ciddi ehtiyacı var.

Bütövlükdə Qərb və Şərq müstəvisində, xüsusən də Qafqazda gedən mürəkkəb ictimai-siyasi proseslərdə İlham Əliyevin tutduğu tarazlaşdırılmış mövqe və həyata keçirdiyi müstəqil siyasət dövlətimizi dünya üçün də, regionlar üçün də əhəmiyyətli ölkəyə çevirmişdir. Prezidentimizin müdrik siyasəti Azərbaycanın dünyada və Qafqazdakı hadisələrin həlli baxımından söz sahibi olan dövlətə çevrilməsi ilə nəticələnmişdir. İndi Azərbaycanın yaxından iştirakı, razılığı təmin olunmadan, nəzərə alınmadan Qafqaz regionunda heç bir problemin həllindən danışmaq, yaxud yeni layihələrə başlamaq olmaz. Eyni sözləri Azərbaycanı əhatə edən digər Şərq tipli dövlətlərə, bir çox Avropa ölkələrinə də şamil etmək olar. Belə yüksək dövlətçilik imicini ölkəmizə Prezident İlham Əliyev qazandırmışdır.

Böyük uğurla keçən 16 ilik dövr ölkəmizdə elmin, mədəniyyətin və ədəbiyyatın inkişaf etdirilməsi baxımından da çox uğurlu olmuşdur. “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə yeni elmi mühitin formalaşdırılması və inkişafına böyük üfüqlər açmışdır. Azərbaycan Milli Elmlər Akademiyası özünün sovet hakimiyyəti illərindəki şöhrətini bərpa etmiş və daha da irəli mövqeyə çıxmışdır. Prezident İlham Əliyevin Sərəncamı ilə Milli Elmlər Akademiyasında yaradılmış Yüksək Texnologiyalar Parkı ən

müasir elm və istehsalat kompleksi kimi fəaliyyət göstərir. AMEA-nın Təcrübə-Sənaye zavodunun ölkə və dünya bazarlarına rəqabətə davamlı məhsullar çıxara bilməsi elm sahəsində sahibkarlıq və innovasiya mühitinin formalaşdığını təsdiq edir. Müstəqillik dövründə Azərbaycanın kosmos ölkəsinə çevrilməsində elmin böyük rolu vardır. 2018-ci ildə Azərbaycan Respublikasının üçüncü kosmik peyki orbitə buraxması misilsiz elmi-texniki nailiyyət sayılmağa layiqdir. Azərbaycanda müstəqillik dövrünün elmi məktəblərinin yaranması dövrümüzün elmi mühitinin nailiyyətidir. Azərbaycan elminin beynəlxalq əlaqələrinin genişləndirilməsi də yeni eranın reallığıdır. Milli mədəniyyət və ədəbiyyat sahələrindəki yeni inkişaf dalğası müstəqil Azərbaycanın yüksək mədəni səviyyəsini nümayiş etdirir.

Ölkəmiz və xalqımız XXI əsrin dövlətçilik tarixinə YENİLƏŞMİŞ MÖHTƏŞƏM AZƏRBAYCAN BOYDA BÖYÜK HESABAT əlavə etmişdir. Bu, İlham Əliyev erasının Azərbaycan xalqı qarşısındakı böyük və şərəfli hesabatıdır.

Görkəmli dövlət xadimi İlham Əliyevin Prezidentlik fəaliyyəti Azərbaycan xalqının xoşbəxt sabahına inamla baxmağın real təminatı deməkdir. Bu, Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, işıqlı, xoşbəxt gələcəyə, daha böyük inkişafa real təminat verən işıqlı bir yola sonsuz inam deməkdir. Bu, hər bir azərbaycanlının reallıqlardan doğan yekun qənaətidir. İlham Əliyev xalqına və ölkəsinə ürəkdən bağlı olan xalqın böyük inamını və sarsılmaz etibarını qazanmış ölkə rəhbəridir.

Azərbaycan xalqının mütləq əksəriyyətinin inamı və etibarını qazanaraq 2018-ci ildə növbədənkənar seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev 2018-ci ildə yeni eradakı çoxcəhətli fəaliyyəti ilə müəyyən olunmuş siyasi-ideoloji xəttin bundan sonra da yaradıcılıqla inkişaf etdiriləcəyinə, ölkəmizin böyük sürətlə inkişaf edəcəyinə dərin inam ifadə edir. Prezident İlham Əliyevin aşağıdakı fikirləri onun Azərbaycanın inkişafı haqqındakı böyük proqramının mühüm ana xətlərini dolğun surətdə müəyyənləşdirir: "Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən, sözün əsl mənasında müstəqil dövlətdir. Biz öz müstəqilliyimizi möhkəmləndirməliyik. Bizim amalımız qüdrətli Azərbaycandır, müasirlikdir, inkişafdır, sosial rifahdır... Demokratiyanın inkişafı bizim üçün əsas vəzifədir. Bu gün Azərbaycan demokratiyanın inkişafına görə heç kimdən geri qalmır.

İqtisadi sahədə şaxələndirmə bizim əsas istiqamətimizdir. Biz neft amilindən asılılığımızı azaldırıq. Bundan sonra sənayeləşdirmə prosesi daha da sürətlə gedəcəkdir. Ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Azərbaycanda qəbul edilən qərarlar gələcəkdə enerji təhlükəsizliyi ilə bağlı olan yeni məsələlərə yeni istiqamət verəcəkdir".

Bəli, bütün bunlar Azərbaycan Respublikasının müasir inkişaf konsepsiyası ilə bağlı olan aydın və konkret proqramdır. SON ON ALTI İLDƏ Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində baş vermiş böyük dəyişikliklər müstəqil Azərbaycan Respublikasının cəmiyyət həyatının bütün sahələri üzrə sürətlə və hərtərəfli şəkildə inkişaf etməkdə davam etdiyini parlaq surətdə nümayiş etdirir. Beynəlxalq miqyasda iqtisadi inkişafın əsas göstəriciləri üzrə rentgen funksiyasını yerinə yetirən Davos Forumunun reytinq cədvəllərində Azərbaycan Respublikasının hər il yeni bir rekordla irəliyə doğru hərəkətinin qeydə alınması, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha uca zirvələrə doğru addım-addım qabağa getdiyini nümayiş etdirir. Hazırda Azərbaycan Davos Forumunun reytinq cədvəlinə görə dünyada rəqabətə davamlı inkişafa malik bir dövlət kimi müəyyən olunmuşdur. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 16 ilin möhtəşəm yekunudur. Çünki rəqabətə davamlı ölkə adını almaq üçün həm ardıcıl və hərəkətli iqtisadi inkişaf, həm də ölkədə davamlı sabit investisiya mühiti yaratmaq lazımdır. Prezident İlham Əliyev nə qədər çətin də olsa, Azərbaycanda ictimai-siyasi sabitliyin möhkəmləndirilməsinə nail olmaqla bütün sahələr üzrə Azərbaycanı böyük magistral inkişaf yollarına çıxarmışdır. Heç şübhəsiz, Azərbaycanın bundan sonrakı bütün nailiyyətləri də Prezident İlham Əliyevin adı ilə bağlı olacaqdır. Prezident İlham Əliyev Azərbaycanın böyük sabahlarına, uğurlu gələcəyinə yeni yollar açan qüdrətli və uzaqgörən dövlət xadimidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi uğurlu 16 il özünün inkişaf səviyyəsinə görə neçə-neçə illərə bərabər olan sürətli və hərtərəfli inkişaf illəridir. Bu, Azərbaycan tarixinin İlham Əliyev erasıdır. Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin 16 ili ölkəmizdə dövlət müstəqilliyinin möhkəmləndirilməsi və hərtərəfli şəkildə inkişaf etdiril-

məsi, qüdrətli bir müstəqil dövlətin qurulması dövrüdür. İlham Əliyev – inkişaf etmiş müstəqil Azərbaycan dövlətinin lideridir.

İlham Əliyev erası – Azərbaycan xalqının tarixi taleyinin yeni inkişaf mərhələsidir.

İlham Əliyev erası – müstəqil Azərbaycan dövlətini inkişaf etməkdə olan ölkələrin cərgəsindən inkişaf etmiş dövlətlərin sırasına çıxarmış tarixi bir dövrdür.

İlham Əliyev erası – daim hərəkətdə olan, ardıcıl olaraq inkişafda olan müasir Azərbaycanın bundan sonrakı qarantı və hərəkətverici qüvvəsidir.

Azərbaycan xalqı özünün sadiq və uzaqgörən rəhbərinin başçılığı ilə böyük gələcəyə doğru müzəffər yürüşünü uğurla davam etdirir.

## AZƏRBAYCAN HEYDƏRƏLİYEVŞÜNASLIĞI NAİLİYYƏTLƏR VƏ VƏZİFƏLƏR

*(Akademik İsa Həbibbəyli)*

Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev dünya miqyaslı böyük siyasətçi, mənsub olduğu xalqın xilaskarı və qüdrətli rəhbəri kimi böyük şöhrət qazanmışdır. Dünyanın görkəmli dövlət xadimləri və böyük siyasətçiləri Ulu öndər Heydər Əliyevin çoxillik və çoxcəhətli tarixi xidmətlərini yüksək qiymətləndirmiş, ondan beynəlxalq miqyasda qəbul olunan liderlərdən biri kimi söz açmışlar. XX əsr ərzində bütün tarixi mərhələlərdə görkəmli dövlət xadimi Heydər Əliyevin şərəfli tarixə çevrilmiş dövlətçilik fəaliyyəti və mübarizəsi böyük siyasətçilərin, elm xadimlərinin də həmişə diqqət mərkəzində olmuşdur. Bu cəhətdən Heydər Əliyev qədər haqqında dünya masştabında yüksək sözlər deyilən, şəxsiyyətinə və xidmətlərinə böyük qiymət verilən dövlət xadimləri çox deyildir. Heydər Əliyev dünya xəritəsində kiçik yer tutan bir ölkənin böyük rəhbəri olub, dünya liderləri səviyyəsində qiymətləndirilən görkəmli dövlət xadimidir. Yer kürəsinin ən görkəmli dövlət xadimləri və siyasi xadimləri: Corc Buş, Bill Klinton, Barak Obama, Vladimir Putin, Hi Tszintao, Kraliça II Yelizaveta, Jak Şirak, Toni Bleyr, Süleyman Dəmirəl, Rəcəb Tayyib Ərdoğan, Nursultan Nazarbayev, Eduard Şevarnadze, Leonid Kuçma, Henri Kisincer, Zbiqnev Bjezinski kimi məşhur simaların Heydər Əliyevə verdikləri yüksək qiymət geniş mənada şəxsiyyət və zaman, lider və xalq, siyasət və cəmiyyət kimi aktual məsələlərin dəyərləndirilməsinə dair ciddi və əhəmiyyətli mülahizələr olub, Azərbaycan xalqının Ümummilli liderinin beynəlxalq aləmdəki yerini və miqyasını təsəvvür etməyə imkan yaradır. Amerika Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin direktoru, görkəmli siyasi xadim, professor Zbiqnev Bjezinskinin aşağıdakı sözləri böyük siyasətin Heydər Əliyev fenomeninə verdiyi böyük dəyəri çox dolğun və ümumiləşdirilmiş şəkildə əks etdirir: "Heydər Əliyev həqiqətən beynəlxalq səviyyəli dövlət xadimi və tarixi əhəmiyyətli lider idi. O, Azərbaycanın müstəqilliyinin, ölkənin firavanlığına doğru inkişafının və demokratiyaya doğru yolunun əsasını qoydu. O, qətiyyətli, uzaqgörən və aydın düşüncəli idi." Dünya şöhrətli yazıçı Çingiz Aytmatovun baxışları isə Heydər Əliyev fenomeninə yaradıcı ziyalıların fərqli müna-

sibətini ifadə edir: "Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır." Polşanın keçmiş Prezidenti Aleksandr Kvasnevskinin aşağıdakı sözləri isə Heydər Əliyevə dövlətçilik cəhətdən olan dəyərləndirmə baxımından əhəmiyyətlidir: "Heydər Əliyev Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliklərin arxitektorlarından biridir".

Böyük siyasətin və böyük elmin son yarım əsrdəki görkəmli dövlət xadimi Heydər Əliyev haqqındakı baxışlarını əks etdirən çoxsaylı kitablarda və məqalələrdəki baxışlar HeydərƏliyevşünaslıq elmi istiqamətini formalaşdırmışdır:

- HeydərƏliyevşünaslıq – böyük siyasət haqqında elmin üzvi tərkib hissəsi olub, siyasi-tarixi xarakter daşıyan nəzəri təlimdir;
- HeydərƏliyevşünaslıq – Azərbaycanşünaslığın əsas aparıcı və hərəkətverici qüvvəsi olan sistemli bir nəzəriyyədir;
- HeydərƏliyevşünaslıq – müstəqil dövlətçilik və ümummilli ideologiya haqqında elmdir;
- HeydərƏliyevşünaslıq – daim inkişafda olan, böyük gələcəyə işıq salan əbədiyaşar novator dövlətçilik təlimidir.

Görkəmli dövlət xadimi Heydər Əliyev haqqında deyilənlər və yazılanlar dünyanın ayrı-ayrı qitələrini və xalqlarını əhatə etdiyi üçün HeydərƏliyevşünaslıq beynəlxalq miqyaslı elmi təlimdir. Bununla belə, Heydər Əliyevə həsr olunmuş rəyləri, münasibət ifadə edən fikirləri, ən müxtəlif xarakterli araşdırmaları ümumiləşdirib dəyərləndirmək Azərbaycan elminin borcu və vəzifəsidir. Həmçinin Heydər Əliyev haqqında ən sanballı bioqrafik əsərlər, siyasi və elmi araşdırmalar təbii olaraq Ulu öndərin vətənində aparıldığından, HeydərƏliyevşünaslığın Vətəni və əsas mərkəzi Azərbaycan Respublikasıdır. Yaradıcıları sırasında dünyanın ən tanınmış siyasətçiləri və elm xadimləri olsa da, elm sahəsində HeydərƏliyevşünaslığın aparıcı simaları Azərbaycan alimləridir. Azərbaycan elmi üçün HeydərƏliyevşünaslıq ən şərəfli mövzu olmaqla bərabər, həm də məsuliyyətli bir mənəvi borcdur. Azərbaycan tarixinin son 50 illik inkişaf yolunu Heydər Əliyev faktorunu əsas kimi qəbul etmədən, elmi cəhətdən obyektiv şəkildə qiymətləndirmək mümkün deyildir.

Azərbaycan HeydərƏliyevşünaslığı – ölkə elminin baş istiqamətini müəyyən edən tarixi-siyasi, nəzəri və təcrübi xarakterli elmi təlimdir. Son yarım əsrin humanitar və ictimai elmlərinin əsas isti-

qaməti azərbaycançılıqdan, mahiyyəti isə Heydər Əliyevçilikdən ibarətdir. Əslində ölkəmizdə dəqiq və texniki elmlər, yer elmləri və təbiət elmləri də Heydər Əliyevin azərbaycançılıq ideallarının işığında inkişaf etdirilmişdir. Bu mənada HeydərƏliyevşünaslıqla azərbaycançılıq arasında bərabərlik işarəsi qoymaq mümkündür. HeydərƏliyevşünaslıq – müstəqillik dövrü Azərbaycan elminin strategiyasını müəyyən edən metodoloji meyardır.

İlkin müşahidələrə və araşdırmalara əsasən deyə bilərik ki, Azərbaycan HeydərƏliyevşünaslıq elmi aşağıdakı istiqamətlərdə yaranıb inkişaf edir:

1. Dünyanın görkəmli dövlət xadimləri və siyasi şəxsiyyətlərinin Heydər Əliyev haqqındakı fikirləri və mülahizələrinin təhlil edilib dəyərləndirilməsi: şəxsiyyət və zaman probleminə münasibət

2. Heydər Əliyevin müstəqil dövlətçilik təliminin nəzəriyyəsi və təcrübəsinin elmi cəhətdən öyrənilməsi: lider və xalq

3. Azərbaycançılıq təliminə Heydər Əliyev masştabında qiymət: milli-mənəvi dəyərlərdən dövlət ideologiyasınadək

4. Azərbaycan Respublikasının inkişafının Heydər Əliyev epoxası: böyük siyasət və cəmiyyət

5. Heydər Əliyevin elmi bioqrafiyası və bioqrafları

6. Dialektik inkişafın yaradıcı davamı: İlham Əliyev erası.

Azərbaycan elmi fikrində dünyanın görkəmli dövlət xadimlərinin və böyük siyasətçilərinin Heydər Əliyevə münasibətini ifadə edən mülahizələrin təhlili və qiymətləndirilməsi əsasən bu böyük şəxsiyyətin beynəlxalq miqyasda, ölkəsinin və xalqının siyasi taleyində tutduğu yeri və daşıdığı funksiyanı obyektiv müəyyən etmək üçün aparılmış müqayisələrdən və qiymətləndirilmələrdən ibarətdir. Bu, daha çox HeydərƏliyevşünaslığın başlanğc dövründə müstəqil Azərbaycan dövlətinin liderinin miqyasını daha əyani və aydın surətdə dərk və təqdim etmək məqsədi daşımış və təbii bir milli iftixar duyğusu formalaşdırmağa xidmət etmişdir. Elmi-siyasi ədəbiyyatdan görünür ki, Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyevin adı dünyanın ən görkəmli tarixi şəxsiyyətləri: Corc Vaşinqton, Mustafa Kamal Atatürk, Şarl de Qol, Vinston Çörçill və Mao Tszedunla yanaşı çəkilmiş, oxşar və fərqli cəhətləri göstərilməklə dəyərləndirilmişdir. Azərbaycanda isə Heydər Əliyev yalnız Şah İsmayıl Xətai və Nəriman Nərimanovla müqayisə edilmişdir. Bu məqamda Şah İsmayıl Xətainin mərkəzləşdirilmiş qüdrətli Azərbaycan dövləti

yaratmaq sahəsindəki xidmətləri, Nəriman Nərimanovun azərbaycançı mövqeyi, Kremldəki gərgin həyatı və fəaliyyəti ilə Heydər Əliyevin siyasət və dövlətçilik sahəsindəki xidmətləri, bənzərlik və fərqlər diqqət mərkəzinə çəkilmişdir. Mövzuya tarixi aspektdə yanaşılsa da, əksər hallarda müasirlik mövqeyindən qiymət verilmişdir. Bu isə nəticə etibarilə Heydər Əliyev fenomeninin yeni tarixi epoxanın meydana çıxardığı mühüm hadisə kimi təqdim edilməsi zərurətini irəli sürmüşdür.

Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik təlimi onun azərbaycançılıq görüşləri ilə vəhdətdə təhlil olunub ümumiləşdirilmişdir. Ulu öndər Heydər Əliyev özü də müstəqil dövlətçiliklə azərbaycançılığı bir-birini tamamlayan siyasi-mənəvi baxışlar sistemi kimi qəbul etmişdir. O, böyük qürur hissi kimi bəyan etmişdir ki, “Azərbaycanın ən böyük nailiyyəti onun dövlət müstəqilliyidir. ...Azərbaycan dövlətinin, milli ideologiyanın özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir.” Azərbaycan HeydərƏliyevşünaslığı Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikaya rəhbərlik etdiyi dövrdəki məqsədyönlü, düşünülmüş azərbaycançılıq siyasətini onun sonralar həyata keçirdiyi müstəqil dövlətçilik missiyasının möhkəm bünövrəsi, etibarlı təməli kimi dəyərləndirmişdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Ulu öndərin sovet dövründəki milli maraqlara əsaslanan düşünülmüş siyasətini və fəaliyyətini haqlı olaraq “milli dövlətçiliyin təməl əsasları” kimi dəyərləndirmişdir: “Heydər Əliyevin respublikada apardığı siyasətin əsas məqsədi – milli şüurun fəal oyanışına təkan vermək və milli həmrəyliyə, xalqın bir millət kimi özünü dərketməsinə nail olmaq idi.

Heydər Əliyev o dövrdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi və digər ittifaq üzvləri nümayəndələrinin ciddi nəzarəti altında olduğunu bilərək, milli ideya anlamına başqalarından daha çox önəm verirdi. ...Azərbaycan cəmiyyətinin mədəni özəyinin inkişaf etdirilməsi, həmçinin millətin intellektual inkişafında yeni istiqamətlərin müəyyənləşdirilməsi Azərbaycan cəmiyyətində milliliyin möhkəmləndirilməsinə yönəlmişdi ki, bunun da mahiyyətini “Azərbaycançılıq” ideyası təşkil edirdi.

"Azərbaycançılıq" ideyası Azərbaycanın sonrakı dövrdə – Azərbaycanın Dövlət Müstəqilliyi illərində sadalanan bütün bu xüsusiyyətlərin potensialının tam açılmasına xidmət edəcəkdir".[1] Bu mənada akademik Ramiz Mehdiyevin tədqiqatlarında Heydər Əliyevin müstəqil dövlətçilik və azərbaycançılıq siyasətinin konseptual əsasları yaradılmışdır. Görkəmli elm xadiminin "Heydər Əliyevin dövlətçilik idarəçiliyinin nəzəriyyə və təcrübəsinə töhfəsi" (2000), "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" (2001), "XXI əsrdə milli dövlətçilik" (2003), "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə" (2006) kimi tədqiqatlarında müstəqil dövlətçiliyin fəlsəfi mahiyyəti müəyyən olunmuş, milli dövlətçilik ideologiyası olan azərbaycançılıq təliminin siyasi-mənəvi tutumu və hədəfləri nəzəri cəhətdən əsaslandırılmışdır. Xüsusən Ramiz Mehdiyevin 2017-ci ildə Moskvada çap olunmuş "Milli ideyanın formalaşmasında tarixi dərketmənin əhəmiyyəti" və "Qlobal dəyişmələr dövründə Azərbaycanın milli ideyası" ikicildliyi Heydər Əliyev, müstəqil dövlətçilik fəlsəfəsi, azərbaycançılıq və müasirlik ideologiyası işığında yaradılmış əhəmiyyətli monoqrafik külliyyatdır.

Azərbaycan HeydərƏliyevşünaslığında ən geniş yer tutan mövzu ölkəmizin inkişafının Heydər Əliyev epoxasına həsr olunmuş araşdırmalardan ibarətdir. Bu mövzuda yazılmış tədqiqatlarda Heydər Əliyev epoxasının Sovet Azərbaycanı və Sovetlər İttifaqı mərhələsi, keçid dövrü və dövlət müstəqilliyi illəri həm ayrı-ayrılıqda, həm də ümumiləşdirilmiş şəkildə təsvir və təhlil edilmişdir. Doğrudur, hələlik Azərbaycanın çoxəsrlik tarixində xüsusi mərhələ olan Heydər Əliyev epoxası (1969-2003) tam halda və sistemli şəkildə konkret bir ümumiləşdirilmiş elmi tədqiqatın əsas mövzusuna çevrilməmişdir, lakin onlarla elmi xarakterli və ya daha çox elmi-publisist üslubda yazılmış kitablarda bu möhtəşəm epoxanın ayrı-ayrı hadisələrindən və faktlarından, ümumi gedişatından geniş bəhs edilmişdir. Bu cəhətdən akademik Yaqub Mahmudov, akademik İsmayıl Hacıyevin və professor Zahid Qaralovun tədqiqatlarında imkan daxilində Heydər Əliyev epoxasının inkişaf dialektikası ən səciyyəvi detalları, hadisələri və faktları ilə təhlil edilib dəyərləndirilmişdir. Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev

[1] Рамиз Мехтиев. О пользе познания истории в формировании национальной идеи. В 2 кн. Книга I. – М.; Столица, 2017, - 684 с. стр. 602-603

şəxsiyyəti" (2002) monoqrafiyasında Ulu öndərin çoxcəhətli dövlətçilik fəaliyyəti tarixi aspektdə təhlil edilmiş və onun müstəqillik illərindəki xidmətlərinə elmi qiymət verilmişdir. İsmayıl Hacıyevin "Heydər Əliyev siyasi tarixdə və günümüzdə" monoqrafiyası (2013) görkəmli dövlət xadiminin şəxsiyyəti və siyasəti, müstəqil dövlətçilik təlimi, milli tarix konsepsiyası haqqında yazılmış mükəmməl elmi-tədqiqat əsəridir. Zahid Qaralovun "Heydər Əliyev – milli ləyaqət ölçüsü" monoqrafiyası (2015), "Heydər Əliyevin elmi irsi" ikicildliyi (2014) Ümummilli liderin xidmətlərinə və baxışlarına müasir nəzəri yanaşmaları real şəkildə əks etdirib ümumiləşdirir. AMEA-nın müxbir üzvü Musa Qasımlının "Heydər Əliyev - istiqlala gedən yol" kitabı da (2006) HeydərƏliyevşünaslıq elminin nailiyyətlərindən sayıla bilər. AMEA-nın müxbir üzvü Hacı Fəxrəddin Səfərovun "Heydər Əliyev - əbədiyaşar təlim" kitabı (2014) da böyük dövlət xadiminin fəaliyyətinə ümumiləşdirilmiş baxışları əhatə edir. Bu tədqiqatlar HeydərƏliyevşünaslıqda elmi-publisist tədqiqatlardan elmi-nəzəri təhlillərə doğru inkişafın monoqrafik səviyyədə göstəriciləridir. Hesab edirəm ki, HeydərƏliyevşünaslıq elmində Heydər Əliyev epoxası hadisəsinə Kreml miqyasında baxış (Roy Medvedyev), Qafqaz masştabında yanaşma (İradə Hüseynova) da siyasi liderin keşməkeşli həyatı və fəaliyyətinin üzvi tərkib hissəsi olan bu mərhələ və istiqamətlərin daha dərindən qavranılmasına xidmət edən əhəmiyyətli tədqiqat əsərləridir. Ulu öndərin adı ilə bağlı epoxanın mühüm və məsuliyyətli mərhələsi olan Naxçıvan dövrünə aid real sənədləri və dövrü mətbuat materiallarını əks etdirən "Qayıdış" kitabı Azərbaycanın müstəqillik tarixi üçün son dərəcə əhəmiyyətli olan bu mərhələnin obyektiv salnaməsidir. "Qayıdış" kitabı Heydər Əliyev və müstəqil Azərbaycan uğrunda mübarizə mövzusu üzrə aparılan tədqiqatlar üçün mötəbər bir mənbəyə çevrilmişdir. Çünki Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən "Qayıdış" kitabına yazılmış ön sözdə deyildiyi kimi, "Bu (yəni "qayıdış" sözü – İ.H.) zəmanəmizin görkəmli siyasətçisi Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışının məntiqindən doğan, Naxçıvanda üçillik (22 iyul 1990 – 9 iyun 1993) fəaliyyətlə başlanan böyük missiyanın tarixi-siyasi və fəlsəfi mahiyyətini özündə birləşdirən, dövrün ruhu ilə səsləşən yığcam ifadədir... Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük si-

yasətə qayıdışı şərəfli xilaskar missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq marağına xidmət edir”.[1]

Geniş mənada Heydər Əliyev epoxasının ayrı-ayrı məqamlarını yaddaşlarda yaşatmış insanların xatirələri və düşüncələrini, təəssüratlarını yazdırmaq və ya toplayıb çap etdirmək HeydərƏliyevşünaslıq üçün mötəbər elmi mənbə yaratmaq kimi mühüm bir missiyanı həyata keçirmək deməkdir. “Azərbaycan” qəzeti redaksiyası “Heydər Əliyev mənim həyatımda” adlı ikicildlik xatirələr və məqalələr toplusunu hazırlayıb nəşr etdirməkdə HeydərƏliyevşünaslıq üçün böyük əhəmiyyətə malik olan həmin şərəfli missiyanı ilk dəfə və yüksək səviyyədə yerinə yetirmişdir. Akademik Ramiz Mehdiyevin elmi məsləhətçiliyi və ön sözü ilə nəşr edilmiş “Heydər Əliyev mənim həyatımda” kitabı görkəmli dövlət xadimi haqqında yaradılmış mükəmməl yaddaş ensiklopediyasıdır. Bu kitabda Ulu öndərin mənalı həyatı və yorulmaz fəaliyyətinin uşaqlıq və gənclik dövründən başlamış (Zərqələm Əliyeva. Məni 13 yaşlı Heydər Əliyevə tapşırdılar; Firuzə Rzayeva. Heydər Əliyev sinfimizin hər mənada birincisi idi; Dövlət Məmmədov. 1936-cı ildə Əliyevlər ailəsinə pənah gətirdim), müxtəlif illərdə onun rəhbərliyi ilə məsul vəzifələrdə çalışan (Əli Həsənov, Həsən Həsənov, Ramil Usubov, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, Eldar İbrahimov, Hüseynbala Mirələmov, Arif Rəhimzadə), görkəmli dövlət xadiminin elm, təhsil və mədəniyyət siyasətinin həyata keçirilməsinə xidmət etmiş (Xəlil Rza Ulutürk, Məmməd Araz, Zeynəb Xanlarova, Fəttah Heydərov, Ömər Eldarov, Arif məlikov, Elçin Əfəndiyev, Asəf Nadirov, Əhliman Əmiraslanov, Seyfəddin Qəndilov, İsa Həbibbəyli, Vaqif Səmədoğlu, Amalya Pənahova), böyük şəxsiyyətlərin və qüdrətli rəhbərin xüsusi qayğısını görmüş onlarla sadə insanların yaddaşında yaşayan parlaq səhifələr, unudulmaz anlar kino lenti kimi yazıya köçürülərək əbədiləşdirilmişdir. Dünya şöhrətli adlı-sanlı şəxsiyyətlərin Süleyman Dəmirəl, Zbiqnev Bjezinski, İhsan Doğramaçı, Nikas Safronov və başqalarının xatirə və təəssüratlarının vaxtında alınıb kitaba daxil edilməsi mühüm əhəmiyyətə malik xidmətdir. Çap olunduğu vaxtdan cəmi 6 il keçməsinə baxmayaraq, yuxarıda adlarını çəkdiyimiz tanınmış şəxsiyyətlərin, yaradıcı ziyalıların, sadə insanlarının yarıdan çoxunun indi artıq həyatda olmaması “Heydər Əliyev mənim

---

[1] Vasif Talıbov. “Qayıdış” kitabına Ön söz. Bakı, “Azərbaycan” nəşriyyatı, 2008, s.12

həyatımda" kitabının nə qədər zamanında hazırlanmış əhəmiyyətli mənbə olduğunu sübut edir.

Eyni sözləri yazıçı-publisist Elmira Axundovanın "Şəxsiyyət və zaman" çoxcildlik kitabı haqqında da demək mümkündür. Tərəddüd etmədən demək olar ki, altı cildlə və yeddi kitabdan ibarət olan "Şəxsiyyət və zaman" kitabı Heydər Əliyevin çətin və şərəfli həyat yolu və mübarizəsi haqqında yazılmış ən geniş həcmə malik olan ilk monumental əsərdir. İlk dəfə olaraq Heydər Əliyevin XX əsrin böyük çətinliklərinin, mürəkkəbliklərinin, maneələrinin, ağır məngənəsindən keçərək ictimai-siyasi mühitə yol açması, cəmiyyətin bütün dolaylarından və sərt aşırımlarından adlayaraq ölkəsinin və xalqının Ümummilli lideri səviyyəsinə çatması prosesləri özünün dərin qatları, çətinlikləri, reallıqları, gedişatı ilə birlikdə Elmira Axundovanın "Şəxsiyyət və zaman" adlı çoxcildliyində böyük masştabda təqdim olunmuşdur. Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və Zaman" adlı monumental əsəri Azərbaycan HeydərƏliyevşünaslığının möhtəşəm abidəsidir. "Şəxsiyyət və Zaman" əsərini Azərbaycan HeydərƏliyevşünaslığının beynəlxalq aləmə təqdim edə biləcəyi ən mükəmməl bioqrafik roman da adlandırmaq mümkündür. "Şəxsiyyət və Zaman" – Heydər Əliyev şəxsiyyətinin möhtəşəm romanı bu görkəmli dövlət xadiminin epoxasının publisist fəlsəfəsidir. "Şəxsiyyət və Zaman" Heydər Əliyev kimi qüdrətli İnsanı şəxsiyyətin bütövlüyünün və əzəmətinin, dövrünün tarixi məsuliyyətinin və mürəkkəbliklərinin fonunda təqdim edən mükəmməl sənədli-bədii-publisist əsərdir.

Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və Zaman" çoxcildliyi janr etibarilə onun bundan əvvəl yazıb nəşr etdirdiyi üçcildlikdə müşahidə olunan roman-tədqiqatının hüdudlarını aşaraq, mövzusuna, süjeti və kompozisiyasına, altı cild həcmindəki geniş əhatə dairəsinə, vüsətinə görə epopeyaya çevrilmişdir. Fikrimizcə, roman-tədqiqat əsərin janrını yox, yanaşma üsulunu müəyyən edir. Bu çoxcildlik görkəmli dövlət xadimi Heydər Əliyev və onun epoxası haqqında, nəsil şəcərəsi, ali və təhsil mühitinin, Azərbaycana birinci və ikinci rəhbərlik dövrlərinin Moskva-Kreml mərhələsinin roman təəssüratı yaradan cildlər əsasında formalaşmış mükəmməl bir epopeyadır. Bu çoxcildlik nəşr Azərbaycanda ilk bioqrafik roman - hər biri epopeya kimi mühüm əhəmiyyətə malikdir. Çoxcildlikdə çoxplanlı şəkildə təqdim olunan romanlar silsiləsi ilə əks etdi-

rilən Heydər Əliyevin möhtəşəm bioqrafiyası Azərbaycan xalqının çətin və şərəfli mübarizə yollarının böyük dastanı – epopeyasıdır. Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülməsi bu əsərə verilmiş yüksək qiymətin ifadəsidir.

Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyətinə həsr edilmiş əsərlər sırasında Viktor Andrianovla Hüseynbala Mirələmovun birlikdə yazıb Moskvada "Molodaya qvardiya" nəşriyyatında "Görkəmli adamların həyatı" (JZL) seriyasından nəşr etdirdikləri "Heydər Əliyev" kitabı da xüsusi yer tutur. Bu, Heydər Əliyevin tərcümeyi-halına, həyatı və fəaliyyətinin bütün inkişaf mərhələlərinə və mübarizəsinə həsr edilmiş ilk sənədli romandır. Müəlliflər böyük şəxsiyyətin ömür və mübarizə yolunu dərindən öyrənmiş və kitabda əhatəli şəkildə əks etdirmişlər. "Heydər Əliyev" JZL-i Ulu öndərin həyat hekayəsini tam olaraq, bütün yönləri ilə əks etdirən ümumiləşdirilmiş bədii-publisist əsərdir. Kitabın Moskvada "Görkəmli adamların həyatı" seriyası ilə rus dilində nəşr olunması Müstəqil Dövlətlər Birliyi məkanında və rus dilinin geniş işlədildiyi xarici ölkələrdə görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən müasir cəmiyyətə və gənc nəsillərə təqdim edilməsinə imkan yaratmışdır. Buna görədir ki, "Heydər Əliyev" JZL-i dünyanın iyirmidən çox dilində kitab kimi nəşr olunmuş, beynəlxalq səviyyədə böyük oxucu marağı qazanmışdır. Bu kitab Hüseynbala Mirələmovun yazıçılıq istedadı ilə Viktor Andrionovun bioqrafıq qabiliyyətinin sintezi əsasında meydana çıxmış yeni tipli orijinal əsər kimi Azərbaycan Heydər Əliyevşünaslığının nadir əsərinə çevrilmişdir.

Azərbaycan HeydərƏliyevşünaslığında görkəmli dövlət xadiminin ölkə həyatının ən müxtəlif sahələri üzrə səmərəli fəaliyyətinə, həmin sahələrin inkişafı yollarında göstərdiyi mühüm tarixi xidmətlərə həsr olunmuş nəşrlər geniş yer tutur. Cəm halında bu əsərlərdən çıxan ən mühüm nəticə ondan ibarətdir ki, müəlliflər Azərbaycanda cəmiyyət həyatının inkişaf etdirilməsi fonunda Heydər Əliyev dühasının universal miqyasını açmağa çalışmış, bu dahi insanın həyatın bütün sahələri üzrə yüksək professionallığa malik olduğunu nümayiş etdirmişlər. Bu cəhətdən Heydər Əliyev və Azərbaycan ədəbiyyatı mövzusunda yazılmış əsərlər görkəmli dövlət xadiminin böyük bacarıqla həyata keçirdiyi mükəmməl ədəbiyyat siyasətinin reallıqlarını və uğurlarını əyani surətdə əks etdirir. Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüş "Heydər Əliyev və Azər-

baycan ədəbiyyatı" (2009, kollektiv), Tərlan Quliyevin "Heydər Əliyev və ədəbiyyat məsələləri (2007), Gülbəniz Babaxanlının "Heydər Əliyev və Hüseyn Cavid" (2013) kitabları, "Heydər Əliyevin bədii obrazı: tarixi gerçəklikdən ideala" monoqrafiyası (2018, kollektiv), Yaşar Qasımbəylinin "Heydər Əliyev ədəbiyyatı və ədəbiyyat" kitabı (2018) görkəmli dövlət xadiminin ədəbiyyat təfəkkürünün və ədəbiyyat siyasətinin elmi şərhini bütün zənginliyi ilə meydana qoyur.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda hazırlanmış "Heydər Əliyev və Azərbaycan Ədəbiyyatı" adlı kollektiv nəşrdə Ulu öndərin Azərbaycan ədəbiyyatının müxtəlif sahələrinin, şifahi xalq ədəbiyyatının, klassik poeziyanın və müasir ədəbi prosesin inkişaf etdirilməsi sahəsindəki böyük xidmətləri sistemli şəkildə şərh olunmuşdur. Bu əhəmiyyətli nəşri hazırlayanlar, akademik Bəkir Nəbiyevin rəhbərlik etdiyi müəlliflər kollektivi: Teymur Kərimli, Məhərrəm Qasımlı, Vilayət Quliyev, Nizaməddin Şəmsizadə, Nikpur Cabbarlı Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatlığına layiq görülmüşlər.

Keçən il, 2018-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda hazırlanıb kitab halında nəşr edilmiş "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" adlı monoqrafik tədqiqatda Azərbaycan ədəbiyyatşünaslıq elmində ilk dəfə olaraq ədəbiyyatın müxtəlif janrlarında görkəmli dövlət xadiminin bədii obrazının canlandırılması məsələləri elmi-nəzəri cəhətdən təhlil edilib dəyərləndirilmişdir. Akademik İsa Həbibbəylinin rəhbərliyi ilə hazırlanmış "Heydər Əliyevin bədii obrazı ədəbiyyatda: tarixi gerçəklikdən ideala" monoqrafiyasında AMEA-nın müxbir üzvü Tehran Mustafayev, filologiya elmləri doktorları Əlizadə Əsgərli və Elnarə Akimova, filologiya üzrə fəlsəfə doktorları Aygün Bağırlı və Lalə Həsənova topladıqları zəngin bədii material əsasında Heydər Əliyevin bədii obrazının yaradılması sahəsində Azərbaycan yazıçı və şairlərinin apardıqları yaradıcılıq axtarışları və səyləri diqqət mərkəzinə çəkilmiş, mühüm elmi ümumiləşdirmələr aparılmışdır.

Akademik Fəraməz Maqsudovun "Heydər Əliyev və Azərbaycan elmi" (1998), Eldar İbrahimovun "Heydər Əliyev və Azərbaycanın aqrar siyasəti" (2015), professor Nizami Xudiyevin "Heydər Əliyev və Azərbaycan dili", "AMEA bizim milli sərvətimizdir" (2003) məqalələr toplusu, Aybəniz Əliyeva-Kəngərlinin "Heydər

Əliyev və Azərbaycan elmi” biblioqrafik göstəricisi (2011), Ədalət Qasımovun “Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişafı tarixi” (2009), “Heydər Əliyev və Azərbaycan səhiyyəsi (2011, kollektiv), Nağdəli Zamanovun “Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti (3 cilddə. 2013-2014, 2018), tərtib kitabı olan “Heydər Əliyev və mədəni irs” (2014), Əli Həsənovun “Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsi” (2016), Aydın Mirzəzadənin “Heydər Əliyev siyasi irsinin politoloji aspektləri” (2016), Xatirə Quliyevanın “Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq, mənəviyyat” (2019) və sair kitablarda Heydər Əliyev fenomeninin ən müxtəlif istiqamətlərdəki parlaq təzahürləri ifadə olunmuşdur. Bu silsilədən olan kitablar hamısı bir yerdə həm də Azərbaycanın son yarım əsr ərzində müxtəlif istiqamətlər üzrə keçdiyi böyük yolun bələdçisidir.

Əlbəttə ki, Heydər Əliyev epoxası anlayışı Ulu öndərin hakimiyyəti illəri ilə yanaşı, həm də müstəqil Azərbaycan dövlətinin müasir mərhələsini də özündə əks etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlı olan bu yeni mərhələ ölkəmizin tarixinə İlham Əliyev erası kimi daxil olmuşdur. İlham Əliyev erası – müstəqil Azərbaycan dövlətinin müasir mərhələsinin obyektiv təyinatı və yeniləşən Azərbaycanın yeni ünvanıdır. Azərbaycan HeydərƏliyevşünaslıq elmi geniş anlayış olub, özündə Ulu öndərə həsr edilmiş əsərlərlə yanaşı, həm də İlham Əliyev erasını əks etdirən tədqiqatları da birləşdirir. Akademik Ramiz Mehdiyevin “Azərbaycan – 2003-2008: Zaman haqqında düşüncələr” (2009), “Müasir Azərbaycan dövrün baxışında” (2011), “Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti” (2008) kitabları Azərbaycan cəmiyyətində gedən transformasiya proseslərini, xüsusən Prezident İlham Əliyevin adı ilə bağlı olan yeni tarixi mərhələnin elmi dərkindən və nəzəri şərhindən ibarət olan konseptual tədqiqat əsərləridir. Nizami Cəfərovun “Müstəqil Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə” (2012), İsa Həbibbəylinin “Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr” (2013) kitablarında müstəqil Azərbaycan dövlətinin həyatında yaşanmış keçid prosesləri və siyasi varislik münasibətlərinin, davamlı inkişaf proseslərinin mühüm nəticələri təhlil edilərək qiymətləndirilmişdir. Bu seriyadan olan kitablarda Prezident İlham Əliyevin yüksək liderlik qabiliyyəti, müstəqil Azərbaycan dövlətinin inkişafında yaratdığı yeni tarixi

mərhələnin özünəməxsusluqları, ölkəmizi daha böyük gələcəyə aparan yolun reallıqları obyektiv mövqedən işıqlandırılmışdır. Bundan başqa, son illərdə möhtərəm Prezidentimizə həsr olunmuş kitablar, o cümlədən Xanhüseyn Kazımlı və Əsli Kazımovanın "Böyük siyasətin davamı" çoxcildliyi, Hüseynbala Mirələmovla Viktor Andrianovun "İlham Əliyev" İZL-i, (Moskva, 2007), Graema H.Vilsonun "İlham Əliyev: Bir Cümhurbaşkanının portresi" (Türkiyə, 2011), Elmira Axundovanın "İlham Əliyev Zamanın fonunda. Prezidentin portreti" (Moskva, 2016), Əli Həsənovla Aslan Aslanovun tərtib etdikləri "İlham Əliyev – on beş illik Prezidentlik dövrünün uğur salnaməsi" (2018) kitabları yeni tipli siyasi lider və müstəqil Azərbaycan haqqında böyük həqiqətlərin real traktatlarıdır. Prezident İlham Əliyevə həsr edilmiş kitablar ölkəmizin müasir simasını və böyük gələcəyini əks etdirən mühüm azərbaycanşünaslıq faktıdır.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin həyatı və fəaliyyətinə, Ulu öndərin böyük ideallarına və mübarizəsinə həsr olunmuş elmi konfranslarda böyük şəxsiyyətin keçdiyi şərəfli inkişaf yolu, apardığı məqsədyönlü siyasət, yaratdığı müasir Azərbaycan dövlətinin nailiyyətləri ilə yanaşı, həm də qlobal siyasətin və cəmiyyətşünaslığın aktual problemləri geniş müzakirə olunmuşdur. Bu mənada Heydər Əliyev konfransları Azərbaycanın yeni dövr inkişafının siyasi-elmi dərsləri, müstəqil dövlətçilik və azərbaycançılıq ideyalarının çoxsəsli elmi dialoqudur. Heydər Əliyev konfranslarının materialları Azərbaycan HeydərƏliyevşünaslığının üzvi tərkib hissəsi olub, bu böyük elmi-nəzəri təlimi yeni müddəalarla zənginləşdirən qiymətli əsərlərdir. Yeni Azərbaycan Partiyasının 2005-2015-ci illərdə ölkə miqyasında keçirdiyi konfranslar Heydər Əliyevin silahdaşlarının, Azərbaycan ictimai elmlərinin nümayəndələrinin, milli ziyalılığın, yeni nəsillərin müstəqil dövlətimiz və Ulu öndərimiz qarşısındakı möhtəşəm hesabatlarıdır. Yeni Azərbaycan Partiyasının Heydər Əliyev konfranslarının 10 cildlik materialları Azərbaycan HeydərƏliyevşünaslığının çoxcildlik külliyatıdır. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun 2013-2018-ci illərdə Heydər Əliyev Fondu və Rusiya Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu ilə birlikdə keçirdiyi beynəlxalq elmi konfransın 5 cildlik materialları Azərbaycan HeydərƏliyevşünaslığının qiymətli elmi-nəzəri və fəlsəfi dərsləridir.

Azərbaycan Milli Elmlər Akademiyasında, Azərbaycan Dövlət Xarici Dillər Universitetində, Naxçıvan Dövlət Universitetində və AMEA-nın Naxçıvan Bölməsində, Azərbaycan Dövlət Pedaqoji Universitetində hər il təşkil edilən Heydər Əliyev konfransları Azərbaycan HeydərƏliyevşünaslığının yeni nəsillərinin yetişib formalaşdırılmasına uğurla xidmət edir.

Artıq Azərbaycan HeydərƏliyevşünaslıq elmi özünün təşkilatlanma dövrünü yaşamaqdadır. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda 2013-cü ildə fəaliyyətə başlamış " Əliyevşünaslıq" (şöbə müdiri f.e.d. Ədalət Qasımov), Fəlsəfə İnstitutunda 2017-ci ildə yaradılmış "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbəsi (şöbə müdiri t.e.d. Eynulla Mədətli) Azərbaycan HeydərƏliyevşünaslığı elminin əsas mərkəzlərinə çevrilməkdədir. Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsində hazırlanıb nəşr edilmiş ikicildlik, "Heydər Əliyev" salnaməsi (2013) və ikicildlik "Heydər Əliyev Azərbaycan elminin keşiyində" adlı sənədlər və materiallar toplusu (2013) və Fəlsəfə İnstitutundakı "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbəsinin elmi ictimaiyyətə təqdim etdiyi "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq" məqalələr toplusu HeydərƏliyevşünaslıq üzrə ixtisaslaşmış alimlərin və mütəxəssislərin Azərbaycan ictimai elmlərinə sanballı və əhəmiyyətli töhfələridir.

HeydərƏliyevşünaslıq elmi "Heydər Əliyev ensiklopediyası", "Heydər Əliyevin elmi tərcümeyi-halı", "Heydər Əliyev və müstəqil Azərbaycan" kimi elmi nəşrləri hazırlayıb çap etdirməli, ən başlıcası isə yeni nəsil HeydərƏliyevşünas tədqiqatçılar yetişdirib hazırlamaq vəzifələrini həyata keçirməlidir. Azərbaycanın müasir inkişafının yeni tarixi mərhələsi olan İlham Əliyev epoxasının tarixi oçerklərini yazıb hazırlamaq da HeydərƏliyevşünaslıq elmimizin böyük vəzifələrindəndir.

Hesab edirik ki, Azərbaycan HeydərƏliyevşünaslığının inkişaf mərhələləri və problemləri mövzusu özü də geniş və sanballı bir tədqiqatın obyekti olmağa tamamilə layiqdir.

Göründüyü kimi, artıq Azərbaycanda HeydərƏliyevşünaslıq müstəqil bir elmi istiqamət kimi formalaşmışdır. Azərbaycan HeydərƏliyevşünaslığı ölkəmizdə və dünyada cəmiyyət həyatının ən müxtəlif inkişaf proseslərini görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi irsinin və böyük ideallarının işığında tədqiq edib araşdıran

və ümumiləşdirilmiş şəkildə təqdim edən siyasi yönlü elmi məktəbdir.

Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri Azərbaycan HeydərƏliyevşünaslıq elminin üzvi tərkib hissəsi və aparıcı istiqamətindən biri olub, ölkəmizdə uğurla həyata keçirilən ədəbiyyat siyasətinin ənənələrini, dərslərini və perspektivlərini özündə əks etdirir.

# HEYDƏR ƏLİYEVİN TARİXİ OBRAZI VƏ ƏDƏBİYYAT

*(Müxbir üzv Tehran Əlişanoğlu)*

## Heydər Əliyev Müasirimizdir!

Heydər Əliyev bizim müasirimizdir. Ulu öndərin sözü, işi, ideya və əməlləri gündəlik həyatımızın tərcümanıdır; həyatımızı, yaşam tərzimizi təyin edir, yol göstərir, təmin edir. Biz bu adla sabahlarımızı açır, milli dünənimizə önəm verir, gələcəyimizi müəyyən edirik. Bu adla müasir dünyanı fəth edir, qələbələr qazanırıq. Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyev yolunun varisi, Ulu öndərin dönməz siyasi kursunu XXI əsrdə inamla davam etdirən İlham Əliyev deyir: "*Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur. Tarixi bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir*".

1993-cü ilin 21 sentyabr günü Azərbaycan Milli Elmlər Akademiyasının binasında ziyalılarla görüşü zamanı Ulu öndər Heydər Əliyev ölkənin düşdüyü vəziyyəti obrazlı şəkildə belə təsvir etmişdi: "İndi respublika dağılmış vəziyyətdədir. Təəssüf ki, dənizdə qasırğanın dağıtdığı gəmini dalğalar sahilə atmışdır. Həmin gəmini yenidən tikmək, elə vəziyyətə salmaq lazımdır ki, bir daha dənizə çıxa bilsin..."[1] O dəm cəsur kapitan missiyasını öhdəsinə götürərək Heydər Əliyev böyük məharətlə , müasir dünyanın hər çür ictimai-siyasi və mədəni-tarixi qabarmalarını, sualtı və aşkar maneələrini dəf edərək, Azərbaycan gəmisini dünya okeanına çıxara bildi. Bu gün sükanı arxasında Azərbaycan Prezidenti İlham Əliyevin durduğu Azərbaycan gəmisi fırtınalardan-fırtınalara müasir dünya sularında inamla üzməklə yeni-yeni məsafələr qət edir.

Azərbaycan torpağı ulu və qədim olduğu kimi, millətin yaşı da minillərə sığır. Bu torpaqda tarixlər boyu Atabəylər, Şirvanşahlar,

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 192

Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Azərbaycan xanlıqları kimi dövlətlər qurulmuş, ən nəhayət, yüz il öncə demokratik dövlətçiliyin təməli – Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır. Amma bu da həqiqətdir ki, XX yüzildə müasir Azərbaycanın yaşarı modelini məhz müstəqil Azərbaycan dövlətçiliyinin memarı, qurucusu Heydər Əliyev gerçəkləşdirə bilmişdir. Akademik Ramiz Mehdiyevin "Müasir Azərbaycan milli ideyanın təcəssümü" kimi məqaləsində qeyd etdiyi kimi, "XIX əsrdən başlayaraq azərbaycanlıların bir neçə nəslinin həyata keçirmək uğrunda mübarizə apardığı milli ideya müstəqil Azərbaycan dövlətinin yaranması ilə başa çatmışdır. Bu gün Azərbaycan cəmiyyəti üçün təkcə milli ideya yetərli deyil. Ölkəyə milli maraqlara söykənən yeni, müasir siyasi ideologiya lazımdır. Bu missiyanı isə Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü "azərbaycançılıq" ideoloji konstruksiyası öz üzərinə götürüb".[1]

Heydər Əliyev müasir Azərbaycançılıq, müstəqil Azərbaycan ideologiyasının yaradıcısı, əməlpərvər ideoloqudur. "Ümummilli lider tarixi təcrübə və nəzəri müddəaların varisliyini təmin etməklə yanaşı, kollektiv və fərdi identikliyimizin, dövlət ideologiyamızı – "azərbaycançılığı" mərkəzi müddəa kimi önə keçirdi. Bunun mənasını isə Heydər Əliyevin bütün fəaliyyəti, dövlətçilik və xalq qarşısında xidmətləri nümunəsində dərk etmək olar".[2] Hər bir Azərbaycan vətəndaşı geniş şəkildə Azərbaycan Konstitusiyasında əksini tapmış bu əqidənin işığında özünü tanıyır, dərk edir, yaşayır və fəaliyyət göstərir. Ulu öndərin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" amalı hər bir azərbaycanlının mənəvi həyat düsturuna çevrilmişdir.

Heydər Əliyev dühası XX əsrin sonu, XXI yüzilin əvvəllərində özünə-sərhədlərinə, dar coğrafi hüdudlarına sığmayan mənəvi Azərbaycan anlayışını daha da genişləndirdi, dilimizə "dünya azərbaycanlıları" anlamını gətirdi. İlk dəfə "Naxçıvan MR Ali Məclisi Sədrinin 16 dekabr 1991-ci il tarixli qərarı ilə Naxçıvanda Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün müəyyən olunması ilə dünyada azərbaycanlılar anlayışı meydana çıxmış və geniş bir hərə-

[1] Ramiz Mehdiyev, Dövlət müstəqilliyi: Heydər Əliyev fenomeni və müasir dövr// Müstəqillik yollarında 25. Bakı, Şərq-Qərb, 2016, s. 31
[2] Yenə orada, s. 28

katın əsası qoyulmuşdur”.[1] Hər ilin 31 dekabr günündə dünyanın hər yerində yaşayan milyonlarla soydaşımız məhz bu əqidə işığına bir araya toplaşır, azərbayançılıq idealını yalnız şüarlarda deyil, amal və əməllərində göstərir, təsdiq edirlər. “Çünki indi dünyada yaşayan azərbaycanlıların bir vətəni var, o da müstəqil Azərbaycan Respublikasıdır”.[2] “Hamımızın bir vətəni var. Bu – Azərbaycandır” kimi Ata sözünə çevrilmiş müdrik kəlamın da müəllifi Heydər Əliyevdir”.[3]

Heydər Əliyev – Müstəqil Azərbaycanın adı, simvoludur. Bu adla biz dünyaya çıxırıq, tanınırıq. “Müasir Azərbaycan Respublikasının müstəqilliyi həm ölkənin sadə vətəndaşları, həm də qlobal miqyaslı mühüm güc mərkəzləri üçün aksioma çevrilmişdir. Məhz Heydər Əliyev şəxsiyyəti, onun xarizması, bəsirəti, iradəsi, təcrübəsi göstərilən dövrdə bizim üçün “millət”, “dövlətçilik”, “idarəçilik sistemi”, “hakimiyyət”, “inkişaf etmiş iqtisadiyyat”, “mənəvi dirçəliş”, “liderlik”, “transformasiya”, “çoxvektorluluq” kimi sistem dəyərlərin təşəkkülündə və möhkəmlənməsində mühüm rol oynadı”.[4]

O da əbəs deyil ki, çağdaş Azərbaycanın ictimai-mədəni həyatını simvolizə edən bir sıra ünvanlar bu adı daşıyır: Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi, Heydər Əliyev prospekti, Heydər Əliyev hava limanı, paytaxtda və ölkənin hər bir guşəsində Heydər Əliyev parkları, küçələri, mədəniyyət mərkəzləri və s. Bu ünvanlar bizi dolanıb-gəzib bir məxrəcə – Azərbaycan indeksinə çıxarır. Heydər Əliyev adı bizim dünyada pasportumuzdur. Parolunu söylə, deyim kimsən? – kəlamına bizim cavabımız bir. Biz Heydər Əiyev xalqıyıq!

Heydər Əliyev Müstəqilliyimizin əbədiyyət düsturudur. Azərbaycan durduqca, bir nəğmədə deyildiyi kimi: Xalq Heydər söyləyəcək, Heydər: Xalqım deyəcək...

---

[1] İsa Həbibbəyli, Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası // Müstəqillik yollarında 25. Bakı, Şərq-Qərb, 2016, s. 78

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 210

[3] İsa Həbibbəyli, Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası // Müstəqillik yollarında 25. Bakı, Şərq-Qərb, 2016, s. 86

[4] Ramiz Mehdiyev, Dövlət müstəqilliyi: Heydər Əliyev fenomeni və müasir dövr// Müstəqillik yollarında 25. Bakı, Şərq-Qərb, 2016, s. 26

## Heydər Əliyev şanlı tariximizdir

XX əsr Azərbaycan tarixinin ən parlaq, sürəkli, möhtəşəm səhifələri Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev ömrü bəşər tarixinin ən mürəkkəb, təlatümlü, inqilablar epoxası olan XX yüzilin misilsiz tərəqqi və sıçrayışlarının da, görünməmiş bəlalarının da bilavasitə şahidi və tərcümanıdır. 10 may 1923-cü ildə qədim Naxçıvan torpağında dünyaya gəlmiş, 2003-cü ilin 12 dekabr gününəcən zəngin, təkrarsız ömür yaşamış dünya miqyaslı tarixi şəxsiyyətin həyatı Azərbaycan xalqının mücəssəm salnaməsidir. Heydər Əliyevin bioqrafiyası bütünlükdə xalqının həyatına qovuşmuş, ona yeni məna-məzmun gətirmiş, millətin taleyinə çevrilərək onu təmsil etməyə başlamış, ən nəhayət, Müasir Azərbaycanı yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin təsbit etdiyi kimi: "Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur".[1]

Akademik İsa Həbibbəyli yazır: "Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyəti həmişə ölkənin və xalqın taleyi və müqəddaratı, xilası və inkişafı ilə üzvi vəhdətdə dəyərləndirilir. Haqlı olaraq Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin, bütövlükdə yeni Azərbaycanın qüdrətli yaradıcısı və böyük qurucusu hesab edilir. Müstəqil Azərbaycan Heydər Əliyevin möhtəşəm əsəridir. Görkəmli dövlət xadimi Heydər Əliyevin adı və xidmətləri ilə bağlı olan hər bir hadisə Azərbaycanın müstəqillik tarixinin qiymətli səhifələrini təşkil edir. Sözün geniş mənasında Heydər Əliyev azərbaycançılıq idealının rəmzinə çevrilmişdir. Heydər Əliyevin çətin, keşməkeşli və mənalı həyatı, böyük mübarizə yolu müstəqil Azərbaycan dövlətinin epopeyasıdır".[2]

---

[1] Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Porezidentinin Sərəncamı. 21 yanvar 2013-cü il – https://president.az

[2] İsa Həbibbəyli, Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, s. 6

Yaşandıqca, mahiyyətinə vardıqca, ictimai-siyasi həyatımızda, mədəni-mənəvi yaddaşımızda, bilik və təsəvvürlərimizdə süxurlaşan Heydər Əliyev fenomeni daha böyük dəyər kəsb edir, aydın konturlar qazanır. Öyrənildikcə, dərk olunduqca Heydər Əliyev hadisəsi bizə daha da yaxın və doğma olur, milli varlığımızı daha dərindən duymağa-anlamağa kömək edir. O cümlədən ədəbiyyat Heydər Əliyev dühasının obrazını əxz etməyə, tarixi həqiqətinə yetməyə can atır. Dahi və böyük tarixi şəxsiyyətlərin obrazını yaratmaq zaman-zaman ədəbiyyatı düşündürmüş, zəruri və ümdə problemlərdən olmuşdur. Çün millət tarixinin möhtəşəm epoxaları, Məmməd Arazın sözləri ilə deyilərsə, dahi insanların "çiynində, şöhrətinə yaşayır".

Hələ sovet dönəmində bu həqiqətin dərinliyinə vaqif olan Ulu öndər Heydər Əliyev yalnız dövlət və ümumittifaq miqyasında dahilərin yubileylər paradına ümummilli maraqları cəlb etməklə qalmır, eyni zamanda problemi konkret olaraq da ədəbiyyatın qarşısında qaldırırdı. Azərbaycan yazıçılarının 1981-ci il 12 iyun tarixli VII qurultayında Ulu öndər demişdi: "Açıq demək lazımdır: Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir... Nizaminin və Füzulinin, Xaqaninin və Nəsiminin, Axundovun və Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçılarından və şairlərindən parlaq tarixi əsərlər gözləyir..."[1]

Bu gün artıq gün kimi aydındır ki, milli tarix və ədəbiyyatımızın Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Babək, Əcəmi Naxçıvani, Cəmşid Naxçıvanski, Mehdi Hüseynzadə, Həzi Aslanov və bir çox digər tarixi simalarının müasir Azərbaycan cəmiyyətinə geniş və kütləvi surətdə tanıdılmasında, təbliğində, sevilməsində Heydər Əliyevin hələ respublikaya rəhbərlik etdiyi birinci dövrdə (1969-1982) atdığı addımların, qəbul etdiyi dövləti qərarların, verdiyi rəsmi sərəncamların müstəsna və misilsiz rolu olmuşdur. Bu gün həm o da məlumdur ki, 1970-1980-ci illər ədəbiyyatında milli keçmişə və tarixi həqiqətə

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 139-140

marağın artması, nəhəng tarixi şəxsiyyətlərin parlaq obrazlarının yaradılması da tarixi zərurətin, həmin dövrdə məhz Ulu öndərin düşünülmüş şəkildə həyata keçirdiyi ədəbi-mədəni siyasətin, təmin etdiyi yaradıcılıq atmosferinin nəticəsində olmuşdur.

Anarın "Dədə Qorqud" kino-dastanı və əsasında çəkilmiş film, İsa Hüseynovun "Məhşər" romanı və əsasında ərsəyə gəlmiş "Nəsimi" filmi, Ənvər Məmmədxanlının "Babək" romanı və əsasında eyniadlı film, Eldar Quliyevin çəkdiyi "Nizami" filmi, Qabilin "Nəsimi" poeması, Fərman Kərimzadənin Ş.İ.Xətainin obrazını yaratdığı "Xudafərin körpüsü", "Çaldıran döyüşü" dilogiyası, Mirzə İbrahimovun Nəriman Nərimanovun həyat yolundan söz açan "Pərvanə" romanı, İlyas Əfəndiyevin "Natəvan", "Şeyx Məhəmməd Xiyabani", Bəxtiyar Vahabzadənin Göytürk imperiyasından söz açan "Özümüzü kəsən qılınc", Nəriman Həsənzadənin "Atabəylər" pyesləri, Rəfael Hüseynovun "Cavidlər" və s. onlarca bədii əsərlər məhz aktuallanmış zamanın mövzusu kimi, tarixi yaddaşın oyanması nəticəsində yaranmış, müasirlərimiz böyük tarixi şəxsiyyətlərin obrazları ilə canlı dialoqa girmək şansı qazanmışlar.

Bir zamanlar tarixi dəyərini verdiyi, layiqincə qiymətləndirdiyi və geniş tanıtmağa nail olduğu nəhəng tarixi simalar sırasında bugün Heydər Əliyevin özünün də yeri, obrazı aydın görünür. Bu, hər şeydən öncə, Ulu öndərin dahilərə ucaltdığı və özünün də ucaldığı idrak pilləsi, mücəssəmidir. Heç təsadüfi deyil ki, Ulu öndərin ədəbiyyata, mədəniyyətə, ümumən Azərbaycan ictimai və bədii fikir tarixinə dərindən bələdliyindən, ona verdiyi yüksək dəyərdən söz açanlar bugün Heydər Əliyevi elə həmin dühaların özləri ilə müqayisə edir, olduqca miqyaslı tarixi obrazını canlandırmağa cəhd edirlər.

Nizami Gəncəvidən söz düşərkən, Nizami ideallarının çağdaş varisi kimi, dahi şairin 840 illik yubileyini, böyük müqavimətlərə baxmayaraq, Sovetlər ölkəsi səviyyəsində keçirməyə nail olan Heydər Əliyev "1981-ci ildə "Literaturnaya qazeta"da çap olunan və həmin dövrdə böyük əks-səda doğuran müsahibəsinə Nizaminin məşhur misraları ilə yekun vurmuşdu. "Qoy ədalət zəfər çalsın!" adlanan bu geniş intervüdə cəmiyyəti maraqlandıran və narahat edən bir sıra digər məsələlərlə birlikdə ədəbiyyat və mənəviyyatla bağlı problemlərə də xüsusi yer ayrılmışdı. Heydər Əliyev Nizaminin səkkiz əsr əvvəl öz əsərlərində irəli sürüb əsaslandırdığı bir çox mənə-

vi-əxlaqi qənaətlərin, humanizm və ədalətlilik prinsiplərinin bu gün də yaşarı olduğunu, onun yalnız öz doğma xalqına deyil, bütün bəşəriyyətə, insanlığa xidmət etdiyini göstərmişdi”.[1]

İmadəddin Nəsimidən bəhs açılırkən, Heydər Əliyev obrazında Nəsimi hünərvərliyi qabardılır: 1972-ci ildə bir sıra dairələrin şairi “türkmənləşdirməyə” cəhd etmələrinə rəğmən, “Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi, eləcə də yaxından qayğısı ilə Azərbaycanda keçirilən Nəsimi təntənələri böyük humanist şairin həm soy-kök, həm də yaradıcılıq baxımından daha qədim ədəbi-mədəni ənənələri ilə seçilən Azərbaycan xalqının yetirməsi olduğunu, bununla yanaşı, türkcə danışan bütün xalqların da ədəbiyyatının inkişafında mühüm rol oynadığını bir səslə təsdiq etdi”.[2]

Məhəmməd Füzulidən danışarkən, Heydər Əliyev Füzuli aliliyinin qoruyucusu və ali məqam tərcümanı olaraq vəsf olunur: “Azərbaycan tarixində Azərbaycan dövlətçiliyinin üç zirvəsi əbədiləşib: Atabəylər, Şirvanşahlar və Səfəvilər. Biz belə hesab edirik ki, Nizami Atabəylər, Xaqani və Nəsimi Şirvanşahlar, dahi Füzuli Səfəvilər fütuhatının yetirmələri idi. Maraqlı burasıdır ki, Heydər Əliyev adıçəkilən sənətkarlara məhz həmin dövlətçilik kontekstində, tarixilik əsasında dəyər verirdi. Məsələn o, M.Füzulinin 500 illiyini keçirən Dövlət Komissiyasının iclasında demişdi: “Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısında xidmətlərinə verilən qiymətdir. Eyni zamanda həm də mədəniyyətimizi, tariximizi təbliğ etmək üçün çox əlverişli fürsətdir və biz bundan hərtərəfli istifadə etməliyik”. Həqiqətən də, Füzulinin 1994-cü ildən başlayıb XX əsrin sonuna qədər davam edən yubiley tədbirləri təkcə Füzulinin cahanşümul irsinin deyil, həm də orta çağlar Azərbaycan tarixinin təbliğinə çevrildi”.[3]

Heydər Əliyevin müstəqillik illərində çapdan çıxmış kitabarını dəyərləndirərkən, Yaşar Qarayev tarixin min il qabaqkı dərinlərinə baş vurur: “Bir Prezident kimi bu cildlər Heydər Əliyevin ilk kitablarıdır. Və bu ilk kitablar dövlətçilik sahəsində bizim minilliyin əv-

---

[1] Teymur Kərimli, Vilayət Quliyev, Heydər Əliyev və klassik ədəbiyyat // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s. 113

[2] Yenə orada, s. 117

[3] Nizaməddin Şəmsizadə, Heydər Əliyev və Azərbaycançılıq // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s. 239-240

vəlinin (1069) ilk böyük kitabını mənim yadıma salır: "Xoşbəxtlik haqqında elm" kitabını – "Qutadqu biliyi". Türk dövlətçiliyi haqda informasiya dünyaya ilk dəfə bu kitabdan yayılıb. "Müstəqillik haqqında elm" kitabı! – qarşımızdakı bu beş cildin birlikdə adına da belə bir açıqlama və təfsir vermək olar..."[1]

Akademik Ramiz Mehdiyev Heydər Əliyevin misilsiz dövlətçilik hünərini yalnız tarixin dərinliyində - Şah İsmayıl Xətainin dövlət və dil quruculuğu siyasətində görüb, müqayisə edir: "Məgər Heydər Əliyevin və Şah İsmayıl Xətainin Azərbaycan qarşısında bu və digər xidmətləri onları oxşar tarixi şəxsiyyətlər, həqiqi vətənpərvərlər, öz dövrünün siyasi dühaları hesab etmək üçün bizə mənəvi haqq vermirmi? Onlar müstəqil Azərbaycan dövlətinin yaradılması uğrunda yorulmadan mübarizə aparır, iqtisadi tərəqqinin, elmin, mədəniyyətin, Azərbaycan dilinin və s. qeydinə qalırdılar..."[2]

Yaxın tarixlə müqayisədə isə ən çox Nəriman Nərimanov – Heydər Əliyev paralelinə diqqət yetirilir: "XX əsrdə, Azərbaycan dövlətinin mövcud olduğu səksən ilə yaxın bir müddət ərzində xalqın mənəvi sərvətlərinə, onun dilinə, ədəbiyyatına son dərəcə yüksək diqqətlə yanaşmaq, hər vasitə ilə bu mənəvi dəyərlərin inkişafına, tərəqqisinə, yayılmasına çalışmaq baxımından yalnız iki dövlət xadiminin, xalqımızın dövlətçilik və milli inkişaf tarixində diqqətəlayiq rol oynamış iki şəxsiyyətin – Nəriman Nərimanovun və Heydər Əliyevin adlarını qoşa çəkmək mümkündür..."[3] Bircə fərqlə: Heydər Əliyev dühası sələfinin buraxdığı tarixi səhvləri dəf edərək, müstəqil Azərbaycan idealını həyata keçirə bilir: "Mübaliğəsiz demək olar ki, bütün Azərbaycan xalqı, ilk növbədə isə Azərbaycan ədəbiyyat və mədəniyyət xadimləri Nəriman Nərimanov tipli yeni milli rəhbəri bir də aradan təxminən əlli il keçəndən sonra, 1969-cu ilin iyulunda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin şəxsində tapdılar. Doğrudur, keçmiş Sovet İttifaqı Kommunist Partiyasının XX qurultayından sonra, Xruşşovun stalinizm buzlarını əritməyə çalışdığı dövrdə Azərbaycana rəhbərlik edən İmam Mustafa-

---

[1] Yaşar Qarayev, Müstəqillik dövrünün milli öndəri // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, Bakı, Elm, 1998, s. 132

[2] Ramiz Mehdiyev, Heydər Əlyevlə Şah İsmayıl Xətai – oxşar tarixi şəxsiyyətlər- "Azərbaycan" qəzeti, 25 aprel 2013

[3] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s. 196

yev, Mirzə İbrahimov kimi rəhbərlər milli-mədəni inkişaf istiqamətində müəyyən işlər görməyə təşəbbüs göstərmişdilər. Lakin onların istəklərinin bütün nəcibliyinə baxmayaraq, fəaliyyət taktikası və qarşıya qoyulan planların realizə yolları əsaslı şəkildə götür-qoy edilmədiyindən, eləcə də ümumilikdə fəaliyyət strategiyasının mahiyyəti kifayət qədər düzgün müəyyən edilmədiyindən, mühüm nəticələr əldə etmək mümkün olmamışdı..."[1]

Bu məqamda Ulu öndərin tarixi obrazının yalnız müasir Türkiyənin banisi böyük Atatürklə yanaşı gətirilməsindən danışmaq olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan – Türkiyə münasibətlərindən söz açarkən demişdir: "Mustafa Kamal Atatürk dünyanın ən görkəmli şəxsiyyətlərindən biridir. Böyük dövlət xadimi, siyasi xadimdir. Onun Türkiyə qarşısında, bütün türk dünyası qarşısında misilsiz xidmətləri olmuşdur. Ən böyük xidməti isə Türkiyə Cümhuriyyətini yaratmasıdır. Müasir Türkiyə Mustafa Kamal Atatürkün əsəridir. Necə ki, müasir Azərbaycan Heydər Əliyevin əsəridir..."[2]

Ulu öndərin Türkiyənin xilaskarı Atatürklə müqayisəsinə ilk dəfə yazıçı Anar 1993-cü ilin 21 sentyabr günündə Heydər Əliyevin ziyalılarla tarixi görüşündəki məruzəsində yer vermişdir: "Azərbaycan bu gün tarixinin, doğrudan da, ən ağır günlərini yaşayır və çoxları kimi mənim də bu ağır günlərdən qurtulmaq ümidlərimiz Heydər Əliyevin rəhbərliyə gəlməsi ilə bağlıdır... Tarixi şəxsiyyətləri müqayisə etmək düzgün deyil, amma ölkələrin düşdüyü tarixi situasiyaların müəyyən oxşarlığı olur. Türkiyənin ən ağır günlərində tarixin meydana çıxardığı böyük bir şəxsiyyət – Atatürk Türkiyəni həm xilas etdi, qurtardı, həm də qurdu, gələcəyini sağlam demokratik əsaslarda qurdu. Əlbəttə, tək əldən səs çıxmaz. Amma müxtəlif əqidələrə sahib olan siyasi xadimlərin birgə səyinə, ziyalıların real yardımına əsaslanan yeni rəhbərliyin Azərbaycanı həm qurtaracağına, həm də quracağına inanmaq istəyirəm..."[3]

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s. 198

[2] Azərbaycanda Atatürk Mərkəzinin açılış mərasimində Prezident İlham Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 11 aprel 2004

[3] Anar, Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 89-90

Akademik Nizami Cəfərov “Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir” kitabında[1] hər iki tarixi şəxsiyyətin öz milləti, türk dünyası və bütövlükdə bəşəriyyət qarşısında xidmətlərini geniş şərh etməklə, əsrin təcrübəsini özündə ehtiva edən tarixi obrazın vüsətinə diqqət çəkir: “Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin yaradıcısı Atatürkə münasibəti yalnız bir böyük dövlət xadiminin başqa bir böyük dövlət xadiminə yüksək qiymət verməsi deyil, eyni zamanda tarixin kifayət qədər sərt sınaqlarından çıxmış mükəmməl bir siyasi-ideoloji təcrübə sisteminin (atatürkçülüyün!) müasir dövrün həm lokal (Azərbaycan), həm də qlobal (ümumdünya) tələblər baxımından dəyərləndirilməsi kimi də diqqəti çəkir. Atatürk türk xalqını, türk dövlətçiliyini, Heydər Əliyev isə Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini xilas etmişlər. Və əlahəzrət Tarix dəfələrlə sübut etmişdir ki, bir dahinin fəaliyyəti ondan sonra gələn başqa bir dahinin fəaliyyətində daha mükəmməl, daha canlı şərh olunur...”[2]

Ulu öndərin 1999-cu il noyabrın 1-də Beynəlxalq Atatürk Sülh Mükafatı ilə mükafatlandırılması da həmin tarixi paralelliyin qanunauyğun sonucu olaraq qiymətləndirilir: “Ümumiyyətlə, Atatürk Sülh Mükafatı dünyanın ən böyük ictimai-siyasi xadimlərinə verilir. Yəni o insanlara ki, öz geniş ictimai-siyasi, ideoloji imkanları ilə bir şəxsiyyət kimi dünyadakı sülh proseslərinə təsir etmək gücünə malikdirlər... Heydər Əliyevin müxtəlif miqyaslarda aparıcı siyasəti sülh yaratmaqdır, gələcək inkişafı sülh şəraitində təsəvvür etməkdir...Ona görə də bu mükafat Heydər Əliyevə əsas təyinatı üzrə verilib”.[3]

Heydər Əliyev şəxsiyyətinin ən müxtəlif aspektlərdən doğurduğu assosiasiyalar ədəbiyyatda adının, obrazının, fəaliyyətinin həmçinin dünyanın məşhur simaları ilə yanaşı qoyulmasını şərtləndirmişdir. Hüseynbala Mirələmov və Viktor Andriyanov “Görkəmli adamların həyatı” (JZL) seriyasından çap olunmuş “Heydər Əliyev” kitabında Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlib Azərbayca-

---

[1] Nizami Cəfərov, Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir. Bakı, AzAtaM, 2002

[2] Nizami Cəfərov, Azərbaycan Atatürkçülüyü, yaxud Heydər Əliyev Atatürk haqqında. - Azərbaycanda Atatürk Mərkəzinin Bülleteni, Bakı, AzAtaM, 2003, yaz. s. 20

[3] Nizami Cəfərov, Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir. Bakı, AzAtaM, 2002, s. 15-17

nı xilas etməsi fenomenini General de Qollun hakimiyyətə qayıdıb Fransanı tarixi böhrandan qurtarması ilə müqayisə edirlər: “1958-ci ilin may ayında Kolombe malikanəsində tənha yaşayan general de Qoll Fransanın çağırışıyla Parisə qayıtdı. 1990-cı ilin iyul ayında Azərbaycanın çağırışıyla Heydər Əliyev özünün Moskvadakı qərib-lik həyatından ayrılaraq vətənə döndü. Geri dönəndə hər ikisinin 67 yaşı vardı... Onlar dar gündə öz vətənlərini xilas etmək üçün qayıt-dılar. Biri – Fransanın birliyini və müstəqilliyini, o biri isə - Azər-baycanın bütövlüyünü və suverenliyini təmin etmək naminə...”[1]

Xalq yazıçısı Anar “Unudulmaz görüşlər” əsərində Heydər Əliyevin böyük iradə, cəsarət, ağıl və mübarizə əzmi sayəsində “Kreml həbsi”ndən qurtulub, xalqının azadlığı uğrunda zəfər yürü-şünə başlamasını Napaleonun sürgündən qurtulub Fransada yüz günlük hakimiyyətə gəlişi ilə qiyas edir: “Amma məsələ ondadır ki, Heydər Əliyevin müzəffər qayıdışı yüz gün çəkmədi, ömrünün so-nuna qədər davam etdi”.[2]

Xalq yazıçısı Elçin də 1992-ci ildə qələmə aldığı “Dünya axi-rət əkini” essesində Heydər Əliyevi Napoleonla yanaşı gətirir, am-ma fərqli tarixi kontekstdə. Sovet dönəmini nəzərdə tutaraq Elçin yazır: “Artıq çox uzaqlarda qalmış aspirantlıq illərində haradasa oxumuşdum ki, (deyəsən akademik Tarlenin fikridir) sarsıdıcı inqi-lablardan, yakobinçilikdən və cəmiyyətin lyumpenləşməsindən son-ra XVIII əsrin sonlarında, XIX əsrin əvvəllərində Fransada Napole-on hadisəsi zərurət idi, amma bu adamın məhz Korsikalı Bonapart olması təsadüfdür. Bu fikri şəxsiyyətlərin müqayisəsi üçün yox, iqti-bas etmək üçün xatırladıram. Fikirləşirəm ki, görünür, Azərbaycan-da da 28 apreldən, “bəysizləşdirmə”dən, kollektivləşdirmədən, 37-dən sonra, o dövr üçün Əliyev hadisəsi zərurətin ifadəsi idi. Bəlkə də fatalizmə qapılıram, amma dediyim odur ki, Azərbaycanın öz tam müstəqilliyi uğrundakı mübarizəsindən əvvəl imkan daxilində özünütanıtma və özünütəsdiq mənasında yəqin ki, “Əliyev döv-rü”ndə bir zərurət var idi...”[3]

Tarixin ekstremal situasiyalarında Heydər Əliyev hünərinin miqyas və mənası ədəbiyyatda Şekspir ehtirasları ilə müqayisə olu-nur, ölçülür: “Ölkələrin və xalqların tarixində və taleyində elə mə-

---

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov, Heydər Əliyev. Bakı, Nurlan, 2008

[2] Anar, Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 85

[3] Elçin, Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 234

qamlar olur ki, həmin çətin dövrlərdə yaranmış ağır siyasi-hərbi vəziyyət, ictimai-iqtisadi və mənəvi böhran Şekspirvari "ölüm, ya olum" sualını sərt şəkildə meydana qoyur. XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycan belə bir gerçək sual qarşısında idi... Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev tarixin bu cür məsuliyyətli məqamında ölkənin və dövlətin milli qurtuluşu vəzifəsini yerinə yetirmək, həyata keçirmək zərurəti ilə üz-üzə qalmışdı. Böyük dövlətçilik təcrübəsinə, yüksək liderlik qabiliyyətinə malik olan bu qüdrətli dövlət xadiminin yenidən siyasi cəbhəyə qayıdışını təkcə xalq deyil, həm də Zaman tələb edirdi. Çətin sınaqlarda möhkəmlənmiş zəngin siyasi təcrübəyə malik Heydər Əliyev Azərbaycan xalqı qarşısında həmin məsuliyyətli tarixi vəzifəni qəbul etmiş, böyük xilaskarlıq missiyasını dönmədən, qətiyyətlə həyata keçirmişdir..."[1]

Heydər Əliyevin tarixi obrazının təfsirindən söz gedərkən, o fikir də diqqəti çəkir ki: "zira, zaman keçdikcə, Azərbaycan torpağında, Türk dünyasında və ümumiyyətlə, dünyada insan nəsilləri bir-birini əvəzlədikcə hər nəslin öz Heydər Əliyevi olacaq, hər nəsil öz Heydər Əliyevinə öz dünyagörüşü, öz problemləri baxımından yanaşacaq və onu narahat edən suallara bu nəhəng şəxsiyyətin çoxyönlü fəaliyyət arenasında cavablar tapacaq. Necə ki, bu gün hər bir azərbaycanlı onu düşündürən suallara cavab almaq üçün öz Nizamisinə, öz Füzulisinə, öz Cavidinə, öz Mirzə Cəlilinə, öz Sabirinə üz tutur".[2]

Belə ki, ilk növbədə, ədəbiyyat mövzuya özünə yaxın, görünən tərəfdən, bilavasitə: "Heydər Əliyev və ədəbiyyat" müstəvisindən yanaşır. Bu baxımdan AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun bir qrup aliminin (Bəkir Nəbiyev, Yaşar Qarayev, Məhərrəm Qasımlı, Vilayət Quliyev) hazırladığı[3] və 2009-cu ildə daha təkmil variantda Dövlət Mükafatına layiq görülmüş "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabını[4] göstərmək olar. O cümlədən kitaba daxil olan "Heydər Əliyev haqqında etüdlər" (Bəkir Nəbiyev),

---

[1] İsa Həbibbəyli, Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, s. 11-12

[2] Teymur Kərimli, Vilayət Quliyev, Heydər Əliyev və klassik ədəbiyyat // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s. 92

[3] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Elm, 1998

[4] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009

“Müstəqillik dövrünün milli öndəri” (Yaşar Qarayev), “Heydər Əliyev və Azərbaycan folkloru” (Məhərrəm Qasımlı), “Heydər Əliyev və klassik ədəbiyyat” (Teymur Kərimli, Vilayət Quliyev), “Heydər Əliyev və ədəbi proses” (Nikpur Cabbarlı), “Heydər Əliyev və azərbaycançılıq” (Nizaməddin Şəmsizadə) oçerkləri Heydər Əliyevin vətənpərvər bir dövlət xadimi kimi milli ədəbiyyatın təbliği və inkişafına göstərdiyi əvəzsiz xidmətini üzə çıxarmaqla yanaşı, eyni zamanda onu ensiklopedik biliyə malik ədəbiyyat bilicisi, ədəbiyyatın himayədarı və mesenatı kimi də təqdim edir. “Bu doğru qənaətdir ki, bəşər tarixində, dünyanın müxtəlif ölkələrində elm və mədəniyyətə, ədəbiyyat və incəsənətə himayədarlığı ilə ad çıxaran, mesenat kimi tanınan dövlət başçıları və siyasi xadimlər az olmayıb. Lakin Heydər Əliyevi onlardan fərqləndirən mühüm bir cəhət var: “O öz doğma xalqının ədəbiyyat və mədəniyyətinə yalnız himayədarlıq etməklə kifayətlənməmişdir, həm də bu mənəviyyat sahələrinin dərin bilicisi, dönməz təəssübkeşi, alovlu təbliğatçısı kimi tanınmışdır” (Fəttah Heydərov)... Nizami Gəncəvidən tutmuş Məmməd Araza və onun digər müasirlərinədək Azərbaycan ədəbiyyatında elə bir görkəmli sima tapılmaz ki, Heydər Əliyev onun əsərlərini oxumuş, barəsində fikir və qənaətlərini söyləmiş olmasın”.[1]

Bununla belə, demək gərəkdir ki, ədəbiyyatın Heydər Əliyev irsinə, şəxsiyyətinə, obrazına müraciət və müdaxiləsi hələ ilkin mərhələdədir və bu, bir sıra obyektiv səbəblərlə izah olunmalıdır. Belə bir xalq deyimi vardır ki, dağın nəhəngliyini yaxından görmək olmur. Heydər Əliyevin miqyaslı fəaliyyəti hələ o qədər yaxında, gözümüzün önündədir ki, onu tamlıqda təsəvvür və ehtiva etmək, tarixi dəyərini bütünlüyü ilə qiymətləndirmək çətindir. “Nəhənglər məsafədən (istər məkan, istərsə də zamanca olsun) daha aydın görünürlər, onların nəhəngliyi daha bütöv şəkildə üzə çıxır, ətrafdakılar tərəfindən bir sistem kimi qavranılır. Azərbaycan xalqının öz zəngin və keşməkeşli tarixi boyu yetirdiyi ən böyük şəxsiyyətlərin ön sıralarında duranlardan biri olan, xalqımızın tarixi taleyinin müəyyənləşməsində müstəsna rol oynayan və bu taleyi əbədi bir səadət məcrasına salan Heydər Əliyev dühası da bu baxımdan istisna təşkil etmir. Böyük öndərin fiziki yoxluğundan keçən hər il onun unikal icti-

[1] Bəkir Nəbiyev, Heydər Əliyev haqqında etüdlər // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s. 4

mai-siyasi fəaliyyətinin indiyə qədər gizli qalan daha bir cəhətini üzə çıxarır və heç də qəribə deyildir ki, bu cəhətlər praktik baxımdan tükənməzdir..."[1]

Eyni zamanda Heydər Əliyevin fəaliyyətinin miqyası o qədər əhatəli, geniş və hüdudsuzdur ki, adekvat obrazını yaratmaq müasirləri üçün çətin və hətta müşkül olmuşdur: "Onu yaxından tanıyanların müşahidələri də sübut edir ki, Heydər Əliyev on illər boyu öz yüksək erudisiyası, zəngin bilik ehtiyatı, heyrətamiz təhlil qabiliyyəti, hər bir mövzuya yaradıcı münasibəti ilə qarşısında çıxış etdiyi auditoriyanı məhz həmin sahə üzrə ixtisaslaşması həqiqətinə inandıra bilmişdi. Buna görə də memarlar onu memar, kino işçiləri kinoşünas, tarixçilər tarixçi, ədəbiyyatçılar ədəbiyyatşünas kimi qəbul edirdilər. Onun politologiya, dövlət idarəçiliyi, iqtisadiyyat, bank-maliyyə işi və s. sahələrlə bağlı nitq və çıxışlarını, mülahizə və fikirlərini də buraya əlavə etsək, gözlərimiz önündə həqiqətən də XX əsrdə siyasətçilər və dövlət xadimləri arasında lap az təsadüf edilən bir ensiklopedistin, özəlliklə də yorulmaq nə olduğunu bilməyən bir humanitarın yaddaqalan, koloritli obrazı canlanar".[2]

Onu da vurğulamaq əbəs olmaz ki, Heydər Əliyev dühasının möhtəşəmliyi bəzən qələm sahiblərinə, sənətkarlara mövzuya ehtiyatla yanaşmağı təlqin etmiş, əsl yaradıcılıq xofu da doğurmuşdur. Əjdər Olun "Canlı lətifələr, əhvalatlar, deyimlər" kitabında xarakterik bir əhvalat var: "Neftçalalı rəssam dostum Nadir danışırdı ki, 1976-cı ildə tanınmış rəssam Adil Hacıyev Neftçala rayon partiya komitəsinin sifarişilə çəkdiyi respublika başçısı Heydər Əliyevin tribunada çıxış edən vəziyyətdə təsvir edilmiş iri portretini təhvil vermək üçün rayona gəlmişdi. O, bələdçi kimi məni də özünə qoşdu və biz portreti götürüb raykom katibi İbrahim Qurbanovun qəbuluna getdik..." Raykom katibi: "biz beləsini sifariş verməmişdik", – deyə portreti qəbul etmək istəmir. "Məlum oldu ki, İbrahim Qurbanov Heydər Əliyevin fotodan üzü köçürülmüş, donuq portretini istəyirmiş. O, rəssam təxəyyülü ilə çəkilmiş əsəri yaxına buraxmaq istəmirdi. Biz kor-peşiman kabinetdən çıxmaq istəyəndə birdən hökumət telefonu zəng çaldı. İbrahim Qurbanov dərhal dəstəyi götürdü

[1] Teymur Kərimli, Vilayət Quliyev, Heydər Əliyev və klassik ədəbiyyat // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s. 92

[2] Bəkir Nəbiyev, Heydər Əliyev haqqında etüdlər // Bəkir Nəbiyev, Seçilmiş əsərləri. Beş cilddə, 4-cü cild, Bakı, Çinar-Çap, 2009, s. 12

və "Bəli, yoldaş Əliyev!" – deyib xeyli həyəcanlı bir görkəm aldı..." Telefon danışığından sonra katib otağı tərk etmiş rəssamları yenidən geri çağırır. "Kabinetə daxil olanda İbrahim Qurbanov Adil Hacıyevi təzə görmüş kimi kreslodan durub şux halda ona sarı gəldi və rəssamın əlini möhkəm sıxıb dedi: - Portreti qəbul etdik! Mən sizin çəkdiyiniz portreti Heydər Əliyevlə danışan dəqiqələrdə duydum. Mən onunla danışa-danışa sizin çəkdiyiniz portretə baxırdım. Sizin portretdə Heydər Əliyevin bircə səsi çatmırmış. Telefonda onun səsini eşitdikcə portret gözümün önündə nəfəs alırdı. Siz Heydər Əliyevi dəqiq müşahidə etmisiniz..."[1]

Bəlkə də buna görədir ki, Ulu öndərin ədəbiyyatda bədii obrazı tədricən, bu və ya digər yöndən ehtiva olunur, tarixən dərk olunduqca daha çox və aydın görünməyə başlayır. 2018-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ümumi redaktəsi ilə hazırladığı "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" adlı monoqrafiyada[2] ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq bədii ədəbiyyatın Heydər Əliyev fenomeninə münasibəti, reaksiyası, dahi şəxsiyyətin bədii əsərlərdə obrazının təcəssümlənməsi məsələləri sistemli tədqiq olunur.

Kitabdan görünür ki: Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi təbii bir heyrət və heyranlıq hissi doğurmuş və heç təsadüfi deyil ki, ən çox və ilk olaraq poeziyada əks olunmuşdur. Heydər Əliyev fəaliyyətinin çoxçeşidliyi, suqqestivliyi, mürəkkəbliyi ən çox ədəbi publisistika və esseistikanın predmeti olmuş, ən müxtəlif aspektlərdən təcəssümünü tapmışdır. Heydər Əliyevin həyat və bioqrafiyasının müxtəlif dövrlərindən süjet və epizodlara üz tutan bədii proza tarixiliyə diqqət yetirməyə, Ulu öndərin obrazını daha çox dolayısı, hadisələrdən, xalqın, cəmiyyətin, bu və ya digər qəhrəmanların nəzərindən canlandırmağa üstünlük vermişdir.

"Heydər Əliyevin həyat yolunu bütövlükdə ehtiva edən, işıqlandıran ayrıca bədii əsər, tarixi roman yazılmamışdır. Bütün çətinliyi və məsuliyyəti ilə birgə, görünür ki, bu hələ yaxın gələcəyin işidir. Amma çox əlamətdar haldır ki, Ulu öndərin ilk bioqrafları dahi

[1] Əjdər Ol, Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun Nəşriyyatı, 2015, s. 15-16

[2] İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Əlizadə Əsgərli, Elnarə Akimova, Aygün Bağırlı, Lalə Həsənova. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil, 2018

şəxsiyyətin həyatını, zəngin və nəhəng fəaliyyətini araşdırmış və məhz bədii-sənədli janrda qələmə almışlar. Heydər Əliyevin tarixi obrazını əks etdirməklə birgə, ilk bədii obrazını da həmin əsərlər bizə təqdim edir".[1] Söhbət Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" bioqrafik silsiləsindən çap olunmuş "Heydər Əliyev"[2] və Elmira Axundovanın altı cilddə, irihəcmli "Heydər Əliyev: şəxsiyyət və zaman"[3] kitablarından gedir.

Bilavasitə Heydər Əliyev obrazına nisbətən az müraciət edən teatr və dramaturgiyadır. Bu da, əslində, canlı həyat və hərəkət sənəti olan teatrın özünün mövzuya son dərəcə həssaslığından irəli gəlir. Canlı və təkrarsız obrazı bugün də müasirlərinin yaddaşında möhkəm yer tutan Ulu öndərin səhnə təcəssümünü yaratmaq sanki əlçatmaz görünür. Bu baxımdan Əjdər Olun "Canlı lətifələr, əhvalatlar, deyimlər" kitabından daha bir tutarlı misal gətirmək yerinə düşər. "Yetmişinci illərdə Heydər Əliyev Azərbaycan dövlətinə rəhbərlik edərkən vaxtaşırı müxtəlif tədbirlərlə bağlı olaraq respublikamızın rayonlarına gedər, əmək sahələrinə baş çəkər, zona müşavirələri keçirərdi. Belə səfərlərdə həmişə başının dəstəsində dövlət xadimlərilə yanaşı, yazıçılar, bəstəkarlar, rəssamlar, aktyorlar və başqa sənət adamlarından da olardı. Bir dəfə hansı bölgəyə səfərdəsə "Uzaq sahillərdə" filmində Mehdi Hüseynzadə rolunun ifaçısı aktyor Nodar Şaşıqoğlu da Heydər Əliyevlə birgə olur. Həmin səfərdə iştirak edən yazıçı Anar mənə danışırdı ki, görüşlərin birində elə məqam yarandı ki, Nodar Şaşıqoğlu Heydər Əliyevə ərklə dedi: "- Yoldaş Əliyev! Məndən muğayat olun, bir də gördünüz ki, Sizin rolunuzu oynayıram!" Heydər Əliyev halını dəyişmədən ona belə cavab verdi: "-Buna ehtiyac yoxdur, mən öz rolumu özüm oynayıram!"[4]

Ulu öndər Heydər Əliyevin tarix səhnəsində oynadığı rolun əvəzsizliyi və təkrarsızlığı bugün artıq danılmaz həqiqətdir. Bu isə heç də mövzudan yayınmağı deyil, əksinə, ona daha yaxından müdaxilə və müraciət etməyi tələb edir. Heydər Əliyevin zəngin ideya

---

[1] İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Əlizadə Əsgərli, Elnarə Akimova, Aygün Bağırlı, Lalə Həsənova. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil, 2018, s. 152

[2] Viktor Andriyanov, Hüseynbala Mirələmov, Heydər Əliyev. Bakı, Nurlan, 2008

[3] Elmira Axundova. "Heydər Əliyev. Şəxsiyyət və zaman". 6 cilddə. Bakı, Ozan, I c. – 2007, 352 s.; IIc. – 2007, 784s.; III c. – 2009, 804 s.; IV c. – 2008, 327 s.; V c. – CBS, 2013, 736 s.; VI / 1 – CBS, 2013, 480 s.; VI/2 - CBS, 2013, 496 s.

[4] Əjdər Ol, Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun Nəşriyyatı, 2015, s. 14-15

və mənəvi irsinin elmi öyrənilməsi, mənimsənilməsi ilə yanaşı, tarixi obrazının bədii dərki, canlandırılması zərurəti də gündəmdədir.

## Heydər Əliyevin ədəbi mühitdə obrazı

Heydər Əliyevin ədəbiyyata, ədəbi mühitə marağı son dərəcə böyük sənət və ədəbiyyat sevgisindən doğmuşdur. Ulu öndər ədəbiyyatın xalqın, millətin həyatında əvəzsiz olduğunu çıxışlarında dəfələrlə vurğulamışdır: "Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür".[1]

Heydər Əliyev ədəbiyyatın eyni zamanda hər bir insanın, ayrıca fərdin həyatında misilsiz rolunu məxsusi vurğulayırdı: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur…"[2]

Heydər Əliyev ədəbiyyat və sənətin öz həyatı və taleyində mühüm rolu və iştirakını da minnətdarlıqla anırdı: "Birincisi, şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam… Yəni, onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam…"[3]

Hələ uşaqlıq çağlarından qeyri-adi istedadı, universal bacarıqları ilə seçilən Heydər Əliyevin ilkin ədəbiyyat sevgisi də erkən təzahür etmişdir. Ulu öndərin bioqrafı Elmira Axundova "Heydər Əli-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 410-411

[2] Yenə orada, s.251

[3] Yenə orada, s. 413-414

yev: şəxsiyyət və zaman" tədqiqatında həmin məqamları çoxsaylı xatirələr, faktlar, təhlillər əsasında təfərrüatlı araşdırır.

Heydər Əliyevin ədəbiyyata və bütövlükdə sənətə böyük sevgisi orta məktəbdə oxuduğu illərdən, üzvü olduğu çoxsaylı dərnəklərdən başlayır. Bu barədə roman-tədqiqatda "Heydər Əliyevlə bir sinifdə oxuyan, hətta bir müddət eyni parta arxasında oturan" Azərbaycanın xalq artisti Zəroş Həmzəyeva xatırlayır: "Məktəbdə biz səylə oxuyur, çoxlu bədii ədəbiyyat mütaliə edir, Nizami Gəncəvidən tutmuş o dövrdə gənclərin sevimlisi olan Səməd Vurğun, Süleyman Rüstəm kimi cavan şairlərin əsərlərini əzbər öyrənirdik. Biz incəsənətə maraq göstərir, təbiəti sevir, öz diyarımızın, Azərbaycanın tarixini yaxşı bilirdik. Heydər aramızda qabiliyyət cəhətdən birinci idi, o hər şeyi hamımızdan yaxşı bilir, hamımızdan yaxşı oxuyurdu..."[1]

Qardaşı Aqil Əliyev məktəb illərində Heydər Əliyevin mütaliə dairəsinin genişliyindən söz açır: "Heydər çox mütaliə edirdi, o vaxtlar əldə edilə bilən bütün bədii ədəbiyyatı oxumuşdu. Evimizdəki dolab kitab ilə dolu idi. O, kitabları ya mağazadan alır, ya da kitabxanadan gətirirdi. Özü də oxuyurdu, biz də. Bu, Azərbaycan dilində olan kitablardı. Sonra isə o, rus dilində kitablar gətirməyə başladı. Bu hələ onun orta məktəbdə oxuduğu vaxtlar idi. Yadımdadır ki, o, rus dilində Hötenin "Faust" əsərini gətirmişdi. Onun bu kitabı necə maraqla oxuduğunu görüb, mən də həvəsləndim, ancaq tezliklə bu fikrimdən vaz keçdim, çünki heç bir şey başa düşmürdüm. Heydər ədəbiyyatı çox sevir, onu həm oxuyur, həm də yaxşı qavrayırdı..."[2]

Ulu öndərin bioqrafiyasında ədəbiyyatla bağlı məqamlarda belə bir ilahi sirrə yozulası fakt da məxsusi diqqət çəkir. Heydər Əliyevin doğulub boya-başa çatdığı, "uşaqlıq illərini keçirdiyi" küçə ədəbiyyat dühalarından biri Aleksandr Sergeyeviç Puşkinin adını daşıyır. Həmin məqamı Ulu öndər özü yada salıb vurğulayır: "Puşkin küçəsi budur. Bu küçə axıra qədər, Şahab məhəlləsinə qədər Puşkin küçəsidir. Özü də deyə bilərəm ki, Puşkin küçəsi yuxarıdan Əlixan məhəlləsindən gəlib keçir və Şahab məhəlləsinin axırında qurtarır. Mən sonralar bəzən deyirdim ki, bu küçəyə Puşkinin adı nə

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 56

[2] Yenə orada, s. 55

vaxt verilibdir. Puşkinin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Naxçıvanın mütəfəkkir adamları, gərək ki, o vaxt Sidqi, başqa bir-iki nəfər də olmuşdu, şairə öz münasibətlərini bildirmək üçün bu böyük küçəni Puşkin küçəsi adlandırmışlar. Mən də burada doğulmuşam...”[1]

Ola bilsin ki, tarixin məntiqindən, burada bir “sirr” yoxdur. Azərbaycanın qədim və ulu mədəniyyət ocaqlarından biri olmaqla yanaşı, XIX əsrin sonları, XX əsrin əvvəllərində Naxçıvan şəhəri həm də zəmanənin, sivil dünyanın izlərini, tendensiyalarını özündə daşıyır, Azərbaycanda cərəyan edən maarifçilik hərəkatının mühüm mərkəzlərindən birini təmsil edirdi. Amma hər bir insan bioqrafiyası sadəcə tarixin xronologiyasından yaranmır, taleyin sirri məhz o ilahi məqamlardadır ki, həmin xronolojidən bu və ya digər faktları, hadisələri, bəlirləri alıb özündə qapsayır, sırasını cızır.

Bu baxımdan roman-tədqiqatda Elmira Axundova həssaslıqla Heydər Əliyevin iki böyük ədəbiyyat sevgisi – Hüseyn Cavid və Cəlil Məmməqduluzadə sənətinə marağının yaranmasında həmən maarifçilik mühitinin roluna diqqət çəkir. Məsələ burasındadır ki, “Heydər Əliyevə pedaqoji texnikumda Azərbaycan dili və ədəbiyyatından dərs demiş sevimli müəllimi Lətif Hüseynzadə” vaxtilə Hüseyn Cavidin çalışdığı “Rüşdiyyə” məktəbində təhsil almışdı: “O illərdə Hüseyn Cavid Naxçıvanda yaşayırdı. O, məktəbimizdə ədəbiyyat nəzəriyyəsindən dərs deyirdi, bizi türk klassik poeziyasından nümunələrlə tanış edirdi. Biz Tofiq Fikrətdən, Namiq Kamaldan, Əbdülhəq Hamiddən əzbər şeirlər deyirdik...”[2] Lətif Hüseynzadə bu sevgini sevimli şagirdinə də ötürə bilmişdi. 1994-cü il noyabrın 2-də Türkiyə parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi zamanı Heydər Əliyev həmin məqamı belə vurğulayır: “İndi, ola bilər böyük bir sirr deyil, açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm – türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllim də var idi, bir müddət – iki-üç il mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim... Əbdülhaq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 33

[2] Yenə orada, s. 50

böyük yazıçı və şairlərinin rəsmləri indi də gözümün qabağındadır..."[1]

Lətif Hüseynzadə roman-tədqiqatda gənc Heydər Əliyevin Hüseyn Cavidə məxsusi sevgisini də yada salır, "danışır ki, onun sevimli şagirdi Cavidin "İblis" və "Şeyx Sənan" pyeslərindən istənilən parçanı çaşmadan əzbərdən söyləyə bilirdi..."[2] Bu faktı əsərdə məktəb yoldaşlarından İbrahim İsmayılov da xatırlayır: "Heydər bədii ədəbiyyatı, xüsusilə poeziyanı çox sevirdi. Hüseyn Cavid, Mikayıl Müşfiq... Sonralar Səməd Vurğun, Məmməd Rahim kimi şairlərin əsərlərindən nümunələr gətirməyi çox xoşlayırdı"[3]. Məhz həmin sevginin gücü idi ki, bütün həyatından keçirib, Heydər Əliyevə 1982-ci ildə, dahi şairin cənazəsini uzaq Sibirdən gətirib doğma torpağında dəfn etməyə təpər vermişdi: "Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim..."[4] Və məhz həmin əbədi sevgiydi ki, 1990-cı ilin iyun ayında uzaq Moskvadan doğma Naxçıvana qayıdarkən, Ulu öndər Vətən torpağına ziyarətini buradan başlamışdı: "Mən isə dedim ki, ilk addımımı Hüseyn Cavidin məzarının üzərinə doğru atacağam. Belə də oldu. Buraya gəldim, Hüseyn Cavidin qəbrini ziyarət etdim..."[5]

Heydər Əliyevin Cəlil Məmmədquluzadə irsinə ilk təması və sevgisi də gənclik dövrünə təsadüf edir. "30-cu illərin əvvəllərində "Molla Nəsrəddin"in illüstrasiyalı nömrələri, demək olar ki, hər bir naxçıvanlının evində var idi. Aqil Əliyev xatırlayır ki, böyük qardaşları Həsən və Hüseyn bu jurnalın onlarla nömrəsini alıb evdə iri qutularda saxlayırdılar. Pedaqoji texnikumda oxuyarkən Cəlil Məmmədquluzadənin Naxçıvan Dram Teatrında uğurla tamaşaya qoyulmuş "Ölülər" pyesi ilə tanış olandan sonra gənc Heydər sözün həqi-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 223-224

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 66

[3] Yenə orada, s. 64

[4] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 333

[5] Yenə orada, s. 330

qi mənasında sarsıntı keçirdi..."[1] 1990-cı ilin sonunda həmin təəssüratlar barədə Elmira Axundovaya Heydər Əliyevin özü danışır: "-Bu yazıçını mən gənclik çağlarımdan tanıyıram və sevirəm. Onunla ilk tanışlıq məktəb dərsliyindəki "Poçt qutusu" hekayəsi ilə başlayır, hekayələrini, "Danabaş kəndinin əhvalatları" povestini dəfələrlə oxumuşam. Ancaq məndə ən çox təəssürat oyadan "Ölülər" pyesi oldu. Yuxarı siniflərdə oxuyarkən mən teatra böyük maraq göstərir, tez-tez yerli dram teatrının tamaşalarına gedib baxırdım... Beləliklə, teatrımız Mirzə Cəlilin "Ölülər" pyesini tamaşaya qoydu və mən də böyük məmnuniyyətlə bu tamaşaya bir neçə dəfə baxdım. Yadımdadır ki, Kefli İskəndər obrazını İsa Musayev, Məşədi Oruc surətini Miribrahim Həmzəyev oynayırdı. "Ölülər" pyesi dərin fəlsəfi əsərdir. Öz fəlsəfi siqlətinə görə o, Azərbaycan ədəbiyyatının dramatik əsərləri arasında ilk cərgədə durur. Eyni zamanda onu digər əsərlərdən fərqləndirən cəhət dərin milli ruhu, xəlqiliyidir..."[2]

Mirzə Cəlil sevgisini də bütün ömründən keçirən Ulu öndər, müstəqil Azərbaycan dövlətinin rəsmi ideologiyası olaraq azərbaycançılığı formalaşdırarkən, ədibin bu sahədə fikir və xidmətlərini birincilər sırasında xatırlamışdır: "Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına, yaranmasına və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir..."[3] 1994-cü ilin dekabrında Cəlil Məmmədquluzadənin 125 illik yubileyindəki geniş və parlaq nitqində "Cümhuriyyət" əsərini təfərrüatlı şərh edərək: "onun yazılarında cümhuriyyət anlayışı bu gün bizim quracağımız demokratik, hüquqi dövlət prinsipləri ilə bir səsləşir... Biz bu gün bu prinsiplər əsasında demokratik hüquqi dövlət yaratmaq istəyirik, demokratik hüquqi cəmiyyət yaratmaq istəyirik..."[4] – söyləmiş və böyük klassikin arzularını həyata keçirməyə nail olmuşdur.

Heydər Əliyevin ədəbiyyata maraq və sevgisinin formalaşmasında digər klassiklərin rolu və yeri heç də az olmamışdır. 1994-cü ilin avqustunda Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 64

[2] Yenə orada, s. 64-65

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 243

[4] Yenə orada, s. 246

Komissiyasının iclasındakı çıxışında Ulu öndər xatırlayırdı: "Füzuli başqa ölkələrdə də məşhurdur. Lakin onu azərbaycanlılar qədər özününkü sayan yoxdur. Məsələn, xatirimdədir, 30-cu illərin ortalarında mən orta məktəbdə oxuyarkən Füzuli ilə bağlı tədbirlər keçirilir, Füzuli təbliğ olunurdu. Yaxud həyatımla bağlı bir şeyi qeyd etmək istəyirəm. Gənclikdə rəssamlığa böyük həvəsim var idi. Mənim çəkdiyim ilk rəsmlərdən biri Füzulinin portreti olmuşdur. Təxminən 1936-37-ci illərdə məktəbimizdə şagirdlərin rəsmlərindən ibarət sərgi təşkil etmişdilər. O vaxtlar belə şeylərə çox fikir verirdilər. Mənim çəkdiyim portret müsabiqədə birinci yer tutmuşdu. Əlbəttə, mən onu rəssamlıq əsəri adlandırmaq fikrində deyiləm, o, sadəcə olaraq, rəssamlığa həvəs göstərən gəncin çəkdiyi şəkil idi".[1]

Gənc Heydər Əliyevin rəssamlıq çalışmalarında(n) ədəbiyyat sevgisi bütöv bir xətlə keçir. Roman-tədqiqatda E.Axundova yazıçı Elçinlə söhbətindən belə bir epizodu təqdim edir: "Heydər Əliyevin ədəbiyyata, yaradıcılığa xüsusi meyli vardı. O, bir dəfə mənə dedi: "Bilirsən, həyatımın ən xoş günü ilk dəfə nə vaxt olub? Karandaşla Tolstoyun portretini çəkdiyim gün. Bu sevinc hissi indi də mənim qəlbimdədir".[2] Heydər Əliyevin sinif yoldaşlarından Dövlət Məmmədovun xatirələrindən də belə bir məqam keçir: "Heydərlə mən təsviri sənət dərnəyində məşğul olurduq, müəllimlərimiz bizə tapşırıqlar verirdilər. Yadımdadır ki, Heydər Puşkinin Danteslə duelini, Natalya Qonçarovanın portretini çəkmişdi. Bu şəkilləri yığıb, pedaqoji texnikumda sərgi təşkil etmişdilər. Heydər həmişə birinci, mən isə ikinci, ya da üçüncü yeri tuturduq..."[3]

Gənc Heydər Əliyevin ədəbiyyat sevgisi, təbii ki, yalnız klassiklərə münasibətdə deyil, müasiri olduğu şair və yazıçıların yaradıcılığına maraqda da özünü göstərir: "Texnikumda Heydər Əliyevlə eyni kursda oxuyan Səfərəli Babayev o günləri belə xatırlayır: Heydər Əliyev texnikumda təşkil edilən bütün tədbirlərdə mütləq iştirak edirdi. O, səhnəyə çıxıb gur səslə, aydın tələffüzlə Süleyman Rüstəmin məşhur şeirindəki "Çapayev çapa-çapa" misralarını söyləyəndə

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 204-205

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 69

[3] Yenə orada, s. 70

tələbə və müəllimlərlə ağzınadək dolu olan zal sükuta qərq olurdu..."[1]

Heydər Əliyevin müasir ədəbiyyatı ilk gəncliyindən, yaşadığı Naxçıvan mühitində dərindən mənimsədiyindəndir ki, həyatı boyu onu qiymətləndirmiş, ölkə rəhbəri olduğu dövrlərdə inkişafına çalışmış, müstəqillik dövründə çönüb arxaya baxanda da ən düzgün tarixi dəyərini verə bilmişdir. Azərbaycan yazıçılarının 1997-ci ildə keçirilən X qurultayında Ulu öndər deyirdi: "Biz, eyni zamanda, 63 il müddətində - 1934-cü ildən indiyədək yazıçılar qurultaylarının keçdiyi yolu da yüksək qiymətləndirməliyik. Biz bunu heç vaxt unutmamalıyıq. Bu gün natiqlərdən biri, gərək ki, Qabil müəllim dedi, o söylədi ki, Bəxtiyar müəllim rəyasət heyətində dedi ki, vaxtilə burada Səməd Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza, Mehdi Hüseyn və başqaları əyləşirdilər, indi biz əyləşmişik. Bəli, onların hər biri çox böyük yazıçı, şair, şəxsiyyət olub. Onlar XX əsr Azərbaycan ədəbiyyatının yaranmasında böyük xidmətlər göstəriblər..."[2]

Müasiri olduğu şair və yazıçıların hər birinin yaradıcılığı ilə yanaşı, şəxsiyyətinə, fəaliyyətinə də yüksək dövləti səviyyədə dəyər verən Heydər Əliyev, eyni zamanda xatirələrinə ehtiramla yanaşmış, canlı klassiklərlə ünsiyyətdə olduğu məqamları, görüşləri, anları böyük sevgi və riqqətlə anmışdır. 1995-ci il aprelin 16-da Məmməd Arazın yaradıcılıq gecəsindəki çıxışında Ulu öndər deyirdi: "Bəs bu insanları unutmaq olarmı? O insanlar bir gündə yetişməyib axı! Süleyman Rüstəm kimi adam, Səməd Vurğun kimi adam on illər ərzində yetişirlər. Azərbaycanın tarixi bunların tarixidir, bunların həyatıdır..."[3]

Müstəqillik illərində Süleyman Rüstəmin 90 illik yubileyini yüksək dövlət səviyyəsində keçirən Ulu öndər deyirdi: "Süleyman Rüstəm öz xasiyyəti, yaradıcılığı ilə çox hərarətli bir insan olubdur. Mənim xatirimdədir, ona "alovlu şair" deyirdilər. Bu, həqiqətən də belə idi. Həyatda da belə idi. Çox mərd insan idi. Mən onun şeirlərini orta məktəbdə sevə-sevə oxumuşam. Süleyman Rüstəmin əsərlə-

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 63

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 418-419

[3] Yenə orada, s. 257

rini gənc vaxtlarımda oxuyaraq onlardan böyük mənəvi qida almışam. 70-80-ci illərdə Süleyman Rüstəmlə bir yerdə işlədiyimiz zaman da mən həmişə onu böyük bir insan kimi görmüşəm. Xalqımız ona hörmət edibdir. O da həmişə xalqına, millətinə sadiq olubdur, böyük hörmət və ehtiramla yanaşıbdır..."[1]

1990-cı illərin əvvəllərində sovet dönəmi milli-mənəvi irsinə yanlış mövqedən qiymət verənlərə Heydər Əliyev yaşanmış tarixin öz məntiqi ilə cavab verirdi: "Bilirsiniz, indi bəziləri deyirlər, o, komsomol şeiri yazıb. Amma xalqımızı oyatmaq üçün Təbriz həsrəti ilə nə qədər şeirlər yazıb. Onun Şəhriyarla, Səhəndlə yazışmaları... Bax, bunların hamısını unutmaq olmaz... Süleyman Rüstəm hansı mövzunu götürsə, yazıbdır. Özü də ürəkdən, qəlbdən yazıbdır. Çox böyük vətəndaş, böyük insan olubdur. Ona görə də biz bunların yubileylərini qeyd etməliyik və gələcəkdə də bu məsələləri yaddan çıxarmamalıyıq..."[2]

Heydər Əliyevin Səməd Vurğun poeziyası, sənəti, şəxsiyyətinə dərin sevgisi, ali münasibəti müasir ədəbiyyat haqqında az qala bütün çıxışlarından keçir. 1995-ci ilin dekabrında Yusif Səmədoğlunun 60 illik yubileyindəki çıxışında Ulu öndər etiraf edir: "Gənc vaxtlarımdan Səməd Vurğunun şeirlərini, əsərlərini sevərək, onların təsiri altında həm təhsil almışam, həm formalaşmışam. Ona görə də onun ədəbi irsinə Azərbaycanda həmişə böyük hörmət edilməsi üçün və ondan istifadə olunması üçün bütün imkanlardan istifadə edib lazımi tədbirlərin görülməsinə çalışmışam..."[3] Məktəb illərindən şeirləri ilə nəfəs alıb böyüdüyü, səhnə əsərlərinə valeh olduğu Səməd Vurğunu şəxsən görmək də Ulu öndərə müyəssər olmuşdur: "Biz gənclər vaxtilə Səməd Vurğunu sadəcə olaraq görməkdən özümüzü xoşbəxt hesab edirdik ki, Səməd Vurğunu haradasa gördük, dinlədik, eşitdik. Biz o illərdə bax belə yaşamışıq..."[4]

1997-ci ilin martında, böyük şairin 90 illik yubiley təntənələrinin zirvə toplantısındakı nitqində Heydər Əliyev dərin təhlil və dəyərləndirmə ilə yanaşı, xatirələrini də anır: "Xatirimdədir, 1952-ci ildə Opera və Balet Teatrının binasında Azərbaycan ziyalılarının ic-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 460

[2] Yenə orada, s. 257

[3] Yenə orada, s. 305

[4] Yenə orada, s. 365

ması keçirildi. Azərbaycanın o vaxtkı rəhbəri də ziyalılara çox təzyiq edirdi. Səməd Vurğuna söz verildi. Onun o çıxışı qulağımda bugünkü kimi səslənir. Səməd Vurğuna söz veriləndə salona toplaşanlar onu çox böyük hərarətlə qarşıladılar. Səməd Vurğun çox dərin məzmunlu və həyəcanlı bir nitq söylədi. Həmin nitq yəqin haradasa dərc olunub və onu oxuyanlar bunları bilirlər. Onun o nitqi də məhz Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, ziyalılarına aid qayğılarla dolu idi. O vaxt ona iki-üç dəfə replika verdilər, amma Səməd Vurğun hər dəfə də əyilmədi, sınmadı, iradəsini itirmədi, öz nitqini mərd-mərdanə, böyük iftixar hissi ilə başa çatdırdı. Səməd Vurğun o vaxt bizim hamımız üçün nümunə - xalqına, millətinə, ölkəsinə, vətəninə sədaqətlilikdə nümunə idi. Səməd Vurğun Azərbaycanı, öz xalqını, öz dilini nə qədər sevirdi! Bunları hər dəfə yada saldıqca insan coşur, həyəcanlanır..."[1] Bu xatirə və anılarda ədəbiyyat və sənətə ülvi duyğularla, ürəkdən bağlı olan gənc Heydər Əliyevin özünün də obrazı görünür.

Ulu öndər Heydər Əliyevin ədəbiyyat və sənət sevgisinin mənbələrindən daha biri teatra böyük həvəs və marağı olmuşdur. Elmira Axundova roman-tədqiqatında göstərir ki, hələ 1883-cü ildə M.F.Axundzadənin "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli Şah cadukuni-məşhur" tamaşası ilə əsası qoyulan Naxçıvan teatr mühiti 1920-1930-cu illərdə qaynar dövrünü yaşayır. "Heydər Əliyevin qardaşı danışır ki, Naxçıvan teatrının tamaşalarına bilet tapmaq mümkün deyildi. Heydər teatr aləmindəki əlaqələri hesabına bilet və ya kontramarka əldə edir və kiçik qardaşlarını, demək olar ki, hər axşam teatra aparırdı. 30-cu illərdə Naxçıvanda klassik əsərlər səhnələşdirilirdi – Şekspirin "Otello" və "Hamlet", Şillerin "Qaçaqlar", Qoqolun "Müfəttiş" və s. əsərlər, Azərbaycan dramaturgiyasına gəlincə, Cəlil Məmmədquluzadənin əsərləri ilə yanaşı, gənclərin beyinlərinə və əhvali-ruhiyyələrinə istedadlı sovet dramaturqu Cəfər Cabbarlının pyeslərinin qəhrəmanları da güclü təsir göstərirdi..."[2] Müstəqillik dönəmində 1993-cü ilin 21 sentyabrı, Azərbaycan ziyalıları ilə ilk görüşündə Heydər Əliyev milli keçmişə dəyər verərkən, xatırlayırdı: "Cəfər Cabbarlı sovet dövründə ən bö-

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 365

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 74-75

yük əsərlər yazmış adamdır. Bizim nəslin əksəriyyəti onun əsərləri ilə tərbiyə olunmuşdur. “Od gəlini”, “Yaşar”, “Almaz”, “1905-ci ildə”, “Oqtay Eloğlu”, “Solğun çiçəklər”, “Füruzə” və s. nə qədər gözəl əsərlərdir!”[1]

Gənc Heydərin “teatr aləmindəki əlaqələri” isə daha əvvəldən yaranmışdı. O, digər dərnəklərlə yanaşı, Telman adına klubda “professional aktyorların və rejissorların rəhbərlik etdiyi çox gözəl dram dərnəyi”nin də fəal üzvü olmuşdur. “Bir gün dərnəyin rəhbəri İbrahim Həmzəyevin diqqətini zərif üz cizgiləri olan boy-buxunlu yeniyetmə cəlb etdi. O, klubun daimi tamaşaçısı olan bu cavan oğlandan hər hansı bədii əsərdən bir parça ifa etməyi xahiş etdi. Oğlanın gur səsi və aydın tələffüzü rejissoru elə heyran etdi ki, o məşq etdikləri tamaşada əsas rolu ona tapşırdı. Beləliklə, Heydər Əliyev Həmzəyevin həvəskar truppasında əsas aktyorlardan biri, İbrahim Həmzəyev isə gənc Heydərin sevimlisi və qürur mənbəyi oldu”[2]. Dövrün “teatr ehtirasları” hətta gənclərin əyləncə saatlarına da sirayət edir. Heydər Əliyev dostu, Naxçıvan Ədliyyə nazirinin oğlu Qasımla, onların yaşadığı, “şəhərdə Humay xanımın evi kimi məşhur olan ikimərtəbəli imarətin zirzəmisində əsl “teatr klubu” yaradır: “Aqil Əliyev xatırlayır ki, onlar həmin zirzəmidə səhnə düzəltmiş, ona pərdələr asmışdılar. Yeniyetmələr tamaşalardan səhnələr oynayır, şeirlər söyləyirdilər. Onların “əldəqayırma” nəfəs alətləri orkestri də vardı...”[3]

Başqa bir xatirədə, Qasımın bacısı Roza Hacıyeva isə Heydərlə Qasımın tətillərdə qonaq getdikləri dağlıq Urud kəndində “kənd uşaqlarını ətraflarına toplayıb tamaşa göstərmələri”ndən söz açır: “Biz dördillik Urud məktəbində səhnə düzəldib orada teatr göstərirdik. Bu tamaşalarda mən də iştirak edirdim. Bir neçə dəfə Heydərlə tərəf-müqabil də olmuşam. Heydər özü tez-tez bu və ya digər tamaşanın quruluşçu rejissoru olurdu. Çox ciddi repertuarımız vardı: Şillerin “Qaçaqlar”ını, M.F.Axundovun “Lənkəran xanının vəziri”ni, S.Vurğunun “Vaqif”ini, M.İbrahimovun “Həyat”ını tamaşaya qo-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 187

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 76

[3] Yenə orada, s. 75

yurduq. Yadımdadır ki, Heydər Qacarı oynayırdı. Özü də yüksək hiss-həyəcanla, böyük emosionallıqla".[1]

Heydər Əliyevin həyatında teatrın rolu heç zaman səngiməmişdir. "Ömrünün sonunadək o, Azərbaycan teatrlarının bütün premyeralarına, eləcə də Bakıya gələn xarici kollektivlərin tamaşalarına baxırdı. Bir sözlə, teatra olan gənclik məhəbbətinə o heç vaxt xəyanət etmədi".[2] Buna Ulu öndərin Azərbaycan teatrı barədə, ayrı-ayrı sənətkarlar haqqında, teatr xadimləri və ədəbi-mədəni ictimaiyyətlə çoxsaylı görüşlərdəki çıxışları, "teatr xatirələri" əyani şahidlik edir. 1994-cü ilin avqustunda Məhəmməd Füzulinin 500 illik yubileyini hazırlayan komissiyanın yığıncağında, Heydər Əliyev teatrın Azərbaycan xalqının həyatında mühüm rolunu yada salarkən əvvəlki illərə ekskurs edir: "Mən yenə də şahidi olduğum şeylərdən danışmaq istəyirəm. 1941-ci 1945-ci illərdə Bakıda Dram Teatrı da, Opera Teatrı da, Rus Dram Teatrı da, Gənc Tamaşaçılar Teatrı da, Musiqili Komediya Teatrı da işləyirdi. Yadımdadır, müharibə illəri ərzində Naxçıvan kimi ucqar bir yerdə teatr daim fəaliyyət göstərirdi..."[3]

Səməd Vurğunun 90 illik yubileyində Ulu öndər 1930-cu illərdə "Vaqif" tamaşasının xalqın həyatında oyatdığı milli ruh yüksəkliyini yada salırdı: "Biz 1873-cü ildə Şərqdə ilk dəfə yaranmış Azərbaycan teatrı ilə, onun tarixi ilə həmişə fəxr etmişik, edirik. Ancaq Azərbaycan Dram Teatrının tarixində "Vaqif" pyesi bir inqilab oldu. O illəri yaşayan adamlar xatırlamalıdırlar – bu, mənim də xatirimdədir – həmin tamaşa o vaxt bir inqilab oldu. Azərbaycan teatrının ən parlaq səhifələrindən biri "Vaqif" pyesidir, onun yaranmasıdır və uzun illər onun teatrımızın səhnəsində olmasıdır..." Bu zaman Heydər Əliyev belə bir mühüm müşahidəsini də bölüşür: "Bu gün biz Vaqifin şəkillərini, heykəlini görürük. Amma həqiqətdə Vaqifin fotoşəkli olmayıbdır. Vaqifin şəklini də Səməd Vurğun və Vaqif rolunu oynayan böyük sənətkarımız, aktyorumuz Ələsgər Ələkbərov və Azərbaycan Dövlət Dram Teatrı yaratmışlar..." Ədəbiyyatdan aldığı həmin dərsi Ulu öndər sonradan respublikaya rəhbərlik etdiyi dövr-

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 clddə. I cild, Bakı, Ozan, 2007, s. 75

[2] Yenə orada, s. 78

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 214

də həyata keçirir: “Biz də Səməd Vurğunun yolu ilə gedərək Vaqifin adını əbədiləşdirməyə çalışdıq, onun ölümündən 200 il sonra Şuşada, Cıdır düzündə Vaqifin qəbri üzərində böyük məqbərə yaratdıq. Həmin məqbərədə Səməd Vurğun, Azərbaycan teatrı və Ələsgər Ələkbərov tərəfindən yaradılmış Vaqif surətinin heykəlini qoyduq...”[1]

Başqa bir məqamda, Səməd Vurğunun ev muzeyindəki görüş zamanı Heydər Əliyev “Fərhad və Şirin” tamaşasını da xatırlayır: “İndi biz buradakı şəkillərə baxarkən Aybəniz xanım dedi ki, Səməd Vurğunun “Fərhad və Şirin” pyesi 50 il bundan qabaq tamaşaya qoyulmuşdur. Mən onun fikri ilə razıyam ki, indiki gənc nəsildən çoxları “Fərhad və Şirin” pyesinin tamaşasına baxmayıblar və ya bəziləri bu əsəri oxumayıblar... Bu tamaşanı mən vaxtilə çox böyük məmnuniyyətlə gedib Azərbaycan Dövlət Dram Teatrında görmüşəm. Bu əsər mənə çox böyük təsir bağışladı. Onu gedib yenidən görmək mənə də, sizə də lazımdır. Amma gənclərə xüsusən lazımdır...”[2]

1997-ci il 21 senyabr tarixində Ulu öndər Heydər Əliyev türkiyəli dostu, ictimai xadim İhsan Doğramacı ilə birgə baxdığı Üzeyir Hacıbəylinin “Arşın mal alan” musiqili komediyasının tamaşasından sonra təəssüratını iştirakçılarla bölüşür: “Mən salonda əyləşib tamaşaya baxdıqca düşünürdüm. Bu əsər 1911-ci ildə yazılıbdır, o vaxtdan indiyədək daim Azərbaycanın teatr səhnəsində göstərilibdir, sonra isə film çəkilibdir. Bu əsər həm teatr tamaşası kimi, həm də kinofilm kimi təkcə respublikamızı yox, bütün dünyanı gəzibdir... Ancaq məlumdur ki, bu əsərin dünyada məşhur olması 1946-cı ildən – Azərbaycanın böyük sənət ustası, rejissoru Rza Təhmasibin quruluşu əsasında yaradılmış filmlə başlandı. Yəqin ki, həmin film xatirinizdədir. O, bütün dünyanı dolaşdı. Gənclər, ola bilsin ki, bunu bir o qədər xatırlamırlar. Amma bizim nəsil üçün bu filmin dünyaya çıxması böyük hadisə idi. Bu bizi çox sevindirdi. Sevindik ki, “Arşın mal alan” artıq bütün dünyanı gəzir...”[3] Ulu öndər milli sevinc və vətənpərvərlik duyğuları ilə dolu gənclik çağlarını xatırlamaqla, eyni zamanda ədəbi-mədəni mühitlə bağlılığını yada salır: “Yaxşı

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 362
[2] Yenə orada, s. 358
[3] Yenə orada, s. 375

haldır ki, ifaçılar əsasən gənclərdən ibarətdir. Mənim yadıma Rza Təhmasib, Rəşid Behbudov düşür. "Arşın mal alan" filmi çəkiləndə mən də gənc idim. Ona görə də Rəşid Behbudova, Leyla Bədirbəyliyə və Lütfəli Abdullayevə böyük maraqla baxırdım. Sonra elə oldu ki, biz bir yerdə olduq, bir yerdə işlədik. Onların hər birinə də mənim böyük hörmətim olmuşdu. Mən respublikanın başçısı kimi onların xidmətlərini qiymətləndirmişdim..."[1]

Qeyd olunduğu kimi, ən çox qiymətləndirdiyi dram əsəri olan Cəlil Məmmədquluzadənin "Ölülər"inin tamaşalarını Heydər Əliyev həm Naxçıvanda, həm də Bakıda seyr etmiş, bu barədə çıxışlarında söz açmışdır: "Sonralar artıq Bakıda işləyərkən Mirzə Cəlilin pyesinə Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşa etdim. Ona rəhmətlik Tofiq Kazımov quruluş vermişdi. Bu tamaşada modernizmə geniş yer verən rejissor əsəri müasirləşdirmişdi. Nəticədə pyes ilkin, yalnız özünəməxsus koloritini bir qədər itirmişdi..."[2] Söhbət "Ölülər" pyesinin 1966-cı il səhnə təfsirindən gedir və böyük rezonans doğurmuş tamaşa haqqında dürüst qeydləri Heydər Əliyevin həmin illərdə də teatr pərəstişkarı və xiridarı olduğunu aydın göstərir. "Ölülər" əsərini Ulu öndər 1997-ci ilin noyabrında, Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya" pyesinin tamaşasından sonra, təəssüratını müəlliflə bölüşərkən də xatırlayır və təkrarsız bir nümunə kimi qiymətləndirir: "Bayaq "Ölülər" əsərinin adını çəkdim. Mən Şekspirdən başlayaraq bütün dram əsərlərini bilirəm. Hesab edirəm ki, "Ölülər" kimi əsəri heç kim yarada bilməyib. Çünki bu cür mövzu tapmaq özü bir fəlsəfədir, dahilikdir".[3]

Ümumən, dövlət rəhbərinin premyeralara baxıb, hər bir tamaşadan sonra səhnə arxasına gəlməsi, iştirakçıları təbrik etməsi, tamaşa haqqında mülahizələrini, fikirlərini söyləməsi tədricən ritual şəkil almış, milli teatr prosesinə pozitiv təsir göstərmişdir.

Heydər Əliyev özünü ədəbi-mədəni mühitdən ayırmır, onun bir parçası hesab edirdi. 1997-ci il sentyabr ayında, İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesinin tamaşasına baxdıqdan sonra Ulu

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 376-377

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 clddə. I cild, Bakı, Ozan, 2007, s. 65

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 452

öndər bu doğmalığı bir daha anaraq deyirdi: "Mən sizi təbrik edirəm. Azərbaycan Dövlət Dram Teatrı 125-ci mövsümünə başlayıbdır. Allah bunu bizə qismət edibdir. Azərbaycan teatrının 100 illik yubileyini sizinlə birlikdə təntənəli surətdə keçirmişik, bundan sonra 25 il yaşamışıq. Doğrudur, bu 25 il hamar yol olmayıbdır, enişli-yoxuşlu, çətin, əzab-əziyyətli keçibdir. Ancaq bizim çox böyük nailiyyətimiz ondan ibarətdir ki, nəhayət, Azərbaycan xalqı öz dövlət müstəqilliyinə nail olubdur..."[1]

Yaxud 1997-ci ilin 30 oktyabrında Azərbaycan Yazıçılarının X qurultayındakı çıxışında Heydər Əliyev deyirdi: "Mən çox sevinirəm və xoşbəxtəm ki, ilk dəfə Azərbaycan yazıçılarının qurultayında 27 il bundan əvvəl nitq söyləmişəm, o qurultayın iştirakçısı olmuşam və ondan sonrakı qurultaylarda da daim iştirak etmişəm, yazıçılarımızla, şairlərimizlə, mədəniyyət xadimləri ilə bir yerdə olmuşam, bu gün də sizinlə bir yerdəyəm..."[2]

Ulu öndərin zəngin bioqrafiyası göstərir ki, Heydər Əliyevin həyatı heç zaman xalqından ayrı olmadığı kimi, onun ədəbiyyatı, dili, mədəniyyətindən də kənarda olmamışdır. Yalnız Azərbaycana rəhbərliyi dövründə deyil, bütünlükdə əqidəli ömrü boyu. Bu məqamı Ulu öndər belə anladır: "Mən 1971-ci ildə Azərbaycan yazıçılarının qurultayında ilk dəfə Azərbaycanın rəhbəri kimi iştirak edirdimsə, ondan əvvəlki qurultaylarda da kənarda olmamışdım. O zaman mən Azərbaycanın rəhbəri deyildim, başqa vəzifələr tuturdum, ancaq yazıçıların qurultaylarını daim izləyirdim və imkanım olanda gəlib salonda oturub yazıçıları dinləyirdim. Mən hər dəfə yazıçılarımızın görüşlərinə gedirdim və onlarla görüşməyi özüm üçün böyük bir hadisə hesab edirdim. Bu, həmin məsələyə mənim şəxsi münasibətimdir..."[3]

***

Heydər Əliyevin Azərbaycan ədəbi-mədəni mühiti ilə aktiv əlaqələri hələ Dövlət Təhlükəsizlik Komitəsində çalışdığı illərdən başlayır. Bu barədə Elmira Axundova roman-tədqiqatının "DTK

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 368
[2] Yenə orada, s. 412
[3] Yenə orada, s. 414

sədri və yaradıcı ziyalılar” fəslində[1] bəhs açır, Heydər Əliyevin məşhur müğənni Rəşid Behbudovla, bəstəkar Rauf Hacıyevlə, rəssam Tahir Salahovla dostluq münasibətlərini şərh edir. Uzaqgörənliklə milli ziyalıları qorumasını, rəsmən “dissident” olmaqdan yayındırmasını faktlarla təsbit edir. Həmin məqamlar Anarın, Mövlud Süleymanlının, Tofiq Abdinin memuar əsərlərindən də keçir.[2] Elmira Axundova yazır: “Heydər Əliyev incəsənət adamları ilə dostluğuyla fəxr edirdi, onlara yaxın olmağa çalışırdı, rəsmi işində çatışmayan hiss və emosiyaları belə təmaslar sayəsində zənginləşdirməyə çalışırdı. Heydər Əliyev heç vəchlə istəmirdi ki, incəsənət adamları onu yalnız çəkinməli olduqları “DTK generalı” qismində qəbul etsinlər”.[3]

Heydər Əliyevin bioqrafiyasını tədqiq edən Nikolay Zenkoviçin belə bir fikrinə söykənərək ki: “Andropovun vaxtında SSRİ DTK-sı və Əliyevin vaxtında Azərbaycan SSR DTK-sı nəzərəçarpan dərəcədə mədəniləşdi, bunu hətta bir çox dissidentlər də qeyd edirdi”, Elmira Axundova hər iki tarixi şəxsiyyəti məhz bu aspektdən yaxınlaşdırır: “Yeri gəlmişkən, xarakter və temperamentləri nə qədər fərqli də olsa, incəsənətə, ədəbiyyata olan məhəbbətləri Yuri Andropov və Heydər Əliyevi doğmalaşdırırdı. Hər ikisi mütaliəni, musiqini çox sevirdi. Yuri Andropov şeir yazırdı, yaxınlarının dediyinə görə, yaxşı da yazırdı, caz musiqisi ilə maraqlanırdı. Heydər Əliyev gənc yaşlarında rəsm çəkirdi və hətta memar olmağa hazırlaşırdı. Hər ikisinin yaxşı bariton səsi var idi və yaxın dostlarının əhatəsində həvəslə oxuyurdular...”[4]

Roman-tədqiqatda gətirilən bir sıra faktlar da ədəbi mühitlə dolayısı ilə təmasda olan gənc zabitin milli təəssübkeş obrazını görməyə imkan verir. Bu faktlardan biri Səməd Vurğunla bağlıdır. “İş yoldaşlarının dediyinə görə o, DTK arxivində pərəstiş etdiyi şairə

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 259-266

[2] Bax: Anar, Unudulmaz görüşlər, Bakı, Təhsil, 2009; Mövlud Süleymanlı, Qırx ilin yeddi görüşü.- Tənqid.net jurnalı, № 10, s. 24-35; Tofiq Abdin, Dövlət çevrilişi.- “Azərbaycan” jurnalı, 2010, № 2, s. 132-161; habelə: T.Əlişanoğlu, Folklorda və bədii nəsrdə Heydər Əliyev obrazı // Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil, 2018, s. 142-260

[3] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 264

[4] Yenə orada, s. 260

açılmış işlə bağlı qovluğu tapanda şok vəziyyətinə düşmüşdü. Əkrəm Səlimzadə bununla bağlı maraqlı hadisəni yada salır: "Bir dəfə Bantserev mənim otağıma gəlib iki cilddən ibarət iş göstərdi: - "Bilirsən bu nədir?" "- Yox". "- Səməd Vurğuna açılmış "əməliyyat" işidir. Heydər Əliyeviçin göstərişi ilə mən işə xitam verilməsi haqqında qərar çıxarmışam. Bu materiallar yandırılacaq". Səməd Vurğun barədə nə qədər "donos" yazmışdılar!"[1] Həmin işə məhz Heydər Əliyev xitam verir.

Başqa bir məqam Hüseyn Cavidin adı ilə bağlıdır. Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Heydər Əliyev" adlı bioqrafik əsərində belə bir epizod yer alır: "1950-ci ildə cavan çekist Heydər Əliyev görkəmli Azərbaycan ədibi və alimi Salman Mümtazın işi üzrə materialları axtarmağa cəhd edir. NKVD-nin qocaman işçilərindən biri ona deyir ki, Salman Mümtazın, Hüseyn Cavidin evlərindən götürülən kitabların dustaqxana yerləşən içəri həyətdə gözətçilər tərəfindən yandırıldığını öz gözləri ilə görüb. O, bu vəhşiliyin qarşısını almaqda aciz olub..."[2] Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanan Hüseyn Cavidin məhkəməsi ilə bağlı işlə Heydər Əliyev də tanış olmuşdur. Kitab müəllifləri fərziyyə irəli sürür. "Stalinin ölümündən bir il sonra, siyasi məhbuslar həbs düşərgələrindən buraxılan zaman şairin qızı Turan Cavid DTK-ya məktub yazıb atasının taleyi ilə maraqlandı. 24938 nömrəli işin nəzarət vərəqində belə bir qeyd də var: "Turan Cavidin öz atasının taleyi ilə maraqlanması əsasında..." Bəlkə də kapitan Heydər Əliyev bu işi məhz həmin vaxt açmışdı... Həmin günlərdə Heydər Əliyev ilk dəfə Hüseyn Cavidin cənazəsinin vətənə qaytarılması barəsində düşünmüşdü..."[3]

Sovet "repressiya maşını"nın həqiqətləri ilə arxivlərdə tanış olan gənc çekist, öz təcrübəsində həmin mexanizmdən yayınmaq üsullarını əxz etmişdir. Elmira Axundova belə bir fakt gətirir: "70-ci illərdə Rusiyadan Qərbə xeyli sayda dissident adlandırılan adamlar getdi. Özü də bəzilərini, xüsusilə qızğın və barışmaz mövqedə olanları istəklərinin əksinə ölkədən çıxartdılar. Bir sıra tarixçi və politoloqların fikrincə bu, siyasi cəhətdən səhv addım idi... Həmin o dövr-

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 259-260

[2] V.Andriyanov, H.Mirələmov. Heydər Əliyev, Bakı, Nurlan, 2008, s. 74

[3] Yenə orada, s. 78

də Azərbaycan yaradıcı ziyalılarından bir nəfər də olsun siyasi motivlərə görə respublikanı tərk etmədi. Heç şübhəsiz burada Heydər Əliyevin böyük xidməti vardır, o sadəcə Azərbaycanda dissidentlərin əmələ gəlməsinə imkan vermirdi... Heydər Əliyev qəlbən inanırdı ki, hər hansı yazıçı və ya alimə qarşı güc tətbiq etmək, yaxud inzibati təzyiq göstərmək xeyir gətirə bilməz, yalnız onu qeyzləndirər, düşmənə çevirər".[1]

Heydər Əliyev yazıçı və ziyalılarla görüşlərində həmin məqamları yada salır və qiymətləndirir. "Məsələn, əgər o illər – 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq..."[2]

Heydər Əliyevin yazıçı İmran Qasımovla gənclik dostluğu da DTK-da çalışdığı illərə təsadüf edir. 1969-cu ildə Heydər Əliyev respublikaya rəhbərlik etməyə başlarkən, İmran Qasımovu Azərbaycan Yazıçılar İttifaqının sədri vəzifəsinə gətirir və bu da ədəbi mühitdə köklü islahatlarla nəticələnir.

***

Sovet dönəmində ədəbi mühiti təmsil edən, nəzarətdə saxlayan və yönəldən başlıca instansiya Yazıçılar İttifaqı sayılırdı. Şəksiz ki, Ümummilli liderin ümumən ədəbi-mədəni ictimaiyyətlə birbaşa əlaqələri, bu istiqamətdə geniş fəaliyyəti də Respublika rəhbəri və Ölkə başçısı olduğu illəri əhatə edir. Azərbaycan Yazıçılarının 1997-ci ilin oktyabrında keçirilən X qurultayında Ulu öndər özü həmin əlaqələri üç dövrdə təsnif edir.

Heydər Əliyev deyir: "Ancaq bir halda ki, mən söhbəti bu tərəfdən başladım, onu qeyd etmək istəyirəm ki, qurultay işə başla-

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 265

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 489

yandan mən burada oturmuşdum, sizə diqqətlə qulaq asırdım, fikirləşirdim, çox şeyləri xatırlayırdım. Yazıçılar Birliyi ilə bu əlaqələrimi şəxsən mən özüm üç mərhələyə bölürəm. Birinci mərhələ həmin illərdir ki, – xatirimdədir, bir dəfə biz o vaxtkı Siyasi Maarif evində qurultay keçirdik, sonra başqa yerdə keçirdik. Xatırladılar 1981-ci ildə burada, bu salonda keçirdik, – o mərhələ idi ki, mən Azərbaycana rəhbərlik edirdim və qurultayın işində Azərbaycanın rəhbəri kimi iştirak edirdim. İkinci mərhələ 1991-ci ildə sizin qurultayın işində mənim qısa müddətdə iştirak etməyimdir. Yadınızdadır ki, o zaman mən vəzifədə deyildim, amma siz məni qurultayınıza dəvət etdiniz. Üçüncü mərhələ isə indiki mərhələdir, Azərbaycanın dövlət müstəqilliyi, azadlığı şəraitində keçirdiyimiz ilk qurultaydır və mənim burada iştirak etməyimdir...”[1]

Ulu öndərin qeyd etdiyi kimi: “Hər dövrün özünəməxsus əhəmiyyəti, mənası vardır...”[2] Heydər Əliyevin ədəbi mühitlə əlaqələrində bu dövrlərin səciyyəvi xüsusiyyətləri, özəllikləri barədə danışmaq vacib və önəmlidir. Amma daha əvvəl Ümummilli liderin ədəbiyyata və ədəbi mühitə münasibətində zamanın fövqündə duran elə sabit, dəyişməz, mühüm keyfiyyətlər vardır ki, buradan görünən obrazını təqdim edir və ilk olaraq qeyd olunmalıdır. Göstərildiyi kimi, birinci növbədə bu – Heydər Əliyevin ədəbiyyat və sənət sevgisidir; həm də sadəcə maraqdan gələn, hobbi səviyyəsində yox, xalqına, millətinə, vətəninə, onun mənəvi-mədəni sərvətlərinə köklü bağlılıqdan doğan, yalnız dahilərə xas milli və bəşəri sevgidir.

Heydər Əliyev deyir: “Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda, dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar. Onlardan sonra gələn nəsillər də bu ənənəni, xüsusiyyəti davam etdirmişlər. Ona görə də tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan, orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən. Bu, xalqımızda bu gün, dünən deyil, əsrlərdən-əsrlərə keçib gələn bir ənənə-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 414-415

[2] Yenə orada, s. 415

dir, şeirə, şairə, söz ustasına, zəkalı insana həmişə hörmət, böyük ehtiram olubdur..."[1]

Heydər Əliyev bir yandan xalqının bir parçası olaraq, əsl övlad sevgisi ilə əsrlər boyu dahilərin yaratdığı irsə, mənəvi sərvətə yiyə durur, qədir-qiymət qoyur: "Xalqımız şeiri, ədəbiyyatı sevən xalqdır. Eyni zamanda şeirin, ədəbiyyatın hər bir insanın həyatında və xalqımızın cəmiyyətimizin, millətimizin həyatında daim böyük rolu olmuşdur. Məhz buna görədir ki, Azərbaycanda şairlər, yazıçılar, mədəniyyət, incəsənət xadimləri həmişə hörmətli olublar, bu gün də biz onların hörmətini daim saxlayırıq və yüksəltməyə çalışırıq. Bu, tək onlar, onların şəxsiyyəti üçün deyil. Bu bizim xalqımız, cəmiyyətimiz, millətimiz üçün çox vacibdir…"[2]

Digər tərəfdən Ümummilli lider özü də dahilərə məxsus bir keyfiyyətlə Nizamidən, Xaqanidən, Nəsimidən, Füzulidən və onlarla digər sələflərindən əxz etdiyi, öyrəndiyi dərsləri XX əsrdə, bu gün, çağdaşlıqda davam etdirir, dahilərin yolunu gedir. Dərin məsuliyyət hissi, ictimai borc, tarixi cavabdehlik – Heydər Əliyevin xalqının mənəvi irsinə, sərvətinə, ədəbiyyat və sənətinə qarşı münasibətində də özünü göstərən üstün keyfiyyətdir. Azərbaycan yazıçılarının X qurultayında Ulu öndər belə deyirdi: "Ancaq, eyni zamanda, 1969-cu ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə yerinə yetirməyə çalışaraq, həmişə hesab etmişəm, bu gün də hesab edirəm ki, ədəbiyyata, mədəniyyətə diqqət yetirmək, qayğı göstərmək lazımdır, ədəbiyyatdan, mədəniyyətdən həyatın başqa sahələrində işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün istifadə etmək lazımdır. Mən məhz bunlara görə yazıçıların bütün qurultayları ilə bağlı olmuşam, onlarda iştirak etmişəm..."[3]

Hünər və əməlpərvərlik! – Heydər Əliyevin təkcə hakimiyyətdə deyil, ədəbi mühitlə ilişgilərində də, bütün dövrlərdə qabarıq nəzərə çarpan keyfiyyət olmuşdur. Çox sevdiyi Mirzə Cəlilin: "Əməl, əməl, əməl!" – düsturu Ümummilli liderin həyat və fəaliyyət proqramının sanki həmişə ana xəttini təşkil etmişdir. Təkcə vaxtilə Sovetlər İttifaqında böyük əks-səda doğurmuş "Literaturnaya qaze-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 412-413

[2] Yenə orada, s. 456

[3] Yenə orada, s. 414

ta"ya müsahibəsini böyük Nizaminin "Qoy ədalət zəfər çalsın!" kəlamı ilə qutlaması ilə yox, daha da çox Nizami Gəncəvi irsini xalqına daha da yaxınlaşdırması, kütləviləşdirməsi ilə: "Təsəvvür edin, əgər biz Nizami Gəncəvini yaxşı tanıyırıqsa, yaxud da Qərb ölkələrinin, o cümlədən İngiltərənin kitabxanalarında, muzeylərində vaxtilə onun yaradıcılığını təhlil edən alimlər müəyyən əsərlər yazmışlarsa, Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdır..." – deyə Ulu öndər 1993-cü ildə ziyalılarla görüşündə yada salırdı, – "1978-ci ildə biz Nizaminin ədəbi irsinin öyrənilməsi haqqında böyük bir qərar qəbul etdik. Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tuturdular ki, 840 il yuvarlaq tarix deyildir. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər..."[1]

Eyni zamanda da, Nizami adını bütün dünyaya bəyan etməsi ilə; 1994-cü il, Füzuli Komissiyasının yığıncağında Ulu öndər xatırladırdı: "Məsələn, 1948-ci ildə Nizaminin də 800 illiyi keçirilmiş, lakin son vaxtlaradək onun külliyyatı çap olunmamışdı. Yəqin xatirinizdədir. Biz Nizaminin 840 illiyini qeyd edərkən mən onun "Xəmsə"sinin Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında rus dilində nəşri üçün çox çalışdım..."[2]

Yaxud müstəqillik illərində, Ulu öndər Səməd Vurğunu və digər sovet dövrü klassiklərini təkcə sözdə, çıxışları ilə dövrün nadan hücumlarından qorumaqla kifayətlənmirdi: "Şübhəsiz ki, Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə Səməd Vurğunun əvəzindən üzr istəməməlidir. Səməd Vurğunun bütün əsərləri ilə Azərbaycan xalqı əvvəldən axıradək fəxr edir, bundan sonra da fəxr edəcəkdir..."[3]; eyni qədər də həmin əbədiyyəti yaşadacaq ünvanlara meydan verirdi. 1997-ci il 6 mart tarixində Xalq şairi Səməd Vurğunun ev-muzeyində görüş zamanı şairin ailəsinə müraciətlə deyirdi: "Xatirimdədir, biz 1974-cü ildə ilk dəfə Üzeyir Hacıbəyovun ev-muzeyini yaratdıq. Sonra isə,

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 184
[2] Yenə orada, s. 205
[3] Yenə orada, s. 363-364

1975-ci ildə, Səməd Vurğunun 70 illik yubileyi ərəfəsində onun ev-muzeyinin yaradılması haqqında qərar qəbul etdik... Şübhəsiz ki, bu muzey sizin üçün də lazımdır. Çünki Səməd Vurğun birinci növbədə sizə, ailənizə mənsubdur. Amma, eyni zamanda, Səməd Vurğun bütün xalqımıza, millətimizə mənsubdur. Siz də, biz də bu addımı birlikdə atdıq və belə bir mədəniyyət ocağı, Səməd Vurğun ocağı yaratdıq. Bilirsiniz, Səməd Vurğun xatirəsini daim yeni-yeni nəsillərə çatdırmaq üçün bu muzeyin bu gün də, gələcəkdə də böyük əhəmiyyəti var”.[1]

Ulu öndər Heydər Əliyevin təqdimatında, - istər sovet dönəmində, istərsə də müstəqillik dövründə, – klassiklərin yubileyləri, anılar, qutlamalar sadəcə emblematik səciyyə, “keçmişə salam” mənası daşımırdı; daha da çox xalqın bugününü, milli varlığını nişan verən bayram, şölən, özünü-bəyan aktı və missiyası kəsb edirdi. 1994-cü ildə ölkənin çətin durumunda, müstəqil Azərbaycanın hələ dərin ictimai-siyasi və iqtisadi böhran içində çabaladığı bir zamanda böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyini keçirməyə qərar vermiş Ulu öndər deyirdi: “Eyni zamanda, qeyd etdiyim kimi, biz daim çalışmalıyıq ki, Azərbaycan xalqını dünyaya daha yaxından tanıdaq. Qoy bilsinlər ki, xalqımızın çoxəsrlik, zəngin, tarixi mədəniyyəti var. Bilsinlər ki, Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə əsaslanır. Bu ona görə lazımdır ki, hamımıza məlum olan düşmən qüvvələr həmişə sübut etməyə çalışmışdır ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsizdir ki, bu, cəfəngiyyatdır... Ona görə də Füzuli kimi şəxsiyyəti dünyaya bir daha tanıtmaqla onun necə böyük şair, mütəfəkkir, filosof olduğunu və dünya mədəniyyətinə nə qədər töhfə verdiyini, onu necə zənginləşdirdiyini göstərəcəyik. Buna bizim əvvəllər də ehtiyacımız olmuşdur, lakin bu gün xüsusilə vacibdir. Çünki Azərbaycan müstəqil dövlətdir...”[2]

Klassiklərin yubileylərinin ümumxalq bayramı səviyyəsində hazırlanması və keçirilməsinin əsas təşkilatçısı və baş qəhrəmanı Ümummilli liderin özü olurdu. İdeyanın ortaya gəlməsi, qərar verilməsindən başlayaraq, yubileyi keçirən komissiyanın yaradılması,

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 357-358

[2] Yenə orada, s. 203-204

fəaliyyəti, iclasları, hazırlıq prosesinin vəziyyəti və gedişatı, görülən işlər, qərarların icrası, ən nəhayət yubiley təntənələrinəcən birbaşa Ulu öndərin himayəsi və nəzarəti altında keçir, heç bir məqam, heç bir detal və təfərrüat Heydər Əliyev intizamı, səliqəsi və həssaslığından yayınmırdı. Bircə misal. 1994-cü ilin avqustundan 1996-cı ilin noyabrınacan Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının Prezidentin yanında bir neçə geniş iclası (1 noyabr 1994, 23 iyul 1996 və s.) olmuş, yubiley tədbirləri Türkiyənin Bilkənd Universitetində (1 noyabr 1994), Türkiyə Böyük Millət Məclisində (2 noyabr 1994), Rusiyada Moskvada (14 noyabr 1994), İraqda, İranda, Mərkəzi Asiya Respublikalarında, YUNESKO-nun iqamətgahında – Parisdə keçirilərək, Bakıda (8 noyabr 1996) böyük təntənə ilə başa çatmışdı. “Füzulinin yubileyi müstəqil Azərbaycan Respublikasının keçirdiyi ilk beynəlxalq miqyaslı mədəniyyət və sənət bayramı idi... Rusiyada və Türkiyədəki yubiley təntənələrində Azərbaycan Prezidenti də iştirak etmişdi”[1] və parlaq nitqlər söyləmişdi.

Ulu öndər yubiley şölənində xalqın bilavasitə iştirakının qayğısına qalırdı; bütün proses mətbuatda geniş işıqlanır, geniş auditoriyanın gözləri qarşısında Azərbaycan televiziyası ilə yayımlanır, beləliklə, Ümummilli liderin parlaq performansları sayəsində uzun müddət xalq, cəmiyyət, ölkə yubiley havası ilə nəfəs alır, tədbirlərdən sonra da klassikadan aldığı dərslərin bəhrəsi ilə yaşayırdı.

Anarın “Unudulmaz görüşlər” əsərində “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin ərsəyə gəlməsinin təfsilatlı təsviri həmin mənzərəni yaxından izləməyə imkan verir: “1995-ci il avqustun axırlarında “Manas” dastanının 1000 illik yubileyinə Bişkekə getdik. Burada da təntənəli iclasda Heydər Əliyev əsl filoloq kimi “Manas”ın ədəbi və tarixi əhəmiyyətindən, türk xalqlarının ortaq bədii dəyərlərindən danışdı. Yubileyə Türkiyənin və türkdilli dövlətlərin başçıları gəlmişdi. Onların zirvə toplantısına prezidentimiz məni və Yusif Səmədoğlunu da dəvət etmişdi. Hamısından məntiqli və müdrik Heydər Əliyevin danışdığını müşahidə edəndə qürur duyurduq...”[2]

Daha sonra yazıçı ideyanın necə yarandığına diqqət çəkir: “Təntənəli yubiley gecəsində əfsanəvi Manasın və rəhmətlik Çingiz Ayt-

---

[1] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Elm, 1998, s. 65
[2] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 92

matovun yurdu Talas vadisinə gəldik. Burda möhtəşəm teatrlaşmış tamaşa hazırlanmışdı, alaçıqlar qurulmuş, xalılar döşənmişdi. Lap Dədə Qorqud şölənləri yada düşürdü. Məşhur qırğız kinorejissoru Bolot Şəmçiyevin qurduğu tamaşada minlərlə atlı iştirak edirdi. Cıdır, ox atma və qılınc yarışları, rəqslər... Çox əlvan və parlaq bir bayram idi. Sonra çadırlara dəvət olunduq. Heydər Əliyevə milli qırğız xələti və papağı hədiyyə etdilər, geyindi, boy-buxununa çox yaraşırdı. Sanki qarşımızda qədim türk Xaqanlarından biri canlanmışdı. Bu insanın bütün başqa xüsusiyyətlərindən başqa Allah vergisi olan uca qaməti, uzun barmaqlı ifadəli əlləri, hərəkətlərində bir kübarlıq da vardı. Fürsətdən istafadə edib:

- Cənab Prezident, biz də belə, bundan da gözəl Dədə Qorqud yubileyi keçirə bilərik – dedim.

- Dədə Qorqudun neçə illiyidir ki?.

- 1300 illiyini qeyd eləyə bilərik

- Niyə 1300?.

- Əlbəttə, dastanın motivləri, qaynaqları daha qədimdir, amma əlimizdəki mətndə Dədə Qorqudun Həzrət Məhəmmədin müasiri olduğu bildirilir, bu tutarğanı əsas götürmək olar.

- Bakıya gələndə bu barədə təkliflərini yaz – dedi.

Bakıda xarici işlər naziri Həsən Həsənovun və mənim imzalarımızla Dədə Qorqud yubileyi haqqında təkliflərimizi yazdıq..."[1]

Dastanın yaşının 1500, 2000, 1000, 2700, 5000, 1600 il olması barədə dəlilsiz-sübutsuz mübahisələrə də Heydər Əliyev son qoyur: "...Nə isə, mübahisələr bitdi, qərarı hörmətli prezidentimiz verməliydi. Xoşbəxtlikdən, Heydər Əliyevə bütün tərəflərin arqumentləri çatdırılandan sonra o, bizim təklifimizi qəbul etdi, fərmanla Dədə Qorqudun 1300 illik yubileyinin keçirilməsini təsdiqlədi. Bunun çox böyük, ümumdünya əhəmiyyəti vardı. Türkiyə də, YUNESKO da bu rəqəmi qəbul etdi. Bir Türkmənbaşı bizdən sonra dastanın 1500 illiyini bəyan etdi. Sonralar bu barədə də Heydər Əliyevlə söhbətimiz oldu.

- Türkmənbaşı Dədə Qorqudun 1500 illiyini qeyd edir – dedi.

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 92-93

- Hikkəsindən – dedim, – niyə bizdən əvvəl Dədə Qorqud yadlarına düşmürdü. Azərbaycanda film çəkildi, ensiklopediyası buraxıldı, Drezden və Vatikan əlyazmaları nəşr edildi, dastanın əzəmətli yubileyi keçirildi, 1300 illiyi dünya miqyasında təsdiq olundu, bundan sonra Türkmənbaşı ayılıb acığımıza 1500 illik keçirir..."[1]

1997-2000-ci illərdə, ölkənin çətin durumunda bir sıra maliyyə əngəlləri, müxalif fikirlər və müqavimətlə üzləşən yubiley tədbirlərinin böyük bayram təntənəsi ilə başa çatmasını da yazıçı Ulu öndərin uzaqgörənliyi və hünəri ilə bağlayır: "Həqiqətən də, Dədə Qorqud yubileyinin bu səviyyədə keçirilməsi bütün xərclənən vəsaitə dəyərdi. Dastan haqqında neçə-neçə dəyərli kitablar çıxdı. Neçə ildən bəri Yazıçılar Birliyinin təşəbbüsüylə hazırlanan (Kamil Vəli Nərimanoğlunun baş redaktorluğu ilə) Dədə Qorqud Ensiklopediyası qısa bir müddətdə nəfis şəkildə işıq üzü gördü... Drezdendən "Kitabi-Dədə Qorqud" əlyazmasının orijinala tam uyğun kopiyası gəldi və Prezidentə hədiyyə edildi, o isə bu nüsxəni, yanılmıramsa, Əlyazmalar İnstitutuna verdi..."[2]

Ən nəhayət, Anar Dədə Qorqud şöləninin nəticələri və dərslərindən də söz açır: "Ona qədər "Kitabi-Dədə Qorqud"u X-XI əsrlərin abidəsi sayırdılar, ədəbiyyat tariximizi Herodotun nəql etdiyi Midiya əfsanələrilə, Davdakın bizə erməni dilində çatmış şeirilə, ərəb, fars dilində yazan şairlərlə başlayırdılar. "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin təsdiq edilməsi ədəbiyyat tariximizi öz ana dlimizdə yaranan bu nəhəng abidəylə başlamağa imkan verirdi. Yubiley komissiyasının iclasında dedim ki, bu cəhətdən 1300 il rəqəminin təsdiq olunması ədəbiyyatımız üçün çox böyük əhəmiyyətə malikdir. Heydər Əliyev çıxışıma müdaxilə edərək: - Tək ədəbiyyatımız üçün yox, həm də tariximiz üçün – dedi və bu da tamamilə doğru idi..."[3]

Yazıçı Ulu öndərin əzm və iradəsi sayəsində Azərbaycan xalqının qazandığı növbəti mənəvi qələbəni ilk növbədə Heydər Əliyevin özünün sevinc və təntənəsinə yozur: "Yubiley günlərində mənim ssenarim əsasında Mərahim Fərzəlibəyov möhtəşəm tamaşa hazırlamışdı. Səhnədə türk dünyasının böyük simaları – Ni-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 93-94
[2] Yenə orada, s. 94
[3] Yenə orada, s. 94

zami, Manas, Yunis Əmrə, Nəsimi, Nəvai, Xətai, Füzuli, Vaqif, Məhtimqulu, Natəvan, Abay, Sabir gəlib Dədə Qorqudu təbrik edirdilər. Tamaşa çox effektli alınmışdı, salonda onu seyr edən dövlət başçıları heyran qalmışdılar. Qırğızıstanın o vaxtkı prezidenti Əsgər Akayev bizi bir neçə dəfə təbrik etdi, Süleyman Dəmirəl də riqqətlənmişdi, – tamaşanı mütləq Türkiyədə də göstərmək lazımdır, – dedi. Ən çox sevinən, fərəhlənən isə, təbii ki, Heydər Əliyev idi..."[1]

Ulu öndər Heydər Əliyevin ədəbi mühitlə münasibətlərinin təməlində həm də zəngin ədəbiyyat və sənət biliyi, erudisiyası durur. Bu cəhəti Ulu öndəri ədəbiyyat auditoriyalarında dinləmək nəsib olanlar məmnuniyyətlə qeyd etmişlər.Akademik Bəkir Nəbiyevin "memarlar onu memar, kino işçiləri kinoşünas, tarixçilər tarixçi, ədəbiyyatçılar ədəbiyyatşünas kimi qəbul edirdilər..."[2] sözlərini bir daha xatırlatmağa dəyər.

Çox zaman Heydər Əliyev son dərəcə mükəmməl ədəbi çıxışları ilə dinləyicilərini heyran qoymuş, hətta heyrətləndirmişdir. Anar "Unudulmaz görüşlər"də xatırlayır: "1995-ci ilin avqust ayında Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Almaatıya getdik, böyük qazax şairi Abay Kunanbayevin 150 illik yubileyində prezidentimizin nitqi hərarətlə qarşılandı. Elə həmin il, noyabrın 14-də Moskvada Sütunlu salonda Füzulinin yubileyini keçirdik. Mən məruzə etdim. Heydər Əliyev geniş nitq söylədi. Rəyasət heyətində yanımda oturmuş Segey Mixalkov: - Heydər Əliyeviçin filoloji təhsili var? – deyə xəbər aldı. – Yox, tarixçidir – dedim".[3]

Ədəbi auditoriylarda xüsusən heyrətə səbəb olan məqam Heydər Əliyevin yalnız doğma xalqının ədəbiyyatına deyil, dünya ədəbiyyatı klassikasına da yaxından bələd olması olmuşdur. Hələ sovet dönəmində Ümummilli liderin Azərbaycanda təşkil etdiyi Ümumittifaq və beynəlxalq ədəbi-mədəni tədbirlərdəki çıxış və məruzələri buna sübutdur. Belə tədbirlərdə Heydər Əliyevin klassik rus ədəbiyyatı haqqında, sovet ölkəsinə daxil olan "qardaş xalqların" ədəbiyyatları barəsində, o zaman Sovetlər İttifaqında rəsmən tanınan yega-

---

[1] Anar, Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 94-95

[2] Bəkir Nəbiyev, Heydər Əliyev haqqında etüdlər // Bəkir Nəbiyev, Seçilmiş əsərləri. Beş cilddə, 4-cü cild, Bakı, Çinar-Çap, 2009, s. 12

[3] Anar, Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 91-92

nə estetika – sosialist realizmi və onun dünya ədəbiyyatında yeri haqqında, ümumən ədəbiyyat və onun xalqın, cəmiyyətin həyatında mövqeyinə dair bilik və mühakimələri dürüstlüyü və dərinliyi ilə peşəkar ədəbiyyatçıları təəccübləndirməyə bilmirdi. Və önəmlidir ki, həmin fikir və mülahizələr bu gün belə kəsərini, metodoloji gücünü qoruyub-saxlayır.

“Azərbaycanda Sovet ədəbiyyatı günləri”ndəki nitqində (5 oktyabr 1975) Heydər Əliyev rus klassikləri “A.Puşkin və L.Tolstoy, İ.Turgenev və M.Lermontov, N.Nekrasov və A.Gertsen, V.Belinski və N.Çernışevski, N.Qoqol və A.Çexov kimi böyük yazıçıların dühasının ölməz bəhrələri”ni bütün sovet xalqları ədəbiyyatları üçün “qüvvətli mənbə” hesab edir.[1] 1980-ci ilin oktyabrında “Xalqların dostluğu - ədəbiyyatların dostluğudur” yaradıcılıq konfransında F.Dostoyevskinin A.Puşkin haqqında söylədiyi: “O, dünyanın bütün ədəbiyyatlarını mənimsəyir, bunların hər birini o dərəcədə başa düşür ki, öz poeziyasında əks etdirir, lakin elə əks etdirir ki, özgə xüsusiyyətlərin əsl ruhu, ən məhrəm sirləri onun poeziyasına keçir...” (borcu, 106-107) – fikrini ümumən rus ədəbiyyatının “cəsarətli xassəsi” kimi dəyərləndirir.[2]

Qardaş ədəbiyyatlardan “Taras Şevçenkonun və Şota Rustavelinin, Nizaminin və Yanka Kupalanın və Əlişir Nəvainin, Rudəkinin və Abayın, Məhtimqulunun və Yanis Raynisin, Dmitri Kantemirin və Toktoqul Satılqanovun, Kristionas Donklaytisin və Eduard Vildenin, Kosta Xetaqurovun, Süleyman Stalskinin, Dmitri Qulianın və qardaş ədəbiyyatların başqa sənətkarlarının təravətini itirməyən əsərlərini” “vahid sovet mədəniyyətini təşkil edən milli mədəniyyətlərin zənginləşməsinə və bir-birinə qarşılıqlı təsir göstərməsinə” töhfə sayır[3] və onlarla müasir yazıçıları sadalayaraq, buna örnək göstərir. Məsələ burasındadır ki, Heydər Əliyev bu adları yalnız protokol naminə, rəsmən sosialist mədəniyyətinin klassikaya münasibətinin atributu kimi hallandırmır, Azərbaycanda keçirdiyi ayrı-ayrı xalqların ədəbiyyat və mədəniyyət günlərində hər birisi haqqında bələdliklə, ürək dolusu söz aça bilir. Bu cəhəti Ulu öndərin qardaşı Aqil Əliyev xatirələrində dəqiq qeydə almışdır: “Yadımdadır

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 69
[2] Yenə orada, s. 106-107
[3] Yenə orada, s. 69

ki, sovet dönəmində, elə ondan çox-çox sonralar da, Bakıya xaricdən – Orta Asiyadan, digər müttəfiq respublikalardan gələn nümayəndə heyəti ilə söhbət zamanı o, həmin ölkələrin ədəbiyyatı, yazıçıları haqda elə fikirlər söyləyirdi ki, qonaqlar mat qalırdı. Bunun əsası isə hələ Naxçıvanda yaşadığımız vaxtlarda qoyulmuşdu”.[1]

Heydər Əliyevin sosialist realizmi ədəbiyyatı haqqında qeydləri, onu başlıca olaraq dünya ədəbiyyatı kontekstində dəyərləndirməsi, sadəcə partiya və dövlət xadiminin rəsmən ədəbiyyatdan istəklərini ifadə etmirdi, eyni zamanda ədəbiyyata fəal bir qüvvə kimi inanan pərəstişkarın aydın mövqeyini vurğulayırdı: “Sovet yazıçıları Vətən və dünya klassikasında ən yaxşı, ən nəcib nə varsa, hamısını əxz etmişlər. Onlar özlərinin tarixi vəzifəsini, sosialist cəmiyyəti qarşısında, sovet xalqı qarşısında borcunu, yeni dünyanın ədəbiyyatını təmsil etmək məsuliyyətini heç vaxt unutmurlar...”[2] Heydər Əliyevin Ümumittifaq ədəbi auditoriyaları qarşısında çıxışları konkretliyi ilə, hər bir ədəbiyyata dair informasiya səhihliyi və gətirdiyi misallarla, ədəbiyyata günün tələbləri və sosrealist platformadan təfsirləri ilə hamıdan seçilir, məxsusi maraq kəsb edirdi. O, bu ədəbiyyata “müasir cəmiyyətin mənəvi tərəqqisinin ən mütərəqqi, ən perspektivli meyllərinin təcəssümü”[3] kimi baxır, bunu ondan umurdu da.

Xalq yazıçısı Elçin 1992-ci ildə qələmə aldığı “Dünya axirət əkini” essesində yada salır: “Yadıma gəlir, 1976-cı il idi, onda lap cavan bir yazıçı idim və Yazıçılar İttifaqına yenicə katib seçilmişdim. Moskvada Səməd Vurğunun anadan olmasının 70 illiyini keçirirdik və sonra Daimi Nümayəndəliyimizdə Yubiley iştirakçıları üçün kiçik bir qəbul düzəltdik. Adamların sayı az idi – 30-35 nəfər, amma kimlər idi: Leonid Leonov kimi “canlı klassik”dən tutmuş o zamanın böyük “ədəbiyyat generalları” – Georgi Markov, Aleksandr Çakovski, Nikolay Qribaçovdan rus ədəbi ictimaiyyətinin “rəsmi” və qeyri-rəsmi ən irəlidə gedənləri. Heydər Əliyev də orada idi və söhbətləri, çıxışları ilə miz arxasında əyləşənlərin, xüsusən “ədəbiyyat generalları”nın çoxundakı “böyük qardaş” təkəbbürünü

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. I cild, Bakı, Ozan, 2007, s. 55

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 104

[3] Yenə orada, s. 110

sözün əsl mənasında məhv etdi və o danışdıqca həmin “ədəbi generallar” göz-görəti kiçilirdi... Bu – şəxsiyyətin miqyasıdır...”[1]

Heydər Əliyev, qeyd olunduğu kimi, istər Azərbaycan klassik, istərsə də müasir ədəbiyyatının bilicisi və vurğunu idi. Filologiya elmləri doktoru Vilayət Quliyev “Heydər Əliyev və klassik ədəbi irsimiz” oçerkində vurğulayır: “Yenə də mübaliğəsiz demək olar ki, Azərbaycan ədəbiyyatının bütün dövrləri, bütün şəxsiyyət və hadisələri Heydər Əliyev üçün eyni dərəcədə doğma və yaxın olmuş, onu eyni dərəcədə maraqlandırmışdır. O, folklor haqqında da, klassik və müasir ədəbiyyatın tanınmış nümayəndələri barəsində də eyni sərbəstliklə mülahizə yürüdür...”[2] Yalnız yubiley tədbirlərində deyil, istisnasız olaraq, bütün ədəbiyyat və mədəniyyət hadisələri zamanı Heydər Əliyev milli ədəbiyyat və sənətin klassiklərini minnətdarlıqla anır, hər biri barəsində dolğun biliklər və orijinal mülahizələrlə çıxış edirdi. Ədəbiyyatımızın Nizami, Nəsimi, Füzuli, Vaqif, M.F.Axundzadə, M.Ş.Vazeh, N.Nərimanov, C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, R.Rza və b. klassikləri və onlarla müasir nümayəndələri barəsində Ulu öndər ayrıca Söz söyləmiş, yazıçıların özünəməxsus yaradıcılıq portretlərini cızmışdır.

Heydər Əliyev hələ sovet dönəmindən Azərbaycan ədəbiyyatını ümumittifaq və dünya səviyyəsinə çıxarmaq və tanıtmaq qayğısına qalmaqla, eyni zamanda onu həmin kontekstdə görür və dəyərləndirirdi. Müstəqillik dövründə bu cəhət daha da qüvvətlənmişdir.

1981-ci ildə Nizami Gəncəvinin 840 illiyi günlərində ölkənin əsas qəzeti – “Pravda”da dərc etdirdiyi məqalədə Heydər Əliyev yazırdı: “Bəşər tarixində unudulmaz adlar, dünyaya son dərəcə böyük mənəvi sərvətlər vermiş dahilər vardır: Dante, Şekspir, Şiller, Puşkin, Balzak, Tolstoy, Qorki... Onlar yaradıcılıqlarında öz dövrlərini bütünlüklə əks etdirərək, üzvi surətdə sosialist cəmiyyətinin də mənəvi tələbləri olan humanizmə, yüksək mənəviyyata və yaxşı əməllərə səsləmişlər. Əsərləri ilə Şərq bədii fikrinin tarixində yeni səhifə açmış böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin də adı bu ədəbiyyat ustaları ilə yanaşı durur...” Müstəqillik illərində, – Teymur Kərimli və Vilayət Quliyev “Heydər Əliyev və klassik ədə-

---

[1] Elçin, Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 235-236

[2] Vilayət Quliyev, Heydər Əliyev və klssik ədəbi irsimiz // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Elm, 1998, s. 40

biyyat" məqaləsində vurğulayırlar, – "Özünün son çıxışlarının birində Nizaminin dünya ədəbiyyatı korifeyləri ilə bir sırada dayanması, bəzən isə öz cahanşümul fikir və ideyaları ilə onları qabaqlaması, Şərqin və Qərbin ünlü sənət dahilərinə örnək olması fikrini davam etdirən Heydər Əliyev xatırlatmışdı ki, əgər bizim tarixçi və ədəbiyyatşünaslar uzun illər boyu digər klassiklərimiz kimi Nizami Gəncəvini ənənəvi şablon və qəliblərlə öyrənmək məcburiyyətində qalmasaydılar, "dünyanın böyük filosofu Gete özünün bəzi fəlsəfi müddalarını Nizami Gəncəvinin fəlsəfi fikirləri əsasında izah etmişdir" həqiqətinə gəlib çıxardılar".[1]

1993-cü ilin sentyabrında müstəqillik dövründə ziyalılarla ilk görüşündəcə Ulu öndər deyirdi: "Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini təkcə "Leyli və Məcnun" poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq..."[2]

Elə həmin görüşdə Heydər Əliyev Hüseyn Cavid dühasını dünya ədəbiyyatı səviyyəsində dəyərləndirir, nəticə çıxarmağa çağırırdı: "Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırdılar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"undan geri qalmır. Ancaq biz belə inciləri lazımi qədər qiymətləndirə blmirik..."[3]

Ulu öndərin Cəlil Məmmədquluzadənin "Ölülər" əsərini olduqca yüksək qiymətləndirməsi, "Şekspirdən başlayaraq bütün dram əsərləri" içində təkrarsızlığını vurğuladığını[4] artıq xatırlatmışıq. Heydər Əliyev Azərbaycan ədəbiyyatı klassiklərinin hər birinin miqyas və dəyərini gözəl bilir, müasir ədəbiyyatımızın inkişafını da həmin kontekstdə görür, buna təkan verməyə çalışırdı.

---

[1] Teymur Kərimli, Vilayət Quliyev, Heydər Əliyev və klassik ədəbiyyat // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s. 112-113

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 185

[3] Yenə orada, s. 188

[4] Yenə orada, s. 452

***

Ümummilli lider Heydər Əliyevin ədəbi mühitlə bilavasitə təmasının birinci mərhələsi təqribən 1969-1987-ci illəri əhatə edir; bu, Ulu öndərin Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi, habelə SSRİ kimi nəhəng bir dövlətin Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsində çalışdığı dövrdür. Bu, məhz sovet sosilalist rejimi daxilində Heydər Əliyevin bir şəxsiyyət olaraq Azərbaycan xalqının pənah yeri, Ümummilli liderinə yüksəldiyi mərhələdir. Ulu öndərin müasir Azərbaycançılıq ideologiyasının əsasını qoyduğu və çagdaş Azərbaycan quruculuğuna başladığı dövrdür.

Heydər Əliyevin həmin dövrdə ədəbi mühitlə birbaşa və dolayısı əlaqələri haqqında Anarın, Elçinin, İsa Muğannanın, Xəlil Rza Ulutürkün, Vidadi Babanlının, Mövlud Süleymanlının memuar əsərlərində[1] oxuya bilirik. Elmira Axundova "Heydər Əliyev: şəxsiyyət və zaman" çoxcildliyinin 2-ci kitabının 4-cü fəslini[2] bilavasitə bu mövzuya həsr etmiş, yazıçılarla, sənət adamları ilə müsahibələr, faktlar, sənədlər, təhlillər əsasında dövrün ədəbi prosesinə baş vurmuş, eyni zamanda 3-cü kitabın "Ziyalılar onun dövrəsinə yığışırdılar" fəslində[3] Ulu öndərin ədəbiyyat və mədəniyyətlə bağlı Moskva həyatından söz açmışdır. Ədəbiyyatla, ədəbi-mədəni mühitlə bağlı ayrı-ayrı faktlara ümumən Ümummilli liderin həyat və fəaliyyətinin sovet dövrünə dair çoxsaylı tədqiqatlarda, məqalələrdə də rast gəlmək olar.

Bununla belə, Heydər Əliyevin sovet dövrü ədəbi mühitində obrazı barədə ən dolğun təsəvvürü, hər şeydən öncə, Ümummilli liderin özünün, iştirak etdiyi ədəbi tədbirlərdəki çıxışları, yazıçılar

---

[1] Bax: Anar. Unudulmaz görüşlər, Bakı, Təhsil, 2009;Elçin, Dünya axirət əkini; Tarixlə üz-üzə dayanmış adam // Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 231-238, s. 239-248; İsa Muğanna, Həyatımdan səhifələr-"Azərbaycan" jurnalı, 2010, № 7, s. 114-157; Vidadi Babanlı, Unutmadığım günlər- "Azərbaycan" jurnalı, 2007, № 2, s. 124-135; Mövlud Süleymanlı, Qırx ilin yeddi görüşü.- Tənqid.net jurnalı, № 10, s. 24-35; habelə: Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil, 2018

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 173-302

[3] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 3-cü cild, Bakı, Ozan, 2009, s. 322-346

qurultaylarında, beynəlxalq ədəbi konfranslarda, yubiley və görüşlərdəki nitqləri, çoxsaylı fikir və mülahizələri yaradır. Bu baxımdan, dövrün mətbuatı ilə yanaşı, filologiya elmləri doktoru, professor Vilayət Quliyevin tərtib etdiyi "Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (nitqlər, məruzələr, çıxışlar)" toplusu[1] mühüm mənbə hesab olunmalıdır. Topluda Heydər Əliyevin sovet dönəmindəki çıxışları ilə birgə, müstəqillik illərindəki çıxışlarında həmin dövrə dair xatirə məqamları da Ümummilli liderin 1970-1980-ci illərdəki ədəbiyyat siyasəti və dəst-xəttini dərk etməyə imkan verir.

Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik edərkən yazıçıların həmin dövrdə keçirilən bütün qurultaylarında iştirak və çıxışlar etmiş, ədəbi aləmlə fəal əlaqə saxlamış, sovet dövrünün ədəbiyyat korifeyləri, yaşlı və orta nəsil yazıçılarla ünsiyyət bağlamış, gənc nəslin taleyində bilavasitə rol oynamışdır. Belə ki, çox da uzaq olmayan həmin dövr haqqında yazarların canlı xatirələri də oyaqdır. Ədəbiyyatımızda Heydər Əliyev epoxası barəsində yazılar, xatirələr, anılar Ulu öndərin vəfatından sonra daha intensiv qələmə alınmağa başlanmışdır. Görünür ki, Rəsul Rza, Süleyman Rüstəm, Süleyman Rəhimov, Əli Vəliyev, Mirzə İbrahimov, İmran Qasımov, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Cabir Novruz, Qabil, Yusif Səmədoğlu və b. görkəmli yazıçı və şairlərin artıq həyatda olmaması, 1980-ci illərdə, müstəqillik illərinin əvvəllərində vəfat etməsi həmin ədəbi dövr haqqında mənbələrin nisbətən azlığına da təsir göstərmişdir. Odur ki, bu sırada əsas missiya "60-cılar" nəslinin üzərinə düşmüşdür.

Anarın "Unudulmaz görüşlər"də vurğuladığı kimi: "Heydər Əliyev haqqında çox yazılıb, qalın-qalın kitablar çıxıb. İllər keçdikcə daha da çox yazılacaq, tarixin süzgəcindən keçmiş qiymətlər daha da dəqiqləşdiriləcək, dünyada və ölkəmizdə baş verəcək olayların, gələcək hadisələrin kontekstində onun xidmətləri daha dərindən dərk ediləcək. Amma bu, gələcək nəsillərin işidir. Bugünkü nəsillərin, onun çağdaşlarının, özəlliklə onunla bu və ya digər dərəcədə təmasda olanların borcu isə Heydər Əliyevlə bağlı anılarını, xatirələrini yubanmadan qələmə almaq, onun mürəkkəb və zəngin obrazının

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999

müxtəlif çalarlarını, ayrıntılarını sənəd kimi tarixin malı etməkdir..."[1]

Elçin "Tarixlə üz-üzə dayanmış adam" essesində yazır: "Heydər Əliyev haqqında çox yazılıb, amma şübhəsiz ki, yazılacaq kitablar, aparılacaq tədqiqatlar hələ irəlidədir, gələcəkdədir, çünki tarix özünə mənsub olan şəxsiyyətləri heç vaxt diqqətdən kənar qoymur, illər keçir, onilliklər, yüzilliklər bir-birini əvəzləyir, tədqiqatlar isə dayanmır, yeni-yeni faktlar aşkar olunur, yeni-yeni kəşflər ortaya çıxır..."[2]

Heydər Əliyevin sovet dönəmində ədəbi mühitlə əlaqələri ilk öncə sırf rəsmi səciyyə daşımış, respublika başçısının, bütün sahələrə olduğu kimi, ədəbiyyat təsərrüfatına da himayəsi və nəzarəti şəklində təzahür etmişdir. Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, respublikada "birinci şəxs" olmuşdur. Heydər Əliyev bir kommunist kimi də, bir azərbaycanlı kimi də əqidəsinə sahib və sadiq olmuş, Azərbaycan xalqının tərəqqi və inkişafını, ölkənin müasir dünyaya inteqrasiyasını SSRİ daxilində və rəsmi ideologiya çərçivəsində gerçəkləşdirmişdir.

Akademik Ramiz Mehdiyev "Vətəndaş, şəxsiyyət, lider" əsərində Ümummilli liderin həmin dövr fəaliyyətini belə səciyyələndirir: "Həmin dövrə aid nitqləri ilə tanış olarkən, anlayırsan ki, o özü kommunizm ideallarına daxilən inanırdı. Lakin bununla belə, sovet mədəniyyətinin – formaca milli, məzmunca sosialist – ənənəvi düsturuna tamamilə yeni məna aşılaya bilmişdi. O, hər nə edirdisə, formal baxımdan marksist-leninçi ideologiyanın tələblərinə uyğun idi. Lakin əvvəlki standart streotiplərə nəsə elə bir mətləb sığışdıra bilmişdi ki, həmin illərdə onu anlamaq və sərrast ifadə etmək çətin olsa da, son dərəcə aydın nəticələrə gətirib çıxarırdı. O, nəinki milli ruhun dirçəlişinə, çağdaş Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail ola bilmiş, həmçinin bütün ziyalıların, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdir. Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan musiqisi – unikal milli mədəniyyətimizin bütün qatlarını o illərdə biz sanki özümüzə yenidən açır və mənalandırırdıq.

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 42
[2] Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 239

Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrü məhz bu kontekstdə, milli şüur oyanışının, özgür qaynaqlara qayıdışın və üz tutmağın yeni mərhələsinə aparan proseslərin başlanğıcı kimi qavranılmalıdır”.[1]

Ulu öndər Azərbaycan yazıçılarının X qurultayında deyirdi: “Əgər 70-ci illəri, 80-ci illərin əvvəllərini götürsək, o vaxt biz Sovetlər İttifaqı deyilən bir ölkədə yaşayırdıq. Sovetlər İttifaqının tərkibindəki 15 müttəfiq respublikadan biri də Azərbaycan idi. Biz kommunist rejimi, sosialist quruluşu şəraitində yaşayırdıq. Bizim hamımız o dövrün yetişdirməsiyik, bəhrəsiyik... Biz o quruluşda, o həyatda, o dövlətdə, o şəraitdə yaşamışıq, təhsil almışıq, böyümüşük və respublikamızı, xalqımızı yaşatmışıq. Ona görə də o dövrlərdə əldə olunan nailiyyətləri inkar etmək olmaz, – bu cinayət olardı. Onu unutmaq da olmazdı. Mən hesab edirəm ki, çox işlər görülübdür. Əgər o dövr olmasaydı, bu gün burada, bu salonda Yazıçılar Birliyinin 500-dən artıq üzvü, yaxud da nümayəndəsi iştirak etməzdi...”[2]

Heydər Əliyev zamanından asılı olmayaraq, əqidəyə sədaqəti hər bir şəxsin vicdani borcu hesab edir, o cümlədən qələm sahiblərindən, yazıçı və şairlərdən də umurdu. Bu baxımdan Ulu öndərin Səməd Vurğun haqqında emosional düşüncələrini yada salmaq olar: “Səməd Vurğun komsomola həsr etdiyi poemasında da, kommunist partiyasına həsr etdiyi “Zamanın bayraqdarı” poemasında da öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda, yüksək şeir sənətini nümayiş etdiribdir. Şərqdə həmişə şeir böyük hörmətə layiq olubdur və hər bir şair öz dövrünün aşiqi olubdur, öz dövrünü yazıbdır. Biz buna görə keçmiş əsrlərin heç bir şairinə hər hansı bir mənfi münasibət göstərə bilmərik və kimisə qınaya bilmərik. Səməd Vurğunu da heç kəs qınaya bilməz ki, o şeirləri, poemaları yazıbdır. Səməd Vurğun öz xalqına, millətinə sadiq insan olubdur. O, millətinin oyanışına, dirçəlişinə xidmət edibdir. Məhz Səməd Vurğunun şeirləri, poemaları, pyesləri, dramları – hamısı birlikdə xalqımızı xırda-xırda bu yüksək səviyyəyə çıxarıbdır...”[3]

Bir ideologiya və yaşam tərzi kimi kommunizmin tədricən iflasa uğradığı bir cəmiyyətdə “kommunist” qalaraq, eyni zamanda öz

---

[1] Рамиз Мехтиев, Гражданин, личность, лидер – Бакинский рабочий, 23 мая 2003 г.

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 415

[3] Yenə orada, s. 364

dövrünün ən böyük Azərbaycanlısı kimi, məhz Ümummilli lider kimi çıxış etmək heç də asan olmamışdır. O cümlədən dövrün "ədəbi mübarizələri" bunu göstərir və qeyd olunduğu kimi, bu baxımdan Heydər Əliyev idealını heç nahaqdan Sosialist Azərbaycanının ilk lideri Nəriman Nərimanovla müqayisə etmirlər. Təsadüfi deyil ki, Heydər Əliyevə qədər az qala unutdurulmağa məhkum olunan Nəriman Nərimanovun adının, xatirəsinin, tarixi irsinin xalqa qaytarılmasında və populyarlaşdırılmasında da Ümummilli liderin rolu misilsizdir. Və həm də ədib, yazıçı, publisist, dramaturq olan Nəriman Nərimanovun yenidən ədəbiyyata qayıtmasının zirvə anları da bu dövrə düşür.

Həmin tarixi vəzifənin çətinlikləri barədə Elmira Axundovanın roman-tədqiqatında oxuyuruq: "Nəriman Nərimanovun 100 illik yubileyinin keçirilməsinə Moskvanın "hərisi"ni almaq üçün Azərbaycan partiya rəhbəri çox səy göstərməli oldu. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin ilkin sədrlərindən olmuş görkəmli partiya və dövlət xadiminin yubileyi 1970-ci ilə təsadüf etsə də, yubiley tədbirləri iki il sonra keçirildi. "Soruşa bilərsiniz: niyə? – Heydər Əliyev jurnalist E.Əhmədova ilə müashibəsində bu məqama toxunurdu. – Çünki bu yubileyi keçirmək üçün iki il mübarizə aparmaq lazım gəldi. Çünki Nərimanova "millətçi" damğası vurulmuşdu. Millətçi ruhlu ermənilər açıq yox, gizli maneələr törədirdilər, cürbəcür kanallarla MK-da belə rəy yaradırdılar ki, guya N.Nərimanov böyük səhvlər buraxıb və bu səhvlər millətçilik nəzəriyyəsindən irəli gəlib, guya o, yubileyi keçirilməyə layiq şəxsiyyət deyil. Nərimanovun abidəsini qoymaq bizim üçün nə qədər çətin olub! İki dəfə Suslovun, Brejnevin yanına getdim, ancaq onlara Nərimanov haqqında başqa informasiyalar vermişdilər..."[1]

1972-ci ilin ilin iyun ayında Heydər Əliyevin səyi nəticəsində ən nəhayət Nəriman Nərimanovun 100 illik yubileyi keçirilir və Bakının hündür dağüstü ərazisində abidəsi ucaldılır. Heykəlin açılışında Ümummilli lider iftixarla deyir: "Nəriman Nərimanov bu gün də bizimlədir. O özünün nəhəng qaməti ilə burada, qocaman Xəzərin dalğaları üzərində ucalır, inqilabi vuruşmalarda və yaradıcı sosialist əməyində şöhrət qazanmış qəhrəman Bakıda ucalır və Sovet haki-

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 263

miyyəti illərində tanınmaz dərəcədə dəyişilmiş respublikamızın düzlərinə, elə bil iftixarla nəzər salır, xalqın səadəti uğrunda çarpışmış mərd mübarizlə görüşə gəlmiş zəhmətkeşlrin çoxmillətli dəstələrini diqqətlə gözdən keçirir..."[1]

E.Axundova roman-tədqiqatında göstərir: "Heykəl ucaldılması ilə, yubiley keçirməklə iş bitmədi. SSRİ-nin ən sanballı qəzeti "Pravda"da Heydər Əliyevin Nərimanov haqqında məqaləsi çıxdı; müəyyən ixtisarla da olsa Nərimanov haqqında film axır ki, ölkə ekranlarında göstərildi. Əvvəl "Doktor Nərimanov" adlanan kinolent, bu soyadın xalq arasında populyarlaşmasını istəməyən səlahiyyətli məmurların təkidilə başqa adla çıxdı: "Ulduzlar sönmür". Bakıda Nərimanovun ev muzeyi açıldı. 1979-cu ildə Nərimanovun yaxın və məhrəm münasibətdə olduğu Leninin yurdu – Ulyanovsk şəhərində Azərbaycanın görkəmli xadiminə heykəl ucaldıldı. Heydər Əliyev şəxsən təntənəli açılışda iştirak etdi..."[2]

Nəriman Nərimanovun yubileyindəki məruzəsində Ümummilli lider xüsusi vurğulamışdı: "O illərin mürəkkəb və gərgin şəraitində, vaxtı çatmış problemlərin düzgün həlli üçün yollar axtarışı zamanı bəzən Azərbaycan partiya və sovet işçiləri arasında fikir ayrılığı əmələ gəlir, ayrı-ayrı səhvlərə, o cümlədən N.Nərimanov tərəfindən də səhvlərə yol verilir və bunlar partiyanın Mərkəzi Komitəsinin köməyilə vaxtında aradan qaldırılırdı..."[3] "Səhvlər"dən danışarkən, görünür ki, Heydər Əliyev alt qatda həm də yalnız özünə bəlli, özü üçün aydınlaşdırdığı "tarixin dərsləri"ni nəzərdə tuturdu. Tədqiqatçıların da qeyd etdiyi kimi, Heydər Əliyev özünə qədər Azərbaycana rəhbərlik etmiş liderlərin tarixi səhvlərini dərindən öyrənərək, təkrarlamamış, dahilərə məxsus addımlarla, zamanının fövqünə ucala bilmişdir.

1960-1970-ci illərdə Azərbaycan cəmiyyəti kifayət qədər "milliləşmiş", "millətçi" cəmiyyət idi. Tarixdə "Xruşşov mülayimləşməsi" adını almış mərhələ işini görmüş, digər respublikalarda olduğu kimi, Azərbaycanda da sosializm cəmiyyəti içrə milli şüurun güc-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 27

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 264

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 37

lənməsi, milli ideya və şüarlara qayıdış, millətçilik hisslərinin oyanması baş vermişdi. Ədəbiyyat və sənətdə “60-cılar” hərəkatı başlamış və bu, ciddi şəkildə sosializm cəmiyyətinin hüdudlarını döyəcləyirdi. Modern ədəbiyyat və sənət estetikası hər yerdə rəsmi sosializm realizmi cərəyanı ilə açıq və gizli polemikaya səbəb olurdu. Millətçilik havası Azərbaycan xalqının taleyində növbəti “qara səhifələr” aça bilərdi. Azərbaycan xalqının taleyində 1920-ci, 1930-cu, 1940-cı, 1950-ci illərin qara repressiya yelləri bir çox xalqlardan bəlkə də daha güclü əsmiş, birə ikiqat qurbanlar aparmışdı. Axı amansız sovet repressiv maşını ilə birgə, Azərbaycan-türk xalqına daim qənim kəsilmiş qurnaz erməni-daşnak faktoruna da göz yummaq olmazdı.

Özünəqədərki rəhbərlərdən fərqli olaraq, Heydər Əliyev cəmiyyətdə gedən proseslərin nə şiddətlənərək, ifrat millətçilik dalğasına keçməsinə yol verdi, nə də qarşısını alıb millətçilik əhval-ruhiyyəsinin inkişafını dayandırdı. Ulu öndər sonralar acı bir nisgillə həmin illəri opponentlərinə xatırladacaqdı: “Bəli, xüsusən 1920-1930-cu illər ağır repressiya illəri olubdur. Bizim xalqımız çox itkilər veribdir. Biz bu repressiya illərini ürək ağrısı ilə xatırlayırıq... Bəli, biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya qurbanları olması haqqında on illərdir ki, böyük ürək ağrısı ilə danışırıq. Onlar əlimizdən getdi. Əgər hamısı getsəydi, onda bizim ədəbiyyatımızı, elmimizi, mədəniyyətimizi kim yaradacaqdı? İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər. Onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onları da on illərlə ağlayacaqdıq. Yenə də deyirəm, biz Allaha şükür etməliyik ki, belə insanlar o ağır dövrdə o xətalardan qurtara bildilər...”[1]

Bütün bu tarixi dərslərdən çıxış edərək, Ümummilli lider respublikaya başçılıq etdiyi dövrdə millətçilik əhval-ruhiyyəsini, millilik proseslərini bir rəhbər olaraq əlinə almış, onu zamanın qara yellərindən yayındırmaqla, cəmiyyətdə intişarına daha da rəvac vermişdi. Anar “Unudulmaz görüşlər”də yazır: “...Moskvada Azərbaycana rəhbərliyi məhz ona tapşırmağı məqsədəuyğun saymışdılar. Bircə

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 458

şeyi nəzərdən qaçırmışdılar. Heydər Əliyev Mərkəzdə oturub onun təyinatı haqqında qərar verənlərin hamısından ağıllı idi və heç vaxt öz doğma Vətənini – Azərbaycanı, öz xalqını onların ayağına verməzdi. Bu çətin missiyanı lazımi tədbirlərlə həyata keçirmək üçün isə kifayət qədər təcrübəsi və bacarığı vardı. 1969-cu ilin yayında Azərbaycan KP MK-nın Birinci katibi seçiləndən sonra Heydər Əliyev Mərkəzin ondan gözlədiyi mübarizəni – millətçilik təzahürlərinə qarşı mübarizəni tamamilə başqa və təhlükəsi daha real bir bəlaya qarşı – qanun pozuntularına, rüşvətxorluğa, əliəyriliyə, ədalətsizliyə qarşı mübarizəyə çevirdi. Və bununla yalnız Azərbaycanın deyil, ümumən SSRİ-nin gələcək taleyinin dəyişməsi üçün ilk addımlardan birini atdı”.[1]

Elmira Axundova roman-tədqiqatında Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə ədəbiyyat və mədəniyyət siyasətini aydınlaşdırmaq üçün bir sıra 60-cılarla – Anar, Elçin, Vaqif Səmədoğlu, Maqsud İbrahimbəyov, Mövlud Süleymanlı, Azər Mustafazadə və b.-ları ilə müsahibələr aparır. Faktlar, dəlillər, sübutlar göstərir ki, Respublikanın birinci şəxsi dövrə, rəsmi ideologiyaya, rejimə müxalif yazıçıların, sənətkarların nəinki fəaliyyət və yaradıcılığının qarşısını almamış, yeri gəldikcə sovet, (o cümlədən ədəbi) mühitinin bataqlıqlarından onları xilas etmişdir. Maqsud İbrahimbəyov, Mövlud Süleymanlı, Anar xatirələrində buna misallar çəkirlər. Maqsud İbrahimbəyov deyir: “70-ci illərin əvvəllərində Heydər Əliyev bizi – məni və qardaşımı xilas etdi demək olmasa da, qorudu, yalnız Əliyevin sayəsində biz vətəndə qala bildik”.[2]

Maraqlıdır ki, bu sırada yalnız “60-cılar” hərəkatının himayəsindən söhbət getmir, ümummilli maraqlar Heydər Əliyev üçün hər zaman üstün məna kəsb edir: Elmira Axundova o illərdə Mərkəzi Komitədə təbliğat və təşviqat şöbəsinə başçılıq etmiş Cahangir İldırımzadəyə belə bir sual verir: “- Demək olarmı ki, Heydər Əliyevin vaxtında senzura, xüsusən hansısa qeyri-standart əsərlərə yanaşmada nisbətən az sərtlik göstərmişdir?” Və cavab alır: “- Bəli, belə də olmuşdur. Əvvəllər keçirilə bilməyəcək bir çox əsərlər dərc edilirdi. Mənim yanıma tez-tez şairlər, nasirlər gəlirdilər və elə bir hal baş verməmişdi ki, hansısa kitab plandan çıxarılsın, ya satışdan götürül-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 34

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 213

sün. Bir dəfə Süleyman Rüstəm "İki sahil" poeması ilə bağlı zəng vurmuşdu. Senzorun iradları vardı. Mən məsələni həll etməyə söz verdim və biz bu poemanı dərhal buraxdıq".[1] Yaxud Heydər Əliyevin komandasından, başqa bir MK təbliğat-təşviqat şöbə müdiri Azad Şərif "- Nədəndir, Azərbaycanda dissidentlər olmamışdır? Heç kəs baş götürüb getmədi, heç kəsi sürgün etmədilər" sualına belə cavab verir: "Olmamışdır deмək düz deyil. Olmuşlar. Rəsul Rzada da, Süleyman Rüstəmdə də, Nəbi Xəzridə də "qulpqoyulası" şeirlərə rast gəlinirdi. Hələ cavan şairləri demirəm, – başdan-başa dekadans və o vaxtın təbirincə desək, formalizm... Amma mənə elə gəlir ki, Heydər Əliyev burada hansısa sağlam, saf, gələcəyi olan pöhrələri sezirdi".[2]

Belə ki, Heydər Əliyevin ədəbiyyat siyasəti sahəsində rəsmi və dolayısı addımlarının məntiqi mənasını anlamaq bəzən müasirləri üçün də, hətta irəli çəkdiyi kadrlara belə çətin olmuşdur. Vaxtilə "Azərbaycan" jurnalının baş redaktoru postuna irəli çəkdiyi 60-cıların nümayəndəsi, Elmira Axundova ilə söhbətində etiraf edir: "-Heydər Əliyev hər sahəyə dərin marağı olan, olduqca istedadlı şəxsiyyət idi. Həmçinin Azərbaycanda istedadlı ədəbiyyatın inkişaf etməsində maraqlı idi. Başqa məsələdir ki, hansı ədəbiyyatı istedadlı, hansını isə istedadsız hesab edirdi. Bu həm doğma torpağa, xalqa bağlılıqdan, həm də hər bir sahədə, o cümlədən ədəbiyyat və incəsənət sahəsində hamıdan öndə olmaq təəssübündən irəli gəlirdi. Mən hesab edirəm ki, o, qeyri-adi, heç kim tərəfindən tam araşdırılmamış şəxsiyyət, unikal psixologiyaya malik bir insan idi. Onu dərk etmək bizim ağlımızın işi deyil".[3]

Ulu öndər özü müstəqillik dövründə həmin illərin xətt-hərəkətini belə şərh etmişdir: "DTK-da işləyərkən mən çox şeylər görmüşdüm. İlk günlərdən Moskvanın türkdilli millətlərə qarşı apardığı birtərəfli siyasətinin şahidi oldum. Və buna qarşı daxilən üsyan etsəm də, mən həyatda öz hisslərimi büruzə verə bilməzdim. Azərbaycan KP MK-nın birinci katibi olaraq, mən Moskva siyasətinə qarşı çıxış edə, Mərkəzlə münaqişəyə girişə bilməzdim. Moskva bir bütöv imperiya siyasətini yeridirdi. Mən onların əleyhinə getsəydim, birinci-

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 218

[2] Yenə orada, s. 216

[3] Yenə orada, s. 220

si, bundan bir şey çıxmayacaqdı, ikincisi isə, Əliyevi, ölkənin başqa katibləri kimi, məhv edəcəkdilər. Mən xalqın, doğma millətin duyğularını tədricən oyatmağa başladım. Arzulayırdım ki, Azərbaycan türklərinin milli hissiyyatı, milli oyanışı reallığa çevrilsin. Lakin bunu mən asta-asta edirdim ki, Moskvanı narahat etməyim, cırnatmayım”.[1]

***

Ümummilli liderin sovet dönəmində ədəbi mühitə təsir mexanizminin rəsmən bir sıra forma və üsulları olmuş, bəzilərini də Heydər Əliyev şəxsən özü “kəşf” və təsis etmişdir.

Birinci yerdə, şəksiz ki, Yazıçılar İttifaqının Nizamnaməsinə əsasən beş ildən bir keçirilən qurultayları gəlir. Heydər Əliyev özü də vurğuladığı kimi, Azərbaycan yazıçılarının 1969-1982-ci illərə təsadüf edən bütün – 1971, 1976, 1981-ci il V, VI, VII qurultaylarında iştirak etmişdir. Qurultay respublika rəhbəri və Ümummilli lider üçün yazıçılarla bilavasitə ünsiyyət imkanı demək idi. Heydər Əliyev burada qələm əhli ilə həm aktual cəmiyyət məsələlərini, həm də ümummilli problemləri müzakirə etmək, ideoloji oriyentiri təyin etmək, müəyyənləşdirmək, yönəltmək fürsəti qazanırdı. Yalnız rəsmi mövqedən deyil, həmçinin böyük ədəbiyyat sevgisi və ədəbiyyata verdiyi önəm müqabilində Ümummilli lider sənət və yaradıcılıq məsələlərinə də uğraşır, ədəbiyyatın qarşısında duran vəzifələri xalqın və cəmiyyətin mənafeyi ilə uzlaşdırmağa çalışırdı.

Sovet dönəmində ədəbi-mədəni mühiti təşəkküllədirən digər bir forma olaraq, respublikalarda təntənəli şəkildə keçirilən “mədəniyyət və incəsənət ongünlükləri”ni, “ədəbiyyat günləri”ni, ümumittifaq və beynəlxalq tədbirləri göstərmək olar. Sovet İttifaqının ideoloji möhkəmliyinə, xalqlar arasında “dostluq və beynəlmiləlçilik” əlaqələrinə xidmət etməli olan həmin vasitələr 1960-1980-ci illərin kütləvi üsullarından sayılırdı. Heydər Əliyev bu tədbirlərə heç bir respublikada olmadığı qədər miqyas vermiş, Azərbaycan mədəniyyəti, incəsənəti və ədəbiyyatının, bütövlükdə azərbaycançılığın geniş təbliğatına çevirə bilmişdi. 1972-ci ilin oktyabrında Azərbaycan-

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 201

da RSFSR ədəbiyyatı və incəsənəti günləri, 1975-ci ilin oktyabrında Azərbaycanda Sovet ədəbiyyatı günləri, 1979-cu ilin aprelində "Fəal həyat mövqeyinin formalaşması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" mövzusunda Ümumittifaq elmi-praktik konfrans, 1979-cu ilin oktyabrında Azərbaycanda Ukrayna ədəbiyyatı və incəsənəti günləri, 1980-ci ilin 27 oktyabr - 4 noyabrında keçirilən "Xalqların dostluğu – ədəbiyyatların dostluğudur" Yazıçıların Ümumittifaq yaradıcılıq konfransı kimi iri miqyaslı və s. çoxsaylı ədəbi tədbirlərə ölkənin hər yerindən onlarla yazıçılar, şairlər, mədəniyyət xadimləri qonaq gəlir, qəlblərində unudulmaz Azərbaycan təəssüratı ilə geri qayıdırdılar.

Bütün bu tədbirlərin təşəbbüsçüsü, ideya rəhbəri və ilhamlı təşkilatçısı Heydər Əliyev olmuş, açılış və bağlanışlarda geniş nitqlər söyləmiş, konfranslarda əsas məruzələrlə çıxış etmişdir. Ümummilli lider respublikada keçirilən ədəbi tədbirlərin getdikcə daha da möhtəşəmliyinin qayğısına qalmışdır. 1975-ci ilin Sovet ədəbiyyatı günlərində fəxarətlə deyirdi: "Ədəbiyyatın əzəmətli ideya gücünü və bədii qüvvəsini özündə təcəssüm etdirən parlaq istedadların belə bir dəstəsi tarixdə heç bir zaman Azərbaycan torpağına toplaşmamışdı..."[1]; 1980-ci ildə ölkənin 15 respublikasından 77 ədəbiyyatının yazıçı və şairlərinin təmsil olunduğu konfransda alovlu tribun kimi söz adamlarına müraciət edirdi: "Əhalinin bütün təbəqələrinin əxlaqına təsir göstərmək üçün, əziz yoldaşlar, siz nasir və publisistlərin, şair və dramaturqların əlində ən güclü vasitə vardır: bu, bədii sözdür... Biz sizdən dərin məzmunlu və həyat materiallarını hərtərəfli təsvir edən yeni, maraqlı və parlaq əsərlər gözləyirik..."[2] Bilavasitə Ulu öndərin təşəbbüsü ilə Bakıda keçirilən "Fəal həyat mövqeyi..." konfransı isə zamanında bütünlükdə ölkədə böyük əks-səda doğurmuşdur. E.Axundovanın tədqiqat-romanında sabiq təbliğat-təşviqat şöbəsinin müdiri Əfrand Daşdəmirov bu barədə deyir: "Konfransda çıxış edənlər Heydər Əliyevin məruzəsini "parlaq və miqyaslı", "təsiredici", "yaxşı düşünülmüş və dərindən əsaslandırılmış", problemin işıqlandırılması və düşüncə baxımından yeni" kimi səciyyələndirmişdi... Bu konfransın əks-sədası Azərbaycan hüdudlarından çox

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 66
[2] Yenə orada, s. 118

uzaqlara yayıldı. Heydər Əliyev isə Sovet İttifaqı rəhbərləri arasında daha da populyarlaşdı..."[1]

Eyni uğurla Heydər Əliyev Azərbaycan mədəniyyətini ölkədən kənara çıxarırdı. "Belə ki, 1977-ci ilin oktyabr ayında Yaponiyada Azərbaycanın tarixi, elmi, milli-mədəni ənənələrinə həsr olunmuş sərgi açılır, İtaliyanın Neapol şəhərində isə Azərbaycan mədəniyyəti günləri keçirilir; 1978-ci ilin oktyabrında Böyük Britaniyada Azərbaycan mədəniyyəti günləri keçirilir; bir il sonra İsveçdə təkrarsız Rəşid Behbudov başda olmaqla Azərbaycan incəsənət ustalarının konsertləri alqışlanır; respublikanın mədəniyyəti günləri Fransada, Danimarkada, Portuqaliyada uğur qazanır..."[2]

Sovet dönəmində ədəbiyyatın ideoloji missiyalarından biri də klassik irsin təbliği, kütləviləşdirilməsi və cəmiyyətə yeridilməsində üzə çıxırdı. Bu sıradan yubileylərin keçirilməsi mühüm rituala çevrilmişdi. Ülu Öndərin Azərbaycan klassiklərinin təbliği-təşviqi, klassik irsin mənimsənilməsi istiqamətində yubileylərə necə böyük önəm verməsi məqamına artıq toxunmuşuq. Qeyd olunmalıdır ki, həmin yubileylər sırası hələ sovet dönəmindən başlamış, Ümummilli liderin məqsədyönlü və israrlı fəaliyyəti sayəsində qeyri-adi miqyas almış, Azərbaycan klassiklərinin Bakıdan başlanan yubiley təntənələri Kremlin Sütunlu salonuna və YUNESKO iqamətgahlarına qədər addımlamışdır.

"Heydər Əliyevin birinci katib vəzifəsində işlədiyi ilk illərdən başlayaraq, onun iştirakı ilə böyük Azərbaycan şairi və mütəfəkkiri Nəsiminin 600 illiyi, Azərbaycan Dram Teatrının 100 illiyi, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mixail Şoloxov, Məmməd Səid Ordubadi, Sergey Yesenin, Səməd Vurğun, Aşıq Ələsgər kimi sənətkarların yubileyləri keçirilmişdir. Yubiley tədbirləri ümumittifaq, beynəlxalq miqyasda əks-səda doğurur, Bakıdan baş alıb Moskvanın mötəbər salonlarında tamamlanırdı... Azad Şərif söyləyir: Yadımdadır, İttifaqlar Evinin sütunlu salonunda Aşıq Ələsgərin yubileyini keçirirdik. Buna qədər moskvalılar Aşıq Ələsgərin kimliyini də bilmirdilər. Sonra biz Moskvada Azərbaycan ədəbiyyatı günləri keçirdik. Belə tədbirlərə həmişə böyük sənətçilər dəstəsi də aparılırdı. Bizim incəsənət ustalarımız bütün iri müəssisələrdə çıxış edirdilər.

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 287

[2] Yenə orada, s. 246

Heydər Əliyev bizi hər zaman təhrik edirdi ki, respublika hüdudlarından çıxmaq lazımdır..."[1]

Qəti söyləmək olar, Ümummilli lider Heydər Əliyevin ardıcıl surətdə gerçəkləşdirdiyi yubileylər sırası, ölkədə cərəyan edən sosrealizm ədəbiyyatına müqabil, hardasa alternativ ədəbi-mədəni proses yaradırdı. Vilayət Quliyev yazır: "Ümumiyyətlə, Heydər Əliyevin təşəbbüsü ilə 70-ci illərdə Nəsimi təntənələri də daxil olmaqla Azərbaycan ədəbiyyatı və mədəniyyəti klassiklərinin yubileylərindən çox böyük məharətlə qədim ənənələrə malik ədəbiyyatımızın keçmişini və inkişaf yolunu göstərmək üçün istifadə olunurdu. Bu isə öz növbəsində xalqımıza və mədəniyyətimizə çoxsaylı və nüfuzlu dostlar qazandırırdı. Nəhayət, Nəsimi də daxil olmaqla klassiklərin irsinin sistemli nəşri və tədqiqi ədəbiyyat tariximizin ardıcıl şəkildə, bütün şəxsiyyətləri və hadisələri ilə öyrənilməsini təmin edirdi".[2]

Heydər Əliyevin sovet dönəmində Azərbaycan ədəbi-mədəni mühitini zənginləşdirən israrlı addımlarından biri də ev-muzeylər hərəkatıdır. Rusiyada və digər bir sıra respublikalarda yayılmış həmin memorial kompleks təşəbbüsünü Ümummilli lider 1974-cü ildə dahi Üzeyir Hacıbəylinin 100 illiyinə ev-muzeyinin yaradılması ilə başlayır və böyük mədəni hərəkata çevirir. "Onun təşəbbüsü ilə Bakıda Üzeyir Hacıbəyovun, Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin, Səməd Vurğunun ev-muzeyləri yaradılmış, Mirzə Ələkbər Sabirin Şamaxıdakı ev-muzeyi əsaslı şəkildə yenidən qurulmuş və zənginləşdirilmişdi. Eyni zamanda bu müddət ərzində Tbilisidə Mirzə Fətəli Axundovun və Nəriman Nərimanovun ev-muzeyləri yaradılmışdır".[3]

Ulu öndər özü bunu belə xatırlayırdı: "Vaxtilə, 1976-cı ildə biz böyük şairimiz Səməd Vurğunun 70 illik yubileyinə hazırlaşanda onun ev-muzeyini bir neçə ay müddətində təşkil etdik və bu muzey indi də fəaliyyət göstərir. Ondan əvvəl 1975-ci ildə böyük bəstəkarımız Üzeyir Hacıbəyovun ev-muzeyini yaratdıq. Sonra Cəfər Cabbarlının 80 illik yubileyi ərəfəsində onun həm böyük abidəsini, hey-

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 244-245

[2] Vilayət Quliyev, Heydər Əliyev və klassik ədəbi irsimiz // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Elm, 1998, s. 50-51

[3] Yenə orada, s. 85

kəlini qoyduq, həm də ev-muzeyini yaratdıq. Böyük sənətkarımız, müğənnimiz Bülbülün də ev-muzeyini yaratdıq..."[1]

Heydər Əliyevin respublikadan ayrılması ilə həmin proses dayanır və bu, müstəqillik illərində hətta Ulu öndərin böyük təəccüb və qınağına səbəb olur. Qərarları 1970-ci illərin sonu, 1980-cilərin əvvəllərində verilmiş Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin ev-muzeylərinin yalnız müstəqillik illərində fəaliyyətə başlaması Heydər Əliyevin bu hərəkata necə önəm verdiyini təsbit edir: "Demirəm ki, bunlar asan işdir. Amma respublika miqyasında bunlar o qədər də böyük iş deyil ki, onu etmək mümkün olmasın. Buna sadəcə münasibət, istək lazımdır... Xatırladım ki, biz Cəlil Məmmədquluzadənin yaşamış olduğu evdəki vətəndaşlara, onların qohumlarına hələ 1981-1982-ci illərdə başqa yerlərdə mənzil verdik. Yəni, Cəlil Məmmədquluzadənin yaşadığı ev hələ o vaxt boşaldılmışdı, ancaq bu muzey yaranmamışdı. Həmin muzeyi biz keçən il yaratdıq. O, Azərbaycan mədəniyyəti, tarixi üçün yeni bir səhifə oldu və yeni bir abidədir..."[2]

Klassiklərə abidələrin qoyulması xalqın tarixi yaddaşının bərpasına, oyanmasına xidmət etməklə yanaşı, əsl müasirlik şöləninə çevrilir, abidələrin açılış təntənələri həm də "klassiklə görüş", dialoq səciyyəsi alırdı. 1972-ci ildə Bakıda Nəriman Nərimanova heykəlin qoyulması ilə başlayan memorial, 1982-ci ildə Şuşada Molla Pənah Vaqifə məqbərənin, eyni ildə Bakıda Cəfər Cabbarlıya abidənin, Naxçıvanda Cəlil Məmmədquluzadəyə heykəlin ucaldılması ilə davam etmiş, 1982-ci ildə Ulu öndərin böyük iradəsi və hünəri sayəsində uzaq Sibirdən cənazəsi gətirilib Naxçıvan torpağında dəfn olunmuş Hüseyn Cavidin məzarı üzərində 1996-cı ildə məqbərənin yüksəkldilməsi ilə apogeyə çatmışdır. Abidələrin hər birinin ideya müəllifi olan Ümummilli lider proyektin həyata keçirilməsinin bütün mərhələlərində iştirak edir, sonda açılış mərasimində nitq söyləməklə xalqına "təhvil verirdi".

Cəfər Cabbarlının heykəlinin açılışında dərin məzmunlu, dolğun nitqini Ulu öndər belə tamamlamışdı: "Bax, budur görkəmli sənətkarın ölməzliyi. Cəfər Cabbarlı ədəbi irsi daşda və tuncda, küçələrin, meydançaların və mədəniyyət ocaqlarının adlarında, ədəbiy-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 269

[2] Yenə orada, s. 270

yatşünasların əsərlərində və yazıçıların, bəstəkarların, rəssamların yaradıcılığında əbədiləşmişdir. Bu gün Bakının yaraşıqlı guşəsində açılan Cabbarlı abidəsi Azərbaycan xalqının öz böyük oğluna ehtiram və məhəbbətinin yeni parlaq təzahürüdür".[1]

Cavid ruhuna ehtiramın ifadəsini Ulu öndər dahi sənətkarın rahat uyuyacağı əbədiyyət mənzilәsində arayır, deyirdi: "Ona görə də Hüseyn Cavidin cənazəsi Sibirdən gətiriləndə mən məhz bu fikrin tərəfdarı oldum ki, onun qəbri Naxçıvanda olsun, bir tərəfdə Əcəmi Naxçıvaninin yaratdığı möminə Xatun məqbərəsi, o biri tərəfdən isə XX əsrdə bizim nəslin yaratdığı Hüseyn Cavid məqbərəsi olsun. Bax, mən o vaxt həmin qərarın qəbul olunmasına bu məqsədlə imza atmışam və o fikirlə yaşayıram. Ona görə də istəyirəm ki, indi bizim üçün çətin olsa da, belə möhtəşəm məqbərə yaradaq. Bu həm böyük memarlıq abidəsi, həm də Hüseyn Cavidin xatirəsinə layiq məqbərə olsun".[2]

Ulu öndər Heydər Əliyev ədəbi-mədəni mühitə təsir imkanlarından birini də müasir sənətkarlara fəxri adların, dövlət mükafatlarının verilməsində görürdü. "Yeri gəlmişkən, 70-ci illərdə Heydər Əliyev Sosialist Əməyi Qəhrəmanı adının Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Tahir Salahov, Rəsul Rza, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mirzə İbrahimov, Mikayıl Hüseynov kimi sənətkarlara və mədəniyyət xadimlərinə verilməsinə nail olmuşdu. Bir dəfə kimsə qeyd etmişdi ki, Azərbaycanda mədəniyyət sahəsində Sosialist Əməyi Qəhrəmanlarının sayı Ukraynada – Baş katibin vətənində olanlardan çoxdur"[3]. Qeyd olunmalıdır ki, Sosialist Əməyi Qəhrəmanı Sovet İttifaqında sülh dövrünün ən ali mükafatı sayılırdı.

Fəxri adlar, mükafatlandırma rejim daxilində sənətkarın nüfuzunun qaldırılmasına xidmət edir, sərbəstlik imkanlarını artırırdı. Bəzən hətta bu, qələm əhlini mühitin təzyiqlərindən qorumaq niyyətləri də daşıyırdı. Bəxtiyar Vahabzadənin "Leninlə söhbət" poemasının, Anarın "Şəhərin yay günləri" tamaşasının, "İstintaq" filminin yaradıcı heyətinin Dövlət mükafatına layiq görülməsi yaradıcılı-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 171

[2] Yenə orada, s. 273

[3] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 200

ğına yüksək qiymət verilən müəllifləri hardasa rejimin təqiblərindən qorumuşdu.

Heydər Əliyev mükafatlandırma mərasiminə böyük önəm verir, rəsmi təşkil olunan həmin ritualları sənət və yaradıcılıq görüşünə çevirir, fürsətdən yararlanaraq laureatlar haqqında ürək sözlərini söyləyirdi. Təltif olunan hər bir sənətkar haqqında Ümummilli liderin mötəbər sözü, dürüst dəyərləndirmələri, ədəbiyyat və mədəniyyət tarixində mövqelərini dəqiq səciyyələndirməsi onun ədəbi mühitə nə dərəcədə doğma olmasının göstəricisidir. 1980-ci ilin may ayında Rəşid Behbudovun Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə, Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rəhimovun 80 illiyi münasibətilə Xalqlar Dostluğu ordeni ilə, İmran Qasımovun Azərbaycan Xalq Yazıçısı adı ilə, Nəbi Xəzrinin və İshaq İbrahimovun Respublikanın incəsənət xadimi adı ilə, Xalidə Hasilovanın Qırmızı Əmək Bayrağı ordeni ilə;[1] habelə 1981-ci ilin dekabrında Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəmin Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə, Balaş Azəroğlunun 60 illiyi münasibətilə Xalqlar Dostluğu ordeni ilə təltif olunmasına dair[2] yığıncaqlarda Heydər Əliyevin parlaq çıxışları buna misal ola bilər.

***

Bütün rəsmi formalardan maksimum yararlanmaqla yanaşı, Heydər Əliyevin xarizmatik lider olaraq ədəbi-mədəni mühitə təsirinin gizli tərəfləri də olmuşdur. Sovet rejimi çərçivəsində qeyri-ordinar olan bu addımlar böyük maraq və təəccübə səbəb olurdu. Elmira Axundova tədqiqat-romanında Ümummilli liderin fəaliyyətinin bu tərəflərinə daha çox nüfuz etməyə çalışmışdır. Yazıçılar qurultaylarının hazırlanması da, beynəlxalq konfransların və yubiley tədbirlərinin təşkili də, qeyd olunduğu kimi, əsas məsələlərdən tutmuş, xırda detallara qədər məhz Heydər Əliyev ssenarisi ilə davam etməli,

---

[1] Bax: İstedad və ilhamla yaratmalı. Kommunist qəzeti, 18 may 1980 // Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s.91-98

[2] Bax: Həyat həqiqəti, yaradıcılıq həqiqəti, Kommunist qəzeti,12 dekabr 1981// Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 159-164

lazımi effekti doğurmalıydı və belə də olurdu. Bu isə hadisələrin bir sıra gözlənilməz, kuluar məqamlarını ortaya çıxarırdı.

Elmira Axundova Nəsimi yubileyi ilə bağlı belə bir əhvalatı yada salır: "70-ci illərdə Azərbaycan yazıçılar təşkilatını SSRİ Yazıçılar İttifaqında təmsil etmiş yazıçı-tərcüməçi Azər Mustafazadə bu mövzuyla bağlı mənə bir maraqlı əhvalat söylədi: -Böyük şairimiz Nəsiminin 600 illik yubileyinə hazırlıq Moskvada müzakirə edilirdi. Müşavirə Azərbaycanın daimi nümayəndəsinin kabinetində, Heydər Əliyevin iştirakıyla keçirildi. Yubileyin məhz harada keçiriləcəyi məsələsi ortaya çıxdı. Tədbirin səviyyəsi yüksəlsin deyə, yubileyin "Bolşoy teatr"da keçirilməsi qət edildi. Lakin SSRİ mədəniyyət naziri yubiley günündə həmin teatrda tamaşa gedəcəyini və bütün biletlərin satıldığını (özü də valyutaya) bəhanə edərək Azərbaycan tərəfinin xahişinə "yox" cavabı verdi. Heydər Əliyev telefon dəstəyini götürüb özü Demiçevə zəng vurdu. Nazir yenə də dirəndi: axı bütün biletlər satılıb! Onda Əliyev təşkilat komitəsi üzvlərinə üz tutub: "Kabineti tərk edin!" deyə xahiş etdi. Beş dəqiqədən sonra hamını yenə çağırıb mədəniyyət nazirimizə tapşırdı: "Zakir (Zakir Bağırov – E.A.), "Bolşoy"a yollan, bütün detalları yerbəyer eləyin". Azər Mustafazadə sözünə davam edir: "Biz anladıq ki, o, SSRİ mədəniyyət nazirinin buyruğu və istəyinə qarşı getmiş və daha yuxarıda kiməsə, ola bilsin Suslova, bəlkə də baş katibin özünə (L.İ.Brejnevə - T.Ə.) zəng vurmuşdur..."[1]

Yazıçıların 1981-ci il VII qurultayı ərəfəsində Heydər Əliyevin Şüvəlanda AYİ-nin Yaradıcılıq Evini təsis etməsi və açılış zamanı yazıçılarla görüşün mətbuat üçün olmayan, kifayət qədər gərgin məqamlarından Anar "Unudulmaz görüşlər" əsərində söz açır. O zaman Respublikanın rəhbəri elə öz dəstəyi ilə irəli gəlmiş "60-cılar" hərəkatını ədəbi mühitin konservativ təzyiqlərindən qoruyurdu. Niyyəti heç də yaradıcı adamları sıxışdırmaq olmayan, amma eyni zamanda onları rejimin təqiblərindən yayındırmağa çalışan xarizmatik liderin bir sıra yaşlı yazıçılarla gənclər arasında kəskinləşən gərginliyi sovuşdurmaq üçün atdığı addımlar heyrətamiz görünür. "Bugün bəlkə də paradoksal görünəcək qədər maraqlı situasiyadır; bir yandan, az qala həqiqətən də ortada o zamankı ictimai-siyasi doktri-

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 245-246

naya qarşı dura biləcək bir Ədəbiyyat var, Ədəbiyyat mövqeyi var. Digər tərəfdən, axı həmin Ədəbiyyatı himayə edən-dəstəkləyən, qorumağa çalışan da eyni instansiyadır; yazıçını siyasi rejimdən də əvvəl, hələ öz ictimai əhatəsindən qorumaq gərəkirdi. Hətta bir az da məğzinə varsaq, bəlkə daha da çox yazıçını özündən-sözündən-həqiqətindən qorumaq idi bu..."[1]

Heydər Əliyevin respublikada gedən quruculuq işlərinə yazıçıların diqqətini cəlb etmək niyyətilə regionlara səfərlərinə onları da qatması barəsində Vidadi Babanlının, Mövlud Süleymanlının adını çəkdiyimiz xatirə-əsərlərində oxuyuruq. Bu zaman yaradıcılıq məsələləri ilə yanaşı, Ümummilli liderin ədəbiyyat adamlarına hərtərəfli qayğısı, həyat şəraiti və mənzil-məişət problemlərinə qədər himayəsi ilə onları əhatə etməsi qeyri-adi görünür. Amma bu, faktdır: "Müşavirədən bir müddət sonra İmran müəllim bizi qəbul etdi: "-Mən yoldaş Heydər Əliyevin tapşırığıyla sizi bir də çağırtdırdım. İstəyirəm onun sözünü sizə çatdırım. Heydər Əliyev dedi ki, müşavirədə iştirak edən gənc yazıçılardan muğayat ol, nə problemləri olsa həll et. Yaxşı uşaqlardır". Doğrudan da, elə o ərəfədə evlə təmin olunduq, maşın aldıq, hərəmiz bir yerdə işləyirdik. Bir yazmaq qalırdı. Və doğrudan da böyük həvəslə, ruh yüksəkliyilə yazılarımızı yazırdıq..."[2]

Ulu öndər 1997-ci il Yazıçıların X qurultayındakı çıxışında xatırlayırdı: "Bu günlər yazıçıya, ədəbiyyata qayğılar haqqında danışıldı. Siz yaxşı bilirsiniz ki, keçmiş dövlət çərçivəsində bu qayğıları göstərmək çox çətin bir şey deyildi. Biz bunu edirdik və sizin hamınız da o qədər öyrənmişdiniz, elə bilirdiniz ki, şair anadan gələndən belə qayğı ilə əhatə olunmalıdır..."[3]

Əvəzində, həmin dövrdə Ümummilli lider Azərbaycanın tərəqqisi naminə fəaliyyətində yazıçılardan bilavasitə dəstək gözləyirdi. Anar "Unudulmaz görüşlər"də yazıçıların VII qurultayı zamanı Heydər Əliyevin onu şəxsən qəbulundakı söhbətdə tövsiyələrini xatırlayır. Yazıçının Azərbaycan partiya təşkilatının antipodlara qarşı apardığı mübarizəni dəstəkləyən "Şəhərin yay günləri" pyesini nə-

---

[1] Tehran Əlişanoğlu. Unudulmaz görüşlərin izi ilə. – Tənqid.net jurnalı, № 8, 2011, s. 14-15

[2] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, s. 34

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 423

zərdə tutaraq, Heydər Əliyev deyir: “-Bəli, biz bu pyesi müdafiə etmişdik və edirik. Amma istərdik ki, elə bu pyesin baş qəhrəmanı da daha fəal, daha mübariz olsun... Amma hər halda bir partiya işçisi kimi, bir ata kimi sizə tövsiyə edirəm ki, irimiqyaslı əsər yaradasınız, bizim bugünkü həyatımızı əks etdirən bir əsər. Qoy orda neqativ hallara qarşı mübarizə də olsun, amma eyni zamanda bizim əxlaq prinsiplərimizi, ideyalarımızı aydın, fəal təsdiq də olsun. Qəhrəmanlarınız partiya işçiləri də ola bilər, ziyalılar da. Doğrudur, bizdə oğru-əliəyrilər də az deyil, o cümlədən elə partiya işçiləri arasında. Biz onları işdən qovuruq, partiyadan çıxarırıq, hətta tutub basırıq, amma demək olmaz ki, bütün raykom katiblərinin hamısı oğru, rüşfətxordur. Onların arasında axı təmiz adamlar da var...”[1]

Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə keçirilən hər bir Yazıçılar Qurultayı ədəbi mühitdə dəyişikliklər dövrü, ədəbi vexa olaraq xatırlanır. Hər bir qurultay böyük səs-sədaya səbəb olan müəyyən bir vacib, ümummilli problemin qabarması ilə yadda qalmışdır.

1970-1980-ci illərdə Sovetlər ölkəsində böyük sosial ziddiyyətlər və problemlər mövcud idi. Ölkəni silkəyən sosial həyəcanı yalnız ədəbiyyat xəbər vermirdi. Heydər Əliyevin 1969-cu ildə Respublikaya rəhbərliyi məhz ölkədə kəskin şəkil almış rüşvətxorluqla mübarizədən başlaması təkcə SSRİ-də yox, bütün dünyada əks-səda doğurmuşdu. Yazıçıların 1971-ci il V qurultayında da Ümummilli liderin yazıçılarla bölüşmək istədiyi başlıca məsələ budur. “Azərbaycan partiya təşkilatı ümid edir ki, respublikanın qarşısında duran vəzifələri həyata keçirməkdə yazıçılarımız ona ən fəal kömək göstərəcəklər. Biz istəyirik ki, yazıçılarımızın yaradıcılığı respublikanın ictimai-siyasi həyatı ilə sıx bağlı olsun, onlar bu həyatdan ayrılmasınlar, kəskin problemlərdən və məsələlərdən kənara çəkilməsinlər, əksinə, həmişə hadisələrin qaynağında olsunlar, partiya və xalq qarşısında məsuliyyət daşıdıqlarını heç vaxt unutmasınlar...”[2]

Heydər Əliyev rüşvətxorluqla mübarizəyə başladığı kampaniyada ədəbiyyatdan dəstək gözləyir və Yazıçıların 1976-cı il VI qurultayında nəticələrdən söz açaraq, problemi daha da kəskinləşdirir: “Siz bilirsiniz ki, son illərdə respublikanın partiya təşkilatı zəhmət-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 62

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 20

keşlərin mənəvi tərbiyəsi sahəsində böyük iş görür, tamahkarlığa, rüşvətxorluğa, sosialist mülkiyyətinin oğurlanmasına, böhtançılığa qarşı, cəmiyyətimizə yad olan "əşyabazlıq azarı", proteksionizm, yerliçilik kimi bəlalara qarşı barışmaz mübarizə aparır... Yazıçıların qarşısında xüsusilə geniş fəaliyyət meydanı açılır. Axı bədii söz insanların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir. Təəssüflə qeyd etməli oluruq ki, ədəbiyyatçılarımız böyük və məsuliyyətli mənəvi tərbiyə işində hələ fəal iştirak etmirlər, halbuki bu məsələ Azərbaycan yazıçılarının hələ beşinci qurultayında ən mühüm vəzifələrdən biri kimi irəli sürülmüşdür. Bədii söz cəmiyyətimizin antipodlarının, yaramazların qənimi olmalıdır. Yeni cəmiyyət qurmağımıza mane olan qüvvələrə qarşı barışmaz mübarizə getdiyi zaman yazıçı hissiz və ehtirassız, laqeyd müşahidəçi kimi qala bilməz..."[1]

Artıq xatırlatdığımız kimi, məhz bu baxımdan Heydər Əliyev Bəxtiyar Vahabzadənin "Leninlə söhbət" poemasını (1976) və "İstintaq" (1981) filmini Dövlət mükafatı ilə mükafatlandırır. Anarın hələ səhnəyə çıxmamışdan rezonans doğurmuş "Şəhərin yay günləri" pyesinin arxasında durur. Elmira Axundova tədqiqat-romanında xatirələr əsasında araşdırır ki, əsərin tamaşaya hazırlanmasından premyerasına və Dövlət mükafatına layiq görülməsinə qədər, Heydər Əliyev dolayısı yolla və birbaşa onu dəstəkləyir. Anarın söhbətindən: "...Premyera ərəfəsində "Qlavlit" (Dövlət Baş Senzura idarəsi- T.Ə.) dirəndi ki, bu antisovet pyesdir, çox şeylər çıxarılmalı, dəyişdirilməlidir və s. Onda MK mədəniyyət şöbəsinin müdiri Azad Şərifov bizə kömək etdi, "Qlavlit"ə "təpindi". Pyesə icazə verdilər. Premyeradan sonra Mirzə İbrahimov "Kommunist" qəzetində, Gülrux Əlibəyli "Bakinski raboçi"də alqışlayıcı məqalələr yazdılar. Bir neçə gün sonra mənə Heydər Əliyevin tamaşaya gəlmək istədiyini dedilər. Onunla birgə bütün nazirlər, yaradıcılıq ittifaqlarının rəhbərləri təşrif buyurdular. Mən bədii rəhbərin yanında oturub oradan salona baxırdım, görürdüm ki, reaksiya,deyəsən, normaldır..."[2]

Əslində, "Şəhərin yay günləri" məhz Ümummilli liderin VI qurultaydakı çağırışlarına tam müvafiq idi; müəllifin dediyi kimi,

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 84

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 206

“ali məktəblərdəki proteksionizmə, tanışbazlığa, təbabət və ədliyyə sahəsində rüşvətxorluğa qarşı yazıçı barışmazlığını ifadə edirdi”. Bu baxımdan Anarın “Unudulmaz görüşlər”də xatırlatdığı kimi, yazıçıların 1981-ci il VII qurultayında çıxışına münasibət bildirən 60-cılardan daha biri, Araz Dadaşzadə daha obyektiv mövqe tutur: “Araz onu da dedi ki, sənin çıxışın öz xeyrinə olmadı, birincisi, ona görə ki, müsbət qəhrəman məsələsinə qarşı çıxdın, ikincisi, sənin sözündən belə alındı ki, neqativ hallara qarşı mübarizəni biz – yazıçılar başlamışıq...”[1]

Yazıçıların 1997-ci il X qurultayında Ulu öndər sovet dönəmində özünün başlatdığı və ədəbiyyatda əks-səda verən proseslər barəsində deyirdi: “Amma siz də bilirsiniz ki, 1969-cu ildə mən Azərbaycana rəhbər seçilən gündən Azərbaycanın həyatında olan eybəcərlikləri, mənfi cəhətləri daim tənqid etmişəm və onlarla mübarizə aparmışam. Ona görə də gəlib mənə deyəndə ki, Anar “Şəhərin yay günləri” pyesi yazıbdır, orada bizim quruluşun əleyhinə gedir, filan edir, dedim yaxşı, gedib baxaram. Gəldim, baxdım, çox da təriflədim, mükafat da verdim...”[2]

Anar “Şəhərin yay günləri” ilə Ulu öndər tərəfindən əsası qoyulan daha bir başlanğıcı da anır: “...Tamaşa sona yetdi və bax onda Heydər Əliyev ilk dəfə səhnə arxasına yaradıcı kollektivlə söhbətləşmək üçün keçdi. Sonralar o, belə ünsiyyət yoluna tez-tez qayıdacaqdı. O, bizim işimizi bəyəndi. Dedi ki, Mirzə İbrahimovun və Gülrux xanımın məqalələrini oxuyub maraqlanmış və özü tamaşaya baxmağı qət etmişdir, çünki “müxtəlif rəylər” varmış. İndi mən, - söylədi, - özüm əmin oldum ki, pyes vaxtında yazılıb, onu müvafiq rus teatrında da tamaşaya qoymaq lazımdır, bundan başqa film çəkilişi haqqında da düşünmək olar. Yeri gəlmişkən, elə həmin axşam o, üç cavan aktyoru ruhlandırdı və onların mənzil məsələsini həll etdi”.[3]

Yalnız “60-cılar”ın deyil, ümumən rüşvətxorluq, əliəyrilik, mənəvi eybəcərlik əleyhinə mübarizəni əks etdirən bütün əsərlər respublika rəhbərinin himayədarlığını dərhal qazanırdı. Xalq yazıçı-

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 59

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 437-438

[3] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 206-207

sı Elçin "İlyas Əfəndiyev. Şəxsiyyəti və sənəti haqqında bir neçə söz" adlı xatirə-yazısında, vaxtilə yazıçının "Sarıköynəklə Valehin nağılı" romanının Yazıçılar İttifaqının Natəvan zalında "icazəsiz" müzakirəsinə görə qəfil başlanan ideoloji kampaniyanı məhz Heydər Əliyevin şəxsən işə qarışıb, dayandırdığına dair misal söyləyir: "O zaman mən Yazıçılar İttifaqının katibi işləyirdim və o "MK tələbi"nin bütün təfərrüatı mənim yaxşı yadımdadır. İmran Qasımovu tez-tez MK-ya çağırırdılar, izahat tələb edirdilər, MK-nın ideoloji katibi, bilmirəm, romanı oxumuşdu, ya yox, amma İmran Qasımova: "- Bu roman inkişaf etmiş sosializm cəmiyyətinə (o zaman belə bir termin dəbdə idi – *E.*) yad bir əsərdir" – deyirdi, İmran Qasımov isə, heç bir izahat verməyəcəklərini bildirir və romanı müdafiə edirdi. Nəhayət, rəhmətlik İmran Qasımov, görəndə ki, Yazıçılar İttifaqından da, "Ədəbiyyat və incəsənət" qəzetindən də əl çəkmirlər, təlimat almış peşəkar "keçi suyu bulandırma mütəxəssisləri" artıq fəaliyyətə başlayıb və məsələ "Sarıköynəklə Valehin nağılı"na qarşı əməlli-başlı bir ideoloji "ifşa" kampaniyası ərəfəsinə gəlib çatıb, MK-nın o zamankı birinci katibi Heydər Əliyevin yanına getdi, məsələdən onu agah etdi və Heydər Əliyevin də elə İmranın yanında selektorun düymələrini basıb hadisəyə çox kəskin reaksiya verməsi ilə, həmin "izahat" tələbləri yox oldu..."[1]

Azərbaycan yazıçılarının 12 iyun 1981-ci il tarixli VII qurultayı xüsusən tarixi əhəmiyyətli qurultay kimi, "sözün yaxşı, sağlam mənasında millətçilik əhval-ruhiyyəsi, "İran Azərbaycanı" ifadəsinin "Cənubi Azərbaycan" ifadəsi ilə əvəz olunmasının rəsmiləşdirilməsi"[2] ilə yadda qalmışdır. Təbii ki, millilik və millət problemlərinin varlığı, hər kəsdən əvvəl Respublika başçısına bəlli idi. Sadəcə buna qarşı olan qlobal əngəllərin həlli yollarını, təkcə başçı kimi yox, həm də Ümummilli lider olaraq axtarırdı. Heydər Əliyevin düşünülmüş cəsarətli addımları ilə VII qurultay bir sıra belə ağrılı məqamları qabartdı.

Belə məsələlərdən biri Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra daim diqqət yetirdiyi dil məsələsi idi. O deyirdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyə-

---

[1] Elçin. İlyas Əfəndiyev. Şəxsiyyəti və sənəti haqqında bir neçə söz // İlyas Əfəndiyev, Seçilmiş əsərləri. Yeddi cilddə, I cild. Bakı, Çinar-Çap, 2002, s. 5-67; s. 46

[2] Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 233

tin tərəqqisi mümkün deyildir..."[1] Sovet dönəmində Azərbaycan dilinin inkişaf edib "görünməmiş zirvələrə qalxması"ndan, "müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilməsi"ndən danışır, eyni zamanda "dilin təkmilləşdirilməsi, zənginləşdirilməsi", saflığı qayğısına qalırdı: "Bu da respublikanın bütün ədəbiyyatçılarının, Yazıçılar İttifaqının ən mühüm vəzifələrindən biridir. Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir. Dilimizin jarqon, dialekt ifadələri ilə zibillənməsinə yol verməк olmaz. Yazıçı dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır..."[2]

Azərbaycan yazıçılarının X qurultayında, müstəqil Dövlət dilinin inkişafı qayğılarından danışarkən, Ulu öndər sovet dönəminə də ekskurs edib, o illərdə atılan addımların önəmini yada salır: "Yadımdadır, ilk dəfə Yazıçılar İttifaqının qurultayında mən Azərbaycan dilində nitq söyləyəndən sonra tənəffüsə çıxdıq. Hamı gəlib məni təbrik edirdi. Ona görə ki, mən orada birinci növbədə Azərbaycan dilində danışdım. Dedim ki, əziz qardaşlar, axı, burada elə bir şücaət yoxdur. Bu, bizim öz dilimizdir. Mən bunu anladım. Çünki dövlət adamları Azərbaycan dilində danışmamışdılar. Bu dil məişət dili olmuşdu və bir də ədəbiyyatın dili olmuşdu. Amma dövlət dili olmamışdır. Mənim nitqimi yazıçılar böyük bir hadisə kimi qəbul etdilər. Biz o illərdə çalışdıq ki, dilimiz inkişaf etsin. Bu sahədə çox çalışdıq. Baxmayaraq ki, elə bir dövlətdə yaşayırdıq ki, hakim dil rus dili idi. Ancaq biz dilimizi inkişaf etdirdik və siz, sizin əsərləriniz, ədəbiyyat olmasaydı, şübhəsiz ki, dilimiz bu cür inkişaf edə bilməzdi..."[3]

Azərbaycan yazıçılarının VII qurultayında Ümummilli liderin ilk dəfə "Cənubi Azərbaycan" ifadəsini rəsmiləşdirməsi dövrün abhavasında "inqilabi addım" kimi qarşılanmaqla yanaşı, bu istiqamətdə rəsmən fəaliyyətin də başlanğıcı kimi qiymətləndirilir. VII qurultaydakı çıxışında Heydər Əliyev deyirdi: "Bir məsələyə də toxunmaq istəyirəm. Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradı-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 146

[2] Yenə orada, s. 146

[3] Yenə orada, s. 443

cılıq İttifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidirlər. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmlətmək, mədəniyyətin, mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barəsində düşünmək lazımdır..."[1]

Nəticələr özünü çox gözlətmədi. "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" monoqrafik tədqiqatında oxuyuruq: "Bütöv Azərbaycan yaratmaq, qurmaq missiyası bu "güc"lərin birliyindən, xalqa qayıdışından başlayırdı. Və bir də bütöv, yekparə Azərbaycan ədəbiyyatı anlayışının özündən. Heydər Əliyevin Cənub ədəbiyyatı mövzusuna həssaslığının mayası bu amaldan nəşət tapırdı. Onun təşəbbüsü ilə Yazıçılar İttifaqında Cənubi Azərbaycan üzrə katiblik yaradılmış, Balaş Azəroğlu da bu sahəyə rəhbərlik etmək üçün Yazıçılar İttifaqının katibi seçilmişdi. Eləcə də ilk dəfə olaraq Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə açılmış, Cənubi Azərbaycan ədəbiyyatının araşdırma mərkəzinin təməli qoyulmuşdur..."[2]

Xalq yazıçısı Elçin "Tarixlə üz-üzə dayanmış adam" essesində 1982-ci ilin sonlarına dair, Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü kimi Moskvaya gedərkən bir dəstə Azərbaycan yazıçısı ilə ayrılıq görüşündən bir müşahidəsini bölüşür: "Orasını da yaxşı xatırlayıram ki, həmin görüşdə Heydər Əliyev Azərbaycanın gələcək vahidliyi haqqında danışdı və elə danışdı ki, elə bil, söhbət müstəqil bir dövlətdən gedir. Bunun həmin dövrün kontekstində və Heydər Əliyevin tutduğu vəzifənin səviyyəsində nə demək olduğunu, elə bilirəm ki, izah etməyə ehtiyac yoxdur..."[3]

Hələ Azərbaycan yazıçılarının VI qurultayında daha bir cəsarətli ideya söhbət predmeti olmuşdu; E.Axundova roman-tədqiqatında yazır: "VI qurultayda ətraflı məruzə ilə çıxış edən Heydər Əliyevlə söz ustalarının səmimi ünsiyyəti, böyük Füzulinin nəşinin

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 146

[2] Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil, 2018, s. 45

[3] Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 244

uzaq Kərbəladan Azərbaycana gətirilib tarixi vətən torpağına tapşırılması təklifi ilə bağlı hərarətli fikir mübadiləsi bir çox yazıçıların yaxşı yadındadır..."[1] Məhəmməd Füzulinin 500 illiyi üzrə Dövlət Komissiyasının iclasında Ulu öndər bu əhvalatı bir qədər fərqli xatırlayır: "Hələ 70-ci illərdə Füzulinin qəbrinin Bakıya köçürülməsi məsələsi çox geniş müzakirə edilirdi. Mən də bu məsələ ilə məşğul olurdum. Xatirimdədir, 1981-ci ildə Yazıçılar İttifaqının qurultayında bu məsələ qaldırılanda mən tanınmış yazıçılarımıza, Allah onlara rəhmət eləsin, narazılığımı bildirərək dedim ki, siz məsələni ortaya atır, lakin təşəbbüs göstərmirsiniz. Məsələ qaldırmaq yaxşı şeydir, lakin fəaliyyət göstərmirsiniz... Hətta o zaman Mirzə İbrahimova, Süleyman Rüstəmə, Abbas Zamanova tapşırdım ki, İraqın Bakıdakı konsulluğu ilə əlaqə yaratsınlar. Həmin dövrdə İraqla İran arasında müharibə gedirdi, vəziyyət gərgin idi. O zaman belə bir məlumat aldıq ki, Kərbəlanın baş planına əsasən yol çəkilir və həmin yol Füzulinin qəbri olan yerdən keçdiyinə görə, guya şairin cənazəsinin qalıqlarını hansısa məscidə aparmışlar. Adətən belə hallarda qəbri başqa yerə köçürürlər. Lakin həmin məlumat məni çox narahat etdi, çünki bu, Füzuliyə qarşı çox böyük hörmətsizlik olardı. Şübhəsiz ki, bu halda onun cənazəsinin qalıqlarını Bakıya gətirib ən görkəmli yerdə dəfn edərək şairin məqbərəsini yaratmağa mənəvi haqqımız olardı. Lakin bilirsiniz ki, bundan bir il sonra mən Azərbaycandan getdim və işlərin sonrakı gedişindən xəbərim olmadı. Ancaq indi öyrəndim ki, Füzulinin qəbrini başqa yerə köçürmüşlər..."[2]

Bu çıxışında Heydər Əliyev Nəsiminin 600 illik yubileyi zamanı da eyni məsələnin qalxdığını, 1970-ci illərdə Suriyaya səfəri zamanı Nəsiminin qəbrini taparaq, ziyarət etdiyini də yada salır: "Qayıdandan sonra özüm də fikirləşdim ki, müxtəlif adamlarla da məsləhətləşdim ki, həmin qəbri indi Azərbaycana köçürmək lazımdırmı? Nəsimi Hələb şəhərinə Azərbaycandan getmiş və oradaca faciəli şəkildə dünyasını dəyişmişdir..."[3]

Vətən torpağından ayrı düşmüş qərib məzarların Azərbaycana köçürülməsi ideyasını Heydər Əliyev, ən nəhayət 1982-ci ildə Hü-

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 235

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 208-209

[3] Yenə orada, s. 209

seyn Cavidin nəşinin uzaq və soyuq Sibir torpağından gətirilib doğma Naxçıvan torpağında dəfn olunması və müstəqillik illərində üzərində məqbərə ucaldılması kimi möhtəşəm addımları ilə reallaşdırmışdı. “Bu addım nəinki xalqımızın mədəniyyət salnaməsinə, həm də sovet zamanında mümkün olmayan hadisələr sırasına daxil oldu. Təsadüfi deyil ki, geniş qaynaqlara istinad edən bir çox xarici müəlliflərin kitablarında bu fakt çox müfəssəl şərh edilir. Bu fakt, o cümlədən Azərbaycanın müstəqilliyə doğru yönəlməsinin başlanğıcı kimi yozulur”.[1]

Heydər Əliyevin sosrealist ədəbi mühitdə atdığı qeyri-adi addımlar, bugün ağlasığmaz görünür və adətən Ulu öndərin müstəqillik illərində söylədiyi: “O vaxt elə ən böyük dissident mən özüm olmuşam” aforizmi ətrafında çözülür. Bu deyimdə, əlbəttə, müəyyən məcazilik də var. Yazıçıların X qurultayındakı çıxışında Heydər Əliyev həmin məqama münasibətini: “Ancaq 1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək kommunist partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam...”[2] şəklində bildirir, məhz kommunist partiyası daxilində “xalqın naminə, millətin naminə, doğma Azərbaycan naminə” “dissidentlik” etdiyini vurğulayır.

Bugün çox populyarlaşan həmin mövzunu bəzən səthiləşdirmək meylləri də müşahidə olunur. Sanki 1970-1980-ci illərdə ölkədə hamar və rahat ədəbi mühit hökm sürmüş, əsas odur ki, Respublika başçısının qadir əliylə ədəbi həyatda bütün problemlər, ziddiyyətlər asanlıqla həll olunmuş, aradan qaldırılmışdır. Təbii ki, hər şey asan olmamışdır. Əksinə. Əgər elə olsaydı, məhz bu illərdə ədəbi mühitdə yaşlı nəsil yazarları və gənclər, sosrealistlər və “60-cılar” arasında gizli münaqişə və polemika, senzura və çap problemi, 1970-ci illərin sonunda “Azərbaycan” jurnalı ətrafında qalmaqallar, o cümlədən Mövlud Süleymanlının “Dəyirman” əsərinin doğurduğu səs-küy, Mərkəzi Komitəyə saysız-hesabsız şikayət və namələr haradan doğurdu ki?!

Elmira Axundova roman-tədqiqatında Heydər Əliyevin irəli çəkdiyi “Azərbaycan” jurnalı baş redaktorunun çox səciyyəvi “hesabat”ına yer verir: “Bir dəfə mənə Mərkəzi Komitənin mədəniyyət

---

[1] Рамиз Мехтиев. Гражданин, личность, лидер – Бакинский рабочий, 23 мая 2003 г.
[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 439

şöbəsindən zəng çalıb xəbər verdilər: Heydər Əliyeviç maraqlanır ki, niyə “Azərbaycan” jurnalından bu qədər şikayətlər gəlir? Mən Heydər Əliyevə yazılı cavab göndərdim. Arayış verdim: təsəvvür edin ki, Azərbaycanda 400 nəfər ittifaqın üzvü var, onlardan 80-ni, yəni 20 faizini az-çox müntəzəm çap edirəm. Qalan 320 nəfər, təbii ki, baş redaktordan narazı qala bilərlər. Mən işimə vicdanla yanaşsam da, 80 faiz düşmən qazanmağa məhkumam...”[1]

Əgər bütün problemlər asanlıqla həll olunsaydı, heç “daxili dissidentizm”ə də hacət olmazdı ki... “Azərbaycan” jurnalının baş redaktorunun E.Axundovaya etiraf etdiyi kimi: “- Sandığ”a yazılanlar da vardı, əvvəllər çap olunmayan əsərlər də. Bunların hamısını mən 70-ci illərin sonu – 80-ci illərin əvvəllərində jurnalda dərc etdim. Sabir Əhmədovun da, Mövlud Süleymanlının da belə əsərləri var idi. Ramiz Rövşən, Afaq Məsud, Vaqif Cəbrayılzadə... – onlar o vaxt çap oluna bilmirdilər, “ədəbiyyat generalları” onları qabağa buraxmırdılar. Dissidentlər nəsli elə onlardan başlaya bilərdi...”[2] Həmin sıraya sosrealizmin ehkamlarına cavab verməyən onlarla digər əsərləri, xüsusən də gənc yazarların yaradıcılığını da aid etmək olar...

Ümummilli liderin gerçək müdaxiləsi, Yazıçılar İttifaqı və “Azərbaycan” jurnalında aparılan islahatlar ədəbi mühitdə də köklü dəyişmələrə rəvac verdi. Xalq yazıçısı Elçin mənzərəni belə təqdim edir: “Azərbaycan “altmışıncılar”ının ən birinci və çox vaxt gözəgörünməz qoruyucusu, demək olar ki, himayədarı Heydər Əliyev idi. O zaman hamının haqqında danışdığı və 60-70-ci illərdə çox populyar olan “üçlüyün” – Anar, Elçin və Əkrəm Əylisli – arxasında Heydər Əliyev durmuşdu. Əylisli indi iftixarla bəyan edir ki, mən öz nəsr əsərlərimdə sərbəstliklərə yol verirdim, “Azərbaycan” jurnalında əvvəllər yasaqlanmış əsərləri çap etməyə icazə verirdim və s. Sual olunur: məgər sən özbaşına buraxılmışdın? İmran Qasımov, onun da arxasında Heydər Əliyev olmasaydı, sən bunlara rəvac verə bilərdinmi? Rusiyanın məşhur ədəbi tənqidçisi Lev Anninski mənə

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 235

[2] Yenə orada, s. 219-220

deyirdi: Siz respublikada nə oyunlar çıxarırsınız? Siz jurnallarınızda "kramolnı" (qanunazidd) əsərləri çap etməyə yol verirsiniz!"[1]

Əlbəttə, bu həqiqəti baş redaktorun özü də Elmira Axundovaya müsahibəsində etiraf edir: "- Mən baş redaktor olaraq buraxdığım ilk sayda cavan şairlərdən 700 misra dərc etdim. Buna qədər onlara cüzi yer – 30-40 misralıq yer verilirdi. Jurnalın sayı çıxandan az sonra məni İmran Qasımov çağırıb dedi: "Heydər Əlyeviç zəng vurmuşdu. Maraqlanır ki, nədən bu cavan şairlər şeirlərində belə ağlaşırlar? Bəlkə mənzilləri yoxdur, bəlkə hansı yollasa onlara kömək etmək lazımdır". Düzü, mən İmran müəllimə inanmadım. Öz-özümə düşündüm ki, Əliyevin işi-gücü yoxdurmu, Yazıçılar İttifaqı katibinə jurnala görə zəng vura. Amma axşam mənə evə Həsən müəllim, Heydər Əliyevin böyük qardaşı zəng vurdu. Dedi ki, sizin jurnalınıza baxdım, gənc şairlərdən bəziləri taleyindən gileylənir, bədbinliyə qapılıblar. Bəkə sizin redaksiyaya gəlib uşaqlarla söhbətləşim. O anda bildim ki, İmran müəllim düz deyirmiş..."[2]

Ümummilli lider ədəbi mühitdə islahatlara təşkilati tərəfdən, onun yenidən-təşkilindən başlayır. 1974-cü ildə Azərbaycan Yazıçılar İttifaqının sədrliyinə İmran Qasımovu gətirir; Gənclər üzrə katib Elçin təyin olunur, "Azərbaycan" və "Ulduz" jurnallarının redaktorları dəyişir, "Ulduz" jurnalının baş redaktoru Yusif Səmədoğlu olur. Elmira Axundova bu zaman Elçinin ən cavan katib olduğunu vurğulayır: "Yəqin ki, o, respublika Yazıçılar Birliyinin tarixində ən cavan katib olmuşdur. O vaxt 31 yaşı var idi..."[3] Elçin xatırlayır: "1975-ci ildə, mənim Azərbaycan Yazıçılar İttifaqının katibi seçilməyim ərəfəsində Heydər Əliyevlə ilk şəxsi görüşüm oldu. O, mənimlə çox açıq danışdı. Onun "millilik" adlandırdığımız cəhəti məni heyrətləndirdi. Məsələn, o deyirdi: "1937-ci ildə Azərbaycan ziyalılarını kökündən qırırdılar, amansızcasına məhv edirdilər, – bunu deyərkən dönə-dönə Hüseyn Cavidin adını təkrarlayırdı, – indiki Azərbaycan ziyalıları – Stalin dövründə formalaşmış ziyalılardır. Və onlarda həmişəlik qorxu qalıb. Yaşlı nəsil nümayəndələrinin əsərlərində beynəlmiləlçilik hissi... həddindən artıq, hipertrofikdir. Mən istəyirəm ki, sizin nəsliniz milli zəminlə, Azərbaycan nağılları, Azər-

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 clddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 214

[2] Yenə orada, s. 220

[3] Yenə orada, s. 233

baycan folkloru ilə daha sıx bağlı olsun". Və daha bir şey yadımda qalmışdır ki, o, bizim yazıçılarımız haqqında necə də hörmətlə danışırdı, yəni xalq üçün Azərbaycan dilini qoruyub saxlayan onlardır..."[1]

Heydər Əliyevin dəstək verdiyi digər bir nəşr – 1969-cu ildən işıq üzü görən "Qobustan" toplusu barəsində, jurnalın yaradıcısı və baş redaktoru Anar "Ömrümün "Qobustan" illəri" xatirə-əsərində geniş bəhs açır.[2] E.Axundova yazır: "Almanax Stalindən sonrakı cəmiyyətin mənəvi həyatında tamamilə yeni hadisə idi. O, azərbaycanlı "altmışıncılar"ın istedadlı nəslinin bəhrəsi oldu. Topluda hər şey, quru rəsmilikdən uzaq, qeyri-standart, baxımlı bədii tərtibatdan tutmuş – yeni, təravətli idi. Cildini orta əsr Azərbaycan miniatürləri, "Molla Nəsrəddin"dən karikaturalar, çağdaş rəssamlar Cavad Mircavadovun, Mikayıl Abdullayevin, Tahir Salahovun, Rasim Babayevin əsərləri süsləndirirdi. Bununla yanaşı, toplunun cildindən oxucular italyan İntibah rəssamlarının əsərləri, Yapon qravürləri, Pikassonun qrafikası ilə də tanış olurdular. Və belə cəsarətli sərbəstlik, əlbəttə ki, anlaşılmazlıq doğururdu..."[3]

"Qobustan"ın dəyərini Ulu öndər müstəqillik illərindəki çıxışlarında dəfələrlə vurğulamışdır. 23 iyul 1996-cı il nitqində o deyir: "O vaxtlar "Qobustan" jurnalı həyatımızda çox böyük rol oynayırdı. Bizim bu milli dirçəliş, milli oyanış, milli özünütanıma prosesində "Qobustan"ın rolu çox böyük olubdur. Bunu o vaxtlar bəziləri bəlkə də dərk etmirdilər, bəlkə indi də bəziləri o qədər də dərk edə bilmir. Amma mən bunların hamısını daim izləyirdim və hər bir belə tədbirin həyata keçirilməsi üçün lazımi şərait yaradırdım..."[4]

Ümummilli lider ədəbi həyatın dəyişməsində, ədəbiyyatın zamanla ayaqlaşmasında ədəbi gəncliyin roluna böyük önəm vermişdir. Yaşlı nəslin xidmətlərinə sayğıyla yanaşmaqla yanaşı, o, günün ədəbiyyatını daha çox gənc yazıçılardan gözləyir, nəsillər arası konfliktdə "60-cılar"ın tərəfində dururdu. Ədəbi mühitdə yeniləşmə zərurətini hamıdan əvvəl Heydər Əliyev özü duyur və təşviq edirdi.

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 202

[2] Bax: Anar. Ömrümün "Qobustan" illəri. Əsərləri. Bakı, 2004, s. 65-75

[3] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 186

[4] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 323

Mövlud Süleymanlı "Qırx ilin yeddi görüşü" xatirə-əsərində yazıçıların VI qurultayından bir epizodu xatırlayır: "Öz çıxışı zamanı Heydər Əliyev, Süleyman Rüstəm və Azərbaycan ədəbiyyatının digər ağsaqqalları əyləşdiyi rəyasət heyətinə üz tutub soruşdu: - Süleyman müəllim, mən hələ orta məktəbdə təhsil alarkən dərsliklərdə şeirlərinizi oxuyurdum. O vaxtdan yarım əsr keçib, dərsliklərdə isə yenə sizin şeirlərinizdi. Bu çox yaxşıdır. Bəs bu yarım əsr ərzində məgər bircə nəfər də cavan şair çıxmayıb? Bəs cavanlar hanı?!"[1]

Əgər qatı ideoloji sistem, senzura mühiti azad fikirli gənclərin ədəbiyyata yolunda böyük maneəyə çevrilmişdisə, Heydər Əliyevin Yazıçılar İttifaqında həyata keçirdiyi islahat "60-cılar"ın yolunda yaşıl işıq yandırdı və məhz "dərsliklərdə olmayan" cavanların ədəbi mühitdə aparıcı mövqeyini təmin etdi. Yazıçıların X qurultayı ərəfəsində Prezident sarayında gənclərlə görüşündə Ulu öndər deyirdi: "Mən bunu dünən dedim, – vaxtilə biz Anar, Elçin, Yusif və başqaları ilə gənc nəslin nümayəndələri kimi görüşürdük, indi isə onlar ədəbiyyatımızın ağsaqqalları da olmasa, hər halda yetkin nəslə, yəni yaşlı nəslə mənsub hesab olunurlar. Kiminin 50-dən yuxarı, kiminsə 60-a yaxın yaşı var. Bunlar gözlərimin qabağında böyüyüblər..."[2]

Ümummilli liderin ədəbiyyatımızın sabahını təmin edəsi gəncliyə marağı yazıçıların hər bir qurultayı ərəfəsində yaşlı nəsillə ayrı və ədəbi gənckliklə də ayrıca görüşündə də görünürdü. 1997-ci il 29 oktyabr görüşünün bilavasitə iştirakçısı kimi, Heydər Əliyevin həm gəncliyin yaradıcılığından söz açan tənqidçi Vaqif Yusiflinin məruzəsini, həm də hər bir çıxışçını necə həssaslıqla dinlədiyinə, səslənən problemlərə nüfuz edib, yerindəcə münasibət bildirməsinə, konkret və yaxud da perspektiv həlli yollarını çözməsinə şahid və heyran olmuşam. Ulu öndər deyirdi: "Mən gənclərə üzümü tutub deyirəm, - sizin qarşınızda çox gözəl imkanlar, perspektivlər var. Şübhə etmirəm ki, siz böyük uğurlar qazanacaqsınız, ədəbiyyatımızı inkişaf etdirəcəksiniz. Şübhə etmirəm ki, sizin içinizdən Azərbaycan xalqının ədəbiyyatını, mədəniyyətini daha da yüksəklərə qaldıran böyük şairlər, yazıçılar, ədəbiyyatşünaslar çıxacaqdır. Mən buna heç şübhə etmirəm. Çünki indiyədək yaşadığımız dövr və əldə etdiyimiz nailiyyətlər buna, belə deməyə tam əsas verir. Şərait daha da sərbəst

---

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü.- Tənqid.net jurnalı, № 10, 2013, s. 32

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 396

olanda, insan daha da müstəqil, azad olanda: şübhəsiz ki, onun daxilində olan imkanlar daha çox açılır və öz bəhrəsini verir”.[1]

***

Ulu öndər Heydər Əliyevin ədəbi-mədəni mühitlə əlaqələrinin ikinci bir mərhələsi 1987-1993-cü illəri əhatə edir. Ulu öndər həmin dövrü belə səciyyələndirir: “Bayaq dediyim ikinci dövr mənim üçün maraqlı olmuşdur. Çünki bu, 1991-ci ilin əvvəli idi. Unutmamışamsa, martın 21-i idi. Bu elə bir vaxt idi ki, Azərbaycan çox ağır bir dövr yaşayırdı. Ermənistanın Azərbaycana təcavüzü və ölkəmizin torpaqlarının – Dağlıq Qarabağın işğalının başlanması dövrü idi. Qanlı 20 yanvar faciəsinin – sovet hakimiyyəti tərəfindən Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzün ağrılarını yaşadığımız bir dövr idi. Bu dövr, eyni zamanda, Sovetlər İttifaqının dağılması prosesinin getdiyi bir dövr idi. Azərbaycanda vəziyyət həddindən artıq gərgin, çətin idi...”[2]

Bu həm də iflasa uğramaqda olan Sovet dövlətinin son rəhbəri Mixail Qorbaçovun məhdud baxışları və bədnam siyasətinin nəticəsi olaraq, tutduğu yüksək vəzifələrdən uzaqlaşdırılmış, üstəlik təqib və təzyiq kampaniyalarına məruz qalan Heydər Əliyevin Moskvada və daha sonra Kremlin təcridlərindən qurtularaq doğma yurdu Naxçıvanda yaşadığı dövrlərdir. Bu zaman Heydər Əliyev ədəbi mühitə heç bir rəhbər statusu, heç bir vəzifə ilə bağlı deyil, bir şəxsiyyət və nüfuzlu siyasət adamı kimi, təkcə adı ilə - məhz Heydər Əliyev kimi məlumdur. Bununla belə, yazıçılar, şairlər, sənətçilər, alimlər, ziyalılar onu unutmamış, Naxçıvana görüşünə tələsirdilər. Bu insanlardan biri də gələcəkdə “Heydər Əliyev: şəxsiyyət və zaman” çoxcildlik roman-tədqiqatının müəllifi Elmira Axundovadır. Ulu öndər Azərbaycan Yazıçılarının X qurultayında Elmira xanımı yüksək dəyərləndirir: “Elmira xanım Axundova çox dəyərli bir insandır. Xatirimdədir, 1970-ci illərdə Yazıçılar İttifaqında çox əhəmiyyətli işlər görürdü. Sonra isə öz jurnalistik fəaliyyətini də buna əlavə etmişdi. Mən Naxçıvanda ağır bir dövrdə yaşadığım zaman onunla görüşmüşdüm. O, oraya, “Literaturnaya qazeta” üçün məndən müsahibə

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 401

[2] Yenə orada, s. 416

almağa gəlmişdi. Doğrudur, mən ona dedim ki, nahaq gəlmisən, çünki mən verdiyim müsahibəni "Literaturnaya qazeta" dərc etməyəcək. O, çox təkid etdi ki, "Literaturnaya qazeta" bu müsahibəni dərc edəcəkdir. Amma mənə olan münasibəti bilirdim. Mən müsahibəni verdim, ancaq qəzet onu dərc etmədi. Deməli, mənim sözüm doğru çıxdı. Elmira xanım çox cəhd göstərdi, vəziyyət dəyişəndən sonra bu müsahibəni dərc etdirdi. O, Bakıda da mənimlə əlaqə saxlayırdı. Bu məni sevindirdi ki, belə insanlar var, – o ağır dövrümdə mənimlə əlaqə saxlamağa qorxmurdular, çəkinmirdilər..."[1]

1980-ci illərin sonlarında, bir zamanlar "saray şairləri"nə xas məddahlıqda yarışa girən bir sıra qələm əhlinin üzüdönüklüyünü Elmira Axundova roman-tədqiqatında xatırlatmışdır. 1981-ci ilin Şüvəlan görüşündə canfəşanlıq edən "Famil Mehdi də, Mübariz Əlizadə də... və bəzi başqa əhli-qələmlər 80-ci illərin "aşırımında" Heydər Əliyev vəzifədən kənarlaşdırılandan sonra "yönümlərini dəyişərək" Heydər Əliyev dövrünün barışmaz ifşaçılarına çevrildilər. Eyni zamanda onun 70-ci illərdə yeritdiyi siyasətə yetərincə sərin və hətta müxalif yanaşan şəxslər buna rəğmən özlərini daha çox ləyaqətlə apardılar".[2]

Heydər Əliyevin Ümummilli lider kimi fəaliyyətinin Naxçıvan dövründə (1990-1993) fürsətdən yararlanaraq ziyarətinə gəlmiş yaradıcı insanları, ziyalıları, sadə adamları Ulu öndər yeri gəldikcə çıxışlarında minnətdarlıqla anmışdır. Bu dövrdə daim yanında olmuş Sirus Təbrizlini, akademik Ziya Bünyadovu, şair Xəlil Rza Ulutürkü, Turan xanım Cavidi, Aybəniz Vəkilovanı və bir çox digərlərini; və hətta bəzən bu insanların sayğılı münasibətinə heyrətini də gizlətməmişdir. Yusif Səmədoğlunun 60 illik yubileyində Ulu öndər deyir: "Naxçıvanda təcrid şəraitində yaşadığım zaman Azərbaycanın çox yerlərindən o blokadanı yararaq gəlib mənimlə görüşən adamları heç vaxt unutmamışam və unutmayacağam. Çünki bu, sadə bir şey deyildir. Adamlar çox gəlirdi. Gəlib sadəcə bir saat, iki saat mənimlə görüşüb, söhbət edib, öz münasibətini bildirib geri – ya Bakıya, ya Gəncəyə, ya başqa şəhərlərə dönürdülər. Bir gün mənim üçün tamamilə gözlənilməyən bir hadisə oldu. Qəflətən, gözlənilmədən

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 416

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 222

qapı açıldı. Aybəniz xanım gəldi. Mən o vaxt Naxçıvanda həyətdə oturmuşdum. Görüşdük, söhbət etdik. Mən əvvəl bir şey anlamadım. Dedim bəlkə Aybəniz xanımın kiminləsə işi, görüşü olduğu üçün Naxçıvana gəlib, yaxud da başqa işi var. Fikirləşdim, bəlkə eşidib ki, mən də burdayam, gəlib ki, salam versin. Ancaq sonra məlum oldu ki, o, Bakıdan Naxçıvana təyyarə ilə qohumları ilə birlikdə bir məqsədə gəlib, yalnız məni görüb, mənə salam vermək üçün. Bilirsiniz, yenə də deyirəm, o vaxtlar çox adamlar gəlirdi, ancaq belə bir görüş mənim üçün çox qiymətli oldu. Ona görə ki, o, Səməd Vurğun ailəsinin nümayəndəsidir. Bir də ona görə ki, Naxçıvan ağır şəraitdə idi, təyyarələrin gediş-gəlişi çox çətin idi. Görün, qadın yalnız mənə salam vermək, mənimlə görüşmək üçün gəlmişdir. Bu məni həm çox həyəcanlandırdı, həm sevindirdi, həm də bir daha təsdiq etdi ki, yaxşı insanlar, saf ürəkli insanlar bizim cəmiyyətimizdə çoxluq təşkil edir..."[1]

Belə insanlardan biri də 1987-ci ildən Azərbaycan Yazıçılar İttifaqının sədri olmuş Anardır. Anar "Unudulmaz görüşlər"də[2] Ulu öndərlə bütün görüşlərini ən xırda təfərrüatlarınacan qələmə almışdır. Bu məqamda isə onun Azərbaycan Yazıçılarının rəhbəri olaraq, Heydər Əliyevi yazıçıların 1991-ci ildə keçirilən IX qurultayına dəvət etməsi cəsarətini xatırlatmaq vacibdir. Ulu öndər özü həmin məqamı məxsusi vurğulayır: "Eyni zamanda, o, elə bir dövr idi ki, o vaxt həm Sovetlər İttifaqının rəhbərliyində, həm də Azərbaycanın rəhbərliyində mənə qarşı çox ədalətsizliklər edirdilər. Mənim əleyhimə böhtanlar quraşdırırdılar və yayırdılar. Mən çox böyük təzyiq və təqib altında idim. Elmira xanım məni çox inandırdı ki, yox, Sizi qurultaya dəvət ediblər. Fikirləşdim ki, bəlkə xatir naminə dəvət ediblər, bilirlər ki getməyəcəyəm. Sonra da məlum olacaq ki, dəvət etdilər, mən gəlmədim. Ondan xahiş etdim, dedim ki, sən bir daha dəqiqləşdir. Sonra o mənə zəng edib dedi ki, mən Anar müəllimlə bu barədə danışdım. Anar müəllim dedi ki, biz onu ürəkdən dəvət etmişik. Bu, formal bir xarakter daşımır, ona görə də əgər gəlsə, biz məmnun olarıq..."[3]

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 306
[2] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009
[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 417

Ulu öndərin qurultaya dəvəti əvvəlcə şübhə ilə qarşılaması və araşdırması barədə söylədiyi: "Çünki indi mən burada kiməm ki, oraya gəlim? Yazıçı deyiləm ki, oraya yazıçı kimi gəlim..."[1] – sözləri təbii olduğu qədər də düşündürücüdür. Elmira Axundova roman-tədqiqatında həmin məqama işıq salası, 1970-ci illərə aid maraqlı xatirə-epizodlar daxil etmişdir. "Yaradıcı ziyalılarla, xüsusən yazıçılarla danışmağı sevməyən və bacarmayan bir çox partiya məmurlarından fərqli olaraq Heydər Əliyev üçün bu ünsiyyət bir udum təmiz hava misalında idi. O, Moskvada Vorovski adına (indi Povarskaya adlanan) küçədə yerləşən SSRİ Yazıçılar İttifaqında iki dəfə olmuş, - sadəcə baş çəkməmiş, respublikada gedən proseslər haqqında parlaq nitqlərlə çıxış etmiş, ölkənin yazıçılar elitasının ən kəskin suallarını cavablandırmışdı..."[2] Məhz Heydər Əliyevin təşəbbüsü ilə baş tutmuş görüşlərdən birini Azad Şərif belə xatırlayır: "Görüş 1971-ci ilin sentyabr, ya oktyabr ayında, SSRİ Yazıçılar İttifaqının böyük salonunda keçirildi. Zal ağzınacan dolu idi, hətta illər boyu buraya ayaq basmayan yazıçılar da gəlmişdilər. Sovet ədəbiyyatının patriarxı, iyirmi il Moskvaya baş çəkməyən Leonid Leonov da məxsusi gəlmişdi ki, ona qulaq assın..."[3] "Həmin görüşü yazıçı-tərcüməçi Azər Mustafazadə də xatırlayır: Heydər Əliyev çox parlaq çıxış etdi, neqativ hallarla, yerlibazlıqla mübarizədən danışdı. Hamı heyrət içində idi, Valentin Katayev isə Heydər Əliyevin SSRİ Yazıçılar İttifaqı üzvlüyünə qəbul olunmasını təklif etdi. O da zarafatla imtina edərək dedi ki, sizin sıralarınızda birinci MK katiblərindən artıq biri – Şərəf Rəşidov var..."[4]

Romanda Heydər Əliyevin sovet yazıçıları ilə ikinci görüşü də eyni sonluqla bitir: "70-ci illərin ortalarında, H.Əliyevin Moskva yazıçılarının adlı-sanlı nümayəndələri qarşısında ikinci dəfə çıxışı zamanı "Drujba narodov" jurnalının baş redaktoru Sergey Baruzdin də "saqqal tərpətdi" ki, Azərbaycan KP MK-nın birinci katibi Ümumittifaq Yazıçılar Birliyinə fəxri üzv kimi qəbul edilsin. Yenə də bu təklifi H.Əliyev zarafat kimi qarşıladı. Sonralar Heydər Əliyev acı

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 417

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 257

[3] Yenə orada, s. 257

[4] Yenə orada, s. 258

təəssüflə xatırlayırdı ki, vaxtilə ona şərtsiz sədaqətindən dəm vuran həmin Baruzdin onun bədxahları sırasında görünmüşdü..."[1]

Heydər Əliyev yazıçı deyildi və Yazıçılar İttifaqının hətta fəxri üzvü olmaq şanslarını da yaxın buraxmamışdı. Çünki onu yazıçılarla yaxın edən, doğmalaşdıran zahiri atributlardan çox-çox dərin, dəruni hisslər, amal və əqidə birliyi idi. Təkrarən xatırlatmağa dəyər. Azərbaycan Yazıçılarının X qurultayında Anarın: "Heydər müəllim, bağışlayın, sözünüzü kəsirəm. Bir dəfə Siz özünüz dediniz ki, o vaxt elə ən böyük dissident mən özüm olmuşam" – replikasına Ulu öndər təsdiqlə cavab verir: "O da doğrudur. Düzdür, mən nə şeir yazanam, nə roman yazanam, nə hekayə yazanam. Mən ömrüm boyu siyasətlə məşğul olmuşam. Ancaq 1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək kommunist partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam..."[2] Həmin sözləri deyən Ümummilli liderin yazıçılar arasında etibarlı yeri vardı və Azərbaycan yazıçıları da bu mövqeni qəbul edirdilər. Anar yazıçılar adından Heydər Əliyevi qurultaya məhz milli Lider olaraq dəvət etmişdi.

Ulu öndər xatırlayır: "Mən bundan sonra ürəkləndim, dedim ki, əgər belədirsə, pis olmaz, gedim görüm yazıçılar necədirlər. Gəldim. Bunu burada xatırlatdılar, - siz məni hörmətlə rəyasət heyətinə dəvət etdiniz. Bu təklifi gərək ki, şair Məmməd Aslan vermişdi. Ancaq mən təşəkkür edib dedim ki, indi də aşağıda oturub yuxarıya baxmaq istəyirəm. O vaxt mən salonda oturarkən çox düşünürdüm. Gərək ki, mənim sağımda Xəlil Rza, solumda Rəfiq Zəka oturmuşdular. Ətrafımda da yazıçılar var idi, çox mehriban söhbət edirdik..."[3]

Və ədəbi mühitdə doğmalıqla qəbul olunmasını həmin ilin fevral-mart aylarında Ali Sovetin sessiyasında az qala düşməncəsinə qarşılanması ilə müqayisə edir: "Ancaq orada mənə çox hörmətsizlik etdilər, pis münasibət göstərdilər. Hətta mənim çıxışımı da kəsdilər və mənim çıxışımdan sonra cürbəcür böhtançı çıxışlar da etdilər. O cümlədən, o vaxt bir yazıçı da deputat idi, o da bunu etdi. Yəni, o vaxt mənim orada müdafiəyə ehtiyacım yox idi. Bilirdim ki, mənə

---

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 258

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 438-439

[3] Yenə orada, s. 417

qarşı belə edəcəklər. Ancaq o vaxt cəsarət edib çox kəskin çıxış edən Bəxtiyar Vahabzadə oldu. Yəni, mən yenə də özümün ədəbiyyatla bağlılığımı və ədəbiyyatla məşğul olan şəxslərin başqalarına nisbətən daha sədaqətli olduğunu qeyd etmək istəyirəm..."[1]

Ulu öndər Heydər Əliyevi yazıçılara bağlayan başlıca tel – doğma xalqına olan sədaqəti, həyatı boyu milləti yolunda, Azərbaycan naminə çalışması idi. O, bu etibarı xalqının, vətəninin parlaq sabahına sarsılmaz inamıyla qazanmışdı. Heydər Əliyevi Azərbaycan yazıçıları ilə birləşdirən – zamanından və üsullarından asılı olmayaraq millət uğrunda savaşda ideya birliyi idi. Azərbaycan yazıçılarının X qurultayında Ulu öndər deyirdi: "Ümumiyyətlə, mən nə etmişəmsə, hamısını şüurlu etmişəm. Heç bir şeyi şüursuz etməmişəm. Bütün keçmişimə, həyatıma görə, bütün gördüyüm işlərə görə də heyfslənmirəm. Hesab edirəm ki, hamısını xalqın naminə və doğma Azərbaycanın naminə etmişəm. Mənim bu gün sizə müraciətim ondan ibarətdir ki, çox sağ olun ki, indiyədək xalqımızı vətənpərvər etmisiniz, millətini sevən etmisiniz, millətinin qayğısına qalan etmisiniz. Xalqımızın əksəriyyəti belədir. Ancaq bu proses davam etməlidir. Xalqımızı daha da vətənpərvər etmək lazımdır..."[2]

***

Ulu öndər Heydər Əliyevin ədəbi mühitlə əlaqələrinin üçüncü dövrü (1993-2003) müstəqillik illəridir. Bu, Ümummilli liderin özünü həyatda, fəaliyyətində, xalqı və milləti qarşısında, o cümlədən ədəbi-mədəni aləmdə ən azad, sərbəst, yaradıcı, zəngin, dahiyanə miqyasda mükəmməl hiss elədiyi illərdir. Bu dövrdə Ulu öndərin qəlbi, fikri, düşüncəsi birbaşa xalqla, milli toplumla, ziyalılarla, cəmiyyətin düşünən kəsimi ilə birgə döyünür, yaradıcı və qurucu əməllərində gerçəkləşir, intişar tapır.

Ulu öndər 21 sentyabr 1993-cü il Azərbaycan ziyalıları ilə müstəqillik zamanında ilk görüşündə müstəqilliyimizin əvəzsiz bir nemət kimi real dəyərini verir: "İndi Azərbaycan müstəqil dövlətdir. Müstəqillik Azərbaycan üçün böyük tarixi hadisədir, taleyin xalqımıza verdiyi böyük bir fürsətdir. Şübhəsiz ki, biz bununla fəxr et-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 417-418

[2] Yenə orada, s. 439

məliyik. Eyni zamanda bu tarixi nailiyyəti qiymətləndirməliyik, əlimizdə möhkəm saxlamalıyıq. Bu müstəqillik dünyada, o cümlədən keçmiş sovetlər birliyində əsrin ikinci yarısında, xüsusən 70-ci 80-ci illərdən başlayaraq gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsidir. Biz müstəqilliyi silahla, dava ilə, üsyanla əldə etməmişik. Bu müstəqillik tarixi prosesdir, onu ictimai-siyasi proseslər əsasında əldə etmişik. Qoy heç kəs deməsin ki, kimsə bir qəhrəman kimi bu müstəqilliyin sərkərdəsidir, yaxud müstəqilliyi əldə edən bir siyasi xadimdir. Müstəqillik heç kəsə, heç bir təşkilata mənsub deyildir. Bu, tarixin, taleyin xalqa bəxş etdiyi böyük bir nemətdir. Biz bunu qiymətləndirməliyik. Ancaq müstəqilliyi əldə etmək siyasi nöqteyi-nəzərdən o demək deyil ki, müstəqillik tamamdır və dönülməzdir. Müstəqilliyi inkişaf etdirmək, möhkəm saxlamaq, bütün sahələrdə tətbiq etmək lazımdır..."[1]

Müstəqillik dövrü Azərbaycan ədəbi mühitinin yaşaması, intişar tapması, yeni səciyyələr qazanmasında Ulu öndər həm müstəqil dövlətin rəhbəri olaraq bilavasitə iştirak edir, digər sahələr kimi ədəbiyyata, incəsənətə, mədəniyyətə diqqətini əsirgəmir, bu sahədə əsrlər və onillərlə qazanılmış təcrübəyə söykənir, ənənələri inkişaf etdirməyin qayğısına qalır; həm də bu illərdə Heydər Əliyevi zəngin bir şəxsiyyət və insan olaraq əsas hobbilərindən ədəbiyyat və sənətlə təmasda daha yaxından görür, ədəbiyyat və sənət adamı kimi yenidən kəşf edirik.

Ulu öndərin tam himayəsi və qayğısı altında 30 oktyabr 1997-ci ildə keçirilən Azərbaycan yazıçılarının X qurultayında Heydər Əliyev demişdir: "İndi isə bizim bu qurultayımız tamam başqa bir şəraitdə keçir. Keçmiş zamanlarda nə qədər böyük nailiyyətlər əldə etmişiksə də, mən hesab edirəm ki, bu qurultay indiyə qədər olan bütün qurultaylardan, yazıçıların toplantılarından, konqreslərindən – hamısından üstündür. Çünki müstəqil Azərbaycan Respublikasının sərbəst yazıçıları müstəqil dövlətimizdə özlərinin ilk qurultayına toplaşmışlar. Bu, çox sevindirici haldır..."[2]

Qurultaydakı həmin çıxışında Heydər Əliyev ənənəsini davam etdirərək, ölkənin mövcud ictimai-siyasi durumu, vacib problemlər və qarşıda duran vəzifələr, o cümlədən Azərbaycan ədəbiyyatı və

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 175

[2] Yenə orada, s. 418

mədəniyyətinin tarixi və bugünü, yaxın sovet dövrünə münasibət, müstəqilliyin gətirdiyi üstünlüklərlə yanaşı çətinlikləri, yazıçı və ziyalıların məsuliyyəti barəsində fikir və mülahizələrini auditoriya ilə bölüşməklə, həm də hər bir məqamda fərqli yanaşmaları, yeni situasiyanın diktəsini, məhz sərbəstlik və müstəqillik faktorunu qurultay iştirakçılarına çatdırmağa, tövsiyə etməyə, aşılamağa çalışmışdır. "Bu, müstəqilliyimizin bizə verdiyi töhfələrdir ki, biz indi artıq heç kəsdən, heç bir mərkəzdən, ideologiyadan asılı olmayaraq, özümüz sərbəst olaraq həyatımızın hər sahəsini araşdırırıq, o cümlədən öz ədəbiyyatımızı, mədəniyyətimizi istədiyimiz kimi müzakirə edirik və istədiyimiz istiqamətdə aparırıq. Bu azadlıq, sərbəstlik, müstəqillik əvəzsiz bir nemətdir. Ona görə də bu qurultay başqa qurultayların davamı olmaqla yanaşı, onuncu qurultaydır və əvvəlki doqquz qurultayın hamısından üstündür..."[1]

Heydər Əliyev bir rəhbər, dövlət başçısı olaraq ilk növbədə ədəbi-mədəni mühitin onillərlə formalaşmış ənənəvi strukturunun bərpasına yardım etdi; Azərbaycan Yazıçılar Birliyinin qorunub-saxlanmasına görə, başda birliyin sədri Anar olmaqla yazıçılara minnətdarlığını bildirdi, qurumun fəaliyyətini dövlət hesabına təmin etdi, müasir ədəbi prosesin yenidən-təşkilinə şərait yaratdı. "Mən bunu dünən də dedim, bizim keçmişdə yaranmış adət-ənənələrimiz çox gözəldir və biz onları itirməməliyik, saxlamalıyıq, onlardan bu gün də, gələcəkdə də istifadə etməliyik. "Keçmişdə nə vardı, hamısını pozmaq, yenidən yaratmaq lazımdır" kimi cılız fikirlər fəlakətdən başqa heç bir şey gətirə bilməz..."[2]

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyində oxuyuruq: "1990-cı illərin ortaları üçün olduqca çətin durumda olan Azərbaycan Yazıçılar Birliyinə Heydər Əliyev Dövlət himayəsini bərpa etdi. Birliyin əsas nəşrləri – "Ədəbiyyat qəzeti" və "Azərbaycan" jurnalının dövlət hesabına çıxması təmin olundu. C.Məmmədquluzadə, H.Cavid, S.Vurğun, S.Rüstəm, R.Rza, İ.Əfəndiyev və b. XX əsr ədəbiyyatı korifeylərinin yubiley mərasimlərinin də təntənəli surətdə qeyd olunması ədəbiyyata ümumxalq sevgisinin qaytarılmasında böyük rol oynadı. Heydər Əliyevin klassiklərlə yanaşı, müasir

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 418
[2] Yenə orada, s. 405

yazıçıları da dəyərləndirməsi, B.Vahabzadə, X.Ulutürk kimi canlı klassiklərə xəstə ikən baş çəkməsi, qayğı göstərməsi, M.Araz, M.Dilbazi, Anar, Y.Səmədoğlu, M.İbrahimbəyov və b. yazıçıların yubileylərində iştirakı, Xalq yazıçısı fəxri adı, İstiqlal və Şöhrət ordenləri ilə təltif etməsi də ədəbiyyata diqqətin qayıtmasını nümayiş etdirirdi. Ümummilli liderin 1997-ci ilin oktyabr ayında keçirilən Azərbaycan Yazıçıları Birliyinin X qurultayında şəxsən iştirakı, qurultaydan qabaq Prezident İqamətgahında yazıçıların nümayəndələri ilə, həmçinin ədəbi gəncliklə səmimi görüşləri ədəbi ictimaiyyətdə böyük ruh yüksəkliyi yaratdı”.[1]

Qurultaydakı çıxışında Ulu öndər Azərbaycan mədəniyyəti və ədəbiyyatının xarakterinə diqqət yönəldir: “Bilirsiniz, bizim mədəniyyətimiz, ədəbiyyatımız özünəməxsus xarakter daşıyır. Öz kökümüzə görə biz Şərq, İslam ölkəsiyik. Çoxları hesab edirlər ki, biz Asiya qitəsində yerləşən bir ölkəyik. Azərbaycan Asiya ilə Avropanın birləşdiyi, qovuşduğu bir ərazidə yerləşən, amma Avropaya daxil olan bir ölkədir. Ancaq Azərbaycan öz kökünə, dini mənsubiyyətinə, ənənələrinə görə Şərq aləminə, İslam, türk dünyasına daxil olubdur. Bu qəbildən olan xalqlar, millətlər içərisində Azərbaycan xalqı XIX-XX əsrlərdə öz milli köklərindən ayrılmayaraq öz ədəbiyyatını, mədəniyyətini dünyanın inkişaf etmiş Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirə bilibdir. Bizim milli ədəbiyyatımızı, mədəniyyətimizi Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirən, onun sintezini yaradan insanlar çox uzaqgörən, müdrik insanlar olublar...”[2]

Ulu öndər uzaqgörən, müdrik sələflərinin yolunu davam etdirərək, müstəqil Azərbaycan dövlətinin başçısı kimi həmin mədəniyyət kontekstinin inkişafına rəvac vermişdir. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin 1994-1996-cı illərdə Bakıda, Türkiyədə, İraqda, Moskvada, Parisdə, “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin 1997-2000-ci illərdə Bakıda, Türkiyədə, Drezdendə, Parisdə YUNESKO səviyyəsində geniş qeyd olunması bundan xəbər verirdi. Məhz Ulu öndərin müdrik siyasəti müstəqillik illəri Azərbaycan ədəbiyyatı və mədəniyyətinə tarixi kontekstlərini bərpa etməyə şans verdi. Türk xalqlarını bir araya gətirən

---

[1] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. İki cilddə. I cild. Bakı, Elm və təhsil, 2016, s. 73

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 420

Türksoy yarandı. Uluslararası konfranslar keçirildi. 1992-ci ildən başlayaraq iki dəfə Türkiyədə baş tutmuş Türk dünyası yazıçılarının 6 noyabr 1996-cı il Bakıda keçirilən III qurultayının açılışında Ulu öndər deyirdi: "Bu dəyərli təşəbbüs bu gün davam edir. Əmin olduğumu bildirmək istəyirəm ki, türk dünyasının yazıçıları və bizim ölkələrimiz, xalqlarımız bu işi davam etdirəcəklər, türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha da geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar".[1]

1995-ci il 9 avqust günündə Almaatıda böyük qazax yazıçısı Abay Kunanbayevin 150 illik yubiley mərasimində Ulu öndər əmin edirdi: "Biz müstəqil, suveren dövlətlər kimi geniş inkişaf yoluna çıxacaq və bu yolla irəliləyəcəyik. Keçmişdən bizə irs qalan hər şeyin, böyük Abayın, xalqlarımızın böyük övladlarının qoyub getdikləri irs zəminində mədəniyyətimizi, elmimizi, iqtisadiyyatımızı inkişaf etdirmək və öz xalqımızı xoşbəxtliyə və firavanlığa çıxarmaq üçün irəliləyəcəyik".[2] Qırğız dastanı Manasın min illiyi münasibətilə Bişkekdə Ulu öndər demişdir: "Manas" qırğız xalqının mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, tükdilli xalqların, islam dünyasının böyük mənəvi sərvətidir. "Manas", eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mədəni, mənəvi sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır. Azərbaycan Respublikasında "Manas"ın sözləri, fikirləri geniş yayılmışdır. Azərbaycan şairləri, ədibləri, musiqiçiləri "Manas"ı daim oxuyur, təbliğ edir, geniş yayırlar. Bizim şairlərimiz "Manas"ı Azərbaycan dilinə tərcümə etmişlər. Sənətçilərimiz "Manas"ın sözlərini çox böyük məharətlə və həvəslə oxuyurlar, sazda çalırlar..."[3]

Ulu öndərin türk dünyasının böyük oğlu, görkəmli qırğız yazıçısı Çingiz Aytmatovla, Azərbaycan xalqının dostu, tanınmış qazax şairi Oljas Süleymenovla dostluq əlaqələri, yubileyləri münasibətilə təbrikləri, Oljas Süleymenovla 4 mart 1999-cu ildə görüşü yeni tarixi kontekstin real təzahürləri idi. Elmira Axundova ilə söhbətdə Ol-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 337-338

[2] Yenə orada, s. 281-282

[3] Yenə orada, s. 283-284

jas Süleymenov hələ 1981-ci ildə Nizami Gəncəvinin 840 illiyi münasibətilə Gəncə səfərindən xatirələrini bölüşür: "...Süfrə başında Heydər Əliyev mənim sağlığıma badə qaldırdı, o cümlədən belə dedi: "-Oljas yalnız qazaxlara deyil, Oljas bütün türklərə lazımdır". Görünür ki, "AZ və YA" kitabının və müəllifinin aqibəti haqqında gəzən şayiələrə, söz-söhbətə dolayısı cavab idi. Əliyev, Sov.İKP MK Siyasi Bürosunda mənim kitabımla bağlı gedən diskussiyalardan xəbərdar idi. O, öz mövqeyini açıq-aydın bildirdi. Və bu mənim üçün o zaman çox vacib idi".[1]

Bir zamanlar iki Azərbaycan – sovet Azərbaycanı və Cənubi Azərbaycan arasında ideoloji baryerlər sayəsində ayrılıq rəmzinin təcəssümünə çevrilən böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın 90 illik yubileyinin o taylı- bu taylı xalqımız tərəfindən birgə, bayram təntənəsilə nümayiş olunması yeni tarixi reallıqların ifadəsi idi. Ulu öndər deyirdi: "Qardaş Azərbaycan və İran xalqları arasında hərtərəfli münasibətlərin, o cümlədən elmi-mədəni əlaqələrin inkişaf etməsində Şəhriyar simasının rolu və xidməti misilsizdir".[2]

Beləliklə, Ulu öndər Heydər Əliyevin yazıçıların X qurultayında Azərbaycan ədəbiyyatı və mədəniyyətinin Şərq və Qərb şəcərəsi barəsində söylədiyi postulatları, bu həqiqətləri müstəqil Azərbaycanda bilavasitə həyata keçirməyin, gerçəkləşdirməyin əsasını qoydu. Heç təsadüfi deyil ki, həmin ənənə zəminində bu gün müstəqil Azərbaycan dünya sivilizasiyasına inteqrasiya yollarında artıq qlobal mədəni tədbirlərin yer aldığı daimi ünvanlardan birinə çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin səyi və sərəncamları ilə bir-birinin ardınca keçirilən və dünyanın ən məşhur, nüfuzlu, intellektual elitasını bir araya gətirmək gücündə olan Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumları, Nizami Gəncəvi Forumları, Beynəlxalq Nəsimi festivalı və s. kimi geniş marağa səbəb olan tədbirlərə ev sahiblik etməsi Azərbaycanın sorağını bütün dünyaya yaymışdır. Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban xanım Əliyevanın eyni zamanda YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri kimi geniş fəaliyyəti həm də özlüyündə sim-

[1] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 clddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 284

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 463

volik məna kəsb edib, Qərb və Şərqin Azərbaycanda ünvanlanan vəhdətini nişan verir.

***

Klassik irsə qayğı və klassiklərin yubileylərinin təntənəli bayram edilməsi, qeyd olunduğu kimi, hələ sovet dövründən Ümummilli lider Heydər Əliyev üçün mədəniyyət sahəsində başlıca prioritet olmuşdur. Həmin ədəbi-mədəni hərəkat müstəqillik illərində daha da üstün templə davam və intişar tapdı. Ulu öndər Azərbaycan yazıçılarının X qurultayında vurğulayırdı: "Ona görə də təsadüfi deyil ki, biz Azərbaycanda yazıçıların, şairlərin yubileylərinin keçirilməsini böyük əhəmiyyətli bir hadisə hesab edirik. Bəziləri indi də buna bir az kəc baxırlar, "bu yubileylər nəyə lazımdır, indi bizim həyatımız çətindir, ağırdır", – deyirlər. Ancaq mən bu fikirlərlə heç vaxt razı olmamışam, bu gün də razı deyiləm. Əminəm ki, keçirilən hər bir belə yubiley bizim həyatımızda çox böyük yeni hissiyyatlar doğurur, yeni qüvvələr meydana gətirir..."[1]

Klassiklərə hər yeni qayıdış ilk əvvəl Heydər Əliyevin özünün yaradıcılıq dühasına böyük enerji verir və bu tükənməz qüvvəni o, xalqı ilə bölüşür, topluma ötürürdü. Məhəmməd Füzulinin beş əsrlik şöhrəti və qüdrəti haqqında deyirdi: "Məhəmməd Füzulinin 500 illik yubileyi üç ildir ki, Azərbaycanın hər bir guşəsini fəth edibdir və dünyanı dolaşır... Məhəmməd Füzulinin yaradıcılığı, əsərləri, ədəbi irsi dünya mədəniyyətinə böyük töhfələr vermişdir, dünya mədəniyyətini zənginləşdirmişdir. Məhəmməd Füzuli 40 illik yaradıcılıq dövründə 500 il daim yaşayan böyük əsərlər yaratmışdır. O, Azərbaycan şeirinin, Şərq şeirinin ən yüksək zirvəsinə çatmış və onun yaratdığı şeirlər, onun poeziyası, poemaları, qəzəlləri, qəsidələri, rübailəri 500 ildir insanlara böyük mənəvi ruh verir..."[2]

"Kitabi-Dədə Qorqud" yubileyində Ulu öndər əsl Dədə Qorqud müdrikliyi ilə xalqını alqışlayırdı: "Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, Dədə Qorqud elində yaşayırıq. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" bütün türkdilli

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 422

[2] Yenə orada, s. 346-347

dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə Azərbaycan xalqına mənsubdur. Fəxr edirik ki, biz “Kitabi-Dədə Qorqud”un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik”.[1]

Ulu öndərin klassiklərə yanaşma tərzi və dəyər ölçüləri müstəqillik dövrü ədəbiyyat və mədəniyyətinin əsl meyar və əyarını müəyyən etdi. O deyirdi: “Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir... Məmnuniyyət hissi ilə demək olar ki, XX əsrdə çox mürəkkəb, ziddiyyətli proseslərlə, böyük dəyişikliklərlə, müharibələrlə, faciələrlə dolu əsrdə də bizim xalqımızın bu gözəl ənənəsi nəinki yaşayıbdır, hətta cəsarətlə demək olar ki, daha da yüksəklərə qalxıbdır. Buna görə də bizim Azərbaycanda ədəbiyyata, şairə, yazıçıya böyük hörmət var. Böyük şairimiz Səməd Vurğun bu barədə bir şeir də yazıbdır. Bəli, bu dəyərli sözləri Səməd Vurğun əsaslı deyibdir. Həqiqətən belədir...”[2]

Belə ki, “Biz gələcəkdə də şairlərimizin, yazıçılarımızın, mütəfəkkirlərimizin yubileylərini keçirəcəyik və hər bir belə yubiley xalqımızın bayramı olacaqdır”,[3] – deyən Ulu öndər yanılmırdı. Həmin ənənələr bu gün də yaşayır, günün inkişaf tempinə, xalqın mənəvi tələblərinə müvafiq olaraq intişar tapır. Yalnız son bir ilə nəzər salsaq: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin az bir zamanda ədəbiyyat klassiklərinin – İmadəddin Nəsiminin 650, Cəfər Cabbarlının 120, Cəlil Məmmədquluzadənin 150, İsmayıl Şıxlının 100, Həmid Araslının 110, Məmmədcəfər Cəfərovun 100 illik və s. yubileylərin keçirilməsinə dair sərəncamlar imzalaması, 2019-cu ili Nəsimi ili elan etməsi ədəbi ictimaiyyəti sevindirmiş, eyni zamanda ədəbiyyat və cəmiyyət münasibətlərinin inkişafına rəvac vermişdir.

***

---

[1] "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə həsr olunmuş Azərbaycan Prezidenti Heydər Əliyevin adından Gülüstan sarayında keçirilən rəsmi qəbulda Prezident Heydər Əliyevin nitqi - 9 aprel 2000-ci il

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 412-413

[3] Yenə orada, s. 422

Azərbaycan yazıçılarının X qurultayında Ulu öndərin diqqət yetirdiyi məsələlərdən biri də müstəqillik dövrü ədəbiyyatının səciyyəsi, ədəbiyyatın qarşısında duran problemlər, ədəbiyyat – xalq, ədəbiyyat – cəmiyyət, ədəbiyyat – dövlət münasibətləri olmuşdur. "Mədəniyyət, ədəbiyyat gərək daim dövlətlə bir yerdə olsun. Bu baxımdan sizə bir neçə fikrimi demək istəyirəm. Keçmiş qurultaylardan fərqli olaraq, görürsünüz ki, mən sizə "hansı mövzuda yazmalısınız, nə cür yazmalısınız" kimi göstərişlər, heç məsləhətlər də vermək istəmirəm. Vermək istəmirəm, heç olmayacaq da. Siz tam sərbəstsiniz, azadsınız və sərbəstlik, azadlıq şəraitində nə cür istəyirsinizsə, o cür yazın. Hansı mövzunu götürürsünüz-götürün, sizin öz işinizdir. Dövlət bu işlərə qarışmayacaqdır. Mən bunu sizə tam qətiyyətlə deyirəm..."[1]

Ədəbiyyatın cəmiyyətlə, mühitlə birgə azadlığa qovuşması, yazıçıların tam sərbəstliyi demokratiya mühitinin şərti, göstəricisi, yazıçıya verdiyi imtiyazdır. Bununla belə, Ulu öndər ədəbiyyatın xalq, vətən, cəmiyyət qarşısında missiyasını da unutmamağa çağırır: "Ancaq hesab edirəm, bir məsələdə siz daha da yaxından iştirak etməlisiniz. Bu məsələ də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, Azərbaycan vətəndaşlarının hərbi vətənpərvərlik, ümumiyyətlə vətənpərvərlik ruhunda tərbiyələndirilməsi, Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsidir. Bu çox vacibdir, çox lazımdır..."[2]

Milli ədəbiyyatın bir əsr ərzində bu istiqamətdə xidmətlərini anaraq: "Bu, bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun əsərlərindən də, Rəsul Rzanın əsərlərindən də, Süleyman Rüstəmin əsərlərindən də, Məmməd Rahimin əsərlərindən də, Osman Sarıvəllinin əsərlərindən də, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Əbülhəsənin, Əli Vəliyevin, Mir Cəlalın, İlyas Əfəndiyevin, Mirvarid Dilbazinin əsərlərindən də keçibdir... Mən son vaxtı deyirəm, bəli, Məm-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 435

[2] Yenə orada, s. 435

məd Səid Ordubadi, Hüseyn Cavid, Cəfər Cabbarlı – bunlar şübhəsizdir..."[1]

Və məxsusi vurğulayaraq: "Ancaq sonrakı dövrü mən ona görə xüsusi vurğulayıram ki, 1937-38-ci illərdə bizim ədəbiyyatımıza böyük zərbə vuruldu, böyük itkilərimiz oldu. Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Çəmənzəminli və başqaları..."[2]

Ədəbiyyatın bu mövqedə əvəzsizliyinə isnad edərək: "Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıbdır: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə millətimizdə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıbdır..."[3]

Ulu öndər, ilk növbədə həmin ənənələri gənclərə ötürməyi təlqin edirdi: "Ona görə də biz gənclərimizi daha da çox vətənpərvərlik hissiyyatları ilə tərbiyələndirməliyik. Siz gərək ordumuzla yaxın əlaqədə olasınız. Burda kimsə sizi ittiham etdi ki, cəbhəyə getmisiniz, şəhid olmusunuz, ya yox? Şairin şəhid olması lazım deyil. Amma şairin daim ordunun içərisində olması, əsgərlərlə görüşüb söhbət aparması, onlara vətənin nə demək olduğunu, torpağın nə demək olduğunu, müstəqilliyin nə demək olduğunu anlatması çox vacibdir..."[4]

Azərbaycana, azərbaycançılıq əqidəsinə sədaqət Ulu öndər tərəfindən qurultay qarşısında əsas mənəvi tələb kimi irəli sürülür: "Gənclərimizin düzgün tərbiyə olunması və Azərbaycana, müstəqilliyimizə sədaqət, hesab edirəm ki, sizin yaradıcılığınızın əsas mövzusu olmalıdır. Bu mövzu heç vaxt köhnəlmir. Bu, elə bir mövzudur ki, heç vaxt tükənmir. Çünki biz nə qədər yaşayırıq, o qədər də gərək müstəqilliyimizi möhkəmləndirək..."[5]

Həmin tələblər yazıçı və şairlərin, ədib və sənətçilərin xalq və cəmiyyət qarşısında şəksiz borcudursa, bəs bu məqamda dövlət öz

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 436
[2] Yenə orada, s. 436
[3] Yenə orada, s. 435-436
[4] Yenə orada, s. 440
[5] Yenə orada, s. 440

üzərinə hansı vəzifəni götürür? Heydər Əliyev əvvəlki sistemin şirnikləndirici vərdişlərini yazıçıların yadına salırdı: "Ancaq son dövrdə , ümumiyyətlə, dövlətin yazıçılar, şairlər üçün yaratdığı şərait artıq o qədər qanunıləşmişdi ki, hamı hesab edirdi daim belə olacaq, belə də olmalıdır. Ancaq o quruluş dağıldı, biz o sistemdən imtina etdik və buna da heç vaxt heyfslənməməliyik. Əksinə, sevinməliyik. Sevinməliyik ki, o quruluş, Sovet İttifaqı dağıldı. Sevinməliyik ona görə ki, əgər o dağılmasaydı, biz dövlət müstəqilliyimizi əldə edə bilməzdik, bu, mümkün deyildi..."[1] Qeyd olunduğu kimi, Heydər Əliyev qurultay ərəfəsində həm yaşlı yazıçıların, həm də ədəbi gəncliyin nümayəndələri ilə ayrı-ayrılıqda görüşmüş, onları dinləmiş, fikir və problemlərini müzakirə etmişdi. Və dövlət başçısı olaraq qələm əhlini seçim etməyə çağırır: "Ancaq tərəziyə qoyanda – hansı ağır gəlir, hansı yüngül gəlir, – hamı bir səslə deyəcəkdir ki, bəli, müstəqillik naminə hər çətinliyə, hər əzab-əziyyətə dözməliyik. Ancaq bu çətinliklər daimi deyildir. Bunların sonu var, bunlar müvəqqətidir..."[2]

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin hələ kifayət qədər möhkəmlənmədiyi dövrdə də gələcəyi görür, müstəqil ədəbiyyatın inkişafı naminə mümkün addımları atmağa, yazıçılarla müəyyən pakt bağlamağa qərar verirdi: "Gənc yazıçılar var, onlar çətin şəraitdə yaşayırlar. Mən etiraz etmirəm, əgər Yazıçılar Birliyi zəmanət versə ki, bir il içərisində bunların hərəsi bir yaxşı əsər yarada bilər, mən bir il müddətinə onlara yüksək məvacib təyin edə bilərəm. Onlar bu məvacibi alsınlar, əsəri yazsınlar, əsər doğrudan da çox yaxşı olsa, ona da mükafat verərik. Yəni belə addımlar atmaq olar. Yaxud mən bu günlərdə çox düşünürəm, – doğrudur, əgər mən bu qərarı qəbul etsəm, bir az təhlükəlidir, ancaq belə fikrə gəlmişəm ki, edəm, – ola bilər, bizim bir qrup ədəbiyyat, mədəniyyət xadimlərinə dövlətin, prezidentin ehtiyat fondundan xüsusi maaş təyin edim. Məsələn, bu maaş nə qədər ola bilər, – on, on beş, iyirmi nəfərə..."[3]

O zamandan otuz il keçmiş, Ulu öndərin uzaqgörən proyektləri həyata keçmişdir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə hər il onlarla gənc və yaşlı yazarlara Prezident təqaüdü

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 423
[2] Yenə orada, s. 424
[3] Yenə orada, s. 424

verilir, ədəbiyyat sahəsində uğurlu fəaliyyətlərinə görə. Bu günün ədəbiyyatını yaradan məhz onlardır. Ulu öndər qurultayda bu istiqamətdə daha bir niyyətini açıqlayır: "Burada fondun yaranması haqqında da fikir söyləndi. Mən bunu görüşdə də dedim. Bir neçə ildir belə təkliflər alıram ki, bir fond yaransın, – "Heydər Əliyev fondu" – və bu fonddan mədəniyyətin, istedadlı adamların, ədəbiyyatın inkişafına və başqa sahələrə yardım üçün istifadə olunsun. İndi artıq görürəm ki, doğrudan da, belə bir fondun yaranması zəruriyyəti gəlib çatıbdır..."[1] Bu gün artıq həmin niyyətlər də çin olmuşdur. On beş ildir ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi "Heydər Əliyev fondu" mədəniyyət və humanitariya sahəsində geniş fəaliyyəti ilə bütün dünyada tanınıbdır.

1 mart 2019-cu il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin bir qrup yaradıcı ziyalılarla görüşündə, AYB-nin sədri Anar minnətdarlıq nitqində demişdir: "Cənab Prezident, mən, ilk növbədə, Sizə təşəkkür etmək istəyirəm ki, iş qrafikinizin gərgin olmasına baxmayaraq, bizə vaxt ayırmısınız və bizimlə görüşürsünüz. Başqa yaradıcılıq təşkilatları kimi, Yazıçılar Birliyi də Sizin daim qayğınızı və diqqətinizi hiss edir. Yazıçılara – 50 nəfər yaşlı, 20 nəfər cavan yazıçıya Prezident təqaüdünün təyin olunması, 5 il bundan qabaq 80 illiyimizin geniş qeyd edilməsi, Yazıçılar Birliyinin binasının təmiri, klassiklərimizin və müasir yazıçılarımızın yubileyləri bu qəbildən olan işlərdir... Dekabr ayında Siz məni qəbul etdiniz və mən Yazıçılar Birliyinin bir çox təkliflərini, xahişlərini Sizə yetirdim. Çox məmnunam ki, Sizin göstərişlərinizlə bunların böyük qismi artıq həyata keçib. Bizim Şüvəlandakı yaradıcılıq evimizi vaxtilə qaçqınlara, köçkünlərə vermişik, artıq 30 ilə yaxındır orada yaşayırlar. İndi Sizin Sərəncamınızla onlara mənzillər verilir, köçürülür və o bina təmir olunacaq. Sizin tapşırığınızla Bakı Şəhər İcra Hakimiyyəti Heydər Məscidinin yanında bir sahə ayırdı, orada biz yazıçılar üçün 16 mərtəbəli bina tikiləcək, kooperativ ev. Bununla da bizim yazıçıların mənzil məsələsi demək olar ki, həll ediləcək.

Daha böyük və şad bir xəbər odur ki, bir neçə il bundan qabaq Sizin təşəbbüsünüzlə bəstəkarların, rəssamların və yazıçıların yaradıcılıq evi tikilməsi haqqında məsələ qaldırılmışdı. Mən bir daha

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 430

bunu Sizdən xahiş etdim və Siz tapşırıq verdiniz. Mən gedib o yeri görmüşəm. Şabran rayonunda çox səfalı bir yerdir, meşənin içində. Amma böyük bir tala var. Ona görə deyirəm ki, orada ağac da qırılmayacaq, bulaq var, gözəl bir yerdir. Dünən mən Şabran Rayon İcra Hakimiyyətinin başçısı ilə telefonla danışdım, dedi ki, layihə artıq hazırdır. Bəstəkarlar, rəssamlar, yazıçılar üçün üç bina, bir də ümumi bina tikiləcək ki, orada konfrans zalı, poliklinika və dükanlar olacaq. Torpaq və yol işləri qurtarıb. Martda tikinti işləri başlanacaq. Mən Sizə həm Yazıçılar Birliyi adından, həm də icazələri ilə bizim Rəssamlar və Bəstəkarlar ittifaqlarının adından təşəkkürümü bildirmək istəyirəm ki, belə bir nadir şəhərcik yaranacaq…"

Daha sonra Anar Ulu öndər Heydər Əliyevin ədəbiyyat sahəsində uzaqgörənliyinə qarşılıq olaraq təklif etmişdir: "Mən istərdim ki, bu şəhərcik Ulu öndərimizin şərəfinə Heydərabad adlansın. Çünki bu, həm Heydər Əliyevin Azərbaycan mədəniyyətinə sevgisinin, qayğısının rəmzi olar, həm də Azərbaycanın coğrafi xəritəsində Ulu öndərin adı ilə daha bir məskən ola bilər..."[1]

Qətiyyətlə demək olar, bu gün müstəqillik ədəbiyyatının Heydər Əliyev modeli inamla gerçəkləşdirilməkdədir.

***

Müstəqillik illərində Ulu öndər Heydər Əliyevin ədəbi mühitlə əlaqələrində qeyri-formal görüşlər önə çıxır və rəngarəng şəkildə özünü göstərir. İlk belə görüşlərdən biri Heydər Əliyevin 16 aprel 1995-ci ildə Məmməd Arazın yaradıcılıq gecəsinə gəlməsi və oradakı çıxışıdır: "Son illər bizim mədəniyyətimizə, elmimizə, şeirə, ədəbiyyata diqqət azalıb, qayğı azalıb. Bilirsiniz, bu axşam bizim üçün nə qədər böyük bir mənəviyyat axşamı oldu! İndi haradasa nə qədər danışasan, əylənmək istəyəsən, ürəyini açmaq istəyəsən – bu cür zövq ala bilməzsən, nə qədər ki, bu gün biz zövq aldıq. Mənəviyyatı bu qədər dərindən dərk edə bilməzsən. Çünki bu gün mədəniyyətimizin, ədəbiyyatımızın böyük nümunələri səsləndi, canlandı, gözü-

[1]http://www.mct.gov.az/az/umumi-xeberler/prezident-lham-liyev-ve-birinci-xanim-mehriban-liyeva-medeniyyet-ve-incesenet-xadimlerinin-bir-qrupu-ile-gorusubler

müz özünə gəldi və biz özümüz özümüzü bir daha qiymətləndirdik, tanıdıq..."[1]

Çıxışında ən müxtəlif məsələlərə toxunmaqla yanaşı, Ulu öndər emosional, şəxsi təəssüratını da gizləmir, əksinə, gen-bol yer verir: "Sizə səmimi deyirəm, mən həyəcansız otura bilmirdim. Hər adam belə şeylərə cürbəcür reaksiya verir. Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri, o musiqini həyəcansız dinləyə bilmirəm. Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var! Biz nə qədər zənginik! Biz özümüz özümüzü çox vaxt qiymətləndirə bilmirik. Xalqımızın zəngin mədəniyyəti keçmişdə də olub, bu gün də var, ümidvaram ki, gələcəkdə də olacaqdır. Mənim buna heç bir şübhəm yoxdur..."[2]

Heydər Əliyev daha sonralar da şair və yazıçıların yaradıcılıq görüşlərində iştirak edir və emosional təəssüratını məclislə bölüşür. Bu zaman çıxışlarının ovqat zənginliyi, rəngarəngliyi, çoxçalarlığı onun bir ədəbiyyat və sənət adamı kimi şair və yazıçılarımızın yaradıcılığına necə dərindən nüfuz etdyini nümayiş etdirir. Əliağa Vahidin yüzilliyində iştirak edən Ulu öndər deyir: "Hər bir yubileyin öz yeri var. Şübhəsiz ki, heç biri o birisini nə əvəz edə bilər, nə də onun bərabəri ola bilər. Amma hər birinin öz xüsusiyyəti, gözəlliyi var. Bugünkü Vahid gecəsinin gözəlliyi məni həddindən artıq sevindirdi, həyəcanlandırdı. Vahidin nə qədər gözəl qəzəlləri, şeirləri, sözləri varmış. Yenə də deyirəm, Vahidin əsərlərini hər birimiz oxumuşuq. Birimiz bir dəfə bir qəzəlini oxumuşuq, bir muğamı eşitmişik. Amma bu gün siz bunları bir yerə yığdınız. Həm ifa etdiyiniz musiqi, həm də oxuduğunuz şeirlərlə, mən hesab edirəm ki, hamını, o cümlədən də məni həyəcanlandırdınız..."[3]

Xalq şairi Qabilin yubiley gecəsində Heydər Əliyev vurğulayır: "Mən şairlərin, yazıçıların, ədəbiyyatçıların son illərdə keçirilən yubileylərini xatırlayıram. Bunlar elə ədəbiyyat, şeir, poeziya bayramımızdır. Bu yubileylərdə hər bir sənətkarın yaradıcılığına qiymət verilir. Biz, məsələn, Qabilin əsərlərini oxumuşuq, lakin bu şeirləri bir daha yada salmaq çox əhəmiyyətlidir, həm də dinləyəndə o, insana zövq verir. Mən bu yubiley gecəsinə təkcə Qabilə hörmət na-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 249

[2] Yenə orada, s. 250

[3] Görkəmli şairin xatirəsinə ehtiram-"Ədəbiyyat qəzeti", 6 sentyabr 1996-cı il

minə gəlməmişəm. Buraya həm də incəsənətimizlə, ədəbiyyatımızla, şeirimizlə görüşmək üçün gəlmişəm. Hesab edirəm bu yubiley gecəsi çox yaxşı oldu... Yubiley gecəsinin məhz bu yanvar ayında olması bir də ona görə yerinə düşdü ki, burada yubilyarın Yanvar faciəsinə həsr olunmuş şeiri dəfələrlə səsləndi, yeddi il bundan əvvəl xalqımızın başına gələn faciələr, bəlalar yad edildi və Qabilin vətəndaşlıq şücaəti bir daha nəzərə çatdırıldı..."[1]

Ulu öndər müstəqillik illərində, yazıb-yaradan müasir şair və yazıçıların yubileylərinin rəsmi çərçivələrdən çıxıb yaradıcılıq görüşləri səciyyəsi almasını təqdir edir və dəstəkləyirdi: "Belə yubileylərin təşkil olunması ədəbiyyat gecələrinin keçirilməsi deməkdir. Mən vaxtilə düşünürdüm ki, müntəzəm olaraq şeir gecələri keçirmək lazımdır. Mənim 70-ci illərdə bu barədə bir çox fikirlərim var idi. Xalqımız tarixən, əsrlərlə şeirlə yaşayıb, şairlər yığışıblar, özləri də, oraya toplaşanlar da şeirlər deyiblər. Ona görə də mən o vaxt fikirləşirdim ki, musiqi gecələri öz yerində, şeir gecələri də keçirmək lazımdır..."[2]

Ulu öndər fikirləşdiklərini müstəqillik dövründə reallaşdırır. Bir yandan ölkə başçısı olaraq, müasir ədiblərə, alimlərə, sənətçilərə rəsmi Prezident təbrikləri ünvanlayır. O cümlədən bu illərdə xalq şairi Məmməd Arazın 60 illiyi (6 okyabr 1993), xalq yazıçısı İlyas Əfəndiyevin 80 illiyi (25 may 1994), yazıçı Hüseyn İbrahimovun 75 illiyi (26 iyun 1994), xalq yazıçısı İsmayıl Şıxlının 75 illiyi (4 iyul 1994), xalq şairi Nəbi Xəzrinin 70 illiyi (17 dekabr 1995), yazıçı Yusif Səmədoğlunun 60 illiyi (19 dekabr 1995), xalq şairi Qabilin 70 illiyi (15 avqust 1996), xalq şairi Balaş Azəroğlunun 70 illiyi (17 mart 1997), xalq şairi Mirvarid Dilbazinin 85 illiyi (18 avqust 1997), xalq yazıçısı Hüseyn Abbaszadənin 75 illiyi (22 noyabr 1997), yazıçı Anarın 60 illiyi (13 mart 1998), xalq yazıçısı İsa Hüseynovun 70 illiyi (11 iyun 1998), Zəlimxan Yaqubun 50 illiyi (17 yanvar 2000), xalq şairi Bəxtiyar Vahabzadənin 75 illiyi (15 avqust 2000), Nəriman Həsənzadənin 70 illiyi (3 dekabr 2001), yazıçı Elçinin 60 illiyi (29 may 2003) və bir çox digər görkəmli ədiblərin yubileyi münasibətilə dövlət rəhbəri dövlətin adından və öz adından təb-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 354

[2] Yenə orada, s. 354

riklərdə ürək sözlərini ifadə etmiş, yubilyarın tarixi-mədəni və yüksək ictimai dəyərini vermişdir.

Buradaca qeyd olunmalıdır ki, heç də sadəcə protokol səciyyəsi daşımayan həmin mətnlərin hər birində sənətkara qiymətin məhz Heydər Əliyev nəfəsi və ölçüləri aydın hiss olunur. Bu münasibətlə Əjdər Olun "Canlı lətifələr, əhvalatlar, deyimlər" kitabında maraqlı bir epizod verilmişdir. Televiziya ekranlarından da geniş tamaşaçı auditoriyasına nümayiş olunan yubileydəki həmin epizod xarakterikdir: "1997-ci ilin noyabrında Respublika Sarayında bəstəkar Tofiq Quliyevin 80 illik yubiley gecəsində, məclisin sonunda yubilyar diqqət və qayğıya görə Prezidentə minnətdarlığını bildirdi: -Çox sağ olsun Heydər Əlirza oğlu! Çünki bu təntənəni, bu gözəl şəraiti o yaratmışdır. Onun mənə göndərdiyi qəzetdə dərc olunmuş məktubda yazdığı gözəl sözləri, bu məktubun xüsusən axırındakı bir neçə sətri mən yüz faiz ümid edirəm ki, Heydər Əlirza oğlu şəxsən özü yazmışdır". Bəstəkarın sözlərinə cavab olaraq Heydər Əliyev deyir: "Əziz Tofiq! Mən 80 illik yubileyin münasibəti ilə sənə təbrik məktubu göndərmişəm. Onu da bil ki, mən göndərdiyim və ümumiyyətlə, mənə aid məktubların hamısını əvvəldən axıradək özüm yazıram..."[1]

Bu xarakterik cizgi barəsində Elçin də "Tarixlə üz-üzə dayanan adam" essesində bir müşahidəsini bölüşür: "Mən həmişə fikirləşirəm ki, Heydər Əliyevin köməkçilərinin işi bir tərəfdən çətindir, çünki tələbat böyükdür, böyük də məsuliyyət var, o biri tərəfdən də asandır, çünki onun üçün başqa dövlət başçıları kimi, gecə-gündüz əlləşib, faktlar toplayıb, sitatlar yığıb çıxış yazmaq, məruzə hazırlamaq lazım deyil. Bu işi köməkçilərinin əvəzinə onun özünün fitri istedadı görür..."[2]

Bununla yanaşı, Heydər Əliyev müstəqillik zamanında yubiley tədbirlərinin məhz qeyri-formal, yaradıcılıq təşəbbüslərinə üstünlük vermişdir. Məmməd Arazın yaradıcılıq gecəsində Ulu öndər vurğulayırdı: "Belə şeir gecələri, ədəbiyyat gecələri, belə görüşlər, mənə elə gəlir ki, xalqımızın həyatının, tarixinin bu dövründə xüsusilə la-

---

[1] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun Nəşriyyatı, 2015, s. 39-40
[2] Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 240-241

zımdır. Çünki mənəviyyat bir çox yerlərdə çox tapdalanıb, unudulubdur, əxlaq pozulubdur..."[1]

Ədəbiyyat və sənət görüşləri yazıçı və şairlərlə yaxından ünsiyyətə səbəb olur, yaradıcılıq söhbətlərinə rəvac verirdi. Bu zaman Heydər Əliyevin şeir duyğusu, ədəbi zövq və maraqları, habelə müasir auditoriyalara bələdliyi ədəbi mühiti bir daha silkələyir, hər dəfə yenidən-kəşfə təkan olurdu: "Məmməd Arazın şeirini nə üçün bu qədər sevir insanlar? Axı, şeiri insanlara zorla sevdirmək olmaz. Nə üçün sevirlər? Mən keçmişdə də bunu hiss edirdim. Uzun müddət Azərbaycanda olmadıqdan sonra, 90-cı ildə Azərbaycana qayıtdıqdan sonra hara gedirəm – Məmməd Arazın şeirləridir, Bəxtiyar Vahabzadənin şeirləridir. O vaxt bizdə çox coşqun ictimai-siyasi vəziyyət yaranmışdı. İnsanlar 20 Yanvar hadisələrindən sonra çox coşmuşdular. Çox inciklik vardı cəmiyyətdə. Eyni zamanda milli azadlıq ruhunda fikirlər daha da açıq deyilirdi. Hər yerdə Məmməd Arazın, Bəxtiyar Vahabzadənin şeirləri oxunurdu. Başqalarının da..."[2]

Əslində, müstəqillik dövrünün ədəbiyyat və mədəniyyət siyasəti də bilavasitə bu yaradıcılıq gecələri və görüşlərində yaranır, Ulu öndərin dərin düşüncələrindən doğurdu. Məmməd Arazın yaradıcılıq gecəsində o deyir: "Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Xəlil Rzanın – bu üç şəxsin adını mən fərəhlə çəkirəm. Dünən mən üç fərman vermişəm. Bildiyiniz kimi, müstəqil Azərbaycanın ən yüksək ordeni "İstiqlal" ordenidir. İndiyə qədər bu ordenlə heç bir vətəndaş, heç kəs təltif olunmayıbdır. Dünən isə mən fərman verərək Bəxtiyar Vahabzadəni, Məmməd Arazı, mərhum Xəlil Rzanı "İstiqlal" ordenilə təltif etmişəm. Bu bir təsadüf, yaxud ki, birdən meydana çıxmış, mənim tərəfimdən birdən qəbul olunmuş qərar deyil. Bu haqda mən çox düşünürəm. O mənada ki, biz milli azadlığımız uğrunda çalışmışıq, vuruşmuşuq, mübarizə aparmışıq. Amma bu mübarizə bəzən açıq getməyibdir, bəzən qəlblərdə gedibdir, bəzən o, üstü örtülü yazılarla gedibdir..."[3]

Ulu öndər sanki qəfil görünən qərarının tarixi köklərini də izah edir: "Bilirsiniz, milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 249
[2] Yenə orada, s. 252-253
[3] Yenə orada, s. 250

Bu da asan bir proses deyildir. Çox vaxt tələb eləyən prosesdir. Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi. Ancaq Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox işlər görüblər..."[1]

Müasir yazıçı və şairlərin yibileylərinin qeyd olunması, fəxri adların bərpası, yazıçı və şairlərə adların verilməsi məsələsi də ilk olaraq Məmməd Arazın yaradıcılıq gecəsində səslənir. Ulu öndər Heydər Əliyev yazıçı və şairləri "İstiqlal" ordeni ilə təltif edir[2], 1998-ci il 23 may Prezident fərmanı ilə Hökumə Billuri, Fikrət Qoca, Söhrab Tahir "Xalq şairi", Anar, Elçin, Yusif Səmədoğlu, Hüseyn İbrahimov, Maqsud İbrahimbəyov və b.-ları "Xalq yazıçısı" adına layiq görülür[3]. 1998-ci ilin 12 dekabr günü Ulu öndər Müstəqil Azərbaycanın Dövlət mükafatlarını laureatlara təqdim edərkən deyirdi: "Siz xoşbəxt adamlarsınız, çünki yaradıcısınız – əsərlər yazmısınız və bu gün də yaradırsınız, gələcəkdə də yaradacaqsınız. Sizin əsərləriniz xalqa fayda verir, bugünkü nəsillər və gələcək nəsillər üçün çox gərəklidir, əhəmiyyətlidir. Mən məmnunam ki, bu gün sizinlə bir daha görüşdüm, hər birinizin əlini sıxdım və müstəqil Azərbaycanın bu yüksək mükafatlarını sizə təqdim etdim..."[4]

Ulu öndər Heydər Əliyevin müstəqillik illərində 60-cılar ədəbiyyatının nümayəndələri – Maqsud İbrahimbəyovun, Yusif Səmədoğlunun, Anarın və b.-nın 60 illik yubiley gecələrində iştirakı məxsusi xarakter və önəm daşıyır. Azərbaycanda "60-cılar" hərəkatı Heydər Əliyevin özünün də iştirakı ilə bilavasitə formalaşdırdığı mühitdir, bunu dəfələrlə "60-cılar"ın özləri də etiraf etmişlər. 14 may 1995-ci ildə Maqsud İbrahimbəyovun "Gülüstan" sarayında keçirilən yubileyində Ulu öndər xatırladır: "Bu baxımdan Maqsudun və Rüstəmin yaradıcılığı ədəbiyyatda, deyə bilərəm ki, mənim siyasətdə ilk dəfə fəaliyyətə başlayarkən atdığım addımlara bənzəyir. İndi biz Maqsudun 60 illik yubileyini qeyd edirik. 60-cı illər mənim xatirimdədir. Maqsud 25-30 yaşında gənc oğlan idi. Rüstəm bundan

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 250-251

[2] Ədəbiyyat, mədəniyyət, incəsənət xadimlərinin bir qrupuna "İstiqlal" ordeninin təqdim etmə mərasimi. 26 may 1998-ci il. // Heydər Əliyev, Müstəqilliyimiz əbədidir. Kitab 15, mart 1998- iyun 1998. Bakı, Azərnəşr, 2005, s. 372-374

[3] "Ədəbiyyat qəzeti", 29 may 1998-ci il

[4] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 481

da gənc idi. Yaradıcılıqda ilk addım atırdılar. 1969-cu ildə mən Azərbaycan Respublikasına rəhbərlik etməyə başladım. Bunlar o vaxt gənc yazıçılar, ədəbiyyatımızın gənc nəslinin nümayəndələri idilər. Bu yolu 30 il bir yerdə keçmişik. İndi mən Maqsuda baxanda onu yenə gənc hesab edirəm..."[1]

"60-cılar"ın məclisində milli rəhbər, Ümummilli lider olaraq Heydər Əliyev özünü daha doğma, yaxın, eyni bir tarixi zamanın təmsilçisi, həmfikir olaraq hiss edir, azad yaradıcılıq söhbətlərinə, xatirələrə rəvac verir. Maqsud İbrahimbəyova müraciətlə deyir: "Bu illəri bir yerdə yaşamışıq, bir yerdə keçmişik. Düzdür, müəyyən vaxt ayrı da düşmüşük. Ancaq Maqsudun yaradıcılığının, bütün insani keyfiyyətlərinin xüsusiyyəti bir də ondan ibarətdir ki, o, yolunu həmişə düz gedib. Əgər belə bir söz desəm inciməz, - yolunu azmayıbdır, yolundan çıxmayıbdır. Öz əqidəsini heç vaxt hansı bir konyuktur səbəblərə görə dəyişməyibdir..."[2]

Ulu öndər "60-cılar"dan hər birini Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində yüksək qiymətləndirməklə, yaradıcılığına fərdi münasibətini də bildirir; dürüst olmaqla yanaşı, ən yaxından və iti müşahidələri Heydər Əliyevə imkan verir ki, hər bir yazıçıya heç kəsin deməditi sözləri desin, başqalarının görmədiyi cəhətləri dilə gətirsin. Azərbaycan dilində ədəbiyyatın yüksək intellektual gücünü məxsusi qabardaraq, Ulu öndər gözlənilməz rakursdan Maqsud İbrahimbəyovun yaradıcılığına işıq salır: "Ona görə də biz Azərbaycan dilinin inkişafına xüsusi fikir veririk. O vaxtlar da xüsusi fikir verilirdi. Əgər elə olmasaydı, Azərbaycan dilində belə zəngin ədəbiyyatımız yaranmazdı. Ancaq bununla yanaşı, o dövrdə biz İttifaqda olanda bir ümumi dil – rus dili var idi. Bu dildə yazıb Azərbaycanı təbliğ etmək, Azərbaycanın reallığını bildirmək, Azərbaycanı tanıtmaq çox böyük bir iş idi. Xatirimdədir, mən Moskvada, Kremldə işləyəndə Maqsud xahiş elədi, onunla görüşdüm. Mənə öz kitabını hədiyyə verdi. O vaxt Yuqoslaviyadan, böyük bir səfərdən qayıtmışdım. Mənə dedi ki, Yuqoslaviya prezidentinin xanımı onun bu kitabının serb dilinə tərcüməçisidir. Bu, məndə böyük bir iftixar hissi oyatdı. Moskvada, Kremldə oturmuşam, Maqsud İbrahimbəyovla söhbət edirəm. O, əsər yazıbdır, bu əsəri Yuqoslaviyada serb dilinə

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 261-261

[2] Yenə orada, s. 262

tərcümə ediblər. Tərcümə edən də Yuqoslaviyanın dövlət başçısının xanımıdır, – bunlar adi şeylər deyildir..."[1]

Eyni məqamları Ulu öndərin Yusif Səmədoğlunun yubiley gecəsinə gəlişi və çıxışında da müşahidə edirik. Heydər Əliyev Yusif Səmədoğluna ilk növbədə böyük Səməd Vurğun ailəsinin layiqli övladı və davamçısı kimi dəyər verir: "Yusif Səmədoğlu bizim millətimizin xoşbəxt insanlarından biridir. Çünki o, böyük şair, böyük insan, böyük alim Səməd Vurğunun oğludur. Səməd Vurğunun övladı olmaq, onun tərbiyəsini almaq, onun ailəsində böyümək özü böyük bir nemətdir, böyük bir xoşbəxtlikdir. Bəlkə elə bu bəs olardı. Ancaq bununla yanaşı, bu kökün üstündə, bu ailə ab-havasının içində böyüyüb, ərsəyə gəlib atasının yolunu davam etdirmək və cəmiyyətdə özünəməxsus, məhz özünəməxsus yer tutmaq, - bu, böyük xoşbəxtlikdir, cəmiyyətimizin içində insan üçün, şübhəsiz ki, nemətdir..."[2]

Ulu öndər eyni zamanda, görkəmli yazıçı olmaqla bərabər, Yusif Səmədoğlunun müstəqillik uğrunda azadlıq hərəkatında rolunu yada salır: "O vaxt – yanvarın 20-də mən çox həyəcan içində idim. "Azadlıq" radiostansiyasının verilişlərini tutdum və o verilişlərdən Azərbaycanda olan vəziyyəti özüm üçün müəyyən qədər aydınlaşdırdım. Xatirimdədir, Yusifin səsi ilə - yəni o, telefonla bəyanat vermişdi, - məlumat verdilər. O, Sovetlər İttifaqının böyük qoşun hissəsinin Bakıya girməsini "Azadlıq" radiostansiyasına telefonla nə qədər həyəcan hissi ilə bildirirdi. Qoşunların vəhşiliyindən, təcavüzkarlığından danışırdı. Mən bunları "Azadlıq" radiostansiyasından Yusifin səsi ilə özüm eşitdim..."; və yüksək qiymətləndirir: "Güman edirəm ki, təkcə bu yox, – bu sadəcə mənim şəxsən hiss etdiyim bir hadisədir, haldır, – ancaq Azərbaycanın o ağır dövründə, 20 Yanvar faciəsi ərəfəsində və 20 Yanvar faciəsi zamanı o aylarda, o illərdə Yusif Azərbaycanın milli mənliyini qorumaq sahəsində çox fədakar şəxslərdən biri idi və onun siyasi fəaliyyəti, ictimai fəaliyyəti çox olubdur..."[3]

1998-ci ildə yazıçının səhhəti pisləşərkən, Heydər Əliyev Yusif Səmədoğlunun müalicəsinin qayğısına qalır, ona xəstəxanada baş

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 264

[2] Yenə orada, s. 302

[3] Yenə orada, s. 304-305

çəkir, ali mənəvi dəstək göstərir, yüksək təsəlli sözlərini söyləyir: "- Yusif, sən Berlində olanda da oradan səfir mənə bu barədə məlumat veribdir... Yenə də hara lazımdır – Almaniya, Fransa, ABŞ, Moskva və s. – haranı istəyirsən, mən səni hökumətin hesabına müalicəyə göndərməyə hazıram. Heç nədən narahat olma. Bütün müalicə xərclərinin də hamısı hökumətin hesabına götürülür. Bil ki, sən mənim üçün və bütün xalqımız üçün əziz bir insansan. Sənin atanın Azərbaycan xalqı qarşısında xidmətləri böyükdür. Mən sənə bu günlərdə xalq yazıçısı adı verdim. Atan xalq şairi, sən də xalq yazıçısı. Sənin bu xəstəliyin ötüb keçəcəkdir. İnşallah, hər şey keçəcək və ayağa duracaqsan..."[1]

Həmin qayğını müstəqillik illərində, eyni zamanda xəstə yatan bir çox görkəmli ədəbiyyat və sənət adamlarına – Xəlil Rza Ulutürk, Tofiq Quliyev, Bəxtiyar Vahabzadə, Hökumə Billuri və b.-a münasibətdə də görür, müşahidə edirik. Bunu yalnız qayğıkeş dövlət başçısı, humanist və müdrik rəhbərin ədəbiyyat və incəsənət xadimlərinə böyük mənəvi jesti, ictimai borc və öhdəliyinin ifadəsi kimi qiymətləndirmək azdır. Xəstəxana görüşlərinin hər biri Ulu öndərin həm də birgə mübarizə yolu keçib gəldiyi silahdaşları ilə həsb-halı, mənəvi mükaliməsi, ictimai etiraflar və ürək söhbətləri ilə qiymətlidir. Heydər Əliyevin çiyin-çiyinə çalışdığı mübarizə yoldaşlarının hər birisinə deyiləsi sözü var.

19 yanvar 1997-ci il tarixində Ulu öndər M.Qədirli adına Mərkəzi Hövzə Xəstəxanasında xəstə yatan xalq şairi Bəxtiyar Vahabzadəyə baş çəkir. Zəngin və maraqlı keçən söhbətdə ölkə başçısı və xalq şairi mədəniyyətə, siyasətə, elm və təhsilə, tarixə, ədəbiyyata, incəsənətə, teatra dair müxtəlif aktual məsələlərə baş vurur, münasibət bildirirlər. Dialoqun başlıca leytmotivini Azərbaycanın taleyi, dünəni, bugünü və sabahına yönəldir; Ulu öndər şairin narahatlığına cavab olaraq, onu müstəqilliyin alternativsiz olduğuna əmin edir. Bu görüşdə Heydər Əliyev Azərbaycan mədəniyyətinin, musiqisinin, rəssamlığının, ifa sənətinin, o cümlədən ədəbiyyatının təkrarsızlığı, unikallığını böyük sevgiylə anmaqla, burada mental dəyərlərin və tarixi təcrübənin rolunu çoxsaylı örnəklərlə yada salır. Ümumən, Azərbaycan ədiblərinə yüksək dəyər verməklə, Heydər Əliyev Bəx-

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 478-479

tiyar Vahabzadənin də bu sırada yerini məxsusi görür: "Ümumiyyətlə, ədəbiyyatımızda, mədəniyyətimizdə çox şəxsiyyətlər olub. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tutur, təkrarolunmazdırlar, onları heç kəs əvəz edə bilmir. Məsələn, Süleyman Rəhimov da, Mirzə İbrahimov da, Hüseyn Cavid də, Rəsul Rza da, Səməd Vurğun da, Cəlil Məmmədquluzadə də, Sabir də, Süleyman Rüstəm də belədir. Bu gün bizim dövrümüzdə yaşayanlardan söhbət açsaq, Bəxtiyar Vahabzadə də belədir. İkinci bir Bəxtiyar Vahabzadə yoxdur. O, başqasına bənzəmir və onu heç kəs əvəz edə bilməz. Sabah başqa bir şəxs yaranacaqdır, onun bəlkə də başqa xüsusiyyətləri olacaqdır. Bəli, xalqımız elə xalqdır ki, tarixin hər bir mərhələsində böyük, dahi insanlar yetişdirir və biz bununla fəxr etməliyik. Biz kasıb xalq deyilik. Yəni biz intellekt cəhətdən kasıb deyilik. Bəli, xalqımızın zəkası çox zəngindir..."[1]

Söhbət 20 Yanvar hadisələrinin yeddinci ildönümü günlərinə təsadüf edir. Ulu öndər Yanvar hadisələri zamanı Bəxtiyar Vahabzadənin mərd və cəsarətli addımlarını xatırlayır: "Yadımdadır, 1990-cı il yanvarın 22-də sizin sədrliyinizlə sessiya keçirildi. Təsəvvür edin, respublikanı, hökuməti idarə edən adamlar qaçdılar, sessiyaya Bəxtiyar Vahabzadə sədrlik etdi... Yanvarın 22-də sessiyada siz qərar qəbul etdiniz ki, Sovet Ordusunun qoşunları əgər buradan tezliklə çıxmasa, Azərbaycan Sovet İttifaqının tərkibindən çıxacaqdır..."[2] Şairin ictimai-siyasi fəaliyyətini yüksək qiymətləndirir: "Bu söhbəti sən saldın və mən də bir daha deyirəm ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə Bəxtiyar Vahabzadənin xidmətləri böyükdür. Ölkəmizin, xüsusən o çox gərgin vəziyyətində siz vətəndaşlıq, ziyalılıq cəsarəti göstərmisiniz. Ona görə də nə mən, nə də xalqımız bunu unuda bilmərik və onu yüksək qiymətləndiririk..."[3]

Heydər Əliyevin böyük qəlbli insan və şəxsiyyət kimi həssaslığı həmməslək olduğu ədib və sənətkarları son mənzilə yola salarkən, vida dəmlərində daha da aydın görünür. Hələ sovet dönəmindən Qara Qarayev, Rəsul Rza, Fikrət Əmirov, Niyazi kimi vətən, xalq, millət qarşısında əvəzsiz xidmətləri olan insanların dəfn mərasimini ümumxalq matəmi və hüzn günü səviyyəsində rituallaşdıran

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Kitab 8, noyabr 1996 – mart 1997. Bakı, Azərnəşr, 1998, s. 339

[2] Yenə orada, s. 337-338

[3] Yenə orada, s. 338-339

Ulu öndər müstəqillik illərində, ən ağır zamanlarda da "vaxtsız ölümləri" ümumxalq kədəri və şəxsi itkisi kimi qəbul edir, rəsmi nekroloqla yanaşı, vida mərasimində nitq söyləyir, ürək yanğısını xalqla bölüşürdü.

Xalq şairi Xəlil Rza Ulutürklə vida mərasimində Ulu öndər deyirdi: "Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə sevilmişdir. Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox da cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Ona görə bu itki bütün Azərbaycan xalqı kimi, mənim üçün də böyük itkidir".[1] Fərdi hiss və yaşamlarını bildirməklə yanaşı, Ulu öndər ədibin ictimai siqlətini, vətən, xalq qarşısında xidmətlərini ümdə olaraq qabardır: "O, daim Aərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. Allaha şükürlər olsun ki, o, Azərbaycanın müstəqilliyinin şahidi olmuş, bunu görmüşdür... Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır. Əminəm ki, Xəlil Rza Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır..."[2]

Ulu öndər Heydər Əliyevin qəlbində tanıdığı, qiymətləndirdiyi hər bir sənətkarın öz yeri vardı. Yazıçı və şairləri obyektiv, ədəbi fəaliyyətlərinə düzgün qiymətlə dəyərləndirdiyi kimi, fərdi münasibətini də bura əlavə edir, birbaşa ünsiyyətdə olduğu məqamları xoş xatirə kimi anırdı. Xalq yazıçısı İsmayıl Şıxlı ilə vida mərasimindəki geniş nitqi sanki sağlığında imkan tapıb söyləyə bilmədiyi belə anılarla müşaiyiət olunur. Ulu öndər İsmayıl Şıxlının yaradıcılığına dəqiq qiymət verir: "Bəli, İsmayıl Şıxlının əsərlərindən gənclərimizin, hər bir Azərbaycan vətəndaşının aldığı təəssürat onları milli azadlıq ruhunda tərbiyə edibdir, bu ruhda püxtələşdiribdir, vətənpərvər kimi yetişdiribdir və xalqımızı elə bir səviyyəyə çatdırıbdır ki, o öz milli azadlığını və müstəqilliyini əldə edibdir..."[3]. Xatirəsini anır: "İsmayıl Şıxlı görkəmli ictimai xadim olubdur. Mən onunla bir çox illər əməkdaşlıq etmişəm. Ona bir yazıçı kimi, bir müəllim kimi hə-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s.

[2] Yenə orada, s. 196-197

[3] Yenə orada, s. 277-278

mişə hörmətim olubdur. Yadımdadır, 70-ci illərdə mən Yazıçılar İttifaqının rəhbərliyi haqqında düşünərkən, bizim bir sıra görkəmli yazıçılarımızın adları çəkilərkən onların içərisində İsmayıl Şıxlının namizədliyi məni daha çox cəlb etdi. Ona görə ki, İsmayıl Şıxlının həm yazıçı kimi, həm insan kimi hörməti böyük idi, həm də özünü daim təvazökar aparmışdır. Sanballı, ağır bir insan idi. Hörmətli mənada ağır insan idi... Mən çox məmnunam ki, o vaxt biz belə bir addımı atdıq. Çünki onun Yazıçılar İttifaqına rəhbərlik etdiyi dövr Azərbaycanın həyatında çox mürəkkəb bir dövr idi..."[1]. Ən nəhayət, Ulu öndər ədibin ictimai fəaliyyətini yüksək dəyərləndirir: "Ancaq mən Azərbaycanın məhz ağır dövründə - 1990-cı il Yanvar faciəsi dövründə İsmayıl Şıxlının ictimai-siyasi və vətəndaşlıq fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Bəli, o dövr çox ağır idi. İnsanlar böyük faciə içərisində idilər. Müdriklik, eyni zamanda qabağa çıxıb xalqa yol göstərmək lazım idi. Cəsarət lazım idi. Elə şəxslərdən biri İsmayıl Şıxlı olmuşdur..."[2]

Heydər Əliyevin daim diqqət yetirdiyi "60-cılar"ın öncül nümayəndələrindən biri də Xalq yazıçısı Elçindir. Xalq yazıçısı adını da müstəqillik illərində ilklər sırasında yazıçıya Ulu öndər layiq bilmiş, 2003-cü ildə 60 illiyi münasibətilə onu Vətənin ən ali – "İstiqlal" ordeni ilə təltif etmişdir. Heydər Əliyev hələ sovet dönəmində respublikaya rəhbərliyi dövründə yazıçı və sənətçi ailələrinə həssas münasibət bəsləmiş, o cümlədən Səməd Vurğun, Rəsul Rza, İlyas Əfəndiyev ailəsində yetişən Yusif və Vaqif Səmədoğluları, Anarı, Elçini zamanında qiymətləndirmiş, yaradıcı potensialının üzə çıxmasına şərait yaratmışdır.

Elçin xatırlayır: "Səksəninci illərin lap əvvəllərində mənim "Literaturnaya qazeta"da bir məqaləm çap olunmuşdu. O vaxt "Litqazeta" bir ədəbi problem, yaxud əsər haqqında müxtəlif fikirlər verirdi. Mənim məqaləm də Yuri Boldırevin məqaləsi ilə yanaşı verilmişdi və onunla kəskin ədəbi mübahisə edirdim. Onda Həsən Həsənov Mərkəzi Komitənin ideoloji katibi işləyirdi və birdən-birə gecə mənə evə zəng elədi. Məlum oldu ki, Heydər Əliyev Soçidə (əgər səhv etmirəmsə) istirahət edir, məqaləni oxuyub və zəng eləyib bu barədə Həsən Həsənova ətraflı fikrini bildirib. Burada yəqin ki, fəxr

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 278

[2] Yenə orada, s. 278

elməli bir şey yoxdur, amma o var ki, cavan bir yazıçının, özü də sırf ədəbiyyat problemlərinə həsr olunmuş yazısı da diqqətdən (və maraqdan!) kənarda qalmırdı və bu diqqət "rəhbər diqqəti" yox, oxucu diqqəti idi..."[1]

Heydər Əliyevin Elçinə "rəhbər diqqəti", qeyd olunduğu kimi, 1975-ci ildən cəlb olunur. Elmira Axundovaya müsahibəsində Elçin deyir: "İmran müəllim Yazıçılar İttifaqının katibi olanda mənə katib vəzifəsini təklif etdi... O vaxt məni çox çap edirdilər, o cümlədən Moskvada da. 1972-ci ildə mən "Drujba narodov" jurnalının "Ən yaxşı ədəbi-tənqidi məqaləyə görə" mükafatını almışdım. İmran müəllimdə yeniliyə meyillilik var idi, o, konservativ əyalətçilikdən yaxa qurtarmaq, rəhbərlik üslubunu dəyişmək, Yazıçılar İttifaqına yeni ab-hava gətirmək istəyirdi. Əlbəttə, bu, Heydər Əliyevin təyinatı idi; sovet dövründə yaradıcı təşkilatların birinci katibləri məhz təyin olunurdular, – indi niyə gizlədək. Və mən düşünürəm ki, Heydər Əliyev onu təyin edərkən cavanların irəli sürülməsini, o cümlədən Yazıçılar Birliyi rəhbərliyinə cəlb edilməsini məsləhət görüb..."[2]

Müstəqillik dövründə də Ulu öndər Elçinə yaradıcı insan olaraq xüsusi münasibət bəsləmiş, bütün ədəbi-mədəni tədbirlərdə yaxın əhatəsinə daxil olan şəxs kimi, səmimiyyətlə, bir sıra vacib problemlərin həllində məhz ona müraciətlə sözünü demişdir. Belə münasibətdə uzun illər tanış olan, bir yerdə çalışan, bir amala xidmət edən ölkə rəhbəri və yazıçının əqidə birliyi aydın duyulur. Gənc yazıçılarla 29 oktyabr 1997-ci il tarixli görüşdə Heydər Əliyevin qəfil replikası yada düşür: "-İki-üç gün bundan öncə mənə bir kitab göstərdilər. Baxıram, kitabda Elçinlə, hansısa bir şairlə, daha kiminləsə mənim də şəklim var. Elçin o vaxt gənc idi, qara, qıvrım saçları vardı. Elçin, o şəkli görmüsənmi? Elçin: Görmüşəm. Nizami Xudiyevin kitabında verilib. Yeri gəlmişkən deyim ki, yaxşı kitabdır".[3] Yaxud M.Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının 1 avqust 1994-cü il tarixli ilk iclasında dəfələrlə Komissiya müavinlərindən məhz Elçin Əfəndiyevə üz tutması: "Nəşr məsələləri ilə əla-

---

[1] Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 234-235

[2] Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman. 6 cilddə. 2-ci cild, Bakı, Ozan, 2007, s. 233

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 396

qədar müxtəlif çətinliklərdən – kağızın çatışmamasından və sairdən söhbət getdi. Mən bunları sadalamaq istəmirəm. Elçin Əfəndiyevə tapşırıram ki, yubileyin keçirilməsi üçün smeta hazılasınlar. Orada, necə deyərlər, maksimum, orta və minimum xərclər nəzərdə tutulsun...”[1] və s. kimi onlarla misallar sadalamaq olar.

Heydər Əliyev müstəqillik dövrü iqtidarında Elçin Əfəndiyevə baş nazirin birinci müavini (mədəniyyət məsələləri üzrə) postunu etibar etmiş, ədibi bilavasitə dövlət və cəmiyyət quruculuğu proseslərinə cəlb etmişdi. Elçin xatırlayır: “Əlbəttə, o uzaq 69-cu ildə bütün fikri-zikri ədəbiyyata bağlı olan bir cavan kimi, mənim heç vaxt ağlıma gəlməzdi ki, SSRİ dediyimiz o nəhəng imperiya kartdan quraşdırılmış evcik kimi, tar-mar olacaq və yeni, müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevi mən yalnız bir yazıçı kimi kənardan yox, həm də həmin dövlətdə vəzifə tutmuş bir adam kimi yaxından müşahidə edə biləcəyəm...”[2]

Elçin Ulu öndər haqqında 1992 və 1995-ci illərdə “Dünya axirət əkini” və “Tarixlə üz-üzə dayanmış adam” adlı iki esse qələmə almış və məhz həmin “yaxından müşahidə”nin imkanlarından bəhrələnərək, Heydər Əliyevin, bir çoxlarının görə bilmədiyi, təkrarsız portret cizgilərini cızmağa müvəffəq olmuşdur: “Eyni zamanda Heydər Əliyev özü tarixi məsuliyyəti dərindən dərk edən bir şəxsiyyətdir. Bəzən mənə elə gəlir ki, yalnız mühüm qərarlar qəbul edərkən yox, adicə gündəlik qayğıların həllində də o, tarixi ona baxan, onun hərəkətlərini izləyən bir varlıq kimi yanında hiss edir. Elə bilirəm ki, təəssüratım məni aldatmır, belə də var, çünki söhbət daxilən zəngin və emosional, amma impulsivlikdən uzaq, ən gərgin çağlarda belə, özünü səfərbərliyə almağı bacaran, iradəli və qorxmayan, çəkinməyən, özünə inanan və öz böyük imkanlarını qiymətləndirməyi bacaran unikal bir şəxsiyyətdən gedir – müstəqil Azərbaycanı bu günün keşməkeşli yolları arasından magistral müəyyən edib bir dövlət kimi gələcəyə doğru aparan şəxsiyyətdən...”[3]

Dövlət adamı kimi birgə çalışmaqla yanaşı, Heydər Əliyev Elçinin bədii istedadına da həssaslıqla yanaşır, Azərbaycan xalqı qarşısında xidmətlərini mükafatlarla qiymətləndirməkdən əlavə, vaxt

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 208
[2] Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 239
[3] Yenə orada, s. 239-240

tapıb yaradıcılığına da maraq göstərirdi. 29 may 2003-cü il tarixində yubileyi münasibətilə "Xalq yazıçısı Elçin Əfəndiyevə təbrik məktubu" ünvanlaması, 2000-ci il 25 iyun günündə Ulu öndərin Elçinin "Ah Paris, Paris" komediyasının tamaşasına gəlməsi, tamaşadan sonra aktyorlarla görüşüb söhbət etməsi bunun bariz nümunəsidir.

Elçin yazır: "Dəfələrlə bunun şahidi olmuşam ki, Heydər Əliyev teatr tamaşalarına baxıb və qurtardıqdan sonra, səhnə arxasında yaradıcı kollektivlə görüş keçirib və heç bir mübaliğəyə yol vermədən deyim ki, yüksək səviyyəli professional sənətşünas kimi tamaşanın təhlilini verib. Orasının da şahidiyəm ki, həmin görüşlərdən sonra yaradıcı kollektivin həvəsi birə-on artırdı. Əsl sənət adamına, sənət kollektivinə nə lazımdır? İlk növbədə xalqın onun sənətinə qiymət verməsi, onu başa düşməsi. Xalqa rəhbərlik edən adam da qiymət verməyi bacarırsa, bu – əlbəttə, çox təqdir ediləsi cəhətdir..."[1]

Ulu öndər Heydər Əliyevin önəm verdiyi, yüksək qiymətləndirdiyi, inandığı və arxalandığı, eynən inamında yanılmadığı ədəbi şəxsiyyətlərdən biri, "60-cılar"ın birincisi Azərbaycan Yazıçılar Birliyinin sədri Anar olmuşdur. Anar Heydər Əliyevin maraq və diqqətinin mərkəzində olanda hələ Yazıçılar Birliyinin sədri deyildi, amma Ümummilli liderin nəzərində bu posta tam layiq idi. Yazıçıların 1981-ci il VII qurultayının kuluarlarını bir daha yada gətirsək, o zaman Mərkəzi Komitənin ideologiya üzrə katibi Həsən Həsənovun Anara söylədikləri buna şahiddir: "Qurultayda yaxşı danışdın – dedi – doğrudur, bu çıxış ədəbiyyatın vəziyyətinin obyektiv təhlilindən daha artıq sənin özünün ədəbiyyata baxışlarının ifadəsi idi. Amma sənə deməliyəm ki, Heydər Əliyeviç səni çox yüksək qiymətləndirir, belə lap yüksək. Açığı Heydər Əliyeviç də, mən də istəyirdik ki, İttifaqın rəhbəri sən olasan, amma ağsaqqallar hamısı bir ağızdan sənin əleyhinə oldular..."[2]

O zaman Respublikanın başçısı "60-cılar"ın lideri olaraq məhz Anarı görür və deyirdi: "Bu günlər mən bir çox yazıçılarla söhbət etmişəm. O cümlədən Sizin barənizdə də... Onların sizə münasibəti müxtəlifdir, amma hətta sizin və atanızın bədxahları da etiraf edirlər

---

[1] Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild, Bakı, Çinar-Çap, 2005, s. 235

[2] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 66

ki, siz ciddi yazıçısınız, geniş biliyə maliksiniz, iki dili də mükəmməl bilirsiniz...”[1]

Tədqiqatımızda dəfələrlə isnad etdiyimiz Anarın “Unudulmaz görüşlər” memuar-romanı bugünəcən “Heydər Əliyev və ədəbiyyat” mövzusunda ən mükəmməl mənbə hesab olunmalıdır. 2011-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev həmin əsəri Heydər Əliyev mükafatına layiq görmüşdür. Anar bir ədib və yazıçı kimi 1969-cu ildən, o cümlədən “Qobustan” jurnalının adı respublika rəhbərinin çıxışında səslənəndən daim Heydər Əliyevin diqqətində, marağında, nəzərləri altda, ən nəhayət yanında, müstəqillik savaşında bir cəbhədə olmuşdur. Ulu öndər müstəqillik illərində xatırlayırdı: “Yaxud götürək Anarı. O da dissident idi. Məsələn, “Qobustan” jurnalının yaranması və o jurnalın səhifələrində yayılan əsərlər, şübhəsiz ki, dissident xarakteri daşıyırdı... Mən həmin jurnalı o vaxtlar daim oxuyurdum, izləyirdim. Görürdüm ki, yaxşı yazılardır. Bu yazılar nə idi? Bizim milli mədəniyyətimizi, milli keçmişimizi, milli ruhumuzu o vaxtlar təbliğ edirdi. Bizim rəsmi jurnallardan fərqli olaraq, bu jurnal bunları təbliğ edirdi və insanlarda milli ruhu oyadırdı, öz tarixinə, öz keçmişinə, öz mədəniyyətinə hörmət və ehtiramı yaradırdı. Çünki o dövr belə idi – hesab edilirdi ki, Oktyabr inqilabına qədər heç bir şey olmayıbdır, hamısı Oktyabr inqilabından sonra olubdur. Bax, o illər bu cür oyanış bizim yazıçılarımızın çox əsərlərində olmuşdur. O cümlədən “Qobustan” jurnalında. Beləliklə, Azərbaycanda bu gənc insanlar həqiqəti deyirdi, düzü deyirdi və insanları həqiqətə çağırırdı...”[2]

“Qobustan” jurnalı, “Dədə Qorqud” kino-dastanı, “Şəhərin yay günləri” pyesi, “Uzun ömrün akkordları” filmi... – sovet dönəmində hər birisinin hadisəyə çevrildiyi bu sənət nümunələrinin cəmiyyətdə istinadgah tapması, yeriməsi, kütləviləşməsində Heydər Əliyev faktoru mühüm rolunu oynamış, təzyiqlərlə qarşılaşan yazıçı çətin anlarında Ümummilli liderin isti nəfəsini yaxında, dost əlini daim çiynində hiss etmişdir. “Şəxsiyyətin miqyası” essesində Anar etiraf edir: “Respublikada elə ab-hava yarandı ki, sənətə sənət meyarlarıyla qiymət verilməyə başlandı və bizdən yaşlı nəsil artıq müəyyən dərəcədə özünü təsdiq edib qoruya bilirdisə, bizim nəslin – 60-cı il-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 62

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 489-490

lər nəslinin də ədəbiyyata, kinoya, teatra, sənətimizin başqa sahələrinə gəlib öz sözünü demək imkanı yaranmışdı. Bu imkanı bizə Heydər Əliyev yaratmışdı və onun dəstəyini, yardımını başqa nəsildaşlarım kimi mən də daima hiss etmişəm..."[1]

1981-ci il qurultayındakı kuluar söhbətində Ümummilli lider "Şəhərin yay günləri"ni anaraq, yazıçı Anara uzaqgörənliklə görüşlər vəd vermiş: "Mən sizinlə elə o zaman görüşmək, bu barədə danışmaq istəyirdim, amma bilirsiniz də, çox məşğulam, vaxtım azdır. Əlbəttə, bu o demək deyil ki, gələcəkdə biz görüşə bilməyəcəyik..."[2] O zamandan Yazıçı və milli Liderin çoxsaylı görüşləri ən müxtəlif vaxtlarda və situasiyalarda baş tutmuş, Anar Heydər Əliyevi Moskvada vəzifədən getmiş çağlarında da uca və vüqarlı görmüş, Naxçıvanda çətin blokada şəraitində müşahidə edərkən, eynən heyrətini gizləməmiş: "Heydər Əliyev Heydər Əliyev idi. İstər Kremlin zirvəsində olsun, istər Naxçıvanda. Dəfələrlə onun yüksək rütbəli rus generalları ilə, vəzifəli şəxslərlə necə ötkəm danışdığının şahidi olmuşam. Bir neçə ölkəyə onunla səfərlərim zamanı müşahidə edirdim ki, ən böyük dövlətlərin başçılarıyla da eyni qürurla və məğrurluqla davranır..."[3]; 1993-cü ilin 20 sentyabr günündəki tarixi görüşdə Heydər Əliyevin Xilaskarlıq missiyasına şəksiz inamını da ziyalılar adından məhz Anar bəyan etmişdir.

Bununla belə, qətiyyətlə demək olar ki, Ulu öndər və Anar münasibətlərinin sürəkli təntənəsi müstəqillik dövrünə təsadüf edir. Ulu öndər Anarı müstəqil dövlət və mədəniyyət quruculuğunun ən ön sıralarında görür, irəli çəkir, dəyərləndirir. Ən mötəbər yubiley və mədəniyyət tədbirlərinin təşkilat tərəfləri, komissiyaları, prezidiumları Anarsız ötüşmür; ən mühüm dil, ədəbiyyat, mədəniyyət məsələlərinin həllində, qərarların hazırlanması və qəbulunda Anarın yeri və rolu görünür. Anar millət vəkili seçilir və Milli Məclisin Mədəniyyət məsələləri komissiyasına rəhbərlik edir. Beynəlxalq əlaqələr zamanı, əcnəbi ölkələrə bir çox səfərlərdə ölkə başçısı ilə birbaşa ünsiyyət yazıçıya Ulu öndərlə ideyalarını bölüşmək, onu yaxından seyr etmək və bu haqda yazmaq şərəfi və imkanı verir.

Heydər Əliyev Anarın müstəqillik illərində Azərbaycan yazıçılarının rəhbəri kimi, ictimai və mədəniyyət sahəsində ardıcıl fəaliy-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 37
[2] Yenə orada, s. 62
[3] Yenə orada, s. 86-87

yətini yüksək qiymətləndirir, X qurultay ərəfəsində yazıçılarla görüşündə deyir: "Mən hesab edirəm ki, Azərbaycanın Yazıçılar Birliyi bu altı il müddətində - keçən qurultaydan indiyə qədər çox iş görübdür. Yazıçılar Birliyini qoruyub saxlayıb, onun parçalanmasına, dağılmasına yol verməyibdir. Axı Yazıçılar Birliyi də böyük sınaqlardan keçib. Görürsünüz, bu altı ildə bizim Azərbaycanın başına nə işlər gəlibdir. Yazıçılar Birliyi də bütün imtahanlardan, sınaqlardan keçibdir. Ona görə də şəxsən mən belə hesab edirəm ki, bunu yüksək qiymətləndrmək lazımdır. Yazıçılar Birliyinə rəhbərlik edən şəxslərin fəaliyyətini yüksək qiymətləndirmək lazımdır..."[1]

Ulu öndər Anarın Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində layiqli yerini görür, təsbit edir və dəyərləndirirdi. 1998-ci ilin may ayında, müstəqillik dövründə ilklər sırasında ədibi "Xalq yazıçısı" adına layiq bilmiş, yenə də ilklər sırasında Vətənin ali – "İstiqlal" ordeni ilə təltif etmişdir. Anar "Unudulmaz görüşlər"də yazır: "Martın 14-də altmış yaşım tamam oldu. Heydər Əliyev məni o vaxt Azərbaycanın ən yüksək ordeni olan "İstiqlal" ordenilə təltif etdi. Mən bu ordenə layiq görülmüş səkkizinci şəxs və daha əvvəl təltif olunanların arasında (ölümündən sonra Xəlil Rza Ulutürk, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Mirvarid Dilbazi, Tofiq Quliyev, Mikayıl Abdullayev, Ömər Eldarov) ən "gənci" idim, əgər altmış yaşlı adama "gənc" demək mümkünsə. Amma mənimçün ordendən də dəyərli Heydər Əliyevin yubileyim münasibətilə mənə ünvanlanmış məktubu idi..."[2]

Ulu öndər "60-cılar" hərəkatının lideri Anarı yazıçı olaraq məxsusi qiymətləndirir, yaradıcılığına önəm verir, 60 illik yubileyi münasibətilə ünvanladığı təbrik məktubunda deyirdi: "Hörmətli Anar! Sizi – xalqımızın tanınmış yazıçısı, dramaturqu və ictimai xadimini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Siz 60-cı illərdə ədəbiyyatımıza yeni ab-hava gətirmiş yazıçılar nəslinin görkəmli nümayəndələrindən birisiniz. Müasirlərimizin zəngin mənəvi aləmini, qayğı və problemlərini yüksək bədii səviyyədə əks etdirən əsərləriniz daim ədəbiyyat həvəskarlarının diqqət mərkəzində olmuşdur. Bəşəriliklə milliliyin üzvi vəhdətini təşkil edən çoxcəhətli

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 410

[2] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 121

yaradıcılığınız cəmiyyətimizdə milli şüurun aşılanmasına və xalqımızın bir çox ölkələrdə tanınmasına xidmət etmişdir..."[1]

Heydər Əliyev hələ sovet dönəmində Anarı Azərbaycanın baş yazarı missiyasında görmək istəyirdi; yazıçı Anar müstəqillik illərində sürəkli olaraq və bu gün də layiqincə həmin arzuları gerçəkləşdirməkdədir.

***

Ulu öndər Heydər Əliyevin ədəbiyyata sevgisi, ədəbi mühitə qarşı son dərəcə həssaslığı, ədib və yazıçılara səmimi münasibəti, ehtiramı və qayğısı bütün ömür yolu və bioqrafiyasının zəngin faktları ilə təsdiq olunur.

Müstəqillik illərində, uzun illər fasiləsindən sonra Ulu öndər "Ədəbiyyatımızın yaşlı nəslinin nümayəndələri ilə Prezident Sarayında görüş"də həmin ali duyğularını belə ifadə etmişdir: "Bu gün buraya, bu salona Azərbaycanın ən mötəbər adamları toplaşıblar. Bu, tarixi bir hadisədir. Mənim üçün də tarixi hadisədir. Hər birimiz yaşayırıq, gedirik. Bəli, mən 1997-ci ildə, əsrin sonunda Azərbaycanın ən mötəbər şairləri, yazıçıları ilə görüşürəm. Bu, mənim üçün tarixi bir hadisədir..."[2]

Heydər Əliyevin xalqına, millətinə təmənnasız xidməti dahi şəxsiyyətin mənəvi keyfiyyəti, daxili tələbatının təzahürü olduğu kimi, ədəbiyyata münasibəti də eyni səciyyə daşıyırdı. O, daim içərisində olduğu, intişarına və inkişafına çalışdığı ədəbi mühitdən şəxsən özünə mənəvi zövqdən başqa nəsə ummurdu. Sovet dönəmində hətta SSRİ Yazıçılar İttifaqının fəxri üzvlüyünə təkliflərdən də imtina etdiyini artıq xatırlatmışıq. Lakin Ulu öndər 1998-ci ilin may ayında eyni təklifi Azərbaycan yazıçılarından məmnuniyyətlə qəbul edir; bu, Heydər Əliyevin milli ədəbi mühitlə doğmalığının daha bir faktı, təcəssümü idi.

Anar yazır: "May ayının 4-də Heydər Əliyevin 75 illiyi ərəfəsində Yazıçılar Birliyi katibliyinin və Ağsaqqallar Şurasının birgə iclasını keçirdik. İclası açaraq dedim ki, Heydər Əliyevin yazıçılara daimi qayğısı hamımıza yaxşı məlumdur. Bununla bərabər o, bizim

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 454

[2] Yenə orada, s. 381

qurultaylarda, müxtəlif beynəlxalq ədəbi tədbirlərdə, klassiklərimizin və müasir yazıçılarımızın yubileylərində çıxışlar edib və bunlar bir yerə toplansa, kitab halında çap olunsa, mötəbər bir ədəbiyyatşünaslıq əsəri alınar. Özü də yüksək professionallıqla söylənmiş və yazılmış ədəbiyyatşünaslıq əsəri. Ona görə də Heydər Əliyev Yazıçılar Birliyimizin Fəxri üzvü olmağa çoxdan layiqdir. Mirvarid Dilbazi, Hüseyn Abbaszadə, Məmməd Araz, Balaş Azəroğlu, Qabil, Fikrət Qoca, Ayaz Vəfalı, Abbas Abdulla, Fikrət Sadıq çıxış edərək bu təklifi dəstəklədilər.

Mayın 21-də, Prezident Heydər Əliyev məni, Fikrət Qocanı, Çingiz Abdullayevi, Arif Əmrahoğlunu qəbul etdi, onu ad günü münasibətilə təbrik etdik və Fəxri üzvlük kitabçasını təqdim etdik.

- Hətta kitabçası da var? – deyə Heydər Əliyev təəccübləndi və təşəkkürünü bildirdi. Aydın görünürdü ki, keçmiş Sovet İttifaqında, sonrakı dövrdə Türkiyədə, dünyanın bir sıra ölkələrində yüksək adlara layiq görülmüş prezidentimiz yazıçıların bir kiçik töhfəsindən də fərəhlənir..."[1]

Ulu öndər "Ədəbiyyatımızın yaşlı nəslinin nümayəndələri ilə Prezident Sarayında görüş"ün sonunda arzularını bölüşürdü: "Mən bu söhbətimizin sonunda ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim yazıçılarımız öz vətəndaşlıq borcunu daim layiqli yerinə yetirəcəklər, xalqla birlikdə olacaqlar, millətin qayğıları ilə yaşayacaq, yazıçıları öz ətrafında daim sıx toplayacaqlar..."[2]

Müdrik Rəhbər "Ədəbiyyatımızın gənc nəslinin nümayəndələri ilə Prezident Sarayında görüş"ün sonunda tövsiyə edirdi: "Xalqımızı hansı yolla aparmaq, cəmiyyətimizdə olan nöqsanları aradan götürmək, cəmiyyətimizi təmizləmək, daha da saf etmək, ayrı-ayrı çirkin hallardan xilas etmək – bütün bunlarda ədəbiyyatın, bədii sözün imkanları da, gücü də, təsiri də çoxdur. Ona görə də siz yazıçı kimi, şair kimi tək öz istedadınızı ifadə etmirsiniz. Siz eyni zamanda, millətə, cəmiyyətə xidmət edirsiniz. Ümidvaram ki, sizin bu xidmətiniz gələcəkdə daha da səmərəli, uğurlu olacaqdır..."[3]

Ulu öndər Heydər Əliyev Azərbaycan yazıçılarının X qurultayında çıxışına yekun vurarkən, milli ədəbiyyatın sabahına alqışlar

---

[1] Anar, Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s. 124

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 395

[3] Yenə orada, s. 411

diləyirdi: “Ancaq mən bu gün sizinlə bərabər keçirdiyim saatlardan, gündən çox razıyam və sizə təşəkkür edirəm ki, məni səbrlə, diqqətlə dinlədiniz. Mən də öz ürəyimdə olan sözləri sizə çatdırdım. Sizə can sağlığı arzu edirəm. Ədəbiyyatımıza yeni uğurlar arzu edirəm. Heç şübhə etmirəm ki, Azərbaycan ədəbiyyatı XX əsri uğurla sona çatdıracaq və XXI əsrdə dünya, bəşər ədəbiyyatına gözəl nümunələr verəcəkdir”.[1]

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 446

## BEYNƏLMİLƏL MƏFKURƏDƏN MİLLİ İDEYAYA DOĞRU
**(xarici ölkələr publisistikasında Heydər Əliyev obrazı)**

*(Filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənova)*

*"Kahraman olarak ölmek çok kolaydır,*
*mesele kahraman olarak yaşamasını bilmekdir"*
***Ziya Gökalp***

Son iki əsr əsasən "irqi, həm də sinfi başlanğıcın və amilin mütləqləşə bildiyi məzhəbçi, irqçi və "sinifçi" təlimlərin" (Y.Qarayev) formalaşdığı dövr olaraq xarakterizə edilir. "Onlardan birincisi "faşizm", ikincisi "bolşevizm" doktrinasında ifadəsini tapdı. Son iki əsrin ən böyük sosial, siyasi bəlaları, ideoloji kataklizmləri, hamısı öz qidasını bu təlimlərdən aldı: iki dünya müharibəsi, yüzlərlə inqilablar, həbs düşərgələri, hər cür totalitarizm və militarizm çeşidləri, daşnaqçılıq və sionizm, rasizm, dini fanatizm, Xokkaydo, Xirosima və Xocalı, Xatın, Baqanis Ayrım və s."[1] XX əsrin qüdrətli dövlətlərindən biri olan SSRİ-nin süqutu xarici siyasətçilərin, jurnalistlərin, tədqiqatçıların diqqət mərkəzindədir.

70 illik dövrün tədqiqi müasir ictimai fikri məşğul edən əsas mövzulardan biridir. Hər bir tanınmış şəxsiyyətin ömür yolu, tarixlə culğaşır. Siyasi xadimlərin həyatından bəhs edən kitablarda avtobioqrafik zamanın tarixi zamanla kəsişməsi yer alır. Bu səbəbdən hər bir ictimai siyasi formasiya ilə birgə dövrün siyasi liderlərinə də maraq artır. Heydər Əliyev haqqında yazılan bütün əsərlərdə eyni zamanda Sovet Azərbaycanının və müstəqil dövlətimizin tarixi əks olunmuşdur.

Yalnız öz xalqı tərəfindən deyil, dünya siyasətçiləri tərəfindən güclü şəxsiyyət olaraq qiymətləndirilən Ümummilli lider haqqında rus, türk, ərəb müəllifləri kitablar nəşr etdirmiş, çoxlu sayda müsahibə almışlar. Bu əsərlərdə o çətin anlarında xalqınayol göstərən xilaskar lider olaraq canlandırılmış, Mustafa Kamal Atatürk, Uinston Çörçil, Şarl de Qol kimi tanınmış şəxsiyyətlərlə eyni səviyyəli siyasətçi olaraq qiymətləndirilmişdir. Dünyaya açıq olması, xalqına,

---

[1] Qarayev Y. XXI əsr: Qlobal sivilizasiya və Şərq dəyərləri (Elmi forumun açılışında giriş nitqi) // Dirçəliş-XX əsr, 2001, №1-2, s.130

dövlətçilik ənənələrinə saygı ilə yanaşması, hər bir ölkə ilə əmək-daşlığa hazır olması dünya arenasında tanınmasına səbəb olmuşdur.

Ömrünün müəyyən hissəsini Moskvada yaşamış, qırmızı hö-küumətdə ən yüksək mərtəbəyə qədər ucala bilən Heydər Əliyev bu gün də Rusiyada, həmçinin bütün keçmiş postsovet məkanında tanı-nır və rəğbətlə anılır. Həmçinin SSRİ-dən kənarda, kommunist qu-ruluşuna zidd olan Türkiyə Cümhuriyyətində də Heydər Əliyevin adı ehtiramla çəkilir. Bu dahi şəxsiyyətin necə tanındığını aydınlaş-dırmaq üçün ölkə hüdudlarından kənarda çap olunmuş əsərlərin araşdırılıması zəruridir.

Əsərlərlə tanışlıq zamanı xarici müəlliflərin əsərlərindəki obra-zın əsasən Heydər Əliyevin məlum xarakter cizgiləri ilə üst-üstə düşdüyü bəlli olur. O, xarizmatik, eyni zamanda incə zövqlü bir in-san, güclü lider, həssas ailə başçısı və rəhbər olaraq təsvir edilir. Heydər Əliyevlə şəxsən tanış olan bir çox müəlliflər onun siyasi portretini yaratmaqla yanaşı, şəxsi keyfiyyətlərindən də geniş bəhs etmişlər. Xarici görkəmi, ünsiyyətcil və tələbkar olduğu, uşaqlıq il-lərindən hər kəsdən müsbət keyfiyyətləri ilə fərqləndiyini vurğula-mış, məktəb illərində sinif yoldaşları tərəfindın general adlandırıl-ması, sonrakı dövrlərdə boz siyasi elitadan seçildiyi xüsusi qeyd olunmuşdur. Zəngin tarixi keçmişi olan doğma şəhəri və mehriban ailə mühiti onun Vətəninə, millətinə bağlı insan olaraq formalaşma-sına xidmət edib. İllərlə başqa xalq arasında yaşayıb fəaliyyət gös-tərməli olsa da, milli köklərindən uzaqlaşmamışdır. Yad, əsasən so-yuq münasibətlərin hökm sürdüyü Moskva siyasi mühiti onun in-sanlara qarşı inamsızlığına, hər şeydən şübhələnməsinə səbəb olma-mışdır. Mürəkkəb və şərəfli ömür yolunda insanlara olan inamını axıra kimi qoruyub saxlaya bilmişdir. Ümummilli liderin insan ola-raq gücü də məhz bu xüsusiyyətində idi. O daim, ötənləri unudaraq (A.Mütəllibova, S.Hüseynova, Ə.Hümmətova və b. olan münasibə-ti) vətəninin rifahı naminə hər kəslə əməkdaşlıq etməyə hazır olmuş (AXC ilə danışıqları), ən çətin situasiyaları danışıqlar vasitəsilə ara-dan qaldıra bilmişdir.

Hər bir bioqraf qəhrəmanının məlum portretini, haqqında mə-lum olan faktları daha da zənginləşdirərək, həyatı və fəaliyyəti ilə bağlı az müraciət olunan sahələr haqqında məlumatı dolğunlaşdır-mağa, yanlış məlumatları təkzib etməyə çalışır.

Heydər Əliyevlə bağlı olan bütün əsərlərdə üzvü olduğu sistemin mürəkkəbliyinə və amansızlığına, qarşılaşdığı bütün çətinliklərə baxmayaraq öz vəzifəsini vicdanla icra edən, basqılara rəğmən milli mənsubiyyətinə hədsiz bağlı olan insanın əzmi və iradəsi xüsusi rəğbətlə təsvir olunmuşdur. Qüdrətli imperiyanın gizli həyatını əks etdirməyə çalışan müəlliflər intriqalar, mənəvi təyziq və daimi nəzarət, silahdaşların bir-birinə qarşı qərəzli münasibətinin təsvirinə geniş yer vermişlər.

Tarixi təcrübə yaxşı insan və güclü lider keyfiyyətlərinin bir arada nadir hallarda mövcud olduğunu göstərir. Bəzən siyasi xadimlərin fiziki və mənəvi keyfiyyətləri onların özünü realizə etməsinə maneçilik törədir. Güclü rəhbər və ideoloqların tarixçilər tərəfindən qəddar insanlar olaraq xatırlandıqları görünür. Onların idarəetmə bacarığı qibtə doğursa da, insani keyfiyyətləri onlara qarşı inamın və rəgbətin azalmasına səbəb olur. XX əsrin ən ziddiyyətli siyasi lideri olan Stalini xarakterizə edən müasirlərindən biri yazır: "Cəllad olduğu üçün mən ona nifrət edirəm... lakin hakimiyyət nümayəndəsi kimi, mən ona həmişə valeh olmuşam".[1] Bu sıraya bir çox siyasətçilərin adlarını əlavə etmək olar. Heydər Əliyev obrazı isə milyonlarla insanın yaddaşına qayğıkeş, səmimi insan, eyni zamanda güclü strateq və lider olaraq həkk olunmuşdur.

Con Kennedinin xarici görünüşü, nitqi, özünü ifadə bacarığı – "Soruşma ki, ölkən sənin üçün nə edib, soruş ki, sən ölkən üçün nə etmisən?" və ya "Amerika üçün ən ümdə olan nədir?" sualına üç dəfə "Ameikanın maraqları" – söyləməsi ilə milyonların hafizəsində əbədi yaşayır. Lakin onun fiziki cəhətdən zəifliyi ona siyasi karyerasında daim maneələr yaratmışdır. Dəfələrlə ölümlə üz-üzə qalan siyasətçi ömrü boyu səhhəti ilə sınağa çəkilib. Heydər Əliyev obrazı isə fiziki və mənəvi xüsusiyyətlərin uğurlu bütövlüyü ilə yadda qalırdı. Onun fiziki hazırlığı hər kəsdə qibtə doğururdu. Haqqında yazan müəlliflərdən hər biri Ümummilli lideri insan, siyasətçi və dövlət xadimi olaraq təsvir etməyə çalışmış, iş başında təsvir edərək iş rejimini, problemlərə yanaşma tərzini, həyat prinsiplərini, əleyhdarlarına olan münasibətini göstərmiş, ailəsi ilə münasibətlərindən bəhs etmişlər.

---

[1] Авторханов А.Г. Мемуары. – Франкфурт на Майне: Посев, 1983. – с. 765

Heydər Əliyevə sovet məmuru mövqeyindən Milli Respublikanın rəhbəri vəzifəsinə kimi mürəkkəb bir tale yaşamaq nəsib olmuşdur. Onun karyerasının ən mühüm illəri, siyasətçi olaraq formalaşması sovet illərinə təsadüf edir. Ümummilli lider haqqında bəhs edən xarici müəlliflər əsasən siyasi xadimin Leninin beynəlmiləlçi ideyalarından milli ideyaya doğru təkamülünü izləməyə çalışmışlar. Uzun illər ərzində hər bir sovet vətəndaşı Leninin ideyaları və marksist-kommunist ideologiyasının təsiri altında formalaşırdı. Bu prinsiplər hər bir sovet insanı üçün əsas yaşam meyarları idi. Lakin zaman keçdikcə sistem özünü doğrultmadıqca ilk olaraq hakimiyyətin içində olan insanlar vədlərin xülya olaraq qaldığını hiss etdikdə etirazlarını bildirərək sistemdən uzaqlaşmağa çalışırdılar. Siyasi quruluşu qəbul etməyən bu insanlar nəticədə sistemin qurbanlarına çevrilirdilər. Sistemin qurbanları isə yüz milyonlarla idi. Nəriman Nərimanov, Sultan Qaliyev, Turar Rıskulov kimi siyasi xadimlərlə yanaşı milyonlarla adi vətəndaşlar... 1990-cı illərdə sistemin iflasını duyaraq sıraları tərk edənlərlə mücadiləyə son nəfəsini yaşayan dövlətin sadəcə gücü qalmadı. Onun beynəlmiləlçi siyasətçidən milli ideyaya doğru yolundan bəhs edən müəlliflər XX əsrin sonlarında sovet cəmiyyətinin Şarl de Qolun "milli amilin bütün digər ideyalar, nəzəriyyələr, şüar və prinsiplərdən öndə olduğu barədə fikrini özü üçün yenidən kəşf"[1] etdiyini qeyd edirlər.

Milli ideyaya bağlılıq faktoru əsas amil olaraq bütün müəlliflərin əsərində qırmızı xətlə keçir. "Bəli tarix göstərdi ki, milli ideya bir çox başqa mətləblərdən daha önəmlidir. Realist siyasətçi Heydər Əliyev üçün buradan bir qənaət hasil olunurdu: dövlətin qurtuluşu eyni zamanda millətin qurtuluşudur".[2] Eyni məqam N.Zenkoviçin kitabında da vurğulanır: "İnsan yalnız öz vətəni haqqında düşünməlidir, - o vaxt Nina Teymurazovna (L.Beriyanın xanımı (L.H.) mənə belə dedi. - Heç bir başqa xalq onun əməyini qiymətləndirməz. Cuqaşvili-Stalini, Orconikidzeni, Çxeidzeni, Seretelini, Yenukidzeni, Qeqeçkorini, Beriyanı və gürcü mənşəli bir çox digər sovet xadimlərini götürün. Onlar qəlbən inanırdılar ki, Yer üzünün bütün xalqlarının xoşbəxt gələcəyi uğrunda, nəcib bir məqsəd naminə mübarizə aparırlar. Axırı nə oldu? Onlar nə öz Vətəninə, nə də xalqına gərək

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.6

[2] Yenə ordada, s.6

olmadılar. Başqa xalqlar isə onların əməyini rədd etdilər. Axırı bu oldu ki, bu gürcülərin hamısı vətənsiz öldü..."[1] Bu fikri davam etdirən publisist yazır: "Onun sadaladığı gürcülər ilə eyni taleni sovet dövründə çox məşhur olan ermənilər və azərbaycanlılar, beloruslar və ukraynalılar, qazaxlar və latışlar da yaşadılar. Beynəlmiləlçi qəhrəmanların istər Moskva şəhərində, istərsə də tarixi vətənlərində ucaldılan abidələri uçurulmuşdur. Təkcə küçələr, meydanlar və stadionlar deyil, şəhərlər də yeni (yox, köhnə!) adlar almışdır. Əvvəl büt kimi pərəstiş edilənlərin muzeyləri bağlanmışdır. Doğrudan da, böyük ideyanın həyata keçirilməsi uğrunda mübarizə alovlarında yanıb kül olmuş insanların əməyi heç kəsə - nə Moskvaya, nə də onların kiçik Vətəninə gərək olmamışdır..."[2]

Hər bir bioqraf qəhrəmanının həyatının əsas məqamlarını təsvir edir. Heydər Əliyevin həyatını aşağıdakı mərhələlərə bölmək olar:

1) Uşaqlıq dövrü
2) Dövlət təhlükəsizliyi orqanlarında fəaliyyəti (1944 -1969). Azərbaycan SSR DTK rəhbəri (1967-1969)
3) Azərbaycan KP MK-nın birinci katibi (1969-1982)
4) Moskvada işlədiyi illər (1982-1987)
5) Moskva blokadasında (1987-1990)
6) Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri (1991-1993)
7) Müstəqil Azərbaycanın prezidenti (1993-2003)

İnsanın şəxsiyyət olaraq formalaşması uşaqlıq dövründən başlayır. Zəhmətkeş, böyük və mehriban bir ailədə dünyaya göz açan Heydər Əliyev hər zaman uşaqlığından məhəbbətlə bəhs etmişdir. Həyatının ən çətin məqamlarında ona dayaq duran doğma məmləkətinə və yaxın insanlarına bağlılığını ömrünün sonuna kimi davam etdirmişdir. Hakimiyyətdə olduğu bütün dövrlərdə xalqının inamını hiss etmiş, xalqına arxalanmışdır.

Onun doğulduğu məkan Azərbaycanın ən dilbər guşələrindən biridir. Tarixi abidələrlə zəngin, ədəbiyyat, sənət oylağı olan, qədim milli ənənələrin min illərdən bəri qorunub gələcək nəsillərə ötürüldüyü Naxçıvan torpağının abidələrindən ilhamlandığı, bu səbəbdən

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s.196
[2] Yenə orada, s.198

memar olmaq istədiyi hər bir bioqraf tərəfindən xüsusilə qeyd olunur.

***

"... gələcək nəsillərin yaddaşında həmişəlik qalan milli lider köhnə ehkamlara üstün gəlməkdən başlanır.

... Aleksandr Nevski və Dmitri Donskoy, türklərdə Atatürk, azərbaycanlılarda Heydər Əliyevdir. Əlbəttə, onların bir sıraya qoyulması şərti xarakter daşıyır, çünki ayrı-ayrı tarixi dövrlərdə yaşamış və müxtəlif metodlarla hərəkət etmişlər. Lakin onların hamısını birləşdirən cəhət budur ki, hər biri öz torpaqları, milli dövlətçiliyi üçün müstəqilliyə nail olmuşdur"

***

*"Onu əbəs yerə bütün türk dünyasının böyük oğlu adlandırmırlar. "Azərbaycan bizim doğma torpağımızdır, biz hamımız gözəl Vətənimizin tərəqqisi naminə çalışmalıyıq". Bu sözlər Heydər Əliyevin bütün çıxışlarında açıq-aydın görünürdü. Bu sözlər bütün azərbaycanlıların ürəklərində öz parlaq əks-sədasını tapırdı. Əliyev həmişə vurğulayırdı: mən fəxr edirəm ki, azərbaycanlıyam!*

*Bu gün isə tam əsasla deyirik: o, böyük azərbaycanlıdır!"*

***Nikolay Zenkoviç***

"Heydər Əliyev. Tale yolları" kitabında Ümummilli liderin həyatını bütövlükdə əhatə etməyə çalışan Nikolay Zenkoviç qəhrəmanının yaşadığı dövrü, içtimai mühiti, müasirlərini mümkün qədər geniş şəkildə göstərməyə çalışmışdır. Zəngin tarixi materialı ehtiva edən kitabda SSRİ-nin, Sovet Azərbaycanının və müstəqil Azərbaycanın tarixi əks olunmuşdur.

Çox zaman xarici müəlliflərin özlərinə yad olan xalq, digər millətin nümayəndəsi haqqında yazılarında həmin millətin ruhunu, milli heysiyyatını nəzərə almadıqları, qəhrəmanın mənəvi dünyasına, yaşadıqlarına baş vura bilmədikləri sezilir. Fərqli mentallıq, dünyabaxışı anlaşmada müəyyən sədlər yaradır.

Son illər rus müəllifləri tərəfindən qələmə alınan Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev haqqında kitabların fərqi və özəlliyi ondadır ki, bu kitablarda xalqımızın zəngin tarixi yolunu əks etdirən yazarlar, xalqımızın ədəbi, maddi-mənəvi mədəniyyətimizin dərinliklərinə vararaq, tanınmış şəxsiyyətlərimizin yetərincə dolğun və monumental obrazlarını canlandırmağı bacarmışlar.

Azərbaycan xalqının tarix boyu qarşılaşdığı fitnə-fəsadlardan bəhs edən N.Zenkoviç 1919-cu ildə Zəngəzurda baş verən hadisələrdən bəhs edərək yazır: "Belarus üçün Xatın, çex üçün Liditse, polyak üçün Treblinka nədirsə, azərbaycanlı üçün də Zəngəzur odur. Bunlar milli hüzn, sağalmayan yaralar, əzab və iztirab rəmzləridir".[1]

Rusiyalı yazıçı, tarixçi, publisist Nikolay Zenkoviç 30-dan çox kitabın müəllifidir. Yazıçı-publisist Boris Yeltsın ("Борис Ельцин. Разные жизни" в двух томах), Mixail Qorbaçov ("Михаил Горбачев. Жизнь до Кремля"), Vladimir Putin ("Путинская энциклопедия. Семья. Команда. Оппоненты. Преемники") haqqında kitablar, Lenin, Stalin, Xruşşov və başqa siyasi xadimlər haqqında tarixi xronikalar qələmə almışdır. 2006-cı ildə Moskvada Nikolay Zenkoviçin Azərbaycan xalqının Ümummilli liderinə həsr etdiyi "Heydər Əliyev. Tale yolları" kitabının təqdimatı keçirilmişdir. Sonradan kitab Azərbaycan, ingilis, fransız, belarus və s. dillərə tərcümə edilərək müxtəlif ölkələrdə nəşr edilmişdir. Kitabda həm xalqımızın liderinin obrazı, həm də tarixi gerçəklik faktlar əsasında obyektiv şəkildə işıqlandırılmışdır.

2005-ci ildə Bakıda Ümummili liderin qəbrini ziyarət edərkən xalqının liderinə olan münasibətindən ilhamlanan müəllif onun haqqında kitab yazmaq qərarına gələn həmin günü bu cür xatırlayır: "Heydər Əliyevlə üçüncü görüşüm 2005-ci il dekabrın 12-də Bakıda oldu. Mən artıq dövlət qulluğunda deyildim. Heydər Əliyevi Fəxri Xiyabandakı xatirə kompleksində Azərbaycan xəritəsinin fonunda gördüm... Daşdan yonulmuşdu, elə bil, canlı idi.

O gün mən onun xatirəsini yad etməyə gəlmiş sonsuz insan selini seyr edərkən Heydər Əliyevin Azərbaycan xalqı üçün kim olduğunu anladım. Elə o gündən onun özü və zəmanəsi haqqında öz sözümü demək fikrinə düşdüm".[2]

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı,"Azərbaycan" nəşriyyatı, 2007, s. 421

[2] Yenə orada, s. 7

İlk olaraq əsasən özünə bəlli məkanda – Rusiyada baş verən hadisələrdən bəhs edən müəllif, Heydər Əliyevlə müxtəlif illərdə baş vermiş görüşlərini xatırlayır.

Sovet dövründə Heydər Əliyevin fəaliyyətindən bəhs edən yazarlar onun ölkə miqyasında baş verən faciələr zamanı ən kritik anlarda situasiyanı düzgün qiymətləndirmək və qısa zamanda qərar vermək qabiliyyətini xüsusi vurğulamışlar. Ona ölkənin ən mühüm sahələri tapşırılır və qısa müddətdə Heydər Əlirza oğlu həmişə vəziyyətdən ən optimal çıxış yollarını müəyyən edə bilirdi. Naximov gəmisi ilə bağlı faciə zamanı, Bamın tikintisində iştirakı müxtəlif illərdə onunla çalışmış insanlar tərəfindən vurğulanır.

Heydər Əliyev haqqında yazılan bütün əsərlərdə, məqalələrdə onun 1986-cı ildə Semes buxtasında "Pyotr Vasyov" yük gəmisi ilə "Admiral Naximov" teploxodunun toqquşması nəticəsində baş verən, yüzlərlə insanın ölümünə səbəb olmuş hadisənin araşdırılması ilə bağlı hökumət komissiyasının rəhbəri olaraq fəaliyyətindən bəhs olunub. İlk dəfə faciə ilə bağlı işçi qrupun heyətində olarkən Heydər Əliyevlə birbaşa təmasda olan müəllif onu qarşılaşdığı digər rəhbər işçilərlə müqayisə edərək yazır: "Hazırladığım müraciətin mətnini Heydər Əliyev diqqətlə oxudu. Sonra düzəlişlər etməyə başladı. Bu, mənə qeyri-adi göründü. Adətən, onun səviyyəsində olan rəhbərlər qollarını çırmayıb mətnin üzərində işləməyi, üstəlik, mətnə bütöv cümlələr əlavə etməyi özlərinə rəva görməzdilər. Heydər Əliyev isə mənim cümlələrimi səylə pozub yenidən yazır, mətni gücləndirir, MK-nın sahə şöbələrinin sırıdıqları istehsalat terminlərini və digər texniki məfhumları ataraq ona siyasi ahəng verirdi.

Etiraf edim ki, onun məsələyə bu cür yanaşması xoşuma gəldi. İş çox vaxt aparmadı. Bir saatdan sonra düzəlişlər edilmiş və tamamlanmış, elə orada, katiblikdə yenidən makinada yazılmış mətnə Heydər Əliyev viza qoydu. Müraciət Siyasi Büronun iclasında bəyənildi və Sov.İKP MK-nın İnformasiya bülletenində dərc edildi".[1] Bu xarakteristikadakı əsas xüsusiyyət- Heydər Əliyevin standart sovet elitasından fərqli olması, səriştəsi, bacarığı, səmimiyyəti ilə hər kəsdə heyrət doğurması kimi keyfiyyətlər onun portretinin əsas cizgilərini ehtiva edir. Müəllif, həmçinin faciə zamanı orda olan insanlar,

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 5

onun böyük fədakarlıqla işlədiyini, çətinliklərə sinə gələrək öz borcunu vicdanla yerinə yetirdiyini qeyd etmişlər.

N.Zenkoviçin Ümummilli liderlə ikinci görüşü 2002-ci ilə təsadüf edir. "2002-ci ilin yazıdır. Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının nümayəndə heyəti Bakıdadır. Azərbaycan Respublikasının Milli Məclisində, Slavyan Universitetində görüşlərimiz olub. Xəbər verirlər ki, günortadan sonra nümayəndə heyətini Prezident Heydər Əliyev qəbul edəcəkdir.

Prezident sarayına gəlirik. Heydər Əliyev Rusiyanın nümayəndə heyətini salamlayır. Yenə o vaxtkı kimi bərk-bərk əlimi sıxır, həminki kimi diqqətli, iri nəzərlə gözlərimə baxır.

Biz ki tanışıq! – deyir mənə. – Doğrudur, görüşümüz kədərli hadisə ilə bağlı idi...

Necə də güclü yaddaşı vardı! O, Kremldəki kabinetində birgə keçirdiyimiz bir saatı unutmamışdı! Neçə-neçə başqa görüşlər, tanışlıqlar, yanına gəlib-gedənlər olmuşdu. Amma məni yadında saxlamışdı...

Əlbəttə, mən çox məmnun olmuşdum. Həm ona görə ki, belə bir insan məni hafizəsindən çıxarmamışdı, həm də bunu bütün Rusiya nümayəndə heyətinin və heyətə rəhbərlik edən parlamentin yuxarı palatası sədrinin yanında qeyd etmişdi. *Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi"( kursiv məqalə müəllifinindir).*[1] Müxtəlif memuarlarda, bioqrafik əsərlərdə yer alan təkrarlar qəhrəman və təsvir olunan hadisələr haqqında qanaətlərin təsdiqlənməsinə, dolğunlaşmasına səbəb olur. Tarixə nəzər salsaq, daimi keyfiyyətləri ilə seçilən liderlərə az təsadüf edilir. Zamanla, ictimai mövqedə yüksəldikcə çox zaman məmurlarda müəyyən mənfi keyfiyyətlər formalaşır. Müraciət etdiyimiz iki epizod arasında on ildən artıq müddətin keçməsinə baxmayaraq, yazarı illər öncə qarşılaşdığı insanın zamanla dəyişməməsi heyrətləndirir.

Hər dövr öz qəhrəmanlarını yetişdirir. Bu baxımdan müasir dövrdə yeni siyasətçi tiplərinin – siyasi–oyunbaz (политик-игрок), siyasi təlxəklərin formalaşdığı qeyd olunur (политика-шута).[2] Haq-

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 5-6

[2] Матвеева Л.В., Замская М.Д. Роль журналистики в трансформации образа политика в современном мире // Солганик Г.Я. Язык СМИ и политика. М. Издательство Московского университета; Факультет журналистики МГУ имени М.В.Ломоносова, 2012

qında yazılan kitablarda Heydər Əliyev konservativ siyasətçi – DTK qeneralı, ciddi, işgüzar insan olaraq xarakterizə edilir. DTK məktəbini görmüş qüsursuz sistem işçisi obrazı daxilən zəngin, duyğusal, həssas insan olaraq canlandırılır. Xarakterindəki konservativlik onun ənənəyə, kökə bağlılığını təmin edir. Hər kəs onun sistem tərəfindən "vintciyə" çevrilmiş sıradan bir çekist olmadığını vurğulayır, incəsənətə vurğunluğu, insanlara bağlılığı xüsusi qeyd olunur. Xarakterində uşaqlıqdan büruzə verən bu xüsusiyyətlər onu zəngin mənəvi aləmə malik bir insan olaraq xarakterizə edir. Heydər Əliyev bütün kriteriyaları ilə "ideal siyasətçi" obrazını ifadə edir. Onunla bağlı müxtəlif xatirələrə nəzər salsaq onun hər bir tarixi şəraitdə stabil mövqe nümayiş etdirərək tutduğu mövqedən, mühitdən asılı olmayaraq öz prinsiplərinə sadiq qaldığı görünür, özünə qarşı tələbkarlığı, qayğıkeşliyi, yüksək estetik zövqü, insani keyfiyyətləri qabardılır.

Kitabın "Heydər Əliyev və Sov.İKP" adlanan ilk fəslində Heydər Əliyevin həyatının ən məsuliyyətli addımı- Sov.İKP-dən çıxması səbəbləri üzərində düşüncələrə dalan yazıçı, baş verənləri nəql etməklə kifayətlənməyərək, Heydər Əliyevin özünün obrazını canlandıraraq, onu bu mühüm addımı atmağa vadar edən səbəblərdən bəhs etmişdir. Sov.İKP-nin 74 illik tarixi ərzində partiyanı könüllü tərk edən dörd nəfərin taleyini əks etdirən N.Zenkoviç, bu mühüm addımı atmağa vadar edən səbəbləri araşdırmış, BorisYeltsinin, Eduard Şevardnadzenin, A.Yakovlevin portretləri üzərində geniş dayanmışdır.

Həmin illərdə Sov.İKP MK-nın İdeologiya şöbəsində çalışan müəllif sovet hakimiyyətinin süqutu səbəblərindən geniş bəhs etmişdir. Qəhrəmanının ömür yolunu böyük dövlətin süqutu illəri ilə paralel olaraq təsvir edən publisist dövrü bu cür qiymətləndirmişdir: "O vaxt biz özümüzəməxsus başqa bir koordinatlar sistemində yaşayırdıq. Elə Çernyayev də qurultaydakı əhvalatı (B.N.Yeltsinin XXVIII qurultayda partiyadan çıxdığına dair bəyanat verməsi – L.H.) iki liderin şəxsi ədavəti, rəqabəti kimi izah etmişdi. Ertəsi gün xarici mətbuatın növbəti icmalını gətirib stolumun üstünə qoydular. Mənə zəng vurmuş jurnalistin məqaləsi gözümə dəydi. Qəzeti açıb oxuduqda gözlərimə inanmadım. Məqalədə Yeltsinin Sov.İKP damının altından çıxardığı dirək "çürük" adlandırılmışdı. Hirsimdən nə edəcəyimi bilmirdim.

İndi, üstündən bu qədər ötəndən sonra o qiymət daha qeyri-obyektiv görünmür və xüsusən, iftira təsiri bağışlamır. Yəqin, Köhnə meydandakı binalar kompleksində qürurla əyləşən bizlər çox şeyləri bir cür görürdük, kənardan baxanlar isə tamam başqa cür".[1] Və ya "Zavallı rusiyalılar! Yalan-doğru o qədər güclü informasiya axını, o qədər ziddiyyətli məlumat seli ilə qarşılaşıblar ki, həqiqətin harada, yalanın harada düzün hansı tərəfdə, əyrinin hansı tərəfdə olduğunu dəyişik salıblar, bunları bir-birindən seçmək bir çoxları üçün müşkülə çevrilib"[2] kimi fikirlərdə ötənlərin bu gün müstəvisindən qiymətləndirilməsi yer almışdır. Dövrün ziddiyyətli olduğunu qeyd edən N.Zenkoviç nə baş verdiyini aydınlaşdırmaq məqsədi ilə həmin illərdə partiya sıralarında çalışmış insanlara müraciət etmiş, kitabını onların xatirələrinə istinad üzərində qurmuş, Heydər Əliyevin partiyanı tərk etməsinin hər üç şəxsdən fərqli olduğunu vurğulamışdır: "Partiyanı, belə deyək, könüllü-məcburi tərk etmiş B.N.Yeltsinin, E.A.Şevernadzenin və A.N.Yakovlevin, kommunist dövrünün son mərhələsinin bu üç yüksək-vəzifəli xadiminin yanında Heydər Əliyevin şəxsiyyəti tamam başqa cür görünür. Bəri başdan qeyd etməliyəm ki, "könüllü-məcburi" ifadəsinin ikinci hissəsi ona heç cür aid edilə bilməz. Bayaqdan haqqında söhbət gedən üç nəfərdən onun birinci və başlıca fərqi də məhz budur".[3]

Heydər Əliyevin partiyadan uzaqlaşması səbəblərini araşdıran müəllif Siyasi Büronun iş mexanizmini təsvir edərək, mühitin daxili "mətbəxini" üzə çıxartmağa çalışmışdır. Öz versiyasını şərh etməyə çalışan publisist, bu zaman "bioqrafik materialların öyrənilməsinə və təkamülün baş verdiyi konkret ictimai-siyasi şəraitin təhlilinə" əsaslanmış,[4] təcrübəli siyasətçinin hadisələri qabaqcadan qiymətləndirmə bacarığını xüsusi dəyərləndirmişdir. "Dünyada heç bir xalq sovet xalqı qədər öz rəhbərindən asılı deyildi. Hər baş katib Kremlə gələn kimi əvvəlki həyatı sındırıb yenisinin, əlbəttə, xoşbəxt həyatın başlandığını elan etməyi özünə borc bilirdi. Əslində isə hakimiyyət daim insanların həyatını əzib-dağıdır, alt-üst edirdi. Əvvəlcə adamlara bəzi güzəştlər verir, sonra isə qazandıqlarının hamısını əllərindən alırdı. 1917-ci ildə bolşeviklər kəndlilərə guya torpaq vermiş,

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 13
[2] Yenə orada, s. 17
[3] Yenə orada, s. 32-33
[4] Yenə orada, s. 234

özlərinin nəzəriyyəçisi Buxarinin dili ilə "varlanın" demiş, sonra isə ən zəhmətkeş kəndliləri soyub lütləmişdi. Kollektivləşmə, sənayeləşmə, səfərbərlik, demokratikləşmə..."[1]

"Qarabağ düyününə və Siyasi Büronun bu düyünü necə açmağa çalışdığına aid qeyd"lərə istinad edən müəllif yeni materialın "problemə başqa yöndən baxmağa imkan yaradacağına" ümidvar olduğunu bildirir. Hər kəsə məlum hadisələr haqqında yeni faktlardan bəhs etməyə çalışan Zenkoviç 20 Yanvarla bağlı yeni faktlardan bəhs etmiş, Qarabağ konfliktinin ilkin mərhələdən başlayaraq getdikcə mürəkkəbləşən dinamikasını izləməyə çalışaraq həmin dövrdə Siyasi Büronun üzvü, RSFSR Nazirlər Sovetinin Sədri vəzifəsini yerinə yetirmiş Vitali İvanoviç Vorotnikovun gündəliklərini mətnə daxil etmişdir: "Onun hadisələrə verdiyi qiymət obyektivdir, çünki hadisələrə bir növ kənardan, mərkəzi hakimiyyətin gözü ilə deyil, digər müttəfiq respublikanın, – doğrudur, ən iri respublikanın – rəhbərinin nəzəri ilə baxırdı".

DQMV ilə bağlı tarixi faktlardan bəhs edən N.Zenkoviç ölkəmizin son illər yaşadığı faciələrlə bağlı bir çox konkret faktlardan bəhs etmiş, xalqımıza qarşı qəsdlər törədən şəxslərin adlarını çəkməkdən çəkinməmişdir: "1999-cu ildə keçmiş SSRİ daxili işlər naziri Vadim Bakatinin "Keçmişin yolu" ("Дорога в прошедшем времени") kitabı çapdan çıxmışdır. O yazır ki, Sumqayıt faciəsi təşkil edilmişdi, lakin iradəsiz Qorbaçov bu faciəyə siyasi və hüquqi qiymət vermədi".[2] "Volskinin idarəçiliyi Dağlıq Qarabağın Azərbaycandan qoparılmasını tamamilə təmin etmişdir".[3] "Burada Polyaniçko dedi ki, Dağlıq Qarabağın itirilməsinə Qorbaçov şərait yaratmışdır. Etiraf etməliyəm ki, mən də bu cür düşünürəm. Ölkənin rəhbəri Qorbaçovun bu məsələdə Azərbaycana qarşı tutduğu xəyanətkar mövqe tamamilə açılıb göstərilməli və bu, bizim tariximizdə əks olunmalıdır..."[4]

Qarabağ hadisələri ilə bağlı İttifaq Mərkəzinin Azərbaycanla bağlı siyasətinin obyektiv olmadığını qeyd edən müəllif, M.Qorbaçovun fərmanı ilə SSRİ DİN və DTK -ya həvalə olunmuş, fövqəladə

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 240
[2] Yenə orada, s. 177
[3] Yenə orada, s. 215
[4] Yenə orada, s. 190

vəziyyət rejiminin təmin edilməsində iştirak etmiş General Vyaçeslav Şironinin xatirələrinə müraciət etmişdir. Fövqəladə vəziyyət rejiminin yalnız Azərbaycanda tətbiq edilməsinin təəccüblü olduğunu qeyd edən Şironin qarşı ölkənin ərazisində də fövqəladə vəziyyət elan edilməsi ilə bağlı mərkəzə müraciət etsə də, cavab ala bilmır. Azərbaycanlılara qarşı təxribatlar isə davam etdirilir: "Mərkəzi qəzetlərdən biri (özü də hökumətyönlü qəzet!) Sədərəyin atəşə tutulması barədə məlumat verərkən, nədənsə oranı erməni kəndi adlandırmışdı. Belə çıxırdı ki, hər şey tərsinədir – erməni yaraqlıları Azərbaycan kəndini atəşə tutmayıblar, əksinə, azərbaycanlılar ermənilərə zərbə endiriblər! Böyük bir mərkəzi qəzetdə bu cür son dərəcə kobud səhv vəziyyətin sabitliyini yenidən pozdu, yeni qurbanlara və qan tökülməsinə səbəb oldu".[1]

Mərkəzin bu hadisələrlə bağlı siyasətini ifşa edən müəllif yazır: "İttifaq Mərkəzi hakim kimi, savaşan qardaşlara narazı halda barmaq silkələyən ciddi və ədalətli ata rolunda çıxış edir. Ağıllı valideyn bilir ki, əgər savaşın oğullardan birinin təqsiri üzündən başlandığını söyləsən, barışıq olmayacaqdır. Xalq pedaqogikasının sınaqdan çıxardığı köhnə üsuldur - təqsir hər ikisindədir".[2]

Son illər yaşanan faciələrimizdən bəhs edən Zenkoviç xalqımızın dərdini duyaraq yaşadığımız ağrıları, vətən həsrətini dəqiqliklə canlandıra bilmişdir:

"2001-ci ildə bazar günlərindən birində Heydər Əliyev qəflətən Dənizkənarı parkda göründü. Bu, qabaqcadan planlaşdırılmamışdı, onun gəlişindən heç kəsin xəbəri yox idi. Qərar qəfil yaranmışdı. O, avtomobillə keçərkən sürücüdən maşını saxlamağı xahiş etmişdi.

Prezident, adətən, istirahət vaxtlarında əynində olan sərbəst geyimdə idi. Parkda arzu edənlərin çəkisini müəyyənləşdirmək üçün qoyulmuş köhnə tərəziyə yaxınlaşdı. Tərəzinin sahibi ahıl kişi Prezidenti dərhal tanıdı, ona tərəzidə çəkilməyi təklif etdi. Əliyev gülərək təklifi qəbul etdi. Kişi tərəzinin göstəricisinə baxdı:

Yetmiş doqquz kiloqram səkkiz yüz qram, siz bir az arıqlamısınız, amma narahat olmayın. İnşallah, Şuşanı azad edəndən sonra yaxşı kababalar çəkərik, siz də kökələrsiniz.

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 572
[2] Yenə orada, s. 177-178

Sən demə, yoldan ötənləri tərəzidə çəkməklə çörək pulu qazanan bu şəxs ermənilər tərəfindən işğal edilmiş Ağdamdan olan qaçqın imiş. Prezidentin yadında ən çox qalan o olmuşdu ki, bu şəxs Ağdamdan olmasına baxmayaraq, Şuşadan danışmışdı. Deməli, Şuşa onun qəlbində yaşayır, deməli, əcdadların torpağı hamını özünə çəkir. Şuşa hər bir azərbaycanlı üçün doğma şəhərdir. Hamı o xoşbəxt günün arzusu ilə yaşayır ki, haqq-ədalət öz yerini tapacaq və işğal edilmiş ərazilər bir gün, nəhayət, öz qanuni sahiblərinə qovuşacaq”.[1]

Zenkoviçin haqlı olaraq iki müxtəlif ənənəyə, mentalitetə malik xalq arasında ünsiyyət zamanı yaranan anlaşılmazlıqlara qarşı həssaslıq nümayiş etdirərək, rus həmkarlarının Azərbaycan xalqının adət-ənənələrinə anlayışlı olmamasının dövrün əsas problemlərindən biri olduğunu qeyd etmişdir. Milli respublikalarda rəhbər vəzifəyə təyin edilən insanların bu ölkəyə, burada yaşayan insanlara qarşı yadlığını qeyd edən publisist, onların əhali ilə qaynayıb qarışmadığını yazır, dili öyrənməməkdə, sayğısızlıqda suçlayırdı. Bu da Mərkəzin başqa xalqlara olan münasibətindən qaynaqlanırdı. Azərbaycan Kommunist Partiyası MK-sının ikinci katibi vəzifəsində çalışmış Semiçastnı, Qarabağ hadisələri zamanı hadisə yerində məkanın adını düzgün tələffüz edə bilməyən, respublikaların özünəməxsusluğunu dərk edə bilməyən (düşmən torpaqda insanlara “ağsaqqal” deyərək müraciət edən) məmur olaraq canlandırılmış, partiya işçilərinin dövlətin nüfuzuna xələl gətirdikləri qeyd olunmuşdur. Azərbaycan reallıqlarını düzgün qiymətləndirə bilməyən müasirlərinin qüsurlarından bəhs edərək, Semiçastnının “Narahat ürək” (“Беспокойное сердце”) kitabında yer alan bir çox fikirlərini müəllifin yerli adət-ənənələrə yanlış münasibətinin nəticəsi olaraq qiymətləndirmişdir.[2] Azərbaycan reallıqlarını obyektiv mövqedən canlandıran müəllif, Semiçastnının muğama həqarətlə yanaşmasını kəskin şəkildə tənqid edirdi. N.Zenkoviçin xalqımızın mədəniyyətinə qarşı həssaslığı, bələdliyi diqqət çəkir: “Azərbaycan muğamını vəsf edənlər arasında görkəmli rus şairi Yakov Petroviç Polonski də vardır”.[3]

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, “Azərbaycan” nəşriyyatı, 2007, s. 561
[2] Yenə orada, s. 423-428
[3] Yenə orada, s. 427

“Moskvanın göndərdiyi adamlar bəzən nə diplomatikliyi, nə diribaşlığı, nə də ümumi dil tapmaq qabiliyyəti ilə seçilirdi. İnciklik-lər yığılır, səbr kasası dolurdu – partlayış isə Qorbaçov “yenidən-qurma”sı dövründə oldu”.[1]

Çox zaman tarixi simalardan bəhs edərkən onların geniş tarixi kontekstdə təsviri çətinlik törədir. Müqayisədə insanın mənfi cəhət-ləri, çatışmazlıqları daha qabarıq nəzərə çarpır. Zenkoviç Əliyevlər ailəsinin bütün üzvləri – Zərifə Əliyeva, İlham Əliyev, Sevil Əliye-va, Mehriban Əliyeva haqqında geniş bəhs edərək, onları digər siya-si xadimlərin ailə üzvləri ilə müqayisə etməkdən çəkinməmiş, hər birinin başqalarından üstünlüyünü, daha ziyalı və alicənab olduqla-rını qeyd etmişdir.

Milli öndər haqqında yazan hər kəs onun həm yerli mühitdə, həm Moskva mühitində seçilmişliyini qeyd etmişdir. Daim müqayi-sələrə üz tutan müəllif də Heydər Əliyevin dövrün siyasi elitasından həm xarici görkəmi, həm də mənəvi dünyası ilə seçildiyini qeyd edir.[2]

Heydər Əliyevin xarici mətbuatdakı obrazı ilə öz Vətənindəki obrazı bir-birini tamamlayır. Bəzi nəşrlərdə məsələn, Yeltsinin xati-rələr kitabının ilk nəşrində Heydər Əliyev haqqında neqativ fikirlər yer alsa da, kitabın sonrakı nəşrlərində bu fikirlər verilməmişdir. Müəlliflər mövcud yanlış xarakteristikaları qətiyyətlə inkar etmişlər: “Qorbaçovun hakimiyyəti dövründə heç kəsi Heydər Əliyevlə yana-şı qoymaq olmazdı. Heç kəs onunla müqayisəyə gəlmirdi. Qərb mətbuatı bu incə mətləbi ustalıqla tutmuşdu ki, intellektinə, təhsili-nə, dünya mədəniyyətinə bələdliyinə görə Əliyevin tayı-bərabəri yoxdur. “Kremldə sui-qəsdçilər. Andropovdan Qorbaçova qədər” (“Заговорщики в Кремле. От Андропова до Горбачева”) kitabını yazmış sovet siyasi mühacirləri Vladimir Solovyov və Yelena Kle-pikova Əliyevi belə xarakterizə etmişdilər: “Əliyev, həqiqətən də, Siyasi Bürodakı yoldaşlarının yeknəsəq çevrəsindən kəskin surətdə seçilirdi - özü də təkcə milliyyətinə görə yox. Uca boyu, enli kürək-ləri, ağıllı siması, pəhləvan cüssəsi, hərbçi qədd-qaməti ilə diqqəti çəkən, əynindəki ingilis kostyumu boy-buxununa Kreml əhlinin qib-tə edə biləcəyi dərəcədə gözəl yaraşan bu DTK general-mayoru

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, “Azərbaycan” nəşriyyatı, 2007, s. 428
[2] Yenə orada, s. 553

Kremldə işləyən şəxsdən daha çox, Hollivuddan gələnə bənzəyirdi”.[1] Lakin bununla belə, Heydər Əliyevlə bağlı yanlış məlumat da vermişlər: “Yalnız adına və zahiri görkəminə görə şərqli olan bu adamın tam kosmopolitləşmiş olmasını ən azı belə bir fakt sübuta yetirir ki, Moskva ona respublika DTK-sının sədri vəzifəsini etibar etmişdi. Əliyevdən əvvəl Azərbaycan məxfi polisinin şefi Brejnevin bacanağı, slavyan olan Semyon Sviqun idi. Bundan əvvəl isə o, daha iki respublikada – Moldoviya və Tacikistan DTK-larında işləmişdi”.[2] Bu məlumatların gercəkliyə əsaslanmadığını bildirən müəllif kəskin şəkildə etiraz etmişdir: “Müəlliflər yanılırlar: Semyon Sviqun Leonid İliç Brejnevin bacanağı deyildi. Bu yanlışlıq bir yazıdan o birinə köçürülüb yayılmışdı. Lakin bu, V.Solovyov və Y.Klepikovanın Əliyevi milli və dini xüsusiyyətləri olmayan bir adam kimi səciyyələndirməsinin yanında heç nədir. Bu, əsla belə deyil. Heydər Əliyev müsəlman adət-ənənələrinə uşaqlıqdan bələd idi”.[3] Qafqaz müsəlmanları ruhani idarəsinin sədri, şeyxülislam Hacı Allanşükür Paşazadə Ümummilli lider haqqında televiziya ekranlarında təxminən belə bir xatirə danışmışdır ki, müqəddəs Məkkə ziyarəti zamanı Allah Evində namazın necə qılınmasını prezident Heydər Əliyevə başa salmaq istəyirdim ki, o mənə bildirdi ki, siz haradan bilirsiniz ki, mən namaz qıla bilmirəm...

Xarici müəlliflər Heydər Əliyevi əsasən yad mühitdə fəaliyyət göstərməli olan türk olaraq təsvir edirlər. Bir çoxları kimi o bu mühitdə gəlmə idi. Ümummilli liderin milli mənsubiyyəti çoxlarında qıcıq doğururdu. Heydər Əliyev müsahibələrindən birində bu fakta etiraz edərək bildirir: “Durğunluq” dövründən, dövlətin dağılmasından danışılarkən mənfi planda, nədənsə, üç soyad hallandırılır: Kunayev, Rəşidov, Əliyev. Ancaq axı Əliyev Bakıda idi, Kunayev - Alma-Atada, Rəşidov - Özbəkistanda. Belə çıxır ki, bütövlükdə nəhəng ölkəni bu respublikalar idarə edirmiş? Əslində isə bizim ölkəni tanınmış adamlar idarə edir və ona rəhbərlik edirdilər, onların çoxu indi də yüksək vəzifə tutur. Ancaq onlardan heç birinin adı çəkilmir, yalnız bu üç soyad hallandırılır. Sizə elə gəlmirmi ki, burada daha

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, “Azərbaycan” nəşriyyatı, 2007, s. 555
[2] Yenə orada, s. 543
[3] Yenə orada, s. 543

ciddi, qeyri-sağlam bir haldan – şovinist əhvali-ruhiyyədən söhbət gedir?!"[1]

Ümummilli lider mədəniyyətə, incəsənətə dəruni bir hisslə bağlı idi. "Poeziya, teatr, musiqi, rəssamlıq, heykəltəraşlıq - bütün bunlar mənim üçün maraqlı, məftunedici bir aləmlə sadəcə təmas demək deyil, sadəcə, təəssüratların dəyişməsi və istirahət demək deyildir. Mən incəsənətdən hər zaman qüvvət almışam, nikbinlik, həyat eşqi əxz etmişəm. İncəsənət xadimləri ilə ünsiyyətdən müxtəlif sahələrə aid bilgilər qazanmışam, həyatda, insani münasibətlərdə gözəlliyi dərindən duymağı öyrənmişəm".[2]

Heydər Əliyevi dövrün siyasi xadimləri ilə müqayisə edən Nikolay Zenkoviç yazır: "Heydər Əliyevin şəxsi keyfiyyətləri bəllidir - gözəl rəsm çəkir, mahnı oxuyur, musiqini dəyərləndirir, incəsənətin bütün növlərindən baş çıxarırdı. Boş vaxtını həyatın intellektual tərəfi ilə bağlı sevimli məşğuliyyətlərinə sərf edirdi.

Hələ Azərbaycan KP MK-nın birinci katibi olanda cümə günləri xanımı ilə bərabər filarmoniyaya simfonik konsertlərə gedərdi. Məşhur bir dirijorun və ya musiqi kollektivinin həyatında hansısa bir əlamətdar tarixlə bağlı yox, elə-belə, səbəbsiz. Daxili ehtiyac duyduğuna görə. Təsəvvür edirsinizmi? Respublikanın baş partokratı müntəzəm olaraq hər cümə günü simfonik musiqi konsertinə gəlir, dinləməkdən yorulmur...

Bəs onların həmkarları boş vaxtlarında nə edirdilər? Yuxarıdan başlayaq. Qorbaçovdan. Diqqət çəkən heç bir istedadı yoxdur, təkcə hakimiyyət hərisliyindən başqa. Məsələn, Brejnev ova çıxmağı xoşlayırdı, sərrast atəş açırdı, sürətlə maşın sürməyin azarkeşi idi. Qorbaçovun isə gecə-gündüz fikrini məşğul edən ancaq bir şey vardı - siyasət.

Davam edək. Liqaçov. Adi partiya funksioneri idi. Heç bir əyləncəyə marağı yox idi. Təhsili etibarilə aviasiya mühəndisi idi.

Vorotnikov. Tipik idarəçi-təsərrüfatçı idi.

Solomentsev. Adi ünsiyyətdə çox darıxdırıcı idi, maraq dairəsi sırf istehsalat məsələləri ilə məhdudlaşırdı. Xatirələri çapdan çıxıb – oxumaq mümkün deyil: elə bil, statistik hesabatlar məcmuəsidir.

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları - Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 574
[2] Yenə orada, s. 501

Şerbitski. Maraq dairəsi: futbol, göyərçinlər, qaban ovu. Yazı masasının üstündə, şüşənin altında futbol oyunlarının təqvimini saxlayırdı.

Nikonov. Aqrar sahə mütəxəssisi, əsl əyalət adamı idi. RSFSR Nazirlər Sovetinin sədri Q.İ.Voronovun dediyinə görə, "Mari Vilayət Partiya Komitəsinin birinci katibi işlədiyi vaxtlarda bir aqronom qadına vurulubmuş. Öz arvadını saçlarından tutub sürüyürmüş. Bunu bütün respublika bilirmiş. Çul düşüncə içirmiş" (В.Д.Панкин, Пресловутая эпоха в лицах и масках, событиях и казусах. – М., 2002.- səh.181)

"Yuxarılarda əyləşən" maraqsız, cansıxıcı simaların siyahısını davam etdirmək olar.Ancaq bunlardan hər birini digər "yoldaşlardan" fərqləndirən bircə dənə parlaq boya, bircə dənə də fərdi, özünəməxsus cizgi yoxdur. *Hamısı bir nəfər kimi eyni cür palto geyinib başına qunduz dərisindən eyni formalı papaq qoymuş, üzünə ciddi ifadə vermiş qaşqabaqlı simalardan ibarət bir kütlə (*kursiv məqalə müəllifinindir*).*[1]

Mərkəzi Komitə tərəfindən Heydər Əliyevə qarşı hazırlanan təxribatlardan bəhs edən N.Zenkoviç Moskva mühitini daha dolğun təsvir etmişdir. Azərbaycanla əlaqədar hissələrdə yerli siyasi xadimlərlə bağlı müəllifin daha çox stereotiplərə əsaslandığı sezilir. Belə ki, Kamran Bağırovdan bəhs edən müəllif ondan "Heydər Əliyev məktəbini keçmiş təcrübəli, güclü rəhbər" olaraq bəhs etmiş, zaman kecdikcə onların münasibətlərində yaranan problemlərin dərinliklərinə varmamışdır. Elmira Axundovanın kitabında isə bu münasibətlər daha real şəkildə qiymətləndirilmişdir. Lakin ümumən götürdükdə kitabda Azərbaycanda baş verən hadisələr obyektiv şəkildə göstərilmiş, baş verənlər analitik təhlil edilmişdir.

Heydər Əliyevin siyasi olimpdən getməsinə səbəb M.Qorbaçovla olan münasibətləri idi. Bu hər kəsə aydın idi. Bu səbəbdən müəlliflər həmin mövzuya geniş yer ayırmışlar. Heydər Əliyev opponentindən çəkinməyərək problemlərlə bağlı öz fikrini bildirir, onunla mübahisə edirdi. Bir çox məsələlərlə bağlı etirazını bildirməkdən çəkinmirdi: Asiya xalqlarına münasibət, antialkoqol siyasəti ...

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 510

Şəxsi münasibətləri dövlət işlərindən ayırmaq iqtidarında olmayan Qorbaçov isə Heydər Əlirza oğluna qarşı kin saxlayaraq ondan uzaqlaşırdı. Böyük insan, siyasətçi haqlı iradları qiymətləndirib vaxtında nəticə çaxartmağı bacarmalı idi, lakin Mixail Serqeyeviç problemləri şəxsi qərəz olaraq qiymətləndirir, idarəetmə prosesinin qanunlarına vara bilmirdi. "Sağlam düşüncəli digər dövlət xadimləri həmin imkanı görür, onun lap yanından keçir, bəzən ona toxunur, onu göstərirdilər, lakin Qorbaçov bu imkanın əldən çıxması üçün hər şeyi edirdi".[1] Qorbaçovun hakimiyyəti illərini xarakterizə edən müəllifin fikirləri bir çox insanların münasibəti ilə üst-üstə düşür: "sözlə əməl arasında boşluq, siyasi rəhbərliklə xalq arasında uçurum əmələ gəlmişdir. Xalqın rəhbərliyə etimadsızlığı, adamların sabaha ümidsizliyi artmışdır. Kommunist Partiyası nüfuzunu itirmişdir".[2]

Heydər Əliyevi M.Qorbaçovun ətrafında formalaşmış keçmiş komsomolçulardan ibarət dəstə ilə qarşılaşdıran müəllif, üstünlüyün Heydər Əlirza oğlunda olduğunu vurğulayır: "Heydər Əliyev bu cəhətdən də ümumi sıradan seçilirdi – o heç zaman komsomolda işləməmişdi. Gözləri daim gənclik ehtirası ilə alışıb-yanan qırx yaşlı oğlanların əxlaqi dəyərləri onda ikrah oyadırdı. Bu adamlar ona arsız görünürdülər. Məzmun dərinliyi əvəzinə forma parlaqlığı, mövqe əvəzinə duruş, işə qulluq əvəzinə iddialar. Mənsəb hər şeydən irəlidir, həyatın məqsədi və mənasıdır... Səsi ən gur olan, özünü hər yerə soxmağı bacaran, dirsəkdən möhkəm olanlar komsomol işçisi olurdular. Meydanda cövlan edən sirk artistləri kimi, onlar yeni çıxmış terminlərin birini atıb o birini tuturdular. Bu terminləri qeyri-adi həssaslıq və heyrətamiz sürətlə mənimsəyirdilər. Sabiq komsomol işçilərini çox uzaqdan tanımaq olardı. Qıvraq görkəmləri, bitməz-tükənməz gəvəzəlikləri, dünyada hər şeydən agah olmaları, hər bir işə, amma aydın məsələdir ki, rəhbər işə vaxt itirmədən dərhal girişməyə hazır olmaları onların kimliyini aşkar edirdi.

Bu nadir populyasiya onilliklər ərzində formalaşmışdı. Onların sırasından olan şəxs ölkədə hakimiyyətə gələn kimi, ac canavarlar ortaya şüar atdılar: "Nə qədər ki hakimiyyətdədir, fürsəti əldən vermə!" Onların könlünə vəzifələr, ad-san, adamlara buyruq vermək düşdü. Solğun bənizli klerklərin damarlarında qaynar komsomol qa-

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları - Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 238
[2] Yenə orada, s. 164

nı qaynadı.Başa düşdülər ki, onların dövranı gəlib. Qorbaçovun açdığı yolla onlar hər şeyi yarıb keçən axın şəklində hakimiyyətə təpildilər”.[1]

Heydər Əliyev çəkinmədən ölkə daxilində yaşanan ikitirəliyi ifşa edirdi: “İkitərəfli, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz, – salonda Əliyevin qəzəbli sözləri səslənirdi. – Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsinin sözləri ilə əsaslandırırdı. Sual olunur: biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?”[2]

Mixail Serqeyeviçin düşmənlərinə qarşı yeritdiyi siyasəti ifşa edən müəllif, Heydər Əliyevin taleyi ilə Qazaxıstanın rəhbəri olmuş D.Ə.Kunayevin, Özbəkistandan olan Rəşidovun taleyi arasında paralellər aparmış, M.Qorbaçovun hakimiyyətə doğru irəliləyişini təsvir edərək ölkədə yaşanan hadisələrin alt qatlarına varmağa çalışmışdır. Publisistin Sovetlər ölkəsinin sonuncu prezidentinə münasibəti birmənalı idi: “Tanıyanların çoxunun söylədiyinə görə, Mixail Sergeyeviç intriqanın mahir ustası, əsl qrossmeysteri idi. Köhnə dostum, uzun illər Stavropolda onunla işləmiş, diyar komsomol və partiya komitələrində, demək olar, bütün vəzifələrdə, o cümlədən Sov.İKP diyar komitəsinin ikinci katibi vəzifəsində onun yerində işləmiş Viktor Alekseyeviç Kaznaçeyev mənə danışırdı ki, gələcək Baş katib bu müəmmalı ifadəni zaman-zaman ucadan təkrar etməyi xoşlayırdı:

- İntriqa, böyük işdir, Viktor!

Özü də bu vaxt *bic-bic* gözlərini qıyırdı” (kursiv məqalə müəllifinindir).[3] Heydər Əliyevin çıxışlarına istinad edən müəllif onun həqiqətləri dilə gətirməyə çəkinmədiyini vurğulayır: “Ölkə tarixinin əvvəlki mərhələlərində yol verilmiş qüsurların və yanılmaların təsirini inkar etmədən ölkənin dağılmasının başlıca günahkarının “yenidənqurma” dövrü olduğunu bildirirdi”.[4] “Təəssüf ki, bütün bunların

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, “Azərbaycan” nəşriyyatı, 2007, s. 97
[2] Yenə orada, s. 240
[3] Yenə orada, s. 61
[4] Yenə orada, s. 162

üstündən sükutla keçilir, rəsmi dairələr və kütləvi informasiya vasitələri isə yalnız keçmişi amansız tənqid atəşinə tuturlar.

1985-ci ildə dəyişikliklərin hansı şəraitdə başlandığını bilən bir adam kimi Heydər Əliyev təsdiq etdi ki, bu dəyişikliklərin heç bir uzunmüddətli strategiyası – nə elmi, nə siyasi, nə də iqtisadi strategiyası olmamışdır. Tələm-tələsik yerinə yetirilən, bəzən bir-birinə zidd olan tədbirlər, təbii ki, müsbət nəticə verməmişdir”.[1]

Baş verənlərdə Sov.İKP-nin iş mexanizmini suçlayan müəllif hadisələri bu cür qiymətləndirmişdir: “Aşağı, orta və hətta yüksək pillədən olan sovet rəhbərlərinin əksəriyyəti geniş miqyaslı kateqoriyalarla fikirləşmir, ictimai-siyasi hadisələrin təbiəti haqqında düşünmür, tarixi analoqlar arasında əlaqə tapmağa çalışmırdı. İnqilabın savadsız kütlə arasından topladığı sovet elitası elə özünə oxşayan, gündəlik işlərindən və qayğılarından başqa heç nə ilə maraqlanmayan nəsil verirdi. Niyə insanların həyatının bu cür çətin olduğu, sovet iqtisadiyyatı ilə dünya bazarı arasında süni səddin nədən ötrü yaradıldığı kimi suallar onların yalnız bəzilərini düşündürürdü. Ümumiyyətlə, müəyyən əlamətlər belə söyləməyə imkan verir ki, Sov.İKP ölkəni sosial-iqtisadi və mənəvi dalana gətirib çıxarmış, SSRİ xalqlarının sivil inkişafınıləngitmiş, onları bütün mədəni bəşəriyyətdən ayrı salmışdır”.[2]

Bu cür kəskin fikirlərə baxmayaraq dövrün mürəkkəb atmosferini canlandıran publisist hadisələrə yalnız mənfi tərəfdən yanaşıb, bütün Sovet elitasına qarayaxmaqdan uzaqdır. Mənfi xüsusiyyətləri ilə seçilənlərlə yanaşı burada sədaqətli, peşəkar insanların sayı da az deyil. “Leonid Nikolayeviç siyasətdə bir adama sadiq idi. Son dərəcə nadir olsa da, belə hallarla rastlaşmaq mümkündür. Xruşşovla necə yaxınlaşmışdısa, eləcə də axıradək ona sadiq qalmışdı” (L.Yefremov).[3] Vicdanının əleyhinə getməkdən imtina edərək Heydər Əliyevlə bağlı planın həyata keçirilməsindən imtina edən Partiya Nəzarəti Komitəsinin sədri Boris Karloviç Puqo və b.

Hər bir bioqraf kimi Zenkoviç həm qəhrəmanın fəaliyyətinin az tədqiq olunmuş dövrləri üzərində xüsusi dayanmış (“...sovet Azərbaycanında az adama məlum olan, müasir Rusiya oxucularının isə, ümumiyyətlə, bixəbər olduqları hadisələrdən gedir. Buna görə

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları - Bakı, “Azərbaycan” nəşriyyatı, 2007, s. 163
[2] Yenə orada, s. 240
[3] Yenə orada, s. 64

də 1941-1946-cı illərdə SSRİ-nin cənub sərhədlərində baş verənlərin mahiyyətini qısaca açıqlamağa çalışacağam”.[1] Müasir oxucunun 1950-ci illərin birinci yarısının hadisələri, xüsusən çekist mühitində baş verən hadisələr haqqında məlumatının az olduğunu, “dövrün ümumi siyasi şəraitini, partiyadaxili intriqaların təfsilatını bilmədən çekist kadrlarının yeni nəslinin o zaman hansı çətinliklərlə qarşılaşdığını başa düşməyin” çətin olduğunu qeyd edən Zenkoviç bu illərin təsvirinə geniş yer vermişdir.

Əsasən sənədlərə istinad etsə də, eyni zamanda Heydər Əliyev haqqında yayılan şayiələrdən də bəhs etmiş, yanlışlıqları aradan qaldırmağa çalışmışdır. Bu əsnada “Heydər Əliyevin üzərinə kölgə salmaq üçün onun çekist xidmətinə başladığı tarixi Beriyanın rəhbərlik etdiyi idarə ilə bağlamaq cəhdi” ilə bağlı fikirlərin tamamilə səhv olduğunu qeyd etmişdir. “…biz ən geniş yayılmış yanlış fikirlərdən birinin əsassız olduğunu üzə çıxardıq və müəyyən etdik ki, Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarına Vsevolod Nikolayeviç Merkulovun rəhbərliyi dövründə gəlmişdir”.[2]

Rus mətbuatı Heydər Əliyevə qarşı iftiralarla dolu materiallar çap edirdisə (1990-cı il fevralın 4-də həmin qəzetdə dərc olunmuş “Əliyevçilik, yaxud “xoş əyyamların xiffəti” (“Алиевщина, или Плач по “сладкому времени”), xarici media baş verənlərə münasibətdə daha obyektiv və analitik mövqe nümayiş etdirirdi. Büro üzvlərinin Qorbaçovun təmizləmə işlərini sakitliklə qarşılamaları Qərb mətbuatını təəccübləndirirdi. “Xarici jurnalistlərdən kimsə düzgün yazmışdı ki, veteranların qorxaqlığı da mütəşəkkil, intizamlı bir qorxaqlıq idi. Onların bəziləri yüksək olmayan ağıl sahibi idi və öz firavanlığını nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq niyyətini üstün tutmuşdular. Qorbaçov bu cür adamları istədiyi kimi idarə etməkdə çətinlik çəkmirdi”.[3]

Sovetlər ölkəsində Şərq ölkələrinin problemləri həmişə diqqət mərkəzində olmuş, dövlətin siyasətinin strateji istiqamətlərindən biri olaraq qiymətləndirilmişdir. “Şərqdən olan adama tələbat üçüncü dünya ölkələrində SSRİ-nin siyasətinin fəallaşması, müstəmləkə sisteminin dağılması, kütləvi milli azadlıq hərəkatının başlanması ilə əlaqədar yaranmışdı. Mühitdinova xarici Şərqlə, Orta Asiya və Za-

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları - Bakı, “Azərbaycan” nəşriyyatı, 2007, s. 384
[2] Yenə orada, s. 272
[3] Yenə orada, s. 112

qafqaziya respublikalarının partiya təşkilatları ilə, ideoloji məsələlərlə məşğul olmaq tapşırılmışdı. Bir vaxtlar Sov.İKP-nin İdeologiya komissiyası sədrinin müavini olmuşdu".[1] O, müsəlman respublikalarından Moskvanın siyasi olimpinə düşmüş birinci adam olaraq tarixə düşmüşdü. "…Rəyasət Heyətinin üzvlüyünə namizəd idi, sonra isə, 1957-ci ildən 1961-ci ilədək Rəyasət Heyətinin üzvü və Sov.İKP MK-nın katibi olmuşdu".[2] Lakin hökumətlə arasında yaşanan narazılıqlar səbəbindən 1986-cı ildə Daşkəndə qayıtmış, Özbəkistan SSR Hökumətinin müşaviri, sonra isə Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi Cəmiyyətinin sədri işləmişdi.

"Əliyev müsəlman respublikasından olan ikinci adam idi ki, siyasi hakimiyyətin zirvələrinə yüksəlmiş və Sovet İttifaqı hökumətində ikinci şəxs olmuşdu".[3] Ondan əvvəl də Siyasi Büroda respublikanı təmsil edən nümayəndələr olmuşdur. "Əliyevdən əvvəl - Mir Cəfər Abbas oğlu Bağırov, Əliyevdən sonra – Ayaz Niyazi oğlu Mütəllibov. Hər ikisinin də fəaliyyəti acınacaqlı surətdə başa çatmışdır".[4] Əliyev və Mühitdinov digərlərindən fərqli olaraq "Siyasi Büronun əsas özəyinə daxil olmuş, orada daimi əsaslarla çalışmışdılar".

Yalnız müsəlman sovet respublikalarından olan həmkarların deyil, həm də "Slavyan respublikalarından olan bir çox şəxslərin də Siyasi Büroda karyeraları acınacaqlı şəkildə başa çatmışdı".[5]

Əsərdə DTK tarixi, yarandığı gündən müxtəlif illərdə bu idarənin sədri olmuş bütün insanlar haqqında, kadr dəyişiklikləri, sürətli yüksəlişlər və enişlər barəsində ətraflı söhbət açan müəllif əsas məqsədinin "gənc azərbaycanlı zabit Heydər Əliyevin hansı şəraitdə yetişdiyini göstərmək"[6] olduğunu qeyd edir. Merkulov, Abakumov, Kruqlov, İqnatyev, Beriya, Serov, Şelepin, Semiçastnı, Andropovun taleyi Heydər Əliyevin içində olduğu mühitin mürəkkəbliyini əks etdirir. Kruqlovun mükafatlarından bəhs edən müəllif onların hansı xidmətlərə görə verildiyini də qeyd etmişdir: "1943-cü ilin fevralında ona ikinci dərəcəli dövlət təhlükəsizliyi komissarı rütbəsi verildi.

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 114
[2] Yenə orada, s. 112
[3] Yenə orada, s. 112
[4] Yenə orada, s. 118
[5] Yenə orada, s. 120
[6] Yenə orada, s. 308

Bu, ordudakı general-polkovnik rütbəsinə bərabər idi. 1944-cü ilin mart və oktyabr aylarında o, I dərəcəli Suvorov və II dərəcəli Kutuzov ordenləri ilə təltif edildi. Cəbhədə bu ordenlər yalnız iri hərbi əməliyyatlara görə verilirdi. Kruqlov bu mükafatlara qaraçayların, kalmıkların, çeçenlərin və inquşların SSRİ-nin şərq rayonlarına köçürülməsi əməliyyatlarının həyata keçirilməsinə görə, ikinci halda isə "Ukraynanın qərb vilayətlərinin "OUN"çulardan - Ukrayna millətçiləri birliyinin üzvlərindən təmizlənməsinə" görə layiq görülmüşdü".[1]

Bir çox faktlar dövrün iş spesifikasını, silahdaşlar arasında münasibətləri xarakterizə edir. Serovla Abakumovun münasibətlərindən bəhs edən yazıçı yazır: "Stalin ona göndərilən məlumatları diqqətlə oxuyur, ancaq Serova toxunmurdu. Bu iki nəfərin bir-birindən çuğulluq etməsi, yəqin ki, onu qane edirdi. Hər halda xeyri dəyirdi, yoxsa o, öz məxfi idarələrinin nazirləri barədə gizli təfərrüatları haradan öyrənərdi? Bu adamlar isə bir-birinin barəsində pis hər nə bilirdilərsə, açıb-tökürdülər".[2]

Partiyaya sədaqətin nəticəsi isə çox zaman acınacaqlı olurdu: "Serov 1990-cı ildə, Qorbaçov hakimiyyətinin sonlarında vəfat etdi, onun bağ evindəki gizli dinləmə cihazını isə yalnız o vəfat etdikdən sonra çıxardılar".[3] Xarakterik detallarla dövrün xüsusiyyətlərini canlandıran müəllif daim təqib olunan, ömrünün sonuna qədər nəzarət altında yaşamalı olan partiyanın sadiq nümayəndələrinin mürəkkəb və ziddiyyətli taleyini əks etdirməyə çalışmışdır.

Kitabda ömrünü bu yolda fəda etmiş yüzlərlə insanın faciəvi taleyi əks olunmuş, Kiriçenko, Podqornu kimi onlarla işdən uzaqlaşdırılmış məmurun taleyindən bəhs olunmuşdur. Müxtəlif dövrlərdə, fərqli rəhbərlərin iş prinsiplərini qarşılaşdıran N.Zenkoviç sistemin amansılığını göstərmişdir. Siyasi Büronun üzvlərinin hər birinin dövlət qarşısında xidmətlərini xatırladan müəllif onların istefasının təfərrüatlarının xoşagəlməz və alçaldıcı olduğunu qeyd edərək, fikrini bu cür ümumiləşdirmişdir: "...mövcud olduğu dövr ərzində onun tərkibində 229 adam olmuşdur. Onların sırasına Təşkilat Bürosunun üzvləri və MK katibləri – partiyanın ali rəhbər elitası da daxildir. Bu adamların 52 nəfəri öz həmkarlarının hökmləri əsasında

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 313
[2] Yenə orada, s. 318
[3] Yenə orada, s. 326

güllələnmiş, 28 nəfəri işdə xətalara və nöqsanlara görə Siyasi Bürodan çıxarılmış, 5 nəfəri (Orconikidze, Qamamik, Tomski, Furseva, Puqo) intihar etmiş, 2 nəfəri (Kirov, Trotski) öldürülmüş, 1 nəfəri (Maşerov) avtomobil qəzasında həlak olmuşdur.

Belə çıxır ki, SSRİ-də ali siyasi hakimiyyət orqanının 229 üzvündən 59-u, yəni hər dörd nəfərdən biri qətlə yetirilmişdir. 28 adam – hər səkkiz nəfərdən biri Siyasi Bürodan və Təşkilat Bürosundan çıxarıldıqdan sonra rəhbər işdən məhrum edilmiş və ömrünün qalan hissəsini qorxu içərisində keçirmişdir. 21 nəfər vəzifədə olarkən vəfat etmişdir - onların bəxtinin gətirdiyini söyləmək olar, çünki sonrakı talelərinin necə ola biləcəyi məlum deyildir".[1] Günahkarın və cəlladın fərqlənmədiyi mürəkkəb bir zamanda hər kəsin öz həqiqəti var idi: onların "hamısı – cəlladlar da, qurbanlar da özlərini sadiq leninçi, partiyanın banisinin başladığı böyük işin davamçısı hesab edirdilər".[2]

Dünya tarixinin ilk illərindən 1990-cı illərə qədər olan dövrə ekskurs edən publisist, tarixin gedişini dəyişmiş dörd çıxışdan bəhs etmişdir:

1) V.İ.Lenin 1917-ci il oktyabrın l6 -da Petroqradda RSDFP MK-nın iclasında söylədiyi nitqi;

2) 1946-cı ildə Böyük Britaniyanın Baş naziri ser Uinston Çörçill Fultonda sölədiyi nitq;

3) 1956-cı ilin fevralında Sov İKP-nin XX qurultayında N.S.Xruşşovun qapalı məruzəsi;

4) 1991-ci il avqustun 23-ünə təsadüf edən B.Yeltsinin çıxışını xüsusi qeyd etmişdir.

Heydər Əliyevin nitqlərini də eyni sıraya aid edən, onların ölkənin siyasi durumuna təsirindən bəhs edən Nikolay Zenkoviç bu çıxışların Zaqafqaziyada coğrafi-siyasi vəziyyəti kökündən dəyişdirdiyini yazır: "Azərbaycan dönmədən Moskvanın hakimiyyəti altından çıxır və öz milli köklərinə qayıdırdı. Onun bu yürüşünü dayandırmaq daha mümkün deyildi".[3]

Heydər Əliyevin həyatı boyu çoxlu gözəl, parlaq nitqlər söylədiyini qeyd edən publisist, onun dörd nitqini xüsusi fərqləndirmiş, onların Ümummilli liderin nəzəri və siyasi irsində xüsusi yer tuta-

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları - Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s. 125
[2] Yenə orada, s. 125
[3] Yenə orada, s. 238

cağnı bildirmişdir. "Tarixçilər, siyasətşünaslar, məktəblilər və tələbələr bu nitqlərə dönə-dönə müraciət edəcəklər.

Bunlar 1990-1991-ci illərin nitqləridir. Birinci nitqi o, 1990-cı ilin 20 Yanvar faciəsi ilə əlaqədar ertəsi günü, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyindəki yığıncaqda söyləmişdir. Sonrakı nitqlər 1991-ci il fevralın 5-də və martın 7-də Azərbaycan SSR Ali Sovetinin sessiyalarında söylənmişdir. Dördüncü isə 1991-ci il avqustun 29-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyasındakı nitqdir. Heydər Əliyevin partiyadan çıxmaq barəsində SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına yazdığı müraciət də mövzu baxımından bu nitqlərlə bağlıdır.

Əgər bu beş proqram sənədinin təkcə Azərbaycanı və Sovet İttifaqını deyil, bütün dünyanı sarsıtdığını söyləsəm, səhv etmərəm. Azərbaycan üçün tarixi nəticələrinə görə onları bəlkə yalnız XX əsrdə Rusiyada və dünyada hadisələrin gedişini dəyişmiş dörd çıxışla müqayisə etmək olar".[1]

Heydər Əliyevin natiqlik istedadını yüksək qiymətləndirən müəllif onun çıxışını klassik mətn olaraq təhlil etmişdir: "Əliyevin çıxışları natiqlik sənətinin klassik nümunələridir. Hər şey qaydalara uyğundur: əvvəl tezis, sonra antitezis, axırda isə sintez gəlir. Bunu mən tam əsasla yazıram, çünki uzun illərdir ki, çıxış və nitqləri peşəkar surətdə öyrənməklə məşğulam. Bu halda tezis odur ki, "Moskva respublikaya, Azərbaycan xalqına kömək etmədi". Tutarlı deyilib. Amma bu, natiqlik üsuludur. Sonra antitezis gəlir.

- Dəqiqləşdirmək istəyirəm ki, mən Moskva deyəndə Qorbaçovu, onun erməni müşavirlərini, erməni millətçilərini, ona təsir göstərmiş adamları nəzərdə tuturam.

Bu da sintez, nəticə:

- Əgər o dövrdə bu proses dayandırılsaydı, Ermənistanla Azərbaycan arasında əlaqələr pozulmasaydı, xalqlarımız arasında qarşıdurma yaranmasaydı, bu qədər qan tökülməzdi. Biz əsrlər boyu birlikdə yaşamışıq. Nə edək, qismətimizə belə qonşular düşüb. Nə biz buradan köçəsiyik, nə də onlar oradan. Amma bu xəyanətin köklərinin nə qədər dərin olduğuna baxın. O vaxt qəti tədbirlər görmək lazım idi. Bəlkə, bu tədbirlər kimlərinsə xoşuna gəlməyə bilərdi. Am-

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları – Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s.234-235

ma hadisələrin təhlükəli inkişafının qarşısını almaq və Ermənistanı Ermənistan kimi, Azərbaycanı isə Azərbaycan kimi saxlamaq mümkün olardı. Bunu yalnız İttifaqa rəhbərlik edən müdrik insan edə bilərdi. Lakin Qorbaçovda bu müdriklik olmadı. Azərbaycan rəhbərlərinin isə öz xalqının mənafeyini və şərəfini qorumaq üçün vicdanı, cəsarəti, mərdliyi çatmadı.

Sezdinizmi? Əliyev öz xalqının mənafeyindən və şərəfindən danışır. Kabinetlərdə icad edilmiş hansısa virtual sovet xalqının deyil, konkret olaraq Azərbaycan xalqının mənafe və şərəfindən. Sovet dövründə konkret bir xalq haqqında danışarkən yalnız bütün sovet xalqlarının mehriban ailəsində onun nailiyyətlərini təriflmək lazım idi, özü də rus xalqının xüsusi rolunu qeyd etməklə.

Əliyev uzun illər davam edən bu ənənəni pozaraq, öz Azərbaycan xalqı haqqında sovet mentaliteti üçün qeyri-adi tərzdə danışdı. Bu, tarixi məqam idi..."[1] Əliyevin bu sahədə böyük hünər göstərdiyini qeyd edən müəllif, bu proseslərin əhəmiyyətinin hamı tərəfindən tam dərk edilmədiyini, zamanla hər şeyin öz yerini tutacağına ümid etdiyini bildirmişdir.

Xalqının müqəddəratı həll olunduğu 90-cı illərdə Ümummilli liderin cəsarətini, müxtəlif təzyiqlərə baxmayaraq, düzgün istiqamət götürməsini müəllif xüsusilə dəyərləndirir.

Heydər Əliyevlə bağlı Xilaskar motivi xarici müəlliflər tərəfindən də istifadə edilir: "Naxçıvanda Əliyevi özlərinin xilaskarı sayırlar. Heydər Əliyevin nüfuzu, beynəlxalq təcrübəsi, möhkəm iradəsi o illərdə muxtar respublikanı qorudu, Dağlıq Qarabağın aqibətini təkrarlamasına yol vermədi".[2]

***

*".... Heydər Əliyev "bu siyasət iflasa məhkumdur" demişdi.*

*- Biz idarə etməyi öyrənirik. Qoy səriştəsizlər təcrübə qazansınlar. Qazanmasalar, biz onları kənarlaşdırıb əvəz edərik", – deyə Elçibəy bildirir.*

*- "Xalqın üzərində təcrübə aparmaq olarmı?" – ağsaqqal siyasətçi iqtidar sahibinə haqlı irad tutur".*

***(V.Adriyanov, H.Mirələmov)***

---

[1] Zenkoviç N. Heydər Əliyev. Tale yolları - Bakı, "Azərbaycan" nəşriyyatı, 2007, s.196

[2] Yenə orada, s. 437

Yazıçı-dramaturq Hüseynbala Mirələmov Azərbaycanın nüfuzlu ailələrindən olan Əliyevlərin üç görkəmli nümayəndəsi haqqında siyasi-publisistik kitabların müəllifidir. Moskvada "Molodaya qvardiya" nəşriyyatının "Görkəmli adamların həyatı" seriyasından nəşr edilmiş "Heydər Əliyev" (V.Adriyanovla birgə), "İlham Əliyev" və "Zərifə Əliyeva" əsərləri dünyanın 23-dən çox dilinə tərcümə olunaraq müxtəlif ölkələrdə yayılmışdır. Bu kitablar yazıçının siyasi-publisistik yaradıcılığının zirvəsi hesab olunur.

Heydər Əliyev haqqında yazan bütün müəlliflər onu beynəlxalq səviyyəli siyasətçilər ilə eyni cərgədə təsvir etmişlər. Viktor Andriyanovun və Hüseynbala Mirələmovun həmmüəllifliyi ilə ərsəyə gəlmiş kitabda Ulu öndərin həyatı ilə XX əsrin görkəmli siyasətçisi Şarl de Qollun ömür yolu arasında paralellər aparan müəllif yazır: "Dünyada tanınan hər iki şəxsiyyətin siyasi taleyində oxşar məqamlar çoxdur. Hər ikisi uzun illər uğurlu dövlət fəaliyyətindən sonra işdən kənarlaşdırılıb. Paris "didərgini" haqqında deyirdilər ki, o nitqini itirmiş peyğəmbər kimi meydanı tərk etmişdi və səsi-sədası eşidilmirdi. Qorbaçov əyyamının Sov.İKP MK Siyasi Bürosunda Heydər Əliyevi dinləmək və eşitmək istəmədilər. Və o da çıxıb getdi... 1958-ci ilin may ayında Kolombe malikanəsində tənha yaşayan general de Qoll Fransanın çağırışıyla Parisə qayıtdı. 1990-cı ilin iyul ayında Azərbaycanın çağırışıyla Heydər Əliyev özünün Moskvadakı qəriblik həyatından ayrılaraq vətənə döndü. Geri dönəndə hər ikisinin 67 yaşı vardı. Bu yaşda adətən nəvələrlə əylənir və memuar yazmaqla məşğul olurlar. Lakin iş elə gətirdi ki, ürəkaçan ailə qayğıları və xatirələrlə bağlı məsələlər təxirə salınmalı oldu. Onlar dar gündə öz vətənlərini xilas etmək üçün qayıtdılar. Biri - Fransanın birliyini və müstəqilliyini, o biri isə - Azərbaycanın bütövlüyünü və suverenliyini təmin etmək naminə".[1]

SSRİ-dəki siyasi mübarizədən bəhs edən Uinston Çörçill maraqlı bir müqayisə apararaq siyasi mühiti dəqiq qiymətləndirmişdir: "Bir vaxtlar Uinston Çörçill SSRİ-dəki siyasi mübarizəni buldokların xalça altında boğuşmasına bənzətmişdi. M.Qorbaçovla Yakovlev də istənilən metodlardan istifadə edərək öz komandalarını formalaş-

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.6

dırırdılar. ...Əliyevə hücum gizli şəkildə hazırlanırdı. Və böyük siyasətdə olduğu kimi əsas zərbə başqalarının əliylə vurulmuşdu”.[1]

Heydər Əliyevi bir çox müasirləri də onu dünyanın tanınmış siyasətçiləri ilə müqayisə etmişlər: “Amerikanın dahi dövlət xadimi Franklin Ruzvelti dörd dəfə ABŞ-ın prezidenti seçmişdilər. Fransanın nəhəng dövlət xadimi de Qoll iki dəfə öz xalqını və ölkəsini xilas etmişdi. Ondan soruşanda ki, o, Fransanı mümkün ola biləcək faciələrdən xilas edə bilərmi? General de Qoll cavab verdi: “ Mən – fransız xalqının oğluyam, əgər xalq müraciət edərsə, iki dəfə yox, 100 dəfə köməyə gəlməyə hazıram”. Böyük Atatürk Türkiyəni parçalanıb məhv olmaqdan qoruyub saxladı.

Həyat göstərir ki, böyük dövlət xadimləri və siyasətçilər, güclü şəxsiyyətlər, xalqına sədaqətli insanlar VƏTƏN qarşısında məsuliyyətlərini hiss edirlər. Bəli, Yeni Azərbaycan Partiyasının lideri Heydər Əliyev də bu cür insanlardan idi. Muxtar respublika ali Məclisinin sədri kimi o, gündə on dörd, on beş saat işləyirdi. İş günü saat onda başlanır, axşam saat altıya qədər davam edirdi, sonra bir saatlıq nahar, daha sonra isə gecə saat ikiyə qədər yenidən gərgin iş. Və bu rejim üç gün, beş gün yox, uzun müddət belə davam edir. Yeni Azərbaycan Partiyasının təsis konfransı keçiriləndə nümayəndələr özləri bunun şahidi oldular. Onlar əmin idilər ki, belə şəxsin rəhbərlik etdiyi partiya, həqiqətən də, xalqı öz ətrafında birləşdirməyə qadirdir. Mən də buna əmindim” (Murtuz Ələsgərov).[2]

Müəlliflərindən birinin azərbaycanlı olduğu kitabda, doğma mühitə bələdlik özünü göstərir. İlk öncə Heydər Əliyevin uşaqlığı, ailəsi, böyüyüb başa çatdığı doğma yurdu, xalqımızın tarixi haqqında geniş bəhs edilir. Yazıçı (H.Mirələmov) təxəyyülünün yer aldığı əsərdə bəzən obrazlı təsvir, informativ üslubu üstələyir: “Tərcümeyi-halında yazırdı: “Mən, Əliyev Heydər Əlirza oğlu, 1923-cü il mayın 10-da Naxçıvanda anadan olmuşam...”: Hər dəfə bu sətirləri yazdıqda - Bakıda, Leninqradda, Moskvada, - Araz sahilindəki sakit və mehriban, doğma şəhər gözləri önündə canlanırdı. Əsrləri, minillikləri yola salmış bu şəhərin may ovqatı məscid üzərində açılan bahar asimanı kimi safdır, ülvidir və sanki dünyaya yeni gələn bir in-

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.240

[2] Yenə orada, s.328-329

sanın valideynlərinə bəxş etdiyi ümid işığıdır”.[1] Əsərdə avtobioqrafik zaman tarixi zamanla paralel olaraq təsvir edilir. “Anadan olanda adını Heydər qoydular. Mənası – öndə gedən, başçı deməkdir. Biz onun necə boya-başa çatmasından, doğma Naxçıvanında, daha sonra bütün Azərbaycanda – qoca Xəzərdən qarlı-vüqarlı dağlaradək – Sovet İttifaqı adlanan ölkədə qarşısında açılan dünyanın ona necə görünməsindən, bənzərsiz siyasətçi və dövlət xadimi, milli lider, xalqın öndəri olmasından bəhs edəcəyik”.[2]

Kitabda qəhrəmanın formalaşmasına təsir edən əsas faktorlar olaraq qiymətləndirilən ailə mühiti, yaxın insanları, doğma şəhərindən geniş bəhs edilib. Ailəsinin qədim ənənələrə, milli dəyərlərə bağlılığı vurğulanıb. Qədim Naxçıvanın memarlıq abidələri, çar Rusiyasında xidmət etmiş görkəmli şəxsiyyətləri – naxçıvanlı Kəlbəli xan, onun törəmələrinin, general-yavər, kavaleriya qvardiyası korpusunun komandiri Hüseyn xan Naxçıvanskinin taleyindən xalqımızın şərəflə yazılmış tarixi salnaməsi olaraq bəhs edilmişdir.

Heydər Əliyevin ailə üzvləri, önunla müxtəlif illərdə tanış olmuş insanların –müəllimləri, məktəb, tələbə yoldaşlarının, xatirələrinə yer verilmiş, Zərifə Əliyeva ilə münasibətlərindən ayrıca fəsildə bəhs edilmişdir. Qarşılaşdıqları çətinliklərə baxmayaraq gənc zabitin sevgisinə sadiqliyi onun insan kimi mərdliyini, şəxsiyyət kimi bütövlüyü xarakterizə edir. Bu hissədə Zərifə Əliyevanın obrazı onun rəfiqələri, müxtəlif illərdə birgə çalışdıqları həmkarlarının xatirələri vasitəsilə canlandırılır. Müasirləri onu həssas insan, qayğıkeş ana, ziyalı xanım, görkəmli alim oftolmoloq olaraq xarakterizə etmişlər.

Bu kitabda da Heydər Əliyevin müstəqillik dövründəki fəaliyyəti ilə yanaşı sovet dövrü fəaliyyəti əks olunmuş, müasirlərinin portretlərinə geniş yer verilmişdir. “Brejnev 1974-cü ildə Uzaq Şərqə səfəri zamanı artıq möhkəm xəstələnmişdi. Vəziyyəti getdikcə daha da pisləşməkdəydi. Müvəqqəti ayılmalar zamanı onun özü də artıq getmək vaxtının çatdığını başa düşür, amma hər şeyin olduğu kimi qalmasını istəyən ətrafdakılar Baş katibi bu addımdan çəkindirirdilər. “Sizi, Leonid İliç, heç kəs əvəz edə bilməz”.

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.13

[2] Yenə orada, s.12

Andrey Pavloviç Kirilenko da neçə müddət idi ki, prostatdan əziyyət çəkirdi. MK-nın katibi və Siyasi Büronun üzvü olsa da, artıq çoxdan idi ki, iclaslarda iştirak etməyə taqəti qalmamışdı.

Çernenko da müalicə olunurdu. Ustinovla Qromıko artıq yetmiş yaşı adlamışdılar...

Leonid İliçin səhnədən getməsinə iki il qalmış köhnə bolşeviklər Mixail Andreyeviç Suslovu, partiya iyerarxiyasında 2 N-li adamı, Starıy ploşadda təqribən yarım əsr ömür keçirmiş "boz kardinal"ı o dünyaya yola saldılar. Onunla, deyilənə görə, hətta Stalin də hesablaşırmış. Suslov o insanlardan idi ki, Stalindən sonra Kremldə başlayan hakimiyyət davasında Molotovu, Malenkovu, Kaqanoviçi və "onlara birləşən Şepilovu" (artıq lətifəyə çevrilmiş, rəsmi partiya sənədlərindən götürülmüş formula) kənarlaşdırmaqda Xruşşova kömək etmişdi. 1964-cü ilin aprelində Xruşşovun 70 yaşı tamam olanda hamıdan qabağa düşüb əziz Nikita Sergeyeviçin istirahətə getməyini elan etdi. On ildən sonra o, eynən beləcə partiya qəzəbi ilə Xuruşşovu ifşa etdi və Brejnevə odlu-alovlu tərif yağdırdı".[1]

Yenidən Heydər Əliyevin həmin dövrün siyasi elitasından ciddi şəkildə fərqləndiyi xüsusi vurğulanır. Bu fərq hamıya bəlli idi. "Tarixçi və publisist Roy Medvedevin sərrast ifadəsi ilə desək, "Kremlin səmasında yeni ulduz parlamağa başladı". İllər ötəndən sonra SSRİ-nin xarici işlər naziri və SSRİ rəhbərliyində ən hörmətli, nüfuzlu siyasətçi olan Andrey Qromıko o vaxt beynində parlamış bir fıkri açıqlamışdı. O, boynuna almışdı ki, "Heydər Əliyev Moskvaya gələndə mən düşünmüşdüm ki, SSRİ-yə məhz bu cür gənc və enerjili bir rəhbər lazımdır".[2]

Hər dövr öz kadrlarını yetişdirir. "Partiya qurultaylarında Mərkəzi Komitəni, Mərkəzi Komitənin plenumlarında isə Siyasi Büronu seçirdilər. Bəli, hər şeyi idarə edən, istiqamətləndirən, hər şeyi bilən əsas hakimiyyət məhz Siyasi Büroya məxsus idi. Siyasi Büronun özündə isə Baş katibin ətrafında hakimiyyətin əsas nüvəsi - Baş katibin son dərəcə etibar etdiyi yaxın adamları toplaşırdı. Stalinin son illərində bu nüvəyə Beriya, Malenkov, Molotov, Xruşşov daxil idi: Brejnev isə Ustinovun, Qromıkonun, Andropovun, Suslovun məsləhəti olmadan heç bir qərar qəbul etmirdi. Qorbaçov isə hamıdan çox

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.163

[2] Yenə orada, s.165

Yakovlevə, Şevardnadzeyə, Medvedyevə inanırdı...[1] Siyasi büronun tam tarixi bəlli olmadığı üçün müəlliflər mövcud bütün mənbələrə müraciət edərək həmin illərin gerçək mənzərəsini yaratmağa çalışmışlar. Sovet hakimiyyətinin strukturu və fəaliyyət sxemini incələyərək Siyasi Büronun tarixi haqqında ətraflı məlumat vermişlər.[2]

Sovet İttifaqının tarixinin bütün mərhələlərini əhatə edərək, hər bir dövrü xarakterizə etmişlər. Y.Andropovun hakimiyyəti illərində yeniləşmənin labüdlüyü və bu istiqamətdə aparılan işlər işıqlandırılmış, Heydər Əliyevin fəaliyyəti ilə bağlı bir çox şayiələrə aydınlıq gətirilmişdir. Leonid İliç Brejnevin Bakıya səfəri ilə bağlı təntənəli qarşılanma mərasimindən bəhs edənləri lider bu cür cavablandırır: "Çox səfeh sözdür, - deyə Heydər Əliyev daxilən etiraz edir.-Məgər ölkənin birinci adamının Azərbaycan Respublikasına tez-tez gəlməyinin, biz azərbaycanlıların mahiyyətcə qonaqpərvər olmağının nəyi pisdir ki? Bütün dünya kanallarının, radiostansiyaların diqqət mərkəzində olmağın nəyi pisdir ki? Ən əsası da, Baş katibin hər səfərini bəhanə gətirərək mərkəzi büdcədən yeni tikintilər üçün vəsait qopartmağın nəyi pisdir ki?" [3] Onun insanları inandıra bilmə bacarığı xüsusi vurğulanır. Azərbaycanda bir neçə ciddi müəssisələrin tikintisi ilə bağlı maneələrlə qarşılaşsa da Heydər Əliyev L.Brejnevə təsir edərək istədiyinə nail olmuşdur. Sovet elitasının ən yüksək məmurları onu yüksək qiymətləndirmişlər. L.Brejnev və Y.Andropovun ona olan etimadı hər bir bioqraf tərəfindən xüsusi vurğulanır. Yad mühitdə bu qədər inam qazanmaq, özününkü ola bilmək üçün fövqəlinsan olmaq gərəkirdi. Bioqrafları Heydər Əliyevi məhz hədsiz işgüzar, dəqiq, dözümlü, yüksək fiziki və mənəvi hazırlıqlı insan olaraq xarakterizə etmişlər.

Əsərdə onlarla insanın M.Qorbaçov haqqında fikirləri yer almış, yenidənqurma dövrünün mənzərəsi geniş əks olunmuşdur. M.Qorbaçovun obrazı müxtəlif insanların xatirələrində fərqli şəkildə canlandırılmışdır. Onun haqqında olan memuarları müqayisə edən müəlliflər Boldinin onu "yumşaq desək, səbrsiz, hövsələsiz adam kimi" təqdim etdiyini, ikinci köməkçisi, milliyyətçə erməni olan Qeorqiy Xosrovoviç Şahnazarovun isə "çox həlim bir insan portre-

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.166-167

[2] Yenə orada, s.167

[3] Yenə orada, s.159

ti" çəkdiyini qeyd etmişlər.[1] Bunun əksinə olaraq Heydər Əliyevlə illərlə birgə çalışmış, onun böyük komandasının üzvlərinin fikirlərində parçalanma hiss olunmur. Ona müxalifətdə olan insanlar belə onun əsl insan, siyasətçi olaraq böyüklüyünü qəbul edirdilər. M.Qorbaçovun düşünülməmiş qərarlarının nəticəsi olaraq cəmiyyətdə yaşanan problemlərin kəskinləşməsi baş verir. Həmin dövrün ən böyük faciələrindən biri olaraq Kolbinin Qazaxstana rəhbər olaraq göndərilməsi nəticəsində baş verən hadisələr xatırlanmışdır.[2]

Heydər Əliyev Qorbaçovun "düşünülməmiş, elmi cəhətdən, yaxud praktikada sınaqdan keçirilməmiş nəzəri reformaların həyata keçirilməsi"[3] ilə razılaşa bilmirdi. Zamanla onun narazılıqlarının haqlı olduğu meydana çıxdı.

Ötən əsrin 70-ci illərinin durğunluq dövrü adlandırılması ilə razılaşmayan müəlliflər, konkret faktlar əsasında həmin illərdəki inkişafa diqqət yönəltmişlər. "Bir neçə il keçəcək və yetmişinci illəri "durğunluq dövrü" adlandıracaqlar. Amma soruşan gərəkdir ki, kimlər daha çox durğunluq halındaydı? Bütöv bir epoxaya, milyonlarla zəhmətkeşin əməyinə belə alçaldıcı bir damğa vurmağa kimə haqq verilib? Əlbəttə ki, nə Baykal-Amur magistralının tikintisində, nə Qərbi Sibirin, Xəzər dənizinin neft mədənlərində, nə Donbassın, Kuzbasın, Karaqandanın şaxtalarında heç bir durğunluqdan əsər-əlamət də yox idi. Azərbaycanın təsərrüfatlarından da durğunluq rütubətinin iyi gəlmirdi. Burada Əliyevin rəhbərlik etdiyi on beş ilə yaxın bir müddət ərzində adambaşına düşən yerli məhsulun həcmi demək olar ki, iki dəfə artmışdı. Ümumi istehsal gücü isə iki dəfə yarım artmışdı. Milli gəlirin artımı 1969-cu ildəki ümumi istehsal həcminə bərabər idi. Sənaye istehsalı təxminən üç dəfə, əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı üç dəfə artmışdı. Bu illər ərzində sənaye məhsullarının istehsal həcmi əvvəlki 50 ildəki həcmə bərabər idi. İki yüz əlliyə yaxın zavod, fabrik, sex tikilmiş, iki milyondan artıq insan mənzil şəraitini yaxşılaşdırmışdı. Bu illər ərzində respublika demək olar ki, ikinci Bakını tikmişdi, şəhər əvvəlkindən iki dəfə böyük idi. Azərbaycan neft məhsulları, neftçıxartma avadanlığı, polad borular, rəngli metallar, sintetik kauçuk,

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.235

[2] Yenə orada, s.237

[3] Yenə orada, s.237

elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil şinləri, mineral gübrələr, saxsı məmulatlar, xalça və xalçaçılıq məmulatlarının istehsalı üzrə SSRİ-də qabaqcıl yerlərdən birini tutmuşdu. Azərbaycanda istehsal olunan üç yüz əlli adda məhsul dünyanın altmış beşdən çox ölkəsinə ixrac olunurdu. Respublikada elektrotexnikanın, maşınqayırma sənayesinin yeni sahələri yaradılmış, neft emalı zavodlarında böyük miqyaslı rekonstruksiyalar aparılmış, Bakıda isə yeni metropoliten stansiyaları tikilmişdi. Azərbaycanın təcrübəsi, nailiyyətləri, ən əsas da onun qeyri-adi lideri bütün dünyanın, xüsusilə, Yaxın Şərq, Afrika, Latın Amerikası ölkələrinin diqqətini cəlb etmişdi. Sovet İttifaqının Asiya və Afrika ölkələri ilə Həmrəylik Komitəsinin sədri Aleksandr Dzasoxov SSRİ-nin yaranmasının altmış illiyi ərəfəsində (1982-ci il) Bakıda “Postkolonial dünyanın gənc müstəqil dövlətlərinin milli azadlıq hərəkatlarına SSRİ-nin siyasi, diplomatik, iqtisadi və mənəvi yardımına həsr olunmuş böyük beynəlxalq forum” keçirməyi təklif etmişdi. Konfransa əllidən çox ölkənin yüksək vəzifəli nümayəndələri, milli azadlıq hərəkatlarının liderləri gəlmişdilər. Hazırda Rusiya Federasiyasının Federal Məclisinin üzvü Aleksandr Dzasoxovun dediyinə görə, ali qonaqlar Heydər Əliyevlə görüşdən, beynəlmiləlçi, çoxkonfessional şəhər olan Bakı ilə tanışlıqdan, şəhərdə tarixlə müasirliyin, beynəlmiləl yaşayış formalarının, yüksək səviyyəli sənayenin, elmin vəhdətindən vəcdə gəlmişdilər. Əliyev çalışırdı ki, Azərbaycan sovet respublikaları arasında layiqli yer tutsun, respublikanın nümayəndələri ümumittifaq miqyasda olan vəzifələrə irəli çəkilsinlər, əlbəttə ki, öz savadlarına, təşkilatçılıq qabiliyyətlərinə uyğun olaraq. Məsələn, tacik şairi və beynəlxalq səviyyəli ictimai xadim Mirzə Tursunzadənin vəfatından sonra, Asiya və Afrika ölkələri ilə Həmrəylik Komitəsinə kimin rəhbərlik edəcəyi məsələsi qalxdıqda Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın böyük ədibi, məşhur romanların müəllifi, görkəmli alim, ensiklopedik biliyə malik yazıçı və ictimai xadim Mirzə Əjdər oğlu İbrahimov bu vəzifəyə təqdim olunmuş və yekdilliklə komitənin sədri seçilmişdi. Amma həmin illərə nə qədər çirkab yaxmışdılar; həyatları boyu heç bir faydalı iş görməyən, heç yerə bircə mismar belə çalmayan “yenidənqurma mühəndisləri”, onların nökərçələri görülən işlərə və insanlara şər atmışdılar. Əliyev respublika partiya təşkilatının yetmişinci illərdəki

fəaliyyətinə qara yaxanların qarşısına konkret rəqəmlərlə, faktlarla çıxırdı”.[1]

Ümummilli öndərin həyatının tam şəkildə əhatə edildiyi əsərdə ayrıca günlər fərqləndirilmiş, konkret hadisələr qabardılmışdır: “10 may1923-cü il, Naxçıvan”, “22 iyun 1941-ci il, Naxçıvan”, “21 dekabr 1980-cı il, Bakı”, “15 iyul 1997-ci il, Bakı”, “2 dekabr 1982-ci il, Bakı”, “22 noyabr 1982-ci il, Moskva” və s.

Ümummillilliderin müxtəlif illərdə çalışdığı mühit və insanlardan ətraflı şəkildə bəhs olunur: Naxçıvandakı fəaliyyətinin ilk illəri, sonradan Bakı mühiti, Moskva və yenidən Azərbaycana qayıdış illəri. 90-cı illərdən öncə Naxçıvanda, sonra isə müstəqil respublikaya rəhbərlik etdiyi dövrdə qarşılaşdığı qarşıdurmalar əks olunmuşdur.

Heydər Əliyevin Azərbaycanın Dövlət Təhlükəsizlik Xidmətində çalışdığı illərdən bəhs edərkən həmin dövrü xalqının fəlakətlərinin daha yaxından öyrənməsi illəri kimi göstərilmişdir. Kitabda Salman Mümtazın, Hüseyn Cavidin acınacaqlı taleyindən bəhs olunmuş, Hüseyn Cavidin işi ilə bağlı materiallardan istifadə edilmişdir.[2]

Heydər Əliyevin müxtəlif insanlarla dialoqlarını mətnə daxil edən müəlliflər, siyasi liderin ünsiyyət tərzini canlandırmağa çalışmışlar. “Qəbul otağında katib onu təbəssümlə qarşıladı:

- Heydər Əliyev xahiş edir ki, onu bağışlayasınız. Bu saat onun vacib bir görüşü var. Görüş başa çatan kimi sizi qəbul edəcək.

On dəqiqədən də az bir vaxt keçir və Qavrilovu otağa dəvət edirlər.

- Sonralar mən dəfələrlə əmin oldum ki, Heydər Əliyev dəqiq, hətta deyərdim ki, son dərəcə dəqiq adamdır. Başqalarından da belə dəqiqlik tələb edirdi.

Əliyev stol arxasından qalxıb mənə tərəf əlini uzatdı.

- Xahiş edirəm, əyləşin, Aleksandr Timofeyeviç. Ən əvvəl deyin görüm boş vaxtınızı necə keçirirsiniz, xobbiniz varmı?

- Bilirsiniz, Heydər Əliyeviç, mənim heç bir xobbim yoxdur, - deyə Qavrilov cavab verir.

- Balıq tutmağı necə, xoşlayırsınızmı?

- Yox.

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.152-154

[2] Yenə orada, s.77

- Bəs, ovla da aranız yoxdu?

- Yox.

- Poçt markaları da yığmırsız?

- Yox.

- Bəs, boş vaxtınızı necə keçirirsiniz?

- Mütaliəni sevirəm, yazmağı xoşlayıram.

- Mən də yazıb-oxumağı sevirəm, – deyə Heydər Əliyev münasibətini bildirir. – Siz yəqin ki, mənim çıxışlarımı oxumusunuz?

Qavrilov başını tərpədir: – Bəli, oxumuşam.

Mənim yazı üslubumu çox qısa şəkildə necə qiymətləndirə bilərsiniz?

- Çox publisistikdir, – Aleksandr Timofeyeviç çox dəqiq şəkildə lazım olan formulu tapır.

- Düzdür!

Lakin onların tanışlığı bununla bitmir.

- Mən sizi demək olar ki, tanımıram, – deyə Heydər Əliyev davam edir. - Ona görə də sizi özümə köməkçi götürməklə müəyyən qədər riskə getmiş oluram.

- Elə mən də riskə gedirəm, – Qavrilov ona eyni tərzdə cavab verir. - Əgər işin öhdəsindən gəlməsəm, öz qərarımı özüm verməli olacağam.

Cavab Əliyevin xoşuna gəlir və onu da qeyd edir ki, birlikdə işlədiyi adamları heç vaxt atmayıb. Əgər kiminləsə nə səbəbdənsə yolları ayrılıbsa da, elə ayrılıb ki, həmin adam heç nə itirməyib.

- Bunu mən sizə söz verirəm.

- Onda Heydər Əliyeviç, bu, məni qane edir. Həyat özü, ümumiyyətlə riskdir.

- Çox gözəl, – Heydər Əliyev gülümsünür, – onda sənədləşməni aparın və işə başlayın.

Qavrilov üç il ərzində Heydər Əliyeviçin köməkçisi vəzifəsində çalışıb. Öz rəisi haqqında isə yalnız xoş sözlər deyir. Əmindir ki, imkan versəydilər, Əliyev ölkə üçün hələ çox işlər görə bilərdi”.[1]

Kitabda 70-ci illərdə respublikda bütün sahələr üzrə - sənaye, mədəniyyət, iqtisadiyyat və başqaları olmaqla ölkəmizin inkişafı və içctimai-siyasi həyatı əks olunmuş, müxtəlif illərdə onunla qarşıla-

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.223-224

şan insanların təəssüratları verilmişdir: "...bu insan hər şeylə maraqlanır, onda zərrə qədər də tənbəllik yoxdur"[1] Boris Pastuxov; "Onunla Gürcüstanın birinci katibi Eduard Şevarnadze arasında üstüörtülü bir rəqabət gedirdi və bu yarışmada Heydər Əliyev, onun rəhbərlik etdiyi Azərbaycan şəksiz qələbə qazanırdı. Çünki Heydər Əliyev daha intizamlı, inadkar və təşkilatçılıq baxımından çox mütəşəkkil bir rəhbər idi" (Evqeniy Primakov).[2]

Kitabın 2005-ci ildə rus dilində çap olunmuş variantında V.Andriyanovun gündəliyindən bir hissə verilmişdir. V.Andriyanov 1988-ci ildə Bakıda olmuş, ölkədə baş verən hadisələri izləmiş, həmin günlərdə qələmə aldığı "Bakı gündəlikləri" başlıqlı gündəlik qeydlərini kitaba daxil etmişdir. 28 noyabrdan 31 dekabr 1988-ci il tarixinədək aparılan qeydlərdə şəhərdə yaşanan izdiham, qarışıqlıq əks olunmuş, müxbirin müxtəlif vəzifə sahibləri – Vaqif Qasımov, V.Polyaniçko kimi səlahiyyətli şəxslərlə görüşlərindən bəhs olunmuşdur. Tətillərin keçirildiyi meydanda iştirak edən, oradakı insanlarla söhbət aparan müxbir qeydlərini bu çür tamamlamışdır: "Gündəlik hadisələrin tezliklə aradan qalxacağı barədə ümidlə tamamlansa da, təəssüf ki, bu arzular həyata keçmədi.

Ölkə uçuruma doğru yuvarlanırdı..."[3] (tərcümə məqalə müəllifinindir).

Müxtəlif müəlliflər tərəfindən qələmə alınan bioqrafiyalarda Heydər Əliyevin ömrünün əsas mərhələlərindən təkrar-təkrar bəhs edilir. Belə ağır, çətin dövrlərdən biri fərdi təqaüdçü Heydər Əliyevin Moskvada keçirdiyi illərdir.

Qarabağ probleminin ilk mərhələsi, Heydər Əliyevin bu hadisələrin vaxtında həlli istiqamətində cəhdləri, Qorbacovla görüşməyə can atması, digər səlahiyyətli şəxslərlə görüşlərinin nəticəsiz qalmasından bəhs edərək, onun necə narahat olduğu, digərlərindən fərqli olaraq zamanında məsələnin mürəkkəbliyini dərk etdiyi qeyd olunmuşdur.[4]

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.107

[2] Yenə orada, s.131

[3] Андриянов В., Мираламов Г. Гейдар Алиев. Жизнь замечательных людей. Вып. 1132 (932), Москва, Молодая гвардия, 2005, с.213

[4] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.213

Kitabda sənədlərə geniş yer verilmişdir. Heydər Əliyevin 18 oktyabr 1981-ci il tarixində "Литературная газета"da çap olunmuş müsahibəsi, rus yasızıçı Aleksandr Proxanovla söhbəti, Sov.İKP-dən çıxmağı haqqında məktubu da kitabda yer almışdır, haqqında çəkilmiş filmdən, Qarabağ məsələsi ilə bağlı onlarla sənədlərdən istifadə olunmuşdur. 21 yanvar 1990-cı ildə Moskvada Əliyevin Azərbaycan nümayəndəliyi qarşısında çıxışının, Azərbaycanın xalqına ünvanladığı nekroloqun mətni verilmişdir.[1] Çıxışında Sovet rəhbərliyini ittiham edən Heydər Əliyev bildirir: "Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı". Əliyev Azərbaycanda vəziyyətin siyasi tənzimlənmə imkanlarının mövcud olduğunu nəzərə çatdırırdı. "Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəticədə isə yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə sovet ordusunun, SSRİ DİN qoşunlarının böyük kontingenti yeridilmişdir. Bunun törətdiyi faciələr hamınıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələrilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişdilər".[2]

Bu hadisələrin təfsilatı ilə təsviri Heydər Əliyevə qarşı aparılan kampaniyaların səbəblərinin aydınlaşmasına imkan verir.

İkinci dəfə hakimiyyətə qayıtdığı Naxçıvan dövrü ölkəmizin tarixində ən mürəkkəb mərhələ idi. Dünyanın diqqəti ölkəmizdə baş verən hadisələrə yönəlmişdi. Həmin ərəfədə bir çox səfirlər, müxbirlər, onunla görüşməyə can atırdılar. O zaman onlarla ölkə müxbiri Heydər Əliyevlə müsahibə almışdılar. Hadisələri canlı izləyən xarici vətəndaşlardan biri də rus yazıçısı Aleksandr Proxanov idi. Bu mürəkkəb vəziyyətdə Heydər Əliyevin ölkədəki rolunu müəyyən et-

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.214-217
[2] Yenə orada, s.267-268

məyə çalışan yazıçı yazır: "Əliyev, mahir psixoloq olaraq, hər kəsi özünüifşaya gətirib çıxarır, hər kəsdən hakimlik potensialını alır, səviyyəsini aşağı salır, hakimlik mifindən məhrum edir, məddah televiziyanın yaratdığı surəti faş edirdi. O, bu kəsləri iqtidar mərkəzilə bağlayan telləri bir-bir qırır, bu telləri öz üzərinə qapayırdı, çünki indi bu mərkəzdə duran özüydü, dağılmış idarəetmənin ilk kövrək strukturunu qururdu. Necə çətin bir şəraitdə işlədiyi, yetmiş yaşlı siyasətçidən necə səbr və təmkin tələb olunduğu görünürdü. Bu məqamda onu mütəhərrik edən qalibanəlik, revanş hissi yox, vurulmuş, alovlanan təyyarənin sükanını ələ almış pilotun sərrast ölçülüb-biçilmiş səriştəsi idi".[1]

Müstəqillik dövrü Azərbaycan tarixində iki mühüm hadisə əsrin müqaviləsi və Qarabağ probleminin aradan qaldırılması istiqamətində fəaliyyəti xüsusi qeyd olunmuşdur.

Müasirləri Heydər Əliyevi həyatın enişlərinə və yüksəlişlərinə, təzyiqlərinə sinə gərərək yenidən siyasətə qayıdaraq xalqını ağır durumdan şıxaran lider, ölkəsinin yeni dövr tarixinin memarı olaraq xarakterizə etmişlər. "Deyirlər, bir çaya iki dəfə girmək mümkün deyil, - Şimali Osetiya Prezidenti Aleksandr Sergeyeviç Dzasoxov onun fəaliyyətini bu cür qiymətləndirir, -... Heydər Əliyevi bir insan kimi incitdilər, lakin o, antik qəhrəmanlar kimi doğma torpağına qayıtdı, bu yerlərdən yeni güc aldı və öz xalqına sahib çıxdı".[2]

Neft sektorunda imzalanan müqavilələrin mətninin təhlili ilə bağlı proseslərin təsviri Heydər Əliyevin bu sahənin işə düşməsi üçün nə qədər səylə çalışdığını bir daha sübut edir. İşgüzar görüşlərin stenoqramını təhlil edən müəllif onun iş prinsipini bu cür təhlil edir: "... digər müşavirələrin stenoqramları da eynilə bu cür konkret və kəskindir. Ümumi səciyyəli, "daha yaxşı işləmək lazımdır" kimi çağırışlar, göstərişlər yox, vəziyyətin sərrast təhlili var. İstər söhbət qazma qurğularının istifadəsindən, istərsə də yerli kadrların cəlb olunmasından getsin, fərqi yoxdu".[3]

Ümumi müddəalar deyil, beynəlxalq müqavilələrdə milli maraqları, kadrların müdafiəsinə səsləndirdiyi konkret fikirlər xüsusi vurğulanır: "Hərdən eşidirəm ki, bu kompaniyalar buraya, hətta fəh-

---

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.352

[2] Yenə orada, s.449-450

[3] Yenə orada, s.409

lə gətizdirmək istəyirlər. Mən əvvəlcədən xəbərdarlıq edirəm və Azərbaycan Dövlət Neft Şirkətinə sərəncam verirəm ki, buna nəzarət etsinlər, biz bununla razı deyilik. Siz bilirsiniz ki, Azərbaycan neftçiləri yüksək səriştəyə malikdirlər. Azərbaycanın neft sahəsində məşhur alimləri, mühəndisləri, yüksək ixtisaslı fəhlələri var. Bütün bunlar reallıqdır. Neft sazişləri bağlanmış bütün yataqlar Azərbaycan mütəxəssisləri, alimləri tərəfindən kəşf edilmişdir. Azərbaycan artıq 50 ildən çoxdur ki, nefti dərin dəniz qatlarından hasil edir. Azərbaycan neftçiləri neftçıxarma ilə yalnız vətənlərində yox, vaxtı ilə Vyetnamda da məşğul olmuşlar. Bildiyiniz kimi, Vyetnamın cənubunda, dənizdə Vunqtau adlanan yer var. Orada neftin kəşfiyyatı və hasil edilməsilə ilk dəfə məhz Azərbaycan neftçiləri özlərini sınağa çəkmişlər. Mən 1983-cü ildə Vyetnamda olduğum zaman Azərbaycan neftçilərinin işlədikləri yerlərə getdim və bütün bunları gördüm. İndi Vyetnam orada bol neft çıxarır. Azərbaycan neftçiləri Kubada, Rumıniyada, Hindistanda neft hasilatı sahəsində çalışmışlar. Və buna görə də Azərbaycan neftçiləri yüksək səriştəli mütəxəssislər sayılırdılar. Hesab edirəm ki, istər Azərbaycan mühəndisləri, istərsə də texnikləri, fəhlələri bu işlərə geniş cəlb olunmalıdırlar.[1]

Kitabda Heydər Əliyevin davamçısı, müstəqil Azərbaycanın inkişafında müstəsna xidməti olan insan, İlham Əliyevdən geniş bəhs olunmuş, 90-cı illərdə ölkənin neft siyasətindəki rolu, bu sahədəki fəaliyyəti yetərincə işıqlandırılmışdır.

İlham Əliyevin təklifi ilə Azərbaycan nefti haqqında kitaba əlavə edildiyi qeyd edilir. "Əsası Heydər Əliyev tərəfindən qoyulan nəşrə, onun oğlu - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daha 2 cildin əlavə olunmasını təklif etdi. Materiallar Heydər Əliyevin ABŞ, Rusiya və digər dövlətlərə səfərləri, danışıq və müsahibələri içərisindən seçildi. Kitablar Heydər Əliyevin təklif etdiyi "Azərbaycan nefti dünya siyasətində" adı ilə dərc olunduğu oğulun atasının yolunu davam etdirdiyi vurğulanır.[2]

Dövlətimizin əsas milli konsepsiyası olan azərbaycançılığın "mətbuatdan və ədəbiyyatdan ictimai-siyasi müstəviyə çıxarılması kimi çətin və şərəfli vəzifənin həlli görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olan tarixi xidmətidir. Məhz Ümummilli lider

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.410
[2] Yenə orada, s.435

Heydər Əliyev yaşadığı dövrün siyasi quruluşunun sərt qadağalarına baxmayaraq, Azərbaycan anlayışına geniş müstəvidə baxışlar sistemini formalaşdırmışdır. Heydər Əliyevin simasında tariximizdə ilk dəfə olaraq Azərbaycan məsələsinə dövlət səviyyəsində kompleks şəkildə yanaşılmış, problemə ardıcıl siyasi münasibət bəslənmiş və konkret nəticələr əldə olunmuşdur. Azərbaycançılığın dövlət ideologiyası səviyyəsində formalaşdırılması və təsdiq edilməsi, qəbul olunması Heydər Əliyevin müstəqil dövlətçilik uğrunda mübarizəsinin əsas ana xətlərindən birini təşkil edir. Görkəmli dövlət xadimi Heydər Əliyev azərbaycançılıq siyasətini özünün çoxcəhətli fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürmüş, bu ideologiyanın xalqın milli şüurunda və dövlətçilik təfəkküründə inkişaf etdirilib möhkəmləndirilməsi işini həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Məhz Heydər Əliyevin çoxcəhətli və ardıcıl siyasəti nəticəsində azərbayçancılıq ictimai-ədəbi mühitdə milli hərəkat, siyasi müstəvidə isə dövlət ideologiyası mahiyyəti qazanmışdı".[1]

Heydər Əliyevin bu sahədə həyata keçirdiyi işlər xüsusi vurğulanmışdır. "Topçubaşov əsl dövlətin yaradılmasında, ilk növbədə daxili sabitliyin olmasını vacib amil kimi qeyd edirdi. Heydər Əliyev öz fəaliyyəti zamanı məhz bu ideyanın reallaşmasına can atırdı. Heydər Əliyev həmin nəzəriyyənin təşəbbüskarı olaraq bütün xalqı, cəmiyyəti bir yerə toplaya bildi. Bu, azərbaycançılıq idi. Dünya Azərbaycanlılarının I Qurultayındakı hesabatı zamanı Əliyev dedi: – Biz azərbaycanlıyıq. Azərbaycan hamımızın vətənidir. Bu torpaq bizi bir millət, bir xalq, bir şəxsiyyət kimi yetişdirib. Ona görə hər birimizin qəlbində azərbaycanlı ruhu var. Məhz bu azərbaycançılıq ruhu, ideyası bizi bir-birimizlə birləşdirən, daha sıx möhkəmlədən amilə çevrilib. Hər bir dövlətdə milli ideologiya mövcuddur. Azərbaycan Müstəqil respublikasının milli ideologiyası – azərbaycançılıq ideologiyasıdır".[2]

90-ci illərdən sonrakı dövrdə müstəqil Azərbaycanın ziyalılarının ölkənin ictimai-siyasi həyatında fəal mövqeyi, Cənab Əliyevə ünvanladıqları müraciət və onun cavabı tam şəkildə mətndə veril-

---

[1] Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, 2013, Əcəmi, 31s.

[2] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.488

mişdir. Respublika ziyalılarına ünvanlanmış çavab məktubunda[1] konkret fəaliyyət istiqamətlərindən bəhs edilmiş, gələcək planlar əks olunmuşdur. Görüləcək işlər konkret başlıqlar altında bu cür qruplaşdırılmışdır: "Qarabağ məsələsinin həll olunması və Azərbaycanın müharibə vəziyyətindən çıxması"; "Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi və əhalinin həyat səviyyəsinin aşağı düşməsi..."; "Hökumətin kadr siyasəti..."; "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi..." və "Son dövrlər Azərbaycanı parçalamaq kimi təhlükəli tendensiyalar...". 1992-ci ilin oktyabrında yazılmış bu məktubda Heydər Əliyev mürəkkəb situasiyanı dəqiqliklə təsvir etmiş, problemlərin aradan qaldırılması yollarını müəyyənləşdirmişdir. 1992-ci il 21 noyabr tarixində Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransında partiyanın məqsədlərindən bəhs edən Ümummilli lider bəzi məqamlar üzərində geniş dayanmışdır: "Bu partiya hakimiyyət uğrunda mübarizə aparan partiya kimi yaranmadı. Biz partiyanın nizamnaməsində yazırıq ki, partiya Azərbaycanın bu ağır dövründə, ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır. Bu partiya parlament tipli partiyadır. Partiya yaranarkən heç kəs qarşıya məqsəd qoymurdu ki, biz hakimiyyəti devirəcəyik. Necə ki, indi ayrı-ayrı müxalifət qüvvələri hakimiyyəti devirmək haqqında, yaxud da hakimiyyət uğrunda mübarizə aparacaqları barədə ayda bir dəfə bəyanatlar verirlər. Bizim partiya xalqı birləşdirmək və Azərbaycanın o vaxtkı mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədilə yarandı. Mən məmnunam ki,1992-ci ildə çox ağır şəraitdə Naxçıvanda bizim yazdığımız və qəbul etdiyimiz proqram bu gün də öz aktuallığını saxlayıbdır. Demək, biz o vaxt nə qədər uzaqgörənlik etmişik, ölkəmizdə olan vəziyyəti nə qədər düzgün qiymətləndirmişik və partiyamızın gələcək yolunu, istiqamətini nə qədər düzgün müəyyən etmişik".[2]

***

[1] Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Görkəmli adamların həyatı. 1205 buraxılış, Bakı, Nurlan, 2008, s.324-327

[2] Yenə orada, s.330-331

*"Heydər Əliyev Azərbaycanın keçmişini və gələcəyini öz şəxsiyyətində simvola çevirir.*

*...Türk dünyasının XX əsrdə yetişdirdiyi məşhur liderlərdən biri olan Heydər Əliyevin müstəqil Azərbaycanın taleyində mühüm rol oynayacağına insan onu yaxından tanıdıqca daha çox inanır... Çünki Əliyev kimi öz doğma vətəninin torpağında tumurçuqlanan liderlər ölənə qədər tarixin inkişafında rol oynamağa məhkumdur".*

***İrfan Ülkü***

Türkiyənin tanınmış qələm adamı İrfan Ülkü "Moskvayla İslam arasında Orta Asiya", "Trotskiçi imperatorluq", "Türklüyün son cəbhəsi. KQB arxivlərində Ənvər paşa", "Böyük oyundakı türk - Ənvər Altaylı" kimi bir çox sənədli-publisistik kitabların müəllifidir. Onun 1993-cü ildə qələmə aldığı "Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı" kitabı Ulu öndər haqqında yazılmış ilk kitablardan biridir (əsər 1994-cü ildə Kübra Quliyeva tərəfindən Azərbaycan türkcəsinə uyğunlaşdırılmışdır). 2000-ci ildə yazar Azərbaycan haqqında daha bir publisist əsər qələmə almışdır. "Müstəqillikdən sonra Azərbaycan" kitabında Müstəqil Azərbaycanın ilk beş ilindən, Heydər Əliyevin həmin dönəmdə qarşılaşdığı çətinliklərdən bəhs edilmişdir.

1980-ci illərin ortalarında Heydər Əliyevin Siyasi Büroda Orta Şərq üzrə səlahiyyətli nümayəndə olaraq çalışdığı dövrdəki fəaliyyətindən bəhs edilərkən onun yalnız "Azərbaycan xalqının deyil, bütün türk və müsəlman dövlətlərinin lideri missiyasını" yerinə yetirdiyi vurğulanır.[1] Həmin illərdən başlayaraq Heydər Əliyev Orta Şərqdə tanınmağa başlasa da, xarici mətbuat, əsasən türk jurnalistlər onunla Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri olduğu zaman əyani şəkildə müsahib ola bilmişdilər.

1991-ci ildə Türkiyənin təcrübəli müxbirlərindən biri olan İrfan Ülküyə Heydər Əliyev haqqında material hazırlanması tapşırılmışdır. On gün müddətində Naxçıvanda Heydər Əliyev ilə ünsiyyətdə olan İrfan bəy nəticədə kolleqaları tərəfindən (Kən'an Akın) "dünya miqyasında bir jurnalistlik nümunəsi" adlanan "Qızıl ulduzdan hilala" kitabını qələmə alımışdır.

[1] Забелин М., Татаренко В. Гейдар Алиевич: лидер, политик, друг. Документально-публицистический очерк. Баку, «Нурлан», 2005. - с.45

Türk müəlliflərinin Heydər Əlirza oğlu haqqında kitablarında, əsasən Sovet imperiyasının türk xalqlarına qarşı siyasəti ifşa edilmiş, onun kimi sovet dövlətində çalışmış türk xadimlərin "Fəth edilə bilməyən Turan"ın müstəqilliyinin təməl daşlarının qoyulmasında rolu vurğulanmışdır.[1]

İlk hissədə sovet rejimi ilə bağlı maraqlı bir epizoda müraciət edən müəllif sistemin iç üzünü faş etməyə çalışmışdır. Tarixdən məlum olduğu kimi, ikinci dünya müharibəsi başa çatdıqdan sonra Yaltada üç hərbi qalibin - Stalin, Ruzvelt və Çörçilin görüşündə sovet diktatorunun arzusu ilə müqaviləyə gizli maddə əlavə olunur. Tarixçilər tərəfindən "Yalta xəyanəti" adlandırılan həmin bənddən bəhs edən İrfan bəy həmin sazişə əsasən, İnönü hakimiyyəti tərəfindən qırmızı hökumətə təhvil verilərək güllələnən günahsız türklərin talelərindən bəhs etmişdir. "Almanlar Sovet Rusiyasına basqın etdikdən sonra çoxu öz istəyi ilə onlara təslim olan, bir qismi də əsir alınan bir milyona yaxın sovet əsgərini qacaq Qızıl Ordu generallarından Vlasovun rəhbərliyi altına toplayıb təlim keçmiş və rus cəbhəsinə göndərmişdilər.

Bu əsgərlərin böyük əksəriyyəti sovet əsarəti altında türk respublikalarından olan adamlar idi: tatarlar, çeçenlər, ukraynalılar, türküstanlılar, özbəklər və Azərbaycan türkləri. Qurulmasına Hitlerin şəxsən özünün nəzarət etdiyi bu ordunun əsgərlərinin müharibədən sonra qırmızı diktatorluq üçün böyük bir problem ortaya çıxaracağını, Qərbin onları yenidən təşkilatlandırıb onlara qarşı istifadə edəcəyini nəzərə alaraq Stalin vaxt itirmədən Yalta müqaviləsinə Vlasov ordusuna mənsub bu "vətən xainləri"nin tezliklə Sovet İttifaqına qaytarılmalarını irəli sürən bir maddə daxil etmişdi".[2] İqdıra gətirilən "yüz ölüm yolçusu" onları Boraltac körpüsündə gözləyən Xalq Daxili İşlər Komissarlığının işçilərinə təslim edilmiş, elə oradaca qırmızı hökumət nümayəndələri tərəfindən güllələnmişlər. "Azərbaycan şairi Almas İldırım bu dəhşətli hadisəni eşitdiyi vaxt Türkiyəyə "Günahmı?" şeiri ilə belə müraciət etdi:

*Bir suçmu düşmənə köks verdiyim*
*Günahmı türklüyə könül verdiyim*

---

[1] Ülkü İ. Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, Azərbaycan, 1994, s.74

[2] Yenə orada, s.6-7

*Moskvanın açdığı yaradan betər*
*Ana yurdda doğma qardaşdan gördüyüm.*
*Səslənsəydim səs çıxardı hər daşdan,*
*Nə gözləyərsən korşalan bir başdan”.*[1]

Müharibədən sonrakı dövrdə XDİK-in “Dövlətin təhlükəsizliyini təmin etmək” və “Alman casuslarını təmizləmək” adı altında Sovet İttifaqında bir milyon nəfərin öldürüldüyünü diqqətə çatdıran müəllif Qırmızı hökumətin amansızlığından bəhs etmişdir.

Bu cür ağır ictimai-siyasi dövrdə dünyaya göz açan Heydər Əliyevin bütün maddi çətinliklərə, ailəsinin ağır durumuna baxmayaraq təhsil almağa can atması Ümummilli liderin bioqrafiyasının əsas məqamı olaraq xatırlanmış, gəncin memar olmaq istəyinin doğma məkanı ilə əlaqəli olduğu qeyd olunmuşdur. Ulu öndər öz vətənini bu cür vəsf edirdi: “Əslində belə bir arzunun yaranmasında doğulub-böyüdüyüm doğma yurdum Naxçıvanın “memarlar yurdu” olmasının da az təsiri olmamışdı. Gəzin buraları, görün ki, bizdə incəsənət kimi memarlıq işlərinə necə ruh, şəkil verilmişdir. Naxçıvan çox böyük memarlar yetişdirmişdir. Bizim ən böyük usta memarımız Əbubəkr Əcəmi Naxçıvaninin monumental əsərləri hələ də yaşayır. Sanki bir necə il bundan qabaq tikilmişdir. Sanki insana canlı görünən bu türmə, came və karvansaralardan əsrlər heç nə qopara bilməmişdir. Sanki bu sənət əsərləri tilsimlidirlər. Memar Sinan da Naxçıvanı ziyarət edərkən Əcəminin əsərlərinə heyran olmuş. Onları uzun müddət tədqiq etmiş və öz yaradıcılığında Əcəmi üslubundan bəhrələnmişdir”.[2]

Müsahibə formasında qələmə alınan kitabın əsas özəlliyi ondadır ki, həyatının qaranlıq məqamlarına Heydər Əliyev özü aydınlıq gətirmişdir. Ümummilli lider xatirələrini qələmə almadığı üçün bu gün onun müsahibələri böyük əhəmiyyət daşıyır. Onun müxtəlif ölkələrin jurnalistlərinə verdiyi müsahibələri haqqında yazılan kitablarda əsas istinad mənbəyinə çevrilmişdir.

Sovet quruluşuna yad kapitalist bir dövlətin vətəndaşı olan İrfan Ülkü ilk öncə Heydər Əliyevin yaşadığı mühiti və quruluşu dərk etməyə çalışaraq Sovet hökumətinin liderlərindən bəhs etmiş, siste-

---

[1] Ülkü İ. Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, Azərbaycan, 1994, s.9

[2] Yenə orada, s.16

min əsas iş prinsiplərini müəyyənləşdirməyə çalışmışdır. Sovetlər İttifaqının qurulmasının ilk illərindən bəhs edən müəllif Leninlə Stalin qarşıdurmasından, terror vasitəsilə dövlətlərin SSRİ tərkibinə daxil olmağa məcbur edilməsindən bəhs etmiş, Stalinin heç bir qayda-qanuna əsaslanmayan siyasətini, Qafqaz xalqlarına qarşı amansızlığını ifşa etmişdir. "Yüz başlı milliyyətçi əjdahanın başını əzmək! Milliyyətçi ünsürləri odlu dəmirlə dağlamaq!" kimi prinsiplərə əsaslanan diktatorun amansız siyasətindən bəhs edən yazar onun qurbanına çevrilmiş ilk türk siyasətçilərindən biri olan Nəriman Nərimanovu ehtiramla anmışdır. 1920-ci ildə Gənc Türkiyə Respublikasının deputatı, milli təhsil naziri doktor Rza Nurun xatirələrinə əsasən, Nəriman Nərimanovu "milli hisslərə bağlı" biri olaraq xarakterizə etmişdir.

İllər ötdükcə, sovet liderləri bir-birini əvəz etsə də sistem daxilindəki çəkişmələr səngimək bilmirdi. N.Xruşşovun Sov.İKP-nin XX qurultayında Stalinin qanlı cinayətlərindən bəhs edən "Gizli nitq"indən sonra "Xruşşovun Stalini günahlandırması və sovet Rusiyasında bir sıra islahatlara əl atması üzündən dünya kommunizminin özülündən dağılmağa və parçalanmağa"[1] başladığını qeyd edən İ.Ülkü, bu hadisənin ölkə daxilində bir çox fəsadlara yol açdığını yazmışdır. Polşa və Şərqi Almaniyadakı qarışıqlıqlar, Macarıstandakı hadisələr ölkəni silkələmişdir.

L.Brejnevin hakimiyyətə gəlişi və Heydər Əliyevin Azərbaycan Kommunist Partiyasının Birinci katibi olduğu dövr karyerasında sürətli yüksəliş illəri olaraq dəyərləndirilib. Vəzifəyə gəlişi ilə onun "illər boyu layihələşdirdiyi planları həyata keçirməyə" başladığı qeyd olunmuşdur. Mətbuatda "Əliyev yeni üslublu partiya rəhbəridir" kimi fikirlərin səsləndiyi, onun hər kəs tərəfindən qabaqcıl və müasir tipli partiya xadimi olaraq dəyərləndirildiyi vurğulanır. Sovet aparatının üzvlərinə, iş prinsiplərinə tam şəkildə bələd olmayan müəllif, fikirlərini konkret nümunələrlə təsdiqləməsə də, bu faktlar hər kəsə aydındır. Bütün mənbələrdə Heydər Əliyevin xarici görkəmi, çevikliyi, işgüzarlığı ilə ətalətə bürünmüş siyasi elitadan kəskin fərqləndiyi vurğulanır. İrfan Ülkü də onun siyasi opponentlərindən bəhs etmişdir. Müəllif üçün onun digər həmkarlarından əsas fərqi

---

[1] Ülkü İ. Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, Azərbaycan, 1994, s.19

türk olmasıdır. "İstər çarizm, istərsə də kommunizm rejimi dövründə türklük və islama düşmən kəsilmiş bu nəhəng imperiyada"[1] onun məhz ilk türk kimi parladığı qeyd olunmuşdur. Əsərdə "qızıl ulduzun sönməsi və hilalın yüksəlişi"ni izləməyə çalışan müəllif yazır: "Sovet Qızıl ulduzu ilə türklüyün ağ hilalı yetmiş il bir yerdə yaşadıqdan sonra hilalı udmaq istəyən ulduzun sönüb parçalanaraq türklüyün hilalının təkbaşına, yenidən göylərdə qürurla yüksəlməyə başlamasında, bu böyük tarixi oyunda şübhəsiz, neçə-neçə adlı-adsız qəhrəman rol oynamışdır. Yeni qurulmuş Türkiyə Böyük Millət Məclisi hökumətinin təmsilçisi kimi onunla görüşən doktor Rza Nura yalqız qaldıqları vaxt "kommunizm nə deməkdir! Biz türkük, türkçüyük! Lakin ruslar başımıza hakimdir" deyə pıçıldayan "Şah İsmayıl" əsərinin[2] müəllifi Azərbaycan KP-nin ilk katibi Nəriman Nərimanovdan tutmuş azərbaycanlı kommunist şair Səməd Vurğuna qədər, Bolqarıstan Kommunist partiyasına "heç olmazsa türklüyümüzdən bir şey xilas etmiş olarıq" ümidi ilə üzv olub yüksək vəzifələrə yüksəlmiş, hamımızın yaxından tanıdığı, çox vaxt da "köhnə kommunist" deyə dodaq büzdüyümüz bolqar türkü Mehmet Çavuşdan tutmuş Özbəkistan çöllərində çalışan naməlum kolxozçuya qədər...

Bir "Diriliş" dastanının açıq, ya da gizli liderləri tarixin və talelərin onlara əmanət etdiyi böyük bir millətin xarabalıqlar altında əzilməsini qəbul etməmişlər. Əsrimizin türklük faciəsinin adsız qəhrəmanları...". Mövzuyla bağlı fikirlərini konkret tarixi faktlar əsasında təsdiq etməyə çalışan müəllif "Türk tarixinin əsasını qoymaqla gələcəyə ən obyektiv sayılan əsərlər vermiş" alim olaraq dəyərləndirdiyi fransız türkoloqu Jan Pol Roksın "Türklərin tarixi" kitabına istinad etmişdir.

Məlumdur ki, bir çox bioqrafik əsərlərdə hadisələrin subyektiv təsviri, sənədlərdə təsdiq olunmamış məlumatlar yer alır, müəlliflərin qəhrəmanlarını ideallaşdırılmağa çalışdığı müşahidə olunur. Heydər Əliyevin həyatı ilə bağlı da belə məqamlar mövcuddur. İrfan Ülkünün kitabında yer alan bir hadisənin reallığı digər müəlliflərdə şübhə doğurur. "Bir gün XDİK-in Moskvadakı Mərkəzindən

---

[1] Ülkü İ. Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, Azərbaycan, 1994, s.70-71

[2] N.Nərimanovun bu adda əsəri yoxdur; güman ki, müəllif "Nadir şah" əsərini vurğulamaq istəmişdir - red.

gələn bir əmrdə Əliyevin "tapşırığı yerinə yetirməyi" tələb olundu. Əliyev XDİK-in Bakıdakı binasında içində yüzlərcə vərəqə olan çantanı alıb, içindəki sənədlərlə tanış olanda burada beş min həmvətəninin adının yazıldığını gördü.

Gələn gizli əmrə əlavə olunan siyahıda adları göstərilən şəxslərin Qızıl Ordudan fərarilik etdikləri, çoxunun isə cəbhədən qaçaraq Azərbaycanda gizləndikləri qeyd olunur, onların axtarılıb tapılmaları və cəzalandırılmaları tələb edilirdi. Məlum idi ki, onların da aqibəti Vyana, Kars və Berlindən gətirilənlərdən fərqli olmayacaqdı. XDİK-in gənc kapitanı xeyli düşündü. Azərbaycan xalqının övladı olduğu halda o öz millətinin nümayəndələrini bilə-bilə ölümə necə göndərə bilərdi?! O, siyahıda dəyişikliklər etdi, bəzi adları pozub yerinə başqa adlar yazdı".[1] Bəzi mənbələrdə bu hadisələrin həqiqiliyi şübhə altına alınsa da,[2] İrfan Ülkü bu məsələ ilə bağlı Heydər Əliyevin öz fikirlərinə istinad edərək yazmışdır: "Bir qədər əvvəl məndən ikinci dünya müharibəsi dövründə Azərbaycanda beş min həmyerlimin həyatını xilas edib-etmədiyimi soruşdunuz. Mən bu suala yalnız "Bəli, dediyiniz düzdür" – deyə cavab verəcəyəm".[3] Janrın xüsusiyyətləri baxımından bu cür məqamlar anlaşılandır. Seçilən, tanınan insanların taleləri ilə bağlı məlumatlarda zaman keçdikcə miflə gerçəklik qarışır. Onlar haqqında müəyyən əfsanələr, şayiələr yaranır. Zaman keçdikcə, hansı fikrin gerçək, hansının yanlış olduğunu ayırmaq mümkün olmur.

Kitabda həmçinin Heydər Əliyevin Yuri Andropovun hakimiyyəti illərində Orta Şərq və İslam Dünyası üzrə müşavir vəzifəsində çalışdığı dövrdəki fəaliyyəti haqqında məlumat verilmişdir. Hökumətin növbəti liderlərindən biri Y.Andropovun xarakteristikası, əsasən digər mənbələrdəki fikirlərlə üst-üstə düşür: "Andropov ingilis dili də daxil olmaqla üç dili mükəmməl bilməsi və yüksək intellektual səviyyəyə malik olması ilə partiya həyatında böyük nüfuz qazanmış şəxsiyyətlərdən idi. ...DTK-ya rəhbərlik edərkən rüşvətə qarşı güclü mübarizə aparan Andropov DTK-nın içində özü üçün bir

---

[1] Ülkü İ. Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, Azərbaycan, 1994, s.9

[2] Андриянов В., Мираламов Г. Гейдар Алиев. Жизнь замечательных людей. Вып. 1132 (932), Москва, Молодая гвардия, 2005, с.9

[3] Ülkü İ. Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, Azərbaycan, 1994, s.18

dəstə yaratdı. Sov.İKP-nin ən seçmə adamlarını himayə edərək ətrafına topladı. DTK ilə Siyasi Büro və partiya arasındakı münasibəti incəliklərinə qədər bildiyi üçün ağır və təmkinli addımlarla illərlə məqsədinə doğru irəlilədi”.[1] Heydər Əliyevin “Yurinin arxalanıb sirlərini etibar etdiyi yoldaşların”dan biri olduğu qeyd olunmuşdur.

Heydər Əlirza oğlu haqqında qələmə alınmış bütün kitablarda M.Qorbaçovla münasibətlərindən bəhs olunsa da, bu kitabda mövzuya Ümummilli liderin özünün aydınlıq gətirməsi şübhəli məqamların aydınlaşdırılmasına imkan verir. “Qorbaçovun ən böyük xüsusiyyəti müsəlman türk dünyasına qarşı olan düşmənçiliyi idi. Türk respublikalarına qarşı da ikiüzlu siyasət aparırdı. Mənə qarşı hisslərini, nifrətini Siyasi Büronun iclaslarında hiss etdim. Qorbaçov Siyasi Büronun üzvlərinin əksəriyyətinin rus və slavyan olduqlarını görür, bir türk kimi mənim SSRİ-nin idarə olunmasında söz sahibi olmağımı heç cür həzm edə bilmirdi”.[2] Türk müəlliflər onu, əsasən başqa sovet türk kommunist liderləri ilə müqayisə edirdilər. Onlar hakimiyyətdən müxtəlif səbəblərə görə uzaqlaşdırılsalar da, hər birinin əsas niyyəti türk olaraq xalqına, milli mənsubiyyətinə sadiq qalmaq istəyi idi.

Əsərdə sistemin qurbanlarından biri, Leninin yaxın silahlaşlarından olan Kazan tatarı Sultan Qaliyevin taleyindən bəhs olunmuşdur. “Turan Kommunizmi” adlandırdığı fərqli ideallara bağlı olduğu üçün, xalqının məğrur oğlu, Stalin tərəfindən həbsə atılmışdır. Sultan Qaliyev “Bolşevik, lakin müstəqil bir Tatarıstan dövləti yaradıb, bunun əsasında Orta Asiya türklüyünü bir federasiya halında birləşdirmək istəyirdi. Bir Turan federasiyası onun idealı idi. Stalin həqiqəti başa düşüb köməkçisinin bütün vəzifələrini əlindən alıb sürgünə göndərdi”.[3]

Sovet İttifaqının 70 illik tarixində türk xalqlarına qarşı siyasətdən bəhs edən müəllif, Stalin və Xruşşov dövründə bu xalqların sıxışdırıldığını, L.Brejnevin və Y.Andropovun hakimiyyəti illərində münasibətin yumşaldığını qeyd etsə də, İttifaqın mövcudluğunun son illərinə qədər hər an yarana biləcək “türklük zəlzələsi”nin qarşısını almaq üçün “təhlükəsizlik tədbirlərinin” görüldüyünü qeyd et-

---

[1] Ülkü İ. Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, Azərbaycan, 1994, s.19-20

[2] Yenə orada, s.40

[3] Yenə orada, s.63-64

mişdir. “Bu gün Sovet İmperiyası dağılmış, ... tarixə qarışmışdır. Kommunizm də SSRİ ilə birlikdə dağılıb məhv olmuşdur. “Fəth edilə bilməyən Turan” artıq müstəqildir. Bu müstəqilliyin təməl daşlarında Heydər Əliyev və onun kimilərinin zəhmətini görməmək ən azı “insafsızlıq” olar”.[1]

***

*“Haydar Aliyev'in çok başarılı olduğunu, büyük işlere imza attığını, yeni ve bağımsız bir cumhuriyetin kurucusu olduğunu, o cumhuriyetin yaşayabilmesi ve geleceğinin olması için sağlam temeller attığını görüyoruz.*

*Bu işleri, çok olumsuz koşullar içerisinde gerçekleştiren insan, kim ne derse desin “Büyük İnsan”dır”.*

***Adıgüzel Hüseyin***

Hüseyn Adıgözəl Azərbaycanın görkəmli simalarından olan Nəriman Nərimanov (“Atatürk, Nerimanov ve kurtuluş savaşımız”. İstanbul, 2005; “Nerimanov Mektuplar”, İstanbul, 2005), Əbülfəz Elçibəy, həmçinin kommunist olaraq sovet hakimiyyəti orqanlarında nüfuzlu mövqe qazana bilmiş Turar Rısakulov haqqında kitabların müəllifidir. Bu əsərlərində müəllif “millet sevgisinin, vatan sevgisinin, bağımsızlık aşkının kimlerde daha çok olduğunu”[2] göstərməyə çalışdığını qeyd etmişdir. Beynəlxalq aləmdə “komünistler ve komünizm, yıllar boyu en büyük düşman olarak”[3] qiymətləndirilmişlər. Türk yazarların əsərlərində Heydər Əliyev şəxsiyyəti də əsasən bu mövqedən qiymətləndirilmiş, onun SSRİ tarixindəki rolu düzgün dəyərləndirilməmişdir. Eyni fikirlərə əsaslanan Hüseyin Adıgözəl də uzun zaman gerçək durumdan xəbərdar deyildi. SSRİ-nin süqutundan sonra bir müddət Türkiyədə müxalifətdə olanlar türkçü, millətçi kimi təqdim edilir, kommunistlərin türk dünyasından uzaq olduqları, bu ideyalara düşmən kəsildikləri bildirilirdi. Bu yanlış fikir zamanla aradan qalxmalı, hadisələrin gerçək mahiyyəti aşkarlanmalı idi.

---

[1] Ülkü İ. Qızıl ulduzdan hilala doğru. Heydər Əliyevin fırtınalı həyatı. Bakı, Azərbaycan, 1994, s.74

[2] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.19

[3] Yenə orada, s.19

Bu səbəbdən Nizami Cəfərov Hüseyn bəyə Heydər Əliyevi mütləq tanımalı olduğunu söyləmiş "onu iyi tanımalısın. Bunun için onun hakkında araştırma yapman ve onun hayatını ve yaptıklarını kitaplaşdırma"sını tövsiyə etmişdir. Baş verənlərin mahiyyətinə varmaq, ictimai-siyasi konteksti düzgün qiymətləndirə bilmək üçün stereotip yanaşmadan uzaqlaşmaq zəruri idi. Alimin təqdim etdiyi materiallarla tanış olan müəllif Ulu öndər haqqında kitab yazmağı qərara almışdır. Azərbaycanın bir çox ziyalılarının tövsiyyəsi ilə yazdığı tədqiqatından bəhs edən müəllif, əsərini tam fərqli notlarda tamamladığını qeyd edir: "Haydar Aliyev'in bir derya olduğunu, araştırdıkça, bazi bilinmeyen gerçekleri öğrenince anladım".[1]

Beynəlxalq arenada Heydər Əliyev haqqında yaradılan mənfi münasibətin yanlış olduğunu göstərməyə çalışan yazar, tutarlı dəlillərə əsasən opponentlərinin əsassız fikirlərini puç etmişdir: "Bugün Türkiye'de en çok eleştirilen hususlardan bazıları, petrol sorunu, BTC boru hattı sorunu, Elçi Bey'in darbe ile devrilmesi, demikrat olmadığı, Komunizmi mahkum etmesi, zamanında yerleştirilen "Azerbaycanlı" sözü ile, yine Haydar Aliyev döneminde yerleştirilen "Azerbaycan dili" sözleridir".[2] Bu ittihamların hər birinə ayrıca bölümlər həsr edən müəllif konkret faktlar əsasında onların reallığa əsaslanmadığını sübuta yetirmişdir.

Hüseyn Adıgözəl Heydər Əliyevlə şəxsən görüşmədiyindən, həmçinin İrfan Ülkünün kitabı daha öncə qələmə alındığından, Hüseyn bəy öz kitabında dəfələrlə İrfan bəyin əsərinə müraciət etmiş, Heydər Əliyevin öz fikirlərinə istinad etməyə çalışmışdır.

Bioqrafik nəsr ənənəsinə sadiq qalan müəllif Heydər Əliyevin doğma yurdu haqqında geniş tarixi-çoğrafi məlumat vermiş, Avropa və Asiya xalqlarının tarixi və iqtisadi, ədəbi və mədəni əlaqələrində böyük rol oynayan Naxçıvanı "doğunun, batıya açılan bir kapısı"[3] adlandırmışdır. Birinci fəsildə Ulu öndərin uşaqlıq və gənclik illərindən, Dövlət Təhlükəsizlik Xidmətində fəaliyyətindən bəhs olunmuşdur.

Hüseyn Adıgözəl kitabında bir suala cavab tapmağa çalışmışdır: "Haydar Aliyev, bir üst düzey Komunist olaraq halkına en iyi

---

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.480

[2] Yenə orada, s.428

[3] Yenə orada, s.24

hizmeti yapa bildimi?”[1] Son illər türk dünyasının görkəmli kommunist nümayəndələri haqqında yazılan bütün əsərlərin əsas mövzusu bu sualın çözülməsinə yönəlib. “Kaynaklar bu konuda iki farkli görüş ileri sürüyor. Birincisi, Haydar Aliyevin Politbüro üyeliğinin sonuna kadar olan dönemi kapsayan “Halkına en iyi hizmeti yapmıştır” görüşünü öne çıkaran kaynaklar. ... İkincisi, Haydar Aliyev Politbüro üyeliğinden ayrılıp sıradan vatandaş olduğu üç yıllık dönemi kapsayan “Haydar Aliyev milletine ihanet etmiştir” görüşünü öne çıkaran kaynaklar”.[2] İkinci yanaşma sovet sisteminin öz tərəfdaşlarına qarşı amansız davranması ilə izah edilə bilər: “Yönteminde bulunan şahıs için, her zaman methiye düzmek, yönteminden düştüğü zaman ise onu karalamak Sovyet sisteminin gereğiiır”.[3] Bu mənbələrin obyektiv dəyərləndirilməsinin zəruriliyi, “kişisel yorumlara deyil yapılan işlere bakılması”nın vacibliyi vurğulanmışdır: “Kişilerin görüşləri, değerlendirilen kişinin bulunduğu mevkiye göre değiştiği gerçeği gözden uzak tutulmamalıdır”.[4]

Beynəlxalq aləmdə uzun müddət yad, qapalı quruluş olaraq qiymətləndirilən sovetlər ölkəsinin insanları, kommunist imici ilə bağlı müəyyən stereotiplər mövcud idi. Milli köklərdən, adət-ənənələrdən uzaq, ateist sovet insanı. Bu fikri inkar edən yazar, sovet türk siyasi liderlərinin dünya arenasında tanınmasında onların öz xalqına, kökünə, dininə bağlılığının mühüm şərt olduğunu vurğulamış, əsərin “Haydar Aliyevin dine bakışını ve dini kimliğini açıklayan ifadeler taşıyan belki de ilk”[5] kitab olduğunu qeyd etmişdir. Türkiyədə yayılan “Haydar Aliyev Allahsız bir Komünisttir” fikrinin yanlış olduğunu isbat etməyə çalışan yazar onun hələ sovet dövründə Qurana, dinə olan bağlılığından konkret faktlara əsaslanaraq bəhs etmiş, müstəqil Azərbaycanda digər dünya dinlərinə də eyni saygı ilə yanaşıldığını sübut etmək üçün Ümummilli liderin xristian və yəhudi icmalarına ünvanladığı müraciətləri kitaba daxil etmişdir.

Sovet illərində milli kimlik məsələləri unudulur, sovet insanı anlayışı təbliğ edilirdi. Bu gün qələmə alınan bütün əsərlərdə yalnız

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.216
[2] Yenə orada, s.216
[3] Yenə orada, s.216
[4] Yenə orada, s.216
[5] Yenə orada, s.349

milli kimliyinə bağlı olan insanların sovet sisteminin məngənəsindən qurtula bildikləri qeyd olunur. İnsanı yaşadan, digərlərindən fərqli edən, sistem tərəfindən məhv edilməsinə imkan verməyən bu hisslər xüsusilə vurğulanır. Ümummili liderin fəaliyyətində bu mövzunu xüsusilə qabardan Adıgözəl yazır: "Büyük Atatürk'ün "milli kimliğini bilmeyen milletler, başkalarının avı olurlar" şeklindeki sözlerini hatırladığımız zaman, Haydar Aliyev'in kimliğinin farkında olmasının Azerbaycan halkı üçün ne büyük bir talih olduğunu her halde söylememe gerek kalmaz. ... Haydar Aliyev, Komünist sistem içinde, sistem ile uyuşarak milleti için gereken her şeyi yapmış, komünist rejmin ilk yıllarında aynı gaye için çalışan öncüler, Sultan Galiyev, Turar Rıskulov ve Neriman Nerimanov'un düştükleri hataya düşmemiş, yani, sistemin içerisinde sistemle açıktan mücadele etmemiş, sistemle çatışmadan milleti için yapılabilecek en iyisini ve fazlasını yapmayı becerebilmişdir".[1]

Türk müəllifləri üçün sovet sistemi, kommunizm ideyaları yad bir anlayış olduğundan onlar ilk öncə sistemin iş prinsiplərini anlamağa çalışmışlar. "Sovyet ideolojisi, bir Sovyet insanı yaratma tezi üzerine kuruludur. Ebedi Tanrı yerine ebedi devleti savunan, milliyet yerinə beynelmilelciliği getiren, devlet kavramını yok edən bu ideolojinin yıktığı bütün kutsal değerleri geri getirmeyi amaçlayan, kendini tanımayı, özüne dönmeyi, milli ve manevi değerlerle bağlılığı, Tanrı inancını, millet, devlet, vatan kavramalarını canlandırmayı ve bu kavramları sevmeyi öğreten bu ideoloji, Haydar Aliyev'in tabiri ile "Özünü derk etmeyi" amaçlayan" bir ideolojidir".[2]

Digər müəlliflər (N.Zenkoviç, V.Andriyanov və H.Mirələməov) sovet quruluşuna bələd olduqları üçün sistemin iş prinsipləri, struktur özəllikləri onlar üçün daha aydın və başa düşülən idi. Kremldəki mühitin mürəkkəbliyi, amansızlığı əksər müəlliflər tərəfindən qeyd olunsa da, türk müəlliflər öz fikirlərini daha kəskin formada ifadə etmişlər. Heydər Əliyevin "Politbürodakı" fəaliyyətindən bəhs edən Hüseyn Adıgözəl Kremli bu cür təsvir etmişdir: "Kremlin, tarih boyunca, dışarıya, hatta kendi toplumuna bile kapalı, sirli bir yer olarak hafızalara nakşedilmişti. Oraya "Şeytanın Mabedi" deniyordu. Herhalde, insanı korkutan ve korku hissi ile birlik-

---

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.81
[2] Yenə orada, s.356

te biraz da heyecanlandıran gizemli yapı, önünde tunçtan yapılmış askerler gibi dolaşan növbetçileri, arada bir açılıp kapanan büyük demir kapıları, devamlı perdelerle kapatılan pencereleri ile, sırlar ülkesinin başkenti havası içinde olduğu için "şeytanın mabeti" tanımlanmasına uygun görülmüş. Belki de, içinde yaşanan, fakat hemen hiç görünmeyen insanların bu gizemli yaşayışları, her şeyi gizli olan şeytana benzetildiği için oraya "şeytanın mabedi" denmiş".[1]

70 illik Kommunist diktaturasından sonra demokratiya yoluna keçidin, müstəqil Azərbaycanın dünya arenasına qatılmasından bəhs edən publisist müxtəlif sahələrdə aparılan iş, əldə edilən nailiyyətlər haqqında ayrıca bölmələrdə məlumat vermişdir: "Aliyev'in ikinci dönemi", "Haydar Aliyev'in milli ve manevi dünyası devlet kuruculuğu", "Azerbaycan-Ermenistan sorunu", "Azerbaycancılık ideolojisi", "Dev petrol şirketleri ile mücadele" və s.

"Azerbaycan-Ermenistan sorunu" bölümündə Qarabağ problemindən bəhs edən yazar bu problemin Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra qabardığını qeyd etmiş, Ümummilli liderin bu istiqamətdə fəaliyyətindən geniş bəhs etmiş, müxtəlif illərdə başqa-başqa dövlətlərdə: Fransa, Almaniya və başqa ölkələrdə aparılan danışıqlar barədə məlumat vermişdir. Heydər Əliyevin bir çox çıxışlarını, müsahibələrini mətnə daxil etmişdir.

Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirən Hüseyn Adıgözəl onu bu cür xarakterizə edir: "iki yüz milyonluk bir imparatorluğu yöneten yirmi bir kişiden biri olmak, çok üstün meziyetler taşımayı gerektiren bir olgudur. Sovyet sistemi içerisinde bunu başarabilen hiçbir Türk'ün olmayışı, Haydar Aliyev'in üstün, deger insanlardan farklı meziyetler taşıdığının en açık kanıtıdır".[2] Onun Sovet dövlətində nüfuzlu səviyyəyə qədər yüksələ bilən digər türklər-Nəriman Nərimanov, Sultan Qaliyev, Turar Rıskulov, Münəvvər Kari kimi mütəfəkkirlərdən daha yüksəyə qalxa bilməsi səbəbindən bəhs edən müəllif, birincilərin "mert olmayan bir düşmanla, mertçe mücadele etme yolunu seçtikleri için"[3] tezliklə Kommunist sıralarından çıxarıldıqlarını, Heydər Əliyevin isə daha səriştəli olduğu, uzaqgörənlik nümayiş etdirərək bu sistemin ən yüksək sıralarına daxil ola bildiyini yazır. Düzdür, müəllifin bəzi fikirləri ilə razılaşmaq

---

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.89
[2] Yenə orada, s.14
[3] Yenə orada, s.14

olmaz. Məsələn, müəllif onun özünü "sisteme temelden bağlı olduğunu istenenleri yaparken gösterdi"yini qeyd etmişdir.[1] Bu fikirlər sonradan müəllifin özü tərəfindən də təkzib edilir.

Heydər Əliyev hər bir sovet insanı kimi sovet hakimiyyətinə səmimi qəlbdən inanır, bu ideallarla yaşayırdı. Dəfələrlə müsahibələrində bu məsələlərə qayıdan lider keçmişindən utanmadığını qeyd edib. Uzun illər sonra baş verənlərin mahiyyətinə vardıqda, sistem özü-özünü inkar edəndən sonra o, könüllü surətdə partiya sıralarını tərk edərək (N.Zenkeviçin kitabında bu məsələ geniş işıqlandırılıb), müstəqil siyasətçi kimi xalqının, vətəninin rifahı naminə mübarizəyə qoşulmuşdur. 1990-cı ildə böyük siyasətə qayıdışı isə xalqın istəyi ilə baş tutur. Bu məqamlara diqqət edən müəllif yazır: "Bu mücadile tarzı, Haydar Aliyevin gizlilik içinde bir takım işler yaptığı değil, onun mücadele edeceği yöntemi iyi kullandığını gösterir".[2]

Heydər Əliyevin sovet sistemində vəzifə irəliləyişindən bəhs edən müəllif, "Türk halklarının komunizm içerisindeki yerlərini gerçekçi bir şekilde tesbit" etməyə çalışmış, bu məqam kitabının əsas mövzusu olaraq öyrənilmişdir. "Eger bunu yapmazsak, ne Haydar Aliyevin çabalarını, ne de Haydar Aliyevin Komunist partisini terk etmesindeki sebepleri kolay anlayamayız".[3] Bütün gözəl vədlərə baxmayaraq, türk xalqlarının Sovetlər İttifaqında özlərini "ikinci sınıf vatandaşları olaraq bulduq"larını yazır. Sultan Qaliyev, Nəriman Nərimanov və Turar Rıskulovun vədlərin yerinə yetmədiyi üçün Türk Sovet dövləti qurmaq istədiklərini, bu səbəbdən də Stalin tərəfindən öldürüldüklərini bldirmiş, türk xalqlarının doğma vətənlərindən sürgün edilməsindən bəhs etmişdir. Kommunist partiyasında olduğu illər onun sistemi daha yaxından tanıyaraq, bu ideallardan uzaqlaşmasına səbəb olduğunu qeyd edir. "Bu yıllar, Haydar Aliyev'in Komünist sisteme olan bağlılığının gevşediği, inancının azaldığı, sorgulanamaz olan sistemi, yavaş da olsa sorgulamaya başladığı"[4] illər olaraq qiymətləndirilib.

Həmçinin M.Qorbaçov və Heydər Əliyev qarşıdurmasının səbəblərindən bəhs olunarkən milli siyasət sahəsində aparılan siyasətlə bağlı xətalardan geniş bəhs olunmuşdur. Heydər Əliyevin Partiya-

---

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.15
[2] Yenə orada, s.15
[3] Yenə orada, s.76
[4] Yenə orada, s.275

dan Kunayevin ölkə rəhbəri vəzifəsindən azad edilərək yerinə Kolbinin göndərilməsi, M.Qorbaçovun türk xalqlarına qarşı ədalətsiz siyasəti səbəbləri nəticəsində ayrıldığı bildirilir. 20 yanvar hadisələrinin isə bu məsələdə son nöqtə olduğunu qeyd etmişdir.

Bir çox ölkə başçıları ilə Heydər Əliyevi illərin münasibətləri bağlayırdı. Onun Süleyman Dəmirəllə ilk görüşü 1969-cu ildə baş tutmuş, sonradan Naxçıvanın çətin günlərində bu əlaqələr yenidən bərpa olunmuşdur.

Bununla belə, Türkiyədə Heydər Əliyevə qarşı münasibətin birmənalı olmadığını qeyd edən müəllif yazır: "geçmişte Komünist Partisi ve KGB içinde çalışmış olması, bazı peşin hükümleri de kendiliğinden Türkiye gündemine sokmuştur".[1] Zaman keçdikcə Müstəqil Azərbaycanın düzgün siyasi kursu Ümummilli lideri dünyaya məhz vətənpərvər, Türk dünyasına bağlı olan insan olaraq sevdirdi.

Ümummilli liderin həyatının ən mürəkkəb dönəmlərindən bəhs etməyə çalışan hər bir müəllif bəzi məqamları, həyatının ən mühüm hadisələri üzərində geniş dayanmışdır. Belə epizodlardan biri Heydər Əliyevin Kommunist partiyası sıralarından çıxmasıdır. Sovet ölkələrində bu addımın atılması gözlənilən idisə, baş verənləri uzaqdan izləyən, mühitə bələd olmayan xarici mühitdə bu addım birmənalı qiymətləndirilmirdi. H.Adıgözəl xarici mətbuatda bu məsələnin işıqlandırılması ilə bağlı səslənən fikirləri araşdıraraq, onların doğru olmadığını sübuta yetirməyə çalışmışdır.[2]

Əsərdə daim sovet respublikası və müstəqil Azərbaycan, Kommunist Heydər Əliyev və türk ideallarına sadiq bir insan qarşılaşdırılır.

Heydər Əliyevin jurnalistlərlə müsahibələrinə müraciət edən publisist siyasi liderin cavablarını təhlil edərək onun siyasi hazırcavablığını, məsələlərə dəqiq yanaşmasını və yerində təhlil qabiliyyətini xususi vurğulamışdır.

Daim Nəriman Nərimanov və Heydər Əliyev arasında paralellər aparan Hüseyin bəy, müxtəlif zamanlarda sovet hökumətində fəaliyyət göstərmiş insanların milli adət-ənənələrə sadiqliyini, bağlılığını göstərmişdir. Qeyd etdiyimiz kimi, Sovet hökumətinin ən böyük arzusu "homosovetikus" – milli bağlılığı olmayan bir insanın

---

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.17

[2] Yenə orada, s.120

yetişdirilməsi idi. Türk olan bir çox siyasi xadimlər bu təhlükəni anladığı üçün bunun qarşısını almağa, milli dəyərlərin yaşadılmasına çalışırdılar. Novruz bayramının keçirilməsi, dini ənənələrimizin yaşadılması ilə bağlı həm Heydər Əliyevin, həm də Nəriman Nərimanovun fəaliyyəti xüsusi vurğulanmışdır. Bu məsələləri önə çıxaran daha bir məqam ölkəmizə kənardan göndərilən rəhbərlərin S.M.Kirov, Semiçastnının fəaliyyəti ilə bağlıdır. Tarixi mənbələrdən bəlli olduğu kimi, N.Nərimanov ölkədə olmadıqda S.Kirovun əmri ilə yas mərasiminə müdaxilə əsgərlərlə qarşıdurmaya, qan axıdılmasına səbəb olur. Hadisədən xəbər tutan Nəriman Nərimanov V.İ.Leninə məlumat verərək etirazını bildirmiş, hökümət üzvlərinin xalqın dini mərasiminə qarşı anlayışlı olmasını tələb etmişdir.

Heydər Əliyevin müxtəlif ölkələrdə: Qazaxıstanda, Almaniyada yaşayan soydaşlarımız qarşısında söylədiyi çıxışlarına istinad edən müəllif, Ümummilli liderin nitqlərinin əsas tezislərinin vətəndən uzaqda öz milli-mənəvi dəyərlərimizi yaşatmağın, bu bağlılığı qorumağın zəruriliyi üzərində qurmuş olduğunu qeyd etmişdir. “Eğer dünyada kırk milyon Azerbaycanlı varsa, onlar Azerbaycanlı adı taşıyorsa, onlarda Azerbaycanlı kalbi, kanı varsa, bu hepimizin igtiharıdır. Ben, bu kırk milyon Azerbaycanlının hepsi bir yerə toplansın demiyorum. Bu hiç gerek de değil. Ancak, hepsinin kalbi, fikri, geleceğe bakışı ve Azerbaycan hakkında fikirleri bir olsa, elbette ki, cumhuriyyetimiz kendi bağımsızlığını güçlendirebilir, gelişme yolunu beceri ile geçebilir”.[1]

Hər bir müəllif kimi, Hüseyn Adıgüözəl lazımi dərəcədə işıqlandırılmamış və ya zamanında diqqət verilməmiş məqamlara daha geniş yer verməyə çalışmışdır. “Dev petrol şirketleri ile mücadile” bölümünde Ümimmilli liderin neft siyasətindən geniş bəhs etmiş, uyğun əsaslarla əməkdaşlığa nail olmaq, Azərbaycanın maraqlarının qorunması naminə çətin vəziyyətlərdən uğurlu çıxış yolu taparaq müqavilələrin ən uyğun şərtlərlə imzalanmasına nail olduğunu qeyd etmişdir. “Projeye ve kendisine dokunması muhtemel olan bütün güçler, projenin içinde yer aldılar. Bu Azerbaycan için büyük bir zaferdi. Torpağın altında kalan zenginlik, Azerbaycan halkı için zenginlik degil, bir nevi baş ağrısı idi. Torpağın altında durdukça, büyük güçlerin ilgisini her zaman çekecek, belki de, daha önceleri ol-

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.325

duğu gibi, bi gün Azerbaycanın başını derde sokarak bağımsızlığını bile tehlikeye düşürecekti. Aliyev, bu hesabı iyi yaptı. Süleyman Demirel'in söylediyi gibi "Aliyev, bu anlaşma ile dünyaya kendi torpakları üzerinde petrol arama izni vererek dünya barışına büyük katkıda bulunmuştu".[1]

Kitabda xarici mətbuatda danışıqlarla bağlı yer alan yazılardan, müxtəlif mövqelərdən bəhs edilmişdir. Məsələn, 2000-ci illərdə Elçibəyə qarşı sui-qəsdin motivləri haqqında yazılarda dövrün mürəkkəb prosesləri bu şəkildə şərh edilir: "Bu olay petrol şirketlerinin ve arkalarındakı büyük küresel gücün, Bakü'de ilk darbe denemesiydi. Daha sonra da aynı yöntemi kullanacaklardı".[2]

Heydər Əliyevin neft sazişində Türkiyəni əsas tərəfdaş olaraq görməsinə baxmayaraq, türk mətbuatında bu məsələlərin işıqlandırılmamasını "çok üzücü" hal olaraq dəyərləndirən müəllif kitabında bu mövzundan geniş bəhs etməyə qərar vermişdir.[3]

"Asrın projesi –Bakü-Tiflis-Ceyhan boru hattı" bölümündə layihə ilə bağlı böyük dövlətlər arasındakı narazılıqlar, xarici mətbuatda səslənən fikirlərə istinad edən Hüseyn Adıgözəl bir çox məqamları işıqlandırmağa çalışmışdır.

Mətbuatda, türk dünyasında Heydər Əliyevə qarşı olan münasibətdən bəhs edən, müəllif fikirlərini bu cür tamamlamışdır: "... tarih, her şeyi zamanı gelince ortaya çıkaracaktır. BTC gibi, yüz yılın en büyük projesini Türk milletine ve bu uğurda müthiş bir irade ve direniş gösteren Haydar Aliyev'e Türk milleti minnet ve şükranlarını sunmayı bilecektir. Haydar Aliyev yirminci yüz yılda Türk milletinin yetişdirdiyi en büyük devlet adamlarından biridir. Bağımsız Azerbaycan devletinin kurucusu ve bağımsızlığın teminatıdır. Büyük devlet adamı, büyük Türk ve büyük bir insandır".[4]

Problemləri fərqli müstəvidən işıqlandıran Hüseyn Adıgözəl dünyada Heydər Əliyevin imicinin əleyhinə olan faktlara diqqət yönəltmişdir: "Haydar Aliyev'i bilhassa Türkiye'de eleştirenlerin en fazla eleştiri getirdikleri hususlardan birisi, Haydar Aliyev'in Azerbaycan Halk Cephesine karşı olduğu ve onları iktidardan uzaklaştırdığı hususudur. Bu husus çok sık istismar edilmiş, Haydar Aliyev'in

---

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.381
[2] Yenə orada, s.376-377
[3] Yenə orada, s.400
[4] Yenə orada, s.409

bir komünist olduğu için komünist diktatorlüğü devirən Halk Çephesi'ne karşı olduğu tezi sürekli gündemde tutulmuştur".[1] Türkiyədə səslənən Heydər Əliyevin türk dəyərlərinə zidd olan kommunist olaraq təqdim edilməsinin puç olduğunu göstərməyə çalışan müəllif, kitabın "Türklüğe ve Türk dünyasına bakışı" bölümündə bu fikirlərin puç olduğunu sübut etməyə çalışaraq, konkret faktlara istinad etmişdir.

Heydər Əliyevin sovet dövründə türkçülüyə göstərdiyi xidmətləri olaraq 1978-ci ildə Azərbaycan SSRİ-nin konstitusiyasında dövlət dilinin Azərbaycan dili olaraq qəbul edilməsini xüsusi vurğulamış, bu addımı Azərbaycan milli ruhuna yapılan ən önəmli xidmət olaraq dəyərləndirmişdir. Ana dilinin dövlət dili olaraq saxlanılmasının böyük nailiyyət olduğunu vurğulayan H.Adıgözəl bu faktı digər türk ölkələrindəki vəziyyətlə müqayisə edərək yazır: "1991 yılında Özbekistan Birlik Halk Hareketinin, meydanlarda, "Özbek Dili" devlet dili olmalıdır, mitingleri yaptığı zaman, Azerbaycan'da, Azerbaycan dilinin devlet dili olmasının üzerinden yirmi yıl geçmişti. Yani, Azerbaycan, Aliyev'in bu uygulaması ile, diger Türk cumhuriyetlerinden en az yirmi yıl öne geçmişti".[2]

Siyasi liderin milli kadrların hazırlanmasında xidmətləri də xüsusilə qeyd edilib: "1988-1989 yıllar içinde, torpaktan mantar biter gibi ortaya çıkan kadroların, kendiliğinden ortaya çıktığını hiç kimse söyleyemez. Haydar Aliyev'in Birinci Sekreter olduğu yıllarda yaptığı kültürel çalışmalar, bu kadroları ortaya çıkaran en büyük faktördur".[3]

Heydər Əliyev və Atatürk mövzusundan ayrıca fəsildə bəhs edən müəllif iki dahi şəxsiyyətin siyasi fəaliyyətində oxşar məqamları araşdırmış, Azərbaycanda Atatürkə olan münasibətdən bəhs edərkən Heydər Əliyevi "Atatürkün benzeri değil, onun, fikir ve görüşlerinin iyi bit takipçisi" olaraq dəyərləndirmişdir.[4]

Heydər Əliyevi Türk dünyasının tanınmış simaları ilə müqayisə edən publisist onun daha çox Atatürkü xatırlatdığını bildirir: "Haydar Aliyev'de, Türkler ve Türk dünyası sorununda, ne Enver Paşa'nın hayalciliğini, ne de Ebülfez Elçi Bey'in romantikliğini bu-

---

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.413
[2] Yenə orada, s.431
[3] Yenə orada, s.432
[4] Yenə orada, s.475

labilirsiniz. Bu bakımdan, biraz Mustafa Kemal Atatürk'e benzer. Türk'e ve Türk dünyasına bağlılığı ve sevgisi içtendir, samimidir. Fakat, olabildiğine akılcı, rasyonal ve gerçekçidir. Günün şartları ve içinde yaşanılan zamanın imkanları, neye izin veriyorsa, onu yapmak, hayata geçirmek gerektiğine inanır. Şartları zorlamaz".[1]

Məlum olduğu kimi, Heydər Əliyev tam fərqli bir sistemin yetirməsi olmuşdur. Müstəqil dövlətin əsaslarını qoymaq üçün ona örnək olacaq əsas şəxsiyyətlərdən biri Atatürk idi. Heydər Əliyevin onun haqqında yüksək fikirdə olduğu məlumdur. Ümummilli liderin Atatürk haqqında fikiləri ayrıca kitab şəklində çap olunmuşdur, Heydər Əliyevin göstərişi ilə Azərbaycanda Atatürk Mərkəzi yaradılmışdır.

Onların siyasi kursunda yer alan oxşarlıqlardan bəhs edən Hüseyn bəy hər ikisinin mədəniyyət, mənəviyyat və dil istiqamətində fəaliyyətini xüsusi vurğulamışdır. "Atatürk'ün medeniyet, kültür, maneviyat ve dil alanındakı faaliyetlerinin, bu gün Azerbaycan için başarılı bir örnek olduğu herkes tarafından kabul edilir. Elbette, bu örneğin başarılı bulunması Haydar Aliyev'in bu alanda yapmış olduğu faaliyetlerin almış olduğu yeni şekil ile doğrudan bağlantılıdır. Reformların başarılı olmasında halkın inancının ve Atatürk'e duyduğu sevginin önemli rolü olduğu da gözden asla uzak tutulmamalıdır".[2]

Zaman-zaman sovet hökümətində Atatürkə münasibətinin dəyişdiyini qeyd edən müəllif, əlaqələrin inkişaf dinamikasında üç mərhələni fərqləndirmişdir. 1920-1923-cü illəri Atatürkə hədsiz heyranlıq illəri olaraq xarakterizə edən publisist "bu dönəm içinde Azerbaycan cumhurbaşkanı olan Neriman Nerimanov, Kurtuluş savaşına yakın ilgi göstermiş, büyük yardımlar yapmış, Ankara hükümetini tanıyarak büyük elçi olarak İbrahim Abilov'u Ankara'ya göndermiştir. Lenin'e ve Stalin'e Türk kurtuluş savaşına destek verilmesi için mektublar yazmıştır. Atatürk'e hayran olan Nerimanov, onu, emperyalizme darbe vuran ilk komutan olarak selamlamışdır".[3]

İkinci mərhələdə – 1923-1990-cı illərdə Sovetlər İttifaqı Türkiyəni düşmən dövlət elan etdiyi üçün, ölkələr arasında münasibətlər kəsilmişdir. "SSCB'nin ideolojik yapısı Türkiye ve Atatürk'e

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.442
[2] Yenə orada, s.468
[3] Yenə orada, s.468

karşı Stalin ile birlikte değişti. Türkiye bir düşman olarak tanıtıldı. Zorla Türk halklarına Türkiye düşmanlığı aşılanmaya çalışıldı. ...Azerbaycan devleti ile Türkiye'nin ilişkileri tam anlamıyla kesildi".[1] Bütün qadağalara baxmayaraq Atatürk sevgisi gizli şəkildə də olsa Azərbaycan xalqının ürəyində daim yaşamış, xalq arasında onun haqqında rəvayətlər yaranmışdır. "Mesela; kulağı kesik Ermeni komutan Androkonis'in kulağının Atatürk tarafından Nahçıvan'-da kesildiği bile anlatılır. Gerçekte, böyle bir karşılaşma olmamış, Atatürk Ermenilerle savaşmak için Nahçıvan'a gitmemiştir. Ama, halkın Atatürk'e öylə bir büyük bir sevgisi vardır ki, onu kendilerince iyi bir işin faili olarak görmek ve göstermek isemeleri, bu sevginin tezahüründün başka bir şey değildir"[2]. 1990-cı illərdən sonrakı mərhələ Atatürkə, Türk dünyasına xüsusi sevgi və ehtiram hissləri xarakterik idi. Azərbaycan müstəqillik qazandıqdan sonra Türkiyə ilə münasibətlərin inkişafı ilə Atatürkə də münasibət dəyişdi. Heydər Əliyevin ona xüsusi münasibəti cəmiyyətdə yenidən onun böyük tarixi şəxsiyyət olaraq anılmasına, ideyalarının geniş təbliğinə səbəb oldu. Atatürk mərkəzinin rəhbəri, millət vəkili, akademik Nizami Cəfərov atatürkçülüyü bu cür ifadə etmişdir: "Atatürkçülük, milli birlik yaratmak, milli devlet kurup geliştirmek, halkı kendi tarihinden, milli ve manevi değerlerinden koparmadan modernleştirmek deneyimidir. Ve Atatürkçülük bir nazariye olmaktan daha çok, Azerbaycan cumhurbaşkanının kaydettiği, hayata geçmiş kahramanlıktır, yeni bir deneyimdir. Bu yüzden Atatürkçülüğün, Atatürk severliğe çevrilmesi, nazari düşünceler gibi, sadece bir ilm gibi öğrenilmesi zaruridir".[3] Uzun illərin qadağasından sonra qurulan təmaslar, ərazi və din doğmalığı xalqlarımız arasında əlaqənin möhkəmlənməsinə səbəb oldu.

Heydər Əliyev haqqında yazan hər bir müəllif kimi Heydər Adıgözəl də onun irsinin, idarə sisteminin hər bir sahədə, istər Türkiyə Azərbaycan münasibətləri, neft siyasəti, Qarabağ probleminin uğurlu şəkildə davam etdirildiyini, Azərbaycanın bugünkü prezidentinin də eyni kursa sadiqliyini qeyd etmişdir: "Azerbaycan'ın yeni cumhurbaşkanı İlham Aliyev'de babasının yolunda, Atatürk ilke ve devrimleri istikametinde, ülkesini çağdaş dünyaya taşımaya çalışan

---

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.468
[2] Yenə orada, s.468
[3] Yenə orada, s.470

bir lider portreti çizmektedir”.[1] İlham Əliyevin ölkənin mühüm sahələrin problemlərinin çözülməsində əsas fiqurantlardan biri olduğunu, neft sahəsindəki danışıqlarında iştirakçısı olduğunu qeyd etmişdir.

***

Tarixdən bəlli olduğu kimi bir çox hallarda zaman böyük imperiyalara, şəxsiyətlərə qarşı amansız olmuşdır. Hər tarixi şəxsiyyət özü kimi güclü lider yetişdirə bilmir. Bu səbəbdən illərlə, zərrə-zərrə qurulan dövlətçilik ənənələri bəzən davamlı olmur, rəhbər dəyişikiyi qüdrətli dövlətin süqutuna səbəb olur. Heydər Əliyev irsi bu cür acınacaqlı aqibətdən uğurla yan keçə bilmişdir. Ümummilli lider haqqında yazılan bütün əsərlər dahi liderin ölümü deyil, onun varisinin fəaliyyətinin təsviri ilə tamamlanır. Azərbaycan xalqının əbədiyaşar meyarlarına çevrilən ideallar xalqımızın lideri İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilməkdədir. Beləliklə, Heydər Əliyev epoxası bitmir, Ümummilli liderin ideyalarının uğurla davam etdirildiyi yeni mərhələyə keçid baş verir.

Müstəqil Azərbaycanın salnaməsi bu gün də yazılmaqdadır. Elmira Axundovanın, Nikolay Zenkoviçin, Hüseynbala Mirələmovun və başqalarının İlham Əliyev haqqında kitablarında vətənimizin ən yeni tarixi əks olunmaqdadır. Respublikamıza, ölkə prezidentinə olan bu maraq dahi liderin fikirlərini bir daha təsdiq edir: “Müstəqilliyimiz əbədidir!”

[1] Hüseyin A. Zirve. Haydar Aliyevin hayatı. İstanbul, İleri yayınları, 2007, s.475

# HEYDƏR ƏLİYEVİN BƏDİİ OBRAZI DRAMATURGİYA VƏ TEATRDA

*(Filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı)*

“Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu “oxumuşam, unutmamışam” sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam” – deyərək bir şəxsiyyət kimi yetişməsində ədəbiyyatın rolunu xüsusi vurğulayan Heydər Əliyev zamanın elə bir məqamı gəlir ki, həyatda qəhrəman olmaqla yanaşı, ədəbiyyatın da qəhrəmanına çevrilir. Çox sevdiyi ədəbiyyatın, teatr səhnəsinin qəhrəmanı olur, onun sözlə portreti yaradılır, səhnə öz işıqlarını müxtəlif rakurslardan onun üzərinə salır. Ədəbiyyat, tarixi gerçəklikdən, zamanın özündən ədəbiyyata gələn Heydər Əliyevi həm də tarixin yaddaşına köçürür. O, səhnənin işıqları altında dahi lider, müdrik dövlət xadimi, uzaqgörən siyasətçi, sadiq həyat yoldaşı, ləyaqətli övlad və ata kimi görünür. Və diqqət çəkən məqam odur ki, Heydər Əliyevin səhnədəki obrazı özünü gələcək oxucusuna, tamaşaçısına tanıtmaqdan, təqdim etməkdən daha çox öyrədən rolunda, funksiyasında görünür. Çətin, çıxılmaz vəziyyətdən çıxış yollarını, vaxtında və yerində müdrik qərar verməyi, gələcək strateji məqamları əvvəldən görməyi və onu düzgün axara yönləndirməyi, özünün malik olduğu milli dövlətçilik baxışlarını və ictimai ideallarını öyrədir.

Bəzən bədii ədəbiyyat tarixi tarixin özündən yaxşı öyrədir. Heydər Əliyev haqqında yazılan dram əsərləri oxucuya Heydər Əliyevi bir tarixi şəxsiyyət, tədbirli dövlət başçısı kimi göstərməklə yanaşı, həm də o epoxanın ictimai-siyasi vəziyyətini əks etdirən salnamə hesab oluna bilər.

Dram əsərinin əsas ünvanı teatrdır, səhnədir. O, oxudan çox tamaşa üçün nəzərdə tutulur. Bu baxımdan, Heydər Əliyev haqqında

yazılan dram əsərlərinin əksəriyyəti öz ünvanına çatıb. Belə ki, bu əsərlərin çoxu səhnə həyatını yaşayıb və uğurlu da alınıb.

Marat Haqverdiyevin "Üç dəniz əfsanəsi" ikihissəli dramında Heydər Əliyev bir obraz kimi iştirak etməsə də əsər Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunub və bu pyesin remarkasında səsləndikdən sonra, ekranda diktor mətni ilə sənədli kadrların nümayişi gedir. 90-93-cü illər ölkədə baş verən ictimai-siyasi vəziyyət, xaos, silahlı qarşıdurmalar, qiyamlar, dövlət çevrilişləri, Ermənistanın hərbi təcavüzü, iqtisadi böhran haqqında kadrlar göstərilir. Belə bir çətin vəziyyətdə müəllif Heydər Əliyevin xalqın istəyi və təkidi ilə hakimiyyətə gəldiyini, ölkədə sabitlik yaratdığını, Azərbaycanı parçalanmaqdan, məhv olmaqdan qurtardığını qeyd edir. "Üç dəniz əfsanəsi" əsrin müqaviləsi əsasında gerçəkləşən Bakı–Tbilisi–Ceyhan kəmərinin çəkilməsi zamanı qarşıya çıxan problemlərdən, Heydər Əliyevin həmişə olduğu kimi, bu dəfə də sərgilədiyi əzmkarlığından, heyrətamiz qətiyyətindən bəhs edir. Əsərdə bütün yaxşı, işıqlı işlərə əngəl olmağa çalışan bədxah qüvvələrin bu dəfə də "Üç dəniz əfsanəsi" adlanan neft layihəsinin çəkilməsinə törətdikləri maneçilikdən və buna nail ola bilməmələrindən danışılır. Adı çəkilən neft layihəsinin reallaşmaması üçün xarici qüvvələr daxili nümayəndələrinin əli ilə tədbirlər tökür, təxribat yaradır, bunun üçün yerli əhalidən istifadə edir, borunun keçəcəyi yerlərdə yaşayan əhali ilə görüşür, bir sözlə, hər cəhdə əl atırlar.

**I ŞƏXS:** Cənablar! Bizə o da məlumdur ki, kəmərin Azərbaycandan keçən ərazisində işlər yenicə başlayıb. Nə qədər ki, gec deyil, biz tikintiyə əsaslı zərbə vurmalıyıq, xalqın rəhbərliyə olan inamını qırmalıyıq!

**II ŞƏXS:** Bu gün Bakı-Tblisi-Ceyhan kəməri tikilir. Bunun ardınca Bakı-Tblisi-Ərzurum qaz kəməri gəlir. Hələ Bakı-Tblisi-Qars dəmir yolunu və sairələri demirəm. Bütün bunlar Azərbaycanın iqtisadi və siyasi qüdrətinin güclənməsi, beynəlxalq nüfuzunun durmadan artması deməkdir. Bunun qarşısını almaq üçün biz birinci növbədə sübut etməliyik ki, respublika dünya miqyaslı tikinti aparmaq qabiliyyətinə malik deyil.

**SƏDR:** Elədir. Amma unutmamalıyıq ki, xalqın ən incə damarı onun inancındadır. Təbliğat aparmaq lazımdır ki, kəmərin keçdiyi ərazilərdə yerləşən dini məbədlər və ibadətgahlar sökülüb-dağıdılacaq. Bu isə xalq arasında böyük narazılığa, çaxnaşmalara, tikinti

əleyhinə nümayişlərə gətirib çıxaracaq, ölkədə daxili vəziyyəti gərginləşdirəcəkdir. Biz də bunlardan istifadə etməklə kəmərin çəkilən hissələrini göyə sovurub xalqın hökumətə olan inamını qırmalıyıq. Sonra da aramsız nümayişlərdən yorulan ölkəni üsyana qaldırmalı, hökuməti devirmək üçün müvafiq şərait yaratmalıyıq. Çünki bu ölkənin rəhbərliyi, onun Türkiyə və Gürcüstanla dostluğu bizi qane etmir, daha doğrusu, bizim üçün böyük təhlükədir! (yerlərdən onun sözlərini təsdiq edən: – Elədir! Doğrudur! – kimi replikalar səslənir). Aleks! Siz Azərbaycan ərazisində bu məsuliyyətli işləri həyata keçirmək üçün məsul şəxs təyin olunursunuz. Ümidvaram ki, bu etimadı doğruldacaqsız!

**ALEKS:** Əlbəttə, cənab, buna əmin ola bilərsiniz![1]

Ancaq xainlər nə qədər hiyləyə əl atıb tədbirlər töksələr də, öz məkrli niyyətlərinə çata bilmirlər. Dünyanın böyük enerji layihələrindən olan Bakı–Tblisi–Ceyhan neft kəməri Azərbaycan–Gürcüstan–Türkiyə dostluq və əməkdaşlığının, iş və amal birliyinin möhkəm təməlini təşkil edirdi ki, bu əməkdaşlıq təkcə Azərbaycan üçün deyil, eyni zamanda Xəzər regionu, Cənubi Qafqaz üçün enerji təhlükəsizliyinin təmin olunması baxımından böyük əhəmiyyətə malik idi və bunu Ulu öndərin şah əsərlərindən biri hesab etmək olar.

Əslində, yuxarıda oxuduğumuz dialoq həm də düşmənlərin özlərinin inkişaf edən, çiçəklənən, beynəlxalq əhəmiyyətli layihələrə imza atan Azərbaycan və onun lideri haqqında etiraflarını əks etdirir.

Marat Haqverdiyev bu pyesdən başqa, 1993-cü ildə Ulu öndər haqqında "Qarabağ şikəstəsi" və "Fədakarlıq" adlı ssenarilər yazmışdır ki, hər ikisinin əsasında bədii televiziya filmi çəkilmişdir. "Üç dəniz əfsanəsi" pyesi isə hazırda Gəncə Dövlət Dram Teatrında tamaşaya hazırlanır. Müəllif əsərlə bağlı müsahibəsində pyesi 5 ilə yazdığını qeyd edir.

Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" mənzum pyesində akademik İsa Həbibbəylinin dediyi kimi, tarixilik, elmilik və müasirlik vəhdət təşkil edir. Müəllif "əsərdə xalq qəhrəmanı Koroğlu ilə Ümummilli liderimiz Heydər Əliyevin mübarizəsini və ideallarını böyük bacarıqla uzlaşdırmışdır. Beləliklə, əsər tarixiliklə

---

[1] Marat Haqverdiyev. Üç dəniz əfsanəsi. Müəllifin şəxsi arxivi, s. 5

müasirliyin vahid mövqedən təqdimi baxımından əhəmiyyətlidir”.[1] Belə ki, əsərdə 93-cü ilin ortalarında – Azərbaycanın çətin və qalmaqallı vəziyyətlə üz-üzə qaldığı vaxtda bir qəhrəmanın, xilaskarın gəlişinə ehtiyac duyulanda, el ağbirçəyi Telli xanımın və ağsaqqal aşıq Cünunun yadına Koroğlu – Heydər Əliyev düşür. Xalqın simvolu olan bu iki el vəkili dağlara çəkilmiş Koroğlunun yanına gedir, vətənin ona böyük ehtiyacı olduğunu deyir, onu Çənlibelə dəvət edirlər. Məmləkətin darda olduğunu görüb dəvəti qəbul edən Koroğlu xəyalən Babəkdən, Şah İsmayıldan və Atatürkdən xeyir-dua alır. Biri ona qılıncını, biri kamalını bağışlayır, Atatürk isə xalqa söykənməyi, ondan güc almağı tövsiyə edir. Qılınc, ağıl və xalqın dəstəyi ilə silahlanan Koroğlu Azərbaycanı parçalamağa, bölüb-bölüşdürməyə çalışan həm daxili, həm xarici düşmənləri məğlub etməyi bacarır. Tökülən qanları, dartışmaları dayandırır, sabitlik, nizam və intizam yaratmağı bacarır. XX əsrin hadisələri ilə XVII əsrin qəhrəmanlarını bir səhnəyə gətirən dramaturq istəyinə nail ola bilmiş, Heydər Əliyev obrazını tarixdə iz qoymuş şəxsiyyətlərin malik olduqları keyfiyyətlərlə bəzəyib süsləmişdir və bunu elə uğurla etmişdir ki, Nəriman Seyidbəylinin dediyi kimi, “dramaturq hadisələr üzərində o qədər düşünüb daşınmışdır ki, əsərdə heç bir hadisə tamaşaçıda təəccüb və etiraz doğurmur”.[2]

*Babək:*
Mən dedim: qılıncla qalib gələrsən,
Kamalın qılıncdan kəsərli oldu!

*Şah İsmayıl:*
Bu günlər hamıya göstərdin ki, sən,
Xalqına güvənən qüvvətli oldu.

*Atatürk:*
Ömrümdə bir dəfə ağladım mən də,
Bu üçrəngli bayraq yerə düşəndə.
İndi bu bayrağın göy qurşağı tək
Çalış şöhrətini asimana çək!

---

[1] İsa Həbibbəyli. Ulu öndərin ilk bədii obrazı Naxçıvan səhnəsində. Adil Babayev. Koroğlunun Çənlibelə qayıdışı. Bakı, MHS Poliqraf, 2010, s.68

[2] Nəriman Seyidəliyev. Ulu öndər Heydər Əliyevin obrazının ilk səhnə təcəssümü. Adil Babayev. Koroğlunun Çənlibelə qayıdışı. Bakı, MHS Poliqraf, 2010, s.74

*Koroğlu:*
Eşidin siz məni müqəddəs ruhlar,
Eşitsin sözümü bütün insanlar.
Bu gündən vətənim mərd Azərbaycan,
Yazacaq tarixə yeni bir dastan![1]

Əsərin sonlarında səhnəyə çıxan Dədə Qorqud, Koroğlunu – Heydər Əliyevi "Oğuz lideri" adlandırır.

Haqqında söz açdığımız əsər 2008-ci ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125, Ümummili lider Heydər Əliyevin 85 illik yubileyi münasibəti ilə adı çəkilən teatrın səhnəsində uğurla tamaşaya qoyulmuşdur. Koroğlu obrazını xalq artisti Rza Xudiyev məharətlə canlandırmışdır.

Aqşin Babayev "Xilaskar" adlı sənədli-publisistik pyesini Azərbaycan dövlətinin memarı və qurucusu adlandırdığı Ümummilli lider Heydər Əliyevə ithaf edib, amma təkcə ithaf yox, həm də oxucu əsərdə cərəyan edən hadisələrin tam mərkəzində Onun obrazını da görür. Dramda 90-cı illərin əvvəllərində Azərbaycanda mövcud olan xaotik ictimai-siyasi vəziyyətdən bəhs olunur. Təkcə xarici düşmənlərlə deyil, bəlkə onlardan da təhlükəli olan daxildəki hakimiyyət hərisləri ilə, hansı partiya idarəetmədə olacaqsa ona üzv olmağa hazırlaşan, onun lideri ilə olan şəklini otağından asacağını deyən ikisimalı insanlarla mübarizə apara biləcək liderə ehtiyac duyulur. Əsərin adından da göründüyü kimi müəllif Heydər Əliyevi xilaskar obrazında cərəyan edən hadisələrin mərkəzinə gətirir.

**Heydər Əliyev:** Nəzərə almaq lazımdır ki, hər dövrün öz hökmü var. Biz də, demək olar ki, bu salonda oturanların hamısı, o hökmün təsiri altında olmuşuq. İndi isə hesab edirəm ki, bizim xalqımız üçün 70 illik imtahan bəsdir. Yeni bir ittifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmirəm!

Bir sözlə, mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm!

Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Xalq deputatlarını, bütün

---

[1] Adil Babayev. Koroğlunun Çənlibelə qayıdışı. Bakı, MHS Poliqraf, 2010, s.64-65

Azərbaycan xalqını bu yola dəvət edirəm. Mən bu yoldan dönməyəcəyəm!.[1] Bu, əsərdəki Milli Məclis səhnəsində Heydər Əliyevin çıxış nitqidir.

Heydər Əliyev bunu o zaman deyirdi ki, Azərbaycanın müstəqil yaşamasına şübhə edənlər yetərincə idi. Bəziləri buna ümid etmirdi, bəziləri isə arzulamırdı və Milli Məclisin iclası qutaran kimi onlar öz fəaliyyətlərinə başlayırlar.

"Deyir, Azərbaycan Sovet İttifaqının tərkibindən çıxmalıdır. Deyir, Azərbaycan müstəqil olmalıdır. Başa düşmür ki, Azərbaycan müstəqil olsa, onu o dəqiqə parçalayıb udarlar. Azərbaycan müstəqil ola bilməz! Azərbaycan müstəqil yaşaya bilməz! Siz televiziyadakı çıxışlarınızda bu məsələlərə toxunmalısınız. Bir az fəal olmaq lazımdır. Məktublar təşkil etmək lazımdır. Başa düşdüz?

Deputatlar:

- Başa düşdük.
- Siz narahat olmayın.
- Necə lazımdır, çıxış edəcəyik.
- Mənə də çox pis təsir etdi onun çıxışı"[2].

Amma xalqın arzusu keşməkeşlərdən sonra həqiqət oldu. Azərbaycan öz müstəqilliyini çətinliklə olsa da bərpa etdi və indi onun bu müstəqilliyini qoruyan əzmli, cəsur lideri var idi.

Şair-dramaturq Hidayət "Burdan min atlı keçdi" epik-xronoloji dramında ötən əsrdə Qafqazda məqsədli şəkildə yaradılan milli münaqişələrdən, məkrli, pərdələnmiş siyasətdən və bu siyasətə qarşı mübarizə aparan Heydər Əliyevdən, onun məktəbinin nümayəndələrindən bəhs edir. Hələ 70-ci illərdə Heydər Əliyev yüksək vəzifələrə irəli çəkiləndə Ermənistanda narahat olur, onun əleyhinə məkrli tədbirlər görməyə başlayırlar.

**ERMƏNİSTAN ALİ SOVETİNİN SƏDRİ**: Yoldaşlar, son hadisədən hamınız xəbərdarsınız yəqin. Ağır xəbərdir... Mən deyərdim ki, Ermənistan üçün faciəli bir xəbərdir. Ermənilərin böyük düşməni saydığımız Heydər Əliyev Siyasi Büronun üzvü seçilərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilib. Bunun bizim üçün nə demək olduğunu hamınız yəqin ki, yaxşı bilirsiniz.

---

[1] Aqşin Babayev. Xilaskar. Səhnə, Ekran, Efir. Bakı, "Şərq-Qərb", 2016, s.16-17
[2] Yenə orada, s.19

**1-Cİ MƏMUR**: Elədi! Bundan sonra Kremlə yolumuz çətinləşəcək. Dənizdən-dənizə böyük Ermənistan ideyası məhv olub getdi.

**ERMƏNİSTAN ALİ SOVETİNİN SƏDRİ** – Təklifiniz nədir?

**2-Cİ MƏMUR**: Mən təklif edirəm ki, bu qərarla bağlı Moskvaya etirazımızı bildirək. Boykot edək bu qərarı.

**ERMƏNİSTAN ALİ SOVETİNİN SƏDRİ**: Bununla heç nə dəyişməyəcək. Özümüzü pis vəziyyətdə qoymuş olarıq.

**2-Cİ MƏMUR**: Bəs, onda nə edək? Oturub gözləyək ki, bir-iki ilə Heydər Əliyev gəlib Gensek olsun.

**3-CÜ MƏMUR**: Yox, bu daha ağ olardı. Moskva bunu heç vaxt qəbul etməz. Sovet imperiyasının başına bir türkün oturmasına ruslar heç vaxt razı olmazlar.

**2-Cİ MƏMUR**: Elə bu hadisəni də gözləmirdik, amma baş verdi. Heydər Əliyev köhnə çekistdir. Ondan hər şeyi gözləmək olar.

**ERMƏNİSTAN ALİ SOVETİNİN SƏDRİ**: Məncə, biz etirazımızı ənənəvi üsullarımızla bildirməliyik. Moskvada təxribatlar törətmək olar. Bizim bu işdə təcrübəmiz az deyil. İkincisi, Heydər Əliyevə qarşı məktublar hazırlayıb Kremlə göndərmək lazımdır. Bu işi Zori Balayana və Silva Kaputikyana həvalə edək.

**4-CÜ MƏMUR**: Məncə, bu şikayət məktubları Azərbaycandan getsə daha da effektli olar. Mən Azərbaycanda adamlar tanıyıram ki, Heydər Əliyevin hakimiyyəti dövründə vəzifədən çıxarılıb, həbs olunublar. Onları həvəsləndirsək, razı olarlar.

**ERMƏNİSTAN ALİ SOVETİNİN SƏDRİ**: Düz deyirsiniz. Bu daha təbii olar. Qarabağ bir an da olsa belə gündəmdən düşməməlidir. Doğrudur, indi Ermənistanda azərbaycanlıları sıxışdırıb çıxarmaq çətin olsa da, bunun üçün yeni üsullar tapmaq lazım gələcək. Onların həyat şəraitini ağırlaşdırmaq, bezdirmək üsulu ilə özlərinin çıxıb getmələrinə şərait yaratmaq lazımdır. Xaricdə Daşnaksütyunla əlaqəni daha da möhkəmləndirmək vacibdir. Bu işdə onlar bizə yaxşı kömək edə bilərlər.

Müəllif düşmənlərin məkrli niyyətlərini, iç üzlərini öz dilləri ilə göstərir. Heydər Əliyev onlar üçün böyük arzularına, xəyallarına gedən yolda maneə idi və bu maneəni aradan qaldırmaq üçün bütün yollara əl atır, özlərinə xas üsulların hamısını sınayırlar. Tarixi, xəritəni saxtalaşdırmaqdan tutmuş, anonim məktublaracan. Heydər Əli-

yev dühası o zaman SSR-nin birinci şəxsi olan Brejnevin inamını qazansa da, təəssüf ki, bu etimaddan, inamdan qorxan, ehtiyat edən ermənilər ətrafındakıları da öz bəd əməllərinə şərik qoşur, Heydər Əliyevi istefaya göndərməyə çalışırlar. Amma Heydər Əliyev sübut edir ki, bu inam kor-koranə deyil, bu böyük işgüzarlığın, zəhmətin, ortada olan saysız-hesabsız faktların nəticəsidir.

Məşhur el bayatısının – "Burdan bir atlı keçdi" misrasını "Burdan min atlı keçdi" kimi improvizə edib əsərin başlığına çıxaran müəllif əsərin əvvəlində tarixə kiçik bir ekskurs edir, ana yurdun həm saralıb-solmuş müəmma dolu, həm gün kimi apaydın səhifələrini, tarixin keşməkeşlərində itmiş, kəsilib götürülmüş vərəqlərini xatırladır, dostuna, düşməninə hər zaman qapısı açıq olan məmləkətinin səxavətindən danışır. Qərbi azərbaycanlıların erməni şovinistlərlə yaşadığı gərgin münasibətlərdən söz açır.

Əsər 2015-ci ildə İrəvan Dövlət Azərbaycan Teatrının səhnəsində tamaşaya qoyulmuşdur.

2012-ci ildə on bir dilə tərcümə olunub çap olunan "Müstəqil vətənin memarı" poemasının müəllifi İftixar Piriyev daha sonra Ulu öndər haqqında "İşıqlı, nurlu sabah", "Qurtuluş", "Qurtuluşa gedən yol", "Qurtuluş dastanı", "Nurlu ömrün anları", "Azərbaycan bayrağı" adlı pyeslər yazmışdır və bunların əksəriyyəti səhnələşdirilmişdir. Bu əsərlərin hamısında Heydər Əliyev tələbkar, işgüzar, cəsarətli, yeri gələndə sərt mövqe sərgiləməklə yanaşı, həm də qayğıkeş, həssas lider kimi görünür.

İftixar "İşıqlı, nurlu sabah" ikihissəli publisitik, xronikal, mənzum dastanında b.e.ə. III minillikdən Aratta ilə başlayan dövlətçilik tariximizin müstəqillik dövrünə qədər keçdiyi yola səyahət edir. Lillubi, Kuti, Manna, Atropatena, Albaniya, Sasanilər, Şirvanşahlar, Sacilər, Səlarilər, Şəddadilər, Rəvvadilər dövlətlərini xatırladan müəllif hadisələri XX əsrin axırları, XXI əsrin əvvəlləri Azərbaycan adlı böyük bir ölkənin şimal qütbündə cərəyan edən hadisələrə gətirib çıxarır. Bu əsərdə tarix özü bir obraz kimi çıxış edir. Gah meydanda, insanlar arasında görünən, gah qeybdən səsi eşidilən Tarix neçə qanlı savaşdan keçən, sinəsi dəlik-dəlik, bölük-bölük olmuş Azərbaycanın bu gün çox dözümlü və əzəmətli dövlətə çevrildiyini vurğulayır və bu əzəmətli dövləti məhv olmaqdan qoruyan, şanlı tarix yaradan Heydər Əliyevi talenin xalqa hədiyyəsi adlandırır. Müəllif əsərdəki obrazların dili ilə Heydər Əliyevi "nadir siyasi ustad",

“düşmənə sinə dağı”, “dosta sülh çırağı”, “azadlıq bayrağı”, “müstəqillik memarı”, “ədalət abidəsi”, “şərqə doğan günəş”, “türkün rəmzi nişanı” kimi xarakterizə edir.

“Nurlu ömrün anları” mənzum, xronikal elegiyası da müəllifin Ümummilli lider Heydər Əliyevə həsr etdiyi pyeslərindəndir. Əsər fərqli səhnə quruluşuna malikdir. Belə ki, ocağın alov dilləri ilə işıqlandırılan meydanın tən ortasında yeddi metal şit vardır. Tamaşa boyu personajlar hər dəfə şiti çevirdikcə Heydər Əliyevin ömrünün müxtəlif anlarını əks etdirən fotoları görünür. Əvvəl mərkəzdəki şitdə Heydər Əliyevin müdrik simasını canlandıran foto açılır və səhnəyə daxil olan insanlar ocağın ətrafında əl-ələ tutub birləşirlər. İkinci metal şitdə Ulu öndərin uşaqlıq şəkilləri, üçüncü metal şitdə general rütbəsi ilə təhlükəsizlik orqanının geyimində olduğu portreti, dördüncü şitdə Azərbaycan KP MK-nin birinci katibi olduğu dövrdəki, beşinci şitdə 1993-cü illərdəki, altıncı şitdə Heydər Əliyevin neft kontraktına imza atma mərasimindəki, yeddinci şitdə ulu öndərin Zərifə xanımla birgə fotoşəkilləri əks olunur və hər dəfə bu fotolar açıldıqca səhnədəki personajlar Heydər Əliyevin həmin dövrdəki fəaliyyətini xatırladır, onun keçdiyi ömür yoluna səyahət edirlər. Əsər həm Azərbaycanda, həm Tiflisdə, Marneulidə, Bolnisidə dəfələrlə səhnələşdirilmiş və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

“Qurtuluş dastanı” əsəri də İftixar Piriyevin ulu öndərin obrazını yaratdığı əsərlərdən biridir. Əsər həm 90-cı illərin ictimai-siyasi ab-havasını, dövlətçiliyimizin müqəddaratının həll olunduğu bir dövrün durumunu, həm də Heydər Əliyevin müdrik obrazını əks etdirmək baxımından maraqlıdır. Bu pyesdə Heydər Əliyevi Qorbaçovla, mətbuat nümayəndələri ilə, sənət adamları ilə, övladları ilə, xəyalən valideynləri – Əlirza kişi və İzzət xanımla, ömür-gün yoldaşı Zərifə Əliyeva ilə görüşdürən müəllif onun üzərinə müxtəlif rakurslardan işıq salır, ulu öndəri həm təmkinli, müdrik siyasətçi, dövlət xadimi, ailə başçısı kimi göstərməklə, həm onun ictimai – dövlətçilik, azərbaycançılıq idealını, həm də Şərq dəyərlərini özündə simvolizə edən bir şəxsiyyət kimi təqdim edir. Adlarını çəkdiyimiz insanlarla dialoqu, xəyali söhbətləri, bəzən sərt, bəzən yumorlu cavabların altındakı məna qatı Heydər Əliyev zəkasını əks etdirə bilmişdir. Elə əsərin ilk hissəsinin birinci şəklində Kremldə Qorbaçovla Heydər Əliyevin görüşündə biz Ümummilli lideri əsəbləşib özün-

dən çıxmış, həmsöhbətinin qarşısında təmkinlə, hədəfə yönəlmiş cavabları ilə qalib görürük. Heydər Əliyevdən könüllü istefa verməyi istəyən Qorbaçov əks halda bir problem tapacağını deyəndə,

**Heydər Əliyev:** (Susur. Düşünür. Qorbaçovu təpədən dırnağa qədər süzür və təmkinlə) Amma daha yaxşı olar ki, siz vaxtınızı ölkənin taleyi, problemləri barədə ciddi düşünməyə sərf edəsiniz. Xəbəriniz varmı ki, Sovet İttifaqı dağılmaq təhlükəsi qarşısındadır? Respublikalardakı acınacaqlı vəziyyət sizi narahat etmirmi? Əvvəlcə, Qazaxıstan hadisələri, indi də Azərbaycanın Dağlıq Qarabağında gizli münaqişələr yaradılır. Bütün bunların nə ilə nəticələnə biləcəyi sizi narahat etmir?.. Mən bu barədə sizi dəfələrlə xəbərdar etmişəm, ancaq bağışlayın, siz hər dəfə qulaqardına vurmusunuz...

**Qorbaçov:** (Bir qədər susur. Otaqda var-gəl etməyə başlayır. Sakit tərzdə) Heydər Əliyeviç, etiraf edirəm ki, siz çox ağıllı adamsınız, hər şeyi əvvəlcədən proqnozlaşdıra bilirsiniz. Amma təəssüf ki, mənim ağıllı adamlara ehtiyacım yoxdur. Dərhal istefa verin, yoxsa sizi başqa aqibət gözləyir[1].

Heydər Əliyev vəziyyəti dəyərləndirməyə çalışır. Düşüncələr işərisində olsa da onun kəskin baxışları Qorbaçova zillənir. Ona tərəf irəliləyir. Qorbaçov ehtiyatla stolun arxasına keçir. Heydər Əliyev stolun tam qarşısında dayanaraq özünəməxsus aramla Kremldə baş verən ölüm hadisələrini, sui-qəsdləri, Nəriman Nərimanovun taleyini unutmadığını, amma bütün bunların onun əqidəsinə heç bir təsir etməyəcəyini, onu yolundan və əzmkarlığından, görmək istədiyi taleyüklü məsələlərdən döndərə bilməyəcəyini deyir, Qorbaçova palitbüroya ilk dəfə gəlişini, o zaman dəstəklədiyini xatırladıb şahanə addımlarla kabineti tərk edir. İftixar Ümummilli liderə həsr etdiyi başqa bir dram əsərində - "Qurtuluşa gedən yol" adlı ikihissəli tarixi dramında da Heydər Əliyevin dili ilə Qorbaçovun apardığı siyasətin qüsurlu olduğunu, onun naşılığını və beləliklə də, bütün regionda vəziyyəti gərginləşdirdiyini vurğulayır. O zaman Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyev köməkçisi Vasif Talıbovla söhbəti zamanı deyir:

Demokratiyanı heç Qorbaçovun özü düzgün anlamırdı. Anlamırdı ki, bir ictimai formasiyadan başqa bir ictimai formasiyaya keçməyin öz qanunauyğun yolları vardır. Mən dəfələrlə ona bu ba-

[1] İftixar. Qurtuluş dastanı. Müəllifin şəxsi arxivi, s.5

rədə demək istədim, ancaq o məni eşitmək iqtidarında deyildi.. Ona görə də böyük xaos yarandı. Yaranmış xaos o qədər zəhərli oldu ki, bütün dünyanı başına aldı. Milli münaqişələr son həddə çatdı. Odur ki, indi yaranmış vəziyyətdən çıxmaq üçün böyük zəhmət çəkmək lazımdır. Qafqazda isə daha gərgin çalışmaq tələb olunur.... Həmçinin Naxçıvanda...

Müəllif bu dialoqlarla qəhrəmanının üstün zəkasını, baş verən hadisələrin gələcək nəticələrini görə bilmək fəhmini, onları analiz etmək, düzgün istiqamətə yönləndirmək bacarığını göstərə bilmişdir.

Həmin pyesdə Heydər Əliyevin uşaqlarla, gənc nəsillərlə bağlı tövsiyəsi də maraqlı və diqqətçəkəndir. Ulu öndər Vasif Talıbovla söhbətində uşaqları qorumağı, onların təhsilinə, tərbiyəsinə diqqət yetirməyi tapşırır, onlara çəkilən əziyyəti ən dəyərli kapital hesab edir. "Uşaqları qoruyun, təhsillərinə diqqət edin. Ən böyük sərvət, ən böyük yatırım övlada çəkilən zəhmətdir. Xalqımızın gənc nəslini dəyərincə qorumaq və inkişaf etdirməklə Azərbaycanın gələcəyini təminat altına almış oluruq. Bunu hər bir Azərbaycan vətəndaşı anlamalıdır...".[1]

Hüseyn Cavidin nəşinin Azərbaycana gətirilməsini təqdir edən saysız-hesabsız yazılar var. Elnarə Akimova haqlı olaraq, bu hadisəni Heydər Əliyev siyasətinin şah əsəri, Xəlil Rza Ulutürk Heydər Əliyev qəhrəmanlığı, Sona Vəliyeva oğlu Ərtoğrulun əvəzi adlandırır, Ulu öndərin bu addımının onun dühasının, təəssübkeşliyinin məntiqi nəticəsi hesab edirlər. Nizami Muradoğlu "Hüseyn Cavid" adlı ikihissəli pyesini elə bu epizodla başlayır. Tamaşaçı əsərin əvvəlində düşüncələrə qərq olmuş Heydər Əliyevi görür. O,

*Bəraət alsa da qanun əliylə,*
*Haqqına çatmamış, çatmamış hələ.*[2] –

deyə, xəyala dalıb. Haqqına çatmamış deyəndə, o hələ Cavid irsinin araşdırılmamasını, qürbət eldə dəfn olunmasını nəzərdə tuturdu. Heydər Əliyev zaman-zaman Cavid Əfəndinin bu haqqını özünə qaytardı, onun yaradıcılığı geniş tədqiqata cəlb olundu, ev muzeyi

---

[1] İftixar. Qurtuluşa gedən yol. Müəllifin şəxsi arxivi, s.5
[2] Nizami Muradoğlu. Hüseyn Cavid. Bakı, "Elm və təhsil", 2016, s.5

yaradıldı, sağlığında pərən-pərən olmuş ailəsi bir məqbərədə, bir ocaqda birləşdirildi. Nizami Muradoğlu da adı çəkilən əsərində Ümummilli liderin bu fəaliyyətinin üzərinə işıq salmışdır.

Elşən Feyzullayev "Qəsd" adlı dram əsərini Ulu öndərin əziz xatirəsinə həsr edib. Əsərdə Heydər Əliyevin özü obraz olaraq iştirak etmir, amma Azərbaycan əsgərlərinə əsir düşmüş bir erməni əsgərinin dili ilə bu böyük şəxsiyyətin məmləkətimiz üçün, ölkəmiz üçün nə qədər əvəzsiz xidmətləri olduğunu, belə bir liderimiz olduğu üçün şanslı olduğumuzu vurğulayır.

**Erməni:** Biz çox gözəl bilirdik ki, nə qədər lideriniz oradadır, mərkəzi hökumətdə əyləşib, sizə batmaq olmayacaq. Ona görə elə sizin öz əlinizlə onu vurub siyasətdən, ən əsası hakimiyyətdən uzaqlaşdırdıq. Meydanı boşaldıb öz yolumuzda yaşıl işıq yandırdıq. Amma o, dar gününüzdə sizi tək qoymadı, həyatını təhlükəyə atıb sovet qoşunlarının vəhşiliklərini bütün dünyaya bəyan elədi. Bunu yalnız öz xalqını sevən əsl ağsaqqal, əsl xilaskar eləyə bilərdi[1].

Ümummilli lider haqqında olan dram əsərlərində milli-siyasi qarşıdurmalar, vətəndaş qırğını, Topxana meşəsində ağaclara vurulan baltaların Bakıda, meydanlarda eşidilən əks sədası, böyük imperiyanın çöküşü, Heydər Əliyevin Bakıya dönüşündən qorxuya düşən qüvvələrin dirənişi, öz müqəddaratını yenidən xilaskar liderinin ixtiyarına vermək istəyən xalqın çabaları, rus qoşunlarının törətdiyi 20 yanvar faciəsi və bir-birini əvəz edən bu tragik səhnələr fonunda Heydər Əliyev qətiyyəti, Heydər Əliyev əzəməti görünür. Görünür səhnə də, aktyorlar da tarixin o biri başından gəlmiş qəhrəmandan çox, şahidi, iştirakçısı olduqları tarixin qəhrəmanını canlandırmaqdan zövq alır və buna görə də bu əsərlərin səhnə həyatı da uğurlu alınmışdır.

Heydər Əliyev özü ədəbiyyatla bağlı söhbətlərində, çıxışlarında yazıçı və şairlərin tarixlə, tarixi şəxsiyyətlərlə bağlı mövzulara müraciət edərkən məsuliyyətlə yanaşmağı, diqqətli olmağı tövsiyyə edirdi. Bu cür mövzuları həm mühüm, həm də mürəkkəb mövzu hesab edirdi. Biz də əminik ki, Ulu öndərin şəxsiyyətinə bundan sonra da müraciət edən sənətkarlar bu işin öhdəsindən gələ biləcək, həm Heydər Əliyev obrazına, həm onun epoxasına düzgün rakursdan işıq sala biləcəklər.

---

[1] Elşən Feyzullayev. Qəsd. Dram əsərləri. Bakı, 2010, s.19

# ELMİ-ƏDƏBİ FİKİRDƏ HEYDƏR ƏLİYEV DÜHASI

*(Filologiya elmləri doktoru Əlizadə Əsgərli)*

Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyev haqqında zəmanəmizin elm,[1] ədəbiyyat[2] və mədəniyyət[1] xadimləri qiy-

---

[1]Akif Əlizadə. Azərbaycan elminin inkişaf strategiyasının banisi. Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.20-29; [2]Cəlal Əliyev. Heydər Əliyev dünyanın nadir şəxsiyyətlərindən biri idi. Yenə orada. s.30-43; [3]Mahmud Kərimov. Heydər Əliyev siyasətinin elmi əsasları və elm siyasəti. Yenə orada. s.10-19; [4]İsa Həbibbəyli Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası. Yenə orada. s.206-215 [5]İsmayıl İbrahimov. Heydər Əliyevin həm siyasi, həm də mənəvi keyfiyyətlərinə heyran qalırdım. Yenə orada. s.44-49;[6]Arif Mehdiyev. Dahiliyin Heydər Əliyev zirvəsi. Yenə orada. s.50-57; [7]Vasim Məmmədəliyev. Heydər Əliyev və dövlət-din münasibətləri. Yenə orada. s.66-75 [8]Teymur Bünyadov. Bayrağımız, bayraqdarımızdı. Yenə orada. s.76-82; [9] Rəfiqə Əliyeva. "Biz ona sitayiş edirdik". Yenə orada, s.82-91; [10] Fəttah Heydərov. "Böyük insan, işıqlı şəxsiyyət, müdrik ağsaqqal. Yenə orada. s.106-115; [11]Əhliman Əmiraslanov. Böyük azərbaycanlı Heydər Əliyev dühası yaşayır və daim yaşayacaqdır. Yenə orada. s.116-123; [12]Adilə Namazova. Uşaqları çox sevən dövlət başçısı Heydər Əliyev. Yenə orada. s.124-133; [13] Nailə Vəlixanlı. Heydər Əliyev və Azərbaycanda milli muzey işi. Yenə orada. s.134-139; [14] Tofiq Nağıyev. Heydər Əliyev və Milli Ensiklopediya. Yenə orada. s.152-155; [15] Tofiq Hacıyev. Özü, varisi və ana dili. Yenə orada. s.156-165; [16] Məşədixanım Nemət. Könüllərdə yaşayan dahi. Yenə orada. s.166-173; [17] Siddiqə Məmmədova. Heydər Əliyev. XX əsr türk dünyasının möcüzəsidir. Yenə orada. s.184-191; [18] Ömər Eldarov. Sənətin və sənətkarın hamisi. Yenə orada. s.192-199; [19] Çingiz Qacar. Böyük azərbaycanlı, vətənpərvər və ziyalı. Yenə orada. s.200-205; [20] İsmayıl Hacıyev. Dünya miqyaslı siyasətçi. Yenə orada. s.216-231; [21] Böyükkişi Ağayev. Müdrik və qayğıkeş insan. Yenə orada. s.226-231; [22] Arif Məlikov. Tarixin əbədi simfoniyası. Yenə orada. s.232-239; [23] Rafael Hüseynov. Heydər Əliyevin ən vacib yadigarı. Yenə orada. s.240-261; [24]Rəna Məmmədova. Heydər Əliyev və Azərbaycan incəsənəti. Yenə orada. s.240-261; [25]Səlahəddin Xəlilov. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı: "Azərbaycan Universiteti," 2002, 232 s. [26] Lider. Dövlət Cəmiyyət. Bakı: "Azərbaycan Universiteti," 2001, 358 s.; [27]Yaqub Mahmudov. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, Təhsil, 2002, 328 s.; 27. Nizami Cəfərov. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. Azərbaycanda Atatürk Mərkəzi, Bakı, "Çaşıoğlu", 2004, 160 s.; 28.Azərbaycanşünaslığın əsasları. Bakı: "AzAtaM", 2013, 352 s.; 29. Rafiq Əliyev. Heydər Əliyev, din və mənəvi dəyərlər. Bakı, "Əbilov, Zeynalov və oğulları". 1998, 76 s.; 30. Fəraməz Maqsudov. Heydər Əliyev və Azərbaycan elmi. Bakı: Elm, 1998, 260 s.; [32]Qoşqar Əliyev. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, "Qismət", 2003, 248 s; 32. Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan – Dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, "İdeal-Print, 2010, 609 s; [34]Misir Mərdanov. Azərbaycan təhsil tarixi. Bakı: Təhsil, 2012, 909 s; [35]Salatın Əhmədova. Heydər Əliyev və ədəbi-tarixi proses. Bakı: Elm, 2013, 156 s.

[2]Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası: Nizami Cəfərovun elmi araşdırmalarında. Bakı, Elm, 2004, 148 s. [2]Heydər Əliyev və mətbuat: müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. 4 cilddə / tərtibçilər: Ə.Abbasov, T.Əhmədov, R.Mehdiyev. I cild. Yanvar 1990 – iyul 1996. Nurlar NPM, 2003, 640 s. II cild, iyul 1996 – iyul 1998. III cild, İyul 1998 – sentyabr 2000. IV cild noyabr 2002 -mart 2003;

[3]Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Elm, 1998, 178 s; [4]Xatirə Quliyeva. Heydər Əliyev və mənəvi-estetik dəyərlər. Bakı, Azərnəşr, 2002, 176 s; [5]Ramiz Məmmədov. Heydər Əliyev və milli mənəviyyatımız. Bakı, "Nasir", 2004, 104 s; [6]Almaz Ülvi. Ədəbiyyat ömrü yaşayan ədəbiyyat memarı. Bakı, Nurlan, 2004, 80 s. [7]Adil Abdulla Əl-Fəlah. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı, "Qismət", 2007, 108 s. [8]Akif Əliyev. Heydər Əliyev və ədəbiyyatımız. Bakı, Nurlan, 2007, 307 s; [9]Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. Bakı, "Çinar-Çap", 2007, 136 s; [10]Tərlan Novruzov. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı, "ADPU nəşr", 2007, 399 s; [11]Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, 245 s; [12]Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideologiyanın formalaşması məsələləri. 2010-cu ilin mayın 5-də keçirilmiş ümumrespublika elmi-nəzəri konfransının materialları. Bakı, Elm və təhsil, 2010, 422 s; [13]Timurçin Əfəndiyev. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, "Zərdabi LTD MMC NPM, 2011, 260 s; [14]Gülbəniz Babaxanlı. Heydər Əliyev və Hüseyn Cavid. Bakı, "Proqress", 2013, 159 s; [15]Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri Bakı: Nurlan, 2013, 190 s; [16]Ayşən Sadıqlı. Ümummilli lider Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Mütərcim", 2013, 304 s; [17]Leyla Məmmədəliyeva. Elçin publisistikasında "Tənha adam" – Ulu öndər obrazı. Bakı, Elm, 2016, 116 s; [18]Heydər Əliyev və qədim türk mifoloji folklor irsinə həsr edilmiş elmi-praktik konfransın materialları. Bakı, 2003; [19]Heydər Əliyev və Cənubi Azərbaycan milli-mənəvi dəyərləri. Heydər Əliyev və milli dəyərlər mövzusunda konfransın materialları, Bakı, 2003; [20]Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil", 2018, 400 s; [21]Bəxtiyar Sadıqov. Heydər Əliyev Azərbaycanda söz və mətbuat azadlığının tərənnümçüsüdür. Dirçəliş – XXI əsr. 2003, №63, s.72-79; [22]Vasim Məmmədəliyev. Heydər Əliyev zəkasının işığı və mənəvi dəyərlərimiz. Dirçəliş – XXI əsr, 2004, № 74-75, s.169-176; [23]Elnarə Akimova. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı və Heydər Əliyev. "Azərbaycan", 2014, №5, s.108-114; [24]Fərhad Mədətov. Yeni Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazı. Sabir Əhmədlinin romanları əsasında. Bakı, "BDU", 2003, 116 s; [25]Hüseynbala Mirələmov. Həqiqət: publisistik düşüncələr. Bakı, "Azərbaycan", 2003, 446 s; [26]Bir günəş var: tarixi-publisistik düşüncələr. Bakı, "Səda", 2004, 240 s; [27]İşığın izi ilə: tarixi-ədəbi esse. Bakı, "Azərbaycan", 2004, 288 s; [28]Millətin atası: publisistik düşüncələr, tarixi esseler, məktublar. Bakı, "Azərbaycan", 2004, 288 s; [29]Z.Yaqub. Böyük ömrün dastanı. Bakı, XXI-YNE, 2004, 143 s; [30]Ürəklərdə ucalan abidə. Bədii və publisistik əsərlər. Kitab 1, Kitab 2, Kitab 3.Bakı, "Nekfor NT", 2005, 400 s; [31]Zəlimxan Yaqub. Allahım mənə bir ağsaqqal yetir. Bakı, "1993"; [32]Zəlimxan Yaqub. Şair harayı. Bakı, 1995, s.22-24; [33]Zəlimxan Yaqub. Əbədiyyət dastanı. "Ozan dünyası", 2013, №1, s.9-25; [34]Zəlimxan Yaqub. Heydər Əliyev ucalığı. "Ozan dünyası", 2013, №1, s3-8; "Mədəni həyat", 2013, №8, 2-5; [35]Şərəbanı Məmmədova. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri. Naxçıvan Dövlət Universiteti, "Naxçıvan", 2014, 160 s; [36]Tahir Paşazadə. Heydər Əliyev və Azərbaycan xalq yaradıcılığı. AMEA Folklor İnstitutu. Bakı, 2018, 162 s; [37]Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 93 illik yubileyinə həsr edilmiş "Filologiya elminin aktual problemləri" I Respublika tələbə elmi-praktik konfransının materialları. Bakı, 29 aprel 2016, Bakı, "Mütərcim", 2016, 252 s.

[1]Nigar Ələkbərova. Mədəniyyət və siyasət. Bakı, "Azərbaycan", 2000, 288 s; [2]Heydər Əliyev və Azərbaycan incəsənəti. Bakı, Elm, 2000, 124 s; [3]Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab Bakı, 2001, 438 s. II kitab. Bakı, 2001, 547 s; [4]İnqilab Kərimov. Heydər Əliyev: Sənət, sənətkar və sənətkarlıq haqqında. Bakı, "UlU İKF, 2005, 228 s; [5]Müasir Azərbaycan mədəniyyəti: problemlər və perspektivlər. Bakı,

mətli fikirlər söyləmiş, canlı faktlar-dəlillər, bədii həqiqət və obrazlı təfəkkür fonunda təcəssümünü ifadə etmişlər. O cümlədən hazırkı oçerk "*Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazı tarixi gerçəklikdən ideala*" monoqrafik tədqiqatında yer almış "*Heydər Əliyev obrazı ədəbi-filoloji fikirdə*" adlı məqalənin[1] davamı kimi nəzərdə tutulmuşdur.

2013-cü ildə AMEA-nın prezidenti, akademik Akif Əlizadənin rəhbərliyi ilə "*Azərbaycan və azərbaycanlılar*" adlı qiymətli kitab çapdan çıxmışdır (baş redaktor Akif Əlizadə, redaktor Arif Mehdiyev, baş məsləhətçilər Elmar Məmmədyarov, Əli Abbasov, Novruz Məmmədov, baş redaktorun köməkçisi Afaq Əsədova, redaksiya heyəti Cəlal Əliyev, Ağamusa Axundov, Akif Hacıyev, İbrahim Quliyev, İsa Həbibbəyli, Tofiq Nağıyev, Yusif Halaçoğlu /Türkiyə/, Şükri Haluk Akalin /Türkiyə/, Asəf Nadirov, Kamal Abdullayev, İsmayıl Hacıyev, Əhliman Əmiraslanov, Qərib Məmmədov, Fikrət Əliyev, Rasim Əliquliyev, Sabri Ateş /UŞA/, Əhməd Təşəghül/Türkiyə/, Abdülkərim Özaydın /Türkiyə/, Mustafa Budak /Türkiyə/, Nesrin Karagur /Türkiyə/, Yaqub Mahmudov və Rəna Məmmədova).

Kitab Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 90 illik yubileyi münasibətilə cənab prezident İlham Əliyevin Sərəncamı əsasında nəşr edilmişdir. Kitabda akademik Mahmud Kərimovun "Heydər Əliyev siyasətinin elmi əsasları və elm siyasəti", Akif Əlizadənin "Azərbaycan elminin inkişaf strategiyasının banisi", Cəlal Əliyevin "Heydər Əliyev dünyanın nadir şəxsiyyətlərindən biri idi", İsmayıl İbrahimovun "Heydər Əliyevin həm siyasi, həm də mənəvi keyfiyyətlərinə heyran qalırdım", Arif Mehdiyevin "Dahiliyin Heydər Əliyev zirvəsi", İsa Həbibbəylinin "Azərbayca-

---

EL NPŞ MMC, 2007, 256 s. [6] Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 3 cilddə. I cild, 1969-1982, 1993-1996, Bakı, Nurlan, 2008, 504 s; [7]Heydər Əliyev və mədəniyyət. 3 cilddə. II cild, 1997-1998, Bakı, "Nurlar", 2008, 520 s; [8]Heydər Əliyev və mədəniyyət. 3 cilddə. III cild, 1999-2003, Bakı, "Nurlar", 2008, 536 s; [9]Heydər Əliyev: mənəviyyat, mənəvi dəyər, mənəvi tərbiyə, Bakı, "Müəllim", 2011, 635 s; [10]Nağdəli Zamanov. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Kitab 1. Bakı, Elm və təhsil, 2013, 477 s; [11]Ərtegin Salamzadə. Heydər Əliyev və Azərbaycan bədii mədəniyyəti. Türkologiya, 2017, №2, s.54-60

[1]Bax: Əlizadə Əsgərli. Heydər Əliyev obrazı ədəbi-filoloji fikirdə. //Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil, 2018, s. 311-398

nın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası", Nadir Seyidovun "Azərbaycanda neft emalı və neft kimyası elminin və sənayelərinin inkişafında Ümummilli lider Heydər Əliyevin rolu", Vasim Məmmədəliyevin "Heydər Əliyev və dövlət-din münasibətləri", Teymur Bünyadovun "Bayrağımız bayraqdarımızdı", Rəfiqə Əliyevanın "Biz ona sitayiş edirdik", Əli Abbasovun "Müstəqil Azərbaycanı kosmik ölkələr sırasında görmək Heydər Əliyevin böyük arzularından biri idi", Fəttah Heydərovun "Böyük insan, işıqlı şəxsiyyət, müdrik ağsaqqal", Əhliman Əmiraslanovun "Böyük azərbaycanlı Heydər Əliyev dühası yaşayır və daim yaşayacaqdır", Adilə Namazovanın "Uşaqları çox sevən dövlət başçısı Heydər Əliyev", Nailə Vəlixanlının "Heydər Əliyev və Azərbaycanda milli muzey işi", Akif Hacıyevin "Ulu öndər Heydər Əliyev və Azərbaycanda fizika-riyaziyyat və texnika elmlərinin inkişafı", Tofiq Nağıyevin "Heydər Əliyev və Milli Ensiklopediya", Tofiq Hacıyevin "Özü, varisi və ana dili", Məşədixanım Nemətin "Könüllərdə yaşayan dahi", Qərib Məmmədovun "Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu aqrar siyasət ölkəmizin təhlükəsiz və təminatlı gələcəyidir", Siddiqə Məmmədovanın "Heydər Əliyev XX əsr türk dünyasının möcüzəsidir", Ömər Eldarovun "Sənətin və sənətkarın hamisi", Çingiz Qacarın "Böyük azərbaycanlı, vətənpərvər və ziyalı", İsmayıl Hacıyevin "Dünya miqyaslı siyasətçi", Böyükkişi Ağayevin "Müdrik və qayğıkeş insan", Arif Məlikovun "Tarixin əbədi simfoniyası", Rafael Hüseynovun "Heydər Əliyevin ən vacib yadigarı", Rəna Məmmədovanın "Heydər Əliyev və Azərbaycan incəsənəti" mövzusunda məqalələri özünə yer almışdır.

AMEA-nın prezidenti, akademik Akif Əlizadənin "*Azərbaycan elminin inkişaf strategiyasının banisi*" məqaləsində dahi rəhbərin obrazı *müdriklik simvolu, xalqın intellektual gələcəyi (elm və təhsilə qayğı), milli müstəqilliyin intellektual zəmini olaraq elm və təhsil, elmi-tədqiqat institutlarının yaradılması, intellektual potensiala (AMEA-ya) qiymət, elm və mədəniyyət, sosial həyat sahəsində yeni uğurların əldə olunması* baxımından canlandırılmışdır.

Akademik Arif Mehdiyevin "*Dahiliyin Heydər Əliyev zirvəsi*" məqaləsində Heydər Əliyev obrazının əsas cizgiləri bunlar olmuşdur: *iqtisadi, siyasi və mədəni inkişafa xidmət, elm, təhsil, texnika, mədəniyyət və digər sosial sahələrdə kadr hazırlığı, dünya siyasi*

*arenasında böyük nüfuz, müdrik siyasət, dönməz əqidə və tarixi uzaqgörənlik, AMEA-ya milli sərvət kimi dəyər verilməsi.*

Müstəqil milli dövlətin atributlarından biri kimi Azərbaycanın türk-islam birliyi ölkələrinə qovuşması dövlət siyasətinin tərkib hissəsi olub, akademik Vasim Məmmədəliyevin "*Heydər Əliyev və dövlət-din münasibətləri*" məqaləsindən əsas xətt kimi keçmiş, yazı üçün başlıca ideya-obraz *Heydər Əliyev fenomeni* olmuşdur. Məqalədə insanın dini adətlərə qayıdışı, İslam dininin inkişafında dövlətin rolu, ölkədə bütün millətlərə dinindən, dilindən, irqindən və siyasi mənsubiyyətindən asılı olmayaraq tolerant münasibət – azadlıq və hürriyyət, islam dinini qorumaqla əxlaq və mənəviyyatımıza ehtiram, başqa millətlərə və dinlərə hörmət, islam dəyərlərinə münasibət, müsəlman olmaq fəxarəti, başqa dinlərlə barış və anlaşma hissi əhatəli ifadəsini tapmışdır. Akademikin məqaləsində mədəniyyətdə demokratiya və hüquq, demokratiyada yüksək mənəviyyat, tərbiyədə islam dəyərlərindən qaynaqlanma, milli dünyəvi dövlətdə dinlə birlik, həmrəylik, dinlə dövlətin sıx əməkdaşlığı, zəngin milli mentalitet qavrayışı və dərki xüsusilə obrazlaşmışdır.

Biz hər bir elm xadiminin fikirlərindən danışarkən onların sahə-ixtisas özəlliklərinə deyil, ifadə etdikləri humanitariyaya, vətənpərvərlik və insanpərvərliyə xüsusi diqqət veririk. Bu baxımdan Azərbaycan Ağsaqqallar Şurasının sədri, MM-in deputatı Fəttah Heydərovun "*Böyük insan, işıqlı şəxsiyyət və müdrik ağsaqqal*" məqaləsində də Heydər Əliyevin obrazı: onun *şəxsiyyət kredosu, meyar və ölçüləri, xalqa, mənəvi dəyərlərə söykənmə, siyasi-sosial fəaliyyətdə elmi fikrin nailiyyətlərinə əsaslanma, xalqın və cəmiyyətin inkişafında elm və intellektdən faydalanma, milli genetik ruhun qorunması, yenilikçilik, təşəbbüskarlıq keyfiyyəti və maarifpərvər şəxsiyyətin təcəssümü*, bir sözlə *Ağsaqqal obrazı* canlandırılmışdır.

Müəllif yazmışdır: "Milli mənəvi dəyərlərimizə, soy kökünə tarixi bağlarla bağlı olan müdrik dövlət başçısı kimi Heydər Əliyev həmişə ağsaqqal sözünə hörmətlə yanaşardı. Əslində o, xarakterindəki bütün cizgiləri ilə bu millətin ən böyük və müdrik ağsaqqalı idi".[1]

Heydər Əliyev xalqın ağsaqqalı kimi cəmi ağsaqqallara hörmət və qayğıyla yanaşmış, müdrikliyin simvolu olmuşdur. Modern

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.113

düşüncə, yüksək idarəetmə və təşkilatçılıq bacarığı novator ruhlu liderin səviyyə göstəricilərindən olmuşdur.

Akademik İsa Həbibbəyli Ulu öndər haqqında "*Nuhçıxandan Naxçıvana: tarix və müasirlik*", "*Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası*, "*Heydər Əliyev yolu: Naxçıvan reallıqları, "Böyük qayıdışın bəhrələri", "Böyük inkişafın möhtəşəm hesabatı", "Yeniləşmədən intibaha", "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti",*"Ədəbiyyatda Heydər Əliyev obrazı tarixi gerçəklikdən ideala" məqalələri və kitablarının müəllifidir. Heydər Əliyevin həm doğum, həm də xatirə günü münasibətilə hər il mətbuatda yazıları ilə çıxış edən akademik İsa Həbibbəyli Heydər Əliyev məktəbinin yetirməsi, şərəfli varisidir. Alim hazırda prezident İlham Əliyevin siyasi-ideoloji kursuna uğurla xidmət etməkdə, elm və təhsil sahəsində müstəqil dövlətçiliyimizə qüvvə və bacarığını sərf etməkdədir. Akademikin "Azərbaycan və azərbaycanlılar" kitabında "*Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası*" məqaləsi çap olunmuşdur. Yazı boyunca dahi Heydər Əliyev *vətənpərvər, fədakar, müdrik, vətən ideallarına sadiq, sülhsevər dövlət xadimi* kimi obrazlaşdırılmışdır. Biz məqalə boyu Azərbaycan Elmlər Akademiyasının yaradılması fonunda Heydər Əliyev fəaliyyətinin siyasət, iqtisadiyyat, elm, təhsil və mədəniyyət sahələrində böyük xidmətləri, elmlə istehsalatın üzvi əlaqəsinin təcəssümünü görürük.

Akademik İsa Həbibbəyli Heydər Əliyev və ziyalılıq, Heydər Əliyev və insan amili, Heydər Əliyev və mənəvi-intellektuallıq, Heydər Əliyev və siyasət, Heydər Əliyev və iqtisadiyyat, Heydər Əliyev və mədəniyyət, Heydər Əliyev və elm kimi paralel fəaliyyət sferalarının üstünlüklərini ifadə etmişdir. Alim yazmışdır: "*Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir*". Bu, o deməkdir ki, dahi rəhbər mənalı ömrünü Azərbaycan naminə bütün sahələr üzrə şam kimi əritmişdir. Heydər Əliyev Azərbaycan Dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuş, Azərbaycan xalqı və dövlətinin qüdrətli xilaskarı kimi tarixi status qazanmışdır.

Akademik İsa Həbibbəyli Heydər Əliyevin islahatçılıq missiyası üzərində də geniş dayanmış (neft müqaviləsi, ordu quruculuğu, Azərbaycanın Yeni Konstitusiyası və milli parlamentarizmi), Ulu öndərin siyasi iradəsi ilə yaranıb möhkəmləndirilmiş ictimai-siyasi sabitliyin mahiyyətini, respublikanın dünya ölkələri ilə normal əla-

qələr qurmasını, ölkəmizin xarici strategiyasının düzgün xəttini, diplomatiya bacarığını, ölkənin beynəlxalq aləmdə artan nüfuzunu, Avrasiya Dəmir İpək Yolunun əhəmiyyətini, ölkənin tranzit ölkəyə çevrilməsini ifadə etmiş, Heydər Əliyev Azərbaycan Respublikasını Milli Qurtuluşdan yeni intibaha çatdıran görkəmli dövlət xadimi kimi xarakterizə olunmuşdur: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionlarının inkişafı, qeyri-neft sektorunun "turizmin inkişaf etdirilməsi və Bakıətrafı qəsəbələrin yenidən qurulması proqramlarının ardıcıl olaraq gerçəkləşdirilməsi ölkəmizin simasını tanınmaz dərəcədə dəyişdirmişdir. Aparılan məqsədyönlü və möhtəşəm quruculuq işləri paytaxtımız Bakını dünyanın müasir şəhərləri sırasına çıxarmışdır".[1]

Heydər Əliyev obrazını bütövləşdirən bir amil budur ki, ölkəmizdə *azərbaycançılıq məfkurəsi dərinləşmiş, milli ideologiya formalaşdırılmışdır. Milli mədəniyyətimiz, elmimiz və ədəbiyyatımız dünyada tanınmış və geniş təbliğ edilmişdir. Digər mühüm amil: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev coğrafi ərazi etibarilə kiçik, strateji əhəmiyyətinə və iqtisadi imkanlarına görə güclü bir ölkənin böyük lideri, yeni dünya siyasətinin cəlbedici simalarından biri kimi dünyanın diqqət mərkəzində dayanır".*[2]

Daha bir obraz müəyyənliyi:*"Geniş dünyagörüş, analitik təfəkkür, problemlərin həllinə çoxaspektli yanaşma, Azərbaycan idealına dərin sədaqət, inteqrasiya proseslərinin tənzimlənməsinə milli mövqedən baxış* ölkə prezidentini xalqına və dünyaya sevdirən əsas xarakterik xüsusiyyətlərdir".[3]

Akademik Əhliman Əmiraslanovun "*Böyük Azərbaycanlı Heydər Əliyev dühası yaşayır və daim yaşayacaqdır*" məqaləsində Heydər Əliyevin dühası obrazlaşdırılmışdır. Dahi rəhbərə hüsn-rəğbət onun gənclik, tələbəlik illərindən başlamış, böyük öndərin siyasi hakimiyyətə gəldiyi dövrün tələbəsi kimi ona qayğı göstərilmiş və o, 1974-cü ildə SSRİ Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzinin aspirantı olmuşdur. "Ümummilli liderimizin uzaqgörən siyasəti nəticəsində tibb mütəxəssislərimizin xaricə ixrac olunmasının dünya azərbaycanlılarının maddi və mənəvi dayağının artmasına, Azərbaycan diasporunun möhkəmləndirilməsinə zəmin yaratma-

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.213
[2] Yenə orada
[3] Yenə orada

sının özü də mənim həyatımda baş verən dəyişikliklərlə sıx vəhdət təşkil edir, çünki mən də dahi Heydər Əliyev qayğısı ilə qaynaqlanan bu elin, bu millətin, bu vətənin övladlarından, onun zərrələrindən biriyəm”.[1]

Akademik Əhliman Əmiraslanov SSRİ TEA Ümumittifaq Onkoloji Elmi Mərkəzinin direktoru akademik N.N.Bloxinin Heydər Əliyev haqqında hissiyyatlı sözlərini də xatırladır: “Akademik N.N.Bloxin adətən, ünsiyyətdə olduğu adamlar haqqında tərifli sözlər deməkdə bir qədər “xəsislik” edərdi. Lakin o, Heydər Əliyev haqqında danışanda ürəkdən gələn ən xoş sözləri söyləməkdən çəkinməzdi. Ulu öndərin çıxışları akademikdə sözün həqiqi mənasında böyük təəssürat oyatmışdı. Akademik N.N.Bloxin deyirdi ki, Heydər Əliyev səhiyyənin problemlərini, onlardan çıxış yollarını ən titullu səhiyyə mütəxəssislərindən də gözəl bilir və buna görə də ona böyük hörmət və ehtiramla yanaşıram. Vətəndən uzaqlarda yad bir millətin dünya şöhrətli aliminin həkimlər, alimlər, səhiyyə işçiləri qarşısında vətənimin böyük oğlu Heydər Əliyev haqqında ağızdolusu xoş sözlər deməsi məni və mənim kimi azərbaycanlı gəncləri qürurlandırır, fəxarətləndirirdi”.[2]

Yeri gəlmişkən, Ümummilli lider 1998-ci il sentyabrın 28-də ATU-nun yeni tədris binasının açılışında iştirak etmiş, tibb işçiləri, tibb alimləri, Tibb Universiteti tələbələrinə, həmçinin rektor kimi akademik Əhliman Əmiraslanova qol-qanad vermişdir. Bu, universitet müəllimləri, həkim və tələbələrinə ən böyük hədiyyə olmuşdur. Heydər Əliyev 2000-ci ildə də ATU-ya gəlmiş, unikal akt zalının açılışı və ATU-nun 70 illik yubileyində iştirak etmişdir. Böyük rəhbər Universitet klinikası (2002), ATU nəzdində ilk Stomotoloji Klinikanın açılmasında da akademik Əhliman Əmiraslanova kömək göstərmişdir. Prezident İlham Əliyevin sayəsində isə Onkoloji Klinika, Tədris-Cərrahiyyə Klinikası (2008) yaradılmış, 2006-2007-ci illərdəTədris-Terapevtik Klinikanın açılış mərasimi (2010) keçirilmişdir. “Böyük Azərbaycanlı, böyük vətən oğlu Heydər Əliyevin bəşəri dühası daim yaşayır və yaşayacaqdır” – deyə Ə.Əmiraslanov fikirlərinə yekun vurmuşdur.

---

[1] “Azərbaycan və azərbaycanlılar”, Bakı, 2013, 274 s., №1-4, s.118
[2] Yenə orada, s.118-119

Akademik Nailə Vəlixanlı "*Heydər Əliyev və Azərbaycanda milli muzey işi*" məqaləsində muzeyin inkişaf tarixini izləmiş, "onun xalqın tarixini, mədəniyyətini, milli irsini yaşatmaq və gələcək nəsillərə çatdırmaq" missiyasını, cənab İlham Əliyevin milli muzey irsinin inkişaf etdirilməsi, onun dünya standartları səviyyəsində qurulmasını təmin etmək sahəsində tarixi rolunu obrazlaşdırmışdır.

Görkəmli alim "*Heydər Əliyev və Milli Ensiklopediya*" məqaləsində diqqəti əsasən bir məqama kökləmişdir: "Hər bir mədəni xalqın həyatında milli ensiklopediyanın nəşri böyük tarixi hadisə, onun milli-mənəvi yüksəlişinin zirvə təqdimatlarından biridir. Ensiklopediya həmçinin dövlətin mühüm atributlarından biri, onun inkişaf səviyyəsinin göstəricisidir". O, müstəqillik dövründə mühüm ictimai-siyasi, tarixi, elmi-mədəni hadisələri obyektiv əks etdirən yeni ensiklopediyanın hazırlanması və latın qrafikası ilə nəşrini tarixi nailiyyət hesab etmişdir.

Göründüyü kimi, Ümummilli liderin tarixi obrazı dahi rəhbərin göstərdiyi tarixi xidmətlər fonunda, obyektə uyğun surətdə canlandırılmışdır.

Akademik Tofiq Hacıyevin "*Özü, varisi və ana dili*" məqaləsi də bu baxımdan səciyyəvidir. Müəllif Heydər Əliyevin obrazını *ana, körpə, əmək, mütaliə, kömək, qayğı* fonunda canlandırmışdır. Çünki ana surətinin özü də bütün bunlarda ehtiva olunmuşdur.

Görkəmli alim lider obrazında bunları görür: *Dövlət başçısının filosofluğu, dövlət siyasətində elmə arxalanma – yüksək mədəni inkişafdaelm, ədəbiyyat və sənətə, dövlət-idarəçilik mədəniyyətində möhkəm elmi təmələ dayanma*. O, bu ali keyfiyyətləri Heydər Əliyevin şəxsiyyətində görür. Ümummilli lider bu zəngin elmi biliklərlə cəmiyyət qarşısına, auditoriyalara çıxmışdır. "Ömrü boyu çalışdığı yüksək zirvədə həmişə rus dilini işlətmiş dövlət başçısı ana dilində, Azərbaycan türkcəsində necə təmiz, rahat, intonasiyası, nəfəsi, vurğuları yerində olan bir nitq söylədi!"[1]

Heydər Əliyev konyuktur ədəbiyyatı inkar etməmiş, ona aludə də olmamışdır. Amma ədəbiyyatın dövlətə, dövlətçiliyə xidmət göstərməyə borclu olduğunu bildirmişdir. Ulu öndər ədəbiyyat və tənqidə meydan vermiş, yaşlı yazıçıları, orta nəsli, gəncləri ayrı-ayrılıqda qəbul etmiş, ədəbiyyatın və sənətkarların mövcud vəziyyətini öyrən-

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.157

mişdir. Bu mənada akademik Tofiq Hacıyev Heydər Əliyevin fərdi obrazını canlandırmaq üçün xeyli ştrix vermişdir. Onlardan biri: Moskva qurultayına namizədlər müəyyənləşdirilməli idi. Bir orta yaşlı da getmək istəyirdi. Məmməd Rahimin də adı vardı. O isə xəstə idi. İstəyirdilər ki, o bir nəfəri şairlə əvəz etsinlər. "Hamı razılaşdı. MK-nın I katibi yenə məsələyə qarışdı. Dedi ki: Məmməd Rahim xalq şairidir, Moskvaya gedən siyahıda onun adı hökmən olmalıdır; bu siyahıda xalqın, dövlətin mədəniyyəti, ədəb-ərkanı görünməlidir. Salon bu düzəlişə əl çaldı. Həmin yazıçıya Moskvadan xahişlə bir yer alındı, Rahim də siyahıda saxlandı. Bu etika, ağsaqqala hörmət norması hamının ürəyindən oldu. Bu, dövlətçilik, idarəçilik, rəhbərlik etikası idi. Bu, Heydər Əliyevin iş üslubu, rəhbərlik üslubu idi".[1]

Bir nümunə də: Heydər Əliyev nüfuzu, mövqeyi sayəsində çox sənətkara Sosialist Əməyi Qəhrəmanı adını vermişdi. Məramı Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rəhimov, Süleyman Rüstəmə və başqalarına millətini, dövlətini tanıtmaq idi. Bunun üçün şair, yazıçı və musiqiçilərin yubileylərinin keçirilməsindən, heykəl-abidələrinin ucaldılmasından vasitə kimi istifadə edərdi.

Daha bir nümunə: Elit şəxsiyyətin vətən duyğusu dərin, təsirli olmuşdur. O, Vətənimizi, ana dilimizi, Azərbaycan türkcəsini ürəkdən sevmişdir. 30 sentyabr 2002-ci ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu" haqqında fərman vermişdir...

Yenə bir nümunə: Ulu öndərin fitrətində xadimlik istedadı böyük olmuşdur, – deyə akademik Tofiq Hacıyev yazmışdır. Dövlət başçısı Azərbaycan Xalq Cümhuriyyətini dövlət müstəqilliyində varis hesab etmiş, quruculuq proqramını sələflərindən təhvil alıb istiqlal bayrağımızı ucaltmışdır.

Akademik Tofiq Hacıyev Heydər Əliyevdən İlham Əliyevə vərəsəlikdə ortaq mənəvi sərvət olan *dil siyasətindən* danışmış, Heydər Əliyevin obrazını bu zəmində canlandırmışdır. Alim İlham Əliyevin Ağstafadakı ziyalılarla görüşünü, burada ana dilimizin saflığı və ədəbi dilin inkişafı ilə bağlı müzakirələri xatırlatmışdır. Prezident həmin görüşdə şairlər, yazıçılar, müəllimlər və ziyalıların olduğunu nəzərə alıb şeirdən, söz sənətindən, ədəbiyyatdan, habelə dildən, ədəbi dilin inkişafından və onun saflığının qorunmasından danışmış-

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.157-158

dır. Bu görüşün, müzakirənin çağdaşlığını İlham Əliyev qiymətli tutmuş, təbliğatında Əli bəy Hüseynzadənin qiymətli fikrini diqqətə çatdırmışdır. Dövlət başçısı demişdir: "İslam dini ilə islamlaşan, ərəb elmi ilə elmlənən, ərəb mədəniyyəti ilə mədəniyyətlənən türklər ərəbləşməyib, yenə türk oğlu türk qaldılar". Ədib bildirmişdir ki, kimlik hər bir fərd üçün əsas olmalıdır və bu, Azərbaycan dövləti və millətinə də aiddir. Cənab İlham Əliyev: "Avropanın mədəsində həzm olunmayaq, Avropanın və dünyanın intellektini mənimsəyək, düşüncəsini həzm edək", – demişdir. Dilimizin inkişafı, saflığı ilə bağlı: "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət proqramı haqqında" – Sərəncam imzalamış və dövlət dili ilə canlı xalq dilinin əlaqəsinin bariz tezislərini vermişdir.

Akademik Tofiq Hacıyev prezidentin dilə, nitqə münasibətinə əsaslanaraq ana dilimizin tarixi-mənəvi əhəmiyyətini, onun imkanlarının zənginliyini, səs quruluşunun səlisliyi və qrammatik quruluşunun sabitliyini, milli şüur və milli-mənəvi dəyərlərin yaşamasını inkişafın mənbəyi kimi xatırlatmış, hesab etmişdir ki, ana dilinin qorunması və qayğısı hər bir Azərbaycan vətəndaşının borcu olmalıdır.

Prezident İlham Əliyev ədəbi dil normalarının pozulması halları ilə üzləşəndə narahat olur: "Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normasının pozulması adi hal almışdır", – deyə narazılığını bildirmişdir.

Cənab İlham Əliyevin sərəncamından irəli gələn bir məsələ də tərcümə mədəniyyəti ilə bağlıdır: keyfiyyətsiz tərcümə, dublyaj filmlərindəki dolaşıq sintaksis, tələffüz normasızlığı. İlham Əliyev dilin inkişafı və saflığı ilə yanaşı, Azərbaycan dilçilik elminin vəziyyəti haqqında məsələ qaldırmış, tələblər qoymuşdur. Bu baxımdan prezidentin: "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" Sərəncamı əhəmiyyətlidir, ana dilinə dövlət qayğısının daha bir təzahürü, dövlət siyasətində vərəsəlikdir.

Akademik Siddiqə Məmmədova "*Heydər Əliyev XX əsr türk dünyasının möcüzəsidir*" məqaləsində dahi rəhbərin güvəndiyi böyük qüvvəni – xalqın zəkasını, müdrikliyini, qüdrətini obrazlaşdır-

mış və Ulu öndərin: *Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam* – müdrik kəlamını xatırlatmışdır.

Akademik Ömər Eldarov "*Sənətin və sənətkarın hamisi*" məqaləsi ilə Ulu öndərə böyük ehtiramını ifadə etmiş, bildirmişdir ki, Heydər Əliyevin özü gəncliyində rəssam, memar olmaq istəmişdir, onunla tez-tez sərgi salonlarında rastlaşmışdır. Ömər Eldarov böyük insanı rəssamların qurultayındakı çıxışında, aldığı "Əməkdar İncəsənət xadimi" (1965) fəxri adında və fərdi sərgilərində xatırlamış, onun dahi obrazına xatirələr fonunda yanaşmışdır. Memar 1983-cü ili xüsusi vurğulamışdır: "Moskvada görüşdük. Həmin il Azərbaycan Respublikası MK-nin I katibi vəzifəsində çalışan Heydər Əliyev görkəmli dövlət başçısı kimi xidmətlərinə görə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü. Bu fəxri adın əsasnaməsinə görə iki dəfə "Sosialist Əməyi Qəhrəmanı" adı alana vətənində xüsusi qaydalara uyğun standart formada büst qoyulmalı idi. Rusiyada Heydər Əliyevin yaxından tanıdığı bir çox görkəmli heykəltaraşın olmasına baxmayaraq, Moskvadakı görüşümüz zamanı o, bu işin yerinə yetirilməsini mənə həvalə etdi".[1] Ulu öndər dəfələrlə Ömər Eldarovun Moskvadakı emalatxanasına gəlib onun naturadan işləməsinə imkan yaratmış, variantlar hazırlanmış, nəhayət, Naxçıvanda son variant nəzərə alınmış, memar Rasim Əliyevlə birlikdə Heydər Əliyevin abidəsi ucaldılmış, onun ilk heykəl-portreti yaradılmışdır.

1985-ci ildə Ömər Eldarov Ümummilli liderin həyat yoldaşı Zərifə xanım Əliyevanın məzarüstü abidəsini də hazırlamışdır. O, yüzlərlə şəklin içərisindən biri üzərində xüsusi dayanmış, onun əsasında mərmərdən yox, uzunömürlü olsun deyə tuncdan Zərifə xanımın abidəsini yaratmışdır. Heydər Əliyev hər gün gəlib işlə maraqlanmış, ömür yoldaşının daxili aləmi, onun zahiri siması dolğun əks etdirilsin deyə memarla saatlarla söhbət aparmış, həyat yoldaşını hörmət və məhəbbətlə xatırlamış, nəhayət, eskiz əsasında işə başlanılmışdır. Abidə 8 il emalatxanada qorunmuş, nəhayət, Heydər Əliyev Bakıya qayıtdıqdan sonra emalatxanaya gəlmiş, heykəlin qarşısında xəyallara dalmışdır... 1994-cü ildə Zərifə xanımın Moskvadan gətirilən cənazəsi vətəndə son mənzilə tapşırılmış, 1997-ci ildə Bakıda Fəxri Xiyabanda qəbirüstü abidəsi ucaldılmışdır.

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.195

Akademik Çingiz Qacarın "*Böyük azərbaycanlı, vətənpərvər və ziyalı*" məqaləsində Ulu öndərin obrazının təcəssümündə *məkan, ruh və idrak* amili qabardılmışdır.

İsmayıl Hacıyev "*Dünya miqyaslı siyasətçi*" məqaləsində Heydər Əliyevin *siyasətçi kimi psixoloji-mənəvi keyfiyyətlərini* obrazlaşdırmışdır. Müəllif Ulu öndəri dünyanın nadir, unikal, seçilən, təhlillər aparmağı bacaran siyasət adamı kimi təcəssüm etdirmiş, fərdiləşdirmişdir:" Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diqtə edən nadir şəxsiyyətlərdən biri idi".[1] Akademik səciyyələndirmişdir ki, "H.Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi."[2]

İsmayıl Hacıyev Ümummilli liderin obrazının bir səciyyəvi xüsusiyyətini belə ifadə etmişdir: "O analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi".[3]

Bu elmi siyasi publisistika nümunəsində ulu rəhbər Heydər Əliyevin psixoloji obrazına baxış təbii fərdi yanaşma, əhatəli qiymətləndirmə meyarları kimi diqqəti daha artıq cəlb edir: "*Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısında qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və s. cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi*".[4]

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.218
[2] Yenə orada, s.218
[3] Yenə orada, s.218
[4] Yenə orada, s.219

Məqalə müəllifi Heydər Əliyevi nadir siyasətçi kimi xarakterizə etməyə çalışmış, vacib cizgiləri göstərmişdir. Böyük liderin fəaliyyətinin ilk növbədə aktuallığı, müasirliyi, çağdaşlığı obrazlaşdırılmışdır: "*Onun atdığı addımları irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü, obyektivliyi və hər cəhətdən ölçülüb biçildiyindən ətrafındakıları heyrətləndirmiş, ona siyasət aləminin patriarxı adını qazandırmışdır*".[1] İsmayıl Hacıyev bu mahir siyasətçinin nadir şəxsiyyət kimi fərqindədir: "Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdirmələrini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "*liderlərin lideri*" adlandırırdılar".[2]

Akademik sual edir: onun siyasətinin gücü nədə idi? Cavab olaraq mənəvi-əxlaqi-psixoloji amilləri göstərir: *siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçülüb-biçilmiş qərarlarında, qətiyyətliliyində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxarmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və səbrliliyində, nəzəriyyəyə istinad etməsində və praktik həyatdan baş çıxarmasında* – bir sözlə, *fenomenal şəxsi keyfiyyətlərində* idi".[3]

Müəllif Heydər Əliyevin daxili və xarici siyasətinin səbəblərindən sonra nəticəsini verir: "Daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdir."[4]Xarici siyasətinin nəticəsi olaraq: siyasət aləminin çox güclü, səriştəli, təcrübəli və müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu".[5]

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.219
[2] Yenə orada, s.219
[3] Yenə orada, s.220
[4] Yenə orada, s.220
[5] Yenə orada, s.220

Görkəmli siyasətçinin Qərbə inteqrasiyası səbəblərinin nəticələri: yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin iradəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi".[1]

Akademik İsmayıl Hacıyev məqalə boyu dialektikanın səbəb-nəticə kateqoriyası, fəlsəfi əlaqə şəbəkəsi zəminində analitik-mühakiməli fikirlərini inkişaf etdirmişdir. Fəqət yeri olduqca təsvir-təhkiyə planı, fikir, düşüncə gəzişmələri də olmuşdur. Belə: "Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təlimində siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir".[2]

Məqalə müəllifi Heydər Əliyev siyasətinin gətirdiyi uğurların həm də siyasi sabitliyə böyük təsirinin nəticələrinə də varmışdır: "Böyük öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlidən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir".[3]O, Ulu öndərin bir fikrini də qənaətlərinə dəstək bilmişdir: "Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafələri müdafiə olunsun".[4]

"Milli maraq və mənafe Heydər Əliyev siyasətinin cövhəri olmuşdur". Dürüst qənaətdir: "Xalqımızın və dövlətimizin elə bir problemi olmamışdır ki, həmin problemləri kimsə Heydər Əliyev yüksəkliyində dərk etmiş olsun."[5]

Alim İsmayıl Hacıyev ümumi və xüsusi kateqoriyalar üzərində fikir gəzişmələri etmişdir. Ümuminin – milli mənafeyin təzahürü olaraq fərdilikləri də diqqətə çəkmişdir: çünki Heydər Əliyev istər sənaye, istər kənd təsərrüfatı, istərsə də elm, maarif, mədəniyyət ilə bağlı məsələlərin müzakirəsində bütün iştirakçıları həmin sahənin

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.220
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada
[5] Yenə orada

əvəzedilməz bilicisi kimi idarə edirdi. Onun kimi təsərrüfatı təsərrüfatçıdan, tariximizi tarixçidən, incəsənətimizi sənətşünasdan, iqtisadiyyatı iqtisadçıdan yaxşı bilən, onun problemlərini həll etməyə istiqamətləndirən ikinci adam tapmaq mümkün deyildi.

Heydər Əliyev siyasətinin gücü, qalib qüdrəti haqqında akademik İsmayıl Hacıyevin bu fikirləri də xarakterikdir: Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirir və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Alim ümumxalq sevgisini, Ulu öndərin keyfiyyətlərini də bu qənaətlərdə görmüşdür: Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevir. Təsadüfi deyil ki, akademik İsmayıl Hacıyev Heydər Əliyevin beynəlxalq aləmdə özünütəsdiqinin faktı kimi bunları yazır: siyasətçilərin beynəlxalq reytinqinin müəyyənləşdirilməsində keçirilmiş beynəlxalq sorğuda, siyasi institut araşdırmaları və sosioloji mərkəzin araşdırmalarında Heydər Əliyevin adı birincilər sırasında deyilmişdir. (*Braziliya. "Planetin səsi" qəzeti.* 9 dövlətin jurnalistlərinin: *"Dünyanın hansı super siyasətçisinin adını çəkə bilərsiniz" sorğusu və altı dövlətin jurnalistlərinin birinci olaraq Heydər Əliyevin adını çəkməsi və s.)*

Akademik xalqın psixoloji-mənəvi iftixar hisslərini də obrazlaşdırılmışdır: *Bu gün dünya ictimaiyyəti Azərbaycanı və onun liderini tanıyır, onu minnətdarlıqla xatırlayırsa, ünvanına ən xoş sözlər söyləyirsə, yüksək rəyini, fikrini deyirsə, bu söz xalqımız üçün böyük şərəfdir. Biz qürur duyuruq ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən Ümummilli lideri olmuşdur.*

Müəllifin məqaləsi mühakiməli, analitik və təsviridir: "O realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. Onun ağıllı və uzaqgörən siyasətində hər şeyin öz yeri və vaxtı var idi".[1]

Məqalədə mühüm elmi müddəalara yol açan tezislər yer almışdır: siyasətçi üçün lazım olan keyfiyyətlərlə yanaşı, onda idarəetmə

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.223

keyfiyyətləri, dövlətçilik təcrübəsi ən yüksək səviyyədə idi. Elə bunlar idi onun siyasətinin ucalığı, aliliyi, uzaqgörənliyi və heyrətamizliyi. Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilir, düzgün istiqamətə yönəldirdi. Heydər Əliyevin beynəlxalq Atatürk sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinə verilən qiymət idi.

Mühakimə və etiraf, məqsəd və intonasiya, emfatik və məntiqi vurğular mətn təhkiyəsi üçün səciyyəvidir: Ulu öndərin ən ali insani keyfiyyətləri, fenomen xarakteri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirmişdi. Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Tanrının Heydər Əliyevə verdiyi ən ali keyfiyyətlər idi. Görəsən, bəşəriyyət belə nəcib, yüksək intellekti ilə seçilən dövlət xadimləri, siyasət nəhənglərini çoxmu qarşılayıb?!

Akademik Heydər Əliyevin elit şəxsiyyət dəyərlərini də bəlgələmişdir: yüksək bəşəri keyfiyyət, təvazökarlıq, demokratik dövlət quruculuğu prinsiplərinə sadiqlik, xalq işinə sədaqət, siyasi müdriklik, böyük dövlətçilik təcrübəsi, parlaq hafizə, geniş dünyagörüş, polad iradə, mərdanə qətiyyət, həssas qəlb, möhkəm səbr, hövsələ, ədalət, obyektiv mövqe, yüksək intellekt, ziyalı mövqeyi, dolğun tədbirlər, analitik təfəkkür, sadə davranış, heyrətamiz enerji, dərin məntiqli nitq, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət səriştəsi, dərin və konkret nitq, müzakirə və məsələləri ümumiləşdirmək bacarığı, problemlərin mahiyyətini açmaq, mövzunun milli mənafe, dövlətçilik mövqeyindən təhlili onun iş üsulu olmuşdur. "Bu cəhətdən Heydər Əliyevə uyğun gələn siyasətçi çox azdır. Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı və yüksək analitik təfəkkürə, yenilməz iradəyə malik siyasətçi idi".[1]

Alimin bir seçilən məntiqi də Heydər Əliyevin siyasi-kulturoloji baxışlarını qlobal-bəşəri səviyyədə xarakterizə etməsi, dəyərləndirməsidir. Heydər Əliyevi dünyanı dəyişmiş insanlar cərgəsinə aid etmək olar: onun yer üzərinə nə üçün gəldiyini və kim tərəfindən göndərildiyini tam dərk edə bilmək üçün hələ olduqca az vaxt keçib. XX əsr və XXI əsrin başlanğıcının görkəmli siyasətçilərindən və

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.224

dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir.[1]

Siyasi-mənəvi irs və varisliyi dialektik əsasda ümumiləşdirən akademik İsmayıl Hacıyev sosial-siyasi və mədəni estafetin cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinə də xüsusi yer ayırmış və yazmışdır: "Bu siyasətin icraçısı Ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasətilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir."

Akademik Böyükkişi Ağayev *"Müdrik və qayğıkeş insan"* məqaləsində Heydər Əliyevlə olan şəxsi görüşlərinin əsaslarına varmış, qavrayış, təsəvvür, xatirə elementlərinə üstünlük vermiş, hissi idrak səviyyəsindən məntiqi idrakını: anlayış, mühakimə və əqli nəticələrini ümumiləşdirmişdir.

Məqalənin fərdilikləri Heydər Əliyevin qəbul etdiyi gözlənilməz, ağlagəlməz əməli tədbirlərlə bağlıdır. Bunlar: 1970-2000-ci illərin xatirələridir. Böyükkişi Ağayev 1976-cı ildə ATU-nun Cərrahiyyə xəstəlikləri kafedrasına, 1977-1978-ci illərdə isə Səhiyyə Nazirliyinin 4-cü idarə 1 saylı xəstəxanasının Cərrahiyyə şöbəsinə rəhbərlik etmiş, bir neçə dövlət məmuru, habelə DİN işçisi üzərində cərrahiyyə əməliyyatı aparmış, bir neçə dəfə Heydər Əliyevlə görüşmüş, suallara cavab vermiş, yüksək səviyyəli səhiyyə işçisi olduğunu ifadə etmiş və gözlənilmədən Ulu öndər tərəfindən "Əməkdar Elm Xadimi" fəxri adına, "Şöhrət" ordeni adlarına layiq görüldüyünün təfsilatına varmış və bu xeyirxah insanın alicənablığından irəli gələn keyfiyyətlərini səmimiyyətlə ifadə etmişdir.

AMEA-nın müxbir üzvü Arif Məlikovun *"Tarixin əbədi simfoniyası" məqaləsi* də xatirə səpkisində olub, xüsusi maraq doğurur. Məqalə elit bir şəxsin elitar görüşləri haqqındadır. Təəssüratlar, xatirələr çox isti, səmimi və ibrətlidir, 1960-cı illərdən 2003-cü iləcən olan xatirələrin təfsilatıdır. Məhz xatirə təhkiyəsi Ümummilli liderin obrazının canlanmasına xidmət etmişdir.

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.224

Görkəmli bəstəkar obrazın cizgilərini Zuğulbadakı pansionatdakı ailəvi istirahət evindən başlayır: "Heydər Əliyevin bağı da pansionatın yaxınlığında idi. Heydər Əliyev həyat yoldaşı Zərifə xanımla tez-tez pansionata gələrdi. Burada o, istirahət edənlərlə görüşər, maraqlı söhbətlər aparar, açıq kinoteatrda filmlərə baxardı. Həmin illərdə biz tez-tez söhbətləşərdik. O, yaradıcılığımla, "Məhəbbət əfsanəsi"nin çoxsaylı premyeralarından axırıncıları ilə maraqlanardı. Bu görüş və söhbətlər yaddaşıma həkk olunub".[1]

Arif Məlikov Heydər Əliyev tərəfindən dəfələrlə rəsmi səfərlərə, Türkiyə, Özbəkistan, Səudiyyə Ərəbistanı, Tailand və b. səfərlərə dəvət almışdır. Müəllif xatırladır: Heydər Əliyev respublikanın aparıcı bəstəkarları ilə görüşmək istəyirdi. Bəstəkar bunu niyə xatırladır. Böyük rəhbərin təşkilatçılıq məharətini, sənətə və sənətkara yüksək qiymətini, kübarlığını, milli mədəniyyətin ucalığını, dünyada tanıdılmasını ifadə etmək üçün! Mədəniyyətdə siyasəti izlədiyi üçün!

Heydər Əliyev obrazının səciyyəvi xüsusiyyətlərinin daha bir nişanəsi: Görüş Zuğulbadakı hökumət bağında keçmişdir. Bütün bəstəkarlar xanımları ilə dəvət olunmuş, hər bir bəstəkarın ardınca minik maşını göndərilmiş, qonaqları Ulu öndərin özü qarşılamışdır. Görüş məzmunlu alınmış, bol süfrə açılmış, ziyafət axşama qədər davam etmişdir. Masa arxasında Qara Qarayev, Niyazi, Soltan Hacıbəyov, Fikrət Əmirov, Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli, Tofiq Quliyev, Cahangir Cahangirov, Ramiz Mustafayev və Arif Məlikov... Heydər Əliyev hər bir bəstəkar, onların yaradıcılığı haqqında dəqiq ürək sözü deyirdi... Onları yola salanda: "Qara Qarayevin maşınını verin", "Niyazinin maşınını verin", "S.Hacıbəyovun maşınını verin" və s. Və qonaqların hər biri Heydər Əliyevlə xudahafizləşərək onun üçün ayrılmış maşına minirdi"...[2]

Arif Məlikov xatırladır: "Heydər Əliyev Bolşoy Teatrda "Məhəbbət əfsanəsi"nə baxanda qürur duymağından, bu zaman onunla yanaşı oturan siyasi büro üzvlərinin həmyerlisinin uğuru münasibətilə Əliyevi təbrik etmələrindən danışırdı..."

"*Məhəbbət əfsanəsi*"nin 30 illik yubileyinə hazırlıq imiş. Heydər Əliyev yubiley tamaşası üçün sanballı bir nümayəndə heyəti

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.232

[2] Yenə orada, s.234

göndərməyi təklif etmiş, Arif Məlikov onun məhdudlaşdırılmasını xahiş etmiş, anıma böyük rəhbər tərkibi olduğu kimi saxlatmışdır. Yubiley tamaşası olmuş, Bolşoy Teatrın direktoru V.Vasilyev, T.Quliyev çıxış etmiş, sonra hökumət adından Bolşoy Teatra banketə dəvət olunmuş, yüksək razılıq edilmişdir.

Bəstəkar Üçüncü Simfoniyasının hikmətindən də danışmışdır. Bu, Tailand kralının yubileyi şərəfinə ifa edilməli idi. Nümayəndə heyətinə Mənsum İbrahimov, Mövlud Müslümov, Fəxrəddin Dadaşov və Cahangir Səlimxanov daxil edilmişdir. Tailandda görüş başlanmış, əsəri Vyetnam orkestri ifa etmiş, xalq musiqimiz böyük təəssürat doğurmuşdur.

Arif Məlikov "*İki qəlbin poeması*" baletindən danışanda Heydər Əliyevin həm marağını, sevincini, həm də onun Azərbaycanda sənətimizə rəvac verməsi və perspektivlərinin, arzularının səsləndirilməsini ifadə etmişdir. Heydər Əliyev Özbəkistanda və Rusiyada səhnəyə qoyulan əsərin hazırlanmasını izləmiş, "H.Əliyev və Ş.Rəşidov Nəvai adına Daşkənd Opera və Balet Teatrında "İki qəlbin poeması" baletinə baxmışlar".[1] Bu zaman Arif Məlikov Heydər Əliyevə: – "Əfsanəyə Siz Moskvada, Leninqradda, "İki qəlbin poeması"na Daşkənddə baxırsınız. Bəs Bakıda bu, nə vaxt olacaq?" "Bu da olacaq, – deyə Heydər Əliyev bildirmişdir".

Arif Məlikovun bir xatirəsi də güclü maraq doğurur. 1995-ci ildə Ankarada maarifpərvər alim və messenat İhsan Doğramacının şərəfinə Yeddinci Simfoniya səslənmişdir. Simfoniyanı Bilkənd simfonik orkestri ifa etmişdir. O, premyeradan gətirdiyi qızıl dəfnə budağını Yeddinci simfoniyanın faksimile nəşri ilə birlikdə Ümummilli liderə bağışlamışdır. İhsan Doğramacı partituranın birinci səhifəsində yazmışdır: "Dostum A.Məlikov üçün tikdirdiyim konsert zalı 6,5 milyon dollara başa gəlmişdir".[2]

1994-cü ildə Heydər Əliyev Arif Məlikovu Səudiyyə Ərəbistanına dəvət etmişdir. Bu dəvətlərdə bir səbəb olmuşdur. Bu dəfəki səbəb isə... Arif Məlikov: "Təbii ki, müqəddəs yerlərdə, Məkkədə, Mədinədə olmaq hər bir müsəlmanın arzusudur. Kəbəni görmək, onun içində olmaq, Hz.Məhəmmədin (s) qəbrini ziyarət etmək, müqəddəs qara daşı öpmək, bütün Həcc ayinini icra etmək, Məkkənin

---

[1] "Azərbaycan və azərbaycanlılar", Bakı, 2013, 274 s., №1-4, s.235
[2] Yenə orada, s.236

əzəmətindən heyranlıq duymaq – bütün bunlar insan şüurunda əbədi iz buraxır”.[1]

Mədinədə Heydər Əliyevlə Arif Məlikovun Hz.Məhəmmədin (s) qəbrini ziyarət etdikdən sonra, 1 milyon zəvvarın eyni vaxtda namazından sonra, yeni tikilmiş məsciddə diz üstə etdikləri dualardan sonra bir söhbətləri olur. *Söhbətə səbəb nə?* Arif Məlikov: “Mədinədəki məsciddə biz axşamtərəfi olduq. Birdən nə isə bir xışıltı eşidildi, məscidin çoxtonlu tavanı aralandı və biz sonsuz ulduzlu səmanı seyr edə bildik. Məscidin başqa bir tərəfində sanki yerin tənindən nəhəng bir çiçək bitdi. Birdən bu nəhəng çiçəyin ləçəkləri sallanmağa başladı və gözlərimiz qarşısında qalaktika, milyonlarla sayrışan ulduz peyda oldu. Bu, heyrətamiz bir mənzərə idi və həmin mənzərəni görəndən sonra insan özünün bu əbədiyyətin nə qədər kiçik bir hissəsi olduğunu başa düşür”[2]

*Söhbətə nəticə nə?* Heydər Əliyev: “Bilirsən, səni bu səfərə niyə dəvət etdim? İstədim ki, sən bunları görəsən və böyük bir simfonik əsər yazmaq üçün ilhamlanasan”. *Söhbətdən mühüm, vacib qənaət.* Arif Məlikov: “Və bu an “Əbədiyyət” adlı Səkkizinci Simfoniyanın yazılması üçün başlanğıc nöqtəsi oldu. Heydər Əliyev istəyinin Səudiyyə Ərəbistanında, dünya islamının mərkəzində səsləndirilməsi məni heyrətləndirdi”.[3]

İki böyük şəxsiyyət: Heydər Əliyev də, Arif Məlikov da bir müsəlman olaraq dinimizə etiqadlı, Qurani-Kərimə şəfqətli, müqəddəs məkana səcdəli olaraq özlərinin adiliklərinin dərkində və fərqində olaraq düşünmüşlər: “Bütün dünyada namaz qılan insanlar üzlərini müqəddəs Kəbəyə tuturlar, Kəbənin özündə isə üzünü istənilən tərəfə çevirib namaz qıla bilərsən. Bura bütün müsəlmanların nəzərlərinin yönəldiyi əzəl nöqtədir”.[4]

Arif Məlikov təsvir, tərənnüm, təcəssüm planında fakt və mahiyyəti sadaladıqdan sonra mühakimə və məntiqə varır: *Niyə Heydər Əliyev belə bir əsər – Əbədiyyət istəmişdir?* Arif Məlikov: “Axı təəccüblüdür ki, İslam dini, Məkkə, Mədinə, Kəbə, Hz.Məhəmmə-

[1] “Azərbaycan və azərbaycanlılar”, Bakı, 2013, 274 s., №1-4, s. 236
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada

din (s) məzarı, müqəddəs yerlər, Quran – ilk baxışdan bunlar müasir simfonik musiqinin yazılması fikrinin özünə zidd kimi görünür”[1]

*Fəqət nə etməli?* İnsan insandır, fitrəti və nəfsi ilə hüdudsuzdur, doyumsuzdur. Ömür kəsilən, arzu-istək əbədi... Heydər Əliyev də qlobal kateqoriyalarla düşünürdü və onun bu simfoniyanı yazmağımı istəməsi də mənə aydındır – o, təklifini kimə ünvanlamalı olduğunu yaxşı bilirdi”.

Arif Məlikov Səudiyyə Ərəbistanından qayıdandan sonra “Əbədiyyət” konsepsiyası üzərində düşünmüş, material toplamağa başlamış, iş çətin və uzunmüddətli olmuşdur. Bir neçə il keçir. Əsərin ideyası, təcəssümü gerçəkləşir. Bəstəkar ilk dəfə 1997-ci ildə M.Rastropoviçin şərəfinə keçirilmiş gecədə bəyan edir ki, Əbədiyyət simfoniyası Respublika sarayında Heydər Əliyevə ithaf olunacaqdır və fikri onu Ulu öndərin 80 illiyinə Filarmoniyada səsləndirmək idi.

Və Heydər Əliyev simfoniyanın taleyi ilə tez-tez maraqlanırdı. Fəqət... Tale başqa cür qərar verir. Həmin vaxt Heydər Əliyev xəstələnmiş, ABŞ-da müalicədə olmuşdur. Əbədiyyətə qovuşmasilə simfoniyanın səsləndirilməsi bir il gecikmişdir. Cənab İlham Əliyevin istəyi ilə 2004-cü il mayın 10-da simfoniya səsləndirilmişdir.

Səkkizinci Simfoniyanın qeyri-adi forması: üç bölmədən ibarətdir. Birinci bölmədə Nazim Hikmətin altı fəlsəfi şeiri musiqiyə alınır. İkinci bölmə bir növ başlanğıcdan zirvəyə doğru yüksəliş olur. Lakin bir orkestr bəs etmədiyindən ikincisi səs yazısı vasitəsilə səsləndirilir, iki orkest də əlavə olunur... Musiqi zirvə nöqtəsinə çatdırılır və kəskin şəkildə kəsilir. Sükut içindən Almaz İldırımın “Azərbaycan” şeirinə yazılmış musiqi səslənir. “Sonda, simli orkestrin akkordları fonunda royal mövzusu səslənir. Bu bölmə – sakitlikdir, qayığısızlıqdır, əbədiyyətə qovuşmaqdır. Mən istəyirdim ki, simfoniya başa çatandan sonra sükut eşidilsin və dinləyicilər əbədiyyət haqqında düşünsünlər. Konsertdə sükut 27 saniyə davam etdi. Bu sükut gözlədiyimdən iki dəfə çox idi və mən onu da öz musiqim sayıram”.[2]

Arif Məlikov bildirir ki, “Səkkizinci Simfoniyanın bu premyerasında Heydər Əliyev iştirak etmirdi, lakin onun ruhu musiqinin

---

[1] “Azərbaycan və azərbaycanlılar”, Bakı, 2013, 274 s., №1-4, s.237

[2] Yenə orada, s.238

özünə də hopmuşdu. Heydər Əliyevin portreti orkestrin başı üzərində yüksəlirdi, oğlu İlham Əliyev isə premyerada iştirak edirdi”.[1]

Nə vaxtsa Heydər Əliyev Arif Məlikova rəssam olduğunu xatırlatmış və onlar şəhərdəki hökumət iqamətgahında görüşmüş və üç rəmzi olan – nəhəng günəş, üç Kala (Ağqanad) gülü və burulmuş dəniz balıqqulağı təsvir edilmiş yetərincə böyük əsəri dahi rəhbərə bağışlamışdır. Rəsmin arxa tərəfində yazmışdır: “Bütün güllər nə vaxtsa solur, mən isə Sizə əbədi güllər bağışlayıram”.

Xalq yazıçısı Anarın memuar janrında yazılmış “Unudulmaz görüşlər” kitabı 40 ildən artıq dövrü əks etdirən ədəbi-siyasi və ictimai əsərdir. Topluda Ulu öndərlə görüşlər, mükalimələr, yazıçıların qurultaylarındakı çıxışlar, ədəbi mübahisələr dolğun əksini tapmış, yaxın keçmişimizin mürəkkəb, ziddiyyətli dövrü, Ümummilli lider Heydər Əliyevin *müdrik və qalibiyyətli obrazı* göz önündə canlandırılmışdır.

Kitabın ön söz müəllifi Azərbaycan Yazıçılar Birliyinin katibi, “525-ci qəzet”in baş redaktoru Rəşad Məciddir. Salnamə “Heydər Əliyevin müxtəlif illərdəki çıxışları”, “Anarın müxtəlif illərdə çıxışları və Heydər Əliyevə məktubları”və “Unudulmaz görüşlər” başlıqlarından ibarətdir.

Görkəmli yazıçı və ictimai xadim “*Heydər Əliyev. Müstəqilliyimiz əbədidir*” çoxcildliyinin birinci və ikinci cildləri, habelə “*Qayıdış*” kitabının təqdimat mərasimlərində çıxış etmiş *(“Azərbaycan” qəzeti, 6 iyun 1997),* Ümummilli liderin səmimiyyət və xarakterinin səciyyəvi xüsusiyyətlərindən danışmışdır. Müəllif yazmışdır: “Heydər Əliyev deyəndə ki mən xalqımlayam, xalqla mən birəm, mənim arxamda xalq durur, – bu, tamamilə səmimi sözlərdir. Amma televiziya ilə çıxışında, müsahibəsində deyəndə ki mənim şəxsi dostum yoxdur, bu da səmimi sözlərdir. Bu da insan xarakterinin mürəkkəbliyini göstərir, çünki hakimiyyət həm də tənhalıq deməkdir”.[2] Yazıçı “Panorama daily” qəzetindəki 8 avqust 1998-ci il tarixli çıxışında demişdir: “Mən inanıram ki, Heydər Əliyev bu seçkilərdə mütləq qalib gələcək. Ölkəmizin bu günündə ikinci bir siyasi xadim tanımıram ki, o, Azərbaycana Heydər Əliyev qədər gərək olsun. Bu boykot söhbəti ilə Azərbaycanı dünya ictimaiyyətinin gözündən salmaq

---

[1] “Azərbaycan və azərbaycanlılar”, Bakı, 2013, 274 s., №1-4, s.238
[2] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s.21

kimə lazımdır. Boykot demokratiyanın Azərbaycanda inkişafı üçün yol deyildir. Şəxsi fikrimdir: əhalinin əksəriyyəti Əliyevə səs verəcək”.[1]

Ziyalılardan bir qrupunun müraciətində Anar Heydər Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə layiq yeganə siyasi xadim olduğunu ifadə etmiş və demişdir ki, dünyanın siyasi xəritəsində Azərbaycan öz yerini yalnız möcüzə sayəsində saxlaya bilərdi ki, bu möcüzə Heydər Əliyevin simasında baş verdi.

Anar *“Şəxsiyyətin miqyası” (4 may 1998)* məqaləsində Heydər Əliyevin ədalət meyarı barəsində yazmışdır: “Mərkəzi komitənin katibi seçiləndən sonra ilk vaxtlar çox adamın üzdən tanımadığı Heydər Əliyev “Şah Abbassayağı tərki-libas” olaraq bazarları, dükanları gəzir, qanunsuzluqları, əli-əyrilikləri, pozuntuları özü öz gözləriylə əyani müşahidə edir və yerindəcə müqəssirin cəzasını verirdi və belə faktlar da əhalidə yeni ədalətli rəhbərin iş başına gəlməsi və hər cür ədalətsizliklərin kökünü kəsəcəyi haqqında söz-söhbətlərin geniş yayılmasına səbəb olurdu”.[2]

Görkəmli sənətkar bildirmişdir ki, sovet dövründə bir neçə gənc şair, yazıçı və jurnalist gizli təşkilat yaratmaq fikrinə düşmüş, bundan DTK xəbər tutmuş, hamısı həbs edilmişdi. Bunları Anara “Qobustan” toplusunun işçisi Tofiq Məhərrəmoğlu söyləmişdir. Hər yerdə asi, dissident axtarılırmış. Bu dəliqanlıların da başına “min oyun açıla bilərmiş”. Amma Heydər Əliyevin şəxsi cəsarəti, nüfuzu və riski sayəsində onların heç biri nəinki cəzalandırılmamış, hətta çox tez zamanlarda hamısını azadlığa buraxmışdılar.”[3] Tofiq Məhərrəmoğlu deyirmiş ki, Heydər Əliyev bizim hamımızı kabinetinə çağırdı, sütül, cılız cüssəli cavanlar idik:” – Sizsiniz bu hökuməti yıxmaq istəyənlər? – deyə güldü. – Gedin ağlınızı başınıza yığın, öz işinizlə məşğul olun və xalqınıza gördüyünüz xeyirli işlərlə xidmət edin, – dedi”.[4]

Anar bildirmişdir ki, Heydər Əliyev qətiyyəti ilə çox şeyi həll etmişdir. “Mərkəzin ondan gözlədiyi mübarizəni – millətçilik təzahürlərinə qarşı mübarizəni tamamilə başqa və təhlükəsi daha real bir bərpaya qarşı – qanun pozuntularına, rüşvətxorluğa, əliəyriliyə, əda-

---

[1] Anar.Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s.22
[2] Yenə orada, s.33
[3] Yenə orada, s.33
[4] Yenə orada, s.33

lətsizliyə qarşı mübarizəyə çevirirdi”. “Və yalnız Azərbaycanı yox, SSRİ-nin gələcək taleyinin dəyişməsi üçün ilk addımlarını atdı”[1].

Yazıçı Heydər Əliyevin 75 illiyi ərəfəsində yazdığı bu məqaləsində vaxtilə İsa Hüseynovun “Qobustan”a verdiyi müsahibəsində işlətdiyi “nərimanlaşmaq” ifadəsi ermənilər tərəfindən yozulmuş, guya Nəriman Nərimanovun heykəli S.M.Kirovun heykəlindən böyük ucaldılmışdır. Ermənilər Cəlil Məmmədquluzadə kimi humanist sənətkarı millətçi, faşist kimi qələmə verirdilər. Guya o, “Usta Zeynal”da, ya “Kamança”da erməniləri aşağılayıb və milli ədavəti qızışdırıb. R.Rzanın “Babəkə” şeiri, Ənvər Məmmədxanlı, Eldar Quliyevin “Babək” filmi ilə bağlı, böhtan, yalan dolu məktubları MK-ya yazır, Heydər Əliyev isə “Babək” adını Naxçıvanda rayona qoyur, R.Rzaya Sosialist Əməyi Qəhrəmanı nişanını verir və s.

Müəllif Heydər Əliyevin 75 illiyində “Oqonyok” jurnalına *“Şəxsiyyətin miqyası”* adlı məqaləsini yazmış, Ulu öndərin böyük şəxsiyyətindən danışmışdır. Anar bu böyük insanı gənclik illərindən tanımış, Azərbaycanın rayonlarına səfərlər olmuş, Gəncə, Naxçıvan, Şuşa, İstanbul, Ankara, Moskva, Roma, Pekin, Şanxay, Almatı, Bişkek dövlət başçıları ilə danışıqları, sənətçilərlə ünsiyyəti, tarlalarda, ya küçələrdə adi adamlarla görüşləri onu yaxından müşahidə etməyə şərait yaratmış, toplantılarda, yubileylərdə onu dinləmiş, yazıçılarla, sənət adamlarıyla görüşlərində iştirak etmiş, 2-3 dəfə məhrəm söhbətləri olmuşdur.

Heydər Əliyev isə dünyaya qalib kimi gəlmişdi. Uzaqgörən siyasi rəhbər müstəqil Azərbaycanın qorunması, qurulması və yaşamasında müstəsna rolunu göstərmişdir. Anar *“Qalib gəldi, qalib getdi”* məqaləsində (2003) Heydər Əliyev xasiyyətinin səciyyəvi bir xüsusiyyətini də elə bu fonda əyaniləşdirmişdir: “O, yaddaşlarda həmişəki kimi şax yerişli, məğrur duruşlu, xoşsifətli, gülərüzlü, bəzən də sərt, iti baxışlı bir insan kimi qalmaq istəmişdi”.[2]

Yazıçı Heydər Əiyevi gəncliyindən tanımış, Gəncə, Naxçıvan, Şuşa, İstanbul, Ankara, Moskva, Roma, Pekin, Şanxay, Almatı və Bişkekdə dövlət başçıları ilə söhbətlərində, sənətçilərlə ünsiyyətində, tarlalarda, küçələrdə adi adamlarla görüşlərində müşahidə etmiş, toplantılarda, görüşlərdə onu dinləmiş, yazıçılarla, sənət adamları ilə

---

[1] Anar.Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s.38
[2] Yenə orada, s.37

görüşlərində iştirak etmiş, bir neçə dəfə təkbətək görüşləri olmuşdur. Belə görüşlərdən biri də 1997-ci ilin payızında İtaliyadan qayıdanda, təyyarədə 3 saatdan çox ikilikdəki danışıq olmuşdur.

Anar Ümummilli liderin müstəsna talant sahibi olduğunu müxtəlif hallarda xatırlatmışdır: "Azərbaycanın görkəmli sənətkarlarının yüksək ümumittifaq mükafatlarına, təltiflərinə nail olmaq yalnız o konkret şəxslərin deyil, ümumən ədəbiyyatımızın, sənətimizin və deməli, Azərbaycanımızın nüfuzunu ucaltmaqdı. Bütün bunlar – Heydər Əliyev zəkasının, iradəsinin, uzaqgörənliyinin qələbəsi idi".[1]

Sənətkar dahi rəhbərin siyasi nüfuzunu, onun mədəniyyət siyasətini, habelə Naxçıvan və Qarabağı ermənilərdən təmizləmək siyasətini xüsusi qiymətləndirmişdir. Şuşada əzəmətli Vaqif məqrəbəsini, Natəvan heykəlini ucaltmaqla, Üzeyir Hacıbəyli, Bülbül muzeylərini açmaqla, Şuşada təntənəli beynəlxalq sənət tədbirləri keçirməklə Heydər Əliyev bu qədim Azərbaycan şəhərinin milli simasını müəyyənləşdirirdi".[2]

Kitab müəllifi reallığı qiymətli bir tezisi ilə obrazlaşdırmışdır: Heydər Əliyev çağdaş Azərbaycanın qurucusu, çağdaş Azərbaycan onun şah əsəridir, "bizim borcumuz isə bu əsəri yaşatmaq, qorumaq, cilalamaq və gələcək nəsillərə yetirməkdir. Bütün siyasi çəkişmələr, dartışmalar, toqquşmalar – xalqın taleyi qarşısında çox cılız görünür, böyük Tarix önündə çox kiçik həvəslər, hərisliklər, hikkələrdir. Heydər Əliyev hər xalqa, bəlkə də, əsrdə bir dəfə qismət olan qənimət, nadir şəxsiyyət idi".[3]

Yazıçı səmimiyyətlə rəhbər böyüklüyünü obrazlaşdırdığı kimi, onun kədərini də böyüklüyündə – ümumxalq kədəri və nikbinliyində təqdim etmişdir. Müəllif vida məqaləsinin son sətirlərini böyük hüznlə, kədərlə, sarsıntıyla yazmışdır: "Həyata qalib kimi gəlmişdi. Xalqı vəfatıyla sarsıdan, sarsıdaraq birləşdirən, kədərləndirərək bütövləşdirən Heydər Əliyev ölümüylə də zəfər çaldı. Kim nə deyir desin, nə yazır yazsın, qalib gəldi, qalib getdi" *(2003).*

Anar, Yusif Səmədoğlu və Fikrət Qocanın birlikdə imzaladığı bir yazı *"Unudulmaz görüşlər" (2008)* adlanır. Məqalə dahi insanın vəfatının 5 illiyi münasibətilə yazılmışdır. Məqsədin izharı: "Bu

---

[1] Anar.Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s.40-41
[2] Yenə orada, s.41
[3] Yenə orada, s.41

günkü nəsillərin, onun çağdaşlarının, özəlliklə onunla bu və ya digər dərəcədə təmasda olanların borcu isə Heydər Əliyevlə bağlı anılarını, xatirələrini yubanmadan qələmə almaq, onun mürəkkəb və zəngin obrazının müxtəlif çalarlarını, ayrıntılarını sənəd kimi tarixin malı etməkdir".[1]

Anar bu baxımdan yazıçı-jurnalist Elmira Axundovanın dahi rəhbər haqqında sanballı çoxcildliyini xatırlatmış, "onu bir çox səfərlərdə müşayiət və müşahidə edən Elmira xanımın şəxsi təəssüratları, eləcə də böyük öndəri şəxsən tanıyan ən müxtəlif adamlarla söhbətləri, Bakının və Moskvanın arxivlərində, o cümlədən Heydər Əliyevin şəxsi arxivindəki gərgin axtarışları nəticəsində yazılmış bu əsər obyektivliyi, bir çox məqamlara yeni, cəsarətli baxışı ilə dəyərlidir" – deyə yazmış, özünün də "*Şəxsiyyətin miqyası*" və "*Qalib gəldi, qalib getdi*" məqalələrini misal göstərmişdir. Yazıçı Heydər Əliyevlə unudulmaz görüşlərini yada salmış, haqqında xoş sözlərini, ona Dövlət mükafatı və xalq yazıçısı adlarını verdiyini, 60 yaşını "İstiqlal" ordeni ilə təbrik etdiyini xatırlatmış, böyük şəxsiyyətin Azərbaycan Yazıçıları Birliyinə qayğısından danışmış, bədxahları, xəbisləri, nankorları, məddahları, nanəcibləri, paxılları, buqələmunları damğalamış, özünün dahi rəhbərə olan sabit münasibətini ifadə etmişdir. Vəzifəli və ya vəzifəsiz olanda! Anar: "Qürur duyuram ki, Heydər Əliyev hakimiyyətdə olanda da, bütün vəzifələrindən uzaqlaşdırılıb təklənəndə də bir çox yazıçılarımızın, o cümlədən də mənim ona münasibətim zərrə qədər dəyişmədi, əksinə bəziləri Heydər Əliyevdən üz döndərəndə ona əvvəlkindən də artıq diqqət və hörmət göstərdik".[2]

Görkəmli sənətkar yazıçı-jurnalist Elmira Axundova ilə birlikdə Heydər Əliyevin yazıçıların IX qurultayına dəvətini, Bəxtiyar Vahabzadənin və yazıçıların ona dövlət məmurlarından çox səmimiyyətini xatırlatmış, minnətdarlığını ifadə etmiş, sağında Xəlil Rza Ulutürkün, solunda Rəfiq Zəkanın əyləşdiyini və X qurultayda ona olan minnətdarlığını ifadə etmişdir: "Hörmətli prezident! Siz bizim bir qurultayı da yada saldınız, o vaxt siz iş başında deyildiniz və onu belə minnətdarlıqla, nəcibliklə xatırladınız. Demək istəyirəm ki, Sizi o qurultaya dəvət etməsəydik, gərək özümüzə hörmət etməyəydik

---

[1] Anar.Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s.42
[2] Yenə orada, s.44

və şəxsən mən gərək özümə hörmət etməyəydim. Hesab edirəm ki, Azərbaycan yazıçılarının 99 faizi, – mən də onlardan biri – yəni böyük əksəriyyəti – Sizin gözünüzün içinə düz baxa bilər. Çünki heç bir vaxt Sizə etibarsız olmayıblar. Etibarsızlıq da yəqin ki, bu dünyada ən naqis cəhətlərdən biridir, çörəyi dizinin üstündə olmaq, etibarsızlıq, bu gün işin keçəndə üzə gülmək, xoş sözlər demək, sabah işin keçməyəndə dönüklük etmək – bunlar yazıçıya, ziyalıya, azərbaycanlıya və ümumiyyətlə, insana layiq olan keyfiyyətlər deyil”.[1]

Anar “Unudulmaz görüşlər”də 1982-ci ildə Y.V.Andropovun hakimiyyəti dövründə Heydər Əliyevin Sov.İKP siyasi bürosuna üzv seçildiyini, SSRİ Nazirlər Soveti sədrinin I müavini təyin olunduğunu yada salmış və ayrılıq görüşü zamanı onun kövrəldiyi nüans üzərində dayanmışdır: “İlk öncə ağla gələn fikir budur ki, Heydər Əliyev Azərbaycana, doğma vətəninə, xalqına çox bağlı adamdır, bu torpaqdan uzaqlarda ömür sürmək onun üçün çətindir. İnkişafı üçün bu qədər iş gördüyü, əmək, enerji sərf etdiyi respublikanı tərk edib tamam başqa bir mühitə düşməsi, təbii ki, ciddi məsələ idi”.[2]

Heydər Əliyev Sovet hökumətinin ən yüksək vəzifələrində olanda belə nə özü, nə də ailəsi azərbaycanlı olduqlarını, dillərini unutmamış, onlar doğma vətənlə əlaqəni kəsməmişlər. Konsertlərə, rəssamların sərgilərinə gəlmiş, Anarın “Sizi deyib gəlmişəm” tamaşasına baxmışlar.

Nüfuzlu siyasi şəxsiyyət Heydər Əliyev vəzifə başında həmişə ermənilər üçün qorxu olmuşdur. Elə onlar da azərbaycanlı imzaları ilə onun əleyhinə Kremlə çox məktublar göndərmişlər. Vaxtilə onların I katibi Dəmirçiyan: “Ermənilərin iki düşməni var”, – demişdir. – Biri Mustafa Kamal Atatürk, o birisi isə Heydər Əliyev. Biri ölmüş, biri isə rəsmi vəzifədən getmişdir. Sonuncu sağ olduğu qədər, qorxuludur. Anar yazır: “Yüz faiz əminəm ki, Heydər Əliyev Azərbaycan rəhbərliyini davam etdirsəydi, ermənilər heç vaxt Qarabağ məsələsini qaldırmağa cəhd və cəsarət etməzdi”.[3]

Kübar yazıçı Anar bütün hallarda səmimi, təbii təsir bağışlayır.O, nəyi isə azaltmamış, artırmamış, necə varsa elə də yazmışdır, – bu, ziyalı vicdanıdır, ziyalı vicdanınınmüdrik səsidir.

---

[1] Anar.Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s.44

[2] Yenə orada, s.70

[3] Yenə orada, s.73

Yazıçı 20 yanvar faciəsi baş verəndə "Şəhidlər dağı" adlı yazı yazmış, prezident sarayı qarşısında, habelə fövqəladə vəziyyət şəraitində Azərbaycan Ali Sovetində Bəxtiyar Vahabzadə ilə birlikdə çıxışlar etmiş, Elmlər Akademiyasında ziyalıların etiraz toplanışını keçirmiş, beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə müraciət olunmuş, "Müsibət" adlı yazısını sovet respublikalarının Yazıçılar təşkilatlarına, SSRİ deputatlarına göndərmişdi. Sonralar həmin yazılar "Qara yanvar" kitabında, yazıçının Azərbaycan və rus dillərində çıxan kitablarında, habelə Fransa və İranda çap edilmiş nəşrlərdə özünə yer almışdır.

Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, xarici müxbirlər, mətbuat nümayəndələri qarşısında bəyanat vermiş, xalqına baş sağlığı diləmiş, M.S.Qorçabovu ittiham etmişdir. Güclü siyasi xadimə qarşı böhtan kompaniyası güclənmiş, Mərkəzi rəhbərlik ona Bakıya qayıtmağa imkan verməmiş, Respublika rəhbərliyi də bunu istəməmişdir.

Kitab müəllifi Ümummilli liderin Bakıya gəlib az sonra Naxçıvana getdiyini, orada çətin şəraitdə yaşadığını, Naxçıvanın, Azərbaycanın deputatı seçildiyini, Sədərək görüşlərini yada salmışdır. Yazıçı oraya Xəlil Rza Ulutürk və Fərhad Xəlilovla yola düşdüyünü, Heydər Əliyevin Naxçıvan dövrü fəallığını, Azərbaycana gəlmək inamını ifadə etmiş, o vaxtın siyasi şəraitini, işğalları, faciə və fəlakətləri, ölkənin parçalanması və vətəndaş qarşıdurmasını, bir sözlə siyasi liderin xilaskarlıq missiyasını oxucu diqqətinə çatdırmışdır.

AYB-nin sədri Anar Heydər Əliyevin Bakıya gəlişinə 1992-ci ildə təşəbbüs etmiş, qəzetə təklif vermiş, 5 nəfərdən ibarət Dövlət Şurası yaradılmış, təəssüf ki, əhəmiyyət verən olmamışdır. Böyük rəhbər qalib iradəsi, geniş ictimaiyyətin və o zamanki rəhbərliyin təkidiylə Bakıya gəlmiş, müdrik siyasəti ilə Talış-Muğan qurumunu ləğv etmiş, Gəncəyə getmiş, mövcud təhlükələri aradan qaldırmışdır. Yazıçı bütün bunları *"Gecə düşüncələri" əsər*ində yazmışdır.

Anar müəllim İstanbulun Memar Sinan Universitetində 6 ay (1993) Azərbaycan ədəbiyyatından dərs demiş, lakin hadisələrin ağır vaxtında Vətənə qayıtmış, prezident Əbülfəz Elçibəyə, Ali Sovetin sədri Heydər Əliyevə və başqa məsul şəxslərə müraciət etmişdir. Müraciətdə deyilir: "... Hörmətli Heydər bəy! Tale Sizin çiyinlərinizə Azərbaycan xalqının həlledici məqamında çox ağır və məsu-

liyyət dolu bir yük qoyub. Zəngin siyasi təcrübənizi, dünya siyasətinə miqyaslı baxışınızı, əzminizi, iradənizi xalqımızı bu ağır vəziyyətdən çıxarmaq üçün əsirgəməyin”.[1]

Humanist şəxsiyyətin xitabında faktlar yığcam, əlvan təsvir-təhkiyə mətnində, sadalama intonasiyasında ifadə olunmuşdur. Kitab müəllifi hörmətli yazıçı və ictimai xadim Anar unudulmaz görüşlərini bu sözlərlə tamamlamışdır: “1970-ci illərdən üzü bəri qeydlərimin, müşahidələrimin, xatirələrimin, düşüncələrimin bənzəri olan bu yazını 2008-ci ilin dekabr günlərində qələmə aldım və 2009-cu ilin martında tamamladım...”[2]

Xatirələr toplusu Heydər Əliyevin *xeyirxah, işıqlı obrazının* canlandırılması və dahi rəhbərə yazıçı sədaqətinin bariz nümunəsi kimi əhəmiyyətlidir. Təsadüfi deyil ki, çox hörmətli Anar Rzayev “Heydər Əliyevə olan böyük ehtiramı və ədəbi-tarixi xidmətlərinə görə “Heydər Əliyev” medalına layiq görülmüşdür. *(2018)*

Akademik “*Rafael Hüseynov “Heydər Əliyevin ən vacib yadigarı*” adlı məqaləsində Heydər Əliyevin əbədiyyətə qovuşma anlarında düşüncələrini ifadə etmişdir. Alim hesab edir ki, İlahi Qüdrət nadir şəxsiyyətləri millətlərə və məmləkətlərə sərvət kimi, irs kimi yetirir.

O, Heydər Əliyevin ölməz obrazının səciyyəvi xüsusiyyətlərini *Tarix fonunda* göstərmişdir. Çünki o, pozulmazdır. “Azərbaycan Tarixinin pozulmaz yazısında Heydər Əliyev adı və möhürü əbədilik qalacaq – bu, şübhəsizdir”.[3]

Rafael Hüseynov Heydər Əliyevi Tarixin ayrılmaz bir parçası hesab etmiş, xatırlatmış ki, o, qətiyyətli, cəsarətli, yenilikçi, risksevər olduğu halda, ömrünü çərçivəyə salmış, davranış və danışığına sədd qoymuş, buna baxmayaraq, yeri olanda, “özünüifadəyə daha münbit meydan tapardı, tarix səhnəsində yeni-yeni keyfiyyətləri, məziyyətləri ilə görünərdi”.[4]

Alim Heydər Əliyevin müstəsna şəxsiyyət faktını ifadə etmək üçün XX əsrin 80-ci illərinin sonları, 90-cı illərin əvvəllərini xatırlatmışdır: “Onsuz yaşadıq və gördük nələr baş verir! Gördük sənəti-

[1] “Azərbaycan” qəzeti, 24 iyun 1993
[2] Anar.Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, s.144
[3] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.243
[4] Yenə orada

miz nə təhər dəyişir, gördük illərlə qazandıqlarımızı nə asanca itirə bilirik”.[1]

Akademikin Heydər Əliyevi ifadə fərdiyyətinin forması orijinaldır: “Sovet “KQB”-sinin sıravi əməkdaşından general rütbəsinəcən, kommunistlər ordusunun sıra nəfərindən Kreml liderlərindən birinə qədər yüksəlmək elə möhtəşəm universitetlər idi ki, o yolu qədəm-qədəm adlayandan sonra çox üstün qafalı insanşünas və cəmiyyətşünasa çevrilmək labüd idi”.[2]

Müəllif məqaləsində hər bölmənin birinci cümləsində bir iqrari hökm vermiş, sonra onun izahı, təfsilatı gəlmişdir. Məsələn: “İkinci Heydər Əliyev olmayacaq”, yaxud “Vaxt hamımızdan güclüdür” və s. Yuxarıdakı fikir əslində “İkinci Heydər Əliyev” olmayacaq hökmünün şərhi, izahıdır.

Rafael Hüseynov həmişə faktı göstərməyi, nəticəni verməyi xoşlayır. Məsələn, fakt budur: “Heydər Əliyev cavan deyildi, bütün vəzifələrini itirmişdi, bağında oturub dincələn, ömrün qalan parçasını yaxşı halda, imkan versələr, sakit təqaüdçü güzəranı keçirməklə başa vurmalı bir klassik idi”. Məhz klassik! Nəticə: *Bu tale ilə barışmadı!”*[3] *Birinci, yenə Üstün, yenə Qüdrətli olmaq üçün Qayıtdı*”.[4]

Alim nəticələrə, xülasələrə qədər – dəyər, qiymət, mənalandırma effektləri ardınca gedir. *Fakta, nəticəyə fon verir:* “Heydər Əliyevin qayıdışı bütün başqa xüsusiyyətlərdən əlavə, bir də ona görə əlamətdar oldu ki, bu nadir şəxsiyyətin ömrünün qayıdış parçasını, qayıdışdan sonrakı fəaliyyətlərini görməsəydik, onun istedadının əsl parlaqlığını, onun şəxsiyyətinin əsil nəhəngliyini də tamlığı ilə bilə bilməzdik. Heydər Əliyev vaxta qalib gələrək qayıtdı və onun bacarıqlarının, qüdrətinin arxada qalan ömür parçasının imkan vermədiyi bir çox incəlikləri də bütün aydınlığı və möhtəşəmliyi ilə hər kəsə əyan oldu.”[5]

Rafael Hüseynov fikir mövqeyində müqayisə, paralellər aparmağı, fikri əsaslandırmağı xoşlayır. Obrazın müasirliyi ilə gələcəkliyini vəhdətdə verib mənalandırmağa çalışır. Professor İsmayıl Hikmətdən misal çəkir: M.Ə.Sabir bizə nə qədər yaxındır, adidir, zaman

---

[1] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.244
[2] Yenə orada,s.244
[3] Yenə orada, s.245
[4] Yenə orada, s.245
[5] Yenə orada, s.245

keçdikcə dəyər, qiyməti də artacaq. “Mənim cavan dostlarım, biz bu gözəl binanın içərisindəyik və onun füsunkarlığı haqqında, sadəcə, təsəvvürümüz var. Amma bu binadan çıxıb xeyli aralansaq, onu uzaqdan bütövlüyü ilə seyr etsək, gözəlliyinə daha artıq valeh olacaq, əzəmətinə daha artıq heyrətlənəcəyik.”[1] Alim müncər edir: “Heydər Əliyev bizimlə eyni günlərin içərisində yaşayırdı, bəxtimizə dahi ilə müasir olmaq səadəti düşmüşdü və əl çatacaq qədər yaxında olsa da, onun əlçatmaz qədər uca şəxsiyyətinə heyran idik.”[2]

Müəllif Heydər Əliyevin *şəxsiyyət, siyasətçi, insan* obrazını hissə-hissə, ardıcıl, pilləli açmağa meyil etmişdir. Məsələn: əməkdar mədəniyyət işçisi Qulam Məmmədli dünyasını dəyişəndə Heydər Əliyevin böyük qayğısı olmuş, R.Hüseynovun isə müdaxiləsi ilə onun cənazəsi Filarmoniyadan götürülmüş, Ulu öndər dəfndə nitq söyləmiş, II fəxri xiyabanda dəfni təşkil olunmuşdur.

Akademik Heydər Əliyevin xarakterinin səciyyəvi xüsusiyyətini açıqlamışdır: “Heydər Əliyev ən əvvəl bir dövlət başçısı üçün çox mühüm olan qüvvətli zabitə sahibi idi.”[3]

Heydər Əliyev sözə münasibətdə çox həssas olmuşdur. Yazı müəllifi obrazlı ifadə etmişdir: “Lap cavanlığından Heydər Əliyev zabit paqonları daşımışdı, generallığacan yüksəlmişdi, üstündə silah gəzdirmək hüququ olmuşdu. Ancaq silahı olanda da, olmayanda da o, silahlı idi. Heydər Əliyevin ən misilsiz, daim tən hədəfə vuran silahı Söz idi”.[4]

Rafael Hüseynov hər faktı mənalandırmaq, dəyərləndirmək, müqayisəyə gətirmək mövqeyinə üstünlük vermiş, obrazlı fikir və düşüncə onun mətn təhkiyəsinə təravət vermişdir: “XX yüzilliyin 30-cu illərində əyalət şəhərinin – Naxçıvanın məktəb səhnəsində rollar oynayan balaca Heydər Əliyev aktyor olmağı arzulayırmış.

Aktyor olmadı, amma aktyorluq hər halda ömründə, taleyində qaldı və teatr səhnəsində deyil, Tarix səhnəsində ona millətinin taleyindəki ən baş rollardan birini oynamaq qismət oldu.

Bakıya gəldi, 1930-1940-cı illərdə yetərincə məşhur Sənaye İnstitutuna, memarlıq ixtisasına yiyələnmək arzusuyla daxil oldu. Dava başladı, təhsili yarımçıq qaldı, amma hər halda, o, memar ol-

---

[1] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.246
[2] Yenə orada ,s.245
[3] Yenə orada, s.249
[4] Yenə orada, s.250

du. Memar düşüncə tərzi onun təfəkkür tərzinə çevrildi."[1] "O, Millətinin və məmləkətinin yeni tarixinin memarı oldu, Güclü Azərbaycanın, Müstəqil Azərbaycanın, dünyanın sayğı göstərdiyi, istiqlalı dönməz, iqtisadiyyatı günü-gündən qüvvətlənən çağdaş Azərbaycanın memarı oldu".[2]

Müəllif dahi rəhbəri tarixçi kimi Millətin müəllimi, nadir keyfiyyətlərin onda toplum halında cəmlənməsi kimi dəyərləndirir, "belə şəxsiyyətlərsə həm ayrı-ayrı xalqların, həm də bütövlükdə insanlığın tarixində həmişə tək-tək olub."

Bu da Heydər Əliyev xarakterinə dəyər verən *maraqlı bir fərdilikdir*: "Heydər Əliyev hərbçi olub, birinci dərəcəli kommunistlərdən olub. Amma qeyd-şərtsiz tabeçiliyi tələb edən bu amillər də onun içərisini, mənini dəyişdirə bilməyib".[3]

*Daha bir fərdilik*: "Heydər Əliyev inanmadığına heç zaman tabe olmayıb. Bu, onun ən seçilən cəhətlərindən idi."[4]

Rafael Hüseynov Heydər Əliyevi – *"Tək adam" – Mustafa Kamal Atatürkə* şamil olan bir dəyərlə xarakterizə etmişdir.

Alim Ulu öndərin yüksək peşəkarlığını da onun xarakterik keyfiyyəti hesab etmişdir. Heydər Əliyev 8 milyonluq xalqa rəhbərlik etmiş, dünyanın ən böyük siyasi xadimləri ilə danışıqlar aparmış, Azərbaycanı qat-qat böyük göstərmişdir.

Akademik Rafael Hüseynov Heydər Əliyevin *müstəsna xilqət olduğunun obrazlı təsvirini* də vermişdir. "Heydər Əliyev qayıtdı, istiqlal yükünün bütün ağırlığını dözümlü çiyinlərinə götürdü, il-il irəlilətdi və müstəqilliyin yaşına əlavə olunan hər illə bu əzizdən-əziz, üstündən-üstün nemətimizi, ən ali sərvətimizi sarsılmaz etdi."[5] Heydər Əliyev 2 əsrdə 10 il prezident oldu, "iki əsrin, iki minilliyin prezidenti". Müstəsnalıq deyilmi?!

Müəllif məqaləsinin sonluğunu da obrazlı ifadə etmiş, bir dağ obrazını iki panoramda mənalandırmışdır: "Bitmiş XX yüzildə, başlanmış XXI əsrdə Arazın o tayında və bu sahilində, orada – Güney Azərbaycanda, burada – Azərbaycan Respublikasında soydaşlarımız iki dağa ən böyük dayaq, nicat rəmzi, milli səadət nişanəsi kimi bax-

---

[1] Azərbaycan və azərbaycanlılar. Bakı, 2013, s.251
[2] Yenə orada, s.252
[3] Yenə orada, s.253
[4] Yenə orada, s.253
[5] Yenə orada, s.257

dılar. Bu dağlara arxalandılar, bu dağlara and içdilər. Adaş dağlara! Cənubi Azərbaycandakı Heydər baba dağına, Azərbaycan Respublikasında uşağında, cavanın da, ahılın da, qocanın da sevə-sevə "Heydər baba" dediyi Ulu öndər Heydər Əliyev Dağına! Millətimizin Böyük Dayaqlarının, xalqın ümid və inam yeri olan Dağlarımızın vüqarı əskik olmasın!

Millət vəkili Ulu öndərin əbədiyaşarlığının obrazlı sonluğunu da vermişdir: "Çox seçkinlərimiz, böyüklərimiz gəlib-gedəcəklər, söz yox ki, çoxlu parlaq izlər də qoyacaqlar. Lakin bütün millət üçün Böyük Yol yaratmaq qüdrəti yalnız Heydər Əliyev kimi müstəsnaların alın yazısıdır. Bizə bağışladığın bu Yola görə ruhun şad olsun, böyük öndər! Yolun yaşayırsa, onsuz da ruhun həmişə şad olacaq..."

Xalq şairi Nəbi Xəzri Heydər Əliyevin şəxsiyyət dəyərlərini həmişə yüksək qiymətləndirmiş, bu dəyər müstəqillik dövründə də müxtəlif münasibətlərdə ifadə olunmuşdur. 3 aprel 1998-ci il tarixli müraciətində ulu rəhbərin xeyirxahlığını ifadə edərək yazmışdır: "Azərbaycan Respublikasının zati-aliləri Heydər Əlirza oğlu Əliyevə... Demək istəyirəm ki, 70-80-ci illərdə Siz böyük bir ənənə də yaratmışdınız: ziyalılarımızın yaşayış tərzini yaxşılaşdırmaq, onlara səliqə-sahmanlı mənzillər vermək ədəbiyyatın, elmin, sənətin inkişafına yeni bir təkan oldu, lakin sonralar uzun zaman bu ənənə unuduldu. Bütün iqtisadi çətinliklərə baxmayaraq, tarixi ənənəni bu gün bərpa etmək sizə yaraşan, başucalığı gətirən ehtiram və etimaddır. Deməli, nəcib ənənələr yenə də yaşayır."[1]

Xalq şairi Nəbi Xəzri "Burla Xatun" milli dramaturgiyanın səhnəsində" adlı yazısında bildirmişdir: "Cənab prezident, bu əsərə xeyir-dua verən Siz olmusunuz. Çünki əsər mürəkkəb olduğu üçün teatrın heç bir qüvvəsi yoxdur ki, bunların geyimini, paltarını, səhnənin dekorunu hazırlasın. Mən "Dədə Qorqud" yubileyinin keçirilməsi üçün Sizin yaratdığınız yubiley komissiyasının iclasında xahiş etdim, Siz böyük xeyirxahlıqla onu plana saldınız və ondan sonra işlərimiz demək olar ki, canlı getdi. Bu əsərin yaranması üçün biz hamımız Sizə minnətdarıq. Bu gün gəlib məni iki qat sevindirdiyinizə görə təşəkkür edirəm... Sizə təşəkkür və minnətdarlıq edir, can sağlığı arzulayıram. Sağ olun, var olun. Bu gün Sizi gördüm, çox sevin-

---

[1] "Azərbaycan" qəzeti, 3 aprel 1998

dim. Allah Sizin canınızı həmişə var etsin, sağlam, gümrah etsin. Elə bilirəm ki, bizim torpağımız da, vətənimiz də, gələcəyimiz də nurlu, işıqlı olacaqdır və biz bunu belə görürük..."[1]

Nəbi Xəzri dahi rəhbərin soyqırım haqqında fərmanını da qiymətləndirmişdir. "Mürgülədiyimiz bəsdir. "Qardaşlıq" nəqəratlı nəğmələrin huşyar sədaları altında yetərincə uyumuşuq... Xalqın taleyindən, milli qeyrətdən söhbət gedərkən mübarizəyə çağırış daha əzəmətlə səslənməli, hər cür xırda, cılız müxalifət ambisiyaları, hikkəli vəzifə dava-dalaşları unudulmalıdır." [2]

Nəbi Xəzri milli müstəqilliyimiz şəraitində isə bunları demişdir: "Bu gün biz müstəqil dövlətimizin həlledici, əlamətdar dövrünə qədəm qoymuşuq. Respublikada sabitlik dərinləşdikcə sabitliyin daxili və xarici düşmənləri orda-burda başını qaldırmaq istəyir, suyu bulandırmaq sevdasına düşənlər, zora əl atmaq istəyənlər peyda olur. Ancaq onlar bu vaxta qədər zor işlətmək istəyənlərin "taleyini" deyəsən unutmağa başlayıblar. Yaddaşları korşalmış adamlara xalqımız həmin "taleləri" xatırlatmağa qadirdir..." Şair inamını bu sözlərlə ifadə etmişdir:" Bizim bu gün də, sabah da inamımız bir şəxsiyyətə – prezidentədir. O prezident Allahın və tarixin bizə bəxş etdiyi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevdir. Özünüz dediyiniz kimi, Siz əməlisaleh adamsınız. Allah və xalq Sizi qorumuş və qoruyacaqdır. Ona görə ki, Siz də xalqı, Vətəni bütün dünyanın gözü qarşısında qoruyur və qoruyacaqsınız!

Dərin ehtiramla: Sizin Nəbi Xəzri,
*Xalq şairi, 1 aprel 1998*

Nəbi Xəzri 18 oktyabr 1997-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası günündə Ümummilli liderə xitab etmiş, onu salamlamış, təbrik etmiş və bunları demişdir: "Əziz möhtərəm prezidentim! Zəmanəmizin görkəmli müğənnisi, bəstəkarı Müslüm Maqomayevin yubiley gecəsində bizim "Azərbaycan" mahnısına yüksək qiymət verdiyinizə görə Sizə dərin təşəkkürlərimi çatdırmaq istəyirəm. Həmin mahnını yeni Azərbaycan himni adlandırmağınız bizim üçün böyük şərəf və iftixardır.

---

[1] "Azərbaycan" qəzeti, 12 dekabr 1999
[2] "Azərbaycan" qəzeti, 3 aprel 1998

*Ömrümün mənasısan,*
*Qardaşlıq dünyasısan,*
*Anamın anasısan*
*Azərbaycan!..”*[1]

Professor Teymur Əhmədovun “Heydər Əliyev və mətbuat”[2] məqaləsi “Heydər Əliyev və mətbuat” adlı dördcildliyin nəşri münasibətilə yazılmışdır. Müəllif yazır: “Çox nəfis və müasir kitab mədəniyyətinin ən vacib poliqrafiya estetikasını özündə daşıyan bu dördcildlikdə Azərbaycan xalqının Ümummilli lideri, Azərbaycan dövlətinin və Azərbaycan demokratik sisteminin arxitektoru, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin çox mühüm bir cəhəti – mətbuatla bağlı son on illik ömür yolu öz əksini tapmışdır”.[3]

Kitabın “*Böyük siyasət və demokratik mətbuat*” adlı ön sözünün müəllifi, akademik Ramiz Mehdiyevdir. Yazıda Ümummilli liderin 1993-2003-cü illərdəki siyasi fəaliyyəti ümumiləşdirilmiş, Ulu öndərin ölkədə və xaricdə kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr, brifinqlər, görüşlər zamanı ifadə etdiyi fikirlər elmi təhlillərə cəlb olunmuşdur.

Professor Teymur Əhmədov bu dördcildliyi Ulu öndər haqqında yazılmış başqa nəşrlərdən fərqləndirir, həmdə o səbəbdən ki, Ümummilli lider tarixən mətbuata çox bağlı olmuş, onun funksiyasına çox yüksək dəyər vermişdir. Heydər Əliyev hesab etmişdir ki, mətbuatın xalqa, ölkənin inkişafına, milli-mənəvi dəyərlərin formalaşmasına, mədəniyyət, elm və incəsənətin tərəqqisinə çox böyük faydası olmuşdur. Azərbaycan mətbuatı milli dilimizi qorumuş, zənginləşdirmiş, jurnalistikanın açıq söz demək cəsarətini gücləndirmiş, yazıçıların, mədəniyyət işçilərinin qurultay və yığıncaqları keçirilmiş, bütün bunlar Ulu öndərin təşkilatçılığı və rəhbərliyi ilə olmuşdur. Mətbuat Ulu öndər üçün siyasət məqsədi daşımışdır. Professor Teymur Əhmədov bu baxımdan hesab edir ki, dörd cildlik *“bir xalqın dilinin, dininin, mənəvi sərvətlərinin* qorunması məktəbini yarat-

[1] “Azərbaycan” qəzeti, 21 oktyabr 1997
[2] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 624 s.
[3] Yenə orada, s.543

mış, dünyada hesaba alınan, sayılan-seçilən bir dövlət yaratmış bir Ümummilli liderin siyasi kursunun ensiklopediyası kimi qiymətləndirilməlidir."[1]

Professor Teymur Əhmədov *4 cildliyi müntəxabat*, Ümummilli lideri isə *dünya səviyyəli siyasi xadim və müdrik dövlət başçısı kimi* obrazlaşdırmış, hesab edir ki, həm də *bu kitab Heydər Əliyev fenomeninin qüdrətini* əks etdirir.

Akademik Ramiz Mehdiyev geniş ön sözdə "Milli oyanış və müstəqillik", "Yeni tarixi dövr və yeni düşüncənin formalaşması", "Qarabağ problemi və onun ətrafında gedən müharibəyə münasibət", "Azad söz, azad fikir, demokratik düşüncə", "Şərqlə Qərbin körpüsü" mərhələləri üzrə təhlillər aparmışdır deyən professor T.Əhmədov bu fikirdədir: "Həqiqətən də, Heydər Əliyevin təkcə mətbuatla bağlı fikir və düşüncələrinə, nəzəri və praktik siyasi fəaliyyətinə diqqətlə nəzər saldıqda aydın görünür ki, bizim milli oyanışımız və milli müstəqilliyimiz onun yeni rəhbərlik dövrünün başlanğıcıdır. Yeni tarixi dövrün və yeni düşüncənin formalaşması, əslində müstəqilliyin qorunub saxlanılmasını şərtləndirən əsas keyfiyyətdir ki, Heydər Əliyev fəaliyyətinin növbəti mərhələsində bunu əsas götürmüşdür."[2]

Professor Teymur Əhmədov Qarabağ problemləri ilə bağlı fikirləri dörd cildliyin mühüm hissəsi hesab edir. Həmin bu fikir və mülahizələr Ulu öndərin mətbuata, jurnalistlərə verdiyi müsahibələr və müxtəlif görüşlərdəki çıxışları ilə bağlıdır. Heydər Əliyev Qarabağ probleminə həssas və müdrikcəsinə yanaşmış, hansı çətinliklərlə məsələlərin dünya ictimaiyyətinə çatdırıldığını bəyan etmişdir.

Digər bir məsələ Heydər Əliyevin *azad söz, azad fikir, demokratik düşüncələri* haqqındadır. Ulu öndərin demokratik dəyərlərə qiymət verməsi mühüm strateji əhəmiyyət kəsb etmiş, müstəqilliyin və dövlətçiliyin möhkəmləndirilməsinə xidmət göstərmişdir.

Professor Teymur Əhmədovun ifadə etdiyi mühüm elmi müddəa *Ulu öndərin Azərbaycanda hüquqi, vətəndaş dövlətinin qurulmasını fəaliyyətinin mühüm istiqaməti* hesab etməsi ilə bağlıdır. Mətbuat nümayəndəsi şərh edir: ulu rəhbər ölkədə ilk növbədə sabitliyə, sabitlik fonunda demokratik dəyərlərin formalaşmasına nail

---

[1] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, s.544

[2] Yenə orada, s.545

olmuş, azad mətbuat, azad fikrə qayğını siyasi kursunun əsas parametrlərindən hesab etmişdir: "Prezidentin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ölkədə plüralizmin bu günkü və sabahkı inkişafının qarantı rolunu oynayır".[1] Fərman əsasında senzura siyasətinə son qoyulmuş, "*fərmandan sonra Azərbaycanda söz azadlığı, azad mətbuat modeli mühüm inkişaf istiqamətinə qədəm*" qoymuşdur.

Heydər Əliyev müsahibə və çıxışlarında, jurnalistlərlə görüşlərində azad mətbuatın rolunu yüksək qiymətləndirmiş, onu demokratiyaya aparan yolun mühüm vasitəsi hesab etmişdir.

Professor Teymur Əhmədov "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Fərmanın əhəmiyyətini bunda görmüşdür: *elmi və praktik cəhətdən dəqiqliyində, dəqiq icraya yönəlmiş istiqamət, milli mətbuatın tarixi inkişaf mərhələlərini araşdıran sənəd olması və s.* Alim bu fərmanı mətbuat tariximizin qısa və lakonik salnaməsi hesab edir. Bu fərmanda XIX əsrin sonlarında Azərbaycan mətbuatını inkişaf etdirmiş Ünsüzadə qardaşları, Məhəmməd ağa Şahtaxtlı və onun "Şərqi-rus" qəzeti, mədəniyyətimizin möhtəşəm ədəbi abidəsi olan "Molla Nəsirəddin" jurnalı, Cəlil Məmmədquluzadə və Ceyhun Hacıbəyli kimi jurnalist şəxsiyyətləri, sovet dönəmi Azərbaycan jurnalistikası, müasir mətbuatımızın, yeni jurnalistikamızın durumu barədə neçə illər bundan sonra da aktual olacaq qiymət meyarı vardır."[2]

Təbii ki, Ümummilli liderin KİV-in hüquqi bazasının yaradılması, iqtisadi bazasının möhkəmlədirilməsi, qəzetlərin dövlət nəşriyyatlarına borcunun ləğvi, KİV-ə güzəştli dövlət kreditlərinin verilməsi ilə bağlı müstəqil mətbuatın inkişafına köməyi bol bəhrə vermişdir.

Milli mətbuatın ən yaxın hamisi, "Jurnalistlərin dostu" mükafatının sahibi Ulu öndər Heydər Əliyev mediyanın mühüm nəzəri məsələlərinə də toxunmuş, professor Teymur Əhmədov isə dahi rəhbərin nitqindən irəli gələn nəzəri anlayışların, mühüm elmi nəticələrin şərhini vermişdir. *Buraya aiddir:* jurnalistin cəmiyyətlə, insanlarla intensiv əlaqəsi, cəmiyyətin müxtəlif təbəqələri ilə əlaqəyə eh-

---

[1] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, s.546

[2] Yenə orada, s.547

tiyac, istədiyi informasiyanı almaq və ötürməyin vacibliyi və aktuallığı. Jurnalist ədalətsizliklə barışmamalıdır. Jurnalist cəmiyyətlə yaxın olarsa, cəmiyyət jurnalisti sevərsə – cəmiyyət və jurnalist uğur sahibi olar. Jurnalistlər obyektiv olmağa borcludur. Kəskin, sensasiyalı yazılar olmasa, oxucu marağı olmaz, qəzetlər alınmaz. Jurnalist hücum obyekti axtarmamalı, kəskin tənqidə yol verməməli, hər iki tərəf bir-birini nəzərə alarsa, jurnalistlərlə insanların dostluğu təmin oluna bilər və s.

Professor Teymur Əhmədov hesab edir ki, Ümummilli lider Heydər Əliyev dördcildliyi *mübarizə salnaməsidir,* Azərbaycanı dünyanın sivil ölkələri sırasına çıxarmağın yoludur. Bu baxımdan alim ümumiləşdirir ki, Ulu öndərin xarici ölkələrdəki görüşləri, dünya jurnalistlərinə verdiyi müsahibələr mahiyyətcə Azərbaycanın ən yeni dövrünün inkişaf istiqamətlərinin göstəricisidir.

Görkəmli alim və mətbuat xadiminin ümumi qənaətləri budur ki, Heydər Əliyev ömrü fundamental tədqiqatların obyekti, "dördcildlik kitablar isə bu məhsuldar insan ömrünün tədqiqatçıları üçün çox ciddi faktik material rolunu oynayacaqdır".[1]

Akademik Ramiz Mehdiyev Heydər Əliyev dördcildliyinin redaktoru və ön söz müəllifi, tərtibçiləri isə professorlar Teymur Əhmədov və Əli Abbasovdur. Kitab poliqrafik cəhətdən mükəmməl nəşrdir.

Azərbaycanın ədəbiyyat adamları: şair, yazıçı və dramaturqları Ulu öndər Heydər Əliyev haqqında xüsusi məqalə yazmış, mətləbdən-mətləbə söz demiş, ona dərin minnətdarlıq ifadə etmişlər. Bu baxımdan Mirzə İbrahimov, İsmayıl Şıxlı, İsa Hüseynov, Mirvarid Dilbazi, İlyas Əfəndiyev, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İmran Qasımov, Həsən Seyidbəyli, Anar, Elçin, Yusif və Vaqif Səmədoğlular, Fikrət Qoca, Qabil, Sabir Rüstəmxanlı, Rüstəm Behrudi və başqaları qeyd oluna bilər.

Heydər Əliyev xalq yazıçısı İsmayıl Şıxlını ictimai xadim kimi uca tutmuş, yazıçı və insan kimi ona böyük hörmət göstərmiş, onu Yazıçılar İttifaqına rəhbərliyə gətirmişdir. İsmayıl Şıxlı da görkəmli dövlət xadiminə yüksək dəyər vermişdir. Azərbaycan xalqı 1990-cı il hadisələrində ağır sınaqlardan çıxanda, özünü yazıçı, müəllim,

---

[1] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, s.549

alim, ictimai xadim və vətəndaş kimi aparmış, müdriklik və cəsarət nümayiş etdirmiş, xalqına bələdçi olmuş, Heydər Əliyevin ona olan etimadını qoruyub saxlamışdır. Ulu öndər görkəmli yazıçının vida mərasimində (1995) iştirak etmiş, haqqında qiymətli nitq söyləmişdir.

Heydər Əliyev yazıçı-dramaturq Şıxəli Qurbanovun 70 illik yubileyində onun ailə üzvləri ilə görüşmüş, yazıçı və ictimai xadimin mədəniyyətimiz və milli adət-ənənələrimiz qarşısında böyük xidmətlərini, onunla görüşlərini yada salmışdır. Yazıçı-dramaturqun həyat yoldaşı Xavər Qurbanova görüş zamanı bildirmişdir ki, Heydər Əliyev onların ailəsinə, uşaqlarına qayğı göstərmiş, onlara dayaq olmuşdur.

Gəncədə xalq şairi Nigar Rəfibəylinin abidəsinin açılışında (7 fevral 1998) Xalq yazıçısı Anar Heydər Əliyevi ədəbiyyat və mədəniyyətimizə, anasının xatirəsinə göstərdiyi diqqət və qayğıya görə yüksək qiymətləndirmiş, ona minnətdarlığını bildirmişdir.

Xalq şairi Osman Sarıvəllinin 90 illik yubileyinə həsr edilmiş gecədə (27 dekabr 1995) şairin oğlu professor Rafiq Qurbanov Osman Sarıvəlliyə Xalq şairi adının verilməsində Heydər Əliyevin böyük xidmətlərini xatırlatmış, ona atasına göstərilmiş hörmətə görə dərin minnətdarlığını bildirmişdir.

Sənətkarlarla görüşlər, keçirilən yubiley tədbirləri Heydər Əliyev üçün həmişə zövq mənbəyi olmuşdur. Bu baxımdan Ulu öndər demişdir: "Mən səmimi deyirəm, bu gün salonda oturarkən hisslərim həddindən çox canlandı, həyəcanlandım. Xalqımızın, millətimizin, ədəbiyyatımızın, şeirimizin, incəsənətimizin nə qədər böyük olduğuna görə sizinlə böyük iftixar hissi keçirdim... Vahidin yaradıcılığı indiyədək həm ədəbi, həm də musiqili şəkildə bu qədər nümayiş etdirilməmişdi. Xalqımız Vahidi həmişə sevibdir. Onun sağlığında da, o, həyatdan gedəndən sonra da Vahidin qəzəllərinə çox gözəl mahnılar bəstələnibdir. Xalqımız Vahidi heç vaxt unutmayıbdır".[1]

*Belə dəyərləndirmə və qiymətləndirmədə hər iki tərəfin çıxış, ithaf və etiraflarında, təşəkkür və minnətdarlığında Heydər Əliyevin lider missiyası canlanmış, digər tərəfdən böyük öndərin nitqi vasitəsilə ədəbi şəxsiyyətlərin nüfuz və mövqeyi ifadə olunmuşdur.* Bu baxımdan yazıçı və ictimai xadim Yusif Səmədoğlunun respublika sə-

---

[1] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.213

viyyəsində keçirilmiş 60 illiyinə və aldığı “Şöhrət” ordeninə *(19 dekabr 1995, “Gülüstan” sarayı)* görə anası Xavər Vəkilova, şair Tofiq Bayramın büstü və istirahət parkının açılışı münasibətilə *(24 sentyabr 1998)* anası Zivər Bayramova, xalq şairi Xəlil Rza Ulutürkün *(23 iyun 1994, M.Maqomayev adına Azərbaycan Dövlət Flarmoniyası)* Fəxri Xiyabanda dəfni və 5 iyun 1995-ci il Respublika sarayında keçirilmiş xatirə gecəsinə görə Firəngiz Xəlilovanın dahi rəhbərə təşəkkür və minnətdarlığı səciyyəvidir.

Xalq şairi Mirvarid Dilbazinin 85 illik yubiley gecəsi *(23 aprel 1998)* də bu baxımdan əhəmiyyətlidir. Heydər Əliyev həmin görüşdə qiymətləndirmişdir ki, Mirvarid xanım Dilbazinin əsərləri “Azərbaycan xalqına – insanlara, gənclərə yüksək mənəviyyat hissləri aşılayır, insanları paklığa, mənəviyyata, ülvi duyğulara çağırır. Böyük şəxsiyyət demişdir: “Siz bütün əsərlərinizlə vətənimizə, xalqımıza sədaqətlə xidmət edərək xalqımızın milli azadlıq yolunda öz payınızı vermisiniz. Sizin əsərləriniz insanlarımızda, xalqımızda, gənclərdə milli hisslər, duyğular, vətənpərvərlik, azadlıq hissləri, duyğuları oyadıb, dirçəldib, gücləndirib, inkişaf etdiribdir və bu günki səviyyəyə gətirib çıxarıbdır”.[1]

16 noyabr 2000-ci ildə Heydər Əliyev xalq şairi Mirvarid Dilbazini qəbul etmiş, görüş zamanı şairə Ümummilli lideri iradəli, hafizəli, dərin siyasi bilikli şəxsiyyət kimi qiymətləndirmiş, onun təkrarsız şəxsiyyət olduğunu söyləmiş və “şəxsiyyəti olmayan adamlar millətini sevə bilməzlər” – demişdir. O, dahi rəhbərə Allah-Təaladan uzun ömür arzulamışdır.

Prezident sarayında respublika ictimaiyyəti nümayəndələrinin ATƏT-in İstanbul zirvə görüşünün yekunlarına həsr edilmiş toplantısında xalq şairi Mirvarid Dilbazi çıxışı zamanı Heydər Əliyevə olan hörmətini bir daha izhar etmiş və onun tarixi obrazına şəxsiyyət dəyərləri səviyyəsindən qiymət vermişdir. Xalq şairi demişdir: “İftixarımız, canımız-ciyərimiz, əziz, hörmətli, dünya şöhrətli prezidentimiz! Vəzifədə oturub dünya şöhrəti adı almaq görün nə qədər çətindir! Onu bizim oğlumuz alıbdır. Niyə mən fəxr edirəm? Çünki bunu adi, bir Azərbaycan anasının südü ilə bəslənən oğul alıbdır. Ona görə mən indi iftixar hissi ilə yaşayıram... Siz bizə milli qalibiyyət sevinci bağışladınız. Ona görə mən çıxış etmək üçün buraya

---

[1] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.234

qalxdım... Yalnız ürəyimdəki məhəbbəti özümlə aparmaq istəmirəm. ...Niyə mən Sizi çox istəyirəm? Ağlınızı? Niyə mən Sizi çox istəyirəm? İradənizi? Niyə mən Sizi çox istəyirəm? Şəxsiyyətinizi! Əgər kimin şəxsiyyəti yoxdursa, o kişi deyil!.. Azərbaycanın böyük xoşbəxtliyi ondadır ki, onun sizin kimi ağıllı övladı var. Bizim xoşbəxtliyimiz ondadır ki, millətimizin başında Siz durursunuz. Əgər bir ailənin başında ağıllı ata, ismətli ana durmursa, o ailənin övladları heç olacaqdır. Əgər xalqın başında tədbirli, ağıllı, şəxsiyyətli, öz işində dönməz iradəli və hafizəli adam durmursa, o millət yazıqdır. Quranda "Ayətül-kürsi" var. Heydər Əliyev danışanda mən "onu oxuyuram ki, Allah, onun hafizəsinə göz dəyməsin. Kim ki, onun hafizəsindən danışır, deyir bu adamın nə gözəl yaddaşı var..."[1]

Xalq şairi Mirvarid Dilbazi dövlət başçılarına şeir yazmamış, ithaflar etməmişdir. Lakin... M.Dilbazi: "...Mən Heydər Əliyevə ilk şeirimi o, katib olanda yazdım. O vaxt rüşvətxorlarla – onları gözəlcə tanıyırdım – mübarizə aparanda o şeiri yazdım. Ancaq çap etdirmədim. Niyə? Çünki o zaman işləməyə canımda su var idi, camaat elə başa düşəcəkdi ki, o, böyük vəzifə sahibidir, mən nə isə umuram. O şeiri indi çap etdirdim. Mən yalnız və yalnız Heydər Əliyevə şeir ithaf etmişəm. Niyə? Çünki mən şairəm, inamla yaşayıram, məhəbbətlə yaşayıram. Təsəvvürünüzə gətirin, şair olasan, özü də ana olasan, nənə olasan, nəsillər böyütmüş olasan, ona görə də özümdən asılı olmayaraq, Heydər Əliyevə xeyli şeir ithaf eləmişəm..."[2]

Heydər Əliyev xalq şairi Bəxtiyar Vahabzadənin 70, 80, 90 illik yubileylərini keçirmişdir. 13 oktyabr 1995-ci ildəki təntənəli gecədə, 19 yanvar 1997-ci ildəki görüşdə, Qədirli adına Mərkəzi Hövzə xəstəxanasında böyük insanla üz-üzə qalan Bəxtiyar Vahabzadə ona dərin minnətdarlığını bildirmiş, ONUN elit şəxsiyyət nümunəsini qiymətləndirmişdir.[3]

Heydər Əliyev xalq şairi Məmməd Arazla görüşərkən *(6 aprel 1995),*şairin yaradıcılıq gecəsində iştirak edərkən *(16 aprel 1995)* parlaq nitq söyləmiş, görkəmli şair cavabında Ulu öndərin qiymətli sözlərini minnətdarlıqla qəbul etmiş və təşəkkürünü bildirmişdir.

---

[1] "Azərbaycan" qəzeti, 28 noyabr 1999
[2] Yenə orada
[3] Ədəbiyyatda Heydər Əliyev obrazı. Tarixi gerçəklikdən ideala. Bakı, Elm və təhsil, 2018, 400 s.

Flora Xəlilzadənin “Azərbaycan” qəzetində verilmiş “Vətən sevgisi” adlı müsahibəsində şair xatırlatmışdır: “Mən həmişə H.Əliyevin qayğısını, diqqətini hiss etmişəm. Bir mən yox, bütün yazıçılar, şairlər, ziyalılar hamısı ondan razılıq edirdi. Bizim heç birimiz onun diqqətindən yayınmırdıq. Deyim ki, Heydər Əliyev ən gözəl və həssas oxucu idi. Heç unutmaram, “Dünya sənin, dünya mənim...” adlı şeirimi o, necə ustalıqla təhlil edərək qiymətləndirirdi. Əgər bir ölkənin başçısı sözü uca tutarsa, yaradıcı insanların əməyini dəyərləndirərsə, onda həyatın, yaşamağın mənası daha da artar. Mən həmişə H.Əliyevin xeyirxah əlini üstümdə görürdüm”.[1]

Xalq şairi Məmməd Arazın Dövlət Filarmoniyasında 60 illik yubileyi *(1993)*keçirilmiş, 1995-ci ildə “İstiqlal” ordeni almış, Almaniyaya müalicəyə göndərilmiş, ona yeni mənzil, prezident təqaüdü verilmiş, “Azərbaycan təbiəti” jurnalının yenidən nəşri üçün maliyyə məsələləri həll edilmişdir. Şair etiraf etmişdir: “Qollarımdan əlli min dost əli yapışıb. Onlardan ən güclüsü, xeyirxahı məhz Heydər Əliyevin əli idi”.[2]

Xalq şairi Qabilin 70 illik yubileyi keçiriləndə *(7 yanvar 1997-ci il, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı)* Anar və Sabir Rüstəmxanlı çıxış etmiş, Heydər Əliyev bildirmişdir ki, Azərbaycanda milli azadlıq hərəkatı başlayanda, 1989-90-cı il hadisələrində meydanlara gələnlərdən biri də Qabil olmuşdur. Heydər Əliyev demişdir: “Qabil gəlib orada xalqın dərdini deyən adamlardan biridir. Ona görə də Qabilin həm fəaliyyəti, həm də yaradıcılığı, şeiri böyük mənəviyyat kəsb edir, yenə də deyirəm, onun vətəndaşlıq mövqeyini əks etdirir və siyasi xarakter daşıyır”.[3]

Heydər Əliyev Qabilin Nəsimi haqqında mənzum romanını yüksək qiymətləndirmiş və demişdir: “Bu, həqiqətən Dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi”.[4]

Qabil göstərilən etimada görə Heydər Əliyevə dərin minnətdarlığını bildirmiş və “Ömür həbləri” kitabındakı avtoqrafı xatırlatmışdır:

---

[1] Heydər Əliyev mənim həyatımda. B., 2005, s.242
[2] Yenə orada, s.243
[3] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s.259-260
[4] Yenə orada, s.260

*Məsləhətdir, aç oxu sən bu kitabı, Heydər,*
*Çox suala tapacaqsan da cavabı, Heydər.*
*Görəcəksən quruluş zay quruluşdur, a kişi.*
*Yandırır həm şişi o, həm də kababı, Heydər.*

*Üstünə kim bu saat qalxdı, xoruzlandısa da,*
*Xoruzun uçmağa hardaydı ki tabı, Heydər.*
*Hansı namərdin olub vicdanı, abrı, həyası,*
*Mərdə, mərdanəyə xas vicdan əzabı, Heydər!*

Heydər Əliyev həmin şeir barəsində demişdir: "Bu şeirin qiyməti ondan ibarətdir ki, onu sən o vaxt yazdın, mənə göndərdin. Yadımdadır, o vaxt – 1991-ci ilin fevral ayında mən buraya gəlmişdim. Ali Sovetin sessiyasında iştirak edirdim. Həmin o namərdlər mənə hücum etdilər. Sən şair baba idin, vəzifən yox idi və məndən vəzifə almamışdın. Amma sən həmin şeiri yazıb mənə göndərdin. Bu sənin vətəndaşlıq mövqeyini bildirirdi".[1]

Xalq şairi Fikrət Qoca 60 illik yubiley gecəsində *(26 iyun 1995)* Ulu öndərə təşəkkürünü, müalicə üçün Moskvaya gedərkən yaratdığı şəraitə görə dərin minnətdarlığını bildirmişdir: "Bu gün yaşadığıma görə Heydər Əliyevə minnətdaram", – deyən şair "Azərbaycan" qəzetinə müsahibəsində Heydər Əliyevin 150 nəfər ədəbiyyat və incəsənət xadiminə 1 milyon 500 min manat ömürlük təqaüd ayırmasını xatırlatmış, bunu böyük ürəyin böyük səxavəti kimi qiymətləndirmişdir. Şair Heydər Əliyevin respublikaya birinci katib gələndən sonra sənətkarlara göstərdiyi xeyirxahlığı, etdiyi tövsiyələri xüsusilə xatırlatmışdır.

Siyasi baxışlara görə heç bir azərbaycanlının ləkələnməsinə imkan vermədiyini yada salan şair: "Möhtərəm Heydər Əliyev DTK sədri olanadək hələ bu vəzifədə bir nəfər də olsun azərbaycanlı çalışmamışdı. Bu həmin idarə idi ki, 30-cu illərdə çox-çox insanı haqsız yerə ya sürgünə göndərir, ya da güllələyirdi. Ancaq Heydər Əliyevin millətini və vətənini sevən vicdanı siyasi görüşlərinə görə bir nəfər belə azərbaycanlının həbs olunub ləkələnməsinə imkan vermədi... Mən daim dövlət başçımızın qayğısını öz üzərimdə görmüşəm.

[1] Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001, s. 260

O, SSRİ-nin rəhbərlərindən biri olarkən ağır xəstəlik keçirirdim... Müdrik siyasətçi mənim müalicəmlə xüsusi maraqlanırdı. Hətta, Moskvada cərrahiyyə əməliyyatından qabaq şəxsən zəng vurub mənə ürək-dirək vermiş, "Qorxma, dünyanın ən yaxşı həkimini gətirtmişəm," – demişdir. Bu onun borcu deyildi: sadəcə, ürəyi xalqına məhəbbətlə dolu idi".[1]Fikrət Qoca Heydər Əliyevə 2 şeir həsr etmiş, Heydər Əliyev ona əməkdar incəsənət xadimi, xalq şairi fəxri adları, "Şöhrət" ordeni, fərdi təqaüd vermişdir.

Xalq şairi Sabir Rüstəmxanlının 50 illik yubileyi keçiriləndə *(23 may 1996, Azərbaycan Dövlət Opera və Balet Teatrı)* Heydər Əliyev onu Şöhrət ordeni ilə təltif etmişdir. Böyük rəhbərin təbrik məktubu oxunmuş, Sabir Rüstəmxanlı ədəbiyyatımıza göstərdiyi qayğıya görə ona minnətdarlığını bildirmişdir.

Xalq şairi, Milli Məclisin üzvü Sabir Rüstəmxanlı görüşə görə Ümummilli liderə minnətdarlığını bildirmiş, söhbətini müstəqil dövlətin müstəqil mənəviyyatı məcrasında qurmuş və demişdir: "Yalnız mənəviyyat sahəsində söhbət qurulanda onda bu görüşün mənası daha aydın görünür. Çünki müstəqil dövlətimiz var, müstəqil dövlətimizin müstəqil ideologiyası var. Amma təəssüf ki, mənəviyyat məsələlərinin tam formalaşması, köhnə totalitar rejimdən, imperiyadan qopub yeni müstəqil dövlətə keçiddə bu sərbəstliyə, müstəqilliyə, bu müstəqilliyin gətirdiyi əziyyətlərə dözmək və bunların bədii ifadəsini ədəbiyyata gətirmək çox çətin məsələdir. Halbuki bu, çox zəruridir. Burada Azərbaycan mənəviyyatı, ədəbiyyatı ətrafında açıq söhbət gedir".[2]

Sabir Rüstəmxanlı bir neçə məsələyə münasibət bildirmiş, Heydər Əliyevin ədəbiyyat və mədəniyyət siyasətinə münasibətini ifadə edərək demişdir: "Mən 1969-cu ildən bəri Azərbaycanda keçirilən bütün yubileyləri – yazıçıların, böyük mədəniyyət xadimlərinin yubileylərini yadıma salıram. Mən repressiya qurbanlarına Sizin verdiyiniz bəraətləri və bu işlərin son nəticəsi, zirvəsi, nida işarəsi kimi Naxçıvanda ucaldılan Hüseyn Cavid məqbərəsini, sülh şəraitində yaşayan heç bir dövlətin edə bilməyəcəyi bir səviyyədə Füzulinin müharibə şəraitində keçirilən 500 illik yubileyini, Səməd Vurğunun yubileyini və son vaxtlar keçirilən digər yubileyləri yadıma

[1] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.238
[2] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.307

salıram. Eyni zamanda bizim mənəvi irsimizə münasibəti, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd olunması haqqında Sizin fərmanınızı, mədəniyyətimizlə bağlı başqa tədbirləri yadıma salıram və fikirləşirəm ki, kaş Siz Azərbaycana müharibə dövründə rəhbərlik etməyəydiniz. Kaş dinc vaxt olaydı və mən təsəvvür edirəm ki, onda mədəniyyətə, ədəbiyyata Sizin nə qədər böyük vaxtınız qalardı və Azərbaycan mənəviyyatı Sizin rəhbərliyinizlə nə qədər böyük uğurlar qazanardı. Çünki doğrudan da, Siz fikrinizin bütün siyasi yönləri ilə yanaşı, əslində həm də böyük mədəniyyət adamısınız".[1]

Sənətkar Heydər Əliyev iradəsinə, əmin-amanlığın bərpa ediləcəyinə ümidini ifadə edərək demişdir ki, "Azərbaycanın siyasi həyatında, belə deyək, Sizin siyasi mübarizənizlə son illər gözümüzün qabağında baş verən irəliləyişlər xalqımızın hazırki münaqişədən çıxmasına real mühit yaradır. Ona görə də hesab edir ki, indi mədəniyyət və mənəviyyat haqqında düşünməyə bir az daha çox vaxtımız qalacaqdır".[2]

Sabir Rüstəmxanlı Heydər Əliyevin xatirinə Moskvaya yolu düşdüyü zaman şahidi olduğu bir faktı xatırlatmışdır: Sosialist Əməyi Qəhrəmanları Süleyman Rəhimov, Mirzə İbrahimov, Rəsul Rza və Süleyman Rüstəmin Yazıçılar İttifaqında, ədəbiyyatçılar evində şəkillərinin divarda qalmasını. Hesab edir ki, bütün bunlar Heydər Əliyevin xidmətidir, onun vaxtında olan bir işdir. Şair o zamanın xalq hərəkatına münasibətini bildirmiş, onu dəyərləndirərək demişdir: "Xalq hərəkatı Azərbaycanın milli yaddaşını oyatdı, xalqın fikrini milli ideallarımıza yönəltdi. Azərbaycanın müstəqilliyinin təməlini qoydu, üçrəngli bayrağımızı qaytardı. Təbii ki, onun içində qüsurlu, başa düşməyən, təcrübəsiz adamlar da var idi. Amma bu, milli yaddaşı qaytaran bir hərəkat idi. O hərəkatda iştirak edənlər arasında Sizi sevməyənlər də, bəyənməyənlər də var idi. Amma işin o gərgin vaxtında Sizi sevən adamlar da var idi".[3]

Sənətkarın Heydər Əliyevə xitabı siyasi xarakterli, psixoloji-mənəvi zəminlidir. Onun Heydər Əliyevin siyasi obrazına verdiyi rənglər özünəməxsusdur, – klassik irsə, keçmişə nihilist münasibətə

---

[1] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.307
[2] Yenə orada, s.307
[3] Yenə orada, s.308

etirazın ifadəsidir. Şair xatırladır ki, 1969-cu ildən üzü bəri Heydər Əliyev haqqında soyuq bir cümlə belə yazmamışdır.

Natiq Ulu öndərin hakimiyyətdə olmadığı illərin faktlarına diqqət çəkmiş, bildirmişdir ki, Heydər Əliyev Moskvada, Naxçıvanda olanda da ona mənəvi cəhətdən dəstək olmuş, o səbəbdən ki, həm də Azərbaycan yazıçısı mənəvi rahatlıq, öz torpağında əmin-amanlıq istəmişdir. Sabir Rüstəmxanlı: "Azərbaycan yazıçılarının böyük əksəriyyəti görür ki, bu siyasət meydanında Sizi əvəz edən adam yoxdur. Onlar bunu görüblər və haqqı müdafiə ediblər. Əslində burada Sizin müdafiənizdən söhbət getmir. Onlar rifahlığı, Azərbaycanın gələcəyini müdafiə ediblər"[1] – deyə qeyd etmişdir.

Sabir Rüstəmxanlı çıxışı zamanı demokratik hərəkatda, müxtəlif partiyalar daxilində Heydər Əliyevi sevən xeyli insanların olduğunu söyləmiş, – bunu Ulu öndər üçün böyük potensial və elektorat hesab etmişdir...

19 dekabr 1998-ci ildə Respublika sarayında xalq şairi və millət vəkili Zəlimxan Yaqubun poeziya gecəsi keçirilmişdir. Şair Heydər Əliyevə müraciətində demişdir: "Möhtərəm prezident! İnandığımız uca Allah, güvəndiyimiz qadir Allah Sizi ömrünüzün zirvəsinə çox böyük uğur və ləyaqətlə qovuşdurdu. Böyük Yaradanın Sizə bəxş elədiyi bu ömür bir evə, bir ocağa, bir nəslə qapanıb qalmadı. Damladan dəryaya, zərrədən küllə, qığılcımdan alova çevrildi – Azərbaycana, Türk dünyasına, qoca Şərqə, müsəlman dünyasına, insan aləminə şərəf və baş ucalığı gətirdi. Bütün dünyanın dövlətləri və millətləri, xalqları və dövlət başçıları, adı öz sağlığında tarixə çevrilmiş görkəmli elm və sənət adamları Sizi öz yanında görməkdən qürur duydu, şərəf hissi keçirdi".[2]

Sənətkar Heydər Əliyevin elit şəxsiyyət keyfiyyətlərinin əsasında böyük zəhmətin dayandığını xüsusi qiymətləndirmişdir: "Qazandığınız bu əfsanəvi şöhrət pillələri Sizə hazır şəkildə göydən hədiyyə kimi gəlmədi, yuxusuz gecələrin, sonsuz arzuların, böyük ideالların, qeyri-adi dərəcədə rəngarəng və çoxçalarlı qabiliyyətin, yaddaş tariximizdə möcüzə səviyyəsinə yüksələn yaddaşın, siyasi təfəkkür zənginliyinin bəhrəsi oldu".[3]

---

[1] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.308

[2] Zəlimxan Yaqub. Əsərləri. 13 cilddə. XII cild, Bakı, Şərq-Qərb, 2013, s.5

[3] Yenə orada

Zəlimxan Yaqub Ulu öndərin hakimiyyətini Sözün hakimiyyəti kimi qəbul etmişdir. Hesab etmişdir ki, “Dədə Qorqudun və Nəsiminin, Füzulinin və Aşıq Ələsgərin, Səməd Vurğunun və Osman Sarıvəllinin, Rəsul Rzanın və Şəhriyarın, dünya azərbaycanlılarının milli bayramı səviyyəsində qeyd olunan yubileyləri ictimai fikir tariximizdə əbədi qalacaq, tarixin yaddaşından heç vaxt silinməyəcək”.[1]

Şair dövlət və xalqının özünün qürur mənbəyi bildiyi Heydər Əliyevi “möcüzə, tarixi hadisə, qətiyyətin təntənəsi, Allahın vergisi, xalqın xoşbəxtliyi, tarixin şöhrəti, zamanın əfsanəsi” kimi qiymətləndirmişdir:

*Səsini dinlədi bu yurd, bu ölkə,*
*Addımın şax oldu, yerişin aydın.*
*Məmləkət özünə gəlməzdi bəlkə,*
*Yenidən kürsüyə qayıtmasaydın.*

Zəlimxan Yaqub dahi rəhbərin siyasi səbatını müqayisə əsasında daha yüksək dəyərləndirmişdir: “XX əsrin ikinci yarısında gürcü xalqı beynəlxalq miqyaslı siyasətçi, gürcü xalqını bəlalardan qurtaran, yanğınlardan, dağıntılardan xilas edən Şevardnadzeni millətə bəxş elədisə, Azərbaycan xalqı dünyanın hər yerindən görünən, özü də çox aydın görünən, səsi çox gur eşidilən, ölüm-qalım məsələsi ilə həll olunan Azərbaycan dövlətinin və xalqının xilaskarı Heydər Əlirza oğlunu millətə bəxş elədi”.[2]

Şair *“Respublikanın təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda çıxış”ında* Səməd Vurğun, Bəxtiyar Bahabzadə, Hüseyn Arif, Xəlil Rza, Məmməd Araz kimi sənətkarlardan, dini kitablardan, tarixi şəxsiyyətlərdən qiymətli nümunələr gətirmiş, Azərbaycan dövlətinin keçdiyi çətin yolları xatırlatmış, Ulu öndərin bu sahədəki xidmətlərinə işıq tutmuş, onun Cahanşümul əməllərini diqqətə çəkərək dahi Azərbaycan oğlunun ölməzliyini ürək dolu sözlərlə ifadə etmişdir. Sənətkar birlik və həmrəyliyi dərdlərimizin əlacı bilmiş və demişdir: “...Həyat amansızdır, cəmiyyət qəddardır, getdikcə dünya

---

[1] Zəlimxan Yaqub. Əsərləri. 13 cilddə. XII cild, Bakı, Şərq-Qərb, 2013, s.6

[2] Yenə orada, s.16

pisləşir, elmi-texniki tərəqqi cəmiyyətin faciələrini hər gün çoxaldır. Belə bir vaxtda ayıq olmaq, sərrast fikirləşmək, dürüst addımlamaq, şax yerimək, təmiz yaşamaq, ürəyi vətən məhəbbəti ilə doldurmaq lazımdır ki, bu çətinliklərə qalib gələk. Zarafat olmaz dövlətlə, zarafat olmaz dövlətçiliklə, zarafat olmaz müstəqilliklə. Çünki düşmənlərimiz, bizi istəməyənlər çoxdur. Onların qarşısına ən güclü şəxsiyyətlə, ən güclü ordu ilə, ən yüksək səviyyədə birləşmiş millətlə çıxmaq olar".[1]

Ulu öndər Heydər Əliyevin başçılığı ilə Qırğızıstana – "Manas" dastanının minilliyinə və türkdilli dövlətlərin zirvə toplantısına gedən nümayəndə heyərinin tərkibində olmuş Zəlimxan Yaqub yazır: "Türkdilli dövlətlərin başçıları Süleyman Dəmirəli, Heydər Əliyevi, Nursultan Nazarbayevi, Səfərmurat Niyazovu, İslam Kərimovu, Əskər Akayevi öz işığında birləşdirən xalq qəhrəmanı Manas elə bil ki, min ildən sonra yenidən dirilib öz nəvə-nəticələrinin görüşünə gəlmişdi. Bu görüş hər bir türkü, hər bir qırğızı o günü Manasa döndərmişdi".[2]

Zəlimxan Yaqub "*Yeni Azərbaycan naminə*" *ictimai hərəkatın təsis konfransındakı çıxış"*ında Heydər Əliyev şəxsiyyətinin əzəmətini və tarixi əhəmiyyətini bir daha ifadə etmişdir: "Heydər Əlirza oğlu Azərbaycan xalqının əvəzolunmaz bir şəxsiyyətidir. Təkcə bu gün yox, dünən yox, sabah yox, bütün əsrlərə, XX əsrə boylananda Heydər Əliyev şəxsiyyətinə baxıb Azərbaycan tarixini yazacaq, yaradacaqlar".[3]

Müəllif "*Ürək nəğmələri, könül sözləri*" məqaləsində Heydər Əliyevə məhəbbətindən, ona həsr etdiyi əsərlərindən söz açmışdır: "Allahın mənə verdiyi ömür davam elədikcə bu əsər də davam edəcək. Çünki Heydər Əliyevin ömründə həmişə davam edən bir tükənməzlik var. Ona görə də düşündükcə düşündüm, yazdıqca yazdım. Axı mən vicdanım, Allahım və Heydər Əliyevin ruhu qarşısında söz vermişdim:

*Nə qədər ki, canda ruh var,*
*Ruhda can var, yazacağam!*

---

[1] Zəlimxan Yaqub. Qırğızıstanda yaşadığım duyğular. Əsərləri. 13 cilddə. XII cild, Bakı, Şərq-Qərb, 2013, s.24
[2] Yenə orada, s.34
[3] Yenə orada, s.76

*Nə qədər ki, səni sevən,*
*Səni duyan Zəlimxan var,*
*Yazacağam!"*

Sənətkar böyük rəhbərin usanmaz fəaliyyətindən, əzəmətli şəxsiyyətindən, "onun torpaq kimi əkilən, toxum kimi səpilən, çiçək kimi öpülən mübarək ömründən"[1] yazmışdır.

Zəlimxan Yaqub Heydər Əliyevin ədəbiyyat və mədəniyyətimizə sərf etdiyi ömür anlarını dilə, sözə gətirmiş, "Dədə Qorquda olan sevgisindən, Füzuliyə olan heyrətindən, Ələsgərə olan məhəbbətindən, Şəhriyara olan həsrət və rəğbətindən, Mirzə Cəlilə olan sədaqətindən, Vurğuna olan hörmətindən yazmışdır. Qarabağda Vaqifin məqbərəsinə, Naxçıvanda Cavidin türbəsinə dönən, Bakıda Nəsiminin, Nərimanın, Cabbarlının heykəllərinə çevrilən, heykəlləşən ömründən-günündən yazmışdır:

*Göylər üçün yaranıb üfüqlərin şahini,*
*Analardı yetirən yenilməzi, dahini.*
*Özünə dost elədi Tanrını, İlahini.*
*Tanrılara qovuşan, fələklərə yetəndi.*
*Nə qədər zirvələr var, hamısını ötəndi*
*Ömrün Heydər zirvəsi!*

Zəlimxan Yaqub Ulu öndərin torpaq, bayraq, ocaq, Atabəy Məhəmməd, Əcəmi Naxçıvani, Şah İsmayıl Xətai, Üzeyir bəy sevgisindən, "Mən Azərbaycanam" deyən millət və dövlət sevgisindən yazmışdır.

Şair Heydər Əliyevi addım-addım izləmiş, sözünə söz, nəfəsinə-nəfəs verib gördüyü bütün işləri sözə çevirmişdir: "Sevdiyim, seçdiyim, əzizlədiyim, yüksək qiymət və dəyər verdiyim Xəlil Rza şeirinin vulkanından, Məmməd Araz şeirinin tufanından, Zəlimxan şeirinin meydanından, Onu yaradan Allahın qüdrətindən, Onu yetirən Tanrının səxavətindən, onu yaşadan torpağın bərəkətindən, Onu ucaldan xalqın ucalığından, Allahın ona verdiyi ömrün əbədiyyətindən"[2] yazmışdır.

---

[1] Zəlimxan Yaqub. Əsərləri. 13 cilddə. XII cild, Bakı, Şərq-Qərb, 2013, s.80
[2] Yenə orada, s.81

Zəlimxan Yaqub zəmanəsi, vicdanı, gələcəyi qarşısında hesabat vermək istəmişdir: "Sabah zaman məndən soruşanda ki dövründə, zamanında yaşadığın, tükənməz qayğılarını gördüyün, dəfələrlə əllərini sıxan, dönə-dönə əllərini sıxdığın, səni Vətənin uca mükafatlarıyla şərəfləndirən, tarixi səfərlərdə səni yoluna yoldaş eləyən, məclislər başında şairə yol göstərən Ulu öndər, böyük insan Heydər Əliyevlə bağlı nə yazmısan, nə yaratmısan? – onda mənim zamana cavabım bundan ibarət olacaq: "Böyük ömrün dastanı" və "Böyük ömrün davamı" adlı iki əsəri birləşdirən "Əbədiyyət dastanı"nı, əbədiyyətə doğru yol gedən könül nəğmələrini yaratmışam!"[1]

*Doğum günü var olsa da,*
*Ölüm günü yoxdu, yox,*
*Ölümlərə qılınc çəkən*
*Bir insanı yazmışam.*
*Dastan mənə dayaq olub,*
*Mən dastanı yazmışam.*
*Onu görüb, onu duyub,*
*Onu sevib həyatda*
*Zəlimxanın içindəki*
*Zəlimxanı yazmışam.*

Sənətkar Heydər Əliyevə həsr etdiyi dastanın yazılma səbəblərini nağıllarda olduğu kimi buta almaqla, yuxu görməklə, öyüd-nəsihət, tapşırıq almaqla nurani-pirani, aqil bir qocadan almaqla və bu vəsiyyətə əməl etməklə göstərmiş:

*Gör sənə nə qədər güc verib Allah,*
*Sən də öz gücünü bu əsərə ver.*
*Onun havasına, onun eşqinə,*
*Səsini ən odlu nəğmələrə ver.*
*Sənə bu kitabı bir göndərən var,*
*Dincəlmə, yuxulama, uyuma oğul,*
*Qələmdən od yağsın, varaqdan atəş,*
*Soyuma, soyuma, soyuma, oğul, – demişdir.*

[1] Zəlimxan Yaqub. Əsərləri. 13 cilddə. XII cild, Bakı, Şərq-Qərb, 2013, s.82

Zəlimxan Yaqub dövlət, millət və lider birliyini əsas götürərək Heydər Əliyev və İlham Əliyevlərin ucalara qaldırdıqları bayrağı həm real, həm də rəmzi mənalarda təcəssüm etdirmişdir: "O bayraq müstəqil Azərbaycanın, bu müstəqilliyi qorumaq üçün bütün varlığını dövlətə, dövlətçiliyə, xalqa, millətə həsr edən, xalqın azadlığını böyük çaxnaşmalardan sağ-salamat çıxardan, özündən sonra gələn nəsillərə müqəddəs əmanət kimi təqdim edən Ulu öndərin, Ümummilli liderin, böyük xilaskarın, ilhamlı qurucunun və onun ləyaqətli varisi möhtərəm prezidentimiz İlham Heydər oğlu Əliyev cənablarının göylərin yeddinci qatına qaldırdığı Azərbaycan bayrağıdır!"[1]

Zəlimxan Yaqub "*Xalq şairi Bəxtiyar Vahabzadənin dəfn mərasimindəki vida sözü*"ndə demişdir: "Bütün şüurlu həyatını, varlığını, poeziyasını, yaradıcılğını Dövlətə, Millətə, xalqa, milli şüura, milli təfəkkürə, türk ruhunun dünyada bərqərar olmasına, dilimizin saflığına həsr edən, qırmızı bir imperiya ilə döyüşmək cəsarətinə sahib olan Bəxtiyar Vahabzadə bütün ömrü boyu Azərbaycanın istiqlalı və müstəqilliyi uğrunda mübarizə apardı. Ulu öndərimiz, Ümummilli liderimiz Heydər Əliyevin: "Mən bir daha deyirəm ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə Bəxtiyar Vahabzadənin xidməti böyükdür" fikri bu dünya durduqca öz qüvvəsində "qalacaq, tarixi əhəmiyyətini itirməyəcək".[2]

"*Türk düşməninə türk qapısı açmaq olmaz*" məqaləsində Zəlimxan Yaqub diqqəti Heydər Əliyevin Azərbaycan və Türkiyə birliyinə doğru yönəltmiş və vacib bir siyasi faktoru vurğulamışdır: "Ulu öndər Heydər Əliyev Azərbaycanla Türkiyəni "bir millətin iki dövləti" adlandırmaqla böyük Atatürkün "Azərbaycanın sevinci Türkiyənin sevinci, kədəri isə kədərimizdir" çağırışını XXI əsrin məzmunu və siyasəti ilə tamamladı. Ümummilli lider Heydər Əliyev az qala dünyanın yarısı ilə mücadiləyə girib yeni Şərq-Qərb neft kəmərinin Türkiyədən keçməsini təmin etdi. Bu günlərdə Türkiyə və Azərbaycan prezidentləri Abdullah Güllə İlham Əliyevin görüşündə ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyəyə

[1] Zəlimxan Yaqub. Əsərləri. 13 cilddə. XII cild, Bakı, Şərq-Qərb, 2013, s.84
[2] Yenə orada, s.85

qalxması bəyan edildi. Belə olan halda düşmən təxribatına uyub quldur erməni dövlətinə qapı açmaq olarmı”.[1]

Zəlimxan Yaqubun əhəmiyyətli bir məqaləsi də var: “*Dərbənddə deyirlər, qardaş, Sizdən çörək istəmirik, pul istəmirik*”. Bu məqalədə şairin bütün türk məmləkətlərinə səfərləri ifadəsini tapmışdır. Xalq şairinin türk-turan dünyasını gəzməyinin səbəbi Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında “Salnamə” kinostudiyasının sənədli film çəkməsidir. Çəkiliş Zəlimxan Yaqubun 60 illik yubileyi münasibətilə hazırlanmışdır. Filmin ssenari müəllifləri xalq yazıçısı Mövlud Süleymanlı və professor Aydın Dadaşov, rejissoru isə Tofiq Məmmədovdur. Veriliş Zəlimxan Yaqub yaradıcılığının qaynağını, fitrətini təşkil edən türk-turan dünyasının Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Özbəkistan, Gürcüstan, Türkiyə, Rusiya, İran, Təbriz, Bakı – bütün türk dünyasını əhatə etmiş, şair Dərbənddə dağın döşündəki Dərbənd qalasını, Divan ədəbiyyatının görkəmli nümayəndəsi Qumri Dərbəndinin türbəsini, Türküstanda Turan dünyasının böyük övliyası, 99 minə mürşidlik etmiş Əhməd Yəsəvinin məzarını, Səmərqənddə Əmir Teymurun məqbərəsini, Qırğızıstanda Çu vilayətinə sürgün olunanların nəslini (F.Xoyski, Ə.Rəfibəyli, Ə.Şıxlınski və başqalarının), Çingiz Aytmatovun məzarını ziyarət etmişdir. Şair yazır: “Təsəvvür edin ki, mən Zəlimxan Yaqub boranlı Yedigey – Çingiz Aytmatovun – Qazanqapın məzarı başında həmin duaları oxudum. Böyük ustad bizi kökümüzə, türk dünyasına, türk mifologiyasına bağlayan dünyanın böyük yazıçısı, sənin qarşında bir türk oğlu türk baş əyir”.[2]

Zəlimxan Yaqub Türkiyədə, Bayburdda “Dədə Qorqud” tədbirində çıxış etmiş, Dədə Qorqudun 1300 illiyi münasibətilə Ulu öndərin Sərəncamını xatırlatmış, şair “Azərbaycanın yaddaşını, tarixini, sazını, sözünü, oğuzunu, qopuzunu, toppuzunu özündə birləşdirib hara gedirdi aparırdı və səpələyirdi toxum kimi”.[3]

Sənətkar Borçalıda *“Kəpənəkçi günləri”* keçirmiş, Şəkidə Molla Cumanın məzarını, Bəxtiyar Vahabzadənin xatirə gününü yad etmişdir: “Bu gün Azərbaycan ziyalıları Türkiyəyə, Mosula, Kərkükə, Borçalıya, Dərbəndə, Təbrizə çox getməlidir. Və Türküstana daha çox getməlidirlər. Adını çəkdiyim ərazilərin hamısı Azərbaycana

---

[1] Zəlimxan Yaqub. Əsərləri. 13 cilddə. XII cild, Bakı, Şərq-Qərb, 2013, s.102
[2] Yenə orada, s.199
[3] Yenə orada, s.200

birbaşa aiddir... Kərkük də, Mosul da, Borçalı da, Dərbənd də, Qazax da, Şəki də, Şirvan da – hamısı eyni nəfəs, eyni ruhdu... Azərbaycan ziyalısının vəzifəsi ayrı düşmüş bədənlə ruhu birləşdirmək uğrunda mübarizə aparmaqdır”.[1]

Heydər Əliyevə türk qövmlərinin bütün görkəmli sənətkarları hüsn-rəğbət bəsləmişlər. Hər şeydən əvvəl Ümummilli liderin özü onlara böyük dəyər vermişdir. 1999-cu il martın 4-də Prezident sarayında Heydər Əliyevin Qazaxıstanın İtaliya və Yunanıstandakı səfiri, Qazax yazıçısı Oljas Süleymenovla görüşü olmuş, hər ikisi keçmiş vaxtları xatırlamışdır. Heydər Əliyev Oljas Süleymenovun yazıçı və siyasi xadim kimi Azərbaycanda böyük nüfuzunu yada salaraq demişdir: “Azərbaycanın 1990-cı ilin yanvarında sovet qoşunları tərəfindən işğalı zamanı Sizin fəaliyyətinizi Azərbaycanda yaxşı xatırlayır və yüksək qiymətləndirirlər, sovet qoşunlarının Bakıya yeridilməsinin ikinci günü Sizin buraya gəlişinizi xatırlayırlar. Siz buraya gəldiniz, çıxış edib baş verənləri pislədiniz. Bunu Azərbaycanda çox yaxşı xatırlayırlar”.[2]

Heydər Əliyev dünya şöhrətli yazıçı və ictimai xadimə”tarixi köklərini, tarixi keçmişini, milli özgürlüyünü və milli ləyaqətini daha dərindən dərk etmiş bütün xalqlarımızın görkəmli nümayəndələrindən biri kimi” qiymət vermişdir.

Oljas Süleymenov Ümummilli liderə bildirmişdir ki, Azərbaycana gözlənilmədən gəlmiş, Almatıdan İstanbul vasitəsilə Romaya gedərkən 2 saat vaxt imkanından istifadə etmək istəmişdir. “Heydər Əliyeviç, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam, yanaşıram və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan üçün, yer üzündəki bütün türk xalqları üçün qədr-qiymətinizi bilirəm. Zənnimcə, əgər onda 1990-cı ildə Siz burada olsaydınız, həmin o “Qara yanvar” olmazdı”.[3]

Görkəmli qırğız yazıçısına o zaman “Moskva” mehmanxanasında qızdırmalı halda yatdığı vaxt gecə saat 3-də dostlarından zəng gəlmiş, o da Qanlı Yanvar hadisəsindən xəbər tutmuş, xalqımızın hüznünə, kədərinə qoşulmuş və başsağlığı vermişdir.

---

[1] Zəlimxan Yaqub. Əsərləri. 13 cilddə. XII cild, Bakı, Şərq-Qərb, 2013, s.205
[2] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.286
[3] Yenə orada, s.287

Heydər Əliyevlə görüşü zamanı Oljas Süleymenov böyük rəhbərə bunu da demişdir ki, "bu torpağa, onun xalqına, şəxsən sizə, Azərbaycanın görkəmli oğullarına öz məhəbbətimi bir daha ifadə etmək və doğma saydığım bu torpağa xoşbəxtlik, tarixin bizi qarşılaşdırdığı belə dəhşətli vəziyyətlərdən tezliklə çıxmağı arzulamaq istəyirəm. Bu xalqın, onun rəhbərliyinin nikbinliyi ümid verir ki, hər şey qaydasına düşəcək, digər xalqların köməyi, arzu və ümidləri ilə burada da günəş bərq vuracaqdır. Azərbaycan buna layiqdir. Sizinlə görüşərkən mən bax bunları demək istəyirdim".[1]

Ulu öndər məşhur qazax yazıçısının xalqımıza göstərdiyi diqqəti yüksək qiymətləndirmiş, ona bəzi siyasi olayları xatırlatmışdır: M.S.Qorbaçovun şovinist siyasətini, 1986-cı ilin dekabr hadisəsini – Kolbinin ilk siyasi təcavüz olaraq Qazaxıstana başçı göndərildiyini, bu milli siyasətin ciddi fikir ayrılıqlarını, baş katibin türk mənşəli müsəlman xalqlarına mənfi mövqeyini, Özbəkistanda Şərəf Rəşidova olan kampaniyanı, günahsız cəzaları və Heydər Əliyevin bütün bunlara olan etirazlarını. Ulu öndər 1986-cı ilin dekabr hadisələrini, 1987-ci ilin istefasının səbəblərini, M.S.Qorbaçovun siyasi məkrlərinin mahiyyətini, şovinistliyini, 1988-ci ilin Qarabağ hadisələrini, gürcü-abxaz, gürcü-osetin, Çeçenistan, Moldova münaqişələrini yada salmış, buna rəğmən Oljas Süleymenov demişdir: "Bütün bunlar siyasi qeyri-peşəkarlığın nəticəsidir, peşəkarlar meydandan çəkilmiş və boşluğu səriştəsiz adamlar, qeyri-peşəkarlar doldurmuşdular. Siyasi nadanlıq milyonlarla insanın faciəsinə gətirib çıxarır. Buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz, ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsil mənasında azad və məğrur insanlar olsunlar. Heydər Əliyeviç, sizin kimi rəhbərlərin xidməti də məhz bundan ibarətdir. Sizə möhkəm can sağlığı, dünən tribunadan çoxminlik salonu lərzəyə gətirdiyiniz kimi güclü enerji arzulayıram. Mən gənclərin Sizi necə alqışladığını gördüm. Təcrübə ilə gənclik hərarətinin bu vəhdəti, bu birliyi çox şey

[1] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.287

deyir. Sizə can sağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzulayıram..."[1]

Ulu öndərin ədəbiyyatımızın yaşlı nəslinin nümayəndələri ilə görüşündən maraqlı detalları da xatırlatmaq yetərlidir. 28 oktyabr 1997-ci ildə Heydər Əliyev respublika yazıçılarının X qurultayı ərəfəsində Prezident sarayında bir qrup yaşlı yazıçı və şairi qəbul etmiş, həmin görüş zamanı Mirvarid Dilbazi, Elçin, Qabil, Sirus Təbrizli, Sabir Rüstəmxanlı və başqaları çıxış etmiş, Heydər Əliyevə məhəbbətini ifadə etmişlər.

Xalq şairi Qabil dahi rəhbərin Azərbaycan sənətkarlarını qəbul etməsi fonunda demişdir ki, Siz həmişə yazıçıları qaldırmısınız. Sizə təşəkkür edir, "Sizin qayğınızı, xidmətlərinizi Bəxtiyar müəllimə, Nəbi müəllimə, bəndeyi-həqirə, Balaş müəllimə, Məmməd Araza göstərdiyiniz qayğıları sadalamıram, – bunlar hamısı öz yerində. Sizə dönə-dönə təşəkkür edirik".[2]

Yazıçılar Birliyinin nəşriyyat açması, maddi bazasının möhkəmləndirilməsi, onun poliklinikası və Yaradıcılıq evinin müasir vəziyyətindən danışmış Qabil bunları demişdir: "71 yaşım var. Üzr istəyirəm, təvazökarlıqdan uzaq olmasın, mənim "Nəsimi" kitabımı Dövlət mükafatına təqdim etmiş, gətirib Sizin qarşınıza qoymuşdular. Demişdiniz ki, "bu, bütöv bir kitabxanadır, bunu yazmağın özü böyük bir şeydir." Mənim kitabımı və "Nəsimi" filmini, – çox gözəl filmdir, – deyə müzakirəyə qoymuşdular... Ona görə yenə demək istəyirəm ki, yazıçıya qiymət Sizin başınızın ucalığıdır, savab işdir. Yazıçı xalqın danışan dilidir. Biz həmişə Sizə, Sizin fəaliyyətinizə xeyir-duaçıyıq. Hamımız televizora baxırıq. Görürük ki, bir dəqiqə vaxtınız yoxdur, – o gedir, bu gəlir, onu qarşıla, bunu yola sal. Təyyarədən düş, təyyarəyə min. Siz iki daşın arasında bu gün bizi qəbul etdiniz və açıq söhbətə cəlb edirsiniz. Ona görə də Sizə dərin təşəkkürümü bildirirəm. Sağ olun".[3]

Həmin görüşdə çıxış etmiş xalq şairi Mirvarid Dilbazi çox ciddi mətləblərə toxunmuş, Heydər Əliyevin hər zaman yeri göründüyünü yada salmışdır. Şairə mürəkkəb ictimai-siyasi şəraitdə Heydər Əliyevin hakimiyyətini arzuladığını bildirmiş və demişdir: "Yadımdadır, mən Pirşağıda idim. Səhər tezdən dəniz qırağında dəhşətli bir

---

[1] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.288
[2] Yenə orada, s.288
[3] Yenə orada, s.301

patlayış oldu. Maşını yandırdılar, içindəki adamların hamısını öldürdülər. Sonra gedib həmin adamın evini partlatdılar. Onda xalqın səsi mənim yadımdadır. Onlar əllərini göyə tutub dedilər, ya Rəbbim, bizə sözü kəsərli, sözü ötən bir başçı göndər. Heydər Əliyevi bizə başçı göndər. Sizi o vaxt respublikaya göndərsəydilər, Azərbaycanın başına heç bir fəlakət gəlməzdi. Çox pis oldu ki, o zaman Sizi işdən çıxardılar. Sizi işdən çıxardan adamlar xalqın övladları deyildilər. Onlar bizim xalqımızı duya bilməzdilər. Sizi o vaxt işdən çıxartmasaydılar, heç Qarabağ faciəsi də olmayacaqdı”.[1]

Mirvarid xanım bunu da xatırlatmışdır: “Camaat sizin mənə orden verdiyinizi eşidəndən, göndərdiyiniz təbrik məktubunu oxuyandan bəri tez-tez mənə müraciət edir ki, bizim bu dərdimizi Heydər Əliyevə de. Cavab verirəm ki, ay balam, Heydər Əliyev bütün ömrünü Sizin dərdinizin həll olunmasına həsr edib. Bizim dərdimiz nədir? Millətimiz azad olsun, torpaqlarımız erməni əsarətindən xilas edilsin, əsirlərimiz qurtarsın, Vətənə qayıtsın. Heydər Əliyev bütün həyatını, ömrünü bunların uğrunda, dilimiz, dinimiz, torpağımız, bayrağımız uğrunda mübarizəyə həsr edibdir. Xırda-xırda məsələlərdən ötrü gedib onun vaxtını almağa dəyməz”.[2]

Görkəmli şairə Ümummilli liderin qətiyyətli rəhbər mövqeyini, ona şeirlər həsr etdiyini, təşəkkür məktubu yazdığını, Vaqifin qəbri üstündə gözəl məqbərə tikdirdiyini xatırlatmış, yeganə arzusu bu olmuşdur ki, ulu millətini bu fəlakətdən xilas etsin. Mirvarid xanım Natəvanın qəbri üstündə gözəl bir abidə ucaltdığını, Səməd Vurğuna Qazaxda muzey açdığını, şeirlərini dərsliklərə saldırdığını, Süleyman Rüstəmə yeni həyat verdiyini Ulu öndərin diqqətinə çatdırmış, ona təşəkkürlər etmişdir.

Xalq şairi, yazıçı və dramaturq Vaqif Səmədoğlunun *“Allaha şükürlər edək ki, bizim Heydər Əliyevimiz olub”* məqaləsində böyük öndərin kimliyi, şəxsiyyət ucalığı obrazlaşdırılmışdır. Vaqif Səmədoğlu Heydər Əliyevin 1993-cü ildəki lider varlığının zərurətindən danışmış, onu ilk əvvəl general kimi təqdim etmişdir: “General kimdir? Qətiyyətli, əmr vermək və adamları arxasınca aparmaq bacarığına malik şəxs...”[3]

---

[1] Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2001, s.304
[2] Yenə orada, s.305
[3] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.215

Müəllif məqalədə Heydər Əliyevin 1969-cu ildən 1987-ci ilədək olan dövründən geniş bəhs etmiş, bu güclü şəxsiyyət Moskvaya çağrılanda (1982) Elçibəylə Vaqif Səmədoğlu şərəfinə badə qaldırmış, Əbülfəz Elçibəy demişdir: "Hamımız bu kişinin şəklini kabinetimizdə divara vurmalıyıq. O, bizi ermənilərin, gürcülərin, rusların və başqalarının kölgəsindən çıxarıb". Şair yazmışdır: "Heydər Əliyev rəhbərliyə gəldikdən sonra respublikanı kölgədən çıxartdı. İlk növbədə qonşularımızın – Ermənistan və Gürcüstanın kölgəsindən. Əliyev hətta Şevarnadzedən də əvvəl Siyasi Büroya namizəd və üzv seçildi. Amma ermənilərdən bir nəfər də olsun, bu şərəfə layiq görülmədi".[1]

Böyük rəhbər Azərbaycanda dissident hərəkatının yaranmasına imkan verməmişdir. Vaqif Səmədoğlu: "Heydər Əliyev Azərbaycan KP MK-ya rəhbərlik edəndə bizim ədəbi jurnallarda elə əsərlər dərc edilirdi, nəşriyyatlarda elə ədəbi kitablar buraxılırdı ki, hətta avropalılığı ilə lovğalanıb sinəsinə döyən Baltikyanı respublikalar da həmin şeir və povestləri oxuyanda əsərlərin Sovet Bakısında hazırlandığına inanmırdılar..."[2]

Vaqif Səmədoğlu Emin Sabitoğlu ilə birgə yazdığı "Uzaq yaşıl ada" mahnı-şeirini xatırlatmış, buradakı "yaşıl" sözünə münasibət ifadə etmişdir: "Biri bunu islam həsrəti ilə bağlayır, o biri Məhəmmədəmin Rəsulzadə hökumətinin bayrağının rəmzi hesab edirdi. Digəri isə Müsavat və Demokratik Respublika həsrətində olduğunu deyirdi". Şair davam etmişdir: "Mahnı yarananadək ensiklopediyada işləyirdim. Livan və Böyük Britaniya ensiklopediyalarında Azərbaycan dövlətinin indiki üçrəngli bayrağını dəfələrlə görmüşdüm. Bilirdim ki, bayraqda yaşıl rəng var, amma şeir yazanda qətiyyən bu haqda düşünməmişdim".[3] Mahnı 2 il efir üzü görməmişdir. Heydər Əliyev mahnıya qulaq asmış və demişdir: "Lirik şeirdir, məhəbbət mahnısıdır. Mən mahnının sözlərinə və musiqisinə qulaq asmışam. Nə yapışmısınız bu cavan uşaqların yaxasından? Mahnını efirə buraxın".[4]

Vaqif Səmədoğlu yazır ki, Ulu öndər 1993-cü ildə mürəkkəb zamanda, separatçı hərəkatlar, daxili intriqalar şəraitində ziyalı ailə-

---

[1] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.216
[2] Yenə orada, s.217
[3] Yenə orada, s.217
[4] Yenə orada, s.217

lərinə üz tutmuş, insanların qayğısına qalmışdır. Şair: “Yadımdadır, avqust ayı idi, hələ prezident seçilməmişdi, anama zəng edib dedi: – Xavər xanım, dolanışığınız necədir, başım qarışıqdır, başım açılan kimi hökmən sizinlə görüşəcəyəm”… “Sonra məlum oldu. Bu, H.Əliyevin insana rəhbər – şəxsiyyət qayğısı idi ki, təkcə bizə yox, bütün tanınmışların ailələrinə zəng edib onların güzəranı ilə maraqlanıb”.[1]

Sənətkar Heydər Əliyev yaddaşının xeyirxahlıqla bağlı olan özəlliklərini də xatırlatmışdır: “Həqiqətən prezident seçildikdən sonra bir parça çörəyə möhtac qalan ziyalılarımıza – mədəniyyət və incəsənət xadimlərinin ailələrinə kömək etdi. Həmçinin kənd təsərrüfatı, ağır sənaye və iqtisadiyyat sahəsində gecə-gündüz əlləşib əlləri qabar olmuş, Sosialist Əməyi Qəhrəmanı adını almış, ancaq acından ölən insanları da yaddan çıxarmırdı. Heydər Əliyev hər kəsi bir-bir yadında saxlamışdı. Çox güclü və iti hafizə sahibiydi. Onu qəbul etməyən adamlar belə etiraf edirdilər ki, Heydər Əliyev bizə lazımdır”.[2]

Yazı müəllifi Heydər Əliyevin “avtoritar” adlandırılmasına etiraz etmişdir, guya o, heç kimi dinləməmişdir. İfadə etmişdir ki, “şəxsən mənə imkan verirdi ki, 10-15 dəqiqə danışım, adi suallar belə vermirdi. Necə diqqətlə qulaq asırdı! İndi avtoritar deyənə sual vermək lazımdır: bunu özün yoxlamısan?”[3] “İnsan haqları, ədalətsiz hökmlərlə bağlı birbaşa Heydər Əliyevə müraciət etmişəm. Çox diqqətlə qulaq asır, suallar verir, özünü və məni əmin edəndən sonra deyirdi: – Hə, burada əyintilər olub, məhkəmənin qərarı ədalətsizlikdir... Az keçməmiş, həmin adamları əfv edib həbsxanadan buraxdırırdı. Xəbərim olmadan məni əfv komissiyasına üzv etdi. Qısası Azərbaycana çox lazımlı adam idi...”[4]

Məqalə müəllifi faktlarla, inandırıcı, səbatlı danışmış, Heydər Əliyevin Avropa Şurasındakı çıxışını xatırlatmışdır. Sirayətedicidir: “Avropa Şurasında bayraq qaldırılan gün çıxışı oldu, sonra Robert Köçaryanla birlikdə mətbuat konfransı keçirdi. Həm onun üçün, həm də bizim üçün çox ağır gün idi. Mətbuat konfransından çıxanda

---

[1] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.218
[2] Yenə orada, s.218
[3] Yenə orada, s.217-218
[4] Yenə orada, s.217

məni çağırdı, son dərəcə də yorğun, bədbin vəziyyətdə əlini çiynimə qoyub dedi: – İndi gördün nələr çəkirəm?..”[1]

Vaqif Səmədoğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə olan böyük inamı ilə məqaləsini tamamlamışdır.

Heydər Əliyev dəyər verdiyi hər bir ədəbi şəxsiyyətə mənsub olduqları sahənin tarixi kimi baxmışdır. Hər birinə! Böyük qiymətdir!

Respublikanın əməkdar jurnalisti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Həsən bəy Zərdabi, Rəsul Rza, Nəcəf Nəcəfov adına mükafatların laureatı, Dövlət mükafatı laureatı, jurnalist-yazıçı Elmira Axundova Heydər Əliyevin ilk bioqraflarındandır. O, müxtəlif vaxtlarda dahi şəxsiyyətin siyasi tərcümeyi-halının müəyyən dövrlərini *“Naşirin qətli” (2001), “Həqiqət anları”(2003) və “Şüşə saray”* kitablarında əks etdirmişdir. Müəllif beş il gərgin zəhmət çəkməklə *“Heydər Əliyev. Şəxsiyyət və zaman”* adlı çoxcildlik roman-əsərini qələmə almış,[2] lentə yazılmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə müsahibələrlə, DTK arxivləri və Prezidentin şəxsi arxivi ilə tanış olmuş, Ulu öndərin dolğun və obyektiv bioqrafiyasını yazmış, bütün bunlar sənədli romanın əsasını təşkil etmişdir.

Kitab 3 cilddən, 4 hissədən ibarətdir. I hissə 1923-1969-cu illəri əhatə edir. I hissə qazax yazıçısı və ictimai-siyasi xadim Oljas Süleymenovun “İki əsrin qəhrəmanı” adlı ön sözü ilə açılır.

Heydər Əliyev Türkiyənin hərbi hospitalında müalicə olunanda *(2003, 10 may)* böyük insana şəfa diləmiş Elmira Axundova orada Ulu öndərə sənədli roman yazmaq niyyətini bildirmişdir.

Birinci hissə Heydər Əliyevin *“Ömür yolunun başlanğıcı”, “Müharibə. Seçim qarşısında”, “Dövlət təhlükəsizliyi orqanlarında keçdiyi həyat məktəbi”* fəsillərindən ibarətdir.

1969-1982-ci illəri əhatə edən ikinci hissə.[3] *“Sərt dönüş” (I fəsil), “Başlanğıc” (II fəsil), “Əliyev və onun komandası” (III fəsil),*

---

[1] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.217

[2] Elmira Axundova. Şəxsiyyət və zaman, I hissə (1923-1969). Bakı, Ozan, 2007; II hissə (1969-1982). Bakı, Ozan, 2007, 784 s.; III hissə (1982-1990). Bakı, Ozan, 2009, 804 s.; IV hissə (1969-1989). Bakı, Ozan, 2008, 328 s., V hissə (1990-1993). Bakı, “CBS Polygraphicproduction”, 2013, 736 s.; VI hissə, I kitab (1993-2003), Bakı, “CBS Polygraphicproduction”, 2013, 480 s.; II kitab (1993-2003), Bakı, “CBS Polygraphicproduction”, 2013, 496 s.

[3] Elmira Axundova. Şəxsiyyət və zaman. II hissə (1969-1982). Bakı, Ozan, 2007, 784 s.

*“Birinci katib:Gürzlə zindan arasında” (IV fəsil), “Qoy ədalət zəfər çalsın” (V fəsil), “Heydər Əliyev və Leonid Brejnev” (VI fəsil), “Heydər Əliyev və 70-ci illərin xalq təsərrüfatı” (VII fəsil), “Heydər Əliyev və erməni seperatizmi” (VIII fəsil), “Heydər Əliyev və Sovet ordusu” (IX fəsil), “Heydər Əliyev və gənclər siyasəti” (X fəsil), “Əks əlaqə” (XI fəsil), “İran inqilabı və Kreml siyasəti” (XII fəsil), “Qlobal dəyişikliklər” (XIII fəsil), “Qalstuksuz Əliyev” (XIV fəsil), “Lider” (XV fəsil) başlıqları və söz ardından* ibarətdir.

*Kitabın III hissəsi 1982-1990-cı illərə aid olub* Elmira Axundovanın *ön sözü “Yeni ümidlər” (I hissə), “Durğunluq”(II hissə), “İki il yarım Qorbaçovun komandasında” (III hissə), “Süqut” (IV hissə) başlıqları və “Bir neçə kəlmə”ni* əhatə edir.

1969-1989-cu illərdən ibarət olan *IV hissədə “Həyat və fəaliyyətinin xronikası”.*[1] *“Böyük ömrün xronikası” (1969-1982) və “Moskva, Kreml dövrü” (1982-87) başlıqları verilmişdir.* Elmira Axundovanın bu dəyərli kitabı nadir sənədli salnamədir. Kitab haqqında “Heydər Əliyevin ədəbiyyatda obrazı tarixi gerçəklikdən ideala” monoqrafik tədqiqatında f.ü.f.d., dos. Lalə Həsənovanın geniş araşdırması dərc olunmuşdur.

Ümummilli lider Heydər Əliyev haqqında zəmanəsinin böyük sənətkarları, türk-müsəlman ədəbiyyatının görkəmli nümayəndələri, habelə dünyanın mədəniyyət xadimləri ədəbi-estetik fikirlər söyləmiş, qiymətli məqalələr yazmış, Ulu öndərə hörmət və ehtiramını ifadə etmişlər.

Nə qədər ki, cahanşümul şəxsiyyət Heydər Əliyevin siyasi-mədəni irsi yaşayır, o qədər Ümummilli liderin nadir mənəvi irsinə müraciət olunacaq, haqqında cild-cild kitablar yazılacaq və əziz ruhu minnətdarlıqla yad ediləcəkdir.

Heydər Əliyev millətimiz və bəşəriyyət üçün həmişə gələcək zaman deməkdir. Onun siyasi məktəbi daim öyrənmək və öyrətmək mənbəyi olaraq qalacaqdır.

Tarixi şəxsiyyətlər və dühalar dünyadan getmirlər, onların böyük əməlləri tarix və millətlər qarşısında nümunə məktəbi olaraq qalır və qalib gəlir. Dünya sivilizasiyasında elit şəxsiyyət olan Heydər Əlirza oğlu Əliyev məhz belə olmuş, gələcəkdə də belə olacaqdır. Heydər Əliyev irsinin varisləri onun böyük sözünə ehtiyaclı olmuş,

[1] Elmira Axundova. Şəxsiyyət və zaman. IV hissə (1969-1989). Bakı, Ozan, 2008, 328 s.

həmişə də ehtiyaclı olacaqdır. Ruhu şad olsun Ulu öndərin, siyasi mütəfəkkirin!

Heydər Əliyev varisliyinin mötəbər siyasi qarantı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hazırda Azərbaycan dövlətini dünyanın sivil ölkələri sırasına çıxarmaqda, tarixi uğurlar qazanmaqda və ölkəmizi qalibiyyətlə gələcəyə aparmaq əzmi və əzəmətində olan görkəmli dövlət xadimi və siyasi milli şəxsiyyətdir.

## ULU ÖNDƏR YOLUNUN DAVAMI VƏ SABAHI – İLHAM ƏLİYEV

*(Filologiya elmləri doktoru Elnarə Akimova)*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli lider Heydər Əliyevin yolunu əzm və ləyaqətlə davam etdirən siyasi liderdir. Onun siyasi fəaliyyəti, hakimiyyətə gəldiyi illərdə nümayiş etdirdiyi yüksək səriştə və əzm ilk növbədə, varislik haqqını qoruyaraq Yola davam etməsindədir. İlham Əliyev bu haqqı qoruyan və bütün sahələrə, hadisələrə, məqamlara münasibətdə uğurla tətbiq edən dövlət başçısıdır. İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən siyasi platformasının əsasında Heydər Əliyevin Yolunun dayandığını, bu yolla gedəcəyini elan etmişdir: "O inanırdı və bilirdi ki, davamçıları onun sona çatdıra bilmədiyi işləri tamamlayacaqlar. Belə də oldu... Biz fəxr edirik ki, onun ideyalarını yaşadırıq, müstəqilliyimizi möhkəmləndiririk, Heydər Əliyev yolu ilə gedirik və gedəcəyik".[1]

2006-cı il iyunun 28-də Prezident sarayında "Xalq yazıçısı" və "Xalq şairi" fəxri adlarına layiq görülmüş bir qrup ədəbiyyat xadimi – Çingiz Abdullayev, Gülhüseyn Abdullayev (Hüseynoğlu), Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı və Zəlimxan Yaqubla görüşərkən İlham Əliyev xalqın, dövlətin güclənməsində, öz milli varlığını qoruyub saxlamasında ədəbiyyatın gücünü önə çəkmiş, milli məfkurənin formalaşmasında şair və yazıçıların rolunu vurğulamışdır: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir. Azərbaycanın keçmişində bütün dövrlərdə sənət adamları – şairlər, yazıçılar ictimai-siyasi həyatda da həmişə çox fəal olmuşlar. Bəlkə də başqa keçmiş sovet respublikaları ilə müqayisə etsək, görərik ki, məhz Azərbaycanda bu sahəyə həmişə böyük maraq olmuşdur. Deyə bilərəm ki, bizim yazıçılarımız, şairlərimiz Azərbaycanda ən populyar insanlardır. Keçmişdə də belə olub və bu gün də belə olmalıdır".[2]

Həmin görüşdə diqqət çəkən bir məqam vardı. Vaxtilə Ümummilli lider Heydər Əliyev bazar iqtisadiyyatına münasibətdə dəyərli bir fikir səsləndirmişdir: "Elmimizlə, mədəniyyətimizlə, mənəviyya-

---

[1] İlham Əliyev – On beş illik prezidentlik dövrünün uğur salnaməsi (2003-2018) Bakı, "Zərdabi LTD" MMC, 2018, s. 6

[2] "Azərbaycan" qəzeti, 29 iyun 2006

tımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz". İlham Əliyevin də məsələyə münasibəti eyni kontekstdən nəşət edir. Bütün hallarda məqsəd, məram birdir: xalqın milli-mənəvi dəyərlərinin heç bir halda deqradasiyaya məruz qalmasına yol verməmək: "Bütün inkişaf etmiş ölkələr kimi, indi Azərbaycan da öz fəaliyyətini bazar iqtisadiyyatı prinsipi əsasında qurur. Əlbəttə, dünya praktikası artıq sübut edib ki, bu, ən mütərəqqi bir yanaşmadır. Ancaq bəzi hallarda əgər mənəviyyat itirsə, mənəvi dəyərlər o bazar iqtisadiyyatı içərisində əridilirsə, bu, cəmiyyətin normal yaşamasına böyük təhlükə yarada bilər. Biz çalışmalıyıq ki, ölkəmizin uğurlu iqtisadi inkişafını şərtləndirən bütün amillərlə yanaşı, mütləq və mütləq mənəvi dəyərlər itməsin. Bizim ənənələrimiz, tarixi nailiyyətlərimiz saxlanılsın, qorunsun. Əlbəttə, ölkənin gücü, zənginliyi onun iqtisadi qüdrətindədir. Ancaq eyni zamanda onun mənəvi gücündədir. Ona güc verən məhz mənəvi dəyərlərdir. Əlbəttə, bunda yazıçıların, şairlərin əvəzsiz rolu vardır".[1]

Bəli, İlham Əliyevin də fəaliyyət xəttinin əsasında məhz, bir amil dayanır: ədəbiyyatı dövlət siyasətinin, xalqın, millətin güclənməsinin stimulu olaraq ali səviyyədə görmək və dəyərləndirmək istəyi, onu heç bir maraqların ayağına verməmək çabası. Təsadüfi deyil ki, bu gün bütün çoxşaxəli, çoxyönlü sahələrdə formalaşan gerçək bir İlham Əliyev obrazı ədəbiyyatda da xüsusi qabarmağa, irəli gəlməyə, görünməyə başlayıb. Müstəqillik dövründən və müstəqil ölkənin ədəbiyyatından bəhs edilirsə, burada başlıca yer tutan, görünən obraz həm də İlham Əliyevdir. Əlbəttə ki, Azərbaycanın *müstəqillik* dövrü ədəbiyyatı, eləcə də sovet dövrü daxilində müəyyən epoxa yaratmış dövr sırası Heydər Əliyev epoxasının ədəbiyyatıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə Ümummilli lider Heydər Əliyev təlimini yeni müddəalarla zənginləşdirərək bu günə gətirib inkişaf etdirən, daha da təkmilləşdirən, uğurla davamına çalışan diplomatdır. Akademik İsa Həbibbəyli düz vurğulayır ki, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük sınaqlardan çıxmış və özünü təsdiq etmiş Heydər Əliyev dövlətçilik təlimini yeni tarixi epoxanın reallıqları ilə və daha böyük gələcəyə ünvanlanmış ideyalarla zənginləşdirərək müasir dövrün yenilə-

[1] "Azərbaycan" qəzeti, 29 iyun 2006

şən tələblərinin işığında uğurla və uzaqgörənliklə davam etdirir. Siyasi-ideoloji baxışları, qətiyyəti və cəsarəti, müdriklik və uzaqgörənliyi ilə Prezident İlham Əliyev yeni dövrün müasir tipli Heydər Əliyevidir".[1]

İlham Əliyevin ədəbiyyatda obrazı iki istiqamətdə təcəssüm tapır: onun ədəbiyyatla bağlı gördüyü işlər, göstərdiyi böyük xidmət ki, nəhayətində xalqa və onun ədəbi şəxsiyyətlərinə, əsərlərinə yüksək sevgidən qaynaqlanır. Bir də ədəbi mətnlərdə bir obraz kimi inikası ki, nəhayətində xalqa verilən sevgiyə cavab olaraq doğulur. Ədəbiyyat borclu qalmağı sevmir: mübadilə qarşılıqlıdır: ona dəyər verəni tarixləşdirməklə, mətnlərdə obrazlaşdırmaqla əvəz çıxır.

Əvvəlcə, birinci istiqamətdə görülən işlərə nəzər salaq. İlham Əliyevin ədəbiyyatda gördüyü işlər ölçüyəgəlməzdir. Bu diqqət və həssaslıq dövlət başçısının hakimiyyətə gəldiyi ilk dönəmdən bu yana funksionallığı ilə diqqət çəkir.

Prezident İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamına əsasən, bu yöndə silsilə işlər meydana qoyuldu, klassik irs 100 cilddə böyük tirajla nəşr olunaraq kitabxanalara paylanıldı, 24 avqust 2007-ci il Sərəncamına əsasən isə "Dünya Ədəbiyyatı kitabxanası" seriyasından 150 cilddə dünya yazıçılarının əsərləri tərcümə və çap olunaraq ictimaiyyətə təqdim olundu. Prezidentin 16 may 2014-cü il tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi yaradılması da həmin sərəncamlarda qoyulan məramın davamı kimi qiymətləndirilməlidir.

Sovet hakimiyyəti dövründə "Azərbaycan pioneri" qəzetini, "Göyərçin" və "Pioner" jurnallarını mütaliə edir, bu nəşrlərin təsiri altında formalaşırdıq. Lakin keçid dövrünün başlaması, o cümlədən əlifba dəyişikliyinin baş verməsi nəticəsində uşaq nəşrləri sahəsində uzunmüddətli boşluq yaranmışdı. Yalnız ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamından sonra mənzərə dəyişdi. Rəngarəng dizaynı, maraqlı və zəngin mətnləri ilə diqqəti cəlb edən uşaq nəşrləri fəaliyyətə başladı. Üç cilddə "Azərbaycan uşaq ədəbiyyatı antologiyası" ("Öndər nəş-

---

[1] Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Monoqrafiya. Bakı, Elm və təhsil, 2018, s.7

riyyatı", 2005 (tərtibçi: Qara Namazov, redaktor: Teymur Əhmədov) nəşr olunub istifadəyə verildi. Bu cildlərdə uşaq ədəbiyyatının yaranma, təşəkkül tarixi, təcrübəsi və çağdaşlığı müəyyən qədər əksini tapdı.

Onu da ayrıca qeyd edək ki, ölkənin ədəbiyyatşünaslıq sahəsi də ölkə başçısının daim diqqət mərkəzində dayanan amillər sırasındadır. 2013-cü ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 80, 2018-ci ildə isə 85 illik yubileyinin keçirilməsi haqqında respublika prezidentinin Sərəncamı, eləcə də Ədəbiyyat İnstitutunun bir qism aliminə fəxri adlar və medalların verilməsi haqqında fərmanı görülən işin mahiyyətini anlamağa imkan yaradır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Azərbaycan mühacirət ədəbiyyatı", "Ədəbi tənqid", "Mətbuat tarixi və publisistika", "Uşaq ədəbiyyatı" şöbələrinin, "Nizamişünaslıq" şöbələri ilə yanaşı, "Füzulişünaslıq" sektorunun yaradılması, institutun ədəbi nəşrləri olan "Ədəbiyyat məcmuəsi", "Ədəbi əlaqələr", "Poetika.izm" jurnallarının ödənişsiz nəşri ədəbiyyatşünaslıq sahəsinin inkişafına dövlət marağı və dəstəyinin göstəricisidir. 2014-cü ildən bu yana İnstitutda hər il "Ədəbi proses" toplusu çap edilir. Bura hər il institutda keçirilən "Ötən ilin ədəbi yekunları" elmi-yaradıcılıq müşavirəsində səsləndirilən materiallar daxil edilir. 2016-cı ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda dövlət müstəqilliyimizin 25 illiyinə töhfə olaraq ikicildlik "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabı işıq üzü görmüşdür. Üzərində 44 müəllifin çalışdığı, ideya müəllifi və ümumi redaktoru İsa Həbibbəyli, məsul redaktoru Tehran Əlişanoğlu olan bu ikicildlik müstəqillik dönəmindən sonra ədəbiyyata ilk sistemli nüfuzun göstəricisidir və estetik siqlətinə görə yalnız 25 ili deyil, o dalğanı gətirən, özündə daşıyan daha əvvəlki onilliklərin ədəbiyyatını da ehtiva eləmək, çevrələmək baxımından təqdirəlayiq bir nümunədir. Bu, hamımızın içindən keçdiyimiz, yaşadığımız, proseslərinə daha yaxşı vaqif olduğumuz bir dönəmdir. İkicildlik 25 illik bir zamanın ədəbiyyatını ərsəyə gətirən proses, sənətkar və zaman haqqında antologiyadır. Bütünlükdə onilliklər, ayrılıqda isə cari ədəbiyyatı yaradanlar hamısı bu kitabda yaradıcılığının bütün tərcümeyi-halları, ədəbi biblioqrafiyasının bütün çalarları ilə görünə bilirlər.

Biz Heydər Əliyev yolunun İlham Əliyevdə davam tapmasından bəhs edərkən yalnız siyasi-diplomatik rakursu nəzərdə tutmu-

ruq. İlham Əliyev ədəbiyyata yanaşmada da Heydər Əliyev qərarlarının qaldığı yerdən başlayır, yaxud verilən sərəncamların yenilənməsində, ədiblərin, görkəmli şəxsiyyətlərimizin dəyərləndirilməsində məhək rolunu oynayır, ölkə rəhbəri kimi üzərinə düşən işi uğurla icra edir. Məsələn, "görkəmli dövlət xadimi Heydər Əliyevin "Dədə Qorqud" dastanlarına münasibəti ilə Prezident İlham Əliyevin bu möhtəşəm ədəbi abidəni qiymətləndirməsi biri digərini tamamlayan təlimdir. Məlum olduğu kimi, vaxtilə "Dədə Qorqud" dastanlarının 1300 illiyinin qeyd olunması haqqında fərman imzalamış və möhtəşəm yubiley tədbirləri keçirmiş Heydər Əliyev bu dastana mühüm azərbaycançılıq hadisəsi kimi baxmışdır: "Kitabi-Dədə Qorqud" dastanlarının fövqəladə əhəmiyyəti ondadır ki, o, bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir".[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 dekabr 2013-cü ildə Bakı şəhərində Dədə Qorqud parkının və Dədə Qorqud heykəlinin açılışı mərasimindəki çıxışında da dastana münasibətdə azərbaycançılıq ön mövqedə dayanmışdır: "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Dastanın qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar... Əsərdə Oğuz eli kimi coğrafi məfhum bütün Azərbaycan oğuznamələrini əhatə edir".[2]

Nizami Gəncəvi ilə bağlı zamanında atılmış mütərəqqi addımlar yalnız Heydər Əliyev siyasətinin layiqli davamçısı, ölkə prezidenti İlham Əliyev tərəfindən davam etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı öz icrası ilə qədim dövr ədəbiyyatımızın müasir dünyada təbliğinə xidmət etmişdir. Belə ki, yubiley ilində Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərinin Çaoyan parkında Nizami Gəncəvinin büstü qoyulmuş, 28 oktyabr 2012-ci ildə Meksikanın Akapulko şəhərində isə heykəlinin təntənəli təməlqoyma məra-

---

[1] Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi mərasimində nitqi. "Azərbaycan" qəzeti, 10 oktyabr 2000

[2] https://www.president.az/articles/10491

simi keçirilmişdir. 23 dekabr 2011-ci il tarixli sərəncamı ilə başlanan beynəlxalq tədbirlər silsiləsi 2012-ci ilin 1 oktyabrında Bakıda Heydər Əliyev sarayında başa çatmışdır. Nizaminin 870 illik yubileyi ilə əlaqədar olaraq bütün türk dünyasında “Nizami Gəncəvi ili” elan edilmiş, onun yubileyi TÜRKSOY-da beynəlxalq səviyyədə qeyd olunmuşdur. 23 dekabr 2013-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək, yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması, dövrü, ədəbi irsi və məktəbi problemlərinin müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiq olunması məqsədilə Nizami Gəncəvinin 870 illik yubileyinin layiqincə keçirilməsi haqqında sərəncam imzalamışdır.

Nizamidən bir neçə əsr sonra yaşamış İmadəddin Nəsiminin Şamaxıda heykəlinin açılış mərasimi 2005-ci ilin 26 aprelində baş tutmuş, Prezident İlham Əliyev bu möhtəşəm tədbirdə iştirak etmişdir. 2008-ci ildə respublika prezidenti, cənab İlham Əliyevin təşkilatçılığı ilə Hələb şəhərində beynəlxalq konfrans keçirilmiş, Nəsimini ərəb elmi dairələrində tanıtmış, onun yüksək humanist fikirləri ilə tanış olmuşlar. 2004-cü ildə Nəsimi irsinin ikicildliyi 25 min tirajla latın qrafikası ilə çap edilmişdir. Eləcə də 2017-ci ildə Molla Pənah Vaqifin 300 illik yubileyi YUNESKO səviyyəsində Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin böyük təşkilatçılığı ilə qeyd edilmişdir.

Məlumdur ki, 23 oktyabr 1992-ci ildə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda Hüseyn Cavidin 110 illiyi təntənəli qeyd edilmiş, ev-muzeyi yenidən qurulmuş, məzarı üzərində məqbərəsi tikilmiş və 1996-cı ilin oktyabrında açılışı olmuşdur. Cənab İlham Əliyevin rəhbərliyi ilə bu işlər davamını tapmaqdadır. Dramaturqun “Külliyyatı”nın beşcildliyi Turan Cavid tərəfindən nəşr edilmiş, 2005-ci il sərəncamı ilə əsərləri latın qrafikasında buraxılmışdır. Hüseyn Cavidin əsərlərinin ilk dəfə filologiya üzrə fəlsəfə doktru Azər Turan tərəfindən Türkiyə türkçəsinə uyğunlaşdırılaraq hazırlanması (Azərbaycan Respublikası Prezident Administrasiyası İctimai-Siyasi şöbəsinin müdiri Əli Həsənovun, “Kaspi” qəzeti və “Kaspi” Təhsil Mərkəzinin layihəsi əsasında) və

2013-cü ildə Türkiyənin "Küsena" nəşriyyatında çap olunması isə Hüseyn Cavidlə bağlı görülən işlərin ehtişamlı davamına sübutdur.

2018-ci ildə İlham Əliyevin Hüseyn Cavidin 135 illiyinin keçirilməsi haqqında imzaladığı sərəncam dahi şairə göstərilən növbəti iltifat oldu. Bütün bunlar Ümummilli lider Heydər Əliyevin Cavidlə bağlı təməlini qoyduğu siqlətli işlərin nəticəsi idi ki, məfkurə ruhunda böyüyən və yetişən İlham Əliyevin əməli fəaliyyətində uğurlu davamını tapırdı. Filologiya elmləri doktoru, "Kaspi" qəzetinin təsisçisi və ideya rəhbəri Sona Vəliyeva tərtibçisi və redaktoru olduğu "Hüseyn Cavid. Vətənə qayıdış" kitabının ön sözündə maraqlı və əhəmiyyətli bir məqama toxunur: "Hüseyn Cavid. Vətənə qayıdış" foto-albomunu çapa hazırlayarkən diqqətimi bir foto cəlb etdi. 1982-ci ildə Naxçıvanda dahi Cavidin Vətənə qayıdışı məsələsi ilə bağlı müzakirələrdə Ulu öndər Heydər Əliyevlə birgə onun mənəvi və siyasi varisi İlham Əliyev də iştirak edirdi. Bu unudulmaz tarixi hadisənin əbədiləşən anlarından illər sonra İlham Əliyev, Cavid irsinin yenidən nəşri və yubileylərinin keçirilməsi üçün Müstəqil Azərbaycanın prezidenti kimi sərəncamlar imzalayacaqdı".[1]

İlham Əliyevin Azərbaycanın bir çox tanınmış ədəbiyyat xadimlərinə diqqəti, onların yubileylərini mütəmadi diqqətdə saxlaması örnək sayılacaq addımlardandır. Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyi haqqındakı 14 yanvar 2015-ci il tarixli sərəncamı, böyük xidmətləri nəzərə alınmaqla tanınmış yazıçılara fəxri adların, fərdi təqaüdlərin və yaradıcı gəncliyin istedadlı nümayəndələrinə Prezident mükafatlarının verilməsi, uzun illik fasilədən sonra Azərbaycan Respublikası Dövlət Mükafatının verilməsinin yenidən bərpa edilməsi də Heydər Əliyev tərəfindən qoyulan ənənənin yaşarılığına ən yaxşı nümunədir.

Heydər Əliyev 1995-ci ildə Xəlil Rza Ulutürkün xatirə gecəsini keçirmiş, 14 noyabr 2002-ci ildə xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam vermiş, 2004-cü ildə isə cənab İlham Əliyev 70 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamış, iki cilddə seçilmiş əsərləri çap olunmuş, 2013-cü ildə şairin 80 illiyi dövlət səviyyəsində qeyd edilmişdir.

Bakı şəhərində Dədə Qorqud abidə kompleksinin yaradılması, xalq qəhrəmanı Koroğlunun abidəsinin ucaldılması müstəqillik döv-

---

[1] Hüseyn Cavid. Vətənə qayıdış (məqalələr). Bakı: "Gənclik", 2015, s.6-7

rü ədəbiyyat epoxasının möhtəşəm hadisələridir. Son illərdə ölkədə aparılan böyük quruculuq proseslərinin tərkib hissəsi kimi Azərbaycan Yazıçılar Birliyinin, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin, Azərbaycan Dövlət Milli Dram Teatrının, Opera Teatrının, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının, Sumqayıt və Şəki teatrlarının, Naxçıvan Yazıçılar Birliyinin və ölkəmizin digər ədəbiyyat və mədəniyyət ocaqlarının, görkəmli yazıçıların ev muzeylərinin əsaslı şəkildə yenidən qurulması, yeni texnologiya və müasir avadanlıqlarla təchiz edilməsi ölkəmizdə ədəbiyyata və incəsənətin inkişafına göstərilən dövlət qayğısının əməli ifadəsidir. Bakı şəhərində Muğam Mərkəzinin yaradılması, Gəncədə Mirzə Şəfi Vazeh, Şəkidə Bəxtiyar Vahabzadə və Şahbuzda Məmməd Araz, Kəngərli rayonunda Şahtaxtlılar, Ordubadda Məhəmməd Tağı Sidqi muzeylərinin, Gədəbəydə Ozan evinin tikilib istifadəyə verilməsi ölkəmizdə bədii ədəbiyyata diqqətin göstəricisi kimi dəyərləndirilməlidir. İlham Əliyevin Azərbaycan yazıçılarının 2004-cü ildə XI, 2014-cü ildə XII qurultayını dövlət səviyyəsində yüksək şəkildə həyata keçirməsi, 2 fevralın "Gənclər günü" kimi qeyd olunması ədəbiyyatla bağlı mühüm addımlardandır. Xalq yazıçısı Anarı "Unudulmaz görüşlər" kitabına görə Heydər Əliyev mükafatı ilə təltif etməsi, 2010-cu ildə AMEA Ədəbiyyat İnstitutunun hazırladığı "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabının, eləcə də 2014-cü ildə Elmira Axundovanın altıcildlik "Heydər Əliyev: şəxsiyyət və zaman" publisist romanı və 2016-cı ildə Fikrət Qocanın oncildlik əsərlərinin Azərbaycan Respublikası Dövlət Mükafatına layiq görməsi ədəbiyyata dövlət səviyyəsində sevginin nümunəsidir.

"İlham Əliyev və Azərbaycan ədəbiyyatı" məqaləsində belə bir statistik incələmə aparılır: "Ümumilikdə ölkəmizdə 22 nəfər "xalq şairi", 25 nəfər isə "xalq yazıçısı" var. Onlardan xalq şairləri Sabir Rüstəmxanlı, Nəriman Həsənzadə və Zəlimxan Yaqub 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən bu ada layiq görülmüşlər. Yazıçılardan... Mövlud Süleymanlı məhz cənab prezident tərəfindən "xalq yazıçısı" adına layiq görülüblər. Dünya şöhrətli yazıçımız Çingiz Abdullayev 2009-cu ildə 50 yaşı tamam olarkən prezidentin fərmanı ilə həm "Şöhrət" ordeni, həm də "xalq yazıçısı" fəxri adına

layiq görülüb".[1] Əlbəttə, bu siyahını istənilən qədər genişləndirmək mümkündür. Elə bu yaxınlarda Azərbaycan Prezidentinin 25 may 2019-cu il sərəncamı ilə görkəmli ədəbiyyat adamlarından – Musa Yaqub, Ramiz Rövşən və Vahid Əzizin xalq şairi, yazıçılardan Kamal Abdulla, Natiq Rəsulzadə, Afaq Məsudun xalq yazıçısı adına layiq görülməsi ölkə başçısının sənətə olan diqqətinə, qayğı və qədirbilənliyinə əyani nümunədir. Hələ bura yazıçı və şairlərlə bağlı imzalanan sərəncamları əlavə etsək, mənzərə daha böyük səciyyə qazanar. Çünki dövlət başçısı kimi İlham Əliyevin ədəbiyyatda obrazı bir də yazıçılarla ilgili verdiyi sərəncamlarda təcəssüm tapır. Cənab prezidentin diqqət və qayğısı sayəsində bir sıra mühüm yubiley mərasimləri də gerçəkləşmişdir. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, "Ədəbiyyat qəzeti"nin 80, "Azərbaycan" jurnalının 90 yaşının yüksək səviyyədə qeyd olunması, yubileyi olacaq yazıçı və şairlərimizin haqqında verilən sərəncamlar ədəbi prosesdə canlanma yaradan amillər sırasında yer alır. Belə ki, haqqında sərəncam verilən ediblərin həyat və yaradıcılığı il boyu ədəbi mətbuat və televziya vasitəsilə gündəmdə olmuş, onların əsərləri çağdaş dəyərlər işığında nəzərdən keçirilmişdir. Hər hansı bir dövrün ədəbi-fəlsəfi və siyasi proseslərinin bütün təfərrüatı, tərkib və parametrləri ilə canlandırılması həmin mərhələnin, şəxsiyyətin yaradıcılığının sistemli tədqiqat predmetinə çevrildiyi təqdirdə əyaniləşir. Bu baxımdan, adıçəkilən müəlliflərin ömür yolunun öyrənilməsi dövrün fəlsəfi dərkində, onun xarakterinin müəyyənləşdirilməsində zəruri önəm daşıyır.

16 aprel 2007-ci ildə haqlarında sərəncam imzalanmış Almas İldırımın, 2008-ci ildə sərəncam imzalanmış Mikayıl Müşfiqin 100, 17 aprel 2007-ci ildə Hüseyn Cavidin 125 illiyi, 2010-cu il tarixli sərəncamla Əli bəy Hüseynzadənin 150 illiyi addımlar kimi müstəsna əhəmiyyət kəsb edir. Bura 130 illiyi qeyd olunan M.Ə.Rəsulzadə haqqında sərəncamı, eləcə də 2018-ci ilin Cümhuriyyət ili kimi qeyd olunması haqqında fərmanı əlavə etsək, dövlətçilik siyasətinin hansı məsələlərdə dəstək aradığı və davam tapması faktı məlum olar.

---

[1] Gülnar Səma. İlham Əliyev və Azərbaycan ədəbiyyatı. "Kaspi" qəzeti, 22 dekabr 2018

Müsəlman şərqində ilk demokratik respublika kimi tarixdə öz yerini tutmuş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin 2018-ci ildə ölkədə geniş qeyd edilməsi İlham Əliyevin hadisəyə siqlətli baxışının sayəsində gerçəkləşmişdir. O, bu hadisəni Azərbaycan tarixinin şərəfli səhifələrindən biri kimi qiymətləndirirdi: “Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində ilk demokratik respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha göstərir ki, azərbaycanlılar azadlıqsevər və mütərəqqi xalqdır”.[1]

Tarix elmləri doktoru, professor Əli Həsənov yazır: “Prezident İlham Əliyev Cümhuriyyətin tarixinə, onun qurucularının xatirəsinə həmişə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl dövlət başçısının Sərəncamı ilə Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmış, 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinə və onun qurucularının xatirəsinə ən böyük ehtiramı daim onların ideyalarını yaşatması, demokratiya arzularını reallaşdırması, Azərbaycanın müstəqilliyini və suverenliyini etibarlı şəkildə qorumasıdır”.[2]

Qeyd etdiyimiz kimi, İlham Əliyevin atdığı müqtədir addımlardan biri də Əli bəy Hüseynzadə ilə bağlıdır. Əli bəy Hüseynzadənin qızı, Türkiyə vətəndaşı Feyzavər Alpsar atasına məxsus əşyaları Bakıya təqdim etdi. Bundan bir neçə ay sonra ölkə başçısı İlham Əliyev 2018-ci ilin mart ayının 17-sində böyük ideoloqun qızını Dostluq ordeni ilə təltif etdi. Bu, hər iki ölkə arasında münasibətləri möhkəmləndirməyə və Əli bəyin ruhuna göstərilən ən dəyərli nümunə oldu. Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımın adından professor İbrahim Yıldırım prezidentə təşəkkür məktubu ünvanladı. Məktub “Ədəbiyyat qəzeti”ndə çap olundu: “Azerbaycan devlet başkanı sayın Aliyev, Feyzaver Hanım'ı unutmadı. Azerbaycan Anayasası'nın 109. Maddesi 23. Bendine uyarak 17 Mart 2018 tarihinde 1145736 sayılı kararı ile Azerbaycan ve Türkiye Cumhuriyeti arasında medeni alakaların muhkemleştirilmesinde hizmetlerine göre Feyzaver Turan Alpsar 'Dostluk' ordeni ile taltif edildi. Bir gazeteci dostum aynı gün haberi bana iletti. Bu günlerde sağlığı izin vermediği için ben hemen ziyaretine gittim. Bir çay sofrası sırasında haberi sakince kendisine ilettim. Çok heyecanlandı ve ilk cümlesi şu

---

[1] İlham Əliyev – On beş illik prezidentlik dövrünün uğur salnaməsi (2003-2018) Bakı, “Zərdabi LTD” MMC, 2018, s.8

[2] Yenə orada

oldu “Ben kimim ki böyle nişan verdiler. Sağ olsun sayın Aliyev, bunu Türk Kültürü'nün büyük mütefekkiri atam için sevinçle karşıladım. Yine de sağ olsun, var olsun. Keşke oralara gidip kendi gözümle ata yurdumu görebilseydim” dedi. Çok heyecan duydu ve bu sevinci hepimizle paylaştı. Aslında bu sevinç Azerbaycan ve Türkiye'nin ortak sevinci olup bütün Türklerin gururudur.[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ədəbiyyata verdiyi böyük dəyərə qarşılıq olaraq, həmçinin ədəbiyyatda, ədəbi mətnlərdə yaradılmış obrazı da diqqət çəkir, şair, yazıçı və ədiblərin minnətdarlıq duyğularını ifadə edir.

“Kaspi” qəzetinin 2018-ci il 22 dekabr tarixli sayında “Ədəbiyyatımıza böyük məhəbbət göstərən İlham Əliyev” mövzusunda müxtəlif qələm adamları arasında sorğu yer alıb. Həmin sorğuda iştirak edənlər (Fikrət Qoca, Vaqif Bəhmənli, Əsəd Cahangir, Ə.Qoşalı) İlham Əliyevin ədəbiyyata diqqətini söz adamlarının ruhlanması, özlərinə inamla yanaşmaları baxımından vacib və əhəmiyyətli hesab eləyib. F.Qoca yazır: “İlham Əliyev Azərbaycan mədəniyyəti və ədəbiyyatının milli-mənəvi həyatımızdakı yerini və rolunu olduqca dərindən bilir və onu yüksək dərəcədə qiymətləndirir, Azərbaycan tarixinə, mədəniyyətinə, ədəbiyyatına böyük hörmət və məhəbbət bəsləyir”. Şair Vaqif Bəhmənli isə ədəbiyyata hörmət və məhəbbətin qarşılığında yazıçıların əsərlərlə cavab vermək məsuliyyətini önə çəkib: “Dövlət tərəfindən bizim üçün yaradılan şəraitə yaradıcılığımızla cavab verməliyik”.[2]

Həmin məsuliyyətdən biri də zənnimcə, prezident İlham Əliyevin özünün obrazının yaradılması ilə bağlı olmalıdır. Bəs, bu obraz ədəbiyyatda hansı şəkildə və səviyyədə realizəsini tapır?

Qeyd edək ki, İlham Əliyevin ədəbiyyatda obrazı nəsrə nisbətən poeziyada daha geniş əksini tapmışdır. Hətta İlham Əliyevə həsr olunmuş ayrıca şeir kitabları ilə rastlaşırıq. Xalq şairi Fikrət Qocanın, Elman Həbibin, Arzu Əsədovun və b.-nın şeir kitabları ölkə rəhbərinin obrazını yaratmağı predmet seçmiş, dövlət başçısının obrazını poetik səviyyədə təcəssüm etdirmişdir.

---

[1] Ali bey Hüseyinzade ve Son Yadigarı Feyzaver Turan Alpsar'ın Asaleti ve Liyakat Nişanı - Prof.Dr. İbrahim Yıldırım. “Ədəbiyyat” qəzeti, 31 mart, 2018

[2] “Ədəbiyyatımıza böyük məhəbbət göstərən İlham Əliyev” (Sorğu). “Kaspi” qəzeti, 22 dekabr, 2018

Fikrət Qocanın "Gərək bu günləri görəydin, Ata (Ümummilli lider Heydər Əliyevin xatirəsinə dərin ehtiramla)" şeirlər kitabı Ümummilli lider Heydər Əliyevlə prezident İlham Əliyevə həsr olunub. Kitabın epiqrafında belə bir qeyd yer alır: "Mən tələbəlik illərindən özümü hamıya borclu hiss etmişəm. Vətənimdə mən hamıya borcluyam. Lakin bir ailəyə – Heydər Əliyev ailəsinə özümdə ruhi qohumluq hiss edirəm. Bu ailə məni üç dəfə ölümdən qurtarıb. Bir dəfə Heydər Əliyev, iki dəfə İlham Əliyev. Əlli bir yaşımdan sonra nə yaşayıramsa, yuxarıda Allaha, aşağıda ailənin və ölkəmizin mənim tanıdığım iki dahi rəhbərinə – Heydər Əliyevə və İlham Əliyevə borcluyam".[1]

Fikrət Qoca Ulu öndər xəstə olarkən İlham Əliyevin dilindən "Ata" adlı şeir yazır.

*Sən gedən yollara qurban kəsərdim,*
*Şərəfim, şöhrətim, vüqarım, ata.*
*Nanə yarpağı tək tir-tir əsərdim,*
*Qoy xəzan görməsin baharın, ata.*

*Ata, gözlərinin nuruna qurban,*
*Öpdüm, gözüm üstə qoydun əlini.*
*Sənin ürəyindir sinəmdə vuran,*
*Kövrəltmə könlümün sarı telini.*

*Ata başımızın ucalığıdı,*
*Oğul atasının cavanlığıdı,*
*Ata övladının qocalığıdı...*
*Ata, hardasan, gəl bu gün, ata,*
*Gərək bu günləri görəydin, ata.*[2]

Şair "İlham Heydər oğlu Əliyev" şeirində İlham Əliyevin poetik obrazını yaratmağa cəhd edib.

*Düşmən kim olur, olsun!*
*Güləşsəniz – yıxarsan!*
*Dalaşsanız – döyərsən!*

---

[1] Fikrət Qoca. "Gərək bu günləri görəydin, Ata (Ümummilli lider Heydər Əliyevin xatirəsinə dərin ehtiramla), Bakı, Günəş, 2018, s.5

[2] Yenə orada, s. 67-68

*Sən Heydər balasısan,*
*Qədim odlar yurdunun,*
*Sarsılmaz qalasısan,*
*Sən bizi qoruyarsan.*
*Ay İlham, Allah səni*
*Hər cür azar-bezardan,*
*Bədnəzərdən qorusun!*
*Səni qəhrəman edən*
*Damarında qanındır.*
*Səni qoruyan Mələk*
*Sənin Mehribanındır.*[1]

"Zəfər sənindir" şeiri də eyni məramı ifadə edir. İlham Əliyevin sarsılmaz, mətin obrazını yaratmaq, xalqın onun ətrafında birləşməsi əzminə, ölkədə görülən işlərə işarələr mətndə təsvir olunan əsas məqamlardır:

*Arxada qoyduğun izlər yol olub,*
*Qarşıda nə qədər işlər, görüşlər.*
*Ayağın altında yollar yorulub,*
*Qarşıda yenə də işlər və işlər…*

*Ruhlar da Şuşada, Cıdır düzündə,*
*Ali Baş Komandan, sizi izləyir.*
*Ölkədə hamının gözü üzündə,*
*Hücuma əmiri Sizdən gözləyir.*

*Xalqın səninlədir, zəfər sənindir.*
*Xalqı arzusuna yetirəcəksən.*
*Zəfərə inanmaq – imandır, dindir.*
*Bizə xoşbəxt günlər gətirəcəksən.*

*Xalqımın yenilməz igid, ər oğlu,*
*Özün də Öndərsən, ey Öndər oğlu.*
*Uca Allahımız qorusun səni,*
*Ey Heydər atası, ey Heydər oğlu*[2].

[1] Fikrət Qoca. "Gərək bu günləri görəydin, Ata (Ümummilli lider Heydər Əliyevin xatirəsinə dərin ehtiramla), Bakı, Günəş, 2018, s. 72
[2] Yenə orada, s.86-87

Elman Həbib "İnsanlıq dastanı. İlham – xalqın İlhamı" poemasında İlham Əliyevin kök, şəcərə tarixindən yol alır, Ümummilli lider Heydər Əliyevin xalq, dövlət üçün etdikləri əməllərini canlandırır, onun müstəqillik şüurunun formalaşmasında rolundan bəhs edərək prezident seçkisində İlham Əliyevin lider kimi qəbul olunmasını xalqın öz iradəsinə bağlı amil sayır. Bu bir tərəfdən, Heydər Əliyevin xalqa aşıladığı hüquqi seçim azadlığı ilə əlaqələnirsə, digər tərəfdən onun yaratdığı siyasi ideologiyanın İlham Əliyevin simasında ləyaqətlə təmsil və davam olunmasına dayaqlanır:

*Kimə səs verdi bu xalq?*
*Niyə səs verdi bu xalq?*
*Xalq özünü tanıyır,*
*Artıq bilir o kimdir.*
*O özünə həm hakim,*
*O özünə vəkildir.*
*Onun getdiyi yollar*
*Bir həqiqət yoludur.*
*Ulu Heydər yoludur,*
*Bir cəsarət yoludur.*[1]

***

*Bu kitabın müəllifi*
*İlhamdır, Heydər oğlu.*
*Xalqla Heydər varlığı*
*Həmişə bir çəkidə.*
*Onunla nəfəs alır*
*Bu odlar ölkəsi də.*[2]

Elman Həbib İlham Əliyevin uşaqlıq, gənclik illərinə ekskurs edir, təhsil illərindən, Naxçıvan mühitindən bəhs edir, İlham Əliyevə bəslədiyi müəllim ehtiram və inamından yazır:

*Bir zaman söyləmişdim*
*- İlham da siyasətə*

---

[1] Elman Həbib. "İnsanlıq dastanı. İlham – xalqın İlhamı", "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, Naxçıvan – 2013, s.8
[2] Yenə orada, s.24

*Tam hazırdır, demişdim.*
*Gördüm yanılmamışam,*
*Xalqımla birlikdə mən.*
*İlhama inanmışam.*
*Deyilənlər nə varsa,*
*Tamam doğru, tamam düz.*
*İşıqlı dünən üstə*
*Dayanıbdır bu gündüz.*[1]

Arzu Əsədovun "Ver, ver bizə zəfəri" kitabında Azərbaycanın dirçəlişindən bəhs edilir, buradakı quruculuq işləri, abadlaşma prosesləri sadalanır və bütün bunlar ölkə rəhbərinin əməli fəaliyyəti olaraq dəyərləndirilir. Şairin "Azərbaycan dəyişir" şeirində oxuyuruq:

*Bakı – əzmin, hünərin, vüqarın şah əsəri,*
*Sevginin, qardaşlığın, dostluğun baş şəhəri,*
*Səadətə can atan bir ruhun pöhrələri –*
*Dəyişdikcə siması varlıq, məkan dəyişir,*
*Azərbaycan dəyişir!*

*Hər şey dönür, dəyişir, o da dəyişməlidir,*
*O ya dəyişməlidir, ya da dəyişməlidir.*
*Düşüncə, rəftar, görkəm, əda dəyişməlidir,*
*Kökü üstdə dəyişir, kökü olan dəyişir –*
*Azərbaycan dəyişir!*[2]

"Ver, ver bizə zəfəri" şeirində isə Arzu Əsədov xalqımızın tarixi şəxsiyyətlərinin, sərkərdələrinin hünərlərini xatırladır, müstəqil Azərbaycan dövlətinin qurulmasında, bugünkü səviyyəyə gəlib çatmasında xidməti olan insanları yad edir, şəhidlərimizi, mübariz qəhrəmanlarımızı vəsfə çalışır. Qeyd edir ki, millətin bir ümid, nicat yeri var. O ümidin də adı İlham Əliyevdir.

*Biz illərlə gözlədik,*
*çıxmadıq qınımızdan,*

[1] Elman Həbib. "İnsanlıq dastanı. İlham – xalqın İlhamı", "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, Naxçıvan – 2013, s.121
[2] Arzu Əsədov. "Ver, ver bizə zəfəri". Bakı, Aspoliqraf, 2016, s.4

*Zəkanla, əməyinlə*
*dirçəldi Azərbaycan.*
*Gəldi o müqəddəs an,*
*sən Ali Baş Komandan!*
*Əmrindədir bu yurdun,*
*bu torpağın ərləri,*
*Ver, ver bizə zəfəri!*

*Yaradan dayaq olur*
*yaradana, qurana,*
*Əhdində, əməlində,*
*eşqində düz durana.*
*And olsun əl basdığın*
*o müqəddəs Qurana*
*Biz layiqik zəfərə,*
*biz haqq etdik hünəri,*
*Ver, ver bizə zəfəri!*[1]

Müəllif İlham Əliyevə bəslənən xalq inamımın qazanılmasında bu böyük tarixi şəxsiyyətin az əməyi olmadığını vurğulayır, "ot kökü üstə bitər", – deyərək Ümummilli lider Heydər Əliyevin siyasi kursunun mətin şəkildə qorunduğunu bildirir, Azərbaycan əsgərinin hər an hücum əmrinə müntəzir olduğunu xalqın rəhbərinə inamı, onun əmri ilə hər an döyüşə hazır olduğunu uca vurğu ilə bəyan edir:

*Səni zaman çağırır,*
*səni tarix səsləyir,*
*Bu xalq, bu vətən sənə,*
*sənə inam bəsləyir.*
*Dağ da, daş da çırpınır,*
*hücum əmri gözləyir.*
*Titrətsin yeri, göyü*
*Azərbaycan əsgəri!*
*Ver, ver bizə zəfəri!*[2]

[1] Arzu Əsədov. "Ver, ver bizə zəfəri". Bakı, Aspoliqraf, 2016, s.8
[2] Yenə orada, s.9

“Ölkəm əmin əllərdədir” şeirində şair XXI əsrin əvvəllərində dünyanın müxtəlif ölkələrində gedən çaxnaşmalara, qanlı-qadalı proseslərə diqqət yönəldir. Aclıq, terror, siyasi xaos, ərazi davaları, müharibə acısı, milyonlarla insanın fəlakət girdabında boğulması – bütün bunlar psixoloji çalarları ilə mətnə gətirilir. Arzu Əsədov Azərbaycanda yaradılan azad və rahat şəraiti alternativ olaraq təsvir predmetinə çevirir. Bu rahatlığın yaradılmasında və qorunmasında İlham Əliyevin rolunu başlıca faktor olaraq dəyərləndirir:

*Nələr gördün nəsil-nəsil, zaman-zaman, Azərbaycan,*
*Yenə qalib çıxacaqsan tarixlərin sınağından.*
*Sanırdılar kiçilərsən, kəsilərsən, bölünərsən,*
*Əriyərsən, qarışarsan, Yer üzündən silinərsən.*
*Bilmədilər sən başqasan, sən tilsimsən, sən sehirsən.*
*Zərrə qalsan yenə dönüb bir dünyaya çevrilərsən.*
*Bilmədilər qüdsiyyətdən yoğrulubdur bu torpaqlar,*
*Bu millətin üzərində ilahinin nəzəri var.*
*Bütün dünya od içində, ölkəm əmin əllərdədir,*
*Kim yaradıb, kim qoruyub, yenə həmin əllərdədir.*[1]

İlham Əliyevin obrazı ədəbiyyata daha çox 2017-ci ildə baş vermiş Lələtəpə zəfəri zamanı gəldi. Müxtəlif poetik nümunələrdə vəsf olundu, bədii nəsrin təcəssümünə çevrildi. Yunus Oğuzun “Ovçu” romanı aprel hadisələrinə həsr olunmuş ilk bədii-sənədli əsərdir. Burada erməni məkrinin ifşası ilə yanaşı Prezident İlham Əliyevin siyasi lider olaraq üzaqgörənlik və çevikliyi təcəssüm tapır. Filologiya elmləri doktoru Salidə Şərifova yazır: “Yunus Oğuzun “Ovçu” əsərində diqqəti cəlb edən amillərdən biri də Azərbaycan Prezidenti İlham Əliyevin obrazının əksini tapmasıdır. Əsərin “31 Mart 2016-cı il. Azərbaycan Respublikasının Prezident sarayı” başlıqlı bölümündə 1918-ci ilin 31 mart tarixində ermənilərin azərbaycanlılara qarşı törətmiş olduğu vəhşiliklər xatırlanmış, soyqırımın qurbanlarının isə xatirələrinin anılması faktı işıqlandırılmışdır...

Əsərdə atalar və oğullar məsələsinə nəzər salınması nəsillər arasındakı davamçılıq şəklində təqdir olunur. Əsərdə atalar və oğul-

---

[1] Arzu Əsədov. “Ver, ver bizə zəfəri”. Bakı, Aspoliqraf, 2016, s.18

lar məsələsi Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev obrazlarında özünü qabarıq şəkildə göstərməkdədir..."[1]

"Ovçu" romanında Yunus Oğuz aprel hadisələrinin tarixi mahiyyətinə nüfuz etməyə çalışır. Əsərdə əsas obraz, əsas qəhrəman Aprel hadisələrində öz həyatı və hərbçi fəaliyyəti ilə torpağını qorumaq əzmi nümayiş etdirən Murad Mirzəyevdir. Romanda, həmçinin Murad Mirzəyevin atası Telman müəllimin, həyat yoldaşı Fizzə xanımın, o cümlədən milli qəhrəmanların obrazı var. Onlar dövlətin, ordunun, vətənpərvərliyin rəmzi olaraq mənalanırlar. Akademik Nizami Cəfərov əsərlə bağlı təhlillərində yazır: "Azərbaycan ordusu 2016-cı ilin aprel ayının ilk günlərində Ali Baş Komandanın öndərliyi ilə, doğrudan da, tarixlərə sığmayan bir Tarix yaratdı ki, Yunus Oğuz "Ovçu"da həmin Tarixi yazmışdır. Və nəzərə alsaq ki, bu Tarix barədə bundan sonra hələ çox yazılacaqdır, Yunus Oğuzun əsərinin dəyəri bir də onunla müəyyən edilir ki, o, ilk böyük işi görmüş, ilk uğurlu ideya-bədii təfsir modeli təqdim etmişdir.

Romanda üç Murad haqqında söhbət gedir: XI əsrdə Alp Arslanın Ani qalasını almasına öz yeni silah icadı ilə kömək edən dəmirçi Usta Murad, XVIII əsrdə Nadir şahın hərbi məsləhətçisi olmuş Murad xan və bizim günlərin qəhrəmanı -"Ovçu" ləqəbli hərbi kəşfiyyatçı Murad Mirzəyev...[2]

Əsərin "31 mart, 2016-cı il. Azərbaycan Respublikasının Prezident sarayı", "Aprelin 1-i, 2017-ci il, Cəbhə bölgəsi", eləcə də sonda yer almış "4 aprel, Prezident Administrasiyası" fəsillərində Yunus Oğuz Azərbaycan ordusunun 2016-cı ilin aprel qəhrəmanlıqlarının tarixi nəticələrinə diqqəti yönəldir, bu qələbədə Prezident İlham Əliyevin xalqın, dövlətin gələcək taleyi, mənafeyi üçün siyasi uzaqgörənliklə atdığı addımların əhəmiyyətini bədii çəkildə ifadə etməyə çalışır:

"- Bizim Milli Ordu hərb tarixinə yeni bir şanlı səhifə yazmalıdır. İtkilərimiz düşməndən qat-qat az olmalıdır! Düşünürəm ki, xüsusi hərbi hissələrimiz və pilotsuz təyyarələrimiz, bir də sərhəd qoşunlarında olan silahlarımızla bu vəzifəni yerinə yetirə bilərsiniz. Fikrim aydındırmı?!

---

[1] Salidə Şərifova. Yunus Oğuzun "Ovçu" əsərində bədii və sənədli janr xüsusiyyətlərin qarışıqlığı. "Ədəbiyyat" qəzeti, 9 iyun 2018

[2] Nizami Cəfərov. Yunus Oğuz tarixi romanların müasir ustası mövqeyində. "525-ci qəzet", 22 noyabr 2018

General yenə farağat dayandı:

- Bəli, cənab Ali Baş Komandan!

- Elə isə lap yaxşı!

Prezident kreslosunda əyləşdi və masanın üstündəki zərfi nazirə uzatdı.

- Dünya yatanda Milli Ordumuz işləməlidir, general!

... Zərfdə isə aprelin 1-i 23.59 rəqəmi yazılmışdı".[1]

"Ovçu" romanı nəsrimizdə İlham Əliyevin obrazını təsvir edən ilk əsərdir. Onu da qeyd edək ki, əsərdə digər mövzuların, müxtəlif dramatik situasiyaların mövcudluğu belə bu obrazı mərkəzdən periferiyaya sıxışdırmır. Müəllif Prezidentin qətiyyətli obrazını dolğun ifadə və təcəssüm çaları ilə yaratmağa nail olur.

Bu bir faktdır ki, 2017-ci il aprelin 4-də Azərbaycan ordusu ayıqlığını qoruyaraq möhtəşəm zəfərə imza atdı. Lələtəpə üsyanı nəticəsində müəyyən ərazi cəsur əsgərlərimiz tərəfindən geri alındı. Bu hadisə ölkədə böyük coşğu ilə qarşılandı, xalqın inamının geri qayıtmasına , dövlətə ümidinin möhkəmlənməsinə rəvac verdi. Arzu Əsədov "Lələtəpə dastanı" şeirində bu məqamı uğurla ifadə etmişdir:

*...Lazım idi bu qələbə,*
*Lazım idi bu Vətənə.*
*Həyat verən qan kimiydi*
*Qan itirmiş bir bədənə.*
*Lazım idi bu qələbə –*
*Lazım idi Lələtəpə.*
*Lələtəpə bir qayıdış, bir qurtuluş dastanıdır,*
*300 illik savaşın bəlkə də baş dastanıdır!*
*... Lələ təpə – tariximin sınan, dönən nöqtəsidir!*
*Azərbaycan varlığının Yer üzünə diktəsidir.*[2]

Musa Urudun "İlhamla irəliyə" şeiri 2018-ci ildə qələmə alınıb. Müəllif bu dövrdə aparılan Prezident seçkiləri öncəsi xalqı ona səs verməyə çağırıb. Onu da qeyd edək ki, bu şeirdə də Lələtəpə zəfərinə açıq işarələr yer alır:

---

[1] Yunus Oğuz. "Ovçu" romanı, Bakı, OL, 2018, s.40-41
[2] Arzu Əsədov. "Ver, ver bizə zəfəri". Bakı: "Aspoliqraf", 2016, s.16

*Səs ver, uca millətim, haqqın təntənəsinə,*
*Səsini qat sən onun uca, məğrur səsinə.*
*Dünya ayağa qalxsın, qoy onun gur səsinə.*
*"Azərbaycan", – deyəndə, "Qarabağ", – söyləyəndə!*
*İnamla irəliyə!*
*İlhamla irəliyə!*

*Səs ver bacım- qardaşım, səs ver nurlu sabaha*
*Lələtəpə zəfərli bir qürurlu sabaha*
*Şuşalı İrəvanlı, Zəngəzurlu sabaha*
*Gedək yeni zamanla, dövranla irəliyə*
*İlhamla irəliyə, İlhamla İrəliyə!*[1]

İlham Əliyevin adı keçən bütün mətnlərdə Ümummilli lider Heydər Əliyevin imzası ayrıca vurğulanır və bu, təbiidir. Bu şeirdə də müəllif xalqın İlham Əliyevə etimad göstərməsinin əsas səbəblərindən biri olaraq onun Heydər Əliyev siyasi kursunu keçməsini göstərir:

*Səs ver, ərən millətim, döyüşdə ər oğluna!*
*Ulu öndər övladı, Ulu öndər ogluna.*
*İşıqlı sabahını tapşır Heydər oğluna.*
*Günəş tək şəfəq yayar, ay kimi nur çiləyər*
*İlhamla irəliyə, İlhamla irəliyə!*[2]

Vüqar Əhmədin "İlhamım gələndə..." kitabında İlham Əliyevə həsr olunmuş bir neçə şeir yer alır. "İlham gəldi, ilham aldı bu el-oba", "İlham", eləcə də Heydər Əliyevə həsr olunsa da İlham Əliyevin də adının keçdiyi "Babadır", "Mənim qəlbimdə", "Vüqarlı rəhbərim" şeirlərində Vüqar Əhməd ölkə başçısının portretini yaratmağa çalışır, xalqın İlham Əliyevin yanında olduğunu, onun yoluna daha çox inandığını ifadə edir. "İlham gəldi, ilham aldı bu el-oba" şeirində yazır:

[1] Musa Urud. "İlhamla irəli". "Ədalət" qəzeti, 31 mart 2018
[2] Yenə orada

*Görüşündən ilham alır hər insanım,*
*Səni sevir həm qocalar, həm cavanım,*
*Ağıl, zəka, hər nə verib yaradanım,*
*İlham gəldi, ilham aldı bu el-oba,*
*Müəllimin olub sənin Heydər baba!*

*Cavan ikən bir ağsaqqal olacaqsan,*
*Bir müdrik tək tariximdə qalacaqsan.*
*Qarabağı bilirəm sən alacaqsan,*
*Fikir vermə, kim gəzdirsə söz arada,*
*Heydər oğlu İlham harda – biz orada!*[1]

Şairin "İlham" şeirində də eyni fikrin davamı ilə rastlaşırıq:

*Atasından alır gücü, ilhamı,*
*Hörmət göstərirlər el-oba, hamı,*
*Bütöv Azərbaycan sevir İlhamı,*
*Vətənə layiqli oğuldur İlham.*

*Atası tək yalnız yaşayır elçin,*
*Avropa Şurası – o böyük elçi,*
*Olimpiyaçıdır, həm də ki, neftçi,*
*Vətənə layiq bir oğuldur İlham.*[2]

İlham Əliyevin obrazını təcəssüm etdirən əsərlərdən biri Ramiz Heydərin "İlhamlı gələcək" (Qaradağ simfoniyası) poemasıdır. Poemada əsas mövzu rəhbər və xalqdır. Bakı-Ceyhan xətti ilə əlaqədar fəaliyyət, onun ayrılmaz hissəsi olan Qaradağ terminallarının yaradılması prosesi poemada əksini tapır. Daha çox əmək adamlarının, neftçilərin əsas personaj kimi iştirak etdiyi bu poema Azərbaycan prezidenti İlham Əliyevə həsr olunsa da Heydər Əliyevin qayğısı, sadə insanlarla rəftarı, onun abadlaşdırdığı, qurduğu şəhər və kəndlərin tərənnümü də əsas yer tutur.

Mirkazım Seyidovun "Heydər dühası" poeması 2013-cü ildə Heydər Əliyevin 90 illiyi münasibətilə qələmə alınıb. Yeddi fəsildən

---

[1] Vüqar Əhməd. İlhamım gələndə. Bakı: "Min bir mahnı", 2003, s.10
[2] Yenə orada, s.11

ibarət olan poemada Ümummilli liderin doğulduğu, "eşqinin nübarı qədim Naxçıvan" torpağının tərənnümündən tutmuş Moskva fəaliyyətinə, hakimiyyətinin birinci mərhələsinə, habelə 1990-cı illərdə, Bakının ağır günlərində bura dönüşünə, həyata keçirdiyi əməllərin təsvirinə həsr olunub. Daha çox 1990-cı illərdə Azərbaycanda baş verən ictimai-siyasi proseslərə, çarpışmalara, qovğalara yer verilən bu poema Heydər Əliyevin ömür yolunun yaxşı öyrənilməsi, həmin illərdəki proseslərin aydın və obyektiv səciyyələndirilməsi ilə maraq doğurur. Eyni zamanda poemada İlham Əliyevin də obrazı gələcəyin siyasi lideri olaraq xüsusi xətt kimi qabarır.[1]

Çağdaş Azərbaycan lideri İlham Əliyevin obrazı hələ ki, geniş şəkildə dramaturgiyada yer almamışdır. Dramaturgiyada daha çox Ümummilli lider Heydər Əliyevin obrazı qabarıqdır. Bu, yəqin ki, dramaturqlarımızın Heydər Əliyevin xidmətləri qarşısında hiss etdiyi borc duyğusundan hasilə gəlir, yəni mövzu ilə bağlı boşluqları doldurmağa yönəlib. İlham Əliyevin obrazının dram əsərində ehtiva olunduğu yeganə əsər İftixarın "İşıqlı, nurlu sabah" pyesidir ki, pyesdə müəllifin Azərbaycan tarixinin köklərindən gəlmək, b.e.ə. III minillikdə yaranmış Aratta dövlətindən başlamış müstəqillik illərində Heydər Əliyevin qurduğu Azərbaycan dövlətinə qədər keçdiyi yolu əsərə gətirmək cəhdi öndədir. Yalnız birinci hissənin sonunda İlham Əliyev obraz olaraq əsərə daxil olur. Pyesdə Heydər Əliyevin oğluna inamından, özündən sonra hakimiyyətdə onu görmək istəməsindən bəhs edilir. Daha sonrakı hissələrdə İlham Əliyevin andiçmə mərasimi təsvir olunur, onun xalq qarşısında duyduğu məsuliyyət və etimadı doğrultmaq əzmi dialoqlarda yer alır.

*Mənim əziz millətim!*
*Mənim sevimli xalqım!*
*Qoy hər tərəf eşitsin,*
*Hamı fikrimi bilsin! –*
*Sizə böyük sevgim var!*
*Sonsuz məhəbbətim var!*
*Mənə olan etimad*
*Cavabsız qalmayacaq!*
*Arzular solmayacaq!*

---

[1] Mirkazım Seyidov. "Heydər dühası". Bakı, MBM nəşriyyatı, 2013

*Haqsızlıq olmayacaq!*
*And içmişəm kitaba.*
*Mən öpmüşəm bayrağı.*
*Sizə söz verirəm ki,*
*Quracam, yaradacam,*
*Hər sadə vətəndaşın*
*Prezidenti olacam!*

Elm və publisistikada İlham Əliyevin obrazı, gördüyü xidmətlər bədii-sənədli mətnlərdən, habelə elmi və publisistik məqalələrdən xüsusi xətt kimi keçir. Hətta digər sahələrə nisbətən, bu istiqamətdə meydana qoyulan nümunələrdə İlham Əliyevin obrazı daha dolğun, daha əhatəlidir. AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu yazır: "...Yeni Azərbaycanın qəhrəmanı – Heydər Əliyev yolunun layiqli davamçısı, Ulu öndərin Azərbaycançılıq təlimini yeni tarixi şəraitdə yaradıcı şəkildə inkişaf etdirən, Azərbaycan adını, Azərbaycan xalqının xoş niyyət və məramlarını hər gün dünyaya daha da çox tanıdan, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdir. Yeni əsrin və əsərin qəhrəmanı haqqında ilk nümunələrin bədii-sənədli janrda yaranması da təəccüblü deyil".[1]

Prezident İlham Əliyevin elmdə və ədəbiyyatda obrazı davamlı olaraq akademik İsa Həbibbəylinin məqalələrindən keçir. Bu məqalələrdə İlham Əliyevin gördüyü işlər, ölkə naminə atdığı uğurlu addımlar, xüsusilə elm və ədəbiyyat sahəsində həyata keçirdiyi əməli işlər hərtərəfli və siqlətli şəkildə əksini tapmışdır. "Böyük qayıdışın bəhrələri", "Böyük inkişafın reallıqları və üfüqləri", "İlham Əliyev erası", "İlham Əliyev zirvələri" və başqa məqalələrində akademik İsa Həbibbəyli İlham Əliyevin gerçəkləşdirdiyi bütün proseslərə həssaslıqla yanaşaraq onları geniş elmi yanaşmanın predmetinə çevirmişdir. "Böyük qayıdışın bəhrələri" məqaləsində Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin siyasi xidmətləri hərtərəfli ümumiləşdirilmişdir. Müəllif İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsini siyasi varisliklə yanaşı Heydər Əliyev ideallarının yeni epoxaya adlaması, Azərbaycanın çoxcəhətli inkişafını yeni mərhələyə çatdırmaq yolunda müqtədir hadisə

---

[1] Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Monoqrafiya. Bakı, Elm və təhsil, 2018, s. 260

kimi qiymətləndirmişdir. İsa Həbibbəyli bu məqalədə ölkə başçısının Naxçıvan Respublikasının həyatında oynadığı rola işıq salmış, bu yöndə Ümummilli lider Heydər Əliyevin xidmətləri ilə yanaşı İlham Əliyevin də qayğı və əməlləri tədqiq predmetində olmuşdur: "Hazırda cənab İlham Əliyev də universitetin yeni inkişaf mərhələsində onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin və elmin keyfiyyətcə yüksəldilməsinə, elmi-tədqiqat işlərinin səmərəsinin artırılmasına, onun Avropa universitetlərinə inteqrasiyasına xüsusi diqqət və qayğı göstərir. Cənab İlham Əliyev 12 may 2004-cü ildə universitetin yeni Elektron kitabxanasının açılış mərasimində iştirak etmiş, 40 illik yubileyinin keçirilməsi haqqında 31 mart 2007-ci ildə sərəncam vermiş və 17 oktyabr 2007-ci il tarixli yubileydə dərin məzmunlu nitq söyləmişdir".

Akademik İsa Həbibbəyli "Böyük inkişafın reallıqları və üfüqləri" məqaləsində müstəqillik dövrünü iki mərtəhələdə təsnif etmişdir: "Azərbaycan Respublikasının müstəqillik epoxası əsasən iki mərhələdən ibarətdir. Dövlət müstəqilliyinin Heydər Əliyev mərhələsi və müstəqilliyin yeni erasının lideri İlham Əliyev dövrü. Müstəqil Azərbaycan dövləti üçün zəruri və əhəmiyyətli olan bu mərhələlər bir-birini tamamlayıb möhkəmləndirir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ölkəmizdə dövlət müstəqilliyinin möhkəm təməllərini yaratmışdır. Prezident İlham Əliyev isə bütün istiqamətlər üzrə müstəqil dövlətçiliyi daha da inkişaf etdirərək yeni mərhələyə çıxarmışdır. Bu mənada Heydər Əliyev mərhələsi müstəqil Azərbaycan dövlətinin etibarlı və möhkəm pyedestalı, Prezident İlham Əliyev dövrü isə daim inkişafda olan möhtəşəm heykəlidir".[1]

İsa Həbibbəyli İlham Əliyevi XXI əsrin meydana çıxardığı, böyük siyasi-ideoloji məktəb keçmiş, Azərbaycan dövlətinin dayaqlarını əsaslı şəkildə inkişaf etdirərək möhkəmləndirən və yeni üfüqlər açan qüvvətli lider kimi xarakterizə edərək onun dövlətçilik amilinin güclənməsindəki roluna işıq salır. Bu amillər hansılardır? Akademik bunu bir neçə aspektdə vurğulayır: Azərbaycan neft siyasətini ardıcıl və yüksək səviyyədə inkişaf etdirməsi, dünya ölkələri ilə inteqrasiya proseslərinin daha da genişləndirilməsi, bir çox hallarda isə yeni əlaqələrin yaranmasına yol açması, müxtəlif layihələr əsa-

[1] İsa Həbibbəyli "Böyük inkişafın reallıqları və üfüqləri" məqaləsi. "Azərbaycan" qəzeti, 23 dekabr 2017

sında ölkədəki rifaha çalışması, quruculuq işlərinin möhkəmlənməsi və geniş şəkil alması prosesində xidmətləri və s. İsa Həbibbəyli doğru qeyd edir ki, "milli mənafeyi və dövlətçilik maraqlarını bütün məqamlarda hər şeydən üstün tutmaq İlham Əliyev siyasətinin əsas mahiyyətini təşkil edir".[1]

İsa Həbibbəylinin məqaləsində İlham Əliyevin elm siyasəti, elmə göstərdiyi diqqət əlamətdar hadisə olaraq dəyərləndirilir. Akademik bunu elmin inkişaf etdirilməsi yönündə müqtədir addım hesab edir. Bildirir ki, prezidentin elmə marağı, onu diqqətdə saxlaması elmin inkişafı, ölkə hüdudlarını adlayıb xarici dövlətlərdə nüfuz qazanması baxımından böyük məna kəsb edir. Bu diqqət özünü nədə göstərir? İsa Həbibbəyli yazır: "İlk dəfə olaraq 2018-ci ilin dövlət büdcəsində elmyönlü innovasiya və sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərin tənzimlənməsinə dair müddəaların yer alması artıq bu sektorun real amilə çevrilməkdə olduğunu nəzərə çarpdırır. Möhtərəm Prezidentin xüsusi sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasında yaradılmış Yüksək Texnologiyalar Parkının fəaliyyətinin qısa müddətdə ölkə və dünya rezidentlərinin marağına səbəb olması, təcrübə-sənaye zavodunda müasir bazarın marağına səbəb olan məhsullar istehsal etməsi ölkə elmi mühitinin yeni hadisələridir".

Akademik elmin inkişafı deyərkən İlham Əliyevin təhsil və dillə bağlı verdiyi qərarlardan da çıxış edir. Hər iki sahə ilə bağlı verilmiş qərarları ölkəmizdə milli-mənəvi dəyərlərin dərinləşdirilməsini təmin etməyə yönəldilmiş strateji addımlar kimi mühüm əhəmiyyətli hesab edir.

İlham Əliyev siyasətinin başlıca istiqaməti azərbaycançılıq ideologiyasıdır. İsa Həbibbəyli də ondakı bu ali hissi, dövlətinə və dövlətçiliyinə, milli ideologiyaya etibarlı olmasını köklü amil hesab edərək bunun Ümummilli lider Heydər Əliyevdən gəldiyini vurğulayır. Qeyd edək ki, İsa Həbibbəylinin özü İlham Əliyevin siyasətində başlıca yer tutan bu doktrinanın elmdə davam tapması yönündə xidmət göstərən alimlərdəndir. İsa Həbibbəylinin son illərdə meydana qoyduğu ədəbiyyat tarixçiliyi konsepsiyasının da yeni dövr üçün

[1] İsa Həbibbəyli "Böyük inkişafın reallıqları və üfüqləri" məqaləsi. "Azərbaycan" qəzeti, 23 dekabr 2017

əhəmiyyəti də ilk növbədə, onun azərbaycançılıq ideologiyasının prinsipləri əsasında yazılmasıdır.

İsa Həbibbəylinin yaradıcılıq kredosunun əsasında milli şüurun yetkinləşməsi, xalqın etnogenezisinin dərki üçün vacib olan bu amilin bir doktrina, konsepsiya kimi ədəbi-nəzəri fikirdə qoyuluşunun vacibliyini təsbit etmək dayanır. Akademikin "Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr" kitabında oxuyuruq: "Möhtərəm Prezidentimiz İlham Əliyev yeni tarixi epoxanın ədəbiyyat siyasətini formalaşdırır və ardıcıl olaraq inkişaf etdirir. Müstəqil Azərbaycanda uğurla həyata keçirilən ədəbiyyat siyasəti yeni ədəbiyyat axtarışlarının və çağdaş ədəbi nəslin meydana çıxması, ərsəyə gəlməsi ilə nəticələnir. Müasir dövrün ədəbiyyat siyasəti Azərbaycançılıq məfkurəsinin daha da zənginləşdirilməsinə də xidmət edir".[1]

"İlham Əliyev erası" məqaləsi Prezident İlham Əliyevin rəhbər fəaliyyətinin 15 illiyinə həsr olunub. Bu məqalədə İsa Həbibbəyli İlham Əliyevin kamil siyasətçi obrazını bütün tərəflərdən açmağa çalışır. Prezident İlham Əliyevi XXI əsrin meydana çıxardığı yeni siyasi liderlərin və dövlət başçılarının ən görkəmlisi adlandıran akademik İsa Həbibbəyli onun rəhbər kimi şərəf və məsuliyyətindən, köklü, davamlı dövlətçilik ənənələrini qoruyub-saxlamasından, dövlət strukturunu dünya standartlarına uyğunlaşdırmasından, dövlətin idarə olunmasının ən müasir forma və metodlarına istinad etməsindən bəhs edir: "Bu gün İlham Əliyev artıq geniş mənada dünyada qəbul olunmuş görkəmli siyasi liderdir. Dünya təcrübəsindən görünür ki, bir çox dövlət başçıları yalnız ölkəyə ümumi rəhbərlik vəzifəsini yerinə yetirməklə kifayətlənməli olurlar. Onların bir çoxunun ampluası praktik rəhbərlikdən başqa daha heç nəyi əhatə edə, yaxud əks etdirə bilmir. Prezident İlham Əliyev isə bacarıqlı, mükəmməl, qurucu dövlət xadimi olmaqla bir sırada, həm də geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara malik olan mükəmməl siyasi xadimdir".[2]

İsa Həbibbəyli məqalədə Prezident İlham Əliyevin 15 illik hakimiyyət dövründə ölkəmizdə elmin, mədəniyyətin və ədəbiyyatın inkişaf etdirilməsi yönündəki xidmətlərinə də toxunmuş, onun tərə-

[1] İsa Həbibbəyli, "Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr". Naxçıvan, Əcəmi, 2013, s.14
[2] İsa Həbibbəyli. İlham Əliyev erası. "Azərbaycan" qəzeti, 14 oktyabr 2018

findən imzalanan “Elm haqqında” Azərbaycan Respublikasının Qanununun ölkəmizdə yeni elmi mühitin formalaşdırılması və inkişafına böyük üfüqlər açdığını qeyd etmişdir. Prezident İlham Əliyevin sərəncamı ilə Milli Elmlər Akademiyasında yaradılmış Yüksək Texnologiyalar Parkını ən müasir elm və istehsalat kompleksi kimi nümunə çəkən akademik İsa Həbibbəyli İlham Əliyevi Azərbaycanı bütün sahə və istiqamətlərdə magistral yollara çıxaran, perspektiv cızan lider kimi dəyərləndirmişdir: “Müstəqil Azərbaycanın yeni həyatının, təzə çağının qüdrətli müəllifi Prezident İlham Əliyevdir. Dünyanın yeni reallıqları, beynəlxalq aləmdə gedən müasir proseslər zəminində yeni Azərbaycanın maraqlarını və mənafeyini ifadə etməkdə İlham Əliyev zəngin təcrübəyə, dönməz siyasi iradəyə malikdir.

İlham Əliyev – yeni mərhələdə Azərbaycan ölkəsinin və cəmiyyətimizin müasirləşdirilməsinin baş memarıdır.

İlham Əliyev – yeni siyasi təfəkkürə və yaradıcı yanaşmalara malik olan novator dövlət xadimidir.

Müstəqillik andı, xalq amili, milli mənafe, ölkə maraqları İlham Əliyev üçün müqəddəs meyarlardır!

İlham Əliyev – yaxın və uzaq gələcəyi, bütün reallıqları incəliklərinə qədər görən və məharətlə proqnozlaşdırmağı bacaran böyük dövlət xadimidir.

Ölkəmizin və xalqımızın bundan sonrakı mərhələdə də İlham Əliyev kimi geniş formatda, böyük masştabda düşünən, beynəlxalq aləmdə qəbul edilən, xalqına və dövlətinə ürəkdən bağlı olan, yüksək səviyyəli və enerjili dövlət xadiminə ciddi ehtiyacı var”.[1]

“İlham Əliyev zirvələri” məqaləsində də müəllif obyektivinin fokusunda yenə də Prezident İlham Əliyevi və onun həyata keçirdiyi işlərin təsvirini görürük. Akademik İsa Həbibbəyli bu yazıda Prezidentin yeni həyata keçirilən proseslərin davamını əhatə etməklə bahəm, başlıca olaraq Zirvə məqamlarına diqqət yönətməyə çalışır. İlham Əliyev tərəfindən əsası qoyulan və Zirvə sayılacaq əməllər sırası bu yazıdan əsas xətt kimi keçir. Bu əməllər hansılardır? Əlbəttə ki, çoxdur, davamlıdır, xalqın və millətin yaddaşında, tərcümeyi-halında şərəflə yazılacaq səhifələrdir. Onlardan yalnız bir qismini sadalaya bilərik: “Azərbaycan Respublikasının Qərb ölkələrindən qa-

---

[1] İsa Həbibbəyli. İlham Əliyev erası. “Azərbaycan” qəzeti, 14 oktyabr 2018

baq yüksək səviyyədə və çox mütəşəkkil şəkildə Avropa Oyunları keçirməsi, idmançılarımızın böyük uğurlar qazanması – Zirvə! IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etmək və idmanın əsas növləri üzrə dünya çempionu adı qazanmaq, bütün ölkələrdən çox qızıl medal sahibi olmaq da zirvələrdən biridir. Bakı şəhəri, "Alov qüllələri" – Zirvə!

Beş min il əvvəl Gəmiqaya-Qobustan – Zirvə!

Yetmiş il əvvəl Neft daşları – Zirvə!

Bu gün Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, bütövlükdə Azərbaycan – Zirvə!

Nəhayət, Azərbaycan ordusunun 2016-cı ilin Aprel döyüşlərindəki böyük qələbəsi – Zirvə!

Əlahiddə Azərbaycan Ordusunun 2018-ci ilin uğurlu döyüş əməliyyatları nəticəsində Naxçıvan Muxtar Respublikasındakı 11 min hektarlıq ərazini işğaldan azad etməsi və Ermənistan üçün strateji əhəmiyyətə malik olan İrəvan-Laçın magistral yoluna nəzarəti ələ keçirməsi – Zirvə!

Azərbaycan əsgərinin düşmən sərhədində yerləşən, dəniz səviyyəsindən 1800 metrlik yüksəkliyə malik olan Şərur rayonu ərazisindəki Qızılqayanın ən uca nöqtəsinə Azərbaycan bayrağını taxması: Zirvə!

Bəli, "İlham Əliyev erası milli mədəniyyəti də yeni mərhələyə çıxarmışdır".[1] Prezidentdən bəhs edən bütün məqalələr bu mərhələnin Azərbaycanın müstəqillik tarixində yerindən, məqamından yetərincə dolğunluqla bəhs edirlər. Bu dolğunluğu yaradan, ona imkan verən həyata keçirilən miqyaslı, geniş masştablı əməllərdir ki, gözlərimiz önündə gerçəkləşir, durmadan artır, şöhrəti ölkə sınırlarını yarıb dünya sferalarına adlayır.

Prezident İlham Əliyevdən bəhs edən məqalələrdə bir məqamın da varlığı diqqət çəkir. Müəlliflər yazılarında ölkənin birinci xanımı, vitse prezident Mehriban Əliyevanın adını çəkməyi, onun gördüyü işlərə işıq salmağı labüd hesab edirlər. Məsələn, Akif Əliyevin "Heydər Əliyev və ədəbiyyatımız" kitabında oxuyuruq: "Zirvəyə qalxmaq heç də asan deyil! Onun ilk addımı xalqın qəlbinə gedən yoldan başlanır. Bu haqq, ədalət, Tanrı yoludur! İlham Əliyev də bu yolun yolçusudur! Sükan arxasına keçib Mehriban xanımla

[1] İsa Həbibbəyli. İlham Əliyev zirvələri. "Azərbaycan" qəzeti, 23 dekabr 2018

birlikdə bütün Azərbaycanı gəzir. Xalqın sevincini, kədərini öyrənib, ona şərik çıxmaq üçün… Hələlik bu tarixin səhifələrinə yazılır. İnanıram ki, sabah bədii ədəbiyyatımızda xeyirxah və xeyriyyəçi kimi şöhrətlənən "İlham və Mehriban" dastanının yeni boy və qolları yaranacaq".[1]

Akademik Teymur Kərimli və Vilayət Quliyevin, akademik Rafael Hüseynovun məqalələrində də İlham Əliyevin obrazı müstəqil Azərbaycanın inamlı sabahını təmin edən, Heydər Əliyev ideallarının layiqli davamçısı statusundadır. Rafael Hüseynov yazır: "Müasir müstəqil Azərbaycan dahi Heydər Əliyevin şah əsəridirsə, müasir firavan, güclü, sabaha inamlı Azərbaycan da Prezident İlham Əliyevin şah əsəridir".[2]

Teymur Əhmədov "Müsibətli günlərin əks-sədası" məqaləsində Heydər Əliyevin ölkəni xaosdan qurtarmaq yönündəki addımları uğurlu ifadəsini tapmışdır. Müəllif həmin illərin gərgin və kataklik ab-havasını psixolji çalarları ilə mətnə gətirmişdir. Sonda isə onun da gəldiyi yekun qənaət budur: "Heydər Əliyevin siyasətinin bu gün Azərbaycanda uğurla davam etdirilməsi ölkə başçısı İlham Əliyevin istedadlı dövlət xadimi, yetkin siyasətçi olması ilə yanaşı, mövcud siyasətə sədaqəti ilə bağlıdır".[3]

Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" seriyasından "İlham Əliyev" (2007), Elmira Axundovanın "İlham Əliyev. Dəyişmələr fonunda Prezidentin portreti" bədii-sənədli əsərləri İlham Əliyevin həyat və siyasət yoluna işıq salan geniş tədqiqat əsərləridir. Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" seriyasından çap olunan "İlham Əliyev" kitabında Azərbaycan tarixinin, siyasi həyatının, keçdiyi keşməkeşli yolun bir əsrdən də çox zaman kəsiminə siqlətli nüfuz var. Burada Ümummilli lider Heydər Əliyevin doğumundan vəfatına qədər ömrünün ən əhəmiyyətli məqamları tədqiq predmetinə çevrilmişdir. Heydər Əliyevin siyasi lider olaraq əvəzsizliyi, tədbirliliyi, uzaqgörənliyi, eləcə də böyük azərbaycançı mövqeyinə görə Siyasi Büroda bunlara görə necə "təhlükə mənbəyi" olması kimi faktlar əsərdə obrazlı şəkildə əksini tapmışdır. Mü-

---

[1] Akif Əliyev. "Heydər Əliyev və ədəbiyyatımız".Bakı: Nurlan, 2007, s.293

[2] Bax: Tərlan Novruzov. Müstəqillik illərində Azərbaycan ədəbiyyatına dövlət qayğısı. Bakı, Elm və təhsil, 2015, s.15

[3] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, IV cild. Bakı, Nurlar, 2015, s.354

əlliflərin İlham Əliyevdən bəhs etdikləri kitabda bu məqamları obyektivin fokusuna gətirmələri təsadüfi deyil. Axı bütün bu çətin zamanlarda İlham Əliyev atasının yanında olmuş, ondan siyasi təcrübə ilə yanaşı, iradə, dözüm, əzm nümayiş etdirməyi də əxz etmişdir. Bütün bu hadisələr kitabda ətraflı şəkildə, həm həmin günlərin iştirakçısı olmuş siyasi xadimlərin, həm də Əliyevlər ailəsinin dilindən nəql olunmuşdur:

"Mehriban Əliyeva: "1987-ci ildən sonra bizim ailəmiz həqiqətən çox böyük çətinliklərlə üzləşdi. İlham özünü itirmədi. Hər şey elədi ki, ailəsi, uşaqlar bu çətinliyi hiss etməsinlər. O zaman çox böyük problemlərimiz var idi, bizə demək olar ki, heç kəs kömək etmirdi. Onun sayəsində biz çox üzgünlük çəkmədik..."

- Ağır idimi? – "Günay" qəzetinin jurnalisti bir il keçəndən sonra İlham Əliyevdən soruşur?

- Ağır idi, – İlham həqiqəti gizlətmir, - mən nəzarət altında yaşayırdım, ağlıma da gəlmirdi ki, haçansa Bakıya qayıdaram. Bizneslə məşğul olmağa başladım".[1]

Bu epizodlarda İlham Əliyevin dözümlü, məsuliyyətli bir ailə başçısı obrazı sərgilənir. Çətinliklərdə ruhdan düşmür, sarsılmır, hər şeyi həyatın imtahanı, sınaq məqamı kimi qəbul edib ayağa qalxmağa, dirçəlməyə özündə qüdrət tapır.

"Viktor Andriyanov və Hüseynbala Mirələmovun "İlham Əliyev" kitabının əsas özəlliyi də bunda üzə çıxır. Müəlliflər İlham Əliyevi yalnız siyasət kürsüsündə təsvir etmirlər, ona aparan bütün yolları addım-addım izləyirlər, bütün görüşlər, diplomatik tanışlıqlar, sazişlərin harda və hansı şəraitdə imzalanma faktlarının şərhi ilə prosesin tam şəkildə canlanmasına xidmət göstərirlər. Əhəmiyyətli məqamlardan biri də Heydər Əliyev obrazının əsərdə daim canlı şəkildə görünməsindədir. Niyə də olmasın?! Bir halda da ki, İlham Əliyevin həyatında, siyasi tərcümeyi-halında bu obraz daim diri, daim yaşarıdır. Kitabda bu məqam İlham Əliyevin dilindən ifadə edilmiş aşağıdakı fikirlərdə inikasını tapıb: "O, məndən ötrü doğma insandır, atamdır, o, bütün ömrü boyu, ictimai-siyasi situasiyalardan asılı olmayaraq, xalqına bütün varlığı ilə xidmət etmiş liderdir. Azərbaycanın tərəqqisində onun əməyi qiymətsizdir. Ona saflıq və

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. İlham Əliyev. M.: Molodaya qvardiya, 2007 – 436 (4) s.: il – (JZL: Bioqrafiya davam edir: ser. Bioqr.; vip.8), s.110

ali insani keyfiyyətlər xasdır. Amma bu keyfiyyətlərlə siyasi karyerada çox uzağa getmək olmur. Bu planda o unikaldır. Bir ailə üzvü kimi mənə daha yaxşı bəllidir, nəinki başqasına: axı başqaları dövlət xadimlərini ya aralıdan görürlər, ya da televizorda”.[1]

Viktor Andriyanov və Hüseynbala Mirələmovun “İlham Əliyev” kitabında Ümummilli lider Heydər Əliyevlə Prezident İlham Əliyevin ədəbiyyatla bağlı göstərdiyi xidmətlər də geniş ifadəsini tapmışdır. Kitabın “Körpülər” adlanan V fəslinin “Kökünə qayıdış” bölümündə Hüseyn Cavidlə bağlı görülən işlər bütün təfərrüatı ilə təqdim olunur: dahi sənətkarın nəşinin uzaq Sibirdən vətənə gətirilməsindən başlamış Cavidlər ailəsinin bütün üzvlərinə göstərilən rəhbər həssaslığı incələnir. Həmin fəslin “Gələcəyə yolu yalnız məktəb açır” bölümdə isə akademik İsa Həbibbəylinin Cəlil Məmmədqulquzadə ilə bağlı gördüyü xidmətlər və bu yöndə Heydər Əliyevin rolu ayrıca tədqiq predmetinə çevrilir. Böyük yazıçı-dramaturqun əsərlərinin tam çəkildə tədqiqi, nəvəsi Teymurla bağlı İsa Həbibbəylinin axtarışları və Heydər Əliyevin bu məsələyə xüsusi diqqət və marağı, Ümummilli liderin Mirzə Cəlil varislərinə sonadək arxa çıxması kimi məqamları kitabda həyəcansız oxumaq olmur. Özü də bütün bunları Heydər Əliyev elə bir şəraitdə edir ki, “Naxçıvan blokadada donur. Adamlar ağacları kəsirlər ki, sobada yandıırb qızına bilsinlər. Çörək növbələrində əziyyət çəkirlər...”[2] 1991-ci ilin 15 yanvarından gedir söhbət! Məhz belə bir çətin anda da Heydər Əliyev sənətə və sənətkara sahib çıxmağı bacarır. İsa Həbibbəylini ona gələn məktubun ardınca Tehrana, Cəlil Məmmədquluzadənin nəvəsi Teymurla görüşməyə göndərir, lazım olan bütün sənədlərin hazırlanmasına göstəriş verir. Budur Heydər Əliyevin ədəbiyyatlaşan obrazının gücü! İlham Əliyevin sözləri ilə desək: “Bu planda o unikaldır”!

Elmira Axundovanın “İlham Əliyev. Dəyişmələr fonunda Prezidentin portreti” bədii-sənədli əsəri də Prezident İlham Əliyevin hakimiyyətdə olan zaman kəsimi ilə bahəm fəaliyyətinin, yaşamının bütün aspektlərinə ayna tutur. Onun bir prezident kimi obrazı, özünəməxsusluğu, atasından əxz etdiyi mənəvi keyfiyyətlər kitabda geniş formada təhlil edilmişdir. Elmira Axundova yazır: “Biz bu gün fəxr edirik ki, ölkəmizin prezidenti XXI əsrin siyasətçisi, Oljas Sü-

---

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. İlham Əliyev. M.: Molodaya qvardiya, 2007 – 436 (4) s.: il – (JZL: Bioqrafiya davam edir: ser. Bioqr.; vip.8), s.111

[2] Yenə orada, s.125

leymenovun sözləri ilə desək, "planetar miqyaslı"lı insan, İlham Heydər oğlu Əliyevdir".[1]

Elmira Axundovanın kitabı İlham Əlieyvin simasında ölkədəki quruculuq proseslərinə işıq salır, bu prosesləri bütün çalarları ilə təsvirə çəkir, son on beş illik zaman kəsimində İlham Əliyevin siyasi lider olaraq siyasət meydanında hansı yeniliklərə imza atması kimi məsələlərin dərinlərinə varır. Bu dərinlərdə isə nəinki İlham Əliyev, eləcə də Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu tarixi təcrübənin, ənənələrin izi, yolu görünür. Bu mənada AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu dəqiq ifadə edir ki, "Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" seriyasından "İlham Əliyev" (2007), Elmira Axundovanın "İlham Əliyev. Dəyişmələr fonunda Prezidentin portreti" bədii-sənədli əsərləri əsrin qəhrəmanının simasında ən yeni Azərbaycanın qazandığı qlobal uğurları, XXI əsrdə dünyaya səs salan yeniləşən Azərbaycanı görməyə imkan verir. Bu həm də Heydər Əliyev ideyalarının gerçəkliyi və qələbəsidir. Əslində, bugün milli ədəbiyyatda yaranan hər bir dəyərli əsərdə bütün uğurları, çətinlikləri, irəliyə doğru addımları ilə birgə Ulu öndərin təməlini qoyduğu müasir Azərbaycanın obrazı var. Obrazın hüdudları və hüdudsuzluğu bu parametrlərdə görünür, gerçəkləşir".[2]

Alqış Musayevin Heydər Əliyevə həsr olunmuş məqaləsinin adı belədir: "O, çətin vaxtlarda həmişə göydən gəlirdi...". Müəllif Heydər Əliyevin gördüyü nəhayətsiz əməllərdən bəhs edib böyük ömrün işıqlarına nəzər salır, son ana qədər xalqa xərclənən ömrün miqyaslı işlərini sadalayır, bununla belə fikrini bədbin sonluqla qapamır. Niyə? Çünki müəllifə görə: "Zaman-zaman Əliyev fenomeninin silsilə qayıdışları gerçəkləşir və gerçəkləşəcək. İşıqlı, canlı xatirələrlə, ustad dərsləriylə, sadiq və səmimi silahdaşları ilə. İlham Əliyevin timsalında yenidən qayıtdığı kimi. Dostlarımızdan biri, millət vəkili Zahid Oruc İlham Əliyevi 56 yaşlı Heydər Əliyevə bənzədir. Məncə, İlham Əliyev özünün siyasi təmkini və mükəmməl

[1] Эльмира Ахундова. Ильхам Алиев. Портрет президента на фоне перемен. Москва, РОССПЕН, 2016, s.333

[2] Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Monoqrafiya. Bakı, Elm və təhsil, 2018, s. 260

ədəb-ərkanı ilə daha çox 95 yaşlı müdrik və ağsaqqal Heydər Əliyevə oxşayır..."[1]

Azər Turanın 2018-ci ildə çap edilmiş "Azərbaycanın gücü" məqaləsində İlham Əliyevin Əli bəy Hüseynzadə ilə bağlı verdiyi qərarlardan bəhs edilir. Azər Turan türkçülüyün ideoloqlarından olan, üçlü düsturun yaradıcısı Əli bəy Hüseynzadə ilə bağlı verilən fərmanları ölkə başçısının milli məfkurəmizə, milli ideala sadiqliyi kimi dəyərləndirir: "Fikir həyatımız üçün önəmli olan üç mühüm sənədin altında İlham Əliyevin imzası dayanır. Doğrudur, o, dövlətimizin yüksəlişi, Azərbaycanın Avropa mədəniyyətinə inteqrasiyası naminə siyasi, iqtisadi məzmunlu çox qərarlar imzalayıb, amma haqqında bəhs edəcəyim üç sərəncam dövlətimizin türk düşüncəsinə vəfadarlıq duyğusunun ifadəsi baxımından çox önəmlidir. Hətta o qədər önəmlidir ki, bu üç sənəd ruhunda milli məfkurə havası gəzdirən hər kəs üçün seçkilərdə onun prezidentliyini birmənalı şəkildə dəstəkləməyə yetərli bir əsas verir. Birincisi, Əli bəy Hüseynzadənin tam bəraətinə rəvac verən 21 yanvar 2014-cü il tarixli sərəncam. İkincisi, Azərbaycanda 2018-ci ilin Cümhuriyyət ili elan olunması. Və nəhayət, Əli bəy Hüseynzadənin qızı Feyzavər Alpsarın Azərbaycan dövlətinin böyük mükafatlarından biri olan "Dostluq" ordeni ilə təltif edilməsi".[2]

Azər Turan "Azərbaycanın gücü" məqaləsində hələ Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Əli bəy Hüseynzadənin adına və düşüncələrinə yönəli filoloji və humanitar nihilizmin nəzərə çarpacaq dərəcədə səngidiyini qeyd edərək, sonrakı illərdə bu qədirşünaslıq nümunəsinin prezident İlham Əliyevin siyasi fəaliiyətində davam tapdığını bildirmişdir: "Əli bəy Hüseynzadənin əsərlərinin dövlət səviyyəsində ilk təqdimatı da İlham Əliyevin latın qrafikalı nəşrlərin həyata keçirilməsi ilə bağlı sərəncamından sonra gerçəkləşdi. Xatırlayıram, o zaman Əli bəy Hüseynzadənin kitabının 250 səhifədən ibarət olması barədə fikir var idi. Amma elmi redaktor olaraq hazırlayıb nəşriyyata təqdim etdiyim kitab Hüseynzadənin demək olar ki, bütün ədəbi-publisistik irsini əhatə etdiyindən 500 səhifə civarında və 25000 tirajla nəşr olundu.

---

[1] Alqış Musayev. "O, çətin vaxtlarda həmişə göydən gəlirdi...". "525-ci qəzet", 15 iyun 2018

[2] Azər Turan. Azərbaycanın gücü. "Ədəbiyyat" qəzeti, 31 mart 2018

Mənə elə gəlir ki, Feyzavər Alpsarın da Çingiz Aytmatovun, Oljas Süleymenovun layiq görüldüyü "Dostluq" ordeni ilə təltif edilməsi yüz il bundan qabaq Əli bəy Hüseynzadənin həyata keçirdiyi işlərin qarşılığında Azərbaycan adına bir qədirdanlıq nümunəsidir. İlham Əliyevin timsalında dövlətimizin öz dəyərlərinə bütövlükdə sahib çıxmasının gözəl və misilsiz bir örnəyidir".[1]

Azər Turanın "Azərbaycanın gücü" məqaləsi İlham Əliyevin milli məfkurənin qurulması və qorunması istiqamətində atdığı çoxyönlü işlərə ayna tutur. O işlər ki, sadalandıqca ölkə rəhbərinin yaddaşa etibarı və milli vüqarı görünür, türklüyə sevgisi axar-baxarında təcəssüm tapır, dövləti möhkəmləndirmək naminə atdığı uzaqgörən, strateji addımların alt qatını görməyə imkan yaranır: "İlham Əliyev 2008-ci ildə Bakıda İstiqlal Bəyannaməsini abidələşdirdi. İlham Əliyev Azərbaycanda türk qanlı, islam imanlı, Avropa fikirli bayrağımız üçün Bayraq meydanlarını qurdu. O bayrağın ki, onu mənalandıran üç ümdə amilin ideoloqu da Hüseynzadə idi. İlham Əliyev 2018-ci ili Azərbaycanda Cümhuriyyət ili elan etdi. O cümhuriyyət ki, Əli bəy ölkənin "irəli gələnləri, münəvvərləriylə birgə Azərbaycanın bir Cümhuriyyət halında təsis və təşkil olunmasında yaxından iştirak" etmişdi".[2]

2018-ci ilin Cümhuriyyət ili elan edilməsindən sonra ardınca gələn 2019-cu ildə Prezident İlham Əliyev növbəti mütərəqqi addımı ilə ədəbiyyatı müjdələdi. İmadəddin Nəsiminin 650 illiyinin qeyd olunması ilə bağlı sərəncam imzalaması ilə bahəm 2019-cu ili Nəsimi ili elan etdi. Ardınca növbəti sərəncamlar: Cəfər Cabbarlının 120, Cəlil Məmmədquluzadənin 150, İsmayıl Şıxlının 100, Həmid Araslının 110, Məmməd Cəfər Cəfərovun 110 illik yubileylərinin keçirilməsinə dair sərəncamlar imzaladı, ədəbi ictimaiyyətimizi davamlı yubiley sevincinə köklədi. Bu sərəncamlar dövlətin milli-mənəvi dəyərlərə sadiqliyi, özgürlüyünü qorumaq əzminin nümayişi, xalqın irsinə, klassikasına və çağdaş ədəbiyyatına ali münasibətin ifadəsidir. AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu "Yubiley saatı və ədəbiyyatın missiyası" məqaləsində həmin sərəncamlarla bağlı məqamı İlham Əliyevin siyasi fəaliyyətində əhəmiyyətli hadisə olaraq önə çəkir, bu kimi həssaslığı Ümummilli lider Heydər Əli-

---

[1] Azər Turan. Azərbaycanın gücü. "Ədəbiyyat" qəzeti, 31 mart 2018
[2] Yenə orada

yev dühasına, şəxsiyyətinə, ədəbiyyata baxış tərzinə aid nəsnə hesab edərək yazır: "Azərbaycan Prezidenti İlham Əliyevin son illərimizi "Multikulturalizm ili", "İslam həmrəyliyi ili", "Azərbaycan Xalq Cümhuriyyəti ili", "İmadəddin Nəsimi ili" elan etməsi məhz Heydər Əliyev yolunun yeni tarixi formatda davamının əyani sübutudur. Bu dövləti format ona görə mühüm və önəmlidir ki, bir yandan bütöv bir zaman ərzində cəmiyyəti milli və tarixi dəyərlər üzərində kökləyir, səfərbər edir, toparlayır, xalqın özünə-sədaqət və özünə-inam hisslərini gücləndirir, özündən uzaqlaşma hallarının qarşısını alır. Eyni zamanda, digər tərəfdən kimliyimizi, varlığımızı, mental dəyərlərimizi və müasirliyimizi bu və başqa yöndən bütün dünyaya bəyan etməyə fürsət yaradır. Azərbaycan Prezidenti çıxışlarında özünəxas Azərbaycan modelindən söz açır və bir anlığa yaşadığımız son "milli illər"in (multikultural-islami-demokratik-klassik) addımlarına həssas olsaq, həmin modelin fəlsəfəsinə də xali olasıyıq".[1]

Müəllifə görə çağdaş Azərbaycançılıq ideologiyasının formalaşması prosesində Ulu öndər Heydər Əliyevin istinad etdiyi ünvan daim klassik irs və milli-mənəvi dəyərlər olmuşdur. Müxbir üzv qənaətlərində haqlı idi. Bəli, "nə olmuşdursa, olmuşdur, ulu Heydər Əliyev Azərbaycan adı gələndə zamanları, epoxaları, tarixi dəyərləri qarşı-qarşıya qoymağın əleyhdarı, Azərbaycan mənasını, Azərbaycan idealını daima qoruyub-yaşatmağın tərəfdarı idi". Müəllif Prezident İlham Əliyevin də imzaladığı sərəncamlara həmin idealın sözdə, fikirdə və əməldə davamının ifadəsi kimi yanaşır ki, onlarda azərbaycançılıq amalının uca vurğu ilə səslənişini görür. Tehran Əlişanoğlu bu sərəncamları bir neçə aspektdə tədqiq predmetinə çevirərək onlarda XX əsr boyu irəli sürülən "Azərbaycan modeli"nin izlərini, təzahürlərini arayır, seçir, hədəfə çevirir: "Birincisi, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəşət edən Azərbaycan iftixarı, Azərbaycan qüruru, Azərbaycan adı-mənası-ideyasının vəsfi-tərənnümü-təcəssümü modelidir. ...İkinci bir model daha irəlidən, əsrin əvvəllərindən gələn analitik Azərbaycan modelidir, istisnasız Cəlil Məmmədquluzadənin adı ilə bağlıdır; M.Ə.Sabir, M.Hadi, A.Səhhət, Ə.Haqverdiyev, A.Şaiq, Y.V.Çəmənzəminlidə, 60-cılar ədəbiyyatında və bu gün (onlarla digər yazıçı və şairin yaradıcılığın-

---

[1] Tehran Əlişanoğlu. Yubiley saatı və ədəbiyyatın missiyası. "Ədəbiyyat qəzeti", 22 fevral 2019

da) müxtəlif çalarlarda davam tapır, intişar edir, meta-təhkiyəyə çevrilir və hətta metastaz verir. Dahi Mirzə Cəlilin 150 illik yubileyi günlərində bu məqama məxsusi diqqət yetirməliyik. ...Üçüncü bir model – modern Azərbaycan qurmaq ideyasını qapsayır; Cəfər Cabbarlı dramaturgiyasından nəşət edir və müasir Azərbaycanın yerini dünya xəritəsində axtarır... Ən nəhayət, dördüncüsü – ideal Azərbaycan modeli; Hüseyn Cavid dühasında təcəssüm tapır... 1920-1930-cu illərin repressiv mühitində sənətkarlar bayrağımızın yalnız bir rənginə (müasirlik!) sığınmışkən, Hüseyn Cavid "bir kərə yüksələn üçrəngli bayrağ"ı yazmaqda davam edən yeganə dahi idi. İdeal idi, ona görə ki, heç də Azərbaycanın yerini dünya xəritəsində axtarmırdı; Azərbaycan zatən dünya xəritəsində vardı! Gərəkməzdimi indi artıq Şərq-Qərb divanına imzasını qoymuş bu qalib (və qayib) ünvanın namını-nişanını dünya özü axtarsın?! Bu bir İdeal idi, bu gün də tapındığımız ideal..."[1]

Bu məqamda müəllifin gəlib çatdığı nəticə, sonluq məntiqli, düşündürücüdür. Yəni, Prezidentin sərəncamlarının gəlib çatdığı, hədəflədiyi rakurs nəyi təlqin edir? Yalnız onumu ki, barəsində sərəncamlar imzalanan şəxslərin haqlarında yazılsın, ruhları sevinsin, ədəbiyyat yubiley ab-havasının nəşəsinə köklənsin?! Zənnimcə, belə deyildir. Səbəb keçmişə, ədiblərimizə və onların irsinə yenidən qayıdışla bağlıdır həm də. Bu günün dəyərləri kontekstindən təhlilə cəlb etməklə çağın, zamanın tələbləri prizmasından nəzər yetirməkdir. Ən yeni Azərbaycan dövlətinin güclənməsinə xidmət edən nə varsa aşkara çıxarıb, görk edib, meyara çevirib yetişən gəncliyə aşılamaqdır: "Müstəqil Azərbaycanın obrazını ədəbiyyatımız necə görür, təqdim edir, tanıdır? XX əsr klassiklərimiz bizə bu qədər zəngin imkanlar yaratmışkən, çağdaş qələm əhlinin gümanı haralara gedib cıxır? Dövləti düşüncədən uzaq düşmürmü? Düşünürəm ki, Azərbaycan ədiblərinin yubileylərinə dair Prezident sərəncamları artıq içərisində olub yaşadığımız Nəsimi ilində həm də Ədəbiyyatın tarixi missiyası məsələsini bir daha aktual edir, gündəmə gətirir".[2]

İlham Əliyev haqqında son kitablardan biri 2018-ci ildə işıq üzü gördü. "İlham Əliyev – on beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018" adlanan kitabda (buraxılışa məsul: akademik

---

[1] Tehran Əlişanoğlu. "Yubiley saatı və ədəbiyyatın missiyası" (Müxbir üzvün qeydləri) "Ədəbiyyat" qəzeti, 22 fevral, 2019

[2] Yenə orada

Ramiz Mehdiyev, tərtibçi müəlliflər: tarix elmləri doktoru, professor Əli Həsənov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Aslan Aslanov)[1] İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi on beş illik fəaliyyətinin əsas çalarlarının dinamik və dolğun mənzərəsi yaradılmışdır. Onun sayəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, nəhəng transmilli enerji və nəqliyyat layihələrinin uğurla reallaşdırılması, sosial-mədəni, ordu quruculuğu və xarici siyasət sahəsində əldə edilən nailiyyətlər tutarlı dəlillərlə əsaslandırılır. Ölkədə ictimai-siyasi sabitliyin və demokratik təsisatların daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması ilə bağlı görülən işlər şərh olunur, habelə Azərbaycan Cümhuriyyətinin 100 illiyi ilə bağlı ölkə rəhbərinin verdiyi sərəncamın əhəmiyyətindən bəhs edilir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ədəbiyyatda obrazının daha çox gələcəkdə yaradılacağı şübhəsizdir. Çünki hələ bu obraz İlham Əliyevin özünün gördüyü işlərdə, əməllər sırasında açılır, təqdim olunur. Bu gün İlham Əliyev tarix yaradır, sabah isə tarix onun obrazını özündə əbədiləşdirib gələcək nəslin yaddaş ünvanına çevirəcək. Ümummilli lider Heydər Əliyevin onun haqqında söylədiyi gözəl bir fikir var: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".[2]

Bunlar tarix yaradan bir şəxsiyyətin, milli məfkurəli dövlət qurucusunun yalnız inamından hasilə gələn fikirlər deyildi, oğlu İlham Əliyevdə ehtiva olunan dövlətçilik şüuruna, dövləti çağdaş düşüncə və əzmlə idarə etmək, irəli aparmaq gücünə əminliyin diqtəsi idi. Zaman Ulu öndərin müdrik qənaətlərində yanılmadığını sübut etməkdədir.

---

[1] İlham Əliyev – On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018. Bakı, "Zərdabi LTD" MMC, 2018, 184 səh.

[2] Yenə orada, s. 5

## BƏLƏDÇİ


Heydər Əliyev epoxası: dahilik, zaman və müasirlik *(Akademik İsa Həbibbəyli)* ..................................................... 3

İlham Əliyev erası (Akademik İsa Həbibbəyli)........................ 16

Azərbaycan HeydərƏliyevşünaslığı: nailiyyətlər və vəzifələr *(Akademik İsa Həbibbəyli)* ..................................................... 30

Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat *(Müxbir üzv Tehran Əlişanoğlu)* ................................................................ 44

Beynəlmiləl məfkurədən milli ideyaya doğru (xarici ölkələrin publisistikasında Heydər Əliyev obrazı) *(Filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənova)* .............................................. 157

Heydər Əliyevin bədii obrazı dramaturgiya və teatrda *(Filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı)* ...................... 219

Elmi-ədəbi fikirdə Heydər Əliyev dühası *(Filologiya elmləri doktoru Əlizadə Əsgərli)* ........................................................ 231

Ulu öndər yolunun davamı və sabahı – İlham Əliyev *(Filologiya elmləri doktoru Elnarə Akimova)* ......................... 293

"Elm və təhsil" nəşriyyatının direktoru:
professor **Nadir MƏMMƏDLİ**

Nəşriyyat redaktorları: fil.ü.f.d. **Töhfə Talıbova**
**Maral Poladova**
**Mehparə Axundova**

Texniki redaktor: **Rəşid Kərimli**

Korrektor: **Səbinə Məhərrəmova**
Operator: **Turan Qasımova**

Çapa imzalanmış: 4 iyul 2019
Şərti çap vərəqi: 21 Sifariş № .....
Kağız formatı: 70x100 1/16. Tiraj: 300

====================================

Kitab "BEACON SON GROUP" MMC-nin
sifarişi ilə
"Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.

***E-mail:*** elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
***Ünvan:*** Baki, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.